**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**RÖFƏT QULİYEV**

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ TARİXİNDƏ GÖMRÜK İŞİ

## AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK SİSTEMİNİN İNKİŞAFI (1991-2014)

**BAKI – 2015**



*"...Azərbaycanın müstəqilliyini qorumaq və onu inkişaf etdirmək yalnız bütün istiqamətlərdə görülən tədbirlər nəticəsində mümkün ola bilər. Bu istiqamətlərdən biri də gömrük xidməti işinin yüksək səviyyədə təşkilidir..."*

**HEYDƏR ƏLİYEV**

*Ümummilli lider*



*“Azərbaycan Respublikasının gömrük sistemi xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşmış və inkişaf edərək dövlət müstəqilliyinin əsas atributlarından biri olan çoxfunksiyalı sistemə çevrilmişdir”*

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

***“Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 1 fevral 2007-ci il tarixli Sərəncamından***

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına*
*Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

**Elmi redaktor:** **İsmayıl Hacıyev,** Azərbaycan Respublikası Milli Məclisinin üzvü, AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor

**Rəyçilər:** **Amil Məhərrəmov,** Bakı Dövlət Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor

**Cəbi Bəhramov,** AMEA Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, t.ü.f.d.

**Quliyev R.Ə. Azərbaycan dövlətçiliyi tarixində gömrük işi (Azərbaycan Respublikasında gömrük sisteminin inkişafı (1991-2014).** Bakı, Turxan NPB, 2015. – 448 səh.

Kitabda 1991-ci il oktyabrın 18-də müstəqilliyinə qovuşan Azərbaycan Respublikasının dövlət idarəçiliyinin ayrılmaz tərkib hissəsi olan gömrük xidmətinin təşkili və formalaşması mərhələləri araşdırılır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi və tövsiyələri əsasında dövlətinin gömrük siyasətinin iqtisadi, təşkilati və hüquqi mexanizmləri işlənilib-hazırlandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gündəlik qayğısı ilə milli gömrük sistemi daha da təkmilləşdirildi, iqtisadi təhlükəsizliyimizin qorunmasında rolu və əhəmiyyəti daha da artırıldı. Kitabda həmçinin ölkənin iqtisadi-ticarət əlaqələrinin ildən-ilə genişlənməsi kontekstində gömrük nəzarətinin iqtisadi nəticələrinin yüksəlməsi, qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizə işinin səmərəsinin artması, gömrük işi sahəsində qabaqcıl ölkələrin təcrübəsinin öyrənilərək tətbiq edilməsi kimi məsələlər təhlil olunur.

Kitab milli iqtisadiyyatın və gömrük tarixinin tədqiqi və tədrisi ilə məşğul olan elmi işçilər, müəllimlər, həmçinin "İqtisadiyyat" və "Gömrük işi" ixtisası üzrə təhsil alan tələbələr və milli gömrük tariximizi öyrənən oxucular üçün faydalı ola bilər.

ISBN 978-9952-8212-9-1

© Röfət Quliyev, 2015

**Mündəricat**


**GİRİŞ** ........................................................................................ 7

**I FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ GÖMRÜK İDARƏÇİLİYİNİN TƏŞKİLİ** ........................................................................ 17

1.1. Müstəqilliyin ilk illərində xarici iqtisadi-ticarət əlaqələrində gerilik.................................................... 17

1.2. Gömrük quruculuğu sahəsində problemlərin aradan qaldırılması.............................................................. 27

1.3. Naxçıvan Muxtar Respublikasında gömrük işinin inkişafı ........................................................... 54

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK İŞİNİN HÜQUQİ ƏSASLARININ YARADILMASI** ................................................................ 67

2.1. Milli gömrük qanunvericiliyinin formalaşması ..................... 67

2.2. Gömrük işinin hüquqi-normativ sənədlərinin hazırlanmasında Dövlət Gömrük Komitəsinin rolu. ........... 101

**III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİYASƏTİ: ƏSAS PRİORİTETLƏR** ........... 113

3.1. Gömrük sisteminin milli maraqlar əsasında qurulması. Gömrük siyasətinin məqsədləri ........................ 113

3.2. Gömrük nəzarətinin iqtisadi göstəricilərinin artırılması ....................................................................... 127

3.3. Azərbaycanın yaxın və uzaq ölkələrlə iqtisadi-ticarət əlaqələri (1993-2003-cü illər)................................... 159

3.4. Gömrük siyasəti davamlı iqtisadi inkişaf şəraitində ........................................................................ 184

**IV FƏSİL. GÖMRÜK XİDMƏTİNİN HÜQUQ-MÜHAFİZƏ FƏALİYYƏTİ**............................................. 198

4.1. Gömrük xidməti ölkənin iqtisadi təhlükəsizliyinin keşiyində ................................................ 198

4.2. Maddi və mənəvi sərvətlərin mühafizəsi ............................ 221

**V FƏSİL MİLLİ GÖMRÜK SİSTEMİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ** ........................................................232

5.1. Gömrük işinin inkişafında beynəlxalq gömrük əməkdaşlığının əhəmiyyətinin artması ................................ 232

5.2. Gömrük xidmətinin kadr potensialı və maddi-texniki resurslarının gücləndirilməsi. 2007-2011-ci illərdə gömrük sisteminin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi .......................................... 281

**NƏTİCƏ**....................................................................................................311

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**...........................................................................................325

**AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK TARİXİNİN XRONOLOGİYASI** ....................................................... 338

**MİLLİ GÖMRÜK TARİXİ XARİCİ ELMİ MƏTBUATDA** ........................................................................... 371

# GİRİŞ

Azərbaycan Şərqlə Qərb, Şimalla Cənub arasında iqtisadi-ticarət və mədəni əlaqələrin yaranmasında mühüm rol oynayan tarixi İpək yolu üzərində yerləşdiyinə görə qədim zamanlardan bu ərazidə gömrük məntəqələri və digər xidmətlər (sərhəd mühafizəsi, sanitar-karantin, nəqliyyat, rabitə və s.) fəaliyyət göstərmişdir. Bu səbəbdən də, Azərbaycanda gömrük xidmətinin çoxəsrlik zəngin bir tarixi vardır. Gömrük tarix boyu dövlətlərarası ticarət münasibətlərində malların sərhəddən nəqlinə nəzarət funksiyalarını yerinə yetirmişdir. Dövlət idxal-ixrac tariflərinin köməyi ilə daxili istehsalın rəqabət qabiliyyətini qorumuşdur.

XX yüzilliyin son onilliyində xalqımızın müstəqil yaşayıb yaratmaq arzusu sovet imperiyasının süquta uğraması nəticəsində bir daha gerçəkləşdi. Milli gömrük sisteminin yaradılması və fəaliyyəti ilk növbədə ölkəmizin müstəqillik əldə etməsi ilə bağlıdır. 1991-ci il oktyabrın 18-də Müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə dövlət suverenliyimiz hüquqi status aldı. Sovetlər Birliyinin dağılması ilə müstəqillik əldə edən respublikalar iqtisadiyyatlarını milli maraqlar əsasında qurmaq fürsəti əldə etdilər. Dövlət quruculuğu sahəsində təxirəsalınmaz vəzifələrdən biri də səmərəli xarici iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin yaradılması idi. Milli gömrük xidmətinin yaradılması bütün kəskinliyi ilə qarşıda dururdu. Lakin müstəqilliyin ilk illərində baş verən hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzül və inflyasiya görünməmiş miqyas aldı. Əhalinin həyat səviyyəsi aşağı düşdü. Azərbaycanın dövlət suverenliyi təhlükə altında idi. Ölkə daxilindəki qeyri-sabitlik gömrük xidmətinin işinin təşkilinə də mənfi təsir edir, gömrük məntəqələrinin texniki resursları və köhnəlmiş hüquqi-normativ baza günün tələblərinə cavab vermirdi.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra öz iqtisadiyyatını bazar iqtisadiyyatı istiqamətində qurmağa başladı. Ölkə xarici

ticarətdə dövlət inhisarından imtina etdi və idxal-ixrac əməliyyatlarının liberallaşdırılması yolunu seçdi. Hazırda Azərbaycan Respublikasında dünyanın ən mükəmməl resurslara və kadr potensialına malik gömrük sistemi fəaliyyət göstərir. Fəxrlə qeyd etmək olar ki, bu sistem müasir Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin gərgin əməyi və qayğısı ilə yaradılmışdır.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli gömrük xidmətinin qabaqcıl ənənələrinin qorunub saxlanılması və daha da təkmilləşdirilməsini daim diqqət mərkəzində saxlayır. Neft strategiyasının uğurla davam etdirilməsi, Böyük İpək Yolunun bərpası, ölkəyə güclü investisiya axını kimi amillər gömrük xidmətinin fəaliyyət dairəsini daha da genişləndirmişdir.

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar ölkənin güclənməsi, daha da inkişaf etməsi üçün müstəsna dərəcədə əhəmiyyət kəsb edir, Son dərəcə əlverişli geopolitik məkanda yerləşən ölkəmizdə müxtəlif güc mərkəzlərinin maraqları toqquşur. Ölkənin milli maraqlarının qorunması isə vacib şərtlərdən biridir. Bunun üçün Azərbaycana güclü gömrük xidməti lazımdır. Dövlətin gömrük siyasətinin əsasını gömrük işi, onun qanunları, inkişaf qanunauyğunluqları və meylləri təşkil edir ki, bütün bunlar daxili bazarda malların reallaşdırılması zamanı insanların ünsiyyətində təzahür edir. Gömrük işi hər bir dövlətin iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsidir. Dövlətlər və xalqlar arasında münasibətlər həm iqtisadi, həm də siyasi inkişafa təsir edir. Gömrük nəzarətinin tarixi, o cümlədən gömrük rüsum və vergilərini həcmini müəyyən edən gömrük tariflərinin tarixi dövlətin yaranması və inkişaf mərhələləri ilə bilavasitə bağlıdır. Məlumdur ki, dünya gömrük işi tarixi iki inkişaf istiqaməti ilə bağlı olmuşdur: *proteksionizm və fritrederçilik. Proteksionizm* dövlət siyasəti olmaqla ölkənin iqtisadi maraqlarını mühafizə edir. *Fritrederçilik* isə azad ticarətə meydan verməklə müəyyən şərtlər daxilində bazarın tələbatını ödəmək üçün əmtəə dövriyyəsini artırmaqdır. Lakin tarixi təcrübə göstərir ki, azad ticarət qaydalarının tətbiqi zəif inkişaf edən ölkələri iqtisadi cəhətdən geri sala bilər. Belə bir şəraitdə ölkənin milli maraqları gömrük siyasətində manevr edərək proteksionizmə üstünlük verilməsini tələb edir. Bir sözlə, yeni tarixi şəraitdə Azərbaycan

Respublikasının gömrük siyasətinin iqtisadi təhlükəsizliyin qorunmasına istiqamətlənmişdir.

Tarixin müxtəlif dövrlərində Azərbaycandan digər ölkələrə aparılan yüklərdən toplanan rüsum və vergilər əsas gəlir mənbələrindən biri idi. Zaman keçdikcə gömrük işi həm hüquqi, həm də xidmətin təşkili baxımdan təkmilləşir, tabeçilik və idarəçilik strukturundan asılı olaraq inkişaf edirdi. Azərbaycanın qonşu dövlətlərlə gömrük münasibətlərinin inkişafına bir çox subyektiv amillər təsir etsə də, qədim dövr və orta əsrlərdə, tarixin yeni və ən yeni dövr mərhələsində gömrük münasibətləri əsasən cəmiyyətin iqtisadi-siyasi tələblərinə uyğun inkişaf etmişdir. İyirminci yüzillikdə isə bu münasibətlər daha əhəmiyyətli xarakter daşımış və gömrük işi sahəsində geniş hüquqi-normativ bazanın yaranmasına gətirib çıxarmışdır. Keçmişdə olduğu kimi, indi də xarici ticarətin inkişafı beynəlxalq əmtəə mübadiləsi və beynəlxalq gömrük münasibətlərinin daha da təkmilləşdirilməsinə səbəb olur. Çünki iqtisadiyyat yalnız xalqlar və dövlətlərin qarşılıqlı maraqlarını nəzərə almaqla inkişaf edə bilər.

Müstəqillik dövründə xarici ticarət əlaqələrinə gömrük nəzarətinin həyata keçirilməsi və gömrük sərhədlərinin mühafizəsi problemi Azərbaycan Respublikası üçün tamamilə yeni bir vəzifə idi. Belə ki, SSRİ dövründə Azərbaycanın və ittifaqa daxil olan digər respublikaların xarici aləmə və ümumdünya bazarına çıxışı xarici ticarət üzərində hökm sürən dövlət inhisarı "pərdəsi" ilə bağlanmışdı. SSRİ-nin tərkibində olduğu illər ərzində respublikamız demək olar ki, müstəqil xarici iqtisadi fəaliyyət göstərməmişdi. Nisbi qapalılıq vəziyyəti xarici bazarın tələbatının öyrənilməsinə, ölkə iqtisadiyyatının rəqabət qabiliyyəti yüksək olan malların istehsalı və ixracının artımına süni əngəl yaradırdı. Məhz buna görə də,

1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan Respublikası bazar iqtisadiyyatı şəraitində zəruri təcrübəsi yox idi, eyni zamanda xarici və daxili bazarda da fəal rəqabətə hazır deyildi. Digər tərəfdən, müstəqillik dövrünün ilk illərində siyasi hakimiyyətin tez-tez dəyişməsi, Ermənistanla müharibənin mənfi sosial və iqtisadi nəticələri, keçmiş sovet respublikalar arasında formalaşan ticarət-iqtisadi əlaqələr sisteminin dağılmasından əmələ gələn durğunluq halları vəziyyəti daha mürəkkəbləşdirmişdi. Bütün bunlarla bərabər, zəngin mineral ehtiyatlara malik Azərbaycan dünyanın aparıcı dövlətlərinin, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya,

Yaponiya, Çin, eyni zamanda qonşu dövlətlər – Rusiya, Türkiyə və İranın diqqətini özünə cəlb edirdi. Azərbaycanın təbii sərvətlərindən gəlir əldə etmək cəhdi onsuz da Xəzər regionunda əzəli rəqib olan bu dövlətlərin və onları təmsil edən transmilli şirkətlərin maraqlarının toqquşmasına gətirib çıxarmışdı.

Tarixdən məlumdur ki, heç bir dövlət özünün iqtisadi suverenliyi və iqtisadi təhlükəsizliyi təmin etmədən mövcud ola bilməz. Buna görə də, hər bir müstəqil dövlət öz milli qanunvericiliyində gömrük işinin təşkilinə mühüm əhəmiyyət verir. Azərbaycan Respublikası da bu mənada istisna təşkil etmir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dövlət quruculuğu sahəsində təxirəsalınmaz vəzifələrdən biri də ölkənin iqtisadi maraqlarının və mənafelərinin qorunması, səmərəli xarici-iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin yaradılması, sərhədlərin iqtisadi təhlükəsizliyinin təmin edilməsi idi.

Qısa zaman kəsiyində ölkənin milli gömrük xidmətinin yaradılması bütün kəskinliyi ilə qarşıda dururdu. Belə bir şəraitdə, Azərbaycanın dövlət suverenliyinin mühüm atributlarından biri olan Dövlət Gömrük Komitəsi 1992-ci il yanvarın 30-da yaradıldı. Lakin o zamanın mürəkkəb ictimai-siyasi vəziyyət və buraxılan səhvlər bir müddət gömrük orqanlarının sağlam əsaslar üzərində qurulmasına imkan vermədi. Gömrük sistemində səriştəsiz rəhbərlik, rüşvətxorluq və korrupsiya faktları baş alıb gedirdi. Məhz bu səbəblərə görə, Gömrük Komitəsi bir müddət respublikanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi kimi mühüm vəzifənin öhdəsindən gələ bilmədi. Azərbaycanın gömrük xidmətinin tarixinin doğru-düzgün araşdırılması müxtəlif inkişaf mərhələlərində müasir Azərbaycan cəmiyyətinin bir sıra nəzəri və praktik problemlərini nəzərə almağı tələb edirdi. Xarici iqtisadi fəaliyyət üzərində onilliklər boyu sürən dövlət inhisarının aradan qalxması ilə dövlət quruculuğu işində gömrük işinin rolu və əhəmiyyəti mütləq nəzərə alınmalı idi.

Milli gömrük siyasətinin işlənilib hazırlanması XX yüzilliyin 90-cı illərindən başlanan radikal iqtisadi islahatlardan, o cümlədən inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçidin təmin edilməsindən, iqtisadiyyatın bütün sahələrində köklü dəyişikliklərin həyata keçirilməsindən birbaşa asılı idi. Tarixi təcrübə sübut edir ki, heç bir dövlət iqtisadi təhlükəsizliyi və suverenliyini təmin etmədən mövcud ola bilməz. Dövlətin

iqtisadi fəaliyyətinin mühüm tənzimləyicisi, dövlət büdcəsinin formalaşmasının aləti və iqtisadi maraqların müdafiəçisi kimi gömrük siyasətinin əhəmiyyəti cəmiyyətdə yüksək qiymətləndirilir. Gömrük işi Azərbaycan dövlətinin iqtisadi inkişafının və xarici ticarət fəaliyyətinin əsas elementi olaraq qalır və qalacaqdır. Təcrübə göstərir ki, gömrük sistemi bir çox cəhətdən ictimai rəyə söykənməklə inkişaf edir. Cəmiyyətin bütün sosial təbəqələri ölkənin iqtisadi təhlükəsizliyinin qorunmasında eyni dərəcədə maraqlıdır. Bütün bunlar Azərbaycan dövlətinin gömrük işi sahəsində topladığı tarixi təcrübənin elmi cəhətdən hərtərəfli araşdırılmasını zəruri edir.

Azərbaycan Respublikasında milli gömrük sisteminin təşəkkülü və formalaşması, gömrük işinin məzmunu və mahiyyəti ölkənin sosial-iqtisadi inkişafının 3 əsas mərhələsi ilə sıx bağlı olmuşdur:

*Birinci mərhələ* – 1991-1993-cü illər – ölkəni bürüyən vətəndaş qarşıdurmalarının və separatçılıq meyllərin gücləndiyi, iqtisadi xaos və tənəzzülün, parçalanıb dağılmaq, məhv olmaq həddində olduğu dövr. Azərbaycan Respublikasını siyasi-iqtisadi qeyri-sabitlik bürümüş, Ermənistanın silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, etnik təmizləmə nəticəsində 1 milyondan çox azərbaycanlının yaşayışı acınacaqlı vəziyyətə düşmüşdü. Keçmiş müttəfiq respublikalar arasında onilliklər ərzində formalaşmış qarşılıqlı mübadilənin birdən-birə kəsilməsi, sürətlə artan inflyasiya və qiymətlərin sıçrayışlı yüksəlişi baş verdi. Sovet imperiyası dağıldıqdan sonra Azərbaycan da daxil olmaqla hər bir müstəqil respublika özünün xarici iqtisadi-ticarət fəaliyyətinin əsas istiqamətlərini, o cümlədən, gömrük, maliyyə-valyuta siyasətini işləyib hazırlamağa başladı. 1992-ci ildə Azərbaycan Respublikası da öz milli valyutasını (manat) dövriyyəyə buraxdı. Milli Bank manatın Rusiya rubluna nisbətini və rəsmi "bazar məzənnəsi"ni, o cümlədən, müəssisələr üçün "kommersiya məzənnəsi"ni müəyyənləşdirdi.

Ölkənin xarici iqtisadi əlaqələrin genişlənməsi idxal olunan məhsulların həcmini və çeşidini xeyli artırdı. Bu proses milli sənayenin inkişafına mənfi təsirini göstərdi. Digər keçmiş sovet respublikaları kimi Azərbaycan da bu problemlə üzləşdi. Ümumi keçid dövründə bütövlükdə cəmiyyət həyatının qeyri-sabitliyi müstəvisində təsərrüfatın müxtəlif sahələrinin ciddi tənəzzülü, ölkənin ümumi daxili məhsulunun (ÜDM) getdikcə azalması, istehsal-xidmət müəssisələri və obyektlərinin fəaliyyətinin tədricən zəiflə-

məsi, hətta bir çox hallarda tamamilə dayanması, işsizliyin artması, inflyasiya proseslərinin güclənməsi, əhalinin yaşayış səviyyəsi göstəricilərinin sürətlə aşağı düşməsi ilə səciyyələndi. Milli valyuta tezliklə qiymətdən düşdü. Xarici ticarət dövriyyəsinin həcmi 42 faiz azaldı, ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu tamam dayandı. Gömrük xidməti qarşısında duran vəzifələri həyata keçirmək iqtidarında deyildi.

*İkinci mərhələ* – 1994-1996-cı illər – gərgin iqtisadi islahatların aparıldığı, iqtisadi inkişaf üçün ilkin şərtlər yaradıldığı, islahatların, onlara hüquqi baza yaradılmasına başlanılması dövrü oldu. Bu mərhələdə ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti ilə böhrandan çıxış yolları müəyyən edildi. Sosial-iqtisadi inkişafın strateji xətti hazırlandı. Ölkədə sosial-siyasi sabitlik, vahid komandanlığa tabe olan ordu yaradıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi və bu sənəddə demokratik dəyərlərə əsaslanan azad və liberal bazar iqtisadiyyatının qurulmasının legitimliyi təsdiq edildi. Əsas Qanunla xüsusi mülkiyyətin, azad sahibkarlığın, dünya iqtisadiyyatına inteqrasiyanın hüquqi əsasları təsbit edildi. Ən zəruri islahatlar aparılaraq respublikanın sosial-iqtisadi inkişafına və iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasına başlanıldı. İqtisadi tənəzzül dayandırıldı, iqtisadi inkişafa doğru meyllər gücləndi. Dövlət hakimiyyətinin əsas qolları olan qanunverici, icra və məhkəmə hakimiyyətlərinin hər birinin öz funksiyalarını həyata keçirmələri, demokratik prinsiplərin formalaşması və reallaşması üçün əlverişli şərait yaradıldı. Azərbaycanın iqtisadiyyatına külli miqdarda xarici investisiya qoyuluşları sürətlə artmağa başladı. Milli gömrük xidmətinin təşkilati cəhətdən formalaşdırılması üçün ilk addımlar atıldı.

1991-1993-cü illərdə respublikada hökm sürən qeyri sabit vəziyyətə dövlət quruculuğu sahəsində böyük təcrübəyə malik Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə son qoyuldu. Heydər Əliyevin rəhbərliyi altında dövlət həyatının bütün sahələrində geniş miqyaslı islahatlar həyata keçirildi. Belə bir vaxtda, 1995-ci ilin yanvarında keçirilən müşavirədə Prezident Heydər Əliyev gömrük orqanlarının fəaliyyətini geniş müzakirəyə çıxardı. Heydər Əliyev müşavirədəki proqram xarakterli nitqində verdiyi tövsiyə və göstərişlər milli gömrük xidmətinin inkişafının əsas

prinsiplərini və istiqamətlərini müəyyən etdi.

1995-ci ildən başlayaraq gömrük xidmətində aparılan kadr və struktur islahatları və məqsədyönlü tədbirlər öz bəhrəsini verdi. Qısa müddət ərzində gömrük sistemində yaranmış böhranlı vəziyyət aradan qaldırıldı, ölkənin vahid gömrük siyasətinin iqtisadi, təşkilati-texniki və hüquqi mexanizminin əsasları yaradıldı. Gömrük xidmətində yüksək nizam-intizam, peşəkarlıq mühiti formalaşdı. Hər bir gömrük işçisinin öz xalqına və peşəsinə sadiqliyi, qanunçuluğa sözsüz riayət etməsi kimi prinsiplər əsas meyara çevrildi.

– 1997-2002-ci illəri əhatə edən *üçüncü mərhələ* – əslində iqtisadi islahatlar və onun hüquqi bazasının yaradılmasında ən gərgin dövrlərdən biridir. İqtisadi inkişafın bu tarixi mərhələsində Azərbaycanda kiçik və orta sahibkarlığa dövlət yardımı Proqramı (1997-2000-ci illər), Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər), Azərbaycan Respublikasında aqrar bölmənin Dövlət Proqramı (2002-2006-cı illər), Azərbaycan Respublikasında turizmin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər) və s. qəbul edildi. İqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinin baş verməsinə, inflyasiyanın və büdcə kəsirinin enməsinə səbəb oldu. 1996-cı ildən başlayaraq, 2003-cü ilə qədər inflyasiyanın səviyyəsi 1-3 faiz, büdcə kəsirinin ÜDM-yə nisbəti isə cəmi 1-2 faiz təşkil etmişdi. Beləliklə ölkəni dərin iqtisadi böhrandan xilas etmək mümkün oldu. 1996-cı ildə ÜDM-nin artımı 1,3 faiz, 1998-2002-ci illərdə isə orta hesabla 10 faiz olmuşdu.

2003-cü ildən başlayan *dördüncü mərhələdə* Azərbaycanın iqtisadi inkişaf strategiyasının reallaşmasında keyfiyyətcə yeni bir mərhələnin - İlham Əliyev mərhələsinin başlanğıcı qoyuldu. 2003-cü il Azərbaycanda inkişaf strategiyasının həyata keçirilməsində yeni dönüş mərhələsi kimi qiymətləndirilir [63, 7].

Bu mərhələnin əsas xüsusiyyətləri Azərbaycanın davamlı iqtisadi inkişafı, xarici maliyyə mənbələrindən asılılığının aradan qaldırılması, Azərbaycanın xarici ölkələrə investisiya qoyan ölkəyə çevrilməsi, dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisad inkişafın təmin edilməsindən ibarətdir. 2003-cü ildə Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının reallaşmasında keyfiyyətcə yeni bir mərhələnin – İlham Əliyev mərhələsinin başlanğıcı qoyuldu. Bu mərhələnin əsas xüsusiyyətləri Azərbaycanın davamlı

iqtisadi inkişafı, xarici maliyyə mənbələrindən asılılığının aradan qaldırılması, Azərbaycanın xarici ölkələrə investisiya qoyan ölkəyə çevrilməsi, dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisad inkişafın təmin edilməsindən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyən edildi.

Ölkənin malik olduğu iqtisadi potensialdan kompleks şəkildə səmərəli istifadə edilməsi, o cümlədən qeyri-neft sektorunun inkişafı, regionların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılması, yerli sahibkarlığın inkişafı, yoxsulluğun azaldılması prioritet məsələlər oldu. Prezident İlham Əliyev uzaqgörənliklə gələcəyə hesablanmış daxili və xarici siyasətinin tərkib hissəsi olan iqtisadiyyatın inkişaf etdirilməsi, işsizliyin aradan qaldırılması, ordunun gücləndirilməsi, sosial təminatın artırılması, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artırılması strateji və milli maraqlarımızın beynəlxalq miqyasda və regionda qorunmasını təmin etdi. İlham Əliyev prezident seçildiyi gündən müstəqil daxili və xarici siyasət yeritməyin açarı olan iqtisadi inkişaf strategiyasının reallaşmasına böyük diqqət verdi. İlham Əliyev Heydər Əliyev siyasətinin yalnız uğurlu davamçısı deyil, eyni zamanda bu siyasətinin yeni geosiyasi şəraitdə reallaşmasının həmmüəllifi oldu. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ərsəyə gəlməsi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və digər qlobal layihələrin həyata keçirilməsi buna sübut ola bilər.

Prezident İlham Əliyevin həyata keçirdiyi struktur və idarəetmə islahatları, regionların, qeyri-neft sektorunun, informasiya-kommunikasiya texnologiyalarının, istehsal, sosial infrastruktur sahələrinin, turizmin, nəqliyyat dəhlizlərinin və s. inkişafı haqqında proqramları dinamik inkişafın uzunmüddətli və sabit artımına yeni impulslar gətirdi. İlham Əliyev əvvəlki dövrlərdən fərqli olaraq, iqtisadiyyatın müxtəlif sahələrinin paralel inkişafına nail olmaq üçün tədbirlər gördü. Regionların, qeyri-neft sektorunun, istehsal və sosial infrastruktur sahələrinin inkişafına maddi və maliyyə təminatları yaradıldı. Müxtəlif sosial-iqtisadi sahələrin inkişafına dair 40-dan çox Dövlət Proqramlarının maliyyə təminatını yaratmaq mümkün oldu. Təkcə Bakıdan Rusiya Federasiyasının sərhədinə kimi birinci kateqoriyalı yolun çəkilişinə bir milyard dollara yaxın vəsait sərf edildi.

İlham Əliyev iqtisadi inkişaf strategiyasının reallaşmasına yeni sosial-siyasi və iqtisadi meyllər, fəaliyyət qaydaları, idarəçilik prinsipləri gətirdi. Azərbaycan Respublikasının investisiya imkanlarının yuxarı olması onun iqtisadi artımında əsas meyllərdən biri oldu. ÜDM-nin artım tempində respublikamız təkcə MDB üzvü dövlətləri sırasında deyil, dünyada bu göstərici üzrə liderlik etməyə başladı. İlham Əliyevin prezidentliyinin ilk beş ilində ÜDM istehsalı 3,1 mlrd. manatdan 31,5 mlrd. manat səviyyəsinə yüksəldi. Dövlət büdcəsinin gəlirləri 2002-ci ildəki 931,8 mln. Manatdan 2008-ci ildə 10,5 mlrd. manata çatdı, iqtisadiyyatın qeyri-dövlət bölməsi 65 faizdən 84 faizə, xarici ticarət dövriyyəsinin artımı 4,1 dəfə, ixrac isə 6,9 dəfə artmış, valyuta ehtiyatları 4-5 mln. ABŞ dollarından 14 mlrd. ABŞ dollarına qədər yüksəldi. 2012-ci il müstəqillik illərində xarici sərmayəçilərin ölkəmizdə ən yüksək fəallığı ilə xarakterizə olundu. Ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların həcmi əvvəlki ilə nisbətən 18,9 faiz artaraq 10,3 mlrd. ABŞ dollarına çatdı. Ölkə iqtisadiyyatına birbaşa investisiyaların həcmi 5,4 mlrd. dollar təşkil edərək 2011-ci illə müqayisədə 25,4 faiz artmış, onun 4,3 mlrd. dolları və ya 79,7 faizi iqtisadiyyatın neft-qaz sektoruna yönəldildi. Bütövlükdə 2004-2012-ci illər ərzində Azərbaycan iqtisadiyyatına 60,7 mlrd. dollar həcmində xarici sərmayə yönəldildi. Bu gün Cənubi Qafqazın insan resurslarının təxminən 60 faizi, yanacaq-enerji və maliyyə resurslarının 90 faizi, iqtisadi potensialının isə 75-80 faizi Azərbaycanın payına düşür.

2013-cü il oktyabrın 31-də Bakıda keçirilən Üçüncü Beynəlxalq Humanitar Forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iqtisadiyyatın son 10 il ərzində 3,4 dəfə artdığını dünya rekordu kimi qiymətləndirməklə yanaşı xüsusilə qeyd etmişdir ki, ***"... bu islahatların aparılması bir çox hallarda insanların yaşayış səviyyəsinə mənfi təsir göstərə bilərdi. Ancaq bizim siyasətimiz və ciddi sosial siyasət ona gətirib çıxardı ki, sürətli iqtisadi inkişaf, eyni zamanda, insanların rifah halına da müsbət təsir göstərmişdir"*** *("Azərbaycan" qəz ., 1 noyabr, 2013-cü il).*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin müəllifi və reallaşmasının təşəbbüskarından biridir. Avropa ölkələrini Asiya ölkələri ilə birləşdirən bu dəmir yolu xəttinin işə salınması qitələr arası yük və sərnişin daşımalarının artımına mühüm təsiri olacaqdır. Bu nəqliyyat dəhlizinin reallaşması Pekindən

Londona qədər iki qitə arasında əlaqə yaradacaq, onlarca dövlət bu tranzit xətdən istifadə edəcəkdir. Ekspert hesablamalarına görə, 2030-cu ildə dəmir yolu ilə bu istiqamətdə 3 milyon nəfər sərnişin, 30 milyon ton yükün daşınacağı ehtimal edilir. 2014-cü ildə ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya yönəldildi ki, bunun 11 milyardı məhz xarici sərmayə olmuşdur. Bu gün Azərbaycanın nail olduğu iqtisadi müstəqillik, daim artmaqda olan valyuta ehtiyatları, uğurla inkişaf edən xarici iqtisadi-ticarət əlaqələr sosial-iqtisadi tərəqqini daha da sürətləndirir. İqtisadi təhlükəsizliyin qorunmasında müstəqil Azərbaycan Respublikasının gömrük xidmətinin rolu artır. Bütün bunlar Azərbaycan Respublikasının gömrük siyasətinin davamlı olaraq təkmilləşdirilməsi və gömrük işinin müasir tələblər səviyyəsində qurulmasının mühüm əhəmiyyət daşıdığını bir daha təsdiq edir.

Bir sözlə, Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafının həyata keçirilməsində mühüm yer tutan milli gömrük xidməti tarixi hadisələrlə zəngin bir dövr yaşamışdır. Bu baxımdan, təqdim edilən monoqrafiyada gömrük tariximizin elmi cəhətdən araşdırılması Azərbaycan təcrübəsinin gələcək nəsillərə doğru-düzgün çatdırılmasına xidmət edəcəkdir. İnanırıq ki, "Gömrük işi Azərbaycan dövlətçiliyi tarixində (XX-XXI əsrin başlanğıcı)" monoqrafiyası oxucular tərəfindən maraqla qarşılanacaq və bu sahədəki "boşluğu" aradan qaldıracaq.

# I FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ GÖMRÜK İDARƏÇİLİYİNİN TƏŞKİLİ

## *1.1. Müstəqilliyin ilk illərində xarici iqtisadi-ticarət əlaqələrində gerilik*

İyirminci yüzilliyin 80-ci illərinin sonu 90-cı illərin əvvəlində bəşəriyyətin inkişafının obyektiv nəticəsi kimi sosializm sisteminin böhrana uğraması, sovet imperiyasının dağılması yeni müstəqil dövlətlərin yaranmasına səbəb oldu. Bu tarixi imkandan maksimum yararlanmaq üçün hər bir dövlət siyasi müstəqilliyinin qarantı ola biləcək güclü iqtisadiyyat qurmalı idi. Lakin müstəqilliyinin ilk dövrlərini daha ağır yaşayan ölkələr sırasında Azərbaycan Respublikası da var idi. 1970-1980-ci illərdə iqtisadi inkişafın sürətinə görə fərqlənən ölkə iqtisadiyyatı cəmi bir neçə il ərzində ağır böhrana düçar oldu.

Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının qarşısında aşağıdakı vəzifələr dururdu:

– milli dövlətçilik prinsiplərini möhkəmləndirilməsi;

– demokratik, hüquqi və dünyəvi bir cəmiyyət yaradılması;

– ölkənin ərazi bütövlüyünü təmin edilməsi;

– suveren ölkənin həyati tələblərinə cavab verən zəruri-iqtisadi sosial islahatlar, dəyişikliklər aparılması;

– uğurlu və tarazlı daxili-xarici siyasət xəttini düşünülmüş ardıcıl mərhələlər həyata keçirmək;

– əhalinin həyat səviyyəsini tədricən yaxşılaşdırılması;

– beynəlxalq iqtisadi inteqrasiya və qloballaşma proseslərindən ölkənin milli maraqlarına uyğun surətdə faydalanmaq.

Bu vəzifələr siyasi-ictimai, iqtisadi-sosial, mənəvi-əxlaqi sahələri

əhatə etsə də, lakin bütün cəmiyyətlərin, xüsusilə də planlı sosialist sistemindən bazar münasibətlərinə keçən ölkələrin tarixində son nəticə etibarilə iqtisadi amillər, təsərrüfat həyatı ilə bağlı məsələlər həmişə ön sıraya çıxaraq şübhəsiz ümumi tarazlı inkişaf baxımından az əhəmiyyət kəsb etməyən digər problemlərin həlli gedişinə öz təsirinə göstərmişdi.

Azərbaycan Respublikasının iqtisadi həyatında, istehsal, elm və texnika, xarici ticarət və kooperasiya, tikinti, nəqliyyat, sığorta, kredit və digər bank əməliyyatları sahəsində, həmçinin digər müxtəlif xidmətlərin həyata keçirilməsi də daxil olmaqla, xarici iqtisadi əlaqələr mühüm yer tutur. Azərbaycan Respublikası yaxın və uzaq xarici ölkələrlə beynəlxalq əməkdaşlığın dərinləşməsinə özünün xarici siyasətinin əsas istiqamətlərindən biri və mühüm vəzifəsi kimi baxır. Respublikamız inkişaf etməkdə olan digər ölkələr kimi, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq milli iqtisadiyyatın struktur cəhətdən təkmilləşdirilməsi ilə yanaşı, dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya məsələlərini həll etməyə məcbur idi. Bütün bunlar isə ölkənin milli maraqlarına müvafiq olaraq daxili və xarici siyasətinin elmi əsaslara malik strateji xəttinin hazırlanmasını, iqtisadi inkişaf konsepsiyasının müəyyən edilməsini, ölkənin bütün potensialının onların reallaşmasına yönəldilməsini tələb edirdi. Çünki dövlətin beynəlxalq əmək bölgüsündə özünəməxsus yer tutmasının imkan və şərtlərini müəyyənləşdirmək baxımından xarici ticarət əməliyyatlarının kompleks şəkildə araşdırılması mühüm əhəmiyyət daşıyırdı.

Müstəqil ölkə kimi Azərbaycan xarici iqtisadi fəaliyyətə 1991-ci ildən başladı. Bu dövrə qədər bütün iqtisadi siyasət mərkəzi Moskva hökuməti tərəfindən həyata keçirilirdi. Buna görə də bütün sabiq müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda xarici iqtisadi fəaliyyətin uçotu və statistikası aparılmırdı. Yalnız beş ildən bir Dövlət Statistika İdarəsi tərəfindən sahələrarası balans hazırlanırdı ki, burada da Azərbaycandan çıxarılan və gətirilən malların göstəriciləri verilirdi. Azərbaycan SSR-in sonuncu sahələrarası balansı 1987-ci ildə hazırlanmışdı. Həmin ildən etibarən Beynəlxalq Valyuta Fondu (BVF) nəşriyyatı tərəfindən hər il Azərbaycan Respublikasının tədiyyə balansı dərc olunurdu. Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının tədiyyə balansının hazırlanması haqqında" 1994-cü il 9 iyun 1994-cü il tarixli 225 nömrəli Qərarından sonra tədiyyə balansını Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin, bank

statistikasının və digər nazirlik və təşkilatların məlumatlarına əsasən Azərbaycan Respublikasının Milli Bankı işləyib hazırlayırdı [44, 1994, 10 iyun; 45, 319-320] .

1990-cı ildə keçmiş SSRİ-nin tərkibinə daxil olan müttəfiq respublikalarda istehsal edilən məhsulun 21 faizi mübadilə edilirdi. Bu göstərici Rusiyada 18, Qazaxıstanda 39,9, Qırğızıstanda 50,2, Özbəkistanda 43,2, Tacikistanda 41,8, Türkmənistanda 50,7, Azərbaycanda 52,1 faiz səviyyəsində idi. Müasir şəraitdə bazar iqtisadiyyatı və ticarət münasibətlərinin liberallaşdırılması prizmasından yanaşdıqda aydın olur ki, sovet dövründə respublikalar arasında süni surətdə yaradılmış əmək bölgüsü sxemi digər göstəricilər baxımından da səmərəli olmamışdır [3,12].

Hesablamalara görə, 1991-ci ildə SSRİ-nin süqutundan sonra postsovet məkanı ilə iqtisadi əlaqələrin tamamilə dayanması şəraitində Rusiya istehsal səviyyəsinin 64,5, Azərbaycan - 31, Qazaxıstan - 28,1, Ukrayna isə yalnız 14,8 faizini qoruyub saxlaya bilərdi. Bir sıra respublikalarda, o cümlədən Moldova və Ermənistanda iqtisadiyyat tamamilə iflas etmiş olardı [141, 14].

SSRİ dağıldıqdan sonra müstəqillik əldə edən respublikalar xarici iqtisadi-ticarət fəaliyyətinin əsas istiqamətlərini, o cümlədən, gömrük, maliyyə-valyuta siyasətini formalaşdırmağa başladı. Azərbaycan Respublikasının beynəlxalq iqtisadi münasibətlər sistemində yeri və rolunun ümummilli mənafelərə uyğunlaşdırılması, ilk növbədə, milli dövlətçiliyin möhkəmləndirilməsi, siyasi və milli müstəqilliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığının təminatı kimi fundamental məsələlər həyata keçirilməli idi. Təbii ki, bu zaman respublikamız dünya birliyinə daxil olan ölkələrlə ikitərəfli iqtisadi əlaqələr qurmalı, tərəfdaş ölkələr və beynəlxalq təşkilatlarla bərabərhüquqlu əsasda əməkdaşlıq etməli idi. 1992-ci ildə Azərbaycan Respublikası da öz milli valyutasını (manat) dövriyyəyə buraxdı. Milli Bank manatın Rusiya rubluna nisbətini və rəsmi "bazar" məzənnəsini, o cümlədən, müəssisələr üçün "kommersiya məzənnəsini" müəyyənləşdirdi. Xarici iqtisadi əlaqələrin genişlənməsi idxal olunan məhsulların həcmini və çeşidini xeyli artırdı. Bu proses milli sənayenin inkişafına mənfi təsirini göstərdi. Digər keçmiş sovet respublikaları kimi Azərbaycan da bu problemlə üzləşdi. Azərbaycan Respublikasında dövlət quruculuğu prosesi müstəqilliyin ilkin mərhələsində çox çətin və mürəkkəb bir yol keçdi.

Respublikanın ictimai-siyasi həyatında hökm sürən hərc-mərclik, tez-tez baş verən hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzül və inflyasiya meylləri, əhalinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsi Azərbaycanın dövlət suverenliyini təhlükə altına alırdı. Yüksək hakimiyyət kreslolarında əyləşənlərin ekstremist çağırışları, bir-birini inkar edən bəyanatları və qərarları üzərində qurulan "dövlət siyasəti" müstəqilliyin ilk illərində Azərbaycana nəinki heç nə vermədi, əksinə, onun beynəlxalq aləmdə nüfuzuna və maraqlarına ağır zərbələr vurdu. Azərbaycanın dövlət sərhədlərində iqtisadi və gömrük hüquqpozmaları kütləvi xarakter almışdı, strateji materiallar və istehsalat tullantıları qeyri-leqal yolla ölkədən daşınıb aparılırdı.

1991-1992-ci illərdə və 1993-cü ilin birinci yarısında Azərbaycan hökumətinə rəhbərlik edənlərin obyektiv gerçəkliyi və dövlətçilik mənafelərini əks etdirməyən, birtərəfli, qeyri-prinsipial və qeyri-ciddi daxili və xarici siyasət xətti yürütməsi nəticəsində milli maraqlarımıza xidmət edə bilən iqtisadi inkişaf strategiyası hazırlanmadı. Əksinə, iqtisadi geriləmə daha da sürətləndi. 1992-ci ilin sonlarında milli valyuta – manat çox tezliklə qiymətdən düşməyə başladı və 1995-ci ildə onun məzənnəsi Rusiya rubluna nisbətən 9 dəfə, ABŞ dollarına nisbətən 245 dəfə aşağı düşmüşdü. Xarici ticarət dövriyyəsinin həcmi 42 faiz azalmışdı [87, 1998, № 2, 67].

Dövlət idarəçiliyinin mühüm bir həlqəsini təşkil edən iqtisadi siyasət ayrı-ayrı strukturlara başçılıq edən məsul vəzifə sahiblərinin korporativ maraqlarına tabe edilmişdi. Hökumətdə və əlaqədar qurumlarda ölkənin iqtisadi siyasət strategiyasının hazırlanmasına marağı və qabiliyyəti olan rəhbər kadrlar və mütəxəssislər yox idi. Əksinə, hakimiyyətdə olan siyasi qüvvələr tərəfindən qonşu dövlətlərə - Rusiyaya, İrana qarşı səsləndirilən məsuliyyətsiz bəyanatlar müstəqil Azərbaycan dövlətinin ali məqsədləri, vəzifələri, prinsipləri və onların reallaşma üsulları haqqında beynəlxalq aləmdə yanlış təsəvvür, rəylər yaradır, respublikamızın sivil dünya dövlətlərindən təcrid olunmasına xidmət edirdi. Azərbaycanın dövlət müstəqilliyinin ilk mərhələsində ölkənin xarici iqtisadi siyasətinin elmi cəhətdən əsaslandırılmaması da səhv qərarların qəbul edilməsinə səbəb oldu.

Bu "islahatlar" nəticəsində 1991-1993-cü illərdə orta illik geriləmə sənayedə 20-24, kənd təsərrüfatında 15-20, tikintiyə kapital qoyuluşunda isə 40 faizə çatmışdı. Ümumi daxili məhsul (ÜDM) istehsalında orta illik tənəzzül 22-24, büdcə kəsirinin ÜDM-yə nisbəti 12-13 faiz təşkil etmişdi.

Ölkədə ərzaq və sənaye malları qiymətlərinin orta illik artımı 14-18 dəfə yüksəlmişdi. Bir sözlə, ölkədə yeridilən naşı büdcə-vergi, pul-kredit, qiymət-tarif siyasəti iqtisadi cəhətdən qeyri-sabit vəziyyətin güclü amilinə çevrilmişdi. Bütün bu amillər SSRİ dağıldıqdan sonra Azərbaycanın yeni, bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə daxil olmasına və beynəlxalq iqtisadi inteqrasiyada fəal iştirak etməsinə əngəl törədirdi. İqtisadi həyat və təsərrüfatçılıq sahəsində mövcud özbaşınalıq sosial-iqtisadi vəziyyətə mənfi təsir göstərməklə bərabər, xarici iqtisadi əlaqələrin düzgün təşkilinə də mane olurdu.

Bir sıra obyektiv və subyektiv amillərin təsiri nəticəsində xarici iqtisadi-ticarət əlaqələrində tarazlıq pozulmuşdu. Ölkənin zorla müharibəyə cəlb edilməsi, hərbi-siyasi vəziyyətin mürəkkəbliyi, ənənəvi satış bazarlarının itirilməsi, ölkələr arası bank əməliyyatlarının aparılmasında çətinliklər xarici iqtisadi əlaqələrin zəifləməsinə gətirib çıxarmışdı. Birinci mərhələdə, Azərbaycanın əvvəlki təsərrüfatçılıq sistemindəki keçmiş ittifaq respublikaları ilə geniş əlaqələri qırıldı. Respublikanın xarici iqtisadi fəaliyyətində yaranan mənfi meylər konkret olaraq aşağıdakılar idi: 1) istehsalın real səviyyəsinin aşağı düşməsi ilə xarici ticarət dövriyyəsinin zəifləməsi; 2) respublikada istehsal olunan məhsulların reallaşdırıldığı ittifaq bazarının itirilməsi və MDB ölkələri ilə ticarət dövriyyəsində ixracın üstünlük təşkil etməsi; 3) yerli məhsulların dünya bazarında rəqabət qabiliyyətinin xeyli aşağı olması və s.

Müstəqil Azərbaycan Respublikasında bazar münasibətləri sisteminə keçidin ilk illərində keçmiş inzibati amirlik sisteminə xas olan məcburi iqtisadi əlaqələrin pozulması, beynəlxalq hüquq normalarına zidd olan "mili separatçılığı" qızışdıran maraqlı qüvvələrin köməyi ilə süni yaradılan Qarabağ probleminin gündəmə gətirilməsi, siyasi-ictimai həyatdakı ziddiyyətli qarşıdurmalar, bəzi dövlətlərin Cənubi Qafqaz bölgəsində bir-biri ilə uyuşmayan mürəkkəb xarakterli mənafeləri, müxtəlif ictimai hərəkat və partiya təşkilatı liderlərinin obyektiv, yaxud subyektiv səbəblərlə bağlı yol verdikləri səhvlər yeni cəmiyyət quruculuğu prosesini xeyli çətinləşdirmişdi.

Düzdür, 1992-1993-cü illərdə həm keçmiş ittifaq respublikaları, həm də başqa xarici ölkələrlə iqtisadi əlaqələr inkişaf edirdi. Lakin bu əlaqələrdə əvvəlki dövrün təsiri hiss olunurdu. Əslində ötən onilliklər ərzində

yaradılmış sənaye potensialı iqtisadi əməkdaşlığın davam və inkişaf etdirilməsində baza rolunu oynaya bilərdi. Məsələn, 1992-ci ildə Azərbaycanla keçmiş ittifaq respublikaları arasında ticarət dövriyyəsinin həcmi 187,2 mlrd. rubl təşkil etmişdi ki, bunun 60 faizindən çoxu ixracın payına düşürdü. Daxili bazar isə xarici təsirlərdən demək olar ki, mühafizə olunmurdu. Məhz bu amillərin təsiri ilə uzaq xariclə ticarət əlaqələri üstünlük təşkil etsə də respublikadan ixrac olunan məhsulların çeşidi çox məhdud idi. Azərbaycan Respublikası xarici bazarda ucuz xammal ixracatçısı mövqeyində idi. Bu dövrdə xarici ticarət əlaqələrini səciyyələndirən bir əlamət də barter sövdələşmələrindən geniş istifadə olunması idi. Milli valyutanın dönərli olmaması səbəbindən bəzi xarici iqtisadi fəaliyyət iştirakçıları dövlətin iqtisadi maraqlarına ziyan vuran sövdələşmələrə gedirdi. İlk dəfə olaraq, belə sövdələşmələr neft və pambığın xammalının satışı üzrə aparılmışdı. İdxal olunan məhsullar içərisində əsas yeri ərzaq məhsulları və dərmanlar tuturdu. İxracın əsasını isə neft məhsulları, pambıq, qara və əlvan metallar və başqa strateji məhsullar təşkil edirdi. Həm də strateji əhəmiyyətli xammal və məhsulların əvəzinə ərzaq məhsullarının alınması heç bir ölkənin təcrübəsində məqbul sayılmırdı [52, 2003, №8, 11; 46, 2003, №3, 40-44].

İqtisadiyyatın transformasiyasının ilkin mərhələsində dünya bazarına inteqrasiya meyllərinin güclənməsi və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması istənilən müəssisəyə dünya bazarına çıxış əldə etmək imkanı versə də, minlərlə müəssisə, təşkilat, firma və şirkətlər bu işin normal əsaslar üzərində təşkili, idarə edilməsi və iqtisadi təhlili sahəsində problemlərlə qarşılaşdı. Külli miqdarda yaradılmış kiçik müəssisələr və səhmdar cəmiyyətlərinin fəaliyyəti dövlət tərəfindən tənzim olunmur və vergilərə cəlb edilmirdi. Bəzi dövlət müəssisələri və kommersiya strukturları tərəfindən strateji xammalların və maliyyə vəsaitinin respublikadan kənara aparılması hallarının çoxalması, xarici iqtisadi əlaqələrdən əldə edilən gəlirlərin bir hissəsinin geri qaytarılmaması iqtisadiyyata dağıdıcı təsir göstərirdi.

Barter müqavilələri bağlanarkən daha çox şəxsi maraqlara üstünlük verilir, respublikadan ixrac edilən sərvətlərin müqabilində bahalı minik avtomobilləri, videotexnika və zinət əşyaları alınıb gətirilirdi. Xaricdən gətirilən kütləvi istehlak malları, habelə humanitar yardımlar möhtəkirlərin əlinə keçir və qat-qat baha qiymətə satılırdı. Böyük miqdarda əmtəə kütləsinin bir qrup şəxslər tərəfindən respublikadan kənara daşınması nəticə-

sində istehlak bazarı zəifləyir, digər tərəfdən isə dəyər məzmunu sıfıra yaxınlaşmaqda olan sovet pulları respublikaya axırdı. Respublikamızın o zaman vahid rubl məkanında olması, habelə MDB və digər qonşu ölkələrdə qiymətlərin sərbəst buraxılması nəticəsində ölkənin özü üçün zəruri olan məhsul və malların kənara axını təhlükəsi yaranmışdı. Gömrük işçilərinin rüşvətxorluqla məşğul olması barədə çoxlu siqnallar alınırdı, demək olar ki, sərhəd buraxılış məntəqələrində xarici ticarət iştirakçılarından rüşvət alınmamış mal buraxılmırdı.

Ölkə daxilində xarici iqtisadi fəaliyyətin düşünülmüş konsepsiya və idarəetmə mexanizmi yaradılmadan xarici ticarətin tələsik liberallaşdırılması əlaqələrdə xaos yaratmış, xoşagəlməz meylləri gücləndirmişdi. Bunun qarşısını almaq məqsədi ilə 1992-ci il ilin aprelində Nazirlər Kabineti *"Respublikanın daxili bazarının iqtisadi müdafiəsi haqqında"* qərar qəbul etdi. Həmin qərara əsasən yalnız neft və qaz kondensatının, təbii və sıxılmış qazın, mühərrik və soba yanacağının, kerosin və benzinin, elektrik və istilik enerjisinin, çörəyin, uşaq qidasının əsas növlərinin, tibbi və təyinatlı məhsulların və dərman ləvazimatının, xidmətlərin əsas növlərinin qiymət və tariflərinin tənzimlənməsi nəzərdə tutulurdu.

Dünya təsərrüfat sisteminin və iqtisadi inteqrasiya prosesinin üstünlüklərindən və imkanlarından istifadə etmək cəhdləri yox dərəcəsində idi. Prezidentin səlahiyyətlərini icra edən İ.Qəmbərov tərəfindən imzalanan *"Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa və sabotaja qarşı mübarizə tədbirləri haqqında"* 1992-ci il 2 iyun tarixli fərman yalnız neqativ faktların sadalandığı arayış təsiri bağışlayırdı: bəzi dövlət müəssisələri və kommersiya strukturları tərəfindən strateji xammalın və maliyyə vəsaitinin nəzarətsiz olaraq respublikadan kənara aparılması hallarının çoxalması, xarici iqtisadi əlaqələrdən əldə edilən gəlirin heç də tam geri qayıtmaması, barter müqaviləsi zamanı ekvivalentliyə əməl edilməməsi, humanitar yardım yolu ilə gətirilən malların möhtəkirlərə, kommersiya mağazalarına gedib çıxması və qat-qat baha satılması və s. [9, 15 iyun 1992, № 11, maddə 420].

1993-cü ildə ixrac mallarının dəyərinin idxaldan üstün olması heç də müsbət qiymətləndirilə bilməzdi. Milli ixrac tamamilə xammaldan, idxal isə əsasən ərzaq mallarından ibarət idi. Valyuta tutumlu malların ixracı sahəsində özbaşınalıq hökm sürürdü. Məsələn, Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasında gön-dəri xammalı ixracının vəziyyəti haqqın-*

*da"* 1994-cü il 23 iyun tarixli 247 nömrəli Qərarında qeyd olunurdu ki, bu növ xammalın ixracının qadağan olunmasına baxmayaraq, əvvəlki illərdə ölkədən kənara aparılmasının qarşısı alınmamışdır. İxracı qadağan olunandan sonra 1992-ci il və 1993-cü ilin yeddi ayı ərzində ölkədən kənara 358114,7 min ABŞ dolları dəyərində 346294 ədəd qoyun-quzu dərisi və 191,5 ton mal-qara gönü göndərilmişdi. Xarici İqtisadi Əlaqələr Nazirliyi bu müddət ərzində gön-dəri xammalının ixracı üçün 42 təşkilata 68 ədəd lisenziya vermişdi. Digər tərəfdən, gön-dəri xammalı təkrar ixrac kimi göstərilərək, gömrük rəsmiləşdirilməsində ciddi nöqsanlara yol verilmişdi [12, 293-294].

Uzaq xarici dövlətlərlə ticarətində İran başlıca yer tuturdu. Lakin digər uzaq xarici dövlətlərlə ticarətdə ölkəmiz mənfi saldoya malik olmuşdur. 1992 və 1993-cü illərdə həmin dövlətlər qrupu üzrə idxal mallarının 26 faizi Türkiyədən daxil olmuşdu. 1993-cü ildə xarici ticarət əməliyyatları əsasən sərt mərkəzləşdirilmiş qaydada aparılsa da, "yumşalma" meylləri də hiss edilməkdə idi. Məsələn, ixracın 60-70 faizini təşkil edən və yalnız tətbiq edilən kvotalar əsasında ixrac edilən strateji malların siyahısına daxil edilən mallar 36-dan 17-yə qədər azaldılmışdı. Bu siyahıya neft, neft kimyası məhsulları, filiz, dəmir, əlvan metallar, alüminium, kağız, tikinti materialları və s. mallar daxil edilmişdi. ixrac edilən mallardan əldə edilən valyuta gəlirlərinin dövlət büdcəsinə köçürülməsini təmin etmək üçün 1993-cü ili noyabrın 1-dən ixrac mallarının dəyərinin öncədən ödənilməsi və ya akkreditasiya qaydası tətbiq edilsə də, 1994-cü ilin aprelindən bu qaydanın tətbiqi dayandırıldı. 1991-1993-cü illərdə Azərbaycanın xarici ticarət əlaqələrinin mövcud vəziyyətini aşağıdakı cədvəldən təhlil etmək mümkündür:

Cədvəl 1.

**1991-1993-cü illərdə Azərbaycanın xarici ticarətinin mal qrupları üzrə strukturu (mln. manatla)**

| İllər | Postsovet respublikalarına | Uzaq xarici ölkələrə | Bütün dövlətlərə (cəmi) |
|---|---|---|---|
| **I. İxrac** | | | |
| **1991-ci il:** | 1146 | 50,7 | 1196,7 |

| | | | |
|---|---|---|---|
| - sənaye malları | 1119 | 45,1 | 1164,1 |
| - kənd təsərrüfatı malları | 27 | 1,4 | 28,4 |
| - kütləvi tələbat malları | - | 4,2 | 4,2 |
| **1992-ci il:** | 10217 | 754,1 | 10971,1 |
| - sənaye malları | 8040 | 711,3 | 8751,3 |
| - kənd təsərrüfatı malları | 1191 | 7,5 | 1198,5 |
| - kütləvi tələbat malları | 987 | 35,3 | 1022,3 |
| **1993-cü il:** | 34197 | 350,6 | 34547,6 |
| - sənaye malları | 26872 | 337,7 | 34547,6 |
| - kənd təsərrüfatı malları | 2976 | 4,4 | 27208,7 |
| - kütləvi tələbat malları | 4351 | 8,5 | 4358,5 |
| ***II. İdxal*** | | | |
| **1991-ci il:** | 884 | 119,3 | 1003,3 |
| - sənaye malları | 875 | 54,2 | 929,2 |
| - kənd təsərrüfatı malları | 8 | 49,5 | 57,5 |
| - kütləvi tələbat malları | 1 | 15,6 | 16,6 |
| **1992-ci il:** | 8503 | 332,5 | 8835,5 |
| - sənaye malları | 7340 | 143,7 | 7483,7 |
| - kənd təsərrüfatı | 567 | 126,3 | 693,3 |
| - kütləvi tələbat malları | 595 | 62,5 | 657,5 |
| **1993-cü il:** | 28264 | 241,0 | 28505,0 |
| - sənaye malları | 22590 | 124,6 | 22714,6 |
| - kənd təsərrüfatı malları | 5032 | 78,5 | 5110,5 |
| - kütləvi tələbat malları | 641 | 38,0 | 679,0 |
| **III. *Ümumi ticarət dövriyyəsi*** | | | |
| **1991-ci il:** | 2030 | 170 | 2200 |
| - sənaye malları | 1994 | 99,3 | 2093,3 |
| - kənd təsərrüfatı malları | 35 | 50,9 | 85,9 |
| - kütləvi tələbat malları | 1 | 19,8 | 20,8 |
| **1992-ci il:** | 18720 | 1086,6 | 19806,6 |
| - sənaye malları | 15380 | 765 | 16145 |
| - kənd təsərrüfatı malları | 1758 | 131,8 | 1889,8 |
| - kütləvi tələbat malları | 1582 | 97,8 | 1679,8 |

| | | | |
|---|---|---|---|
| **1993-cü il:** | 62461 | 591,7 | 63052,6 |
| - sənaye malları | 49462 | 462,3 | 49924,3 |
| - kənd təsərrüfatı malları | 8008 | 82,9 | 8090,9 |
| - kütləvi tələbat malları | 4992 | 46,5 | 5038 |

Cədvəldən göründüyü kimi, Azərbaycanın ümumi ticarət dövriyyəsi 1993-cü ildə 1992-ci ilə nisbətən 3,2 dəfə, 1991-ci ildə isə 28,7 dəfə artmışdı. 1993-cü ildə keçmiş sovet respublikaları ilə ticarət əlaqələrinin həcmi ümumi ticarət dövriyyəsinin 99 faizindən çox olması uzaq xarici dövlətlərlə iqtisadi əlaqələrin hələ zəif olduğunu sübut edirdi.

1993-cü ildə Azərbaycan Respublikasının keçmiş SSRİ-yə daxil olan respublikalarla ticarət əlaqələrində ixracın 50, idxalın 40 faizi Rusiya Federasiyasının payına düşürdü. Qonşu respublika ilə ticarət dövriyyəsində müsbət saldo 5, 2 mlrd. manat təşkil etmişdi. Türkmənistanla ticarət dövriyyəsinin artması əslində türkmən qazının dünya qiyməti ilə idxal edilməsi və Azərbaycandan bu ölkəyə ixracın həmin nisbət əsasında ikitərəfli mübadilə hesabına həyata keçirilməsi idi. Ukrayna ilə iqtisadi əlaqələr bu ölkədə istehsalın azalması və hesablaşmada yaranan problemlərlə əlaqədar olaraq kəskin surətdə azalmışdı. Düzdür, bir il ərzində Azərbaycandan Özbəkistana 685,7 mln. manat, Özbəkistandan Azərbaycana isə 738,5 mln. manat sənaye məhsulları göndərilsə də, iki dövlət arasında 1993-cü il avqustun 17-də Daşkənddə imzalanmış ticarət-iqtisadi əməkdaşlıq prinsipləri haqqında Sazişin tələblərinə uyğun deyildi [27, 1-3].

Azərbaycanın xarici iqtisadi əlaqələrinə aşağıdakı amillər mənfi təsir edirdi:

- qanunverici bazanın qeyri-sabitliyi;
- dövlət qurumlarında hökm sürən cinayətkarlıq və korrupsiya;
- yüksək gömrük rüsumları və gömrük nəzarəti orqanlarının infrastrukturunun geriliyi;
- biznes üzrə tərəfdaşların etibarlı olmamasına görə ixrac üzrə maliyyə vəsaitlərinin vaxtında ödənməməsi;
- dövlətin qeyri-qənaətbəxş və zəif sığorta təminatı;
- mal və xidmət bazarlarının inhisara alınması, xarici bazarlara aid informasiyanın azlığı, milli valyutanın dəyərdən düşməsi.

- ixtisaslı mütəxəssislər və kadr hazırlığının zəif aparılması və s.

Həmin tarixi dönəmdə bir iqtisadi sistemdən digərinə ən az məsrəflə transformasiyanı təmin edən iqtisadi inkişaf strategiyasının işlənilib hazırlanması, idxal-ixrac əməliyyatlarına dövlət nəzarətinin gücləndirilməsi, ölkənin iqtisadi maraqları və mənafelərini qorumağa qabil milli gömrük nəzarəti xidmətinin formalaşdırılması, sərhədlərimizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi taleyüklü vəzifələrdən idi. Bu cür taleyüklü strateji konsepsiyanın hazırlanması və həyata keçirilməsinin məsuliyyət yükünü yalnız hərtərəfli elmi biliklərə, geniş dünyagörüşünə, qətiyyət və cəsarətə malik müdrik şəxsiyyət öz üzərinə götürə bilərdi. Azərbaycanın xarici iqtisadi siyasəti və ticarət fəaliyyətinin formalaşması, prioritet və vəzifələrinin müəyyənləşdirilməsi ümummilli lider Heydər Əliyev adı ilə bağlıdır.

### *1.2. Gömrük quruculuğu sahəsində problemlərin aradan qaldırılması*

Sovetlər Birliyinin dağılması ilə bu ittifaq daxilindəki respublikalar, o cümlədən Azərbaycan Respublikası öz milli iqtisadiyyatını müstəqil və milli mənafelərinə uyğun inkişaf etdirmək fürsəti qazandı. Azərbaycan Respublikasının Sovet İttifaqından iqtisadi ayrılması *"Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında"* 1991-ci il 25 may tarixli Konstitusiya Qanununun ("İqtisadi Müstəqillik haqqında Qanun") qəbul olunması ilə baş vermişdir. *"İqtisadi Müstəqillik haqqında Qanun"*da, Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin müstəqilliyi, torpaq, yerin təki, daxili və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi və hava hövzəsi üzərində Azərbaycan Respublikasının müstəsna mülkiyyəti, xarici iqtisadi əlaqələrinin (dövlət, hüquqi və fiziki şəxslər), bank işinin və pul tədavülünün bütün səviyyələrdə müstəqil surətdə təşkil etmək hüququ və xüsusi mülkiyyət hüququ kimi əsas prinsiplər əks olunmuşdur.

Azərbaycan Respublikasının siyasi müstəqilliyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 1991-ci il 18 oktyabr tarixli Konstitusiya Aktı ("Müstəqillik haqqında Akt") ilə rəsmiləşdirilmişdi. Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası Aktın 4-cü maddəsinə əsasən müstəqillik haqqında müddəalara zidd gəlməyən hissələrində qüvvədə qalırdı. Bundan başqa, bəzi Sovet qanunlarının Azərbaycan

Respublikası ərazisində tətbiq edilməsi *"Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında"* 1992-ci il 28 oktyabr tarixli 359 nömrəli Qanunla tənzimlənirdi. Bu qanunlar Azərbaycan qanunları ilə əvəz edilənədək öz qüvvəsini müvəqqəti olaraq saxlayırdı.

Xarici ticarət əlaqələrinin dövlət inhisarında olduğu sovet dövründən fərqli siyasətin yeridilməsi üçün idarəçiliyin bu sahəsinin hüquqi əsasları yenidən işlənib hazırlanmalı idi. Nəzərə almaq lazımdır ki, müstəqilliyin ilk illərində tənzimləyici təşkilat və qurumların xarici ticarətə ümumi münasibəti hələ də Sovet ittifaqının xarici ticarətin total məhdudlaşdırılmasına əsaslanırdı. Respublikanın qarşısında olduqca mürəkkəb bir vəzifə – naməlum iqtisadi struktura daxil olmaq vəzifəsini həll etmək dururdu. Yeni şəraitdə ciddi çətinliklərlə qarşılaşan Azərbaycan bu sahələrin hər birində müvafiq liberal rejimlər qurmalı, onların effektiv tətbiqi üçün lazımi təşkilatları təsis etməli idi.

Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının *"Keçmiş SSRİ Gömrük Komitəsinin Azərbaycan Gömrük İdarəsinin Azərbaycan Respublikasının tabeliyinə keçirilməsi haqqında"* 1992-ci il 15 yanvar tarixli 60 saylı Qərarı əsasında təşkil olundu. Milli Şura Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını rəhbər tutaraq qərara aldı ki, *"keçmiş SSRİ Gömrük Komitəsinin Azərbaycan Gömrük İdarəsi Azərbaycan Respublikasının tabeliyinə keçirilsin"*. Qərarda Azərbaycan Respublikasının Prezidentinə tövsiyə edilirdi ki, Azərbaycan Respublikasının Gömrük Komitəsinin yaradılması məsələsinə baxsın [9, 1992, 15 fevral, № 3(856), maddə 39].

Bu tövsiyəyə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikası Gömrük Komitəsinin yaradılması haqqında"* 1992-ci il 30 yanvar tarixli 561 nömrəli Fərmanı ilə Gömrük Komitəsi təsis edildi. Azərbaycan Respublikası Gömrük İdarəsinin ixtiyarında olan əsas fondlar və başqa əmlak yeni yaradılan quruma verildi. Fərmana əsasən Gömrük Komitəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Prezidentinə tabe idi [9, 1992, 15 fevral, №3(856), maddə 72].

Gömrük Komitəsinin vəzifə və funksiyaları Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikası Gömrük Komitəsinin təşkili və fəaliyyəti məsələləri haqqında"* 1992-ci il 18 aprel tarixli 688 nömrəli

Fərmanı ilə təsdiq olunmuş Əsasnamədə sadalanmışdır. Əsasnaməyə uyğun olaraq Dövlət Gömrük Komitəsinə mərkəzi gömrük orqanı statusu verildi. Dövlət Gömrük Komitəsinin qarşısında Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi, Azərbaycan Respublikasının iqtisadi mənafelərinin qorunması kimi vəzifələr dururdu.

Həmin dövrdən Bakı gömrükxanası Azərbaycan Respublikası Gömrük Komitəsinin strukturuna daxil edildi. Komitənin 29 may 1992-ci il tarixli əmri ilə Bakı Gömrük İdarəsi yaradıldı. 1992-ci il 2 iyul tarixli 95 saylı əmrlə dəmiryol gömrük postu yaradıldı, idarənin tərkibinə iki yeni şöbə - maliyyə-iqtisad şöbəsi və dəmiryolu gömrük postunda əl yüklərinə və baqaja nəzarət şöbəsi təşkil edildi. 1994-cü ildə Bakı Gömrük İdarəsinin tərkibi belə idi: 1) Rəhbərlik; 2) Gömrük postu; 3) Mühasibat uçotu və nəzarəti şöbəsi; 4) Sərhəddən keçən şəxslərin əl yüklərinə və baqajlarına gömrük nəzarəti şöbəsi; 5) Avtomatlaşdırılmış idarəetmə sistemləri (AİS), gömrük məlumatlarının təhlili, nəzarətin texniki vasitələrindən istifadə, poçt göndərişlərinə nəzarət şöbəsi; 6) Hava və dəniz nəqliyyatında gömrük nəzarəti şöbəsi; 7) İdxal-ixrac, diplomatik, sərgi yüklərinə və avtomaşınlara gömrük nəzarəti şöbəsi; 8) Qaçaqmalçılıqla mübarizə şöbəsi; 9) Gömrük rüsum və yığımı tarifləri şöbəsi.

Bir qədər sonra, Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikası Gömrük Komitəsinin məsələləri"* haqqında 1992-ci il 1 iyun tarixli 301 nömrəli qərarı verildi. Qərara olan əlavədə Gömrük Komitəsinə tabe olan aşağıdakı təşkilatların siyahısı təsdiq edilirdi: Astara, Bakı, Binə, Gəncə, Culfa, Sədərək, Xudafərin gömrükxanaları, elmi-informasiya hesablama mərkəzi, Gömrükxana işçiləri hazırlayan və ixtisasını artıran mərkəz, Mərkəzi Gömrük laboratoriyası və təsərrüfat hesablı xarici iqtisadi "Azərterminalkompleks" birliyi. Gömrük gəlirlərinin, daxil olan gömrük rüsumları və vergilərinin yığılması, uçotu və sistemləşdirilməsi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə həvalə edildi. Komitə gömrük gəlirindən dövlət büdcəsinə ayırma sistemini və formasını Maliyyə Nazirliyi ilə razılaşdırmalı idi.

Gömrük xidmətinin qarşısında ölkənin perspektiv xarici iqtisadi və gömrük siyasətinin işlənib hazırlanmasında fəal iştirak etmək, xarici iqtisadi fəaliyyətə nəzarətin səmərəli təşkilinə nail olmaq kimi mühüm vəzifə qoyulurdu. MDB üzvü ölkələri, İran və Türkiyə ilə sərhədlərdə yeni yaradılan

gömrük orqanları və mövcud olanları genişləndirməkdən ötrü əlavə olaraq 200 ştat vahidi nəzərdə tutulurdu. Gömrük rüsumları və vergiləri, habelə başqa məcburi ödənişlərin yığılması və dövlət büdcəsinə keçirilməsi qaydası Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilməli idi.

Milli gömrük işinin təşkili ilə bağlı iqtisad və hüquq elmi sahəsində araşdırmalar aparılmadığından zəruri tövsiyə və təkliflər hazırlanmırdı. Xarici iqtisadi-ticarət əlaqələrinin düzgün əsaslar üzərində qurulması üçün zəruri konsepsiya yox idi. Məhz buna görə də "Azərbaycan Respublikasında əmtəə mübadiləsi (barter) sövdələşmələrini qaydaya salmaq tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 31 mart tarixli 626 nömrəli Fərmanı və ona aid Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 11 aprel tarixli 673 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnamə az müddət sonra qüvvədən düşmüş hesab edildi.

Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasında gömrük nəzarətinin təmin edilməsi tədbirləri haqqında"* 1992-ci il 4 sentyabr tarixli 167 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının gömrük sərhədi və gömrük ərazisi müəyyən edildi. Fərman ölkəmizin öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə riayət olunmasını təmin etmək və iqtisadi mənafeyinin qorunmasını gücləndirmək məqsədi daşıyırdı. Gömrük Komitəsi 15 gün müddətində bütün gömrük sərhədi boyu gömrükxana və gömrük məntəqələri təşkil etməli, 1992-ci ilin oktyabrın 1-dən başlayaraq, bütün xarici dövlətlər, o cümlədən MDB-yə daxil olan dövlətlərə ixrac olunan yüklərin gömrük yük bəyannaməsi ilə sənədləşdirilməsini təmin etməli idi. Fərmanda, həmçinin bəyan edilirdi ki, gömrük nəzarəti Azərbaycan Respublikasının gömrük sərhədindən yüklərin (mallar və digər əşyaların) keçirilməsi yeni qanunlar qəbul edilənə qədər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə, keçmiş SSRİ-nin gömrük məsələlərinə dair qanunvericiliyinin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan müddəalarına uyğun olaraq həyata keçirilsin [9, 15 sentyabr 1992, № 17(870), maddə 750].

*"Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında"* 1992-ci 28 oktyabr il tarixli 359 nömrəli Qanunu əsasında Azərbaycan Respublikasında keçmiş SSRİ qanunvericiliyi, o cümlədən 1991-ci il 26 mart tarixli SSRİ "Gömrük məcəlləsi" və SSRİ *"Gömrük tarifi haqqında"* Qanunun

tətbiqi bir neçə il ərzində davam etdirildi. *"Gömrük tarifi haqqında"* 1995-ci il 20 iyun tarixli 1064 nömrəli və *"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında"* 1997-ci il 10 iyun tarixli 311-IQ nömrəli Qanunların qəbul edilməsindən sonra keçmiş sovet gömrük qanunlarının tətbiq edilməsi dayandırıldı [24, 1995, №22, maddə 352].

Lakin ölkənin gömrük xidmətinin 1991-1993-cü illərdə müstəqil idarə edilən dövlət qurumu olmasına baxmayaraq, xidmətin funksiyaları faktiki olaraq əvvəlki illərdə olduğu kimi saxlanılmış, idxal-ixrac əməliyyatlarının qaydalarında heç bir dəyişiklik aparılmamışdı. Dövlətin iqtisadi-siyasəti ayrı-ayrı strukturlara başçılıq edən vəzifə sahiblərinin korporativ maraqlarına tabe edilmişdi. Sözsüz ki, bir-birini təkzib edən bəyanat və qərarlar üzərində qurulan "dövlət siyasəti" Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna və maraqlarına ağır zərbələr vururdu. Hakimiyyətdə olan siyasi qüvvələr tərəfindən qonşu dövlətlərə - Rusiyaya və İrana qarşı səsləndirilən məsuliyyətsiz bəyanatlar müstəqil Azərbaycan dövlətinin ali məqsədləri, vəzifələri, prinsipləri və onların reallaşma üsulları haqqında beynəlxalq aləmdə yanlış təsəvvür yaradırdı. Bu "islahatlar" nəticəsində 1991-1993-cü illərdə respublika sənayesində orta illik geriləmə 20-24, kənd təsərrüfatında 15-20, tikintiyə kapital qoyuluşunda isə 40 faizə çatmışdı. Mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitsizliyin başlıca səbəblərindən biri də büdcə-vergi, pul-kredit, qiymət-tarif siyasətinin uğursuzluğu idi [99, 132-133].

Akademik Ramiz Mehdiyev 2001-ci il may ayının 8-də "Azərbaycan 1993. Anarxiyadan sabitliyə" kitabının Gülüstan sarayında keçirilən təqdimat mərasimində məhz bu şəraiti nəzərə alaraq demişdir: *"Qeyd etmək lazımdır ki, müstəqilliyin ilk iki ilində dövlət quruculuğu istiqamətində heç bir əməli iş görülməmiş, əksinə, sovetlər dövründən miras qalmış hakimiyyət strukturları və idarəçilik potensialı getdikcə zəifləmiş, maddi-mənəvi sərvətlər dağıdılmışdır. Bunun səbəbi o dövrdə hakimiyyətdə olan qüvvələrin həm milli-mənəvi, həm siyasi, həm də peşəkarlıq baxımından müstəqil idarəçiliyə hazır olmaması idi"* [102, 108].

Məlum olduğu kimi, keçmiş SSRİ dövründə digər müttəfiq respublikalar kimi Azərbaycanın da müstəqil gömrük xidməti olmamışdır. Bununla yanaşı, ölkə ərazisində SSRİ-yə məxsus gömrük xidməti orqanları (Bakı, Astara və Culfa gömrükxanaları) fəaliyyət göstərir, idxal-ixrac əməliyyatlarına nəzarət isə mərkəzi ittifaq orqanları tərəfindən həyata keçirilirdi.

1992-ci ilin yanvar ayında yaradılan müstəqil gömrük xidməti orqanı bir sıra subyektiv səbəblərə görə ümumdövlət əhəmiyyətli vəzifələrin həyata keçirilməsi prosesindən kənarda qalmışdı. Qısa müddətdə DGK-nın sədri vəzifəsinə təyin edilən bir neçə şəxs: Maqsud Məmmədov (Respublika Prezidentinin 30 yanvar 1992-ci il, 562 saylı fərmanı ilə), Tofiq Kərimov (Respublika Prezidentinin 4 iyun 1992-ci il, 825 saylı fərmanı ilə), İbrahim Vəliyev (Respublika Prezidentinin 5 oktyabr 1992-ci il, 692 saylı fərmanı ilə) və Tahir Əliyev (Respublika Prezidentinin 30 iyul 1993-cü il tarixli 693 saylı fərmanı ilə) onlara tapşırılan məsul vəzifənin öhdəsindən gələ bilmədilər.

Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra özünün sərbəst gömrük siyasətini yürütməyə başlasa da, bir sıra çətinliklər mövcud idi. Birincisi, Azərbaycan Respublikasında ölkənin bütün sərhədlərini əhatə edə bilən gömrük şəbəkəsi yox idi. İkincisi, milli gömrük siyasəti və bu əsasda qanunvericilik bazası işlənilib hazırlanmamışdı. Üçüncüsü, milli gömrük kadrları azlıq təşkil edirdi və bu kadrların hazırlanması üçün baza, tədris işinin təşkili üçün dərsliklər və dərs vəsaitləri yox idi. Elmi ədəbiyyatda mövzu ilə bağlı iqtisadi, hüquqi və tarixi səpkidə araşdırmalar aparılmırdı.

Əslində, keçmiş SSRİ-dən xarici ölkələrlə iqtisadi əlaqələrin düzgün əsaslar üzərində qurulmayan bir sistemi miras qalmışdı. Respublika on illər ərzində ixrac potensialının Moskvadan milli maraqlarımıza tamamilə zidd idarə edilməsindən ziyan çəkmişdi. 1992-ci ildən başlayaraq, Azərbaycan müstəqil xarici iqtisadi-ticarət əlaqələrini əsasən iki istiqamətdə həyata keçirirdi: xarici iqtisadi fəaliyyətin məzmun və forma etibarilə yeni sisteminin yaradılması və keçmiş SSRİ-nin xarici iqtisadi əlaqələrində mənfi tendensiyaların və əngəllərin aradan qaldırılması.

Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra, bir iqtisadi sistemindən digərinə keçidin ən az məsrəflə transformasiyanı təmin edən iqtisadi strategiyanın hazırlanması həyati zərurətə çevrildi. Bu cür taleyüklü strateji xəttin hazırlanmasının məsuliyyət yükünü yalnız hərtərəfli elmi biliklərə, geniş dünyagörüşünə, qətiyyət və cəsarətə malik müdrik şəxsiyyət öz üzərinə götürə bilərdi. Ümummilli lider Heydər Əliyev bu tarixi missiyanı öz üzərinə götürərək ölkənin iqtisadi inkişafını müəyyən edəcək strategiyanın başlıca konturlarını, dünyanın sivil dövlətlərinin inkişaf

təcrübəsində sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuş iqtisadi inkişaf kursunun Azərbaycan reallığına tam uyğunlaşdırılmış adekvat modelini müəyyənləşdirdi. Bu, birinci növbədə azad sahibkarlıq, müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarının inkişafına bərabər şərait yaradan, azad iqtisadi rəqabət mübarizəsinə meydan açan sosial istiqamətli bazar iqtisadiyyatı modelidir. Akademik Ramiz Mehdiyev yazır: "Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı dövlət həyatının ən vacib vəzifəsi hesab edirdi. O öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı normal vəziyyətdə olsun və qarşıya qoyulmuş vəzifələrə cavab versin" [101, 2013, 13 iyul].

Ulu öndər Heydər Əliyev 1993-cü il noyabrın 19-da Prezident sarayında bank-maliyyə, tədiyyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının yaxşılaşdırılması sahəsində vəzifələrə həsr olunmuş ümumrespublika müşavirəsində vəziyyəti dərindən təhlil edərək iqtisadi əlaqələrimizin təşkilində, qurulmasında qüsurlar, səhvlər olduğunu göstərmişdi. Respublikada istehsal olunan bir sıra məhsulların xaricə satılması, əvəzində ölkəmizin ehtiyaclarının təmin olunması üçün lazımi malların əsas məsələlərdən biri idi. Ancaq bu sahədə də qarışıqlıq, qanun pozuntuları vardır. Bəzən ayrı-ayrı qrupların, dairələrin mənafeyi milli maraqlardan üstün tutulurdu. Bütün bunlar ölkədə sosial gərginliyi artırır, həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur, iqtisadi və maliyyə imkanlarını xeyli məhdudlaşdırırdı. Sözsüz ki, xarici iqtisadi fəaliyyətin yenidən qurulması gömrük işi və gömrük qanunvericiliyi sahəsini də əhatə etməli idi [97, 77-85].

Təəssüf ki, 1993-1994-cü illərdə iqtisadi quruculuq, yaradıcılıq işlərinə başlamaq bir müddət mümkün olmadı, başlıca səbəb xaricdən idarə olunan qüvvələr tərəfindən dövlət çevrilişləri, siyasi və iqtisadi həyatda xaos yaratmaq cəhdləri idi. Ulu öndər Heydər Əliyev birinci növbədə vətəndaş müharibəsi həddinə çatmış, insan tələfatı ilə nəticələnən tayfa, əyalət separatçılığı cəhdlərinin qarşısını alan, bütövlüdə ölkədə sosial-siyasi sabitliyi təmin edən tədbirləri görmək zərurəti qarşısında qaldı. Cəbhədə uzunmüddətli atəşkəs əldə edildi. Neft strategiyasının reallaşdırılmasında hər bir müvafiq dövlət orqanının, o cümlədən respublika gömrük orqanlarının yeri və vəzifələri dəqiq müəyyən olundu. Bu vəzifələrin yerinə

yetirilməsi üçün gömrük orqanlarının normativ-hüquqi, təşkilati və praktiki fəaliyyət tədbirləri uğurla həyata keçirildi. Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyətin zəifləməsi ilə yanaşı olaraq, iqtisadi sahədə cinayətkarlıq və qaçaqmalçılıq hallarının miqyası da xeyli artmışdı. Bu hallara qarşı mübarizənin əsas ağırlığı yeni formalaşmaqda olan gömrük orqanlarının üzərinə düşürdü. Lakin müstəqilliyin ilk illərində gömrük xidmətinin qarşısında duran mühüm vəzifələr tələb olunan səviyyədə həyata keçirilmir, əksinə bu sistemdə özbaşınalıq, rüşvətxorluq, qaçaqmalçılıq halları baş alıb gedirdi. Azərbaycan Respublikasının 1993-cü il dövlət büdcəsinin mədaxil hissəsində "gömrükxana vergisi" bəndi üzrə həmin dövrün qiymətləri ilə vur-tut 600 mln. manat (büdcə gəlirlərinin cəmi 1,7 faizi-?) vəsait daxil olması proqnozlaşdırılmışdı.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra sosial-iqtisadi həyatın bütün sahələrində, o cümlədən gömrük sistemində də köklü islahatlar aparıldı. İslahatlar gömrük işinin bütün sahələrini: qanunvericilik bazasının hazırlanmasını, infrastrukturun gücləndirilməsini, gömrük əməkdaşlarının düzgün seçilib yerləşdirilməsini, beynəlxalq təşkilatlarla və digər ölkələrin gömrük orqanları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsini və s. məsələləri əhatə etdi. Gömrük xidmətinin hüquq-mühafizə orqanı kimi ölkənin iqtisadi mənafeyi və təhlükəsizliyinin qorunması, gömrük işi sahəsində cinayətlərə və digər hüquqpozmalara qarşı mübarizəyə başladı.

Gömrük-tarif siyasətini ölkədə gedən ictimai-siyasi proseslərdən və iqtisadi siyasətdən kənarda təsəvvür etmək olmaz. Bu siyasət iqtisadi siyasətin tərkib hissəsidir və gömrük orqanları onun işlənilib hazırlanmasında bilavasitə iştirak edir və bu siyasəti həyata keçirir. Ulu öndər xəbərdarlıq edirdi ki, Azərbaycanın iqtisadiyyatı, maliyyə-kredit vəziyyəti çox ağır haldadır və əgər ciddi tədbirlər, konkret əməli iş görülməsə, ciddi addımlar atılmasa, iqtisadi-sosial böhran dərinləşəcək və bizdən ötrü daha ağır problemlər yaranacaqdır. Heydər Əliyev idxal-ixrac məsələlərini nəzərdə tutaraq deyirdi: *"Mən uzun müddətdir ki, bu barədə düşünürəm... Gömrük Komitəsinin sədrinə suallar verməyim də təsadüfi deyildir. O, mənim suallarımı dərhal tutmadı. Bir də deyirəm, əgər bu fikrim qəbul olunursa, onu həyata keçirərək xaricdən daxil olan malların ola bilər ki, bir qisminə mütləq müəyyən vergilər qoyulsun, bir qismi isə vergilərdən tamamilə azad olunsun. Xahiş edirəm, bu barədə həm Gömrük Komitəsi,*

*həmdə xarici iqtisadi əlaqələr və iqtisadiyyat nazirlikləri təkliflərini hazırlayıb bizə təqdim etsinlər. Maliyyə nazirliyi də bu işlə məşğul olsun.*

*İxrac olunan mallara qoyulan vergilərə baxmaq lazımdır. Ümumiyyətlə isə bizim gömrük siyasətimiz olmalıdır. Əgər Gömrük Komitəsi bacarırsa, gömrük siyasəti haqqında layihə hazırlayıb qısa müddətdə təqdim etsin"* [61, 257, 262].

Müstəqillik dövründə yeni formalaşan xidmətin zəruri hüquqi-normativ bazaya, maddi-texniki resurslara malik və normal nəzarət funksiyaları həyata keçirməyə qabil olması üçün müvafiq işlər görülməli idi. Lakin Dövlət Gömrük Komitəsinin keçmiş rəhbərliyinin səriştəsiz fəaliyyəti nəticəsində bir müddət milli gömrük xidmətinin maddi-texniki və hüquqi-normativ bazasının yaradılması üçün kompleks tədbirlər planı hazırlanmamışdı. Beynəlxalq tələblərə cavab verməyən sovet gömrük qanunvericiliyi və hüquqi-normativ qaydaları nəzarət sistemində hələ də tətbiq olunmaqda idi. Yaranmış vəziyyət öz işini günün tələbləri səviyyəsində qura bilməyən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyinin gücləndirilməsi və gömrük orqanlarında köklü struktur islahatlarının aparılmasını, eyni zamanda maddi-texniki resurslarının yenilənməsini tələb edirdi. Bir sıra subyektiv amillər hesabına gömrük xidmətinin fəaliyyətində nöqsanlar baş alıb gedirdi və bütün bu neqativ hallara son qoymaq vaxtı gəlib çatmışdı. Heydər Əliyev 1993-cü il noyabrın 19-da keçirilən ümumrespublika müşavirəsindəki çıxışında bu problemi nəzərdə tutaraq deyirdi: *"Gömrük idarələrində qanun pozuntuları var, öz vəzifələrindən sui-istifadə edirlər, gömrük işçilərinin rüşvətxorluqla məşğul olması barədə çoxlu siqnal alınır. Rüşvət almamış mal buraxmırlar. Ona görə də biz gərək biz bir tərəfdən gömrük siyasətimizi tənzimləyə, digər tərəfdən elə edək ki, gömrük qanunları günün tələblərinə uyğun olsun, üçüncü tərəfdən isə Gömrük Komitəsinin sədri Tahir Əliyevə tapşırıram ki, əməkdaşlar arasında geniş iş aparsın, onları rüşvətxorluqdan çəkindirsin".* Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, T.Əliyev bu yüksək etimadı nəinki doğrultmadı, əksinə gömrük xidmətində dövlətçiliyimizə ağır zərbə vuran hallar daha da artdı [61, 262].

Gömrük Komitəsinin bir sıra rəhbər işçilərinin qulluq mövqelərindən öz şəxsi maraqları üçün istifadə etmələri nəticəsində, təkcə 1994-cü ildə dövlətə 3 mlrd. 792 mln. manatdan çox (həmin dövrün qiymətləri ilə) ziyan

vurulmuşdu. 1994-cü ildə idxal-ixrac rüsumlarının həcmi 9,5 mlrd. manat, gömrük ödənişləri cəmi 318 min ABŞ dolları təşkil etmişdi. Təəssüf ki, müstəqilliyin ilk illərində gömrük orqanlarının fəaliyyəti belə qeyri-sağlam əsaslar üzərində qurulmuşdu [6, 1995, 19 yanvar; 5, 176-192].

Kənd təsərrüfatı istehsalındakı tənəzzül və durğunluq halları səbəbindən daxili bazarda ərzaq mallarına kəskin olan tələbatı yaranmışdı. Bu vəziyyət idxal edilən ərzaq məhsullarının miqdarının artmasına səbəb olurdu. Yeyinti məhsullarının istehsal həcmində kəskin azalma baş verdi, ölkəyə xaricdən keyfiyyətsiz ərzaq məhsullarının idxalı artdı. Bunu həmin illərin gömrük sənədləri və hesabatlar da təsdiq edir. İnsan orqanizmində müxtəlif fəsadlar yaradan keyfiyyətsiz ərzaq məhsullarının gətirilməsinin qarşısının alınması, normal gömrük ekspertizasının aparılması üçün zəruri texniki avadanlıq və cihazlar yox dərəcəsində idi.

Nazirlər Kabinetinin 1994-cü il 18 fevral tarixli 69 nömrəli qərarı ilə "Gömrük Tarif Şurası"nın Əsasnaməsi təsdiq edildi. Sənədin 1-ci maddəsində göstərilirdi: "Azərbaycan Dövlət Gömrük Komitəsi nəzdində Gömrük tarif Şurası Azərbaycan Respublikasının mənafeyinə uyğun çevik gömrük siyasətinin hazırlanması, gömrük tarifi məsələlərinin tənzimlənməsi, dünya bazar konyunkturasına və daxili iqtisadi vəziyyətə uyğun gömrük rüsumlarının və digər göstəricilərin vaxtlı-vaxtında müəyyən edilməsi və lazım olan hallarda onların dəyişdirilməsinə, habelə idxal və ixrac siyasətində daxili bazarın mənafeyini qoruyan tədbirlərin işlənib hazırlanması məqsədilə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılır". Şuranın qəbul etdiyi qərarların icrasını Gömrük Komitəsi həyata keçirirdi. Gömrük tarif Şurasının əsas funksiyaları aşağıdakılar idi: 1) Azərbaycan Respublikasının mənafeyi baxımından gömrük siyasətini işləyib hazırlamaq; 2) gömrük tariflərinin gömrük işinin beynəlxalq normalarına və prinsiplərinə uyğun müəyyən edilməsi barədə təkliflər vermək; 3) idxal və ixrac siyasətində respublikanın daxili bazarının mənafeyini qoruyan tədbirlər işləyib hazırlamaq; 4) gömrük rüsumlarının həcmini müəyyən etmək, dəyişdirmək və ya ləğv etmək, gömrük imtiyazları və güzəştləri tətbiq etmək, eləcə də, Azərbaycan Respublikası gömrük-tarif nomenklaturunun dəyişdirilməsinə dair təkliflər hazırlayıb Nazirlər Kabinetinə təqdim etmək. Əsasnaməyə görə, Gömrük Tarif Şurasına gömrük siyasətinə və tarif məsələlərinə aid qanun layihələrinin hazırlanmasında

iştirak etmək, gömrük rüsumu tətbiq olunması haqqında məsələ qaldırmaq səlahiyyəti verilirdi [12, 52-54 ].

Azərbaycan Gömrük Təşkilatının gücləndirilməsi gömrük xidmətində struktur islahatlarının aparılması və kadr potensialının yeniləşdirilməsini tələb edirdi. Ulu öndər Heydər Əliyevin gömrük işi ilə bağlı keçirilən 1995-ci ilin yanvar müşavirəsindəki proqram xarakterli nitqində söylədiyi tövsiyə və göstərişlər respublikada gömrük xidmətinin yenidən qurulması və inkişafının əsas istiqamətlərini və prinsiplərini müəyyən etdi. Heydər Əliyev həmin müşavirədəki yekun sözündə demişdi: *"Ona görə də bu müzakirədən çıxarılan əsas nəticə budur ki, biz Azərbaycanda gömrük orqanlarının işini kökündən dəyişdirməliyik, sağlam əsaslar üzərində qurmalıyıq. Həqiqi gömrük orqanları qurulmalıdır. Bu bizim bugünkü dövrümüz və müstəqil Azərbaycanın gələcəyi üçün ən zəruri vəzifələrdən biridir. Elə bir gömrük orqanı yaratmalıyıq ki, o, xarici iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, xarici əlaqələrdə, bütün başqa əlaqələrdə müstəqil Azərbaycanın nüfuzunu təmin etsin..."* [120,1995, 11 yanvar, №7 (1024)].

Ulu öndərin qeyd etdiyi kimi, ilk dəfə idi ki, gömrük xidməti haqqında belə geniş müzakirə aparılırdı [100, 164-181; 147, 164-165; 146, 42-46].

Müstəqillik dövründə Azərbaycan Respublikasının milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərinin nəzərə alındığı və gömrük işi sahəsində bir-birini tamamlayan əsas vəzifələr bunlar idi:

– gömrük sərhədinin tam qurulması və maddi-texniki təchizatı, gömrük sərhədindən keçirilən yüklərin qeydiyyatının təkmilləşdirilməsi;

– gömrük qanunvericiliyi pozuntularının qarşısının alınması, başqa hüquq-mühafizə orqanları ilə birlikdə qaçaqmalçılıq hallarının qarşısının alınması və respublikanın gömrük ərazisi vasitəsilə onların qeyri-qanuni keçirilməsinə yol verilməməsi;

– gömrük ödənişləri texnologiyasının təkmilləşməsi və onların büdcəyə daxil olmasına nəzarət, valyuta nəzarətinin gücləndirilməsi;

– gömrük sənədlərinin beynəlxalq tələblərə uyğunlaşdırılması, gömrük prosedurаlarının sadələşdirilməsi və rəsmiləşdirmə müddətinin qısaldılması, təhvil vermə üsulundan asılı olmayaraq bütün malların gömrük rəsmiləşdirilməsinin təmin olunması, yüklər və yük göndərənlər haqqında ilkin məlumatların əldə edilməsi;

– gömrük nəzarətində müasir texnologiyaların tətbiqi;

– tarifdənkənar tənzimləmə tədbirlərinə nəzarət texnologiyasının təkmilləşdirilməsi, tarif üsulları kompleksində effektivliyin təhlili üzrə təkliflərin hazırlanması;

– boru kəməri nəqliyyatı və elektrik enerjisi ötürücü xətləri ilə keçirilən mallara gömrük nəzarətinin təşkili, əqli mülkiyyət obyektlərinin bir yerdən başqa yerə keçməsinə nəzarətin təşkilati-hüquqi şərtlərinin yaradılması;

– məlumatların düzgünlüyünün və keyfiyyətinin artırılması üzrə işlərin sistemləşdirilməsi və bu əsasda gömrük xidmətinin və onun struktur bölmələrinin işinin təhlili və s.

Heydər Əliyev göstərirdi ki, xarici ölkələrlə mal mübadiləsindən alınan vəsaitin miqdarı nə qədər artıq olarsa, bu, həm maliyyə vəziyyətimizə, həm də ümumən iqtisadiyyatımıza kömək edər: *"Ona görə də gömrük bizdən ötrü böyük vasitədir"* [120, 1995, 11 yanvar, № 7(1024)].

Heydər Əliyev bu strateji vəzifələri həyata keçirmək məqsədi ilə gömrük strukturunun daha da inkişaf etdirilməsi, onun hüquqi və maddi-texniki bazasının möhkəmləndirilməsi, fəaliyyət mexanizminin təkmilləşdirilməsi haqqında bir sıra hüquqi sənədlər imzaladı. Təbii ki, keçmiş SSRİ-nin gömrük qanunvericiliyi əsasında fəaliyyət göstərən, xidməti strukturlarında dövlət mənafeyinin pozulması və korrupsiya hallarının kök saldığı gömrük təşkilatının işində əsaslı dönüş yaradılması tələb olunurdu. Məhz 1995-ci ildən başlayaraq gömrük orqanlarının fəaliyyətində əsaslı dəyişikliklər baş verdi. Heydər Əliyevin gündəlik qayğısı ilə əhatə olunan gömrük sistemi əslində yenidən quruldu. Hər yerdə möhkəm qayda-qanun, ciddi nizam-intizam yaradılması, ədalətin bərqərar edilməsi istiqamətində müsbət addımlar atıldı. Sənədlərin məzmunu və xronoloji çərçivəsi Ümummilli liderin milli gömrük quruculuğu məsələlərinə hərtərəfli diqqət və qayğı göstərdiyini sübut edir.

Heydər Əliyev respublikanın siyasi-iqtisadi həyatında mühüm rol oynayan tədbirlərdəki çıxış və nitqlərində digər dövlət strukturları ilə yanaşı ölkənin iqtisadi inkişafında gömrük orqanlarının xüsusi yeri olduğunu dəfələrlə qeyd etmiş, ölkənin xarici iqtisadi əlaqələrinin möhkəmlənməsi və idxal-ixrac əməliyyatlarının tənzimlənməsində gömrük xidmətinin üzərinə düşən vəzifələrin həlli yollarını göstərmişdir. O, Azərbaycan gömrük orqan-

larının fəaliyyətini son dərəcədə dəqiqliklə təhlil edərək, bu sistemdə yaranmış problemlərin həllinə ciddi tələbkarlıq və yüksək nizam-intizam, peşəkarlıq mühitinin formalaşdırılması, kadrlarla işin yenidən qurulması, gömrük əməkdaşları tərəfindən qanunçuluğa sözsüz riayət edilməsində, hər bir gömrük işçisinin öz peşəsinə və xalqına sadiqliyi və s. prinsipləri əsas meyara kimi qəbul etdiyini bildirirdi. *"Biz dünyada müstəqil Azərbaycanın nüfuzunun qaldırılmasına, iqtisadi inkişafına böyük yardım edən, xarici iqtisadi əlaqələrdə layiqli yer tuta bilən bir gömrük sistemi yaratmalıyıq"* – deyərkən Heydər Əliyev gömrük sisteminin yenidən təşkili və təkmilləşdirilməsi üçün dünyanın qabaqcıl ölkələrinin gömrük təşkilatları ilə təcrübə mübadiləsinin aparılmasını, ikitərəfli əlaqələrin qurulmasını, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində işləməyi nəzərdə tuturdu. O, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi vəzifələrinin yerinə yetirilməsində, respublikanın beynəlxalq aləmdə demokratik, hüquqi və yüksək mənəvi dəyərlərə malik bir ölkə kimi tanınması işində gömrük xidmətini ön cərgədə görmək istəyirdi. Ulu öndər respublikamıza sərhəddən və gömrük nəzarətindən gizli həyata keçirilən qaçaqmalçılıq hallarına qarşı mübarizəni sərhəd xidməti və gömrük təşkilatının əsas vəzifəsi hesab edərək göstərirdi ki, *"qaçaqmalçılıq adi bir cinayət deyil. O, Azərbaycanın müstəqilliyinə iqtisadi cəhətdən zərbə vuran hallardan biridir... Qeyri-qanuni, yəni qaçaqmalçılıq yolu ilə baş vermiş hər bir hadisə birinci növbədə Azərbaycanın iqtisadiyyatına zərbə vurur...bizim ölkəmiz Cənubla Şimal, Şərqlə Qərb arasında olan bir ölkədir. Ona görə də bizim sərhədlərimizdən, ölkəmizin ərazisindən keçən yollar təkcə Azərbaycanın idxal-ixracı deyil. Ölkəmizin ərazisindən Şərqdən Qərbə, Cənubdan Şimala və əks istiqamətlərdə də mallar keçirilir. Biz burada da qaçaqmalçılığın bütün növlərinin qarşısını almalıyıq, xüsusən, narkotik maddələrin, silah-sursatın və cinayət törətmək üçün istifadə olunan başqa malların, ləvazimatların tranzit vasitəsilə Azərbaycandan keçirilməsinin qarşısını almalıyıq".*

1995-ci ilin yanvarın 9-da Azərbaycan Respublikası Prezidentinin yanında keçirilən müşavirənin materialları və qəbul edilmiş qərarlar, Azərbaycan gömrük xidmətinin təşəkkülü və formalaşması tarixinin öyrənilməsində mühüm mənbələrdən biridir. Ümummilli lider Heydər Əliyevin Dövlət Gömrük Komitəsinin fəaliyyətini geniş müzakirəyə çıxarması və həmin məsələyə həsr olunmuş müşavirədə söylədiyi tövsiyə və göstərişlər

Respublika gömrük xidmətinin inkişafının əsas istiqamətlərini və prinsiplərini müəyyən etdi. Müşavirədə etdiyi nitqində Heydər Əliyev Gömrük Komitəsinin fəaliyyətini təhlil edərkən demişdi: *"Gömrük orqanları Azərbaycan öz müstəqilliyini elan edəndən sonra yaranmışdır. Onlar fəaliyyət göstərir, ancaq mən ümumən deyə bilərəm ki, müstəqillik dövründə əldə etdiyimiz nailiyyətlərlə yanaşı, böyük nöqsanlarımız, çatışmazlıqlar da var. Bunların başlıcası iqtisadiyyatın belə vəziyyətə düşməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin sağlam, düzgün əsasda qurulmasıdır. Bu çatışmazlıqların mövcud olmasının əsas səbəblərindən biri gömrük orqanlarının işindəki nöqsanlardır*" [120, 1995, 11 yanvar].

Milli gömrük xidmətinin təşkilati əsaslarının möhkəmləndirilməsində, gömrük işinə dövlətçilik mövqeyindən yanaşılmasında Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında"* 1995-ci il 9 yanvar tarixli 257 nömrəli Fərmanının mühüm əhəmiyyəti oldu. Fərmanda göstərilirdi: *"Gömrük sistemində yaranmış böhranlı vəziyyət Azərbaycanın iqtisadi əsaslarına son dərəcə sarsıdıcı təsir göstərir, bazar iqtisadiyyatına keçid dövründə mövcud çətinlikləri daha da dərinləşdirir, xarici iqtisadi əlaqələrin inkişafına ciddi maneçilik törədir. Bunlar gömrük işinin lazımi səviyyədə təşkil edilməməsindən, korrupsiyanın, rüşvətxorluğun və digər şəxsi maraqların geniş yayılmasından, Gömrük Komitəsində qanun pozuntularının kütləvi hal almasından irəli gəlir. Bu faktlar Azərbaycanın iqtisadi nüfuzuna xələl gətirməklə vətəndaşlarda haqlı narazılıq doğurur, respublikaya xarici sərmayə qoyuluşunu çətinləşdirir".* Fərmanda göstərilirdi ki, Gömrük Komitəsinin sədri T.Y.Əliyev gömrük işinin təşkilində buraxdığı ciddi nöqsanlara və işçilərin seçilib yerləşdirilməsində yol verdiyi kobud səhvlərə görə tutduğu vəzifədən azad edilməklə Gömrük Komitəsinin işi qeyri-qənaətbəxş hesab olunsun. Nazirlər Kabinetinə tapşırılırdı ki, bir ay müddətində Azərbaycan Respublikasının vahid gömrük siyasətinin iqtisadi, təşkilati və hüquqi mexanizminin hazırlanması ilə bağlı təklifləri və Nazirlər Kabinetinin səlahiyyətinə aid normativ aktları hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsin [9, 31 yanvar 1995-ci il, № 1-2, maddə 29].

Heydər Əliyev həmin müşavirəyə yekun vurarkən demişdi: *"Güman edirəm ilk dəfədir ki, gömrük xidməti haqqında belə geniş müzakirə gedir. Təəssüflər olsun ki, Azərbaycan Respublikasında gömrük xidməti yaranan-*

*dan indiyə qədər cürbəcür nadanların əlindədir. Gömrük Komitəsi onun qarşısında qoyulmuş yüksək vəzifələri yerinə yetirmək əvəzinə, ayrı-ayrı adamlar üçün qeyri-qanuni yolla pul əldə etmək mənbəyinə çevrilmişdir...*

*Ona görə də bu müzakirələrdən çıxarılan əsas nəticə budur ki, biz Azərbaycanda gömrük orqanlarının işini kökündən dəyişdirməliyik, sağlam əsaslar üzərində qurmalıyıq. Həqiqi gömrük orqanları qurulmalıdır. Bu, bizim bugünkü dövrümüz və müstəqil Azərbaycanın gələcəyi üçün ən zəruri vəzifələrindən biridir. Elə bir gömrük orqanı yaratmalıyıq ki, o, xarici iqtisadi əlaqələrimizdə öz yerini tutuşun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, xarici iqtisadi əlaqələrdə, bütün başqa əlaqələrdə müstəqil Azərbaycanın nüfuzunu təmin etsin, bizə biabırçılıq, ləkə gətirməsin. Amma hələ ki, iqtisadi zərər, oğurluq, rüşvətxorluq, korrupsiya bir tərəfdən, eyni zamanda gömrük orqanlarının belə vəziyyətdə olması siyasi baxımdan Azərbaycan Respublikasını ləkələyir. Xaricdən gəlmiş hər bir vətəndaş gömrük orqanından narazı gedirsə, o hə də dövlətimizdən, xalqımızdan narazı olur. Amma bu, təkcə gömrük orqanlarına aid deyildir... Hamı – polis, prokurorluq orqanları, sərhədçilər, sərhəd məntəqələrində dayanan digər adamlar da özləri üçün nəticə çıxarmalıdırlar...*

*Bu vəzifələrə nail olmaq üçün, şübhəsiz ki, Azərbaycan Respublikasının məqsədyönlü, çox dərin, ətraflı, məzmunlu, bu günümüz və gələcəyimiz üçün yararlı gömrük siyasəti olmalıdır... Onu hazırlayıb təcili surətdə həyata keçirmək lazımdır. Bu işi gecikdirmək olmaz... Gömrük siyasəti haqında hansı sənədlərin və nə vaxt qəbul ediləcəyi barədə təkliflər qısa müddətdə, on beş gün ərzində hazırlanıb təqdim olunmalıdır”* [120, 1995, 11 yanvar].

1995-ci il yanvarın 10-da mətbuatda K.F.Heydərovun Dövlət Gömrük Komitəsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı dərc edildi. Həmin dövrdə milli gömrük xidmətinin təşkilində yol verilmiş nöqsan və çatışmazlıqlar ölkənin iqtisadi təhlükəsizliyinə zərbə vurmaqla bərabər, gömrük daxilolmalarının hesabına dövlət büdcəsinin gəlirlər hissəsinin artırılması vəzifəsinin öhdəsindən gəlmirdi. Gömrük xidmətinin bütün sahələri kompleks problemlərin əhatəsində idi. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi mexanizmi yenicə formalaşırdı. Xidmətin maddi-texniki bazası, kadr, elmi-texniki, hüquqi və informasiya təminatı ölkə iqtisadiyyatının tələblərinə cavab vermirdi. Gömrük nəzarə-

tinin yeni tələblərə uyğun təşkili bu işə peşəkarcasına daha həssas yanaşılmasından asılı idi. Dəyişən iqtisadi şəraiti və milli maraqları nəzərə almaqla Azərbaycan Respublikası DGK-nın yeni rəhbərliyindən düşünülmüş və çevik qərarların qəbul edilməsini tələb edirdi.

Dövlət Gömrük Komitəsinin rəhbərliyində aparılan kadr dəyişikliyi elə ilk günlərdən özünü müsbət mənada büruzə verməyə başladı. Belə ki, ilk olaraq gömrük xidmətinə bilikli, bacarıqlı və ixtisaslı kadrlar qəbul edildi. Gömrük sisteminin qurulması və kadr siyasətində cinayət xarakterli nöqsanlara yol vermiş və strateji əhəmiyyətli malların qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılmasına şərait yaradan Gömrük Komitəsinin rəhbərliyini tutduqları vəzifədən uzaqlaşdırmaqda başlıca məqsəd milli gömrük orqanlarının sağlam əsaslar üzərində qurulması idi. Ümummilli liderin müdrik tövsiyələri və tapşırıqları əsasında gömrük işinin yenidən qurulması və dünya standartları səviyyəsinə çatdırılmasının vacibliyini dərk edən yeni rəhbərlik tapşırılan işə son dərəcə məsuliyyətlə yanaşdı. Azərbaycanın milli gömrük orqanlarının formalaşmasında DGK-nın yeni rəhbərliyi, uzun müddət onun sədri vəzifəsində işləyən gömrük xidməti general-polkovniki Kəmaləddin Heydərovun böyük əməyi və xidmətləri oldu. Heydər Əliyev hələ 1997-ci ilin yanvarında keçirilən təntənəli yığıncaqda onun fəaliyyətinə belə qiymət vermişdi: *"Mən məmnunam ki, gömrük təşkilatının nümayəndələri – Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov və digər şəxslər burada çıxış edərkən gömrük xidmətinin əhəmiyyəti və vəzifələri haqqında doğru-düzgün anlayışları olduğunu nümayiş etdirdilər. Bu onu göstərir ki, siz, Gömrük komitəsində çalışan Azərbaycan vətəndaşları öz vəzifələrinizin nə qədər əhəmiyyətli, nə qədər məsuliyyətli olduğunu dərk edirsiniz. Bu, eyni zamanda əsas verir ki, siz bu vəzifələri layiqincə yerinə yetirə bilərsiniz"* – sözləri böyük inam və etimad hissi ilə deyilsə də, eyni zamanda ciddi məsuliyyətə səsləyirdi [57, 350].

Azərbaycan Respublikasının gömrük xidməti tərəfindən gömrük siyasətinin fəal həyata keçirilməsi, xidmətin səmərəli fəaliyyətinin təmin edilməsi üçün Respublika Prezidenti Heydər Əliyevin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamı ilə Komitənin kollegiyasının tərkibi təsdiq edildi. Komitənin sədri, birinci müavini və müavinləri, Gömrük Nəzarətinin Təşkili Baş İdarəsi, Gömrük Qaydalarının Pozulması və Qaçaqmalçılıqla Mübarizə Baş İdarəsi, Baş Maliyyə-Tarif İdarəsi və Kadrlar İdarəsinin

rəisləri, həmçinin Naxçıvan MR Gömrük Komitəsinin sədri və Bakı Baş Gömrük İdarəsinin rəisi kollegiyanın tərkibinə daxil edildi [9, 1995, №7, maddə 187].

1995-2005-ci illər ərzində K.F.Heydərovun rəhbərliyi və ciddi nəzarəti altında gömrük işini tənzimləyən hüquqi-normativ sənədlər hazırlandı, xidmətin maddi-texniki resursları və informasiya təminatı gücləndirildi, xidmətinin iqtisadi göstəriciləri və dövlət büdcəsinin formalaşmasında rolu xeyli artırıldı. Gömrük işinin təşkili, gömrük hüququ və ekspertizası haqqında milli dərsliklər və tədris-metodiki vəsaitlər hazırlandı. Azərbaycan gömrük xidmətinin beynəlxalq təşkilatlarla əlaqəsinin möhkəmləndirilməsi və təcrübə mübadiləsi aparılması sahəsində səylər geniş xarakter aldı.

Ulu öndər Heydər Əliyev iqtisadi məsələlərə dair müşavirə və yığıncaqlardakı çıxışlarında gömrük orqanlarının 1995-1996-cı illərdəki fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, buraxılan qüsur və çatışmazlıqları da göstərir, xüsusən qaçaqmalçılıq hallarına qarşı mübarizəni gücləndirməyə, vergi və rüsumlardan yayınma hallarının qarşısını qətiyyətlə almağa, gömrük işinin təşkilində şəffaflığı təmin etməyə, gömrük xidməti mədəniyyətini yüksəltməyə çağırırdı. O, gömrük prosedurаlarının sadələşdirilməsini, idxal-ixrac əməliyyatları üzrə dövlət büdcəsinə cəlb olunan gömrük vergi və rüsumlarının artırılması üçün mövcud ehtiyat mənbələrindən daha səmərəli və dolğun şəkildə istifadə etməyin zəruri olduğunu tövsiyə edirdi. Bu tövsiyə və tapşırıqlar gömrük xidməti əməkdaşlarını dövlətin qanunlarına riayət etməyə, mənəvi saflığa, peşəsinə sadiq olmağa və peşə hazırlıqlarını daim artırmağa səsləyir, bu kimi prinsiplərin gömrük xidmətinin hər bir özəyində bərqərar olmasını gömrük orqanı rəhbərlərindən tələb edirdi. Böyük Britaniyanın nüfuzlu "Deyli Nyus" qəzeti 1997-ci il sentyabr nömrələrinin birində Azərbaycan Respublikasında müasir gömrük sisteminin qurulmasında qazanılan müsbət təcrübə haqqında geniş material vermişdi [43, 1997, 24 sentyabr].

Heydər Əliyevin dövlət idarəçiliyi nəzəriyyəsi və praktikası əsasında məktəbin yaranmasını qeyd edən akademik Ramiz Mehdiyev yazır: *"Hansı vəzifədə işləməsindən asılı olmayaraq, onun iş təcrübəsi, təşəbbüsləri bu məktəbin dərslərini səylə öyrənən çoxlu ardıcılların, şagirdlərin yetişməsinə səbəb olur. İstənilən sahə mütəxəssisləri ilə Heydər Əliyevin görüşləri, onun çıxışları, dediyi fikirlər geniş əks-səda doğurur, yeni ideyaların və*

*layihələrin yaranmasına təkan verir"* [103, 570].

Heydər Əliyev gömrük sisteminin yenidən təşkili və təkmilləşdirilməsi üçün dünyanın qabaqcıl ölkələrinin gömrük təşkilatları ilə sıx əməkdaşlıq şəraitində işləməyi nəzərdə tuturdu. O, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi vəzifələrini yerinə yetirilməsində, Respublikamızın beynəlxalq aləmdə demokratik, hüquqi dövlət və yüksək mənəvi dəyərlərə malik bir ölkə kimi tanımasında gömrük xidmətini ön cərgədə görmək istədiyini bildirirdi. Prezidentin sərəncamına əsasən, 1997-ci ildən etibarən hər il yanvarın 30-nun gömrükçülərin peşə bayramı günü kimi qeyd edilməsi Heydər Əliyevin bu orqanın fəaliyyətini çox yüksək qiymətləndirdiyini sübut edir.

Maddi-texniki resursların artırılması istiqamətində əsaslı işlər görüldü. Gömrük xidmətinin avadanlıq və texniki vasitələrinin dəyəri 1993-cü ildəki 3,5 mln. manatdan 1999-cu ildə 35,3 mlrd. manata çatdırılmışdı. Bir sıra gömrük postları və gömrük-keçid məntəqələri təmir edilmiş və ya yenidən qurulmuşdu. Bakı Baş Gömrük İdarəsində "Qaradağ", "Bərə" və "Güzdək", Sumqayıt gömrükxanasında "H.Z.Tağıyev", Tovuz gömrükxanasının "Poylu", Balakən gömrükxanasının "Muğanlı" gömrük postlarının inzibati binaları tikildi. Bütün gömrükxanaların ərazilərində, o cümlədən Xaçmaz gömrükxanasının "Samur" postunda, "Xanoba" keçid məntəqəsində, Tovuz gömrükxanasının "Sınıq körpü" keçid məntəqəsində təmir və abadlıq-quruculuq işləri aparıldı.

Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında"* 1998-ci il 27 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yeni Əsasnaməsi və təşkilati strukturu təsdiq edildi. Gömrük Komitəsi yeni Əsasnamənin 1-ci bəndinə əsasən mərkəzi icra orqanına çevrildi, yəni onun statusu nazirlik statusuna bərabər oldu. Bundan əlavə, yeni Əsasnamədə Gömrük Komitəsinin vəzifə, hüquq və funksiyalarını daha aydın və əhatəli şəkildə təsvir edilirdi. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əsas funksiyaları aşağıdakılar idi:

– Azərbaycan Respublikasında gömrük işini təşkil etmək və onu təkmilləşdirmək;

– Azərbaycan Respublikasının gömrük siyasətini həyata keçirmək;

– öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi

mənafeyini və təhlükəsizliyini qorumaq;

– öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük ərazisinin vahidliyini təmin etmək;

– Azərbaycan Respublikasında qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil etmək;

– icrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş gömrük işinə dair və digər qanunvericiliyinə əməl olunmasını təmin etmək.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ona həvalə edilmiş funksiyalara əsasən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

– Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi üçün hüquqi, iqtisadi, təşkilati mexanizmlər hazırlayır və onların həyata keçirilməsini təmin edir;

– Azərbaycan Respublikasında gömrük işinin inkişafı proqramını hazırlayır və həyata keçirir;

– gömrük nəzarətinin həyata keçirilməsini və təkmilləşdirilməsini təşkil edir, bu cür nəzarətin səmərəliliyinə zərər vurmadan onun sadələşdirilməsi və təkmilləşdirilməsi üçün tədbirlər görür;

– Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar barəsində, qiymətlərin tənzimlənməsi və digər qeyri-tarif tədbirləri də daxil olmaqla, iqtisadi proqramların işlənib hazırlanmasında iştirak edir və öz səlahiyyətləri daxilində onların həyata keçirilməsini təşkil edir;

– Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan vergilərin, gömrük rüsumlarının, aksizlərin, habelə digər gömrük ödənişlərinin alınmasını, beynəlxalq avtomobil daşımalarını yerinə yetirən xarici ölkələrin nəqliyyat vasitələrinə sərhəddə “icazə” blanklarının verilməsinə görə dövlət rüsumunun tutulmasını təşkil edir;

– malların gömrük dəyərinin düzgün müəyyən olunması üzərində nəzarət sistemini təşkil edir;

– gömrük rüsumlarının, müvafiq dövlət rüsumlarının, vergilərin vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsini təmin edir;

– Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda lisenziya və ya ixtisas attestatları verir, onları ləğv edir, yaxud geri alır, reyestrinin aparılmasını təmin edir;

– mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük

sərhədindən keçirilərkən müvafiq gömrük rejimlərindən səmərəli istifadəni təmin edir;

– malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə dair qaydaların işlənib hazırlanmasını təşkil və onların icrasını təmin edir;

– malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsini təşkil edir, onun təkmilləşdirilməsi və sadələşdirilməsi üçün tədbirlər görür;

– malların baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatlarının (şəhadətnamələrinin) yoxlanılmasını, sərhəddə həmin mallar üzərində baytarlıq, fitosanitar, sanitariya nəzarətini həyata keçirir;

– ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan qonşu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə keçən nəqliyyat vasitələrini baytarlıq qanunvericiliyində müəyyən edilmiş qaydada və müddətdə məcburi dezinfeksiya edir;

– başqa ölkələrdən gətirilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanılmasının təmin edilməsi məqsədi ilə müvafiq ərazi dövlət baytarlıq müfəttişliyinə məlumat verir;

– müstəqil surətdə, yaxud zəruri olduqda digər hüquq-mühafizə orqanları cəlb edilməklə gömrük nəzarəti zonası rejiminə riayət olunmasına nəzarəti təmin edir, gömrüyün infrastruktur obyektlərinin mühafizə sistemini təşkil edir, Azərbaycan Respublikasının gömrük sərhədinin qorunması məqsədi ilə digər tədbirlər də həyata keçirir;

– icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş gömrük işi üzrə və digər qanunvericilik aktlarına əməl olunmasını təmin edən tədbirlər sistemini hazırlayır və həyata keçirir;

– rezident və qeyri-rezidentlər tərəfindən milli və xarici valyutanın, eləcə də digər valyuta sərvətlərinin müvafiq qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinə, habelə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş digər hallarda valyuta nəzarətini həyata keçirir;

– qaçaqmalçılığa və gömrük işi sahəsində digər cinayətlərə qarşı mübarizə aparılmasını təşkil edir. Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən bu cür cinayətlər üzrə qüvvədə olan qanunvericilik aktlarına müvafiq olaraq təhqiqat ibtidai istintaq aparılmasını və əməliyyat-

axtarış fəaliyyəti həyata keçirilməsini təmin edir;

– gömrük qaydalarının pozulmasına və Azərbaycan Respublikasının gömrük orqanlarının nominal fəaliyyətinə qəsd edən inzibati xətalara qarşı mübarizəni təşkil edir;

– narkotik vasitələrin və psixotrop maddələrin, silahların, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intellektual mülkiyyət obyektlərinin, habelə digər malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq məqsədi ilə tədbirlər sistemi hazırlayır və həyata keçirir;

– Azərbaycan Respublikasının dəmir yolu vağzallarında, hava və dəniz limanlarında beynəlxalq nəqliyyat vasitələrinin fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasında və beynəlxalq terrorçuluqla mübarizədə Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarına köməklik göstərir;

– Azərbaycan Respublikasının gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlər, gömrük qaydalarının pozulması işləri və Azərbaycan Respublikasının gömrük orqanlarının normal fəaliyyətinə qəsd edən inzibati xətalar haqqında işlər üzrə icraat zamanı, habelə əməliyyat-axtarış tədbirləri həyata keçirilərkən qanunçuluğa əməl olunmasına nəzarəti həyata keçirir;

– Azərbaycan Respublikasının xarici ticarətinin gömrük və xüsusi gömrük statistikasının aparılmasını təşkil edir;

– müəyyən olunmuş qaydada gömrük statistikasına dair və digər gömrük işinə aid məlumatları Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və digər mərkəzi icra hakimiyyəti orqanlarına (onların fəaliyyətinə dair məsələlər üzrə) təqdim edir;

– öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin edir;

– gömrük işi həyata keçirilərkən fiziki şəxslərin və təsərrüfat subyektlərinin hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;

– Azərbaycan Respublikası gömrük orqanlarının və onların vəzifəli şəxslərinin qərarlarından (o cümlədən normativ aktlarından), hərəkət və hərəkətsizliyindən şikayət etmə üzrə fiziki və hüquqi şəxslərin hüquqlarının

reallaşdırılması üçün şərait yaradır;

– şikayətlərə və müraciətlərə vaxtında və tam baxılmasını təmin edir; fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin pozulmasını yaradan səbəblərin aradan qaldırılması üçün tədbirlər görür;

– öz səlahiyyətləri daxilində gömrük işi üzrə mühüm hüquqi aktların nəşrini təmin edir;

– Azərbaycan Respublikasında gömrük işinin inkişafı və vəziyyətinə dair məlumat-izahat işləri aparır, bu məqsədlə kütləvi informasiya vasitələrindən və digər təbliğat vasitələrindən istifadə edir;

– konkret mallarla və ya təsərrüfat əməliyyatları ilə əlaqədar gömrük işi haqqında qanunvericilik aktlarının tətbiqi məsələləri üzrə öz qərarlarının qəbulu və fəaliyyət göstərməsini təmin edir;

– Azərbaycan Respublikasında gömrük işi haqqında qanunvericiliyin tətbiqi təcrübəsini ümumiləşdirir və təhlil edir;

– gömrük işi məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların işində iştirak edir; Azərbaycan Respublikasının gömrük işinə dair beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edir;

– xarici dövlətlərin gömrük və digər səlahiyyətli orqanları ilə əməkdaşlığı və qarşılıqlı fəaliyyəti həyata keçirir;

– gömrük işi sahəsində elmi-tədqiqat işlərinin aparılmasını təşkil edir;

– xarici dövlətlərin gömrük siyasətini və bu dövlətlərdə gömrük işinin vəziyyətini öyrənir və təhlil edir;

– müvafiq sahədə kadr hazırlığını təmin edir, həmçinin mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görür;

– gömrük idarələri, gömrükxanalar, gömrük postları, gömrük laboratoriyaları, elmi-tədqiqat və tədris müəssisələri, hesablama mərkəzləri yaradır və ləğv edir;

– Azərbaycan Respublikası gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sisteminin yaradılmasını, fəaliyyət göstərməsini və təkmilləşdirilməsini təmin edir;

– Azərbaycan Respublikasında gömrük işinin inkişafı üzrə həyata keçirilən tədbirləri maliyyələşdirir;

– müəyyən olunmuş qaydada Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf Fondunu idarə edir və onun üzərində sərəncam verir;

– gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçiliyində olan digər idarə, müəssisə və təşkilatların maddi-texniki və sosial bazasını inkişaf etdirir;

– gömrük orqanlarının vəzifəli şəxslərinin, gömrük laboratoriyalarının, həmçinin tabeliyindəki digər idarələrin, müəssisələrin, təşkilatların işçilərinin dövlət və sosial müdafiəsini, fiziki hazırlığını təmin edir, onların tibbi təminatını həyata keçirir;

– xidməti-tətbiqi idman növlərinin inkişafı proqramlarını, bədən tərbiyəsi və idman tədbirlərinin təqvim planlarını, hərbi idman kompleksinin normativlərini təsdiq edir [24, 2001, 19 iyun maddə 510; 2002, 27 may, maddə 703; 2003, 23 oktyabr, maddə 962; 2003, 23 oktyabr, maddə 980; 2004, 10 dekabr, maddə 157].

Şimal sərhədlərimizdə gömrük nəzarətinin gücləndirilməsi qonşu Rusiya Federasiyası ilə ticarət əlaqələrinin genişlənməsinə, nəqliyyat vasitələrinin intensiv hərəkətinin bərpa olunmasına xidmət etməli idi. Azərbaycan Hökumətinin *"Rusiya Federativ Hökuməti tərəfindən Dağıstan Respublikası ərazisində müəyyən məhdudiyyətlərin götürülməsi ilə əlaqədar Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında nəqliyyat vasitələri hərəkətinin tədricən bərpa olunması haqqında"* 1995-ci il 27 oktyabr tarixli 97 saylı qərarında nazirlik, baş idarə və xarici ticarət iştirakçısı olan şirkət və müəssisələrdən tələb olunurdu ki, gömrük nəzarətinin tam şəkildə həyata keçirilməsi üçün razılaşdırılmış cədvəl əsasında ixrac olunan yüklər haqqında Azərbaycan Respublikası DGK-ya bir gün əvvəl müraciət etsinlər". Daxili İşlər Nazirliyi gömrük təminatı olan yüklərin nəqliyyat vasitələri ilə ölkə ərazisindən maneəsiz hərəkətini, Rabitə nazirliyi və DGK Azərbaycanla Rusiyanın sərhəd-keçid məntəqələrinin daimi telefon rabitəsini təmin etməli; Maliyyə Nazirliyi Azərbaycanın "Samur", "Xanoba" və "Yalama" gömrük məntəqələrinin infrastrukturunu gücləndirmək (iri həcmli tərəzi, yükləmə-boşaltma mexanizmləri, əlavə köməkçi vaqonlar və digər qurğular) üçün DGK-ya 2 mlrd. manat vəsait ayırmalı idi [13, 138-139].

1996-cı ildə DGK üzrə tikinti-quraşdırma və təmir işlərinə, həmçinin yeni gömrükxana binalarının tikilib istifadəyə verilməsinə 2,1 mlrd. manat vəsait xərcləndi. Bu vəsaitin 1,3 mlrd. manatı daxili imkanlar hesabına həyata keçirildi. Gömrükxana və gömrük postlarının yeni avadanlıq və materiallarla təchiz edilməsinə ayrılan vəsaitin həcmi 1,4 mlrd. manatdan

çox idi. 1997-ci ildə gömrük nəzarətinin səmərəliliyini artırmaq, gömrük buraxılış məntəqələrinin maddi-texniki bazasını möhkəmləndirmək üçün 7,8 mlrd. manatlıq avadanlıq və digər zəruri texniki vasitələr alınmış, təmir-tikinti işlərinə 1,4 mlrd. manat xərclənməklə yeni postlar, buraxılış-keçid məntəqələri yaradıldı. Bakı Baş Gömrük İdarəsi üzrə "Bərə" postunda keçid-buraxılış məntəqəsi tikildi, Xaçmaz gömrükxanasının "Samur", Balakən gömrükxanasının "Muğanlı" postlarında əsaslı tikinti işləri görüldü. 1998-ci ildə təkcə əsaslı tikinti və abadlıq işlərinə 1 mlrd. 25 mln. manat vəsait xərclənmişdi [69, 1998, 29 iyul, №27; 1999, 30 yanvar, № 4].

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) ünvanına daxil olan malların gömrük rəsmiləşdirməsini sürətləndirmək üçün 1997-ci ildə Bakı Baş Gömrük İdarəsinin nəzdində "Sahil" gömrük postu, 1998-ci ildə Bakı Dəniz Limanının "Dübəndi" yük rayonuna daxil olan və çıxarılan neft məhsullarını daşıyan gəmilərə gömrük nəzarətini həyata keçirmək üçün "Dübəndi" gömrük postu, Azərbaycan Respublikasının gömrük sərhədindən boru kəməri ilə keçirilən neft məhsullarının gömrük rəsmiləşdirməsini sürətləndirmək məqsədilə Xaçmaz gömrükxanasının fəaliyyət zonasında "Şirvanovka" gömrük postu yaradıldı. Bakı Beynəlxalq Yük limanına daxil olan neft və neft məhsullarını daşıyan gəmilərə operativ gömrük nəzarəti "Liman" gömrük postu vasitəsilə həyata keçirilməsinə başlanıldı.

1997-ci ildə Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsi tərkibində struktur dəyişiklikləri baş verməklə Yol Vergiləri İdarəsi, Nəzarət-təftiş şöbəsi yaradıldı. Aksiz bölməsinə şöbə statusu verildi. 1997-ci ildə gömrük nəzarətinin səmərəliliyini artırmaq, gömrük buraxılış məntəqələrinin maddi-texniki bazasını möhkəmləndirmək üçün 7,8 mlrd. manat dəyərində avadanlıq və digər zəruri texniki vasitələr alındı. Təmir-tikinti işlərinə 1,4 mlrd. manat xərclənməklə yeni postlar və buraxılış-keçid məntəqələri yaradıldı. Bakı Baş Gömrük İdarəsi üzrə "Bərə" postunda keçid-buraxılış məntəqəsi tikildi. Xaçmaz gömrükxanasının "Samur", Balakən gömrükxanasının "Muğanlı" postlarında əsaslı tikinti işləri görüldü. 1998-ci ildə gömrük müəssisələrinin əsaslı tikintisi və abadlıq işlərinə 1 mlrd. 25 mln. manat vəsait xərcləndi [69, 1998, 29 iyul, №27; 1999, 30 yanvar, № 4].

Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun təsdiq edilməsi haqqında"* 1998-ci il 27 oktyabr tarixli 7 nömrəli Fərmanı ilə Dövlət Gömrük Komitəsinin

strukturu və Əsasnaməsi təsdiq edildi. Həmin sənədin 2-ci bəndi ilə Azərbaycan Respublikası Prezidentinin 18 aprel 1992-ci il tarixli 688 nömrəli sərəncamının 1 nömrəli əlavəsi qüvvədən düşmüş hesab edildi. Əsasnamənin 1-ci bəndində göstərilirdi: "Azərbaycan respublikasının Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır [24, 31 oktyabr 1998, №10, maddə 615].

Qısa müddətdə gömrükxanaların sayı 14-ə çatdırıldı, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi təsis edildi. Nazirlər Kabinetinin müvafiq qərarı ilə gömrük sisteminin inzibati strukturu dəyişdirildi və 7 regional gömrükxana təsis edildi. Enerji Gömrükxanası və Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi İdarəsi yaradıldı. Dövlət Gömrük Komitəsinin strukturunda yaradılan "Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi İdarəsi" Xəzər dənizinin Azərbaycana aid bölməsində ölkəmizin iqtisadi maraqlarının qorunması işini öz üzərinə götürməklə, dəniz nəqliyyatı vasitələri ilə respublikamızın gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar, o cümlədən Xəzərin təbii sərvətləri üzərində gömrük nəzarətini təmin edirdi. Bununla əlaqədar Sərhəd qoşunları və Xəzər Dəniz Gəmiçiliyi ilə razılaşdırmaqla sahil boyu gömrük postları yaradıldı, su nəqliyyatı vasitələrinin rəsmiləşdirilməsi ilə bağlı normativ sənədlər hazırlandı.

Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun təsdiq edilməsi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Əsasnaməsinə əlavələr edilməsi haqqında"* 2001-ci il 19 iyun tarixli 510 nömrəli Fərmanı ilə yenidən təşkil olundu. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna daxil idi:

1. Rəhbərlik: Sədr, sədrin birinci müavini və müavinlər.
2. Dövlət Gömrük Komitəsinin Aparatı: Katiblik; Gömrük Nəzarətinin Təşkili Baş İdarəsi; Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsi; Maliyyə Tarif və Valyuta Nəzarəti Baş İdarəsi; Statistika və İnformasiya Texnologiyaları Baş idarəsi; Audit və Risk Analizləri Baş İdarəsi; Kadrlar İdarəsi; Daxili Təhlükəsizlik İdarəsi; İstintaq İdarəsi; Xarici Əlaqələr İdarəsi; Tibbi Xidmət İdarəsi; Mətbuat Xidməti; İşlər İdarəsi; Əsaslı Tikinti və Maddi-Texniki Təchizat İdarəsi; Hüquq şöbəsi; Analitik

şöbə; Məxfi şöbə; Mühasibat və uçot şöbəsi; Gömrük Mühafizə Xidməti; Növbətçi hissə.

3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan gömrük orqanları və təşkilatları: Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi; Bakı Baş Gömrük İdarəsi; Hava Nəqliyyatında Baş Gömrük İdarəsi; Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsi; Enerji Gömrük İdarəsi; Astara Gömrük İdarəsi; Balakən Gömrük İdarəsi; Biləsuvar Gömrük İdarəsi; Şirvan Gömrük İdarəsi; Yevlax Gömrük İdarəsi; Gəncə Gömrük İdarəsi; Sumqayıt Gömrük İdarəsi; Tovuz Gömrük İdarəsi; Xaçmaz Gömrük İdarəsi; Xudafərin Gömrük İdarəsi; Aksiz Gömrük İdarəsi; Avtonəqliyyat Gömrük İdarəsi; Mərkəzi Laboratoriya; "Azərterminal-kompleks" Təsərrüfat Hesablı Xarici İqtisadi Birlik; Avtomobil təsərrüfatı; Tədris mərkəzi; İdman-sağlamlıq mərkəzi.

4. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sisteminə daxil olan gömrük orqanları və təşkilatları: Naxçıvan şəhər Gömrük İdarəsi; Sədərək Gömrük İdarəsi; Culfa Gömrük İdarəsi; Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi; Şahtaxtı Gömrük İdarəsi; "Naxçıvanterminalkompleks" Təsərrüfat Hesablı İqtisadi Birlik [24, 30 iyun 2001, №6, maddə 408].

Prezidentin 2004-cü il 10 dekabr tarixli 540 nömrəli Sərəncamı ilə kollegiyanın tərkibində dəyişiklik edilərək "Baş Maliyyə İdarəsinin rəisi" sözləri "Maliyyə Tarif və valyuta Nəzarəti Baş İdarəsinin rəisi" sözləri ilə əvəz edildi və "Kadrlar İdarəsinin rəisi" sözlərindən əvvəl "Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin rəisi" və "Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi" sözləri əlavə edildi [24, 1995, № 9, maddə 187; 31 dekabr 2004, № 12, maddə 1028].

Ümummilli lider Heydər Əliyevin milli gömrük xidmətinin təşəkkülü və formalaşmasındakı nəhəng fəaliyyəti haqqında Azərbaycan Respublikasının Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov fikirlərini belə ifadə etmişdi: *"1997-ci ilin yanvar ayının bu günlərini xatırlayıram. Ulu öndərimiz Heydər Əliyev o zaman Dövlət Gömrük Komitəsinin yaradılmasının beşinci il dönümü münasibəti ilə keçirilən tədbirdə proqram xarakterli geniş nitqlə çıxış etmiş, gömrükçülər qarşısında böyük vəzifələr qoymuşdu. Biz fəxr edirik ki, məhz bu gündən gömrük orqanlarında çalışan*

*əməkdaşlar ulu öndərin tövsiyə və tapşırıqlarını əldə rəhbər tutaraq, qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirirlər. Bunun nəticəsidir ki, Azərbaycan gömrüyü dövlət büdcəsinə daxilolmaların ildən-ilə artıqlaması ilə təmin olunmasını həyata keçirir, eləcə də qaçaqmalçılıqla mübarizə sahəsində böyük işlər görür. Mən Dövlət Gömrük Komitəsinə 11 il ərzində rəhbərlik etmişəm və buna görə də orda çalışan, demək olar ki, bütün əməkdaşları tanıyır və onların fəaliyyətinə bələdəm. Onların böyük əksəriyyətinin qarşıya qoyulmuş vəzifələri bu gün də vicdanla yerinə yetirdikləri barədə məlumatım var. Ötən illər ərzində Azərbaycanın gömrük orqanları geniş beynəlxalq əməkdaşlığa qoşulmuş, çoxsaylı sazişlər imzalamış, beynəlxalq təcrübəni mənimsəmişlər. Ulu öndərimiz Heydər Əliyev bizə tövsiyə etmiş, göstəriş vermişdi ki, qabaqcıl ölkələrin təcrübəsinə yiyələnək, bu təcrübəni Azərbaycanda da tətbiq edək. O demişdi ki, bunun səmərəsi böyük olacaq və doğrudan da belə oldu. Bu gün Azərbaycan gömrüyü ümumdünya gömrük ailəsində özünə layiqli bir yer tutmaqdadır. Azərbaycan gömrüyünün bugünkü yüksək səviyyəsi, fəaliyyətindəki qayda-qanun, şəffaflıq prinsipləri göz qarşısındadır. Bütün bu irəliləyişlər bizim gömrük orqanlarında çalışan, artıq yüksək ixtisasa, böyük təcrübəyə malik əməkdaşlar tərəfindən həyata keçirilmişdir. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işlədiyi vaxtda Naxçıvanda da Dövlət Gömrük Komitəsi yaradılmışdı. Amma o zaman vəziyyət çox çətin idi. Bir tərəfdən erməni ordusu Naxçıvanı mütəmadi atəşə tutur, digər tərəfdən isə Azərbaycanın o zamankı rəhbərliyi muxtar respublikaya qarşı qeyri-sağlam münasibət bəsləyirdi. Amma, həmin dövrdə Naxçıvan Dövlət Gömrük Komitəsinin yaradılması, Culfa, Şahtaxtı, Sədərək gömrükxanalarının fəaliyyətə başlaması Naxçıvan əhalisinin güzəranını yaxşılaşdırdı. Bura həm ərzaq, həm də digər tələbat mallarının gətirilməsi təmin olundu. Bu, Naxçıvanın yaşaması və bugünkü inkişaf yoluna gəlib çatmasında böyük rol oynadı"* [69, 2007, 30 yanvar, № 3].

2005-ci il mayın 13-də Azərbaycan Televiziyasının 1-ci Proqramının sosial-iqtisadi məsələlərə həsr olunmuş "Dialoq" adlı canlı yayımında DGK sədri, general-polkovnik K.Heydərov Ümummilli lider Heydər Əliyevin səyi ilə ölkəmizdə yaradılan sağlam gömrük mühiti, sahibkarlığın inkişafına əngəl törədə bilən maneələrin aradan qaldırılması haqqında ictimaiyyətə ətraflı məlumat verdi [35, 2005, 15 may].

Beləliklə, müstəqillik dövründə milli gömrük işinin inzibati-hüquqi əsaslarının formalaşması və inkişafı tarixini dörd mərhələyə ayırmaq mümkündür: *birinci mərhələ* - 1992-1994-cü illəri əhatə edir. Birinci mərhələdə, məlum olduğu kimi milli gömrük orqanları yaradılsa da, öz funksiyasını demək olar ki, həyata keçirmir, gömrük rüsum və vergilərinin yığılması sahəsində mühüm dövlət tapşırıqları yerinə yetirilmirdi.

Milli gömrük xidmətinin təşəkkülünün 1995-2002-ci illəri əhatə edən *ikinci mərhələsində* idarəçilik işi əsaslı surətdə yenidən quruldu, xidmətin maddi-texniki və qanunvericilik bazası və kadr potensialının möhkəmləndirilməsi, xarici ölkələrin gömrük xidməti orqanları və beynəlxalq təşkilatlarla ikitərəfli əməkdaşlığın əsası qoyuldu. Müstəqillik dövrünün ilk Gömrük Məcəlləsi və Gömrük Tarifi kimi mühüm hüququ sənədlər əsasında qurulan gömrük fəaliyyəti bu mərhələnin əsas xüsusiyyəti idi.

Milli gömrük xidmətinin inkişafında 2003-2013-cü illəri əhatə edən *üçüncü mərhələnin* əsas xüsusiyyəti gömrük tənzimlənməsinin daha da təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi oldu. Gömrük işi sahəsində bir sıra beynəlxalq proqramlar həyata keçirildi. Hazırda Azərbaycan Respublikasının gömrük xidməti öz inkişafının keyfiyyətcə yeni, dördüncü mərhələsinə daxil olmuşdur. Bu mərhələ gömrük xidmətimizin beynəlxalq gömrük işi təcrübəsindən ən geniş surətdə faydalanması, yeni Gömrük Məcəlləsinin (2011-ci il) qüvvəyə minməsi və gömrük idarəçiliyində elektron vasitələrin tətbiq edilməsi ilə əlamətdardır.

### *1.3. Naxçıvan Muxtar Respublikasında gömrük işinin inkişafı*

Ötən əsrin 90-cı illərinin əvvəllərində mənfur ermənilərin məkrli siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası nəqliyyat, iqtisadi, enerji və informasiya blokadasına salınmışdı. Lakin bütün bu çətinliklər Naxçıvana tarixin bu ağır sınağından çıxmaqda mane ola bilmədi. Naxçıvan MR Ali Məclisinə rəhbərliyi xalqımızın ümummilli lideri Heydər Əliyev öz üzərinə götürdü. Hələ 1990-cı ilin əvvəllərində Naxçıvan MSSR Ali Soveti SSRİ-nin tərkibindən çıxdığını qərarla elan etdi. Noyabrın 17-də isə Naxçıvan MSSR-in adından "sovet sosialist" sözləri çıxarıldı, Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı rəsmi dövlət bayrağı kimi qəbul edilmiş, eyni zamanda, Azərbaycan SSR Ali Sovetinə bununla bağlı

təklif irəli sürüldü.

Naxçıvan MR-ın blokadasının nəticələrinin aradan qaldırılması, əhalinin elektrikə və digər enerji daşıyıcılarına olan tələbatını, ərzaq təhlükəsizliyini təmin etmək üçün ümummilli lider Heydər Əliyevin təşkilatçılığı ilə tam və sabit şəkildə təmin etmək üçün zəruri tələblərin həyata keçirilməsinə başlanıldı.

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin dövlətçilik fəaliyyətində gömrük quruculuğu məsələləri mühüm yer tutmuşdur. Heydər Əliyev İranla iqtisadi-ticarət əlaqələri yenicə yarandığı bir vaxtda milli gömrük xidmətinin təşkili istiqamətində düşünülmüş addımlar ataraq Azərbaycan dövlətçiliyinə sanballı töhfələr vermişdir. Keçmiş SSRİ və İran arasında imzalanan 1990-cı il 15 fevral tarixli Memoranduma əsasən, hər iki ölkə vətəndaşlarının 1990-cı il sentyabrın 15-dən Culfa Gömrükxanasından İrana sadələşdirilmiş vizasız keçidinin həyata keçirilməsi qərara alınmışdı. Sərhədyanı xarici iqtisadi əlaqələrin bərpa edilməsi üçün cəhdlər edilirdi. Lakin bu işlərin Muxtar Respublika ərazisində yerləşən SSRİ sərhəd qoşunlarının nəzarətində olması vəziyyəti xeyli mürəkkəbləşdirmişdi. Yaranmış şərait milli gömrük orqanlarının yaradılmasını zəruri edirdi [96, 616-617].

1991-ci il oktyabr ayının 29-da Heydər Əliyevin iştirakı ilə Naxçıvan MR-lə Türkiyə arasında müvəqqəti körpünün açılması, noyabrın 11-də isə Sədərək gömrükxanasının fəaliyyətə başlaması Naxçıvanın blokadasının yarılmasına, xarici iqtisadi əlaqələrin genişlənməsinə əlverişli şərait yaratdı.

Qonşu dövlətlərlə sərhəddə sadələşdirilmiş keçidin təmin edilməsi, sərhədyanı ticarətin təşkili blokada şəraitində yaşayan Muxtar Respublika əhalisinin güzəranının yaxşılaşmasına müsbət təsiri oldu. 1991-ci ilin aprelindən başlayaraq Babək rayonunun Nehrəm kəndi ərazisindən Araz çayı üzərindən İİR ilə Azərbaycan Respublikası (Naxçıvan MR) arasında fəaliyyət göstərən sadələşdirilmiş gömrük keçid postu bir müddət Muxtar Respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət etdi. 1991-ci ilin oktyabrında Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin şəxsi təşəbbüsü və cəsarəti sayəsində İİR ilə razılığa gəlinərək, onun ərazisindən keçməklə Azərbaycan Respublikası ərazisi ilə əlaqə yaradıldı. 1992-ci il fevralın 24-də Azərbaycanın digər regionları ilə, həmçinin qonşu ölkələrlə birləşdirən nəqliyyat əlaqələrinin bərpasını təmin etmək üçün Naxçıvan MR Dövlət Kommunikasiya Komitəsi və Dövlət Gömrük Komitəsi yaradıldı, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyi təsis edildi.

Uzun illər gömrük təşkilatına rəhbərlik edən, Azərbaycan Respublikasının Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov o illəri belə xatırlayır: *"xüsusilə vurğulamaq istərdim ki, hələ Naxçıvanda yaşayıb işləyərkən əbədi liderimiz Heydər Əliyev Muxtar Respublikanın ən ağır günlərində müdrik siyasəti ilə Naxçıvanın, o cümlədən Azərbaycanın siyasi mühitinə əhəmiyyətli təsir göstərən digər sahələrdə olduğu kimi, əsl milli gömrüyün yaradılması sahəsində də düşünülmüş addım ataraq hələ o vaxt Azərbaycan dövlətçiliyinə daha bir sanballı töhfə verdi"* [75, 67].

İkitərəfli danışıqlar nəticəsində İİR ilə gömrük buraxılış və sərhədyanı ticarət əlaqələrini normal hala salandan sonra Heydər Əliyev Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə apardığı danışıqlar və imzalanan protokollar nəticəsində Naxçıvanın ikinci həyat yolu açıldı. Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Araz çayı üzərində Şahtaxtı-Poldəşt (Naxçıvan MR-lə İİR arasında) və Sədərək-Dilucu (Naxçıvan MR-lə Türkiyə arasında) körpüləri salındı. Sədərək gömrükxanasının rəsmi keçid qapısı fəaliyyətə başlaması Azərbaycan-Türkiyə münasibətlərində yeni bir mərhələnin əsasını qoydu.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında iqtisadi-ticarət əlaqələrinin yaranması və inkişaf etdirilməsində Heydər Əliyevin rolu danılmazdır. Hələ 1992-ci ilin yanvarın 19-da Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə Naxçıvana gələn qardaş ölkənin nümayəndə heyəti ilə görüşündə Heydər Əliyev ağır blokada şəraitində yaşayan Muxtar Respublikanın həyatı əhəmiyyət daşıyan iqtisadi ticarət və enerji problemlərini, o cümlədən, Türkiyə ilə Naxçıvanın sərhəd xəttində gömrük buraxılış məntəqəsinin yaradılması, gömrük xidmətinin təşkili məsələlərini nəzərdən keçirmişdi.

1992-ci il yanvar ayının 31-də Naxçıvan MR Ali Məclisində yeni yaradılmış Sədərək gömrükxanasının fəaliyyəti geniş müzakirə edildi. Gömrükxananın işindəki nöqsanların aradan qaldırılması məqsədi ilə Ali Məclisin Rəyasət Heyəti *"Sədərək gömrükxanasının təşkilində və onun kadrlarla komplektləşdirilməsi işində buraxılan ciddi nöqsanlar haqqında"* qərarı qəbul etdi. Qərarda qeyd olunurdu ki, Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası arasında Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu ərazisində Araz çayı üzərindəki körpünün tikintisi və

sərhədin bu sahəsindəki keçidin istifadəyə verilməsi ilə əlaqədar iki ölkə arasındakı əlaqələri həyata keçirmək üçün Sədərək gömrükxanasının təşkil olunması zərurəti yaranmışdır. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 31 yanvar 1992-ci il tarixli qərarında deyilirdi: *"Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən gömrük idarələrinin bundan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bilavasitə rəhbərliyi altında fəaliyyət göstərmələri zəruri hesab edilsin. Xarici ölkələrlə iqtisadi və digər əlaqələrin, gömrük xidmətinin, işinin həcminin artması ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasında Dövlət Gömrük Komitəsinin yaradılması məqsədə müvafiq hesab edilsin".*

Naxçıvan MR Ali Sovetin sədri Heydər Əliyevin imzaladığı 1992-ci il 24 fevral tarixli 138-XII saylı qərarla Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Komitənin nəzdində Sədərək gömrükxanasının təşkili Muxtar Respublikanın xarici iqtisadi əlaqələrinin coğrafiyasını xeyli genişləndirdi. Xalq tərəfindən "Ümid körpüsü" adlandırılan Sədərək körpüsünün tikintisinə başlanılması "bir millət, iki dövləti" birləşdirən qardaşlıq tellərini daha da möhkəmləndirdi.

1992-ci ilin martın 24-də Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev və Türkiyə Respublikasının baş naziri Süleyman Dəmirəlin imzaladıqları *"Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu"*na əsasən həmin ilin mayın 28-də istifadəyə verilmiş Sədərək-Dilucu körpüsü ölkəmizin iqtisadi-ticarət əlaqələrinin genişlənməsi istiqamətində yeni imkanlar açdı. İmzalanmış protokola əsasən Muxtar Respublikaya iqtisadi-texniki və maliyyə yardımı göstərməklə yanaşı, yeni istifadəyə verilmiş sərhəd keçid məntəqəsində gömrük nəzarətinin normal həyata keçirilməsi üçün infrastrukturun yaradılmasına da köməklik edildi. Muxtar Respublikanın Türkiyə ilə iqtisadi əlaqələrinin inkişaf etdirilməsini Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin mühüm tərkib hissəsi hesab edən ulu öndər Heydər Əliyev – *"... biz çalışmalıyıq ki, həm İran ilə, həm Türkiyə ilə, həm də başqa ölkələrlə əlaqələrimizdə öz iqtisadiyyatımıza zərər verən addımlar atmayaq"* – deyərkən düşünülmüş gömrük siyasətinin əsaslarının hazırlanmasının zəruriliyini göstərirdi [124, 1992, 26 sentyabr].

Sonralar, 1999-cu ildə, Azərbaycan Respublikasının Prezidenti kimi Naxçıvana səfərində ümummilli lider Heydər Əliyev körpünün açılması

zərurətini xatırlayaraq demişdi: *"belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərdə qəlbimdə qalan arzu idi... mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüsçüsü oldum. Biz dostumuz, Süleyman Dəmirəl və Türkiyə Hökumətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyəyə açıldı"* [6, 2004, 28 may].

Ulu öndər Naxçıvan MR Ali Məclisinə rəhbərlik etdiyi dövrdə Naxçıvan MR parlamentində, onun daimi komissiyalarında gömrük işi və xarici ticarət məsələlərinə aid qanun layihələrinin geniş müzakirəsi keçirilmişdir. Bu qanun layihələrindən biri də 1992-ci il iyulun 5-də Naxçıvan MR Ali Məclisində müzakirə və qəbul edilən *"Gömrük haqqında"* qanun olmuşdur [127, 2010, 27 fevral].

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev 1992-ci ilin avqustun 22-26 tarixlərində İranda rəsmi səfərində olarkən, qonşu ölkə ilə müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlıq haqqında sənədlərə imza atmışdı. Tərəflər arasında iqtisadi-ticarət və mədəni-siyasi əlaqələrin genişləndirilməsi üzrə, o cümlədən ticarət əlaqələrinin liberallaşdırılması və gömrük nəzarətinin sadələşdirilməsi, mal mübadiləsinin inkişafına mane olan qadağaların aradan qaldırılması, hər iki tərəfin ticarət nümayəndəliklərinin açılması, birgə müəssisələrin yaradılması və digər sahələrdə razılıq əldə edilmişdi. Araz çayı üzərində İİR-in Qərbi Azərbaycan vilayətinin Poldəşt məntəqəsini və Muxtar Respublikanın Şahtaxtı məntəqəsi ilə birləşdirəcək körpünün istifadəyə verilməsi qərara alınmışdı [96, 654-655].

Şahtaxtı-Poldəşt körpüsünün tikilməsi ümummilli lider Heydər Əliyevin ən böyük arzularından biri idi. Ulu öndər bu məsələni ilk dəfə 1992-ci ilin mayında Naxçıvana rəsmi səfərə gəlmiş İranın Qərbi Azərbaycan vilayətinin nümayəndə heyəti qarşısında qaldırmış, 1992-ci ilin avqustunda İrana etdiyi rəsmi səfəri zamanı imzalanan əməkdaşlıq protokoluna Şahtaxtı-Poldəşt müvəqqəti körpüsünün tikilməsi haqqında ayrıca bənd daxil edildi. Həmin protokolun icrası qısa müddətdə həyata keçirildi və 1992-ci il dekabr ayının 3-də Şahtaxtı-Poldəşt müvəqqəti körpüsünün açılışı oldu. Körpünün açılış mərasimində çıxış edən möhtərəm Heydər Əliyev demişdi: *"Bu keçid məntəqəsinin açılması İran-Azərbaycan əlaqələrinin genişlənməsinə xidmət edir. Mən arzu edirəm ki, daimi körpünün tikintisi də tezliklə başa çatdırılsın və beləliklə, bizim əlaqələrimiz daha da möhkəm-*

*lənsin".*

Naxçıvan MR Nazirlər Kabineti 22 oktyabr 1993-cü il tarixdə Şahtaxtı keçid məntəqəsində gömrük xidmətinin təşkil edilməsi haqqında 203 saylı qərar qəbul etdi.

Muxtar Respublikanın iqtisadi-ticarət əlaqələri və gömrük işinin təşəkkülünün ilkin mərhələsində Heydər Əliyevin prinsipial tələbləri bunlar idi:

– Naxçıvanın sərbəst iqtisadi zona kimi fəaliyyət göstərməsi Muxtar Respublikanın düşdüyü blokada vəziyyətini yüngülləşdirməlidir;

– xarici ticarətin sərbəstləşdirilməsi və gömrük nəzarətinin sadələşdirilməsinə yönəldilən təşkilati tədbirlərin həyata keçirilməsi ilə bərabər idxal-ixrac nəzarətinin hüquqi-normativ qaydaları təkmilləşdirilməlidir;

– muxtar respublikada gömrük-buraxılış məntəqələrinin təşkili və formalaşdırılması işinə icra orqanları tərəfindən son dərəcə ciddi yanaşılmalı və səriştəli kadrlarla komplektləşdirilməlidir.

Naxçıvan MR Ali Məclisinin 16 sentyabr 1992-ci il tarixli sessiyasında *"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin Türkiyəyə səfərinin yekunları haqqında (10-14 avqust 1992-ci il)"* iqtisadi əlaqələrin əhatə dairəsinə daxil olan bu və ya digər məsələlərin həlli yolları müzakirə edilmişdi [124, 1992, 26 sentyabr].

1992-ci ilin aprel-may aylarında ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi sayəsində İran və Türkiyə ilə bağlanmış protokolların tələblərinə əsasən sərhədyanı ticarətin, müştərək bazarların yaradılması təmin edildi. Naxçıvanın iqtisadi resurslarının talanmasının qarşısını almaq, yerli istehsalı dəstəkləmək, sərhədboyu yaradılan gömrük orqanlarının işini koordinasiya etmək və çevik idarəçilik institutu formalaşdırmaq bu dövlət qurumunun yaradılmasını zəruri edən şərtlər idi. Bu məqsədlə çoxillik təcrübəyə və ixtisaslı kadrlara malik olan Culfa gömrükxanasının əməkdaşları yeni yaradılmış Sədərək gömrükxanasının təşkilinə cəlb edildi. Bu tədbirlərin davamı olaraq, 1992-ci il oktyabr ayının 22-də Şahtaxtı gömrük postu yaradıldı. İİR hökuməti ilə aparılan danışıqların nəticəsi olaraq dekabr ayının 3-də Şahtaxtı-Poldəşt keçid məntəqəsi fəaliyyətə başladı.

Türkiyənin Naxçıvanla yaxın bölgələrinə səfəri zamanı Ulu öndər Heydər Əliyev sərhəd mühafizəsi və gömrük əməkdaşları ilə qısa müddətli

görüşündə (aprel, 1993-cü il) faydalı iqtisadi-ticarət əlaqələrinin tənzimlənməsi və iqtisadi təhlükəsizliyin qorunmasında onların üzərinə düşən vəzifələri xatırlatmış və hər iki ölkə vətəndaşlarının sərhəddən rahat gediş-gəlişinin təmin edilməsinin vacibliyini göstərmişdi. Belə bir tarixi şəraitdə Naxçıvan MR-lə Türkiyənin yaxın bölgələri ilə əməkdaşlığı xeyli genişləndi. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov 24 may 1999-cu ildə Türkiyənin xarici işlər, gömrük və sərhəd xidməti, daxili işlər orqanlarının bir qrup rəhbər işçiləri və iş adamlarının daxil olduğu nümayəndə heyəti ilə görüşündə Sədərək-Dilucu gömrük keçidi məntəqələrinin əhəmiyyətini düzgün dəyərləndirməyə və səmərəli istifadə etməyə səsləmişdi. Qəbul zamanı Muxtar Respublika ilə vahid enerji və kommunikasiya əlaqələrinin möhkəmləndirilməsi, aqrar sektorda istehsal olunan məhsulların Türkiyənin yaxın bölgələrinə ixracı və emal üçün şəraitin yaradılması, hər iki tərəfdən gömrük rejiminin sadələşdirilməsi və iş rejiminin uzadılması, Türkiyə tərəfində (Dilucu gömrük məntəqəsi) əməkdaşlarının sayının artırılması kimi məsələlər qaldırılmışdı [66, 1999, 1 iyun].

Qeyd edilməlidir ki, Azərbaycan və Türkiyə gömrük xidmətlərinin əməkdaşlığı 9 sentyabr 1994-cü ildə Ankarada imzalanmış və Türkiyə Cümhuriyyətinin 25 iyun 1996-cı il tarixli Qanunu ilə qüvvəyə minmiş *"Qarşılıqlı idari yardıma ilişkin Protokol"*a əsasən həyata keçirilirdi. Türkiyə Cümhuriyyəti Baş Bakanlığı Gömrük Müstəşarlığı üzrə gömrük idarələrinin 8-ci qrupuna daxil olan Dilucu Gömrük müdirliyi ilə Sədərək Gömrük İdarəsi arasında səmərəli əlaqələr yaradılmışdı. Bu əlaqələr xarici ticarətin gömrük statistikasının metodologiyası və informasiyasının ötürülməsi üzrə qarşılıqlı fəaliyyət, sərhəddən keçirilən mədəni sərvətlərin saxlanılması və qaytarılması məsələləri üzrə qarşılıqlı yardım, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatları və partlayıcı maddələrin, narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq, gömrük hüquq-pozmalarının qarşısının alınması üçün qarşılıqlı inzibati yardım və s. məsələləri əhatə edir. Sədərək-Dilucu gömrük keçid məntəqələrinin xidmətindən ildə 100 mindən çox adam istifadə edir. Hər il 18-20 min nəqliyyat vasitəsi gömrük nəzarətindən keçirilir. Muxtar Respublikanın xarici iqtisadi əlaqələrində Türkiyənin yaxın bölgələri mühüm yer tutur. Naxçıvanda istehsal olunan şəkər çuğundur qonşu ölkənin şəkər fabriklərində emal edi-

lərək hazır məhsul gömrük rüsumuna cəlb edilmədən Muxtar Respublikaya gətirilirdi [98, 199-205].

Beləliklə, Naxçıvanda əsası Heydər Əliyev tərəfindən qoyulan yeni dövlətçilik və idarəetmə modelinin ilk institutlarından biri - Muxtar Respublika Dövlət Gömrük Komitəsi oldu. Ötən illər ərzində Muxtar Respublikanın gömrük sistemi daha da təkmilləşdirildi. 1996-cı ildə toplanılan gömrük vergi və rüsumları Naxçıvan MR dövlət büdcəsinin mədaxil hissəsinin 27 faizini təşkil etdi. 1998-ci ildə xarici ticarət dövriyyəsi, idxal olunmuş elektrik enerjisi nəzərə alınmadan 9,3 mln. ABŞ dollarına çatdı. 1997-ci illə müqayisədə xarici ticarət dövriyyəsinin həcmi 2,5 dəfə, o cümlədən ixrac 1,4 dəfə, idxal isə 3,6 dəfə artmışdı. 1998-ci ildə 6 milyard manat gömrük vergi və yığımları toplandı [115, 36].

2002-ci ildə Naxçıvan MR Dövlət Gömrük Komitəsi üçün yeni inzibati bina tikildi. 2005-ci ilin aprelində tamamilə yenidən qurulan və texniki vasitələrlə təchiz edilən Sədərək Gömrük İdarəsinin gömrük keçid məntəqəsi istifadəyə verildi. Texniki imkanlarına görə MDB məkanında analoqu olmayan bu keçid məntəqəsi gömrük nəzarətinin təkmilləşdirilməsi, qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsinə əlverişli şərait yaratdı. Muxtar Respublikanın gömrük idarələri üzrə dövlət büdcəsinə 2006-cı ildə proqnozda nəzərdə tutulan 2,5 mln. manata qarşı 4,5 mln. manat gömrük ödənişləri daxil edilmişdi. Naxçıvan MR Gömrük Komitəsinin strukturuna daxil olan Culfa, Naxçıvan şəhər və Naxçıvan Beynəlxalq Hava Limanı Gömrük idarələri ilə yanaşı Sədərək Gömrük idarəsində qaçaqmalçılıq və hüquqpozma hallarına qarşı ciddi mübarizə aparılırdı. Təkcə bir il ərzində 174 hüquqpozma faktı aşkar edilərək, 4282 manat cərimə tətbiq edilmişdi. İran və Türkiyədən Muxtar Respublikaya qaçaqmalçılıq yolu ilə 575,9 qr. heroin, 48,5 qr. həşiş və 17,9 qr. tiryəkin gömrük sərhədindən keçirilməsinin qarşısı alınmışdı [69, 2007, 30 yanvar].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il yanvarın 24-də İrana rəsmi səfəri zamanı Şahtaxtı-Poldəşt körpüsünün tikintisi barədə razılıq əldə olundu. Körpü 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti və İİR Baş nazirinin iştirakı ilə istifadəyə verildi. 2007-ci ilin avqustunda Azərbaycan Respublikası Hökuməti ilə İİR Hökuməti arasında *“Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq statusun verilməsi haqqında Memorandum”* imzalandı. Bütövlükdə 5,7

hektar ərazini əhatə edən və tikintisinə 2008-ci ilin mart ayında başlanılan Şahtaxtı sərhəd-keçid məntəqəsində inzibati bina, yük xətti və köməkçi infrastrukturlardan ibarət mükəmməl bir kompleks yaradıldı. Müasir tələblər səviyyəsində üç mərtəbədən ibarət inzibati bina inşa olundu. Binanın birinci mərtəbəsində İrana və əks istiqamətdə hərəkət edən vətəndaşların keçidi üçün iki hissədən ibarət giriş və çıxış zalları, xarici vətəndaşların birbaşa sərhəddə viza ala bilməsi üçün müvafiq kompüter avadanlıqları ilə təchiz olunan xüsusi otaq ayrılmışdır. Gömrük nəzarətinin gücləndirilməsi üçün vizual müşahidəni təmin edən videokameralar quraşdırılmışdır. Vizual müşahidə gömrük qaydalarının pozulması hallarına operativ müdaxiləni təmin edir. Gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi məqsədilə sərnişin avtomaşınlarının hərəkət yolu giriş və çıxış xətlərinə bölünmüş və hər iki istiqamət üzrə baxış quyusu və çardaqla, otaqlar isə kompüter avadanlığı və müasir tələblərə cavab verən texniki nəzarət vasitələri ilə təchiz olunmuşdur [69, 2009, 24 oktyabr].

Gömrük statistikasına əsasən, 2006-cı ildə Naxçıvan MR-ın xarici ticarət əməliyyatlarının 31,3 faizi Türkiyə, 30,5 faizi Finlandiya, 16,6 faizi İran, 5,0 faizi Almaniya, 2,7 faizi Ukrayna, 2,4 faizi Rusiya, bütövlükdə 32 dövlətlə aparılmışdı. 2000-2006-cı illər ərzində Türkiyə ilə ticarət dövriyyəsinin həcmi 7,6 milyon ABŞ dolları olmuşdu.

Təkcə 2006-cı ildə yük gömrük bəyannaməsi tərtib olunmadan (rüsumsuz) ixrac istiqaməti üzrə Muxtar Respublika vətəndaşları tərəfindən 2040709,7 ABŞ dolları həcmində meyvə və tərəvəz məhsulları aparılmışdı. Muxtar Respublikaya 2006-cı ildə idxal edilən 30,9 ton müxtəlif məhsulların 13,5 min tonunu Türkiyədən gətirilən məhsullar təşkil etmişdi [30, 558-559].Son illər Naxçıvan MR-də geniş vüsət alan abadlıq və quruculuq işləri, gömrük sistemini də əhatə etmiş, gömrük orqanlarının beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində işlər aparılır.

2007-ci ildə Culfa Gömrük İdarəsi üçün yeni sərhəd-keçid kompleksi tikilib istifadəyə verildi. 2009-cu il oktyabrın 22-də Şahtaxtı Gömrük İdarəsi üçün inşa olunmuş yeni sərhəd-keçid kompleksinin açılışı oldu. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İİR-in Qərbi Azərbaycan ostandarlığı arasında imzalanmış protokollara uyğun olaraq qarşılıqlı əməkdaşlıq müxtəlif sahələri əhatə edir. Araz çayı üzərində Şahtaxtı-Poldəşt körpüsünün açılışından sonra burada ikinci mühüm obyektin - yeni sərhəd-

keçid kompleksinin istifadəyə verilməsi Azərbaycan-İran əlaqələrinə layiqli töhfə oldu. Culfa gömrükxanasının 24 saatlıq xidmət rejiminə keçməsi, sadələşdirilmiş viza rejiminin tətbiq olunması, blokada vəziyyətində yaşayan Naxçıvanı Azərbaycanın digər əraziləri ilə birləşdirən İran avtomobil yolunda tranzit imkanlarının yaxşılaşdırılması ikitərəfli əlaqələrə möhkəm zəmin yaratdı [47, 2013, 12 may].

Muxtar Respublikanın gömrük orqanları sosial-iqtisadi proqramlarının yerinə yetirilməsində yaxından iştirak edir. *"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)"*na uyğun olaraq infrastrukturun təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi, malların keyfiyyətinin dəqiq müəyyən edilməsi üçün laboratoriya analizlərin keçirilməsi, investisiya qoyuluşu və ixracın stimullaşdırılması istiqamətində işlər görüldü. Yerli istehsalın inkişaf etdirilməsi məqsədilə xaricdən yerli istehsal mallarına adekvat malların gətirilməsi tarif və qeyri-tarif tədbirləri ilə tənzimlənir. Sənaye və kənd təsərrüfatı məhsullarının xaricdən gətirilən malların haqsız rəqabətindən qorunması sahibkarlığın inkişafına şərait yaradıb. İnformasiya mübadiləsinin sürətləndirilməsi məqsədilə Culfa, Sədərək və Naxçıvan hava nəqliyyatında gömrük idarələri ilə Komitə arasında fiberoptik xətlə əlaqə yaradılmışdır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə məlumat mübadiləsi də fiberoptik xətlə təmin olunmuşdur. Xarici iqtisadi fəaliyyət iştirakçıları və gömrük orqanları arasında yaranan problemlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsi, biznes subyektlərinin gömrük işi sahəsində məlumatlılığının artırılması məqsədilə yaradılan "Məsləhət şurası"nın hər il sahibkarlarla görüşləri təşkil olunur. Gömrük statistikasına əsasən, təkcə 2009-cu il ərzində keçirilmiş reydlər nəticəsində 23435 manat dəyərində istifadə müddəti bitmiş ərzaq və qeyri-ərzaq məhsulları satış dövriyyəsindən çıxarılaraq kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə yandırılaraq məhv edilib. Əlavə olaraq, 19544 manat dəyərində müxtəlif adda ərzaq məhsulları satış dövriyyəsindən çıxarılaraq topdansatış müəssisələrinə geri qaytarılmaq üçün gömrük nəzarəti altında Bakı şəhərinə yola salınıb. 2009-cu ildə büdcəyə 3,3 milyon manata qarşı 4 milyon 738

min manat vəsait köçürülüb [128, 2010, 9 fevral].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, muxtar respublikanın gömrük orqanlarında da elektron hökumətə keçid istiqamətində məqsədyönlü tədbirlər görülmüş, komitənin yeni internet saytı yaradılmışdır. Məqsəd gömrük idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılmasına, qərarların qəbulu prosesində şəffaflığın təmin edilməsinə, kargüzarlıq işinin və sənəd dövriyyəsinin elektron formada həyata keçirilməsinə, elektron imzanın tətbiqinə nail olmaqdır. Muxtar respublikanın gömrük orqanlarında eyniləşdirmə nömrəsinin verilməsi, sərnişin bəyannaməsinin tətbiqi, gömrük sərhəd-buraxılış məntəqələrindən keçiriləcək mallar və nəqliyyat vasitələrinin bəyan edilməsi, gömrük rəsmiləşdirməsinə başlamaq üçün müraciət və gömrük orqanlarında xidmət üçün ərizə qəbulu elektron formada həyata keçirilir [110, 2012, 22 fevral].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər Gömrük İdarəsinin yeni inzibati binasının açılışı oldu. Gömrük İdarəsinin yeni, üçmərtəbəli binası gömrük orqanlarının tanınma nişanında əksini tapan açar formasında inşa olunmuşdur. Burada xidməti otaqlar, server və tədris otaqları, arxiv vardır. Müşahidə otağında quraşdırılan 22 nəzarət kamerası ilə eyni vaxtda müşahidə aparmaq olur. Binadakı iclas, konfrans və akt zalları da müasir tələblər səviyyəsində yaradılıb. Elektron lövhələr, proyektorlar və digər informasiya texnologiyaları qurğuları ilə təchiz edilən zallarda müxtəlif beynəlxalq görüş, seminar və tədbirlərin keçirilməsi üçün geniş imkanlar vardır. İnzibati binada gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə, texniki nəzarət vasitələri, həmçinin statistika və informasiya texnologiyaları bölmələri yerləşir. Kompleksdə inzibati bina, yük xətti, rəsmiləşdirmə binaları və gömrük laboratoriyası, kinoloji xidmət yaradılmışdır. Yük xəttində geniş platforma və ümumi sahəsi 2097 kvadratmetr olan iki anbarda "Rapiskan" tipli rentgen qurğuları quraşdırılmışdır. Yük xəttində xüsusi saxlanma şəraiti tələb edən malların yerləşdirilməsi üçün hər birinin tutumu beş ton olan iki soyuducu anbar, tərəzi, yarımstansiya və qazanxana quraşdırılmışdır. Gömrükxanada yaradılan şərait idxal-ixrac prosedurunun sadələşdirilməsi və ümumilikdə gömrük işinin keyfiyyətinin artırılmasında mühüm rol

oynayır. Narkotik və partlayıcı maddələrin, həmçinin gizli saxlanc yerlərinin aşkarlanması, metal və kimyəvi maddələrin tərkibini və radioaktiv sızıntıları müəyyən edən qurğular, baxış alətləri və digər müasir avadanlıq gömrük işini ən yüksək səviyyədə həyata keçirməyə imkan verir. Yeni inşa olunmuş gömrük laboratoriyası da ən yüksək standartlara cavab verir. İkimərtəbəli binada laborator analizlərin götürüləcəyi ayrıca bölmələr və xidməti otaqlar inşa olunmuşdur. İkinci mərtəbədə laborator analizlərin aparılacağı spektrometriya, atom absorbsiya, nümunə və mühitlərin hazırlanması, bakterioloji əkin, inkubasiya, mikroskopiya, avtoklavlama və yuma, xromatoqrafiya, radioloji, fiziki-kimyəvi tədqiqat otaqları, mikrobioloji laboratoriya fəaliyyət göstərir [8, 2012, 31 may].

Naxçıvan MR Ali Məclisi Sədrinin *"Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və Komitənin strukturunun təsdiq edilməsi barədə"* 2012-ci il 5 iyul tarixli Fərmanı verildi. "Əsasnamə"də Komitənin aşağıdakı fəaliyyət istiqamətləri müəyyən edildi. Fərmanda göstərilirdi ki, Komitə: 1) gömrük işi sahəsində dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir; 2) gömrük işini təşkil edir və onun inkişafını təmin edir; 3) gömrük işi sahəsində normayaratma fəaliyyətini həyata keçirir; 4) hüquqmühafizə fəaliyyətini həyata keçirir; 5) Naxçıvan Muxtar Respublikasında qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil edir.

Bu Fərmanla Naxçıvan MR DGK-nın strukturuna daxil idi: 1) Komitənin aparatı; 2) ərazi gömrük idarələri, o cümlədən Naxçıvan Şəhər Gömrük İdarəsi, Sədərək Gömrük İdarəsi, Culfa Gömrük İdarəsi, Şahtaxtı Gömrük İdarəsi və 3) ixtisaslaşdırılmış gömrük idarələri, o cümlədən Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi; 4) digər qurumlar: Naxçıvan Gömrük Ekspertizası İdarəsi, Gömrük Mühafizə Xidməti, "Nazçıvanterminalkompleks" Birliyi və Kinoloji Bölmə [114, 2012, 6 iyul, №125 (20530)].

Beləliklə, müstəqillik illərində qədim gömrük əlaqələrinə malik Naxçıvan MR-də gömrük işi daha da inkişaf etdirilmiş, beynəlxalq standartlara uyğun gömrük infrastrukturu qurulmuşdur. Muxtar Respublika ərazisində fəaliyyətdə olan 3 gömrük-buraxılış məntəqəsi sutkanın 24 saatı ərzində işləyir. Həm yük, həm də sərnişin keçidi ildən-ilə artmaqdadır. Belə ki, təkcə 2013-cü ildə Muxtar Respublikanın gömrükxanalarında 50 min

tondan artıq yükə gömrük baxışı həyata keçirilmiş, 31 ölkə ilə ticarət-iqtisadi əlaqələri yaradılmış, ticarət dövriyyəsinin həcmi 108,7 mln ABŞ dolları olmuşdur [125, 2014, 25 may, №109 (6675)].

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK İŞİNİN HÜQUQİ ƏSASLARININ YARADILMASI

## *2.1. Milli gömrük qanunvericiliyinin formalaşması*

Gömrük işi sahəsində yaranan sosial-ictimai münasibətlər olduqca mürəkkəb və çoxşaxəli xarakter daşıyır. Bu münasibətləri tənzimləyən hüquqi normalar dövlətin siyasi və sosial inkişafının obyektiv təzahürünü əks etdirir. Azərbaycan Respublikasının gömrük sisteminin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Respublika Prezidentinin Fərman və sərəncamları, Milli Məclisin qanunları, digər dövlətlərlə, beynəlxalq təşkilatlarla bu sahədə bağlanan ikitərəfli və çoxtərəfli müqavilə və sazişlər təşkil edir. Gömrük qanunvericiliyi gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən etməklə Azərbaycan dövlətinin iqtisadi və milli təhlükəsizliyinin qorunmasına, gömrük işi sahəsində şəxslərin hüquqlarının müdafiəsi və eləcə də onların öz vəzifələrinin yerinə yetirməsinə yönəlmişdir. Gömrük qanunvericiliyinin yaradılması və təkmilləşdirilməsi sahəsində tarixi ənənələrə malik olan ölkəmiz müstəqillik dövründə bu sahədə böyük təcrübə toplamışdır. Müasir milli gömrük sisteminin daha da inkişaf etdirilməsi ilk növbədə, gömrük siyasətinin formalaşdırılmasının elmi və qanunvericilik əsaslarının işlənilib hazırlanmasından, xarici iqtisadi fəaliyyətin tənzimetmə mexanizminin beynəlxalq tələblərə uyğunlaşdırılmasından birbaşa asılıdır.

Məlumdur ki, hər bir dövlətin xarici ölkələrlə iqtisadi-ticarət əlaqələrində hüquqi baza mühüm rol oynayır. Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə edilməsi haqqında"* 1992-ci il 13 avqust tarixli 136 nömrəli Fərmanı keçmiş Xarici İqtisadi Əlaqələr Nazirliyinə bütün ixrac əməliyyatlarını

tənzimləmək səlahiyyəti verirdi. Fərmanda Nazirlər Kabinetindən ixracı məhdudiyyətlərə məruz qalan malların siyahısının hazırlanması tələb olunurdu. Fərmanı tətbiq etmək üçün Nazirlər Kabineti *"Strateji əhəmiyyətli malların ixracının lisenziyalaşdırılması haqqında"* 1992-ci il 2 sentyabr tarixli 515 nömrəli Qərarı və *"Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə edilməsi haqqında"* 3 noyabr 1992-ci il tarixli 604 nömrəli Qərarı qəbul etdi. Qərar ixracı məhdudlaşdırılmış malların siyahısını və ixrac əməliyyatlarının həyata keçirilməsi ilə bağlı ümumi qaydaları müəyyən edirdi. Xarici İqtisadi Əlaqələr Nazirliyinə həmin sənəddə sadalanan malların ixracı üçün lisenziya vermək səlahiyyəti verilmişdir. Qərar lisenziyaların verilməsi üçün yalnız ümumi qaydaları müəyyən etmişdi. Mühüm əhəmiyyət daşıyan strateji malların ixracı tender əsasında həyata keçirilməli idi. Qərarda göstərilirdi ki, malların ixracından əldə edilən valyuta vəsaitinin istehsalçı müəssisəyə çatan 30 faiz həcmində ayırmaların və xarici ticarət təşkilatının komissiya rüsumu çıxıldıqdan sonra gəlirin qalan hissəsi Respublika Valyuta Fonduna köçürülməlidir [9, 1995, №22, maddə 352].

Azərbaycanda xarici ticarətin liberallaşdırılması 1992-ci ilin avqustunda keçmiş SSRİ-yə daxil olmayan ölkələrdən idxal üzərində tariflərin ləğv edilməsi ilə başlandı. Bu sahədə gömrük-tarif tənzimlənməsinin qaydaya salınması üçün Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasından ixracı məhdudlaşdırılan strateji əhəmiyyətli malların siyahısının təsdiq edilməsi haqqında"* 1992-ci il 10 sentyabr tarixli 118 nömrəli Sərəncamı verildi [28, 1992, 11 sentyabr].

Lakin, o zaman idxalın həcminə tarif dərəcələri ilə yanaşı, digər məsələlər də öz təsirini göstərirdi. İdxalın lisenziyalaşdırılmasının köhnə sistemi mövcud idi. Xarici valyuta əldə etmək imkanı məhdud idi. Rublun kütləvi surətdə nominal devalvasiyası onun real mübadilə məzənnəsinin düşməsinə gətirib çıxarmışdı. Bu isə öz növbəsində idxal mallarının bahalaşmasına səbəb olurdu. Lakin, bütün başlıca maneələr ölkəyə idxal olunan malların axınını dayandıra bilmirdi. Buraya Azərbaycan sərhədlərinin xeyli hissəsinin gömrük strukturları tərəfindən qoruna bilməməsi hallarını da əlavə etsək, ölkədə daxili bazarın və bütövlükdə ölkədəki iqtisadi situasiyanın tənzimlənməsi sahəsindəki vəziyyətin mürəkkəbliyi ilə bağlı aydın təsəvvür yaranmış olar. Digər tərəfdən, qeyri-ərzaq malları ilə

müqayisədə ərzaq mallarına xüsusi rejim tətbiq olunurdu və ölkədə ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə onların idxalı hər cür gömrük vergilərindən azad edilmişdi. Bunun nəticəsində ərzaq məhsullarının idxalı durmadan artırdı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 21 iyul tarixli 401 saylı qərarı ilə "Azərbaycan Respublikası ərazisindən çıxarılarkən gömrük ixrac vergisinə cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük ixrac vergilərinin dərəcələri" (1 nömrəli əlavə); "Müvəqqəti gömrük ixrac vergisi haqqında Əsasnamə" (2 nömrəli əlavə); "Azərbaycan Respublikası ərazisinə gətirilərkən gömrük ixrac vergisinə cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük idxal vergisinin dərəcələri" (3 nömrəli əlavə); "Müvəqqəti gömrük ixrac vergisi haqqında Əsasnamə" (4 nömrəli əlavə); "Gömrük xidməti göstərilməsinə aid xərclərin tarifləri və qaydası haqqında Təlimat" (5 nömrəli əlavə) təsdiq edilmişdi. "Müvəqqəti ixrac vergisi haqqında Əsasnamə" "Ümumi müddəalar", "Gömrük ixrac vergisi hesablanarkən gömrük yük bəyannaməsinin doldurulması qaydası", "Gömrük vergisinin ödənilməsi qaydası" və "Ödəyicilərin məsuliyyəti" adlı 4 bölmədən ibarət idi [38, 1993, №2].

1995-ci il 20 iyun tarixinə kimi qüvvədə olan 1991-ci il 26 mart tarixli *"Gömrük tarifi haqqında"* keçmiş SSRİ Qanunu gömrük qiymətləndirilməsi üçün əsas kimi idxal olunan malların hesab-fakturada göstərilən qiymətini nəzərdə tuturdu. Demək olar ki, bu sövdələşmə qiyməti idi. Bununla belə, bu qanunda ətraflı qiymətləndirmə üsulları göstərilməmişdi. *"Gömrük tarifi haqqında"* 1995-ci il 20 iyun tarixli Qanunun IV fəsli də sövdələşmə qiymətindən əsas qiymətləndirmə üsulu kimi istifadə edir. Bundan başqa, bu qanun həmçinin sövdələşmə qiyməti təyin edilə bilinmədikdə, alternativ üsulları da göstərir. Ümumilikdə bu alternativ üsullar 1994-cü il Tariflər və Ticarət Haqqında Baş Sazişin VII Maddəsinin Tətbiqi Haqqında ÜTT Sazişdə göstərilən üsullara bənzəsə də, onlar ÜTT tələblərinə tam şəkildə uyğun deyildi. Azərbaycan ÜTT-yə üzv qəbul olunduğu təqdirdə, qiymətləndirmə üsullarının ÜTT-nin tələbləri ilə tam uyğunlaşdırması üçün qanunvericilikdə bəzi dəyişikliklər edilməsini tələb edir.

Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasında xarici ticarətin müvəqqəti qaydaları haqqında"* 1994-cü il 15 fevral tarixli 62 nömrəli qərarı Azərbaycan Respublikasında malların (iş və xidmətlərin) ixracı və

idxalın kvotalaşdırılması və lisenziyalaşdırmasının müvəqqəti qaydaları daxil edirdi. Qərar ixracına Xarici İqtisadi Əlaqələr Nazirliyindən lisenziya alınmasını tələb edən malların siyahısını daxil edirdi. 2 və 4 saylı Əlavələrdə sadalanan spesifik malların ixracı müvafiq nazirliklərinin rəylərini və Nazirlər Kabinetinin icazəsini tələb edirdi. Qərar yalnız lisenziyaların alınması üçün ümumi qaydaları müəyyən edirdi.

Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 1994-cü il 27 iyun tarixli qərarı gömrük mexanizmi vasitəsilə ixrac və idxal əməliyyatlarının tənzimlənməsini təmin etməli idi. Bu qərarla 1994-cü il iyulun 1-dən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təqdim etdiyi və əlaqədar təşkilatlarla razılaşdırılmış "Azərbaycan Respublikası ərazisindən çıxarılarkən gömrük ixrac rüsumuna cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük ixrac rüsumlarının dərəcələri", "Gömrük ixrac rüsumu haqqında müvəqqəti Əsasnamə", "Azərbaycan Respublikası ərazisinə gətirilərkən gömrük idxal rüsumuna cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük idxal rüsumlarının dərəcələri", "Gömrük xidmətləri üçün alınan xərclərin tarifləri" və "Gömrük xidmətləri göstərilməsi qaydaları" etibarən tətbiqi rəsmiləşdirildi. Azərbaycan Respublikası ilə ticarətdə qarşılıqlı şərait rejimində olan ölkələrin siyahısına 55 ölkə daxil edilmişdi. Lakin Xarici İşlər və Xarici İqtisadi Əlaqələr Nazirliyinin 1994-cü il dekabrın 31-dək siyahıda göstərilən ölkələrə birtərəfli qaydada əlverişli şərait rejimi tətbiq etməsi barədə məlumat yoxdur.

Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyası (Əsas Qanunu) qanun yaradıcılığı işində, o cümlədən xarici iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi və gömrük xidmətinin hüquqi təminatı istiqamətində qanunların hazırlanması və qüvvəyə minməsi üçün sistem yaradıcı xarakter daşıyır. Əsas Qanunun tələbləri əsasında formalaşan gömrük hüququ gömrük xidmətinin başlıca funksiyası olan xarici iqtisadi əlaqələrin tənzimlənməsinin təməl daşını və onların reallaşmasını həyata keçirir. *"Gömrük tarifi haqqında"* Qanunda gömrük tarifinin mühüm məqsədləri qeyd edilir. Gömrük tarifinin funksiyaları bunlardır: 1) iqtisadi tənzimləmə funksiyası – Azərbaycan Respublikası üzrə idxalın əmtəə strukturunu səmərələşdirir; Azərbaycan Respublikası ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətinin

təmin edir; Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaradır; 2) valyuta nəzarəti funksiyası – valyuta sərvətlərinin Azərbaycan Respublikası gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində nəzarət etməyə şərait yaradır; 3) fiskal funksiya – Azərbaycan Respublikası gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin Əmtəə Nomenklaturasına uyğun olaraq gömrük rüsum dərəcələrini sistemləşdirir; 4) proteksionist funksiya – iqtisadiyyatı xarici rəqabətin mənfi təsirindən qoruyur; 5) inteqrasiya funksiyası – iqtisadiyyatın dünya təsərrüfatı ilə səmərəli inteqrasiyana şərait yaradır.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 1995, 1997, 1999 və 2001-ci illərdə "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu, Gömrük Məcəlləsi, gömrük orqanlarının bayrağı və tanınma nişanlarının təsdiqi haqqında qanunlar və digər qanunvericilik aktları qəbul edilmiş və həmin qanunvericilik aktları Azərbaycan Respublikasında gömrük sisteminin formalaşmasında, gömrük işinin və tarif siyasətinin həyata keçirilməsində mühüm rol oynamışdır. 1995-ci il iyunun 20-də qəbul edilmiş "Gömrük tarifi haqqında" Qanun gömrük siyasətinin tənzimlənməsi istiqamətində əsas normativ-hüquqi sənədlərdən biri oldu. Həmin Qanunun 4-cü maddəsinə əsasən Azərbaycan Respublikasında gömrük rüsumlarının 3 növü müəyyən edilmişdi: advalor (malların gömrük dəyərinə görə hesablanan), spesifik (mal vahidinə görə müəyyən olunmuş dəyərlərə hesablanan) və kombinə edilmiş (hər iki növü birləşdirməklə hesablanan) rüsumlar.

Respublikanın gömrük xidməti orqanları Gömrük Məcəlləsi və "Gömrük tarifi haqqında" Qanunla müəyyən edilmiş funksiyalarının ardıcıl həyat keçirilməsi bu təşkilatın hökumətin iqtisadi siyasətinin həyata keçirilməsində rolu və yerini daha da möhkəmləndirdi. Gömrük-tarif mexanizminin təkmilləşdirilməsi və onun çevik iqtisadi mexanizmə çevrilməsi dövlət büdcəsi gəlirlərinin yaradılmasında gömrük rüsum və vergilərinin xüsusi çəkisini artırdı: 1995-ci ildəki 5,2 faizdən 1998-ci ildə 23,4 faizə çatdırdı və bu səviyyə sabit saxlanıldı [77, 12].

Gömrük tariflərinin müxtəlif əsaslar üzrə təsnifatının əhəmiyyəti bundadır ki, hər bir istiqamətdə gömrük rüsumlarının tətbiqinə daha real yanaşma mümkün olur. Məsələn, ixrac və ya idxal mallarını tənzim etdiyinə görə ixrac və idxal tarifləri, tariflərin inkişaf üsulundan asılı olaraq sadə və

mürəkkəb tariflər və s. fərqləndirilir. Hüquqi təbiətinə görə gömrük tarifləri avtonom, konvension (müqavilə) və avtonom-konvension tariflər kimi təsnifləşdirilə bilər. Tədqiqatçı V.Əliyev düzgün olaraq gömrük tarifinin 4 mühüm elementdə birləşdiyini qeyd edir: 1) gömrük rüsumları, onların dərəcələri və növləri; 2) malların qruplaşdırması sistemi; 3) malın gömrük dəyəri və onun müəyyən edilmə metodları; 4) tarif güzəştləri, preferensiya və üstünlükləri [65, 12-14].

1996-cı ilə qədər gömrük orqanlarının bu sahədə səlahiyyəti heç bir hüquqi-normativ sənədlə təsbit edilmədiyindən idxal olunan malların "invoys" qiymətlərinə nəzarət mexanizmini qurmaq və gömrük dəyərini düzgün müəyyən etmək mümkün deyildi. Nəticədə mühüm növ məhsullar dünya bazarında heç bir qiymətə uyğun gəlməyən, əksər hallarda düşünülmüş şəkildə azaldılan müqavilə qiymətləri ilə idxal edilmiş, lakin istehlakçılara onsuz da baha qiymətə satılırdı. Respublika Nazirlər Kabineti tərəfindən Dövlət Gömrük Komitəsinin əlaqədar dövlət strukturlarına müraciəti və əməli təklifləri nəzərə alınaraq bu cür halların qarşısını almaq məqsədilə bir sıra tədbirlər görüldü.

Azərbaycan Hökuməti 1996-cı il 26 sentyabr tarixli 88/S saylı sərəncamla Azərbaycan Respublikasının *"Gömrük tarifi haqqında"* Qanunu tətbiq edilənə qədər gömrük orqanları tərəfindən idxal olunan malların minimum şərti qiymətlərini müəyyən etdi. Respublika Prezidentinin 1996-cı il 6 avqust tarixli 481 saylı Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi qaydaları"nın 8-ci bəndinə müvafiq olaraq keçmiş Xarici İqtisadi Əlaqələr Nazirliyi tərəfindən əvvəlcə 1996-cı il 11 oktyabr tarixli 39 saylı, sonra isə 1997-ci il 10 yanvar tarixli 1 saylı əmrlərlə daxili bazarda mühüm əhəmiyyət kəsb edən malların siyahısı və idxal qiymətlərinin hədlərinə yenidən baxıldı. Lakin "qiymət hədlərinin" tətbiqi kimi bu cür inzibatçılıq metodu dünya gömrük təcrübəsinə, gömrük tarif tənzimləməsinin prinsiplərinə, ümumiyyətlə, bazar münasibətlərinə uyğun gəlmirdi. Bu isə özlüyündə bir çox əlavə problemlər, o cümlədən tarif dərəcələrinin yüksəldilməsi zərurətini yaratdı [78, 16-17].

Gömrük işi sahəsində ən mühüm hüquqi sənəd hesab edilən Gömrük Məcəlləsinin işlənilib hazırlanması Azərbaycan Respublikasının qanunverici orqanı olan Milli Məclisin yığıncaqlarında və müvafiq komissiyalarında geniş müzakirə obyekti oldu. 1996-cı ilin sentyabr ayında Milli Məclisin

Büdcə məsələləri üzrə Komissiyası tərəfindən yaradılmış işçi qrupu Azərbaycan Respublikası Gömrük Məcəlləsinin layihəsini hazırlayıb rəy üçün bütün əlaqədar nazirlik və idarələrə göndərdi. Məcəllənin layihəsi DGK-nın bütün şöbələrində, Bakı Baş Gömrük İdarəsində və Sumqayıt gömrükxanasında gömrük işi üzrə ən təcrübəli mütəxəssislər cəlb edilməklə müzakirə edildi. Ümumiyyətlə layihənin hazırlanması prosesində 2500-dən çox rəy və təkliflər daxil olmuşdu, onların bir qismi layihədə əksini tapmışdı. Mütəxəssislərin rəyinə görə, Məcəllə layihəsinin ən böyük üstünlüyü onun həmin dövrün beynəlxalq gömrük hüququnun tələblərinə cavab verməsi idi. Layihənin hazırlanması prosesində Rusiya, Türkiyə, Belorus, Qazaxıstan, Qırğız respublikaları və digər dövlətlərin gömrük qanunvericiliyi təcrübəsi hərtərəfli öyrənilmişdi. Türkiyə Cümhuriyyətinin zəngin təcrübəyə malik gömrük ekspertləri layihənin ilkin variantı ilə tanış olmuş və müsbət dəyərləndirmişdilər [69, 1997, 21 may, №8(34)].

Gömrük nəzarətinin bir sıra mövcud norma və qaydaların Gömrük Məcəlləsinə uyğunlaşdırılması üçün işlər aparılırdı. Respublika Nazirlər Kabinetinin 1996-cı il 16 dekabr tarixli 172 nömrəli Qərarına əsasən 1997-ci il yanvarın 1-dən etibarən ixrac olunan mallara onların nəticələrindən asılı olaraq ixrac rüsumları ləğv olundu. Hökumətin bu qərarı emal müəssisələrinin xarici bazara çıxışını xeyli asanlaşdırdı. Hökumətin digər bir qərarı ilə idxal gömrük rüsumlarında da dəyişikliklər edildi. Malların növündən və gömrük dəyərindən asılı olmayaraq 15 faiz dərəcə ilə idxal gömrük rüsumuna cəlb olunmasına başlanıldı. Belə bir qaydanın tətbiqi gömrük idxal rüsumlarının yığılması işini təkmilləşdirdi. Bununla bərabər, mövcud qanunvericilik gömrük rüsumlarından azadolmaların xüsusi çəkisinin xeyli azalmasına səbəb oldu. Belə ki, 1998-ci ilin hesabatına görə respublikaya idxal olunan malların 44,4 faizini və ya 548,2 milyon ABŞ dollarını hökumətin müvafiq qərarı ilə "0" (sıfır) dərəcəsi ilə rüsuma cəlb olunan mallar; 10 faizə qədərini və ya 123,4 milyon ABŞ dollarını vergilərdən azad olunan mallar (investisiya, beynəlxalq kredit, humanitar yardım və s.) təşkil etmişdi. Bütövlükdə respublikaya idxal olunan malların 54 faizindən çoxu qanunvericiliyə uyğun olaraq gömrük rüsumundan azad edilmişdi. Ümumi idxalın 21,7 faizi və ya 268 milyon ABŞ dolları dəyərində müxtəlif mallar 5 faiz dərəcəsi üzrə, idxalın 23,7 faizi, yaxud 292 milyon ABŞ dolları dəyərində isə gömrük dəyərinin 15 faizi həcmində rüsuma cəlb olunmuşdu.

Əlavə dəyər vergisi üzrə "0" (sıfır) dərəcəsi tətbiq edilmiş idxal isə ümumi idxalın 318,5 milyon ABŞ dollarını və ya 25,8 faizini; vergitutma obyekti hesab olunmayan MDB ölkələrində idxal isə ümumi idxalın 397,4 milyon ABŞ dollarını və ya 32,2 faizini; təyinatı üzrə azad olmalar isə ümumi idxalın 130,8 milyon ABŞ dollarını və ya 10,6 faizini təşkil etmişdi. ƏDV üzrə vergitutma obyektinə daxil olmayan idxalın həcmi 829,6 milyon ABŞ dolları və ya ümumi idxalın 67,2 faizinə bərabər idi. Hesablamalara görə, göstərilən il üzrə ümumi idxalın yalnız 32,8 faizi və ya 405 milyon ABŞ dolları əlavə dəyər vergisinin vergitutma obyekti olmuşdu.

1997-ci il ərzində DGK-nın müvafiq qurumları tərəfindən normativ sənədlərin hazırlanması və mövcud sənədlərin Gömrük Məcəlləsinə, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası qanununa uyğunlaşdırılması sahəsində işlər sistemli xarakter aldı. Belə ki, "Azərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında Əsasnamə və fondun vəsaitinin xərclənməsi qaydaları"; "Azərbaycan Respublikasının görük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları"; "Müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsumları və vergiləri ödənilməsindən tamamilə və ya qismən azad edilməsi qaydaları"; "Azərbaycan Respublikası Gömrük Məcəlləsi ilə müəyyən olunmuş qaydada gömrük fəaliyyətinin növləri üzrə lisenziyalarının verilməsinə görə alınan yığım dərəcələri haqqında Əsasnamə"nin layihələri hazırlandı [5, 170; 24, 30 aprel 1998-ci il №4].

DGK-nın mütəxəssisləri tərəfindən *"Azərbaycan Respublikası gömrük orqanları tərəfindən girovdan istifadə edilməsi haqqında Əsasnamə"nin layihəsi; "Gömrük mədaxil orderinin doldurulması və onun tətbiqi ilə gömrük tədiyyələrinin ödənilməsi qaydaları haqqında Təlimat"; "Azərbaycan Respublikası ərazisindən gətirilən mallara əlavə dəyər vergisinin tətbiq edilməsi qaydaları haqqında Təlimat"; "Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri haqqında Əsasnamə"; "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində bankların və digər kredit təşkilatların reyestrə salınma haqqında müraciətlərinə baxılması qaydaları"; "Artıq ödənilmiş və ya alınmış gömrük ödənişlərinin qaytarılması qaydaları"; Azərbaycan Respublikası ərazisinə idxal olunmuş mallara və minik avtomobillərinə aksiz vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimat"*

hazırlanaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçirildi. Azərbaycan Respublikası Nazirlər Kabineti 1998-ci il 12 yanvar tarixli 7 saylı Qərarı ilə idxal və ixrac olunan malların gömrük dəyərinin müəyyən edilməsində qayda yaratmaq məqsədilə DGK-nın təklifinə əsasən *"Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları"*nı təsdiq etdi. DGK isə öz növbəsində *"Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri haqqında"* Əsasnamə hazırlayaraq Gömrük Məcəlləsinin tələblərinə uyğun qaydada Ədliyyə Nazirliyində qeydiyyatdan keçirdi. Tarif tənzimləmə tədbirlərinin davamı kimi, 1996-cı ilin iyunun 1-dən aksiz vergilərinin tətbiqinə başlanıldı, daha sonra aksiz mallarının idxalının lisenziyalaşdırılmasına başlanıldı [69, 1998, 29 iyul, №27 (79)]

Respublika Nazirlər Kabinetinin *"Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqında"* qanun layihəsinə rəy və təkliflər, Nazirlər Kabinetinin 1995-ci 24 aprel tarixli 90 nömrəli və 1995-ci il 6 aprel tarixli 76 nömrəli qərarları arasında mövcud olan uyğunsuzluğu aradan qaldırmaq üçün alınan ödənclər haqqında" və *"Dövlət Gömrük Komitəsi tərəfindən gömrük orqanlarının maliyyə-təsərrüfat fəaliyyətinin təftişinin həyata keçirilməsi qaydaları haqqında"* təlimatlar hazırlandı və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Komitənin rəhbərliyi tərəfindən müvafiq əmrlə təsdiq edildi [24, 1997, 30 sentyabr, №3, maddə 216].

"Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 1996-cı il 8 oktyabr tarixli Qanunu ilə 1995-ci il fevralın 10-da Almatı şəhərində imzalanmış Saziş təsdiq edildi.

*"Azərbaycan Respublikasının gömrük-buraxılış məntəqələrindən fiziki şəxslər tərəfindən istehsalat və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların keçirilməsinin qaydaları haqqında"* Nazirlər Kabinetinin 1995-ci il 19 avqust tarixli 184 nömrəli qərarının yeni layihəsi hazırlandı və Nazirlər Kabinetinin *"MDB hüdudları kənarında respublikaya gətirilən minik avtomobillərinə aksiz vergisi tətbiq edilməsi haqqında"* 1996-cı il 27 mart tarixli 35 nömrəli Qərarına dəyişikliklər edilməsi

haqqında təkliflər verildi.

DGK-nın mütəxəssisləri Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 1996-cı il tarixli 527 saylı Fərmanının icrasının təmin edilməsi məqsədilə *"Azərbaycan Respublikası ərazisində bütün növ etil (yeyinti) spirtinin istehsalı, saxlanması, alkoqollu içkilərin və tütün məmulatının istehsalı, idxalı üçün lisenziya verilməsi, onların pərakəndə satışı, idxal olunan və ölkədə istehsal edilən həmin məhsullara aksiz markaların tətbiq olunması qaydaları haqqında"* qərar layihəsinin hazırlanmasında iştirak etmiş, həmçinin Nazirlər Kabinetinin göstəriş məktubuna müvafiq olaraq, Azərbaycan Respublikası ərazisinə idxal olunan alkoqollu içkilərə, etil (yeyinti) spirtinə və tütün məmulatlarına aksiz markalarının tətbiq olunması Qaydaları və *"Azərbaycan Respublikası ərazisinə idxal olunmuş aksiz markaları ilə markalanmalı olan alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatlarının inventarizasiyasının aparılması qaydaları"* işlənib hazırlanmışdı. Respublika Prezidentinin 1996-cı il 20 dekabr tarixli 527 saylı Fərmanına müvafiq olaraq Baş Dövlət Vergi Müfəttişliyi ilə birlikdə *"İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikası Məcəlləsi"*nə aksiz markası olmadan alkoqollu içkilərin, etil spirti və tütün məmulatlarının idxalı və satışına görə məsuliyyəti nəzərdə tutan müvafiq əlavə və dəyişikliklər edilməsi barədə təkliflər hazırlanıb təqdim edilmişdi.

Azərbaycanda gömrük işinin formalaşmasında mühüm rol oynayan 1997-ci il tarixli Gömrük Məcəlləsi aşağıdakı məsələləri əhatə edirdi: gömrük prosedurаları, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti, gömrük rüsumları və yığımları, valyuta nəzarəti, gömrük rejimləri, gömrük güzəştləri, gömrük statistikası, gömrük işi sahəsində cinayətlər, gömrük orqanlarının təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyəti, gömrük orqanlarının vəzifəli şəxslərinin statusu, gömrük orqanlarının qərarlarına şikayət etmək qaydası, mallar və nəqliyyat vasitələri üzərində sərəncam verilməsi və əldə edilən vəsaitlərdən istifadə edilməsi, məlumatlandırma və məsləhət vermə. Halbuki 1991-ci ilin sovet Gömrük Məcəlləsi yalnız idxal, ixrac və tranzit gömrük rejimlərini nəzərdə tuturdu. Buna görə də gömrük rejimlərini tətbiq etmək məqsədilə DGK bir sıra qaydaları qəbul etmişdi. Lakin Gömrük Məcəlləsində nəzərdə tutulan bütün Gömrük rejimlərini dəqiqləşdirən qaydalar hazırlanmamışdı. Məsələn, Gömrük nəzarəti altında emal, sərbəst Gömrük zonası, sərbəst anbar və Gömrük ərazisindən kənarda emal

rejimlərini tətbiq edən qanunvericilik mövcud deyildi. Bütün bunları nəzərə alaraq beynəlxalq təşkilatlarla birgə Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin qəbul olunması istiqamətində işlər aparılırdı.

1991-ci il tarixli Gömrük Məcəlləsi ilə müqayisədə 1997-ci ilin Gömrük Məcəlləsi daha ətraflı və bazar iqtisadiyyatına daha uyğunlaşdırılmış bir sənəd idi. Sovet gömrük qanunvericiliyində əsasən gömrük işi sahəsində cinayətlər haqqında müddəalara böyük yer ayrılmışdı. Məsələn, 1991-ci ilin sovet Gömrük Məcəlləsində bu mövzuya sənədin üçdə bir hissəsi həsr olunmuşdu. 1997-ci ilin Gömrük Məcəlləsindən isə bu müddəalar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin və İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsindən sonra çıxarılmışdı. Milli Məclisin 1992-ci il 28 oktyabr tarixli Qərarı ilə qüvvədə olan Gömrük Məcəlləsində cəmi 3 gömrük rejimi nəzərdə tutulduğu halda 1997-ci il Gömrük Məcəlləsinə 15 gömrük rejimi daxil edilmişdi [93, 1997, 21 may, №8(34)].

Dünya təcrübəsi göstərir ki, xarici ticarətin daxili bazarla səmərəli əlaqəsinin təmin edilməsi, idxalın əmtəə strukturunun yaxşılaşdırılması, malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaradılması gömrük tarifinin təkmilləşdirilməsini və düzgün tətbiqini tələb edir. Bu baxımdan Dövlət Gömrük Komitəsinin hüquqi fəaliyyətində mühüm məsələlərdən biri də idxal olunan malların gömrük dəyərini düzgün təyin edilməsi olmuşdur. İdxalçılar arasında haqsız rəqabətin qarşısının alınması, vergitutma obyektini düzgün müəyyən etməklə vergi və rüsumların həcminin tarif dərəcələrinin yüksəldilməsi hesabına deyil, beynəlxalq təcrübədə qəbul olunmuş qaydalara əməl etməklə nail olmaqdan ibarətdir. Azərbaycanda bu proses iqtisadi islahatlar çərçivəsində və məntiqi ardıcıllıqla həyata keçirildi. Bu işlərdən ən mühümü isə idxal olunan malların qiymətinə nəzarət etməklə gömrük dəyərini düzgün müəyyənləşdirilməsi idi. Milli iqtisadiyyatın dirçəldilməsinin mühüm amili kimi gömrük-tarif mexanizmlərindən fəal istifadə olunması nəticəsində həm gömrük vergi və rüsumlarının dinamikası artdı, həm də gömrük daxilolmalarının strukturunda əlverişli meyl formalaşdı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 22 mart tarixli 24 saylı qərarının 10-cu bəndinə müvafiq olaraq *"Azərbaycan Respublikası ərazisinə idxal olunan alkoqollu içkilərə, etil (yeyinti) spirtinə və tütün məmulatına aksiz markalarının tətbiq edilməsi qaydaları"* haqqında

təlimat işlənib hazırlanmış və Maliyyə Nazirliyi ilə razılaşdırılaraq təsdiq edilmişdi. Qərarın icrasının təmin edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş və aksiz markalarının tətbiqi ilə əlaqədar hazırlıq işləri görülmüş, çap edilmiş aksiz markalarının qəbulu və yerləşdirilməsi təmin edilmişdi. DGK sədrinin müvafiq əmr layihəsi, inventarizasiya aktları və markaların alınmasına ərizə formalarının nümunələri hazırlanaraq, markaların tətbiqi ilə əlaqədar kütləvi-informasiya orqanları vasitəsilə məlumatlar verilirdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 21 iyul tarixli 81 saylı qərarına müvafiq olaraq *"Azərbaycan Respublikası gömrük-buraxılış məntəqələrindən keçirilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi haqqında Təlimat"*a əlavə və dəyişikliklər edilməsi barədə təkliflər hazırlanmışdı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 25 dekabr tarixli 140 nömrəli Qərarı ilə *"Azərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında əsasnamə və fondun vəsaitinin xərclənməsi qaydaları"* təsdiq edildi.

Hesablamaya görə, 1994-1996-cı illər arasında idxal tariflərinin orta səviyyəsi 15 faizə bərabər idi. Qeyd etmək lazımdır ki, 1997-ci ilə qədər Azərbaycanın tarif sisteminin elmi-metodoloji cəhətdən zəif əsaslandırılırdı. Bu isə öz növbəsində xarici ticarətin səmərəli inkişafına mane olurdu. 1997-ci il yanvarın 1-dən Azərbaycan 15 faizlik vahid gömrük dərəcəsi olan unifikasiya edilmiş tarif sisteminə keçdi, ixraca bütün vergilər ləğv olundu. Azərbaycan Respublikası Prezidentinin *"Xarici ticarətin liberallaşdırılması haqqında"* 1997-ci il iyul ayında verdiyi 609 saylı fərmanına əsasən, ixrac-idxal əməliyyatlarında qeyri-tarif məhdudiyyətlərinin hamısı ləğv edildi. Beləliklə, 1996-1997-ci illərdə Azərbaycanın xarici ticarəti tamamilə liberallaşdırıldı. Bundan sonra ərzaq və qeyri-ərzaq malları idxalının yeni mərhələsi başlandı [24, 31 iyul 1999, №7, maddə 422; 138, 4].

Azərbaycan Hökumətinin xarici ticarət əməliyyatları zamanı tutulan gömrük rüsumlarının tənzimlənməsi məsələləri 1999-cu il 27 fevral tarixində qəbul etdiyi *"Nazirlər Kabinetinin 22 aprel 1998-ci il tarixli "İxrac-idxal əməliyyatları zamanı gömrük rüsumlarının dərəcələri haqqında" qərarına dəyişikliklər və əlavələr"* haqqında Qərarında öz əksinin tapdı.

2001-ci ilin ortalarından xarici ticarət əməliyyatlarının gömrük

tənzimlənməsinin diferensiallaşdırılmış tarif sistemi daxili istehsalı dəstəkləməklə yanaşı, yeni texnika və texnologiya idxalına dəstək verdi. Tarif dərəcələrinin ən yüksək həddi 15 faiz olmaqla MDB məkanında ən optimal göstərici idi. Xarici ticarət əlaqələrinin tarif tənzimlənməsi *"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirməsinə görə alınan yığımların miqdarı haqqında"* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarı və sonrakı illərdə bu qərara edilmiş dəyişikliklər və əlavələrə əsasən advalor, aksizli mallara isə spesifik rüsumlar tətbiq olunurdu.

Tədqiq olunan dövrdə gömrük-tarif tənzimlənməsi və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi və gömrük-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli işlər görüldü. Spesifik rüsumların advalor rüsumlarla əvəz edilməsi mərhələli qrafikə əsasən yerinə yetirildi. Nazirlər Kabinetinin qərarı ilə daha 6 mal qrupunda spesifik rüsumlar advalor rüsumlarla əvəz edirdi. Bundan əlavə, istehsalı genişləndirmək və ixraca əlverişli şərait yaratmaq məqsədilə eyni adlı malların idxalına tələb olunan gömrük tarif dərəcələrinə yenidən baxıldı. Daxili bazarın qorunması və yerli istehsalın həvəsləndirilməsi üçün bir sıra tədbirlər görüldü. Belə ki, həmin qərara əsasən xarici ticarət balansına daxil olan 16672 əmtəənin 5235-i (31,4 faiz) 15 faizlik dərəcə ilə idxal rüsumuna cəlb edildi. Bununla yanaşı, 2757 əmtəədən (16,5 faiz) 0,5 faizlik, 2098 əmtəədən (12,6) isə 0 faiz, 1 faiz, 3 faiz, 5 faiz, 10 faizlik dərəcə ilə idxal rüsumu tətbiq olundu. Cəmi 6582 adda (39,5 faiz) əmtəənin spesifik gömrük rüsumuna cəlb edilməsi nəzərdə tutulurdu. Qanunvericilik aktına görə, gömrük ixrac vergilərinin malların (işlərin, xidmətlərin) müqavilələrə əsasən satıldığı valyuta ilə ödənilməsi və Azərbaycan hökumətinin xarici ölkələrlə azad ticarət sazişi olduğu təqdirdə ikitərəfli asılılığa əsasən malların idxalına və ya ixracına gömrük vergisinin tətbiq olunması təsbit edildi. Diferensiallaşdırılmış tarif sisteminin qəbul edilməsi gömrük idxal rüsumlarının orta dərəcəsini xeyli qaldırdı. Bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkə üçün bu demək olar ki, normal hal idi.

Gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti zamanı gömrük orqanları ilə xarici iqtisadi əlaqələrin iştirakçıları arasında vasitəçilik funksiyalarını yerinə yetirən

gömrük brokerlərinin və onların gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərinin fəaliyyəti tənzimləndi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Gömrük brokeri haqqında Əsasnamənin və Azərbaycan Respublikasında gömrük brokeri fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları"*nın təsdiq edilməsi haqqında 1998-ci il 1 may tarixli 101 nömrəli Qərarında qeyd olunur ki, gömrük brokeri (vasitəçi) - Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış, *"Müəssisələr haqqında"* Azərbaycan Respublikasının Qanununa uyğun fəaliyyət göstərən və Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi"nin və bu "Əsasnamə"nin müddəalarına əsasən gömrük brokeri fəaliyyəti üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsindən müəyyən olunmuş qaydada lisenziya almış hüquqi şəxsdir (maddə 1.1). Gömrük brokerinin fəaliyyəti, onun təmsil etdiyi şəxsin tapşırığı ilə və onun hesabına öz adından malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi əməliyyatlarının həyata keçirilməsindən və gömrük işi sahəsində digər vasitəçilik funksiyalarının yerinə yetirilməsindən ibarətdir (maddə 1.2). Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 173 nömrəli Qərarı ilə "Əsasnaməyə" əlavə və dəyişikliklər edildi [24, 31 may 1998-ci il, №5, maddə 343].

Gömrük tariflərinə nəzarət etmək və gömrük tariflərinin qabaqcadan xəbərdar edilmədən qaldırılmasının qarşısını almaq məqsədilə 1989-cu ildə Brüsseldə Gömrük tariflərinin dərc edilməsi üzrə Beynəlxalq İttifaqın yaradılması haqqında Konvensiya qəbul edilmişdir. Bu İttifaqın əsas vəzifələrindən birini üzv dövlətlərin milli gömrük tariflərinin və milli gömrük qanunvericiliklərinin unifikasiyası təşkil edir. İttifaq həmçinin malların nomenklatura və gömrük tariflərinin təsnifatı haqqında xüsusi müqavilə layihəsinin işlənib hazırlanması və qəbul olunmasının təşəbbüsçüsü kimi çıxış edir. Gömrük tarifləri sahəsində məlumat mübadiləsi ilə əlaqədar müddəalar dövlətlər arasında imzalanmış ikitərəfli müqavilələrdə də əks etdirilir. Məsələn, Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası hökumətləri arasında gömrük işi sahəsində qarşılıqlı əməkdaşlıq haqqında Sazişin (2000-ci il 8 fevral tarixli Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmişdir) 3-cü maddəsində göstərilir ki, gömrük idarələri bir-birini istər sorğu, istərsə də öz xüsusi təşəbbüsləri ilə gömrük tarifləri ilə əlaqədar məsələlərin dəqiqliyinin təmin edilməsinə kömək edə biləcək məlumatlarla təmin etməlidir [65, 12-13].

Beləliklə, Gömrük tarif tənzimlənməsi aşağıdakı tədbirlərin həyata keçirilməsini təmin etməli idi:

– gömrük idarəetmə və nəzarət sisteminin gücləndirilməsi;

– gömrük ödənişlərinin daha dəqiq sistemləşdirilməsi;

– beynəlxalq iqtisadi əlaqələrin daha yüksək səviyyədə tənzimlənməsi üçün seçmə üsullar vasitəsi ilə gömrük ödəncləri siyahısına antidempinq, kompensasiya, xüsusi ödənclər kimi yeni ödənclərin daxil olmasına şərait yaradılması;

– gömrük ödənclərinin fiskal, proteksionist və tənzimləmə funksiyalarını təmin etmək üçün yeni, daha səmərəli tarif dərəcələrinin hesablanması;

– milli bazarın aşağı keyfiyyətli məhsullardan qorunması probleminin həlli.

Məlumdur ki, inkişaf etməkdə olan hər bir ölkədə iqtisadi islahatların ilk mərhələlərində gömrük-tarif siyasətində fiskal funksiya üstünlük verilməsi zərurəti yaranır. Ölkəmizdə bu təcrübədən geniş istifadə edilmişdir. 1995-2011-ci illərdə Azərbaycan Respublikasının dövlət büdcəsinə daxil olan gömrük ödənişlərinin dinamikasının təhlili göstərir ki, dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında gömrük ödənişlərinin xüsusi çəkisi azalsa da, mütləq rəqəmlərin artımı yüksələn xətlə davam etdi. Bu o deməkdir ki, məbləğ etibarilə gömrük vergi və rüsumları büdcə artımına uyğun olaraq proqnozlaşdırılması və bu zaman ötən dövrün vergitutma bazası, ilin makroiqtisadi göstəriciləri, eyni zamanda gömrük tarif siyasətinin stimullaşdırıcı və tənzimləyici tədbirlərin nəzərə alınması təcrübədə özünü doğruldur. Bütün bunlar Azərbaycan Respublikasının gömrük işi təcrübəsində gömrük tarifinin fiskal funksiyasının kifayət qədər mühüm yer tutduğunu təsdiq edir [76, 2005, №1, 15; 80, 2003, 16 sentyabr, №213(1850)].–

Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasının Gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların Gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları haqqında"* 1998-ci il 12 yanvar tarixli 7 nömrəli Qərar *"Gömrük tarifi haqqında"* Qanunun müddəalarını təkrarlayaraq daha ətraflı müddəalardan ibarətdir. Bundan başqa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 12 yanvar tarixli, 7 nömrəli qərarı ilə

təsdiq edilmiş *"Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları"*na əlavələr və dəyişikliklər edilməsi haqqında" 2003-cü il 17 dekabr tarixli 159 nömrəli Qərarla dəyişikliklər edildi. Bu sənədin qəbul edilməsi malların gömrük qiymətləndirilməsi üzrə gömrük orqanları arasında operativ qarşılıqlı əlaqənin və zəruri koordinasiyanın təşkil edilməsinə, eləcə də gömrük orqanlarına metodiki köməklik göstərilməsi və qiymət intizamının daha da gücləndirilməsi üçün qiymət-məlumat bazasının yaradılmasına, hər bir əmtəə kodu üzrə məlumat bazası rəsmiləşdirilən mallar üzrə gömrük dəyərinin təyin edilməsinə imkan verdi.

Gömrük işində idxal edilən malın mənşə ölkəsinin müəyyən edilməsi ticarət siyasətinin tətbiqi nöqteyi-nəzərindən mühüm bir məsələdir. Məsələn, hər hansı bir ölkə ilə sərbəst ticarət sazişi olduqda, bu sazişdən irəli gələn güzəştlər mənşəyi yalnız saziş iştirakçısı olan ölkədə olan mallara tətbiq olunmalıdır. Qloballaşan dünyada isə bir malın istehsalında bir neçə ölkələrin istehsalçıları iştirak edə bilərlər, buna görə bu malın mənşə ölkəsinin müəyyən edilməsi üçün beynəlxalq səviyyədə qəbul olunan qaydaların işlənib hazırlanması istiqamətində ekspertlərin böyük səylərinə baxmayaraq, yekun rəyə gəlmək mümkün olmayıb. Hazırda ÜTT üzvləri üçün qaydaların əsasları Uruqvay Raundu Sazişləri çərçivəsində razılaşdırılmışdır. Əvvəllər Azərbaycan Respublikasında *"Gömrük tarifi haqqında"* keçmiş SSRİ-nin 1991-ci il 26 may tarixli Qanununda göstərilən malın mənşə ölkəsi qaydaları tətbiq olunurdu. Bu qanunun 16-cı maddəsi emal və təkrar emal olunan mallar daxil olmaqla, malın mənşə ölkəsini müəyyən etmək üçün başlıca qaydaları müəyyən edirdi. Malın mənşə ölkəsi 1995-ci il 20 iyun tarixli *"Gömrük tarifi haqqında"* Qanunun 5-ci fəsli və Nazirlər Kabinetinin 2000-ci il 2 noyabr tarixli 202 nömrəli Qərarı ilə təsdiqlənmiş *"Malın mənşə ölkəsinin təyin edilməsi Qaydası"* ilə tənzimlənir. Bu qaydalar *"Sərbəst ticarət haqqında"* Azərbaycan Respublikası ilə bir sıra ölkələr arasında imzalanmış, sazişlərin qüvvəyə minməsi ilə əlaqədar *"Gömrük Tarifi haqqında"* Qanunun və Müstəqil Dövlətlər Birliyi hökumətləri Başçıları Şurasının 1993-cü il 24 sentyabr və 1996-cı il 18 oktyabr tarixli qərarları ilə təsdiq edilmiş *"Malın mənşə ölkəsinin müəyyən edilməsi Qaydası"*nın müddəalarına uyğun olaraq hazırlanmışdır. "Qaydalar" MDB üzvü ölkələri arasında 1994-cü il aprelin 15-də Moskva şəhərində

imzalanmış *"Sərbəst ticarət zonasının yaradılması haqqında"* Sazişə uyğunlaşdırılıb. MDB üzvü ölkələri sərbəst ticarət rejimindən istisnalar barədə razılığa gələ bilmədiklərinə görə, MDB çərçivəsində sərbəst ticarət zonası qüvvəyə minməmişdir. Əsas səbəb Rusiyanın bu Sazişi ratifikasiya etməməsi və digər köməkçi sazişlərin bütün MDB ölkələri tərəfindən imzalanmaması idi. Buna baxmayaraq, MDB ölkələri arasında sərbəst ticarət haqqında bir sıra ikitərəfli sazişlər imzalanıb və MDB çərçivəsində qəbul olunmuş *"Malın mənşə ölkəsinin müəyyən edilməsi Qaydaları"* onlara tətbiq edilir. 2000-ci il noyabrın 30-dan MDB-nin *"Malın mənşə ölkəsinin müəyyən edilməsi Qaydaları"* yeni qaydalarla əvəzlənmişdir. Digər ölkələrlə münasibətdə isə yuxarıda göstərilən 2000-ci il 2 noyabr tarixli Qərar tətbiq edilir. Fikrimizcə, bu sahədə malın mənşə ölkəsinin müəyyən edilməsi Qaydaları haqqında ÜTT Sazişinin tələblərini yerinə yetirmək və beynəlxalq harmonizasiyaya nail olmaq məqsədilə bəzi dəyişikliklər edilə bilər. Malların mənşə ölkəsi barədə ilkin qiymətləndirilməsi, inzibati qərarların yenidən baxılması və malın mənşə ölkəsinin təyin edilməsi zamanı təqdim edilən məlumatın məxfiliyi kimi məsələlərə xüsusi diqqət yetirilməlidir.

Azərbaycan Respublikasına idxal olunan mallardan gömrük rüsumları və vergilərdən başqa gömrük rəsmiləşdirilməsi yığımları da alınır. Bu yığımların məbləği idxal rüsumlarını tənzimləyən sənədlərdə paralel olaraq müəyyən edilir. Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında"* 2001-ci il 12 aprel tarixli 80 nömrəli Qərarına əsasən gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların məbləği malın gömrük dəyərinin 0,15 faiz təşkil edir. Gömrük orqanlarının iş vaxtından kənar vaxtda və müəyyən edilmiş yerdən kənarda rəsmiləşdirilməsinə görə gömrük yığımları ikiqat miqdarda alınır.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında hasilatın pay bölgüsü haqqında sazişlərə əsasən Azərbaycan Respublikasının payına düşən neft məhsullarının neft kəməri vasitəsi ilə ixracı, habelə dövlət zəmanətli kreditlər hesabına alınmış uçuş aparatlarının, eləcə də pasport və şəxsiyyət vəsiqələri blanklarının idxalı üzrə hər bir yük gömrük bəyannaməsi üçün malın dəyərindən asılı olmayaraq 275 ABŞ dolları miqdarında yığımları alınırdı. Azərbaycan Respublikasının gömrük

sərhədindən qrant haqqında müqaviləyə əsasən qrant kimi alınan maddi yardım, humanitar və texniki yardım məqsədi ilə, habelə Azərbaycan Respublikası ərazisində yerləşən diplomatik nümayəndəliklərin rəsmi və onların heyət üzvlərinin şəxsi istifadəsi üçün keçirilən mallar və nəqliyyat vasitələri, elektrik enerjisinin qarşılıqlı ötürülməsində gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları tutulmurdu. Gömrük Yük Bəyannaməsinin hər bir əlavə vərəqi üçün sövdələşmə xarakterindən asılı olmayaraq 5 ABŞ dolları məbləğində ödənc alınırdı. Azərbaycan Respublikasının gömrük sərhədindən tranzit gömrük rejimi altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə 30 ABŞ dolları, hər əlavə Tranzit Yük Bəyannamələri üçün 10 ABŞ dolları miqdarında gömrük yığımları alınırdı. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən (o cümlədən müvəqqəti gətirilən) nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün 20 ABŞ dolları, digər nəqliyyat vasitələri üçün 15 ABŞ dolları alınırdı. Bütün gömrük yığımları Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla ödənilir.

Azərbaycan Respublikasında ixrac mallarından tutulan vergi 1995-1997-ci illərdə tətbiq olunur. İxrac vergisi *"İxracat vergisi haqqında"* 1995-ci il 28 mart tarixli 1002 nömrəli Qanunla tənzimlənir. Bu qanuna uyğun olaraq ixracat vergisinin obyektini Azərbaycan Respublikasının hüdudlarından kənara sərbəst dönərli valyuta ilə satılan strateji məhsullar təşkil edir. Strateji məhsulların siyahısı üçün Prezidentin *"Azərbaycan Respublikasından ixracı məhdudlaşdırılan strateji əhəmiyyətli malların siyahısının təsdiqi haqqında"* 1992-ci il 10 sentyabr tarixli 118 nömrəli Sərəncamı və Nazirlər Kabinetinin *"Strateji əhəmiyyətli malların ixracının lisenziyalaşdırılması haqqında"* 1992-ci il 22 sentyabr tarixli 515 nömrəli Qərarı ilə tənzimlənirdi. Hər iki sənəd *"İxracat vergisi haqqında Azərbaycan Respublikası Qanununun qüvvədən düşməsi barədə"* 1997-ci il 13 iyun tarixli 332-IQD nömrəli Qanunla ləğv edilib.

Azərbaycan Respublikası və Rusiya Federasiyası hökumətləri arasında *"Hava əlaqəsi və hava nəqliyyatı"* sahəsində əməkdaşlıq haqqında 1993-cü il 22 noyabr tarixli Sazişin (Saziş 29 may 1996-cı il tarixli Qanun ilə təsdiq edilmişdir) 15-ci maddəsinin 1-ci hissəsində deyilir ki, tərəflərdən birinin təyin edilmiş aviasiya müəssisəsinin müqavilə xətlərində istismar etdiyi

hava gəmiləri, habelə onların tabel əmlakı, yanacaq və sürtgü materialları ehtiyatı, gəmi ehtiyatları (o cümlədən, ərzaq, içkilər və tütün məmulatı) tərəflərin ərazisindən gətirildikdə bütün gömrük rüsumlarından və başqa vergilərdən azad edilir, bu şərtlə ki, həmin əmlak, materiallar və ehtiyatlar geriyə qaytarılana qədər bu hava gəmisində qalsın. Bununla əlaqədar müddəalar Azərbaycan Respublikasının digər dövlətlərlə imzaladığı müqavilələrdə də əks olunmuşdur. Məsələn, Azərbaycan Respublikası ilə İİR hökumətləri arasında Hava nəqliyyatı haqqında 2002-ci il 20 may tarixli Sazişin (Saziş 2002-ci il 2 iyul tarixli Qanun ilə təsdiq edilmişdir) 6-cı maddəsi və s. Qanunun 37-ci maddəsi ilə gömrük rüsumlarından azad edildiyi ikinci hal dənizdə balıq ovlayan Azərbaycan Respublikası gəmiləri və Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxta) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək məqsədilə Azərbaycan Respublikasının gömrük ərazisindən çıxarılan maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq və başqa əmlak, habelə həmin gəmilərdə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən vətəgəçilik məhsullarıdır. Qanunun 34-cü maddəsi ilə gömrük rüsumlarından azad edilən üçüncü hal rəsmi və ya şəxsi istifadə üçün xarici ölkələrin nümayəndələri tərəfindən, yaxud Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə bu cür malları rüsumsuz gətirmək və rüsumsuz çıxarmaq hüququna malik fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallardır. *"Gömrük tarifi haqqında"* Qanunun 34-cü maddəsinə görə gömrük sərhədi ərazisindən çıxarılan Azərbaycan Respublikasının valyutası və bu ərazidən gətirilən xarici valyutalar (numizmatika məqsədilə istifadə olunanlardan başqa) və qiymətli kağızlar gömrük rüsumundan azad edilir [65, 24-25].

*"Gömrük proseduralarının sadələşdirilməsi və uzlaşdırılması haqqında"* Beynəlxalq Konvensiyada göstərilirdi ki, gömrük ərazisinə daxil olan gəmidə və ya təyyarədə daşınan ehtiyatlar, onların orada qalması şərti ilə, idxal rüsum və vergilərindən azad olunur. Beynəlxalq səviyyədə malların vahid təsnifatının olması xarici ticarət qarşısında maneələrin aradan qaldırılması üçün olduqca vacib bir məsələdir. Gömrük rüsumları cədvəlində malların təsnifatı bir neçə inkişaf mərhələsindən keçmişdir. Bunu nəzərə alaraq, Dünya Gömrük Təşkilatı çərçivəsində bu istiqamətdə müvafiq işlər görülmüş, 14 iyun 1983-cü il tarixdə Malların təsviri və

kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında beynəlxalq Konvensiya (HS Konvensiyası) qəbul olunmuşdur. Azərbaycan Respublikasının gömrük rüsumları cədvəlləri mütəmadi dəyişikliklərə məruz qalır. HS Konvensiyasının 3-cü maddəsinə uyğun olaraq, razılaşan tərəflər öz idxal və ixrac ticarətinə aid statistik məlumatları Harmonikləşdirilmiş Sistemin altı rəqəmli koduna, yaxud bu cür məlumatların dərc edilməsinin kommersiya sirri və ya dövlət təhlükəsizliyi mənafeyi kimi müstəsna səbəblərə görə qadağan edilmədiyi təqdirdə, həmin tərəfin təşəbbüsü ilə bundan da geniş təfərrüatlı təsnifata uyğun olaraq dərc edir. Keçmiş SSRİ HS Konvensiyasının iştirakçısı idi və 1990-cı ildə doqquz rəqəmli xarici iqtisadi fəaliyyətinin əmtəə nomenklaturasını (XİN ƏN) qəbul etmişdi. Bu nomenklatura HS təsnifatı əsasında hazırlanmışdı. Müstəqillik illərində Azərbaycan bu nomenklaturadan istifadə etməyə davam edir.

Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatları üzrə gömrük vergiləri tariflərinin dərəcələri haqqında"* 1993-cü il 21 iyul tarixli 401 nömrəli; *"Azərbaycan Respublikasının ixrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında"* 1994-cü il 27 iyun tarixli 252 nömrəli; *"Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında"* 1995-ci il 24 aprel tarixli 90 nömrəli; *"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında*" 1997-ci il 16 iyun tarixli 62 nömrəli; *"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımlarının miqdarı haqqında"* 2001-ci il 12 aprel tarixli 80 nömrəli və *"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarına dəyişiklik edilməsi barədə"* 2003-cü il 22 dekabr tarixli 161 nömrəli qərarları xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsini hüquqi cəhətdən əsaslandırır.

Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında"* 1996-cı ildə 6 avqust 481 nömrəli Fərmanına 1 saylı Əlavədə sadalanan malların ixracı üçün müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyata alınması, həmçinin gömrük orqanlarına təqdim edilməsi tələb olunurdu. Fərmana 2 saylı Əlavədə

sadalanan malların ixracı Nazirlər Kabinetinin sərəncamını tələb edirdi. Bu Fərmana 3 saylı Əlavə ixracı üçün müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyata alınması tələb olunan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) siyahısını daxil edirdi. Xarici İqtisadi Əlaqələr Nazirliyindən Fərmana 3 saylı Əlavədə sadalanan malların ixracı ilə bağlı müvafiq dövlət orqanlarında ekspert rəylərinin alınması tələb olunurdu. 481 nömrəli Fərman Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında"* 1996-cı il 17 dekabr tarixli 520 nömrəli Fərmanı ilə ləğv olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti 1997-ci il 24 iyunda *"Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında"* 609 nömrəli Fərmanı qəbul etdi. Bu Fərmanla Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 dekabr tarixli 520 nömrəli Fərmanı ləğv olundu. Fərman idxal-ixrac əməliyyatlarına dair tənzimlənmə qaydalarını müəyyən edir. Fərmana 1 saylı Əlavədə sadalanan müəyyən malların idxalı və ixracı üçün Nazirlər Kabinetinin sərəncamı tələb olunurdu.

Nazirlər Kabinetinin sərəncamı silah və hərbi texnikanın, onların istehsalı üçün zəruri olan ehtiyat hissələrinin, barıt, partlayıcı maddələrin, partlayış və pirotexnika vasitələrinin, nüvə materiallarının, texnologiyaları, avadanlıqları və qurğuları, o cümlədən xüsusi qeyri-nüvə materiallarının, radioaktiv şüalanma mənbələrinin, radioaktiv tullantılar da daxil olmaqla, Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrin və psixotrop maddələrin, habelə kimyəvi zəhərlərin, silahlanma və hərbi texnikanın yaradılması üçün istifadə olunan elmi-texniki məlumatların və texnologiyalarının, material və avadanlıqların ayrı-ayrı növlərinin, eləcə də qan komponentlərinin və onlardan hazırlanan preparatların idxalı üçün tələb olunur. Fərmanın 8-ci maddəsinə uyğun olaraq, 2 saylı Əlavədə əks etdirilən mallar üçün bağlanan bütün idxal müqavilələri İqtisadi İnkişaf Nazirliyində ekspertizadan keçirilməli və qeydiyyata alınmalıdır. İqtisadi İnkişaf Nazirliyindən idxal və ixrac olunan mallara dair 2 saylı Əlavədə sadalanan müvafiq dövlət orqanlarından ekspert rəylərinin alınması tələb olunur. Ərizəçi idxal müqaviləsini qeydiyyatdan keçirmək üçün müəyyən sənədləri İqtisadi İnkişaf Nazirliyinə təqdim etməlidir. Fərmanda bitkilərin mühafizəsi üçün istifadə edilən kimyəvi vasitələrin, baytarlıq təbabətində tətbiq edilən baytarlıq dərman-

larının, bioloji preparatları və baytarlıq ləvazimatların, dərman preparatların, o cümlədən Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələrin və tibbi ləvazimatların idxalı üçün müqavilələrin ekspertizadan və qeydiyyatdan keçirilməsi tələb olunur. İxrac müqaviləsini qeydiyyata almaq üçün ərizəçi müəyyən sənədləri İqtisadi İnkişaf Nazirliyinə təqdim etməlidir. Fərman çöl heyvanları, yabanı bitkilər və qazıntılarda tapılmış heyvan sümükləri, vəhşi heyvanlardan və yabanı bitkilərdən dərman istehsalı üçün xammal; ilan, böyə və əqrəb zəhərləri, Azərbaycan Respublikası ərazisində quruda və dəniz iqtisadi zonası hüdudlarında yerləşən istilik enerji və mineral xammal yataqları haqqında və rayonlar üzrə məlumat, ixtiralar, "Nou Hau" və elmi tədqiqat (ixrac nəzarətinə düşənlər istisna olmaqla) işlərinin nəticələri, incəsənət əsərləri, kolleksiya əşyaları və əntiq mallar, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələrin ixracı üçün müqavilələrin ekspertizadan keçirilməsini və qeydiyyata alınmasını tələb edir.

*"Gömrük tarifi haqqında"* Qanunun icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 aprel tarixli Sərəncamı ilə *"Azərbaycan Respublikası vətəndaşları tərəfindən Azərbaycan Respublikası ərazisinə gətirilən və ya onların ünvanına göndərilən gömrük rüsumu tutulmalı olan malların siyahısının təsdiq edilməsi haqqında"* Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 15 sentyabr tarixli 133 nömrəli Sərəncamı qüvvədən salındı [9, 30 sentyabr 1998, №4, maddə 256].

Azərbaycan da daxil olmaqla MDB üzvü ölkələri 1995-ci il noyabrın 3-dən Dünya Gömrük Təşkilatının HS təsnifatına əsaslanan vahid əmtəə nomenklaturası qəbul etdilər. Altı rəqəmli HS təsnifatı əsasında qurulan doqquz rəqəmli sistemi 1997-ci il yanvarın 1-də qüvvəyə mindi. Beləliklə, Azərbaycan Respublikasının *"Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya düzəliş protokoluna qoşulması barədə"* 2000-ci il 2 may tarixli 872-IQ nömrəli Qanununa əsasən HS Konvensiyasına qoşulmasına baxmayaraq, respublikamızda gömrük rüsumları cədvəli 2000-ci ildən əvvəl də HS əsasında tərtib edilmişdi. Azərbaycan Respublikasının gömrük rüsumları cədvəli 12 aprel 2001-ci ildən HS-1996 əsasında qurulub. 2003-cü il dekabrın 22-dən isə gömrük rüsumları cədvəli Beynəlxalq Harmonik Sistemin yeni variantına (HS-2002) uyğunlaşdırılması məqsədilə on rəqəmli

təsnifat sisteminə keçirildi.

Azərbaycanda gömrük orqanlarının həyata keçirdiyi iqtisadi fəaliyyət dövlət büdcəsi gəlirlərinin doldurulmasına xidmət edirdisə, 16 aprel 2001-ci ildən Azərbaycanın yeni gömrük-tarif sistemi qəbul edildi ki, bu tariflər də gömrük orqanları üçün fiskal funksiyaları deyil, eyni zamanda tənzimləyici və qoruyucu funksiyaları həyata keçirmək imkanını yaratdı. Beləliklə, 2001-ci ildə, yeni tarif sisteminin qəbul edilməsi gömrük orqanlarının fəaliyyətində tamamilə yeni bir dövrün başlanğıcını qoydu. Bu onunla əlaqədardır ki, artıq ölkədə qeyri-neft sektorunun ayrı-ayrı sahələrinin inkişafı baş verirdi və bu inkişafın normal həyata keçirilməsi üçün fiskal sektor real sektora öz köməkliyini göstərməyə başladı. Gömrük siyasətinin əsas istiqamətlərinə uyğun olaraq tarif tənzimlənməsinin diferensiallaşdırılmış sisteminə üstünlük verildi. Azərbaycanda tarif dərəcələrinin ən yüksək həddi 15 faizdir ki, bu da MDB məkanında ən optimal göstəricidir. Obyektiv zərurətdən bir sıra mallara spesifik rüsumlar tətbiq olunsa da, bu cür rüsumlar malın keyfiyyətini, real qiymətini nəzərə almağa imkan vermədiyindən spesifik rüsumların advalor rüsumlarla əvəzlənməsi prosesi başa çatdırıldı. Bu tədbirdən sonra gömrük idxal rüsumları üzrə orta tarif dərəcəsi 8,3 faizdən 5,7 faizə düşdü.

Milli Məclisin *"Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında"* Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Qanun 2000-ci il martın 24-də qüvvəyə mindi. Beynəlxalq Konvensiyanın 1-ci maddəsində göstərilir ki, a) "gömrük" dedikdə, gömrük qanunvericiliyinin, idxal və ixrac rüsumlarının, vergilərinin həyata keçirilməsinin təmin olunması, həmçinin yükün digər idxal, tranzit və ixracına aid başqa qanun və qaydalara görə məsuliyyət daşıyan dövlət xidməti nəzərdə tutulur; b) "gömrük nəzarəti" dedikdə, riayət olunmasına görə gömrüyün məsuliyyət daşıdığı, qanun və qaydaların yerinə yetirilməsini təmin etmək məqsədilə həyata keçirilən tədbirlər nəzərdə tutulur [24, 30 aprel 2002-ci il, №4, 2-ci kitab, maddə 252].

Milli Məclis 2001-ci il sentyabrın 28-də Moskva şəhərində 12 dövlət tərəfindən imzalanan *"Tərkibində əqli mülkiyyət obyektləri olan malların gömrük sərhədindən keçirilməsi üzərində gömrük nəzarəti Qaydaları haqqında Qərar*"ı təsdiq etdi. Bu Qanun 2002-ci il aprelin 4-ü qüvvəyə mindi [24, 30 aprel 2002-ci il, №4, 1-ci kitab, maddə 162].

Gömrük nəzarəti əqli mülkiyyətin qorunmasında da əhəmiyyətli yer tutur. Əqli mülkiyyət hüquqların pozulması ilə istehsal olunan malların ölkəyə gətirilməsinin qarşısı məhz gömrük xidməti tərəfindən alına bilər. Lakin Gömrük Məcəlləsi 1997-ci ildə qəbul olunanda əqli mülkiyyətin qorunması haqqında müddəalar nəzərdə tutulmamışdı. Buna görə də 2004-cü ildə Gömrük Məcəlləsinə əqli mülkiyyətin qorunması ilə bağlı dəyişiklik və əlavələrin edilməsi zərurəti yarandı. Bundan başqa Gömrük Komitəsi tərəfindən *"Azərbaycan Respublikasının gömrük sərhədindən tərkibində əqli mülkiyyət obyektləri olan malların keçirilməsi zamanı gömrük nəzarətinin aparılması"* 2005-ci il 3 avqust tarixli 74 nömrəli əmrlə tərkibində əqli mülkiyyət obyektləri olan malların keçirilməsi zamanı gömrük baxışı aparılması haqqında xüsusi qaydalar qəbul olunmuşdur. Bütün bu dəyişikliklərin nəticəsində tərkibində əqli mülkiyyət obyektləri olan malların olması əlamətləri aşkar olunarsa, belə malların buraxılışı gömrük orqanları tərəfindən dayandırıla bilər. Mədəniyyət sərvətləri xüsusi mədəni və tarixi əhəmiyyət kəsb etdikləri üçün onların gömrük sərhədindən keçirilməsi üçün də xüsusi qaydalar mövcuddur. Bu sahədə gömrük nəzarəti Azərbaycan Respublikası DGK-nın 2003-cü il 12 dekabr tarixli 118 nömrəli əmrlə təsdiqlənmiş *"Mühafizə siyahısına daxil edilmiş mədəniyyət sərvətlərinin fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları"* əsasında aparılır. Bu sahədə ümumi siyasət mədəniyyət sərvətlərinin ixracını məhdudlaşdırılması istiqamətində aparılır.

Azərbaycan Respublikası Prezidentinin *"Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında"* 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanına lisenziyalaşdırılmaya məruz qalan bütün fəaliyyət növlərinin siyahısı daxil edilir. Bu Fərmana əsasən etil (yeyinti) spirti, alkoqollu içkilər, tütün məmulatının və prekursorların idxalı üçün lisenziya almaq tələb olunur. Fərmanda lisenziya almaq üçün qaydalar müəyyən olunur və cavabdeh dövlət orqanları sadalanır. Qeyd olunmalıdır ki, tütün və tütün məmulatının idxalı həmişə lisenziyalaşdırma tələblərinə meylli olmasına və ya məruz qalmasına baxmayaraq, tütün və tütün məmulatının idxalına xüsusi icazəni tələb edən *"Tütün və tütün məmulatı haqqında"* Azərbaycan Respublikasının 2001-ci il 8 iyun tarixli 138-IIQ nömrəli Qanunu qəbul edilmişdir. Azərbaycan

Respublikası Nazirlər Kabinetinin *"Bəzi istehlak mallarının istehsalı və dövriyyəsi ilə əlaqədar dövlət tənzimlənməsinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 289 nömrəli Fərmanının icrası barədə"* 2005-ci il 21 dekabr tarixli 235 nömrəli Qərarı alkoqollu içkilər, etil (yeyinti) spirti, tütün məmulatının idxalı üçün əlavə şərtləri müəyyən edir.

*"Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatın aparılması və hüquqpozmaların aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Beynəlxalq Konvensiya"* (1977-ci il) gömrük sahəsində meydana çıxan pozuntuların qarşısının alınmasında dövlətlərin əməkdaşlığına yönəldilib. Beynəlxalq Konvensiya və onun I-X Əlavələrinə qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 3 aprel 2002-ci ildə qüvvəyə mindi. Beynəlxalq Konvensiyaya olan Əlavələrə aşağıdakılar daxil idi: "Öz təşəbbüsü ilə Gömrük İdarəsi tərəfindən yardım (əlavə I)"; "İdxal və ixrac rüsum və vergilərinin təyin edilməsində sorğu əsasında yardım (əlavə II)"; "Sorğu əsasında nəzarət tədbirləri ilə bağlı yardım (əlavə III)"; "Sorğu əsasında müşahidə ilə bağlı yardım (əlavə IV)"; "Sorğu əsasında Razılığa gələn Tərəfin adından arayış və bildirişlər (əlavə V)"; "Gömrük vəzifəli şəxslərinin xaricdəki məhkəmə və ya tribunalların qarşısında çıxışı (əlavə VI)"; "Razılığa gələn Tərəflərdən birinin gömrük vəzifəli şəxslərin digər Razılığa gələn Tərəfin ərazisində iştirakı (əlavə VII)"; "Xaricdə aparılan təhqiqatlarda iştirak (əlavə VIII)"; "Məlumatın toplanması (əlavə IX)"; "Narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılığına qarşı aparılan fəaliyyətə yardım (əlavə X)" [24, 31 mart 2002-ci il, №5, maddə 229].

2003-cü il dekabrın 26-da *"Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında"* Beynəlxalq Konvensiyanın dəyişdirilməsi haqqında Protokola və "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya (dəyişdirilmiş redaksiyada) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Beynəlxalq Konvensiyanın Preambulasında göstərilirdi ki, beynəlxalq ticarət şərtlərinin asanlaşdırılmasının gömrük nəzarəti qaydalarına xələl gətirməməsi üçün aşağıdakı prinsiplər gözlənilməlidir: gömrük qaydalarının və prosedurlarının daim təkmilləşdirilməsinə və effektivliyinin artırılmasına yönəldilmiş proqramların gerçəkləşdirilməsi; gömrük qaydalarının

və prosedurаlarının tətbiqi zamanı öncədən bəllilik, ardıcıllıq və açıqlıq; maraqlı tərəflərə gömrük işi üzrə qanunlar, normativ hüquqi və inzibati aktlar, gömrük qaydaları və prosedurаları barədə bütün zəruri informasiyanın verilməsi; riskin idarə olunması və audit metodları əsasında nəzarət və informasiya texnologiyalarından maksimum praktik istifadə kimi müasir iş metodlarının tətbiqi; digər milli orqanlarla, digər dövlətlərin gömrük və ticarət birlikləri ilə bütün zəruri hallarda əməkdaşlıq; müvafiq beynəlxalq standartların tətbiqi; maraqlı tərəflərin bu və ya digər işə inzibati və məhkəmə qaydasında baxılması prosedurаları ilə maneəsiz tanış olması [24, 31 dekabr 2003-cü il, №12, II kitab, maddə 712].

2004-cü il mayın 14-də *"Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında"* Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi [24, 30 iyun 2004-cü il, №6, maddə 400].

*"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının paylanması haqqında"* 2005-ci il 28 iyun tarixli Qanunu prekursorların idxalı üçün xüsusi icazənin (lisenziya) alınmasını tələb edir. Qanunda xüsusi icazənin verilməsi qaydaları müəyyən olunmur. Qanunda nəzarət edilən məhsulların siyahısı müəyyən olunmur. Bu cür siyahı *"Azərbaycan Respublikası ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikası ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında"* 2005-ci il 28 iyun tarixli Qanunla müəyyən olunur. Prekursorların idxalı üçün qaydalar yuxarıda göstərilən Prezidentin 782 nömrəli Fərmanında göstərilir. Lakin bu Fərman yalnız prekursorların idxalı ilə bağlıdır.

Ölkəmizin müharibə şəraitində olması isə ərazimizə malların idxalı, ixracı və tranziti zamanı həmin mallarla aparılan iqtisadi əməliyyatların məqsədlərini dəqiqliklə yoxlamağa xüsusi imkan yaradır. Bu hüquqi rejimin aktuallığını nəzərə alaraq Azərbaycan hökuməti *"İxrac nəzarəti haqqında"* Qanunun qəbul edilməsi məqsədilə Milli Məclis qarşısında təşəbbüs irəli sürdü. Azərbaycan Respublikasının Milli Məclisi 2004-cü il 26 oktyabr tarixdə *"İxrac nəzarəti haqqında"* Azərbaycan Respublikasının Qanununu qəbul etdi və 2004-cü il 29 dekabr tarixdə Qanunun qəbul edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti Fərman imzaladı Bu qanun dövlət

orqanları tərəfindən ixrac nəzarətinin həyata keçirilməsinin hüquqi əsaslarını və ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) Azərbaycan Respublikasının gömrük sərhədlərinin keçirilməsi qaydalarını müəyyən edir. İxrac nəzarəti ölkənin siyasi, hərbi və iqtisadi maraqlarını təmin etməlidir.

Azərbaycan Respublikası Prezidentinin *"İxrac Nəzarəti haqqında"* Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 29 dekabr tarixli 167 nömrəli Fərmanı ixrac nəzarətinə düşən mal və xidmətlərin siyahısının hazırlanmasını və xüsusi icazənin verilməsi qaydalarının müəyyən etdirilməsini Nazirlər Kabinetinə tapşırdı. Bu Qanun həm hərbi, həm də mülki məqsədlər üçün istifadə edilə bilən ikili təyinatlı mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə ixrac nəzarətini həyata keçirmək üçün əsasları müəyyən edir. Qanunun 1-ci maddəsinə əsasən, ixrac nəzarəti – ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) Azərbaycan Respublikası ərazisinə gətirilməsi, bu ərazidən çıxarılması və tranzitinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara uyğun həyata keçirilməsini təmin edən tədbirlər kompleksi başa düşülür. İxrac nəzarəti əslində hüquqi rejim və nəzarət mexanizmdir. Adına baxmayaraq, Qanun həmçinin həm sənəddə sadalanan malların idxalına və tranzitinə də tətbiq olunur. Qanun bu cür malların ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün müvafiq dövlət orqanlarından xüsusi icazənin alınmasını tələb edir. Bu mallar kütləvi qırğın silahları və onların çatdırılma (daşınma) vasitələri daxil olmaqla, hərbi təyinatlı malları; kütləvi qırğın silahlarının, silahların, hərbi texnikanın və sursatların yaradılmasında və hazırlanmasında istifadə oluna bilən ikili təyinatlı malları (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələrini); partlayıcı və radioaktiv maddələr, materiallar, radioaktiv mənbəli ionlaşdırıcı şüa mənbələri, qurğuları; müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi, o cümlədən son istifadəsinə və ya istifadəçisinə görə ixrac nəzarətinə düşən digər malları (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələrini) əhatə edir. Bu cür malların müvafiq HS nömrələri ilə dəqiq siyahısı və xüsusi icazənin verilməsi qaydası Nazirlər Kabinetinin 15 dekabr 2005-ci il tarixli Qərarında göstərilmişdir. Qanunun 13-cü maddəsində göstərilir ki, *"Azərbaycan Respublikası üzv olduğu ixrac nəzarəti sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların, həmçinin tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq*

*müqavilələrin şərtlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün kütləvi qırğın silahlarının yayılmaması rejiminin təmin edilməsi və möhkəmləndirilməsi ilə bağlı məsələlər üzrə digər beynəlxalq təşkilatların fəaliyyətində, habelə bu sahədə çoxtərəfli və ikitərəfli tədbirlərdə iştirak edir"* [24, 31 dekabr 2004-cü il, №12, maddə 975].

Azərbaycan Respublikası Nazirlər Kabineti 2005-ci il 15 dekabr tarixində *"İxrac Nəzarəti haqqında"* Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" 230 nömrəli qərarı qəbul etdi. Qərarda həm hərbi, həmdə mülki məqsədlər üçün istifadə oluna bilən ikili təyinatlı malların idxalı üçün xüsusi icazənin alınması tələb olunur. Qərar xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının siyahısını təsdiq edir. Qərarda xüsusi icazənin verilməsi qaydaları müəyyən olunur və xüsusi icazənin verilməsindən imtinaya səbəb ola bilən əsaslar sadalanır. Qərarda həmçinin xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması qaydaları müəyyən olunur.

Hal-hazırda, Azərbaycan Respublikasında ixrac əməliyyatları Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı, Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanı, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 17 aprel tarixli 457 nömrəli, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli qərarı, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli 218 nömrəli Fərmanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 iyul tarixli 135 nömrəli Qərarı və Azərbaycan Respublikasının *"Mədəniyyət haqqında"* 1998-ci il 6 fevral tarixli 430-İQ nömrəli və "İxrac nəzarəti haqqında" 2004-cü il 24 oktyabr tarixli Qanunlarla tənzimlənir. Müəyyən malların ixracı lisenziyanı, müqavilələrin qeydiyyatını, Nazirlər Kabinetinin sərəncamı və müvafiq dövlət orqanlarının (ikili təyinatlı malların ixracı üçün) xüsusi icazəsini tələb edir.

Azərbaycan Respublikası Prezidentinin "Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə" 2001-ci il 17 aprel tarixdə imzaladığı 457 nömrəli Fərmanına uyğun olaraq bu malların

ixracı 2001-ci il aprelin 18-dən etibarən dayandırıldı.

Tranzit malların qonşu dövlətlərə və son istifadəçilərə hansı məqsədlə aparılmasının aşkar olunması isə gömrük işinin ən "həssas" tərəfidir. Çünki həm mülki, həm də hərbi təyinatlı malları tranzit edən dövlət bir müddətdən sonra həmin mallardan hərbi məqsədlə Azərbaycana və digər dövlətlərə qarşı istifadə edə bilər. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikası ərazisində radiasiya təhlükəsizliyinə nəzarəti gücləndirmək tədbirləri haqqında"* 1997-ci il 11 iyul tarixli 76 nömrəli qərarı ölkə ərazisində radiasiya təhlükəsizliyinə müntəzəm nəzarəti mövcud norma və qaydaların tələblərinə uyğun təmin edilməsi və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi məqsədi daşıyır. Həmin qərarla respublikaya gətirilən və respublikadan çıxarılan, eyni zamanda respublika ərazisindən keçən tranzit yüklərə daim radiasiya nəzarəti aparmaq məqsədilə bütün sərhəd keçid məntəqələrində stasionar avtomatik radiasiya nəzarəti cihazlarının quraşdırılması vəzifəsi Dövlət Gömrük Komitəsinin üzərinə qoyuldu. DGK-dən tabeliyində olan və mülkiyyət formasından, fəaliyyət növündən asılı olmayaraq hər hansı müəssisə, idarə və təşkilat tərəfindən ölkəyə gətirilən radioaktiv maddələr və ionlaşdırıcı şüa mənbələri haqqında Fövqəladə Hallar Nazirliyinə və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məlumat verilməli, nazirlik, idarə və təşkilatlardan radioaktiv maddə və digər ionlaşdırıcı şüa mənbələrinin inventarizasiyasını keçirmələri tələb olunmalıdır. Səhiyyə və Təhsil nazirlikləri müvafiq sahələr üzrə radiasiya təhlükəsizliyi üzrə mütəxəssislərin hazırlanmasını təşkil etməlidir.

*"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 28 noyabr tarixli, 180-IIQD nömrəli Qanununa əlavə edilməsi barədə"* Qanun 21 fevral 2007-ci ildə qüvvəyə minmişdir. Qanun həm hərbi, həm də mülki məqsədlər üçün istifadə edilə bilən ikili təyinatlı mallar üzərində ixrac nəzarətinin həyata keçirilməsi üçün əsasları müəyyən edir. "*İxrac Nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə"* Azərbaycan Respublikası Nazirlər Kabineti 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı ikili təyinatlı malların ixracı üçün xüsusi icazə tələb edir. Qərarda xüsusi icazənin verilməsi qaydaları müəyyən olunur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin və

iqtisadi siyasət Komitəsinin 2011-ci il 17 iyunda keçirilən birgə iclasında yeni Gömrük Məcəlləsi layihəsinin Azərbaycan Hüquqşünasları Konfederasiyasının təşəbbüsü ilə ictimai dinləmələri keçirildi. Layihə haqqında Milli Məclisin İqtisadi Siyasət Komitəsinin Sədri Ziyad Səmədzadə, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin Sədri, Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri Əli Hüseynli, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Sədri Aydın Əliyev, Avropa İttifaqının Azərbaycan Respublikasındakı Səfiri Roland Kobia çıxış etmişdi. Mili Məclisin üzvləri Vahid Əliyev, Əli Məsimov, Rüfət Quliyev, Azərbaycan Hüquqşünasları Konfederasiyasının idarə heyətinin üzvü Əliməmməd Nuriyev, TUSİAB-ın sədri Murat Bakir öz rəylərini bildirmişdi. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim etdiyi yeni Gömrük Məcəlləsinin layihəsinin ən müasir tələblərə və standartlara cavab verməsi göstərilmişdi. Milli Məclisdə keçirilən ictimai dinləmələrdə BMT, Avropa İttifaqı, ATƏT, Avrasiya Əməkdaşlıq Fondu, İsveçin Azərbaycandakı Konsulluğu, Azərbaycanda Amerika Ticarət Palatası, TUSİAB-ın nümayəndələri, Azərbaycan Hüquqşünasları Konfederasiyası, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, Konstitusiya Araşdırmaları Fondu, Şəffaflıq Azərbaycan Təşkilatı, Bazar İqtisadiyyatı və Sahibkarlığın İnkişafına Dəstək Fondu, Korrupsiyaya Qarşı mübarizə Fondu, Tacirlər və İstehlakçılar Birliyinin nümayəndələri iştirak etmişdi.

Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2011-ci il iyunun 24-də qəbul edilmiş yeni *"Gömrük Məcəlləsi"* Respublika Prezidenti İlham Əliyevin 2011-ci il 15 sentyabr tarixli Fərmanı ilə təsdiq edildi və 2012-ci il yanvarın 1-dən qüvvəyə mindi [24, 28 fevral, 2007-ci il, №2, maddə 84].

*"Gömrük Məcəlləsi"* gömrük işi sahəsində qanunlar sistemini özündə əks etdirməklə idxal və ixrac siyasətinin kompleks qanunverici bazasını təşkil edir. "*Gömrük Məcəlləsi"*nin və bir sıra hüquqi aktların qüvvəyə minməsi ilə milli gömrük işinin yeni hüquqi əsaslar üzərində inkişaf etdirilməsinə başlanıldı. *"Gömrük Məcəlləsi"* Respublikanın iqtisadi təhlükəsizliyi və maraqlarının qorunmasını, ölkə iqtisadiyyatının dünya iqtisadi inteqrasiya sistemində rolunun artmasını təmin edən hüquqi, iqtisadi və təşkilati münasibətləri tənzimləmək baxımından işlənib hazırlanmış qanunvericilik sistemi idi. 2011-ci ilə qədər bir çox dəyişikliklərə məruz qalmış

1997-ci il *"Gömrük Məcəlləsi"* gömrük işi sahəsində qanunlar sistemini özündə əks etdirməklə idxal və ixrac siyasətinin kompleks qanunverici bazasını təşkil edirdi. *"Gömrük Məcəlləsi"* Respublikanın iqtisadi təhlükəsizliyi və maraqlarının qorunmasını, ölkə iqtisadiyyatının dünya iqtisadi inteqrasiya sistemində rolunun artmasını təmin edən hüquqi, iqtisadi və təşkilati münasibətləri tənzimləmək baxımından işlənib hazırlanmış qanunvericilik sistemidir. Burada gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi məsələlərinə müəyyən yer ayrılmış və Azərbaycan Respublikasının gömrük strukturu təsbit edilmişdir. Layihədə bir sıra aktual məsələlər: minimum informasiyaya əsaslanan gömrük rəsmiləşdirilməsi, avtomatlaşdırılmış sistemlərə keçidin hüquqi əsasları və kağız əsaslı proseslərdən asılılığın aradan qaldırılması, risklərin idarə edilməsi sisteminin əhatə dairəsinin genişlənməsi, gömrük təmsilçiliyi statusunun güclənməsi, ticarət əməliyyatlarının təhlükəsizliyinin artırılmasına xidmət edən səlahiyyətli iqtisadi operator institutunun hüquqi əsasları, elektron vəsait köçürmələri, bank əməliyyatlarına keçid və elektron sənədlərdən geniş istifadə və s. nəzərə alınmışdı [24, 31 dekabr 1997-ci il, №6, maddə 447].

Yeni *"Gömrük Məcəlləsi"* iki hissədən - ümumi və xüsusi hissədən, 21 bölmə, 58 fəsil və 334 maddədən ibarətdir. Məcəllənin Ümumi hissəsində işlədilən əsas anlayışların tərifi, gömrük orqanlarının fəaliyyəti, vəzifələri, hüquqları, gömrük orqanlarının sistemi, gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti, gömrük orqanlarının vəzifəli şəxslərinin hüquqi statusu, dövlət və sosial müdafiəsi, gömrük orqanlarının vəzifəli şəxslərinin səlahiyyətləri, məsuliyyəti, gömrük orqanlarının qərarları və onlardan şikayətetmə, gömrük işində informasiya sistemləri və informasiya texnologiyaları, gömrük orqanları ilə şəxslər arasında münasibətlər və digər ümumi xarakterli məsələlər; xüsusi hissədə isə gömrük nəzarəti və rəsmiləşdirilməsi, malların gömrük ərazisinə gətirilməsi və aparılması, malların bəyan edilməsi, gömrük prosedurаları, gömrük tarifi, malların gömrük dəyəri və mənşə ölkəsi, gömrük ödənişləri, gömrük borcu, gömrük ekspertizası, gömrük statusu, gömrük bəyannamələrinə aid qaydalar, xüsusi gömrük prosedurаları, risklərin təhlili, qiymətləndirilməsi və idarə olunması, gömrük orqanları tərəfindən valyuta və ixrac nəzarətinin həyata keçirilməsi, tərkibində əqli mülkiyyət obyektləri olan mallar üzərində gömrük nəzarəti, fiziki şəxslər tərəfindən gömrük sərhədindən mal və

nəqliyyat vasitələrinin keçirilməsi, xarici şəxslərin ayrı-ayrı kateqoriyaları üçün gömrük güzəştləri, beynəlxalq poçt göndərişləri gömrük statistikası, gömrük ekspertizası, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası ilə bağlı və digər məsələlər öz əksini tapmışdır. Məcəllədə beynəlxalq təcrübəyə uyğun olaraq gömrük təmsilçiliyi, səlahiyyətli iqtisadi operator, gömrük orqanlarının malların təsnifatı, mənşə ölkəsi və qiymətləndirmə metodologiyası ilə bağlı məcburi qərarları, məlumat mübadiləsi, məlumatların mühafizəsi, gömrük orqanlarının elektron məlumat sistemi, malların gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması və bununla bağlı qısa idxal və ixrac bəyannaməsinin, gömrük bəyannaməsinin və digər sadələşdirilmiş bəyannamələrin tərtib olunması, yoxlanılması, bəyannaməyə düzəlişlər edilməsi və onun ləğv edilməsi, gömrük statusu, gömrük prosedurаları, o cümlədən, xüsusi gömrük prosedurаları, malların yenidən yüklənməsi və kabotaj daşınması, yardım yükləri, gömrük orqanları tərəfindən təsdiq edilən malların təhlükəsiz ixrac sxemi, gömrük tarifi və malların tarif təsnifatı, malların preferensial və qeyri-preferensial mənşəyi, malların idxalı və ixracı üzrə gömrük borcu və borcun ləğv edilməsi qaydaları, gömrük borcu və təminatlar, mallara gömrük təminatının vurulması, gömrük qiymətləndirilməsi, beynəlxalq poçt göndərişləri, boru kəməri nəqliyyatı və elektrikötürücü xətlər vasitəsi ilə malların gömrük sərhədindən keçirilməsinin xüsusiyyətləri, risklərin təhlili, idarə edilməsi və qiymətləndirilməsi, gömrük auditi, gömrük orqanları tərəfindən həyata keçirilən ixrac nəzarəti, gömrük işində informasiya sistemləri və informasiya texnologiyaları, gömrük prosedurаlarının elektron modeli, mallar və nəqliyyat vasitələri barədə məlumatların qabaqcadan elektron formada gömrük orqanlarına təqdim edilməsi, şəxslərin və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması və bu ərazidən yola salınması, gömrük orqanları tərəfindən "bir pəncərə" prinsipinin həyata keçirilməsi ilə bağlı və digər yeni normalar nəzərdə tutulmuşdur. Bir sıra mövcud gömrük normaları (gömrük brokeri, gömrük ödənişləri və onların qaytarılması, gömrük sərhədindən keçirilən malların nəzarətli göndərişi, ilkin qərarlar, mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi, gömrük rejimləri, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti, gömrük orqanlarının təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyəti, Azərbaycan Respublikası gömrük orqanlarının qərarlarından, hərəkət və hərəkətsizliyindən şikayət vermə, gömrük orqanlarının

beynəlxalq əməkdaşlığı və s. normalar) isə beynəlxalq təcrübədə qəbul edilmiş normalara, standartlara, eləcə də mövcud qanunvericiliyə uyğunlaşdırılmışdır.

Yeni *"Gömrük Məcəlləsi"* gömrük sisteminin maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə, gömrük infrastrukturunun modernləşdirilməsinə, dövlət büdcəsi gəlirlərinin artmasına, idxal-ixrac əməliyyatlarında müasir tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin daha geniş tətbiq olunmasına, Azərbaycan Respublikasının ÜTT-yə üzv olma prosesinin sürətlənməsinə, gömrük sistemində avtomatlaşdırılmış idarəetmənin və informasiya texnologiyalarının tam tətbiq edilməsinə, gömrük nəzarətinin həyata keçirilməsinin səmərəliliyinin artırılmasına, gömrük tarif siyasətinin təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə, ölkənin iqtisadi, milli təhlükəsizliyinin möhkəmləndirilməsində və sosial-iqtisadi inkişafında gömrük sisteminin rolunun artırılmasına, gömrük işi sahəsində hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsinə, gömrük tənzimlənmə vasitələrinin beynəlxalq miqyasda qəbul edilən tənzimlənmə vasitələrinə uyğunlaşmasına, ticarət-iqtisadi münasibətlərdə idxal və ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsinə əlverişli şərait yaradır.

Hüquqi və fiziki şəxslər tərəfindən təqdim edilən xarici ticarət haqqında məlumatlar yalnız gömrük məqsədləri, o cümlədən XTGS-nin formalaşdırılması üçün istifadə olunur. Malların idxalı və ixracı haqqında məlumatlar xarici iqtisadi fəaliyyət iştirakçısı ilə bağlı olduqda kommersiya sirri sayılır.

*"Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"* Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 iyun tarixli 101 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabinetinin *"Xüsusi iqtisadi zonanın sərhədlərində gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, malların gömrük rəsmiləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin sərhəddən buraxılma rejiminin sadələşdirilmiş Qaydaları"nın təsdiq edilməsi haqqında"* 2009-cu il 25 dekabr tarixli 199 nömrəli Qərarı xüsusi iqtisadi zonalarda gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin xüsusi iqtisadi zonaların sərhədindən buraxılma prosedurunun sadələşdirilmiş qaydalarını müəyyən edir.

DGK sədrinin 2009-cu il 30 yanvar tarixli 6 nömrəli əmri ilə *“Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi Qaydaları”*na əlavələr və dəyişikliklər edildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *“Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları”*nın təsdiq edilməsi haqqında 2012-ci il 19 sentyabr tarixli 207 nömrəli Qərarına görə DGK-dan ixtisas attestatı almış mütəxəssislər gömrük brokeri adından gömrük rəsmiləşdirilməsi ilə əlaqədar hərəkətləri yerinə yetirmək hüququna malik oldu. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərilməsi üçün şərtlər aşağıdakılardır: 1) gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislər ali təhsilə malik olan Azərbaycan Respublikasının fiziki şəxsləri ola bilərlər; 2) gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərilməsi üçün gömrük rəsmiləşdirilməsinə aid ixtisas attestatının alınması məqsədi ilə Dövlət Gömrük Komitəsinə müraciət edilməlidir; 3) gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərilməsi üçün şəxslər aşağıda qeyd edilən sahələr üzrə biliyə malik olmalıdırlar:

– gömrük qanunvericiliyi və gömrük işi sahəsində - gömrük prosedurları, mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilmə qaydaları və şərtləri, gömrük ödənişlərinin növləri, gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi qaydaları, gömrük məqsədləri üçün xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun malların təsnifatı və bəyan edilməsi, malların gömrük dəyərinin və mənşə ölkəsinin müəyyən edilməsi qaydaları, gömrük orqanları tərəfindən gömrük və valyuta nəzarətinin həyata keçirilməsi qaydaları, gömrük statistikası, gömrük işi sahəsində qanunvericiliyin pozulmasına görə məsuliyyət, gömrük xidmətinin təşkili, gömrük orqanlarının vəzifəli şəxslərinin statusu, hüququ və vəzifələri barədə;

– xarici iqtisadi fəaliyyət və onun dövlət tənzimlənməsi sahəsində - xarici iqtisadi sövdələşmələrin bağlanılması və icra edilməsi, qiymətlər, xarici ticarətdə sığorta və nəqliyyat şərtləri, qadağa və məhdudiyyətlər, o cümlədən lisenziyalaşdırma və sertifikatlaşdırma barədə;

– iqtisadiyyat, vergi, maliyyə-kredit, ödəniş-hesab və valyuta münasibətləri, bank işi barədə;

– gömrük sahəsinə aid hissədə mülki hüquq, maliyyə hüququ, beynəl-

xalq və dövlət hüququ və cinayət hüququ barədə;

– Dövlət Gömrük Komitəsi tərəfindən verilmiş hüquqlar çərçivəsində mütəxəssisin fəaliyyəti üçün zəruri olan gömrük orqanlarının elektron məlumat sistemlərindən istifadə edilməsi barədə.

Araşdırmalar göstərir ki, 2001-ci ildən Azərbaycan Respublikasının gömrük işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi aşağıdakı istiqamətlər üzrə davam etdirilir:

– gömrük rəsmiləşdirməsi və prosedurаlarının sadələşdirilməsi;

– xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi üçün məntəqələrin yaradılması;

– ölkə iqtisadiyyatının təhlükəsizliyinə zərər vuran cinayətlərin və hüquqpozmaların aşkar olunması və qarşısının alınması;

– xarici ticarət əməliyyatları üzərində effektiv nəzarətin təşkili;

– gömrük brokeri institutun inkişaf etdirilməsi, gömrük orqanları və işgüzar dairələr arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi;

– gömrük orqanı mütəxəssislərinin, əməkdaşlarının, xüsusən də gömrük sərhədindən keçirilən mallara tarif dərəcələri ilə işləyən əməkdaşların ixtisaslarının müntəzəm artırılması və s.

Müstəqillik illəri ərzində Azərbaycan Respublikası bazar iqtisadiyyatı sisteminə keçid prosesində hüquqi təminat bazasının yaradılması üçün bir sıra qanunlar qəbul edildi. Bu qanunların reallaşdırılması ölkəmizdə gömrük işinin inkişafına və xarici iqtisadi fəaliyyətin canlanmasına güclü təkan verdi. Bu sahədə bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən DTT, DGT və başqa təşkilatlarla sıx əməkdaşlıq edən Azərbaycan Respublikasının gömrük siyasətinin bu istiqamətdə qurulması olduqca əhəmiyyətlidir. Tranzit ölkə kimi Azərbaycan Respublikasının qonşu dövlətlərlə əməkdaşlıq sferalarının genişlənməsi xüsusi əhəmiyyət kəsb edir.

## 2.2. *Gömrük işinin hüquqi-normativ sənədlərinin hazırlanmasında Dövlət Gömrük Komitəsinin rolu*

Gömrük siyasətinin həyata keçirilməsinin səmərəliliyi vacib məsələ olub gömrük siyasətini formalaşdıran hüquqi-normativ bazanın hazırlanması və dövlət hakimiyyəti orqanları tərəfindən bu norma və qaydaların əməl edilməsinə nəzarətin həyata keçirilməsi səviyyəsi ilə müəyyən edilir.

Müstəqillik illərində xarici iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli işlər görüldü. Azərbaycan Respublikasında gömrük sisteminin formalaşmasında və gömrük işində müvafiq normalarının tətbiqi ilə bağlı Komitə tərəfindən qəbul olunmuş normativ aktlar mühüm rol oynamışdır. Komitənin mütəxəssisləri tərəfindən 1995-ci ildən başlayaraq, xidməti işin hüquqi-normativ bazasının təkmilləşdirilməsi məqsədilə 100-dən çox hüquqi sənəd, o cümlədən əsasnamə, təlimat və qaydalar, beynəlxalq saziş layihələri işlənilib hazırlanmış və Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabineti və DGK-nin bu sahədə qarşılıqlı münasibətlərinin xronoloji çərçivəsi 1995-ci ildən başlamışdır. Bundan əlavə gömrük işinə aid qanun və qərarlarının mexanizminə aid müxtəlif təkliflər hazırlanaraq müvafiq dövlət təşkilatlarına təqdim edilmiş, Dünya Bankının missiyası ilə səmərəli müzakirələr aparılmışdır.

Azərbaycan Respublikası DGK-nın qanun yaradıcılıq fəaliyyətində bir neçə istiqamət üzrə hazırlanmış normativ-hüququ sənədlər yer almışdır. Bu sənədlərin əsas hissəsini xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi ilə bağlı hüquqi-normativ sənədlər və qaydalar təşkil edir. Burada xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin tarif üsulları, vergi siyasətinin prinsipləri və növləri, gömrük rüsumlarının mahiyyəti, onların səviyyəsini müəyyənləşdirmə mexanizmi mühüm yer tutur. Nəzərdən qaçırmaq olmaz ki, gömrük orqanlarının hüquqi normalarla bağlı fəaliyyəti həm də geniş sosial-siyasi mahiyyət daşıyır.

*"Azərbaycan Respublikası ərazisinə idxal olunan alkoqollu içkilərə, etil (yeyinti) spirtinə və tütün məmulatına aksiz markalarının tətbiq edilməsi qaydaları haqqında"* 1997-ci il 27 mart tarixli 27 nömrəli əmrlə təsdiq edilmiş Təlimat, *"Dövri gömrük bəyannaməsinin verilməsi, tətbiqi və sənədləşdirilməsi"*nin 1997-ci il 22 dekabr tarixli 1095 nömrəli əmrlə təsdiq edilmiş Qaydaları, *"Azərbaycan Respublikası ərazisinə idxal olunan aksizli mallara və aksiz tətbiq edilən minik avtomobillərinə aksiz vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında"* 1997-ci il 25 dekabr tarixli 1099 nömrəli əmrlə təsdiq edilmiş Təlimat, *"Azərbaycan Respublikası ərazisinə gətirilən mallara əlavə dəyər vergisinin tətbiq edilməsi qaydaları haqqında"* 1997-ci il 25 dekabr tarixli 1101 nömrəli əmrlə təsdiq

edilmiş Təlimat, 1997-ci il 25 dekabr tarixli 1102 nömrəli əmrlə təsdiq edilmiş *"Azərbaycan Respublikası gömrük orqanlarında girovdan istifadə qaydaları haqqında Əsasnamə", "Azərbaycan Respublikası gömrük orqanlarında girovdan istifadə qaydaları haqqında"* 1997-ci il 25 dekabr tarixli Əsasnamə, 1997-ci il 25 dekabr tarixli 1103 nömrəli əmrlə təsdiq edilmiş *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində bankların və digər kredit təşkilatlarının reyestrə salınma haqqında müraciətlərinə baxılması Qaydaları"*, 1997-ci il 25 dekabr tarixli 1104 nömrəli əmrlə təsdiq edilmiş *"Artıq ödənilmiş gömrük ödənişlərinin qaytarılması Qaydaları"*, 1997-ci il 25 dekabr tarixli 1105 nömrəli əmrlə təsdiq edilmiş *"Gömrük mədaxil orderinin doldurulması və onun tətbiqi ilə gömrük ödənişlərinin alınması qaydaları haqqında"* Təlimat, 1997-ci il 25 dekabr tarixli 1106 nömrəli əmrlə təsdiq edilmiş *"Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri haqqında Əsasnamə*", 1997-ci il 25 dekabr tarixli 1107 nömrəli əmrlə tədqiq edilmiş *"Azərbaycan Respublikası ərazisinə idxal olunan aksizli markalar və aksiz tətbiq edilən minik avtomobillərinə aksiz vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında"* Təlimatın və bu sənədə 1998-ci il 13 oktyabr tarixli 59 nömrəli əmrlə əlavə edilən dəyişikliklər, *"Azərbaycan Respublikası ərazisindən fiziki şəxslər tərəfindən müşayiət olunan və olunmayan baqajların, əl yüklərinin, xarici valyutanın və şəxsi nəqliyyat vasitələrinin tranzit gömrük rejimi altında keçirilməsi Qaydaları"* (1998-ci il 8 yanvar tarixli 14 nömrəli əmr),*"Azərbaycan Respublikası Gömrük orqanları əməkdaşlarının fərdi qaydada mükafatlandırılması haqqında əsasnamənin təsdiq edilməsi barədə"* 1998-ci il 23 mart tarixli 10 nömrəli əmr, *"Azərbaycan Respublikasının gömrük buraxılış məntəqələrindən fiziki şəxslər tərəfindən istehsalat və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların keçirilməsi qaydaları haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 iyul 1997-ci il tarixli, 81 saylı Qərarı üzrə hazırlanmış təlimatının təsdiq edilməsi haqqında"* (1998-ci il 23 mart tarixli 11 nömrəli əmr) və digər normativ-hüquqi sənədlərin gömrük işinin təşkilində mühüm əhəmiyyəti oldu.

Bu hüquqi sənədlərdən ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsində mühüm rol oynayan xarici investisiyalı müəssisələr tərəfindən müvəqqəti gətirilən malların gömrük rəsmiləşdirilməsinin aparılması qaydaları və

bu rejim altında yerləşdirilmiş mallara gömrük nəzarətinin tətbiq edilməsi məqsədilə *"Müvəqqəti idxal (ixrac) gömrük rejimi haqqında Əsasnamə"*ni qeyd etmək olar. Komitə sədrinin gömrük sərhəd-keçid məntəqələrinin ərazisində yaradılması nəzərdə tutulan rüsumsuz ticarət mağazalarının açılması və bu cür mağazaların fəaliyyətinin tənzimlənməsi məqsədilə *"Rüsumsuz ticarət mağazasının fəaliyyətinin tənzimlənməsi haqqında"* 1998-ci il 24 iyul tarixli əmri ilə (№ 33) Qaydalar təsdiq edilmişdir. 2001-ci il 30 oktyabr tarixli 99 nömrəli əmrlə bu qaydalarda dəyişikliklər edilmişdir.

Respublikanın gömrük ərazisindən istifadə olunmaqla qonşu dövlətlərlə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və bunun da sayəsində ölkəmizə müəyyən vəsaitin daxil olması gömrük qanunvericiliyində nəzərdə tutulmuş təkrar ixrac gömrük rejimi ilə tənzimlənir. DGK sədrinin 1998-ci il 24 iyun tarixli 34 nömrəli əmri ilə təsdiq edilən *"Azərbaycan Respublikası gömrük ərazisinə bilavasitə təkrar ixrac üçün gətirilmiş və bu ərazidən aparılan malların gömrük rəsmiləşdirilməsi"* Qaydaları xarici iqtisadi fəaliyyətin iştirakçıları üçün güzəştli şərait yaradılmasına xidmət edir. Digər tərəfdən, normativ sənədlər sırasında Azərbaycan Respublikasında ixrac olunmuş malların geri qaytarıldığı zaman gömrük rəsmiləşdirilməsini müvafiq qaydada tənzimləmək məqsədilə *"Malların təkrar idxalı gömrük rejimi haqqında Əsasnamə"* (1999-cu il 10 fevral tarixli 8 nömrəli əmr), *"Azərbaycan Respublikası ərazisindən ixrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət barədə" Təlimata əlavələr edilməsi haqqında"* (1999-cu il 11 fevral tarixli 9 nömrəli əmr), beynəlxalq yük daşımalarını həyata keçirən nəqliyyat vasitələri ilə tranzit daşınan malların ölkəmizin ərazisindən keçən nəqliyyat vasitələri ilə tranzit daşınan malların ölkəmizin ərazisindən gömrük nəzarəti altında tranzit keçirilməsi və bu mallara dair müvafiq gömrük rəsmiləşdirilməsinin aparılması məqsədilə tərtib olunan *"Malların tranzit gömrük rejimi haqqında Əsasnamə"*ni qeyd etmək olar.

Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi proseduruna daxil olan ilkin əməliyyatlar zamanı müvəqqəti saxlanc anbarlarında, eləcə də "Gömrük anbarı" gömrük rejimi altında yerləşdirilməsi nəzərdə tutulan malların gömrük rəsmiləşdirilməsindən keçirilməsi və bu cür anbarların fəaliyyətinin tənzimlənməsi məqsədilə bir sıra normativ sənədlər, o cümlədən *"Müvəqqəti saxlanc anbarları haqqında Əsasnamə"* 1998-ci il

11 noyabr tarixli 66 nömrəli əmr), *"Gömrük anbarı haqqında Əsasnamə"* (1998-ci il 11 noyabr tarixli 64 nömrəli əmr) və *"Azərbaycan Respublikasında gömrük anbarlarının və müvəqqəti saxlanc anbarlarının təsis edilməsinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təsdiq edilməsi haqqında"*, habelə "*Azərbaycan Respublikası gömrük orqanları tərəfindən gömrük anbarlarının təsis olunması və bu cür anbarlardan istifadə edilməsi qaydaları"* (2001-ci il 23 noyabr tarixli 105 nömrəli əmr) təsdiq edilib.

Gömrük nəzarətinin təşkilinin bir çox məsələləri DGK sədrinin müvafiq əmrləri ilə təsdiqlənən əsasnamə, təlimat və qaydalarla tənzimlənir. Bunlara misal olaraq, *"Azərbaycan Respublikası ərazisindən ixrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət barədə Təlimat"*ı (1998-ci il 9 sentyabr tarixli 49 nömrəli əmr), *"Malların məhv edilməsi gömrük rejimi haqqında"* Əsasnaməni (1999-cu il 17 fevral tarixli 14 nömrəli əmr), *"Gömrük nəzarəti zonalarının yaradılması və onların nişanlanması Qaydaları"* (1999-cu il 2 aprel tarixli 22 nömrəli əmr), *"Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikasının Metodologiyasının tətbiqi ilə əlaqədar olaraq statistik dəyərin hesablanmasına dair Təlimat"* (1999-u il 16 aprel tarixli 25 nömrəli əmr), *"Malların gömrük nəzarəti altında Azərbaycan Respublikasının ərazisindən tranziti zamanı gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi üzrə sığorta şirkətlərinin gömrük orqanları tərəfindən qəbulu Qaydaları"* haqqında (1999-cu il 19 may tarixli 35 nömrəli əmr), *"Azərbaycan Respublikasına müvəqqəti idxal edilən malların gömrük rüsumları və vergilərin ödənilməsindən tamamilə və ya qismən azad edilməsinin bir sıra məsələləri ilə bağlı"* (1999-cu il 30 iyul tarixli 14/001 nömrəli əmr), *"Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımlarının alınması qaydaları barədə"* (1999-cu il 10 dekabr tarixli 73 nömrəli əmr), *"Gömrük Məcəlləsində nəzərdə tutulmuş rejimlərə uyğun olaraq ödənilməli olan gömrük ödənişləri məbləğinin gömrük orqanının depozitinə verilməsi ilə təmin edilməsi və onların qaytarılması"* qaydalarının təsdiq edilməsi haqqında (2000-ci il 21 fevral tarixli 18 nömrəli əmr, *"Müvəqqəti idxal (ixrac) gömrük rejimi haqqında"* Əsasnamənin təsdiq edilməsi barədə (2000-ci il 29 sentyabr tarixli 64 nömrəli əmr), *"Gömrük ərazisində malların emalı gömrük rejimi haqqında"* Əsasnamə (2001-ci il 12 aprel tarixli 25 nömrəli əmr), *"Azərbaycan Respublikasının gömrük ərazisinə bilavasitə təkrar ixrac*

*üçün gətirilmiş və bu ərazidən aparılan malların gömrük rəsmiləşdirilməsi Qaydaları"nda edilmiş dəyişikliklər barədə"* (2002-ci il 6 noyabr tarixli 78 nömrəli əmr), Azərbaycan Respublikasının Gömrük Sərhədindən Tərkibində İntellektual (Əqli mülkiyyət) Obyektləri Olan Malların keçirilməsi zamanı gömrük nəzarətinin aparılması Qaydaları" (2003-cü il 17 may tarixli 47 nömrəli əmr), *"Yoxlama tapşırığının və gömrük yoxlama aktlarının doldurulması, uçotu, qeydiyyatı və saxlanılması qaydaları haqqında Təlimat"* (2003-cü il 12 dekabr tarixli 117 nömrəli əmr), *"Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən beynəlxalq poçt göndərişlərinə gömrük nəzarəti və onların gömrük rəsmiləşdirilməsi Qaydaları"* (2004-cü il 15 aprel tarixli 28 nömrəli əmr), *"Tranzit gömrük rejimi haqqında Qaydalar"* (2004-cü il 12 may tarixli 38 nömrəli əmr), *"Azərbaycan respublikasının gömrük sərhədindən tərkibində əqli mülkiyyət obyektləri olan malların keçirilməsi zamanı gömrük nəzarətinin aparılması qaydaları"* (2005-ci il 3 avqust tarixli 74 nömrəli əmr), *"Azərbaycan respublikasının gömrük xidmətində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin Konsepsiyası*" (2005-ci il 22 noyabr tarixli 113 nömrəli əmr), *"Azərbaycan respublikasının gömrük sərhədindən keçirilən kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin (CİTES növləri) gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi qaydaları"* (2007-ci il 26 aprel tarixli 39 nömrəli əmr) qeyd edilməlidir.

Gömrük orqanlarının vəzifəli şəxsləri müvafiq qayda və təlimatlara əsasən gömrük nəzarətini aşağıdakı formalarda həyata keçirirlər: 1) gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların yoxlanılması; 2) gömrük yoxlaması (malların və nəqliyyat vasitələrinin yoxlanılması, gömrük nəzarətinin müstəsna forması kimi şəxsi yoxlama); 3) malların və nəqliyyat vasitələrinin uçotu; 4) fiziki və vəzifəli şəxslərin şifahi sorğusu; 5) uçot və hesabat sisteminin yoxlanılması; 6) müvəqqəti saxlanc anbarlarının, sərbəst gömrük zonalarının, rüsumsuz ticarət mağazalarının və gömrük nəzarətindən keçirilməli olan malların və nəqliyyat vasitələrinin ola biləcəyi digər yerlərin, ərazi və binaların, həmçinin icrasına nəzarət Azərbaycan Respublikası gömrük orqanına həvalə edilmiş fəaliyyətlərin həyata keçirildiyi digər yerlərə baxış keçirilməsi. Risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin Konsepsiyasında göstərilir ki, göndərilən mal və nəqliyyat vasitələri barəsində məlumatların əvvəlcədən alınması, yaradıla biləcək

təhlükənin səviyyəsinin müəyyən edilməsi, müvafiq nəzarət formalarının seçilməsi və gömrük sərhədindən yüklərin qısa müddət ərzində buraxılmasının təmin edilməsi müasir gömrük işinin təşkilinin əsas amillərini formalaşdırır.

Mal dövriyyəsinin ildən ilə sürətlə artmasını nəzərə alaraq, gömrük orqanları gömrük nəzarətini həyata keçirən zaman seçmə üsullardan istifadə etməlidirlər və bu zaman elə nəzarət formaları seçilməlidir ki, onlar Azərbaycan Respublikası gömrük qanunvericiliyinə riayət edilməsini təmin etsin. DGT-nin 2005-ci ildə qəbul edilmiş standartlara uyğun olaraq əsas avtomatlaşdırılmış sistemin yaradılmasına başlanıldı. Bu sistemə aşağıdakılar daxildir: 1) risklərin avtomatlaşdırılmış idarəetmə sistemi; 2) mal və nəqliyyat vasitələrinin idarəetmə sistemi və onların monitorinqi; 3) gömrük xidmətinin vahid avtomatlaşdırılmış informasiya sisteminin respublika nəqliyyat şirkətlərinin, nazirliklərin və birliklərin informasiya şəbəkələri ilə əlaqələndirilməsi; 4) mərkəzi informasiya idarəetmə sisteminin yaradılması; 5) məlumat bazalarının ehtiyat mərkəzinin yaradılması [50, 44].

Azərbaycan Respublikası ərazisində gömrük nəzarəti altında yerləşdirilən malların gömrük qanunvericiliyinin tələblərinə əməl olunması və gömrük daşıyıcıları tərəfindən daşınmasının həyata keçirilməsini təmin etmək məqsədilə *"Azərbaycan Respublikasında gömrük daşıyıcısı fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi Qaydalarının təsis edilməsi haqqında"* müvafiq sənəd tətbiq olunur [20, 239].

BYD kitabçasının tətbiqi ilə beynəlxalq yük daşımaları haqqında Gömrük Konvensiyası 1975-ci ildə Cenevrədə imzalanmış və 1999-cu il fevralın 17-də qüvvəyə minmiş düzəlişlər edilmişdir. *"BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında"* Azərbaycan Respublikasının Qanunu 1996-cı il mayın 31-də qüvvəyə minmişdir. Gömrük ərazisindən BYD kitabçaları tətbiq olunmaqla daşınan yüklərin vaxtlıvaxtında, operativ qaydada təyinatı üzrə çatdırılmasını təmin etmək məqsədilə müvafiq gömrük orqanlarına Azərbaycan Respublikasına məxsus yol-nəqliyyat vasitələrinin beynəlxalq yük daşımalarına yararlı olmasına dair şəhadətnamələri təsdiq etmək və BYD əməliyyatlarını rəsmiləşdirmək səlahiyyətləri verilmişdir [24, 31 iyul, 1997-ci il, №1, maddə 15].

Bundan əlavə, *"Nəqliyyat vasitələrinin (konterneylərin) gömrük möhürləri və plombları ilə yük daşımalarına buraxılması qaydaları*

*haqqında Təlimat"; "Gömrük möhürləri və plombları ilə yüklərin daşınmasından ötrü nəqliyyat vasitələrinin (konteynerlərin) təchizat Qaydaları"; "BYD kitabçası (BYD konvensiyası, 1975-ci il) tətbiq edilməklə yük daşımaları barədə gömrük konvensiyasının tətbiqi qaydaları" və "Azərbaycanda BYD kitabçası tətbiq etməklə daşıyıcıların beynəlxalq yük daşımalarına buraxılması qaydaları haqqında Əsasnamə"* 1998-ci il 24 may tarixli 24 nömrəli əmrlə tənzimlənir. Komitə sədrinin 2005-ci il 14 may tarixli 45 nömrəli əmri ilə təsdiqlənmiş *"BYD daşımalarında (BYD Konvensiyası, 1975) yüklərə gömrük nəzarəti və BYD kitabçasının rəsmiləşdirilməsi qaydaları"* adlı sənədlə normalar daha da təkmilləşdirildi. *"Yük gömrük bəyannamələrinin doldurulması Qaydaları" (1998-ci il 17 iyun tarixli 27 nömrəli əmr), "Təkrar ixrac gömrük rejimi altında yerləşdirilmiş mallara yük gömrük bəyannaməsinin doldurulması", "Təkrar idxal rejimi altında yerləşdirilmiş mallara yük gömrük bəyannaməsinin doldurulması" və "Rüsumsuz ticarət mağazası gömrük rejimi altında yerləşdirilmiş mallara yük gömrük bəyannaməsinin doldurulması Qaydalarının təsdiq edilməsi barədə"* (1999-cu il 2 iyun tarixli 37 nömrəli əmr), həmçinin *"Mallar tranzit gömrük rejimi altında yerləşdirilərkən yük-gömrük bəyannaməsinin doldurulmasının müvəqqəti Qaydası"*nın təsdiq edilməsi barədə (1999-cu il 15 avqust tarixli 46 nömrəli əmr)sənədlər qəbul edildi. Komitə sədrinin 2000-ci il 25 may tarixli 39 nömrəli əmri ilə *"Yük gömrük bəyannamələrinin doldurulması Qaydaları"*na dəyişiklik edildi.

*"Azərbaycan Respublikası ərazisindən fiziki şəxslər tərəfindən müşayiət olunan və olunmayan baqajların, əl yüklərinin, xarici valyutanın və şəxsi nəqliyyat vasitələrinin tranzit gömrük rejimi altında keçirilməsi Qaydaları*" (1998-ci il 8 yanvar tarixli 14 nömrəli əmr), habelə fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların (beynəlxalq poçt göndərişləri də daxil olmaqla) Azərbaycan Respublikasının gömrük sərhədindən sadələşdirilmiş və güzəştli qaydada keçirilməsinin ümumi prinsiplərinin müəyyən edilməsi məqsədilə *"Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən sadələşdirilmiş və güzəştli qaydada keçirilməsinə dair Təlimat"*ı (1998-ci il 28 avqust tarixli 70 nömrəli əmr) təsdiq edildi.

2001-ci il DGK-nın zəruri normativ-hüquqi sənədlərinin işlənilib

hazırlanmasında daha "məhsuldar" oldu. *"Gömrük tarifi haqqında"* və *"Azərbaycan Respublikasının İnzibati və Cinayət Məcəllələrinə əlavə və dəyişikliklər edilməsi haqqında"* Qanun layihələri, həmçinin DGK-nın yeni Əsasnaməsinin, gömrük orqanlarının bayrağı və tanınma nişanı, vəzifəli şəxslərin Etik Davranış Kodeksinin, xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsviri hazırlandı. Ümumilikdə Gömrük Məcəlləsinin tələblərindən irəli gələn 50-dən artıq normativ-hüquqi sənədlərin çox hissəsi 2001-ci ilin sonunadək layihə şəklində idi. Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikası ərazisindən aparılması və Azərbaycan Respublikası ərazisinə gətirilməsi qadağan olunmuş mallar istisna olmaqla, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən istehsalat və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların bəyan edilməsinin sadələşdirilməsi məqsədilə *"Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilməsi Qaydaları"* (2001-ci il 20 aprel tarixli 14 və 31 nömrəli əmrlər); *"Azərbaycan Respublikasının beynəlxalq uçuşlar üçün açıq olan hava limanlarında gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"(2001-ci il 23 may tarixli 43 nömrəli əmr), "Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmiş avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi barədə Göstəriş"* (2002-ci il 2 aprel tarixli 14/006 nömrəli əmr) və *"Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların ikikanallı buraxılış sistemindən istifadəsi zamanı ("Yaşıl kanal" və "Qırmızı kanal") bəyan edilmənin sadələşdirilmiş Qaydaları"* (2002-ci il 22 aprel tarixli 35 nömrəli əmr), *"Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən sadələşdirilmiş və güzəştli şərtlərlə keçirilməsinə dair Təlimata" əlavələr və dəyişikliklər edilməsi barədə"* 2002-ci il 8 iyul tarixli 50 nömrəli və 2003-cü il 24 mart tarixli 31 və 34 nömrəli, 2004-cü il 4 avqust tarixli 75 nömrəli əmrlərlə nizamlanır. Komitə sədrinin 2002-ci il 24 sentyabr tarixli 59 nömrəli əmri ilə tarixli *"Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən ov silahları və onların sursatlarının gömrük rəsmiləşdirilməsi Qaydaları"*, 2003-cü il 12 dekabr tarixli 118 nömrəli əmrlə *"Mühafizə siyahısına daxil edilmiş mədəniyyət sərvətlərinin fiziki şəxslər tərəfindən*

*Azərbaycan respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları"* və 2006-cı il 10 iyul tarixli 086 nömrəli əmrlə *"Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən xidməti və mülki silahların, onların döyüş sursatlarının gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydaları"* qüvvəyə minmişdir. Nəqliyyat vasitələrinə gömrük nəzarətinin təşkilinin nizamlanması üzrə mühüm sənədlər qəbul edildi. Bu tənzimləyici sənədlərdən *"Xarici dövlətlərin avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə daxil olması və bu ərazidən sərnişin və yük daşınması üçün istifadə edilməsinə görə yol vergilərinin hesablanıb tutulması haqqında Təlimat"*ı (2001-ci il 5 yanvar tarixli 001 nömrəli əmr), *"Malların və nəqliyyat vasitələrinin və onlara aid sənədlərin gömrük müşayiəti haqqında"* Əsasnamə (2001-ci il 29 noyabr tarixli 108 nömrəli əmr), *"Ticarət gəmiçiliyində istifadə olunan gəmilər, digər üzən nəqliyyat vasitələri və həmin nəqliyyat vasitələri ilə daşınan mallar üzərində gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi Qaydaları"* (2002-ci il 18 iyun tarixli 44 nömrəli əmr), *"Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və onlar üzərində gömrük nəzarətinin həyata keçirilməsinin nümunəvi Qaydaları"* (2002-ci il 6 sentyabr tarixli 62 nömrəli əmri), *"Dövlətlərarası sərnişin daşımalarını həyata keçirən qatarların vaqon restoranlarında aparılan və gətirilən malların gömrük rəsmiləşdirilməsi"* (2002-ci il 15 noyabr tarixli 80 nömrəli), "*Mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti zamanı gömrük yoxlamasının keçirilməsi Qaydaları"* (2003-cü il 12 dekabr tarixli 111 nömrəli, *"Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi qaydaları"* (2004-cü il 3 sentyabr tarixli 82 nömrəli), *"Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən yüklü gömrük nəzarəti məqsədi ilə nəqliyyat vasitələrinin yoxlama tərəzilərində çəkilməsi Qaydaları"* (2005-ci il 27 iyul tarixli 70 nömrəli) və *"Diplomatik poçtun və konsul valisinin, həmçinin xarici şəxslərin ayrı-ayrı kateqoriyaları tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən güzəştli qaydada keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydaları"*nı göstərmək olar. Beynəlxalq uçuşları həyata keçirən hava gəmilərinin istismarına normal şərait yaradılması, hava gəmilərinin istismarı üçün zəruri olan yanacaq-sürtgü materiallarının gömrük rəsmiləşdirilməsinin təmin olunması

məqsədilə *"Hava gəmilərinin istismarı üçün zəruri olan yanacaq-sürtgü materiallarının gömrük rəsmiləşdirilməsi haqqında metodiki göstəriş"* adlı (1999-cu il 20 aprel tarixli 26 nömrəli əmrlə təsdiq olunub) və *"Azərbaycan Respublikasının beynəlxalq uçuşlar üçün açıq olan hava limanlarında gömrük nəzarətinin keçirilməsi Qaydaları*" adlı (2001-ci il 23 may tarixli 43 nömrəli əmr) hüquqi-normativ sənədlər işlənib-hazırlanmışdır. Komitə sədrinin 2002-ci il 25 iyul tarixli 54 nömrəli əmri ilə *"Azərbaycan Respublikasının gömrük sərhədindən keçən hava nəqliyyatı vasitələri, bu nəqliyyat vasitələri ilə daşınan malların gömrük rəsmiləşdirilməsi və onların gömrük nəzarətindən keçirilməsi Qaydaları"* qəbul edilmişdir [26].

Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş *"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı*"na əsasən DGK-da aşağıdakı istiqamətlər üzrə qanun layihələrini hazırlamışdı: *"Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilməsi haqqında"* Qanun və *"Azərbaycan Respublikasının Nazirlər Kabinetinin bəzi Qərarlarına əlavə və dəyişikliklər edilməsi haqqında"* qərar layihələri; *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturuna əlavə və dəyişikliklər edilməsi haqqında"* sənədin layihəsi; Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin *"Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında"* Beynəlxalq Konvensiyanın (Kioto Konvensiyası) müddəalarına və Dünya Gömrük Təşkilatının *"Beynəlxalq Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyi Üzrə Çərçivə Standartları"*na və digər beynəlxalq sənədlərə uyğunlaşdırılmış yeni layihəsi; büdcə proqnozlaşdırılmasının səmərəliliyinin artırılması, idxal olunan mallar üzrə gömrük ödənişlərinin ödənilməsində yayınmaların aradan qaldırılması, mövcud gömrük tarif sistemində lüzumsuz güzəştlərin ləğv edilməsi və gömrük ödənişləri ilə bağlı bəzi qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanmış *"Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr edilməsi barədə"* qərar layihəsi; idxal mallarına münasibətdə tarif preferensiyalarının tətbiqi mexanizminin təkmilləşdirilməsi üçün qanunvericilik aktlarına əlavə və dəyişikliklər barədə qərar layihələri s.

2012-ci ildə gömrük işi sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən müvafiq işlər həyata

keçirildi. *“Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”, “Malların təkrar ixrac gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”, “Ayrı-ayrı gömrük əməliyyatı və ya gömrük proseduru ilə bağlı gömrük orqanının icazəsinin verilməsi Qaydaları”, “Malların sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”, “Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədi ilə gömrük orqanları tərəfindən istifadə olunan texniki nəzarət vasitələrinin siyahısı və onlardan istifadə Qaydaları” “Gömrük brokerinin dövlət reyestrinin aparılması Qaydaları”, “Təbii fəlakətlər və digər fövqəladə hallar zamanı zəruri olan malların və nəqliyyat vasitələrinin, canlı heyvanların, tez xarab olan malların, radioaktiv maddələrin, kütləvi informasiya məqsədləri üçün materialların, Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının ünvanlarına göndərilən və bu qəbildən olan başqa malların gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”, “Mallara gömrük təminatının vurulması Qaydaları” və “İdxal olunmuş malların kabotaj daşınması Qaydası”* hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edildi [162].

İnkişaf prosesində DGK-nın əsas vəzifə və funksiyalarına bir sıra yeni istiqamətlər də əlavə olundu. Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının tətbiqi, kvota və lisenziyalaşdırma, hüquq-mühafizə fəaliyyəti və valyuta nəzarətinin həyata keçirilməsi ilə bağlı qaydalarının işlənilib hazırlanması və s. məsələlər bu təşkilatın funksiyalarını daha da genişləndirdi. Bu isə gömrük xidməti orqanlarından yeni, daha səmərəli yanaşma üsullarının tətbiqini tələb edir.

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİYASƏTİ: ƏSAS PRİORİTETLƏR

## *3.1. Gömrük sisteminin milli maraqlar əsasında qurulması. Gömrük siyasətinin məqsədləri*

Gömrük siyasəti bu və ya digər dövlətin xarici iqtisadi və ticarət fəaliyyətinin tənzimlənməsinə yönəlmiş, dövlətin gömrük fəaliyyətinin əsasını təşkil edən siyasi, iqtisadi və təşkilati tədbirlərin məcmusu olmaqla bərabər, xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində və dünya birliyi dövlətlərinin maraqlarının uzlaşmasında mühüm vasitədir. Dövlətlər gömrük siyasətlərini müəyyən edərkən yerləşdiyi coğrafi mövqeyi, dünya iqtisadiyyatında yeri, beynəlxalq təşkilatlara üzvlüyü, yerləşdiyi regiondakı vəziyyəti, qonşu dövlətlərlə münasibətlərin səviyyəsi kimi meyarlar əsas götürülür. Dövlətin gömrük siyasətinin uğurlara həyata keçirməklə, həm daxili, həm də xarici iqtisadi inkişafa yardım etmiş olur. Dövlət gömrük siyasətini düzgün həyata keçirməklə öz müəssisələrini xarici rəqabətdən qorumaqla yanaşı, yerli mallarını xarici bazara çıxarmaq imkanı əldə edir. Gömrük siyasəti dövlətin xarici iqtisadi və ticarət fəaliyyətinin tənzimlənməsinə yönəlmiş, dövlətin gömrük fəaliyyətinin əsasını təşkil edən siyasi, iqtisadi və təşkilati tədbirlərin məcmusudur. Dövlət öz gömrük siyasətlərini müəyyən edərkən yerləşdiyi coğrafi mövqeyi, dünya iqtisadiyyatında tutduğu yeri, beynəlxalq təşkilatlarda təmsilçiliyini, yerləşdiyi regiondakı vəziyyəti, qonşu dövlətlərlə münasibətlərin səviyyəsini və diplomatik əlaqələrini, iqtisadi inkişaf səviyyəsi kimi meyarları əsas götürməlidir. Dövlət öz gömrük siyasətlərini uğurla həyata keçirməklə həm daxili, həm də xarici iqtisadi inkişafa yardım etmiş olur, çünki düzgün gömrük siyasəti həyata keçirməklə dövlət öz müəssisələrini həm xarici

rəqabətdən qoruya, həm də öz yerli mallarını xarici bazarlara çıxara bilər.

Məlum olduğu kimi, hər bir dövlətin gömrük siyasətinin formalaşması iki vacib yanaşmanı nəzərdə tutur. Elmi ədəbiyyatda gömrük siyasəti məqsəd və vəzifələrindən asılı olaraq proteksionist və azad ticarət siyasətinə bölünür. Proteksionist gömrük siyasəti – milli istehsalın və daxili bazarın inkişaf etdirilməsi üçün daha yaxşı şərait yaradılmasına yönəldir. Onun əsas məqsədi idxal olunan məhsullara yüksək gömrük rüsumları dərəcəsi tətbiq etməklə idxalın azaldılmasına və bunun hesabına daxili istehsalı qorumağa xidmət etməkdir. Lakin proteksionist siyasət məqsədi olmaqla, qısa müddətdə başa çatdırılmalı və konkret nəticəsi olmalıdır. İnkişaf etməkdə olan ölkələrdə bu siyasətə daha çox üstünlük verilir. Proteksionizmdən fərqli olaraq azad ticarət siyasəti gömrük rüsumlarının minimal səviyyəsini müəyyən etməklə, xarici malların ölkənin daxili bazarına sərbəst daxil olmasına imkan verir və belə hesab etmək olar ki, eyni adlı məhsulların və son nəticədə sahələrin rəqabət qabiliyyətini artırmaq zərurəti yaradır. Proteksionizm daxili bazarı xarici rəqabətdən qorumağa xidmət edirsə, azad ticarət və ya liberallaşdırma xarici iqtisadi əlaqələr mane olan gömrük rüsumlarının azaldılmasını və digər maneələrin aradan qaldırılmasını nəzərdə tutur.

1993-cü ilin iyulunda xalqımızın təkidi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində digər mühüm sahələrlə yanaşı, iqtisadiyyatda da mühüm dəyişikliklərin əsası qoyuldu. Böyük həyat təcrübəsinə malik olan ulu öndər Heydər Əliyev iqtisadi islahatların müvəffəqiyyətinin dayanıqlı həllinin ictimai-siyasi sabitlikdən asılı olduğunu dərk edərək, birinci növbədə bu problemin həllinə çalışdı. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə Respublikanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər, sabitliyin bərqərar olması, siyasi və iqtisadi sahələrdə islahatların ardıcıl şəkildə aparılması, dövlətin iqtisadi strategiyasının milli maraqlar əsasında yenidən qurulmasına şərait yaratdı. Müstəqil Azərbaycan dövlətinin dünyanın bütün ölkələri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı nəzərdə tutan vahid iqtisadi strategiya formalaşdırıldı. Respublikamız Avropa dövlətləri və ABŞ-la bərabərhüquqlu, qarşılıqlı faydalı və hərtərəfli münasibətlər yaradılması sahəsində fəaliyyətə başladı. Xəzərətrafı regionun neft-qaz ehtiyatlarının kəsişdiyi ölkə kimi respublikamızın xarici siyasət kursunun yüksələn xətlə inkişafı və beynəlxalq səviyyədə diplomatik əlaqələrinin güclənməsi ölkədə siyasi sabitlik yarat-

mış, xarici ölkələrin tanınmış şirkətlərinin və iş adamlarının Azərbaycana sərmayə qoymasına geniş imkanlar açdı. 1994-cü ilin sentyabr ayında Bakıda dünyanın nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması respublikamızın dünyanın nüfuzlu dövlətlərinin iqtisadi tərəfdaşına çevrilməsi prosesinin əsasını qoydu.

Ümummilli lider Heydər Əliyev 1993-cü ilin noyabrın 19-da bank-maliyyə, tədiyyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyəti və onun yaxşılaşdırılması sahəsində vəzifələrə həsr olunmuş Ümumrespublika müşavirəsində çıxışında demişdi: *"İndi Azərbaycan müstəqil dövlət kimi, bir çox ölkələrlə iqtisadi əlaqələr qurmağa başlamışdır. Ancaq bu əlaqələrin respublika iqtisadiyyatına nə qədər mənfəət gətirdiyi hələ məlum deyil. İqtisadi əlaqələrimizin təşkilində, qurulmasında qüsurlar, səhvlər vardır. Bütün bunlar respublikada sosial gərginliyi artırır, adamların həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur və iqtisadi, maliyyə imkanlarımızı çox məhdudlaşdırır.*

*Bu gün əsasən respublikamızın maliyyə vəziyyəti, istehsal edilən mallardan istifadə, eyni zamanda idxal-ixrac əməliyyatlarının səviyyəsi məsələlərini aydınlaşdırmaq lazımdır. Respublikada istehsal olunan bir sıra məhsulların xaricə satılması, əvəzində lazımi mallar alınması və ölkəmizin ehtiyaclarının təmin olunması əsas məsələlərdən biridir"* [53, 257].

Heydər Əliyev 1993-cü ilin noyabrın 19-da Prezident sarayında, bank-maliyyə, tədiyyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyəti və onun yaxşılaşdırılması sahəsində vəzifələrə həsr olunmuş Ümumrespublika müşavirəsindəki çıxışında müstəqil dövlətin iqtisadi siyasətinin başlıca konturlarını cızdı. Ulu öndər mövcud vəziyyəti belə qiymətləndirirdi: 1993-cü il sona çatır, respublikamız ağır iqtisadi böhran vəziyyətindədir. Ölkədə gedən müharibə iqtisadiyyatın vəziyyətinə də ciddi təsir göstərir. Bütün bunlar isə bir sıra ciddi, əsaslı tədbirlər görülməsini tələb edir. Heydər Əliyev göstərirdi ki, Azərbaycan artıq müstəqil dövlət kimi, bir çox ölkələrlə iqtisadi əlaqələr qurmağa başlamışdır. Ancaq bu əlaqələrin respublika iqtisadiyyatına nə qədər mənfəət gətirdiyi hələ məlum deyil. İqtisadi əlaqələrimizin qurulmasında qüsurların və səhvlərin olması respublikada sosial gərginliyi artırır, adamların həyat səviyyəsinin aşağı düşməsinə səbəb olur, eyni zamanda, iqtisadi, maliyyə imkanlarımızı çox məhdudlaşdırır. Heydər Əliyev xəbərdarlıq edərək göstərirdi ki, Azərbaycanın

iqtisadiyyatı, maliyyə-kredit vəziyyəti çox ağır haldadır və əgər ciddi tədbirlər, konkret əməli iş görülməsə, ciddi addımlar atılmasa, iqtisadi-sosial böhran dərinləşəcək və bizdən ötrü daha ağır problemlər yaradacaqdır. Buna görə də, o təklif edirdi ki, Respublikanın maliyyə vəziyyətini, istehsal edilən mallardan istifadə, eyni zamanda idxal-ixrac əməliyyatlarının səviyyəsi məsələlərini aydınlaşdırmaq lazımdır: istehsal olunan bir sıra məhsullar xaricə satılsa da, bu sahədə qarışıqlıq və qanun pozuntuları vardır, ixrac olunan malların əvəzində lazımi mallar alınmır və ölkəmizin ehtiyacları təmin olunmurdu; çətin vəziyyətdə olan iqtisadiyyatımızın buraxdığı məhsulların dəyəri respublikaya qaytarılmırdı, bu borcların nə vaxt qayıdacağı, hansı məqsədlər üçün istifadə olunacağı bilinmirdi. Aydındır ki, islahatların dərinləşməsi iqtisadiyyatın idarəetmə strukturunun köklü surətdə dəyişməsini tələb edirdi. Ticarət Nazirliyi ilə Xarici İqtisadi Əlaqələr Nazirliyinin bazasında yeni nazirlik yaradılması xarici iqtisadi-ticarət əlaqələrinin dövlət tənzimlənməsi mərkəzləşdirilməsi, təsərrüfat fəaliyyəti ilə məşğul olan dövlət şirkətlərinin dövlət tənzimlənməsi funksiyalarından azad edilməsi məqsədini daşıyırdı.

Heydər Əliyev xarici ölkələrlə gömrük münasibətlərinin sağlam hüquqi əsaslar üzərində qurulmasının iqtisadiyyatımız üçün böyük əhəmiyyəti olduğunu vurğulayır, maliyyə əlaqələrinin banklar vasitəsilə həyata keçirilməsini, barter əməliyyatlarının məhdudlaşdırılmasını, yalnız konkret məqsədlər üçün aparılmasını məqsədəuyğun sayırdı. Heydər Əliyev təkidlə qeyd edirdi ki, Azərbaycanın müstəqil gömrük siyasəti olmalıdır: *"Əgər Gömrük Komitəsi bacarırsa, gömrük siyasəti haqqında layihə hazırlayıb qısa müddətdə təqdim etsin... Gömrük siyasəti iqtisadiyyatımızın yüksəlməsini təmin edən əsas amillərdən biridir. Biz gərək bir tərəfdən gömrük siyasətimizi tənzimləyək, digər tərəfdən elə edək ki, gömrük qanunları günün tələblərinə uyğun olsun"* [53, 262].

Müstəqil Azərbaycan dövlətinin xarici iqtisadi siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və xüsusiyyətləri Prezident Heydər Əliyevin müxtəlif çıxış və nitqlərində də öz əksini tapmışdır. Onun irəli sürdüyü xarici iqtisadi siyasətin strategiyasında xalqın mənafeyinə tabe edilmiş iqtisadi siyasət yeridilməsi, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası üçün bütün xarici və daxili amillərdən faydalanmaqla sıx əməkdaşlığın qurulması, tərəfdaş ölkələrlə iqtisadi maraqların uzlaşdırıl-

ması, qarşılıqlı təminat mexanizmini yaradılması və qorunması ən vacib prioritetlərdən idi. Milli gömrük siyasətinin Heydər Əliyev tərəfindən müəyyən edilən ilkin prioritetləri bunlar idi:

– ixrac olunan mallara qoyulan vergilərə baxmaq lazımdır. Xaricdən daxil olan malların ola bilər ki, bir qisminə mütləq müəyyən vergi qoyulsun, bir qismi isə vergilərdən tamamilə azad olsun;

– ixraca gedən strateji məhsullar bir mərkəzdə toplanmalıdır. Strateji malların ixracı məsələsi prezidentin səlahiyyətində olmalıdır. Strateji məhsulların ayrı-ayrı təşkilatlar tərəfindən satılmasına son qoyulmalıdır;

– müəyyən olunmalıdır ki, bizim valyutamız nə qədər gələcək və nə qədər gedəcək, hansı malı satıb nə qədər valyuta alınacaq, bu valyutadan necə istifadə ediləcəkdir;

– bu məqsədlə Valyuta fondu yaradılmalıdır. Valyutadan istifadə olunması, valyuta gətirən malların ixracı mərkəzləşdirilməli və bunların hamısı ümumi iqtisadiyyatımızın inkişafına, ölkənin ağır vəziyyətdən çıxmasına yönəldilməlidir;

– gömrük idarələrində qanun pozuntularının və gömrük əməkdaşlarının öz vəzifələrindən sui-istifadənin qarşısı alınmalıdır;

– iş adamları üçün əlverişli şərait yaradılmalıdır. Biznesin sərbəstliyi həm iqtisadiyyatın inkişafına, həm də xalqın bütün təbəqələrinin həyat səviyyəsinin yüksəlməsinə kömək etməlidir [53, 257-265].

Məlumdur ki, hər bir dövlətin xarici iqtisadi fəaliyyəti xarici ticarət, elmi-texniki əməkdaşlıq, istehsal kooperasiyaları, xarici işçi qüvvəsinin və kapitalın cəlb edilməsi, beynəlxalq təşkilatların və birliklərin işində iştirak etməklə reallaşdırılır. Xarici iqtisadi fəaliyyətin intensivliyi, onun strukturu, və coğrafi istiqaməti dövlətin tənzimləmə metodlarından, bu sahədə tətbiq edilən hüquqi rejimlərdən əhəmiyyətli dərəcədə asılıdır. Bazar iqtisadiyyatı şəraitində xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsindən əsas məqsəd ölkənin iqtisadi suverenliyini qoruyub saxlamaqdan, iqtisadi təhlükəsizliyini təmin etməkdən, milli iqtisadiyyatın inkişafını stimullaşdırmaqdan, ölkənin dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasında xarici iqtisadi əlaqələr əsasən aşağıdakı vacib istiqamətlər üzrə həyata keçirilirdi: beynəlxalq ticarət və xidmətlər üzrə; birgə müəssisələrin yaradılmasında; maliyyə, kredit və investisiya qoyuluşunda; elmi-texniki əməkdaşlıq prosesində; nəqliyyat-

kommunikasiya sahələrində; xüsusi iqtisadi zonaların yaradılmasında və s.

Ümummilli lider Heydər Əliyevin uzaqgörən məntiqi siyasətinin nəticəsi kimi bu gün Azərbaycan Avrasiya məkanında mühüm strateji və coğrafi-siyasi mövqeyə malik bir ölkə kimi qəbul olundu. Məhz həmin vaxtdan ölkənin neft strategiyası reallaşmağa başladı. Xəzər dənizinin Azərbaycanda sektorunda yataqların birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişlər imzalandıqdan sonra Nazirlər Kabinetinin Xəzər dənizinin Azərbaycan sektorunda təsdiq olunmuş dəniz bloklarına daxil olan xarici podratçı, subpodratçı və agentlərin vergilərə cəlb olunması haqında qərarlarına uyğun olaraq müvafiq protokollar imzalandı. İdxal əməliyyatlarının gömrük vergi və rüsumlarından azad olunması üçün DGK tərəfindən onların hər birinə müvafiq sertifikatlar verildi. Həyata keçirilən düzgün xarici iqtisadi siyasət nəticəsində idxal-ixrac əməliyyatlarının iştirakçıları xeyli fəallaşdı və gömrük qeydiyyatından keçən yüklərin, o cümlədən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) ünvanına daxil olan malların həcmi xeyli artdı. Beləliklə, ixrac olunan neft və neft məhsullarının gömrük qeydiyyatı ilə yanaşı, ABƏŞ-nn ünvanına daxil olan malların daha çevik və sadələşdirilmiş qaydada rəsmiləşdirilməsini təmin etmək zərurəti yarandı və bunun üçün müvafiq tədbirlər həyata keçirildi. "Əsrin müqaviləsi" imzalandıqdan sonra beynəlxalq neft şirkətləri tərəfindən neft ehtiyatlarının istismarı üçün gətirilən avadanlıqların gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi məqsədilə yeni gömrük məntəqələrinin açılması zərurəti yarandı. Beləliklə, Azərbaycan Respublikası gömrük xidməti sisteminin keyfiyyətcə yüksəlişini nəzərdə tutan, mürəkkəb gömrük infrastrukturunun yaradılmasına başlanıldı.

Azərbaycan dövlətinin işləyib hazırladığı və ardıcıl olaraq həyata keçirdiyi gömrük siyasəti digər ölkələrlə iqtisadi münasibətləri tənzimləyən əsas faktorlardan biridir. Dövlətlərarası ticarət əlaqələrinin genişlənməsi məhz gömrük siyasətinin inkişafı ilə müşayiət olunur. Beləliklə, gömrük siyasətinin əsas məzmunu gömrük işi və onun qanunlarında, inkişaf qanunauyğunluqları və meyllərində, ticarət mübadiləsində iştirak edən insanların münasibətlərində təzahür edir. Tarixi prosesdə gömrük siyasəti, onun məqsədləri, istiqamətləri və vəzifələri formalaşır. Gömrük idxal-ixrac mallarının tənzimlənməsi vəzifələrini həll edərək tarifin köməyi ilə milli istehsalın rəqabətə davamlı olmasını təmin edir.

Gömrük siyasətinin obyektiv xarakteri onu aşağıdakı məqsədlərin həllində istifadə etməyə imkan verir:

– xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi;

– milli iqtisadiyyatın müdafiəsi;

– fiskal yığımlar.

Gömrük siyasəti ilk növbədə gömrük rüsum və vergiləri ilə sıx surətdə bağlıdır. Gömrük tarifində müəyyən edilən rüsumlar fiskal və himayəedici əhəmiyyət daşımaqla xarici iqtisadi fəaliyyəti nizamlayır. Gömrük siyasəti xarici iqtisadi fəaliyyətin həyata keçirilməsin və dünya birliyi dövlətlərinin maraqlarının əlaqələndirilməsində mühüm vasitədir. Azərbaycan Respublikasında gömrük işinin müasirləşdirilməsinin beynəlxalq tələblərə uyğunlaşdırılmasını, ilk növbədə, gömrük siyasətinin elmi və qanunvericilik əsaslarının işlənilib hazırlanmasını və davamlı olaraq yenilənməsini tələb edir. Azərbaycan Respublikası bazar iqtisadiyyatı sisteminə keçid prosesində hüquqi təminat bazasının yaradılması üçün bir sıra qanunlar qəbul etmişdir. Bu qanunların reallaşdırılması ölkəmizdə gömrük işinin inkişafına, xarici iqtisadi fəaliyyətin canlanması və bu fəaliyyətin tənzimetmə mexanizminin təkmilləşməsinə güclü təkan vermişdir. Gömrük işi sahəsində Azərbaycan Respublikasının bağladığı ikitərəfli sazişlər, dövlətlərarası gömrük münasibətləri mühüm yer tutur və aşağıdakı istiqamətləri əhatə edir: gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım, xarici ticarətin gömrük statistikası sahəsində metodoloji və informasiya üzrə qarşılıqlı fəaliyyət, gömrük-tarif münasibətlərinin nizamlanması, gömrük sənədlərinin və gömrük təminatlarının qarşılıqlı tanınması, sərhədlərdən qanunsuz keçirilən mədəni sərvətlərin saxlanılması və qaytarılması məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq, gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının qarşısının alınması, tətbiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım və s. Gömrük qanunvericiliyi gömrük rəsmiləşdirməsi və nəzarəti prosedurаlarının sadələşdirilməsini, xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi üçün xüsusi, yalnız bu iş üçün təyinatlandırılmış mərkəzlərin yaradılmasını, yeni texnologiyaların rasional və inteqrasiya olunmuş

istifadəsinin həvəsləndirilməsini nəzərdə tutur. Ölkə iqtisadiyyatının təhlükəsizliyinə zərər vuran cinayətlərin və hüquqpozmaların aşkar olunması və qarşısının alınması xarici ticarət əməliyyatları üzərində effektiv nəzarətin təşkilini, gömrük brokeri institutunun inkişaf etdirilməsini, gömrük orqanları və işgüzar dairələr arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsini tələb edirdi. Gömrük orqanı əməkdaşlarının, xüsusən də gömrük sərhədindən keçirilən mallara tarif dərəcələri ilə işləyən mütəxəssislərin ixtisaslarının müntəzəm artırılması əsas vəzifələrdən biri idi.

1993-cü ilin ikinci yarısından başlayaraq ictimai-siyasi həyatda aparılan islahatlar, sabitliyin yaradılması istiqamətində görülən təxirə salınmaz tədbirlər, zəngin təbii sərvətlərə, iqtisadi və elmi-texniki potensiala malik ölkəmizin fəal xarici iqtisadi siyasət aparması üçün geniş imkanlar açdı. Dünyanın sivil dövlətlərinin inkişaf təcrübəsində sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuş iqtisadi inkişaf kursunun Azərbaycan gerçəkliyinə tam uyğunlaşdırılan adekvat modeli - azad sahibkarlıq, müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarının inkişafına bərabər şərait yaradan, azad iqtisadi rəqabət mübarizəsinə meydan açan sosial istiqamətli bazar iqtisadiyyatı modelinə üstünlük verildi.

Təəssüf ki, 1993-1994-cü illərdə iqtisadi quruculuq və yaradıcılıq işlərinə başlamaq bir müddət mümkün olmadı. Başlıca səbəb isə xaricdən idarə olunan dövlət çevrilişi və sui-qəsd cəhdləri idi. Dövlət başçısı Heydər Əliyev birinci növbədə ölkədə sosial-siyasi sabitliyi təmin edən tədbirlər görmək zərurəti qarşısında qaldı. Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdıran və insan tələfatı ilə nəticələnən tayfa, əyalət separatçılığı cəhdlərinin qarşısını aldı. Onun gərgin səyi və yüksək təşkilatçılıq məharət sayəsində Azərbaycan dövlətinin milli maraqlarının qorunması istiqamətində son dərəcə zəruri tədbirlər həyata keçirildi. Ölkədə vətəndaş həmrəyliyi və sabitlik təmin ediləndən dərhal sonra çoxsaylı sosial-iqtisadi problemlərin həlli sahəsində işlər görüldü. İqtisadi sistemin transformasiyasını təmin edən islahatlar və mərhələ-mərhələ həyata keçirilən özəlləşdirmə prosesi nəticəsində kiçik, orta və iri sahibkarlığın inkişafı üçün münbit şərait yaradıldı.

İqtisadiyyatın tənəzzülə uğramış sahələrinə kapital qoyuluşunun artırılması, inflyasiya və büdcə kəsirinin minimuma endirilməsi iqtisadi geriliyin qarşısını almağa imkan verdi. Heydər Əliyev ölkənin xarici iqtisadi

əlaqələrinin beynəlxalq iqtisadi və siyasi mühitdən birbaşa asılı olması və dünya ticarəti sistemində bütün inkişaf etməkdə olan ölkələrə qarşı sərt şərtlər irəli sürülməsi kimi amilləri nəzərə alaraq müvafiq dövlət qurumları qarşısında xarici ticarətin tənzimlənməsi sahəsində ardıcıl tədbirlər görülməsini tələb edirdi [79, 4-5 ].

Xarici iqtisadi əlaqələrin idarəetmə mexanizminin səmərəlilik baxımından qabaqcıl ölkələrin göstəricilərindən çox aşağı səviyyədə olmasını nəzərə alan Heydər Əliyev hesab edirdi ki, ölkədən strateji məhsulların ixracı məsələləri prezidentin səlahiyyətində olmalı, valyuta gətirən malların ixracı mərkəzləşdirilməli və valyuta fondu yaradılmalıdır. Milli maraqlara xidmət edən gömrük siyasəti işlənib hazırlanmalı, ixrac olunan mallara qoyulan vergilər tənzimlənməlidir. O, 1993-cü il noyabrın 19-da iqtisadi məsələlərə həsr olunmuş Ümumrespublika müşavirəsində çıxışında demişdi: *"İndi Azərbaycan müstəqil dövlət kimi, bir çox ölkələrlə iqtisadi əlaqələr qurmağa başlamışdır. Ancaq bu əlaqələrin respublika iqtisadiyyatına nə qədər mənfəət gətirdiyi hələ məlum deyil. İqtisadi əlaqələrimizin təşkilində, qurulmasında qüsurlar, səhvlər vardır... eyni zamanda idxal-ixrac əməliyyatlarının səviyyəsi məsələlərini aydınlaşdırmaq lazımdır. Respublikada istehsal olunan bir sıra məhsulların xaricə satılması, əvəzində lazımi mallar alınması və ölkəmizin ehtiyaclarının təmin olunması əsas məsələlərdən biridir. Ancaq bu sahədə də qarışıqlıq, qanun pozuntuları vardır. Bəzən ayrı-ayrı qrupların, dairələrin mənafeyi ümumrespublika, ümumxalq mənafeyindən üstün tutulur. Ona görə də biz bu sahələrdə istənilən nəticəni əldə edə bilmirik"* [53, 257].

Milli iqtisadiyyatın dünya iqtisadi məkanına uyğunlaşması xarici iqtisadi doktrinanın və onun həyata keçirilməsinin strategiyasının hazırlanması, milli iqtisadiyyatın xarici mühitlə əlaqələr sisteminin yaradılması ən ümdə məsələlərdən idi. Heydər Əliyev 1994-cü ilin fevralın 22-də Böyük Britaniya sənayeçiləri konfederasiyasındakı çıxışında, *"Sahibkarlığın strategiyası və iqtisadiyyatın yenidən qurulması"* mövzusunda 1994-cü ilin sentyabrın 13-də Bakıda və 1995-ci ilin noyabrın 29-da Londonda Adam Smit İnstitutunda *"Azərbaycanda investisiya imkanları"* adlı keçirilən Beynəlxalq konfranslardakı nitqlərində ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə yönəldilməsi sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələrdən danışaraq sahibkarlığa, təşəbbüskarlığa və iqtisadiyyatda

sərbəstliyə geniş meydan açmaq niyyətində olduğumuzu açıqlamışdı.

İqtisadi məsələlərə həsr edilmiş London konfransında 20 ölkədən gəlmiş 200-dən çox nümayəndə iştirak edirdi. Konfransda Heydər Əliyevin çıxışı çox diqqətlə dinlənilmiş və forum iştirakçılarının bir çoxunda Azərbaycan iqtisadiyyatına investisiya cəlb etməyə maraq oyatmışdı. Ulu öndər konfransda Azərbaycanın keçmiş sovet dövrü tarixinin xüsusiyyətləri və bazar iqtisadiyyatına keçid dövrünün problemlərindən söz salaraq dünya dövlətləri ilə qarşılıqlı-faydalı əməkdaşlığın təminat mexanizminin yaradılması və iqtisadi maraqların uzlaşdırılması kimi prinsipial müddəalar irəli sürmüş, Avropanın qabaqcıl ölkələrinin təcrübəsindən səmərəli istifadə etmək məqsədini ifadə etmişdi. London konfransının əsas nəticəsi bundan ibarət oldu ki, Azərbaycan xarici investisiyalar yatırılması üçün əlverişli imkanlar qazandı. Bu məqam konfransın sədri Corc Riçers, Böyük Britaniyanın dövlət katibi Yan Lanq, ABƏŞ-in prezidenti Terri Adamın çıxışlarında da ifadə olunmuşdu [81, 109; 54, 21-32; 59, 204 ].

Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin ilk dəfə olaraq 1995-ci il yanvarın 26-30-da Davosda (İsveçrə) keçirilən Ümumdünya iqtisadi Forumunda iştirak etməsinin Qərb dövlətləri ilə iqtisadi əlaqələrinin inkişaf etdirilməsində mühüm əhəmiyyəti oldu.

Gömrük işinin əsasını təşkil edən gömrük siyasəti mürəkkəb və çoxfunksiyalı fəaliyyət olmaqla dövlətin iqtisadi siyasətinin tərkib hissələrindən biridir. Onun vasitəsilə davamlı iqtisadi inkişafı təmin etmək və iqtisadi inkişafı stimullaşdırmaq mümkündür. Gömrük tənzimlənməsindən iqtisadi inkişafa təsir vasitəsi kimi istifadə edilməsi bir çox dünya ölkələrinin təcrübəsində rast gəlinir. ABŞ, Böyük Britaniya, Yaponiya, Almaniya, Fransa və Çin kimi qabaqcıl dövlətlərin iqtisadi inkişaf təcrübəsində çevik gömrük-tarif siyasəti geniş tətbiq edilir. Düzdür, müxtəlif ölkələrdə iqtisadiyyatın gömrük tənzimlənməsinin miqyası və metodları əsaslı surətdə fərqlənir. Bu, ölkənin tarixi ənənələri, milli təsərrüfatçılıq və həyat tərzi, geosiyasi vəziyyəti və s. faktorlarla əlaqədardır.

Gömrük siyasətinin həyata keçirilməsində beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddəaların həyata keçirilməsi əsas istiqamətlərdən birini təşkil edir. 1973-cü il tarixli Gömrük prosedurаlarının sadələşdirilməsi və harmonikləşməsi haqqında Beynəlxalq Konvensiya (Kioto Konvensiyası) 1974-cü ildə qüvvəyə minmişdir və özündə 70-dən artıq dövləti birləş-

dirirdi. Azərbaycan Respublikasının 1997-ci il Gömrük Məcəlləsinin 2-ci maddəsi ilə gömrük siyasətinin dövlətin və xarici siyasətinin tərkib hissəsi kimi müəyyən edilməsi Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin beynəlxalq inteqrasiya istiqamətində qurulmasını göstərir. Azərbaycanın milli gömrük xidmətinin formalaşdığı bir vaxtda ÜTT-nin 1999-cu il 26 may tarixli sessiyasında Kioto Konvensiyası yeni redaksiyada qəbul edildi. Konvensiya yeni redaksiyada aşağıdakı müddəalara əsaslanır; sadələşdirilmiş standart gömrük qayda və qanunlarının qəbul edilməsi; gömrük prosedurlarında informasiya sistemləri və texnologiyalarından maksimum dərəcədə istifadə edilməsi; gömrük nəzarətinin metodlarının təkmilləşdirilməsi; elektron məlumat bazasından istifadə; gömrük orqanlarının digər dövlət orqanları ilə hərtərəfli əməkdaşlı; xarici iqtisadi fəaliyyət iştirakçıları ilə tərəfdaş münasibətlərinin müəyyən olunması və s. İndiki halda gömrük orqanlarından şikayət verilməsi qaydaları daha aydın və dəqiq ifadə olunur.

Bu sahədə digər mühüm beynəlxalq standart kimi Gömrük Əməkdaşlığı Şurasının (GƏŞ)qəbul etdiyi Yüklərin beynəlxalq tranziti haqqında Gömrük Konvensiyasını (1971-ci il) göstərmək olar. Bu Konvensiyaya gömrük orqanlarında yüklərin yoxlanılmasının sadələşdirilmiş proseduru üzrə fəaliyyət göstərir. 1983-cü ildə Brüsseldə *"Malların təsvirinin və kodlaşdırılmasının harmonizasiya olunmuş sistemi"* haqqında Beynəlxalq Konvensiya qəbul olundu və 1988-ci ilin yanvarın 1-dən qüvvəyə mindi. 1990-cı ildə İstanbulda imzalanmış *"Müvəqqəti idxal haqqında"* Konvensiya gömrük rejimlərinin sadələşdirilməsi və harmonizasiyasını, müvəqqəti idxal barədə qaydaların asanlaşdırılmasını, beynəlxalq ticarətə və beynəlxalq mübadiləyə səmərəli yardım göstərilməsini nəzərdə tuturdu. 1972-ci ildə qəbul edilmiş *"Konteynerlərə aid Gömrük Konvensiyası"* aşağıdakı məsələləri əhatə edir: müvəqqəti idxal şərtləri, müvəqqəti idxal proseduru, müvəqqəti ixrac proseduruna uyğun olaraq ixrac edilən konteynerlərdən istifadə olunma şərtləri və xüsusi hallar. *"Sərhəddə yüklərə nəzarətin həyata keçirilməsi şərtlərinin razılaşdırılması haqqında"* 1984-cü il tarixli Beynəlxalq Konvensiyanın əsas məqsədini beynəlxalq yük daşımalarının asanlaşdırılmasını nəzərdə tutur. Avropa İttifaqı çərçivəsində gömrük münasibətlərinin tənzimlənməsi 1992-ci ildə qəbul olunmuş və 1994-cü il yanvarın 1-də qüvvəyə minmiş Gömrük Məcəlləsi ilə həyata keçirilir. Bu

Məcəllə həm Avropa İttifaqı səviyyəsində, həm də milli səviyyədə gömrük qaydalarını müəyyən edir. MDB çərçivəsində imzalanmış müqavilələr də gömrük münasibətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Azərbaycan Respublikasının yeritdiyi gömrük siyasətinin əsas prinsipləri gömrük qanunvericiliyində, o cümlədən Gömrük Tarifində əks olunmuşdur. Azərbaycan Respublikasının 1995-ci il Gömrük Tarifinin əsas prinsipləri bunlar idi:

– idxal və ixracın mal quruluşunun səmərələşdirilməsi;

– Azərbaycan Respublikası ərazisinə gətirilən və ölkədən çıxarılan malların valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətinin təmin edilməsi;

– Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan valyuta sərvətlərinin üzərində səmərəli nəzarətin həyata keçirilməsi;

– Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şəraitin yaradılması;

– Azərbaycan Respublikasının iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorunması;

– Azərbaycan Respublikasının iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasına şərait yaradılması.

İqtisadiyyatın bazar münasibətlərinə transformasiya olunması ilə əlaqədar olaraq həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi dəyişikliklər və milli iqtisadiyyatın dirçəldilməsinin mühüm amili kimi gömrük-tarif mexanizmlərindən fəal istifadə olunması nəticəsində gömrük vergi və rüsumlarının dinamikası artdı. Digər tərəfdən, milli iqtisadiyyatın gömrük-tarif sistemi vasitəsilə dövlət tərəfindən dəstəklənməsi zəruriliyi də bunu şərtləndirən mühüm amillərdən biridir. 1996-cı ildən başlayaraq büdcə gəlirlərinin təqribən 15-22 faizinin gömrük vergi və rüsumları hesabına formalaşması gömrük sisteminin iqtisadiyyatın idarə edilməsində əhəmiyyətli rol oynadığını təsdiq edir.

1995-2013-cü illərdə Respublikanın sosial-iqtisadi həyatında baş verən əhəmiyyətli dəyişikliklər, büdcə gəlirlərinin artması, o cümlədən gömrük rüsum və gəlirləri hesabına ölkənin maliyyə imkanları xeyli yaxşılaşdı. Bu da büdcə xərclərində investisiya və sosial yönümlülüyünün və istehsal xarakterli proqramlara maliyyə dəstəyinin gücləndirilməsinə,

iqtisadiyyatda dinamik meyllərin möhkəm təmələ əsaslanmasına zəmin yaratdı. Prosesin davamlı olması üçün, habelə Respublikanın bir çox iqtisadi və sosial problemlərinin həlli dövlətin iqtisadi imkanlarının artırılmasına gətirib çıxaran səmərəli gömrük-tarif tənzimlənməsinin həyata keçirilməsini zəruri etdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikası ərazisinə gətirilən Müstəqil Dövlətlər Birliyi üzvü olan dövlətlərin hüdudlarından kənarda istifadə edilmiş əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında"* 1995-ci il 6 aprel tarixli 86 saylı qərarının 4-cü bəndində əlavə dəyər vergisinin Dövlət Gömrük Komitəsinin orqanları tərəfindən tutulması və tam həcmdə dövlət büdcəsinə köçürülməsi göstərilirdi [13, 92-93].

Azərbaycan Respublikasının da 1996-cı il 8 oktyabr tarixli Qanunla qoşulduğu 1994-cü il 15 apreldə qəbul edilmiş Azad Ticarət Zonasının yaradılması haqqında Sazişin 3-cü maddəsində razılığa gələn tərəflərin gömrük ərazisində nəzərdə tutulan malların idxalı və ixracına ekvivalent olan gömrük rüsumları, vergilər və yığımlar, həmçinin say məhdudiyyətlərinin tətbiq edilməməsi şərtləri göstərilmişdir. Belə bir hüquqi əsas Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş *"Sərbəst ticarət haqqında"* Azərbaycan Respublikası ilə Moldova Respublikası hökumətləri arasında 1995-ci il 26 may tarixli Sazişdə də əks olunmuşdur.

*"Gömrük tarifi haqqında"* Azərbaycan Respublikası Qanununun 34-cü maddəsi ilə gömrük rüsumlarından azad edilən birinci növ mallar kimi yüklərin, baqajın və sərnişinlərin beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitələri, habelə onların yol boyu, dayanacaqlararası məntəqələrdə normal istismarı üçün lazım olan və ya həmin nəqliyyat vasitələrinin qəzasının (sınmasının) nəticələrini aradan qaldırmaq məqsədilə xaricdən alınmış maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq və digər əmlak müəyyən edilir. *"Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında"* beynəlxalq Konvensiyada göstərilir ki, gömrük ərazisinə daxil olan gəmidə və ya təyyarədə daşınan ehtiyatlar, onların orada qalması şərtilə, idxal rüsum və vergilərindən azad olunur.

Azərbaycan Respublikası və Rusiya Federasiyası hökumətləri arasında "*Hava əlaqəsi və hava nəqliyyatı sahəsində əməkdaşlıq haqqında"* 1993-cü

il 22 noyabr tarixli Sazişin (1996-cı il 29 may tarixli Qanunla təsdiq edilmişdir) 15-ci maddəsinin 1-ci hissəsində deyilir ki, tərəflərdən birinin təyin edilmiş aviasiya müəssisəsinin müqavilə xətlərində istismar etdiyi hava gəmiləri, habelə onların tabel əmlakı, yanacaq və sürtgü materialları ehtiyatı, gəmi ehtiyatları (o cümlədən, ərzaq, içkilər və tütün məmulatı) tərəflərin ərazisinə gətirildikdə bütün gömrük rüsumlarından və başqa vergilərdən azad edilməlidir, bu şərtlə ki, həmin əmlak, material və ehtiyatlar geriyə qaytarılana qədər hava gəmisində qalsın. Bununla əlaqədar müddəalar Azərbaycan Respublikasının digər dövlətlərlə bağlanmış müqavilələrdə də əks olunmuşdur. Məsələn, Azərbaycan Respublikası ilə İİR hökumətləri arasında *"Hava nəqliyyatı haqqında"* 2002-ci il 20 may tarixli Sazişin (Saziş 2002-ci il 2 iyul tarixli Qanun ilə təsdiq edilmişdir) 6-cı maddəsi və s. Qanunun 37-ci maddəsi ilə gömrük rüsumlarından azad edilən ikinci hal dənizdə balıq ovlayan Azərbaycan Respublikası gəmiləri və Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxt) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək məqsədilə Azərbaycan Respublikasının gömrük ərazisindən çıxarılan maddi-texniki təchizat və tədarük malları, yanacaq, ərzaq və başqa əmlak, habelə həmin gəmilərdə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən vətəgəçilik məhsullarıdır. Qanunun 34-cü maddəsi ilə gömrük rüsumlarından azad edilən üçüncü hal rəsmi, yaxud şəxsi istifadə üçün xarici ölkələrin nümayəndələri tərəfindən və ya Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə bu cür malları rüsumsuz gətirmək və rüsumsuz çıxarmaq hüququna malik fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallardır. *"Gömrük tarifi haqqında"* Qanunun 34-cü maddəsində gömrük rüsumlarından azad edilən növbəti əsas Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq gömrük sərhədi ərazisindən çıxarılan Azərbaycan Respublikasının valyutası və bu ərazidən gətirilən xarici valyutalar (numizmatika məqsədilə istifadə olunanlardan başqa), qiymətli kağızlardır [65, 24-25].

Gömrük ödənişlərinin alınmasında iş adamlarına şərait yaratmaq üçün bank zəmanətindən istifadə edilməsi, nağd pulla ödənişdən gömrük kartları ilə birbaşa bank hesabına ödəmə sisteminə keçirilməsi kimi beynəlxalq təcrübəyə üstünlük verildi. Bu məqsədlə. Birləşmiş Millətlər Təşkilatının

İnkişaf Proqram ilə birgə "ACTOK" sisteminə (gömrük rəsmiləşdirilməsi sistemi) keçilməsi istiqamətində hazırlıq işləri aparılırdı. Bu cür sistem iş adamları ilə gömrük əməkdaşları arasında birbaşa əlaqəni aradan qaldırmağa və broker xidmətinin müasir formalarını tətbiq etməyə imkan verdi. İş adamlarına normal şərait yaratmaq və malların sərhəd-buraxılış məntəqələrindən buraxılışında vaxt itkisini aradan qaldırmaq üçün MDB məkanına daxil olan dövlətlərin əksəriyyəti ilə gömrük təminatlarının (möhürlərin, ştampların, və s.) tanınması sahəsində əməkdaşlıq sazişləri imzalandı.

## 3.2. Gömrük nəzarətinin iqtisadi göstəricilərinin artırılması

Gömrük statistikasına əsasən, 1994-cü ilin birinci yarısının yekununa görə 54 dövlətlə, o cümlədən 31 dövlətlə ikitərəfli, 23 dövlətlə birtərəfli qaydada ticarət əlaqələri qurulmuşdusa, ilin sonunda 58 dövlətlə ticarət əlaqələri aparılırdı, onlardan 48-i uzaq xarici dövlətlər, 10-u MDB üzv ölkələri olmuşdu. Ticarət əməliyyatları 39 dövlətlə ikitərəfli qaydada, 19-u ilə birtərəfli qaydada aparılırdı 1994-cü ildə Respublikanın xarici ticarət dövriyyəsi 1414680, 0 min ABŞ dolları, o cümlədən idxal 7777910,5 min, ixrac 636769,5 min ABŞ dolları, olmuşdu. MDB ölkələri ilə ümumi ticarət dövriyyəsi 759981, 6 min (ümumi balansın 53, 7 faizi), o cümlədən idxal 485813, 7 min (ümumi idxal balansının 62, 5 faizi) , ixrac isə 274187, 9 min (ümumi ixrac balansının 43,1 faizi) ABŞ dolları təşkil etmişdi. MDB ölkələri ilə ticarətin 33,8 faizi Rusiya, 28, 0 faizi Türkmənistan, 19 faizi Ukrayna, 9 faizi Qazaxıstanla aparılırdı [133, 1994, 5 avqust].

Azərbaycan Respublikası beynəlxalq birliyin tam üzvlüyünə qəbul edildikdən sonra iqtisadi böhran və tənəzzüldən çıxış yolunu dünya ölkələri ilə, birinci növbədə Türkiyə, İran, Rusiya, Ukrayna, Gürcüstan və Moldova ilə sıx iqtisadi münasibətləri qurmaqda gördü. Azərbaycan Respublikasında gömrük işinin müasirləşdirilməsi üçün ilk növbədə, xarici iqtisadi fəaliyyətin tənzimetmə mexanizminin beynəlxalq tələblərə uyğunlaşdırılması, gömrük siyasətinin elmi və hüquqi əsaslarının işlənilib hazırlanması tələb olunurdu. Qısa müddət ərzində bazar iqtisadiyyatı sisteminə keçid prosesində hüquqi təminat bazasının yaradılması üçün qanunlar paketi qəbul edildi. Bu qanunların reallaşdırılması ölkəmizdə gömrük işinin inkişafına və xarici iqtisadi fəaliyyətin canlanmasına güclü təkan verdi [140, 9-13].

Azərbaycan Respublikası Prezidentinin *"Xarici ölkələrlə məhsul satışının təmin edilməsi sahəsində nəzarətin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında"* 1994-cü il 28 iyun tarixli 170 saylı Fərmanı bu sahədə yaranmış mənfi halların qarşısını almaq və xarici ölkələrə məhsul satışının səmərəsini artırmaq məqsədi daşıyırdı. Fərmana əsasən yaradılan Fövqəladə komissiyanın vəzifəsi ixrac əməliyyatlarında vergi ödənilməsinə və digər öhdəliklərin yerinə yetirilməsinə nəzarət etmək idi [6, 1997, 29 iyun].

Nazirlər Kabineti *"Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında"* 1994-cü il 2 iyun tarixli 222 nömrəli Qərarı qəbul etdi. Bu qərar ixrac əməliyyatlarının aparılması üçün ümumi qaydaları müəyyən etdi. Xarici İqtisadi Əlaqələr Nazirliyi ekspert rəyləri əsasında lisenziyaların verilməsinə cavabdeh orqan adlandırıldı. Qərar müəyyən sənədlərin Xarici İqtisadi Əlaqələr Nazirliyinə, həmçinin gömrük orqanlarına təqdim olunmasını tələb edən ixrac mallarının siyahısını, 3 saylı Əlavədə sadalanan spesifik malların ixracı üçün müvafiq nazirlik və komitələrin xüsusi razılığını və 4 saylı Əlavədə sadalanan malların ixracı üçün Nazirlər Kabinetinin icazəsini, 5 saylı Əlavədə sadalanan müxtəlif malların idxalı üçün müvafiq dövlət orqanlarından razılıq alınmasını tələb edirdi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasında Xarici Ticarətin sərbəstləşdirilməsi haqqında"* 1995-ci il 15 noyabr tarixli 247 nömrəli Qərarı ilə qeyd olunan sənəd ləğv edildi və *"Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında Əsasnamə"* qəbul edildi [38, 1996, №1, 1-13].

Azərbaycan Respublikasının Prezidenti 1996-cı il avqustun 6-da *"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında"* 481 nömrəli Fərmanı qəbul etdi. Fərman 1 saylı əlavədə sadalanan malların ixracı üçün müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyata alınmasını tələb edirdi. Fərmanda müəyyən sənədlərin Xarici İqtisadi Əlaqələr Nazirliyinə, həmçinin gömrük orqanlarına təqdim edilməsi tələb olunurdu. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış-keçid məntəqələrində Sərhədyanı bazarların yaradılması və fəaliyyəti Qaydaları haqqında"* 1995-ci il 13 fevral tarixli 26 saylı qərarı oldu. Sərhədyanı bazarların yaradılmasında əsas məqsəd Azərbaycanla qonşu dövlətlər arasında ticarət-iqtisadi əlaqələrin mümkün qədər sadələşdirilməsi və bu əlaqələrin genişləndirilməsi idi. Bu

işlərin həyata keçirilməsi Ticarət, İqtisadiyyat, Xarici iqtisadi əlaqələr nazirlikləri, Dövlət Gömrük Komitəsi, Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsi və Naxçıvan MR Nazirlər Kabinetinə tapşırılırdı. Qərarın 11-ci bəndində göstərilirdi ki, Sərhədyanı bazarların ərazisində malların idxal və ixracından gömrük vergisi alınmır. lakin Nazirlər Kabinetinin 1996-cı il 15 iyul tarixli 95 saylı qərarı ilə 11-ci bəndə aşağıdakı abzas əlavə edildi: *"Bazarın ərazisindən çıxarılan malla, mövcud qanunvericiliyə və normativ aktlara uyğun olaraq gömrük rüsumlarına və vergilərə cəlb edilsin"* [13, 190; 14, 4-5].

Lakin MDB ölkələri ilə ticarətin həcminin aşağı düşməsi meyli davam etməkdə idi. Bunun əsas səbəbi Şimali Qafqazda baş verən hadisələrlə əlaqədar olaraq nəqliyyat əlaqələrinin qismən, bəzi hallarda isə tamamilə kəsilməsi idi. Manatın kursunun sabitləşdirilməsi ilə bağlı hökumətin həyata keçirdiyi tədbirlər idxal-ixrac əməliyyatlarına təsirsiz ötüşmürdü. 1995-ci ilin nəticələrinə görə uzaq xarici dövlətlər və MDB üzv ölkələri ilə ticarət dövriyyəsinin həcmi 1215017,3 min ABŞ dolları, o cümlədən idxal 667657,2 min dollar, ixrac isə 547360,1 min dollar təşkil etmişdi. Uzaq xarici dövlətlərlə ticarət dövriyyəsinin həcmi 76907,5 min dollar olmuşdu (ümumi ticarət dövriyyəsinin 63, 3 faizi), bunun 439317, 6 mini idxalın (ümumi idxalın 65,8 faizi), 329757, 3 min dolları ixracın payına düşürdü ( ümumi ixracın 60, 2 faizi). 1995-ci ildə Azərbaycanın əsas ticarət tərəfdaşları aşağıdakı dövlətlər olmuşdu: İran (20, 1 faiz), Rusiya (15, 4 faiz), Türkiyə (13, 7 faiz), BƏR (5, 8 faiz), Ukrayna (5, 5 faiz), Türkmənistan (5, 3 faiz), Gürcüstan (5, 0 faiz), Böyük Britaniya (4, 8 faiz) və Almaniya (3, 9 faiz) [14, 192].

1995-ci ildə Azərbaycanın ixracı əsasən dizel yanacağından (33,5 faiz), pambıq mahlıcından (19, 3 faiz), maşın və elektrotexnika (7,1) faiz), sürtük yağları (6,4 faiz), elektrik enerjisi (4,1 faiz), qara metal və metal məmulatları (2,2 faiz), kondisionerlər (1,9 faiz) və neft avadanlığından (1, 5 faiz) ibarət olmuşdu. İdxalın strukturunda isə ərzaq və tütün məhsulları (41,5 faiz), təbii qaz (6,9 faiz),maşın və elektrotexnika (12,4 faiz), elektrik enerjisi (5,3 faiz), dərman və tibb vasitələri (4,0 faiz) əsas yer tuturdu. Elektrik enerjisi ixracının artması, hər şeydən əvvəl, beynəlxalq müqavilə əsasında İran və Türkiyədən Naxçıvan MR-ə ötürülən elektrik enerjisinin əvəzinin ödənilməsi ilə bağlı idi. 1995-ci ildə xarici ticarət fəaliyyəti ilə

məşğul olan iri istehsal müəssisə və birliklərin Azərbaycanın idxalında (667657,2 min ABŞ dolları) payı 171064,6 min dollar (25,6 faiz) təşkil etmişdi. İdxalın təşkilatlar üzrə strukturunda kiçik müəssisələr -67917,8 min dollar (10,2 faiz), birgə müəssisələr - 63191,0 min dollar (9,5 faiz), şirkətlər - 188365,0 min dollar (28,2 faiz), dövlət ticarət təşkilatları - 39213, 6 min dollar (5.9 faiz), kommersiya təşkilatları - 6203,5 faiz (0,9 faiz),səhmdar cəmiyyətlər - 2000, 6 min dollar (0,3 faiz), xarici iqtisadi əlaqələr üzrə təşkilatlar - 35211, 6 min dollar (5,3 faiz), ayrı-ayrı cəmiyyətlər - 26124, 9 min dollar (3,9 faiz), holdinglər - 8546, 0 min dollar (1,3 faiz), nəqliyyat və rabitə müəssisələri - 12138,9 min dollar (1,8 faiz), tikinti təşkilatları - 365,2 min dollar (0,05 faiz), şəxsi yardımçı təsərrüfatlar - 3153,3 min dollar (0,5 faiz) və digər təşkilatlar - 40819,1 min dollar (6,1 faiz) paya malik olmuşdu.

Həmin ildə Azərbaycanın ixracında (547360, 1 min dollar) əsas yeri iri müəssisə və birliklər - 306895,2 min manat (56,1 faiz), dövlətin xarici iqtisadi əlaqələri birbaşa həyata keçirən təşkilatlar - 106727,2 min dollar (19,5 faiz) və birgə müəssisələr - 38730,6 min dollar (7,1 faiz) tuturdu. Bütövlükdə, idxal-ixrac əməliyyatlarının 39,3 faizi iri istehsal müəssisələri və birlikləri, 27,0 faizi kiçik müəssisələr, 6,6 faizi şirkət və assosiasiyalar, 3,6 faizi dövlətin ticarət və xarici iqtisadi əlaqələr təşkilatları tərəfindən aparılmışdı [81, 220].

1995-ci ildən başlanmış iqtisadi islahatlar respublikanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə əlverişli şərait yaratdı. Yeni qaydalar dövlət orqanlarına, özəl şirkət, səhmdar cəmiyyət və birliklərə maneəsiz olaraq xarici iqtisadi fəaliyyətlə məşğul olmaq imkanı verirdi. Xarici iqtisadi fəaliyyətə aid bir sıra qanun və sənədlər qəbul edildi. Bu mühüm prosesin hüquqi təminatı ölkəmizin xarici iqtisadi münasibətlərinin dərinləşməsinə səbəb oldu. 1996-cı ilin göstəriciləri əvvəlki illərdən fərqlənirdi. Azərbaycandan gömrük nəzarətindən keçməklə xaricə 736518, 1 min ABŞ dolları məbləğində məhsul göndərilmiş, respublikaya isə 944526,7 min dollar məbləğində mal idxal edilmişdi. Bu göstəricilər ixrac üzrə göstəricilərdən 240 mln. Dollar və ya 3,1 dəfə, idxal göstəriciləri üzrə 2,8 dəfə çox olmuşdu. Həmin dövrdə idxal əməliyyatlarının 58,0 faizi və ya 387253 manatı, ixracın isə 48,5 faizi və ya 265478,6 manatı dönər valyuta ilə həyat keçirilmişdi. İdxal və ixracda barter əməliyyatlarının payı 1994-cü ilə nisbətən müvafiq olaraq 36,1 və 32,5 faiz azalmışdı. Bununla bərabər, xarici

ticarət dövriyyəsində barter əməliyyatlarının həcmi yüksək olaraq qalırdı: ölkəyə gətirilən malların 29,8 faizi, ixrac edilən malların isə 60,8 faizi barter əməliyyatlarının payına düşürdü [137, 88].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında"* 1995-ci il 24 aprel tarixli 90 saylı qərarı ilə *"Gömrük ixrac rüsumu haqqında müvəqqəti Əsasnamə", "Azərbaycan Respublikası ərazisindən çıxarılarkən gömrük ixrac rüsumuna cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük ixrac rüsumunun dərəcələri", "Gömrük idxal rüsumu haqqında müvəqqəti Əsasnamə", "Azərbaycan Respublikası ərazisinə gətirilərkən gömrük idxal rüsumuna cəlb olunan malların qruplar üzrə siyahısı və gömrük idxal rüsumlarının dərəcələri", "Gömrük xidmətləri göstərilməsi üçün alınan ödənclər haqqında təlimat" və "Gömrük xidmətlərinin göstərilməsi üçün alınan ödənclərin tarifi"* adlı sənədlər təsdiq edildi [12, 295-305; 15, 112-131].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 11 iyul tarixli *"Azərbaycan Respublikası ərazisində radiasiya təhlükəsizliyinə nəzarəti gücləndirmək tədbirləri haqqında"* 76 nömrəli qərarı ölkə ərazisində radiasiya təhlükəsizliyinə müntəzəm nəzarəti mövcud norma və qaydaların tələblərinə uyğun təmin edilməsi və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi məqsədi daşıyır. Respublika Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında"* 1998-ci il 22 aprel tarixli 91 saylı qərarı ilə gömrük rüsumları və yığımlarının dəyişdirilməsi həyata keçirildi, daha doğrusu, ixrac olunan mallar onların növündən asılı olmayaraq ixrac rüsumundan azad olundu. 1998-ci ildə gömrük vergi qanunvericiliyinə dair normativ bazanın dəyişmədiyi, əksinə, gömrük vergi və rüsumlarından qanunvericiliklə azad olmaların xüsusi çəkisinin artdığı, vergitutma obyektlərinin sayının azalmasına baxmayaraq, dövlət büdcəsinə 561,6 mlrd. manat gömrük rüsumları və vergiləri toplanıb köçürülmüşdü. Bu, 1997-ci ildəkindən 132,1 mlrd. manat və ya 30,8 faiz çox olmuşdu(müvafiq illərin qiymətləri ilə) [106, 1998, 29 yanvar, №2] .

Qeyd olunduğu kimi, Gömrük tarifi bazar iqtisadiyyatı şəraitində xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin əsas aləti olaraq iqtisadi-ticarət əlaqələrinin tənzimlənməsində mühüm rol oynayır. Dünya təcrübəsi təsdiq

edir ki, gömrük rüsum dərəcələri hazırlanıb tətbiq edilərkən güclü iqtisadi təhlil aparılmalı, iqtisadi sahələrin inkişaf səviyyəsi, daxili bazar qiymətlərinin hədləri, əhalinin sosial vəziyyəti nəzərə alınmalı, dövlətin iqtisadi siyasətinin əsas prinsiplərinə əsaslanmalıdır. Respublikanın idxalçı ölkədən ixracatçı ölkəyə çevrilməsi baxımından gömrük-tarif sistemi mühüm rola malikdir. Müstəqillik illərində xarici iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli işlər görüldü. Azərbaycan Respublikası DGK tərəfindən müxtəlif qaydalar hazırlandı, qərar, qanun, saziş layihələri hazırlanaraq müvafiq dövlət təşkilatlarına təqdim edildi. Dünya Bankının nümayəndələrinin iştirakı ilə müzakirələr aparıldı. Gömrük xidməti ödənişləri alınmasının mütərəqqi forması kimi Azərbaycan Beynəlxalq Bankının texniki dəstəyi ilə ödəniş kartlarından istifadə edilməsinə başlanıldı.

Azərbaycan Respublikasında aşağıdakı gömrük ödənişləri tətbiq olunurdu: əlavə dəyər vergisi; gömrük rüsumu; aksizlər; gömrük işini aparan icra orqanı tərəfindən lisenziyaların verilməsi və lisenziyaların fəaliyyətinin bərpa edilməsinə görə yığımlar; gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlarının verilməsi və attestatların fəaliyyətinin bərpa edilməsinə görə yığımlar; gömrük rəsmiləşdirilməsinə görə alınan vəsaitlər; malların saxlanmasına görə gömrük yığımları; məlumatlandırmaya görə haqq; ilkin qərarın qəbuluna görə haqq; gömrük auksionlarında iştiraka görə haqq və digər gömrük ödənişləri. Gömrük rüsumlarının ödənilməsi məcburi xarakter daşıyır və dövlətin məcburiyyəti ilə təmin edilir.

Elmi ədəbiyyatda gömrük rüsumları müxtəlif cür təsnifləşdirilir: hesablanma qaydasına görə, alınma qaydasına görə, malın mənşə ölkəsinə görə, dərəcələrin növünə görə və s. Xarici iqtisadi əməliyyatların xarakteri və ya rüsumların ödənilmə obyektinə görə idxal, ixrac və tranzit rüsum növləri mövcuddur. Elmi ədəbiyyatın və gömrük statistikasının təhlili göstərir ki, idxal və ixrac rüsumları bütün ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da gömrük rüsumlarının əksər hissəsini təşkil etməklə yanaşı, daxili bazarın qorunması və iqtisadiyyatda səmərəli struktur dəyişiklikləri həyata keçirilməsini təmin edir. Tranzit rüsumlar fiskal məqsədlər üçün tətbiq edilir və gömrük işi təcrübəsində geniş tətbiq olunmur. Malların

mənşə ölkəsindən asılı olaraq gömrük rüsumları minimal, preferensial, maksimal gömrük rüsumları kimi qruplara ayrılır. Gömrük rüsum dərəcələri tiplərinə görə isə iki yerə bölünür: daimi rüsumlar və dəyişkən rüsumlar. Gömrük rüsumundan daxilolmalar hər hansı dövlət orqanlarının maliyyələşdirilməsinə yönəldilmir. Azərbaycan Respublikasının 1997-ci və 2011-ci il Gömrük Məcəlləsinin tələbləri ilə gömrük daxilolmaları dövlət büdcəsinə köçürülür. Gömrük rüsumları və yığımları, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti prosedurаları, tarif tənzimlənməsi ilə bağlı müxtəlif gömrük məhdudiyyətləri və s. tədbirlər gömrük siyasətinin reallaşdırılmasının əsas vasitələri hesab olunur.

Gömrük tarifi qiymətlərə təsir göstərmək vasitəsilə dövlət və özəl müəssisə və təşkilatların xarici iqtisadi fəaliyyətinə bilavasitə təsir göstərməlidir. Bundan əlavə, gömrük tarifi xarici iqtisadi fəaliyyətin yeni formalarının inkişafına şərait yaratmalı, daxili istehsalçılara məqsədli imtiyazlar vermək yolu ilə ölkədən mal ixracını stimullaşdırmalıdır. Səmərəli gömrük tarif sisteminin yaradılması, yerli malların xarici bazarlara çıxarılması məsələləri müzakirə olunarkən ölkənin ticarət siyasətində mövqeyinin möhkəmləndirilməsinə kömək etməlidir. Ölkənin gömrük sərhədindən keçirilən mallara elmi cəhətdən əsaslandırılmış gömrük rüsumların tətbiq ən aktual məsələlərdəndir. Gömrük rüsumlarının dərəcələrinin aşağıdakı prinsiplər əsasında qurulması məqsədəuyğundur:

– rüsumların həddi hər mal qrupu üzrə orta hesabla təyin edilir və tədricən hər mal qrupu üzrə ayrılıqda dəqiqləşdirilməsi;

– idxalın rüsuma cəlb edilməsi malın emal səviyyəsinin artmasına görə dəyişməli, xammala aşağı hədd, hazır məhsula isə nisbətən yüksək rüsumların tətbiqi;

– yüksək texnologiyalı mallara aşağı rüsumların tətbiqi;

– rüsumların həddi təyin edilərkən daxili bazarın real vəziyyəti, uyğun malların istehsalının inkişaf perspektivlərinin nəzərə alınması;

– rüsumlar təyin edilərkən ölkənin iqtisadi təhlükəsizliyi məsələləri nəzərə alınması.

Azərbaycan Respublikasında gömrük rüsumuna cəlbetmənin səviyyəsi müxtəlif mal qrupları üzrə aşağıdakı kimi fərqləndirilir:

– ölkədə istehsal olunmayan kütləvi istehlak malları rüsumsuz idxal olunur;

– əsas ərzaq növləri, ehtiyatı az olan sənaye xammalı və materialları, ölkədə istehsal olunmayan yüksək texnologiya avadanlıqları və elmi nəzarət-ölçü cihazları idxal olunarkən aşağı rüsum dərəcələri tətbiq edilir;

– filiz və minerallar, qara metallar, kimya məhsulları və başqa yarımfabrikatlar, telekommunikasiya malları, yüksək texnologiya istehsal vasitələrinə idxal olunarkən yüksək olmayan rüsumlar tətbiq edilir;

– nəqliyyat vasitələri, elektrotexnika malları, dəftərxana və ofis ləvazimatları, alətlər idxal edilərkən yüksək rüsumlar tətbiq edilir;

– tikinti materialları, minik maşınları, kino-foto aparatları, balıq və digər dəniz məhsulları, sənaye məhsullarının əksər hissəsi, elektrik məişət cihazları, bəzi ərzaq növləri, musiqi alətlərinin idxalı zamanı daha yüksək rüsumlar tətbiq edilir;

– bəzək əşyaları, tütün məmulatı, spirtli içkilər, xəz məmulatı, xalçalar, parfümeriya və digər tələbat mallarının idxalında isə maksimum yüksək rüsumlar tətbiq edilir.

Bundan əlavə, şəxsi istifadə üçün olan əşyalara, onların beynəlxalq poçt vasitəsilə göndərilməsi və fiziki şəxslər tərəfindən dövlət sərhədindən keçirilməsi və göndərilməsi normaları müəyyənləşdirilmişdir. Gömrük rüsum dərəcələri qanunda nəzərdə tutulan hallar istisna olmaqla gömrük sərhədindən mal keçirən bütün hüquqi və fiziki şəxslərə şamil edilir.

Gömrük tarifi daxili bazarın dünya bazarı ilə qarşılıqlı əlaqəsinin təmin olunmasında xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsidir. “Gömrük tarifi haqqında” Qanun 20 iyun 1995-ci ildə qəbul edilmiş və gömrük tarifinin yaradılması, tətbiqi qaydalarının müəyyən edilməsinə yönəldilmişdir. Gömrük tarifinin əsas məqsədləri bunlardır: 1) Azərbaycan Respublikası üzrə idxalın əmtəə strukturunu səmərələşdirmək; 2) Azərbaycan Respublikası ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək; 3) valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək; 4) Azərbaycan Respublikasının iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq; 5) Azərbaycan Respublikasının iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq. Qanunun 4-cü maddəsinə görə gömrük rüsumlarının hesablanma qaydasına üç növ gömrük rüsumu nəzərdə tutulur: advalor, spesifik və kombinə edilmiş gömrük rüsumu.

Həmin qanunun 3-cü maddəsinə uyğun olaraq, idxal və ixrac gömrük rüsumları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən, Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün idxal gömrük rüsumları dərəcələrinin son həddi isə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən olunur. Qanunda "əlverişli ticarət rejimi" anlayışı açıqlanmamışdır, lakin kontekstdən belə nəticəyə gəlmək olur ki, bu ifadə ümumi gömrük rüsumlarla müqayisədə daha aşağı gömrük rüsumlarını nəzərdə tutan sərbəst ticarət, gömrük ittifaqı və buna oxşar rejimləri bildirir.

Azərbaycan Respublikası Nazirlər Kabineti 27 iyul 1998-ci ildə *"Azərbaycan Respublikasında müvəqqəti idxal (ixrac) edilən malların gömrük rüsumları və vergilərin ödənilməsindən tamamilə və ya qismən azad edilməsi Qaydaları haqqında"* 160 saylı qərarı qəbul etdi. "Qaydalar"ın 2-ci maddəsində müvəqqəti idxal (ixrac) edilən malların qanunvericiliklə müəyyən edilmiş gömrük vergi və rüsumlarının ödənilməsindən tamamilə azad edilməsi, 3-cü maddəsində isə müvəqqəti idxal (ixrac) olunan malların qanunvericiliklə müəyyənləşdirilmiş gömrük vergi və rüsumlarının ödənilməsindən qismən azad edilməsi qaydaları müəyyən edildi [15, 1999, 29 yanvar].

Azərbaycan Respublikasının *"Gömrük Tarifi haqqında"* Qanunu mövsümi və xüsusi növ rüsumları da nəzərdə tutur. Mövsümi rüsumlar malların ixracını və idxalını operativ tənzimləmək üçün bəzi mallara tətbiq oluna bilər. Onların qüvvədə olduğu müddət ildə altı aydan çox ola bilməz. Xüsusi növ rüsumlara gəldikdə isə, onlar ölkənin iqtisadi mənafeyini qorumaq üçün idxal edilən mallara müvəqqəti olaraq tətbiq oluna bilər. Qanunvericilikdə üç növ xüsusi rüsum nəzərdə tutulub: xüsusi rüsumlar, antidempinq rüsumları, kompensasiya rüsumları. Xüsusi rüsumlardan müdafiə tədbiri kimi və ya cavab tədbiri kimi istifadə edilə bilər. Antidempinq rüsumları idxal olunan malların qiyməti Azərbaycan Respublikasının gömrük ərazisinə gətirildiyi andan ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında onların istehsalının təşkilinə və ya genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir. Kompensasiya rüsumları Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı

zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir [97, 2010, №3, s. 77-78].

1997-ci il iyulun 1-dən etibarən idxal-ixrac əməliyyatları üzrə gömrük ödənişlərinin alınmasının təkmilləşdirilmiş yeni qaydasının tətbiq edilməsinə başlanıldı. Yeni qərarda ixrac əməliyyatları üzrə gömrük tənzimlənməsində əlavə və dəyişikliklər nəzərdə tutulmamışdı. İdxal əməliyyatlarına gəldikdə isə, bu sahədə qüvvədə olan əvvəlki qərardan fərqli olaraq bir sıra dəyişikliklər edildi. Belə ki, respublikada torpaq islahatının sürətləndirilməsi və əhalinin kənd təsərrüfatı ilə təminatının yaxşılaşdırılması üçün qərarın 3№-li əlavəsində respublikaya gətirilən kənd təsərrüfatı təyinatlı maşın, mexanizm və avadanlıqlar onların mənşə ölkəsindən asılı olmayaraq gömrük idxal rüsumuna cəlb olunmurdu. Qərarın 4№-li əlavəsində göstərilən siyahıda qeyd olunan mal qrupları üzrə idxal olunan mallar (əsasən respublika daxilində istehsalı inkişaf etdirmək məqsədi üçün idxal olunan mallar) onların mənşə ölkəsindən asılı olmayaraq, gömrük dəyərinin 5 faizi həcmində gömrük idxal rüsumuna cəlb olunurdu.

Qərarda “0” (sıfır) dərəcəsi ilə gömrük idxal rüsumuna cəlb olunan malların mövqelərində də dəyişiklik edilmiş, bir sıra mühüm əhəmiyyət kəsb edən hallar da bu siyahıya əlavə edilməklə müəssisələrin istehsalat tələbatı üçün gətirilən xammal, material, köməkçi material, ehtiyat hissələri, komplektləşdirici məlumatlar və avadanlıqlar həmin mövqelərdən çıxarılmış və bir daha dəqiqləşdirilmişdi. Sıfır dərəcəsi ilə gömrük idxal rüsumuna cəlb olunana mallar aşağıdakılar idi: kənd təsərrüfatı üçün gətirilən toxum, gübrə, yem, damazlıq heyvanlar, dərman preparatları, baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatı; qablaşdırılmış uşaq yeməkləri, şprislər, əczaçılıq məhsulları; Azərbaycan Respublikasında təmsil olunan diplomatik nümayəndəliklərin və onlara bərabər tutulan təşkilatların yalnız rəsmi ifadəsi, habelə bu nümayəndəliklərin diplomatik və inzibati texniki heyəti üzvlərinin, o cümlədən onlarla birgə yaşayan ailə üzvlərinin yalnız şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və əmlak; Azərbaycan Respublikası ərazisində mövcud qaydada qeydiyyatdan keçmiş humanitar təşkilatlar, həmçinin beynəlxalq humanitar yardım üzrə

respublika komissiyasının razılığı ilə digər hüquqi və fiziki şəxslər tərəfindən gətirilən, təmənnasız olaraq paylanması nəzərdə tutulmuş humanitar yardım; beynəlxalq təşkilatların xətti ilə təmənnasız texniki yardım kimi gətirilən mallar; əlilliyin profilaktikası və müalicəsi məqsədləri üçün istifadə olunacaq (nəqliyyat vasitələri istisna olmaqla) müxtəlif texniki vasitələr və onların istehsalı üçün xammal və komplektləşdirici məlumatlar; müsadirə edilmə; sahibsizlik və həmçinin varislik hüququ əsasında dövlətin mülkiyyətinə keçirilməsi üçün gətirilən mallar; birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Azərbaycan Respublikası ərazisinə gətirilən əmlak; respublika ərazisinə müvəqqəti olaraq gətirilmiş və gətirilmə şərtlərinə müəyyən olunmuş müddətdə dəyişiklik edilmədən gətirildiyi ölkəyə aparılası mallar; tranzit mallar (gömrük orqanlarının nəzarəti altında); rüsumsuz ticarət mağazaları üçün gətirilən mallar; xarici investisiya qoyulmuş müəssisələrin əcnəbi işçiləri üçün yalnız öz ehtiyacları üçün Azərbaycan Respublikası ərazisinə gətirdikləri əmlak; Maliyyə nazirliyi və ya Milli Bankın təsdiqedici sənədi əsasında gətirilən qanuni tədiyyə vasitələrindən olan valyuta, banknotlar (numizmatika məqsədi ilə istifadə olunanlar istisna olmaqla), rəsmi dövlət sənədi blankları, vətəndaş pasportları, habelə qiymətli kağızlar; təkrar ixrac məqsədi ilə, həmçinin emal edilməsi üçün müvəqqəti olaraq Azərbaycan ərazisinə gətirilən mallar; dövlət büdcəsi hesabına idxal olunan mallar; Xəzər dənizi hövzəsində Azərbaycan Respublikasının kvotası hesabına ovlanmış və respublika ərazisinə gətirilən balıq və balıq məhsulları. Mütərəqqi hal kimi Azərbaycan Respublikası hökumətinin xarici ölkələrlə azad ticarət haqqında sazişləri olduğu təqdirdə ikitərəfli razılığa əsasən idxal olunan mallara da gömrük idxal rüsumları tətbiq edilmir.

*"Gömrük Tarifi haqqında"* Qanuna uyğun olaraq, xüsusi növ rüsumların tətbiqindən əvvəl on gün ərzində təhqiqat aparılır. Təhqiqat zamanı çıxarılan qərarlar kəmiyyətcə müəyyən edilmiş məlumatlara əsaslanmalıdır. Hər bir xüsusi hal üçün aparılan təhqiqatın nəticələrinə görə rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir və onların dərəcələri təhqiqatın müəyyən etdiyi qiymətlərin dempinq azaldılmasının, subsidiyanın və aşkar edilmiş ziyanın məbləğinə mütənasib olmalıdır. *"Gömrük tarifi haqqında"* 1995-ci il 20 iyun tarixli

Qanunun 6-cı fəslində tarif güzəştlərinin müəyyən edilməsi ilə bağlı müddəalar əks olunmuşdur. Qanuna görə, əgər "gömrük güzəştləri" dedikdə, gömrük qanunvericiliyi ilə müəyyən edilən qaydalara aid istənilən güzəşt nəzərdə tutulurdu. "Tarif güzəştləri" dedikdə, gömrük tarifində müəyyən edilən dərəcələrə uyğun gömrük rüsumlarının alınması ilə əlaqədar güzəştli vergi tutulması nəzərdə tutulur. Tarif güzəştləri *"Gömrük tarifi haqqında"* Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə verilir. Qanunun 34-cü maddəsində gömrük sərhədi ərazisindən çıxarılan Azərbaycan Respublikası valyutası və bu əraziyə gətirilən xarici valyutalar (numizmatika məqsədilə istifadə olunanlardan başqa), qiymətli kağızların gömrük rüsumlarından azad edilməsi göstərilir. Həmin Qanunun 35-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının xarici dövlətlərlə ticarət siyasəti münasibətləri həyata keçirilərkən aşağıdakı mallar üzrə gömrük rüsumlarından azadetmə, gömrük rüsum dərəcələrinin aşağı salınması, yaxud idxal (ixrac) üçün kvotalar qoyulması kimi güzəştlər verilə bilər:

– Azərbaycan Respublikası ilə gömrük ittifaqı və azad ticarət zonası yaratmış və ya bu cür ittifaqın və ya zonanın yaradılmasına dair müqavilə imzalamış dövlətlərə mənsub mallar;

– Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən beş ildə bir dəfədən az olmamaq şərti ilə inkişaf etməkdə olan ölkələrə mənsub mallara edilən güzəştlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikası ərazisində radiasiya təhlükəsizliyinə nəzarəti gücləndirmək tədbirləri haqqında"* 1997-ci il 11 iyul tarixli 76 nömrəli qərarı ölkə ərazisində radiasiya təhlükəsizliyinə müntəzəm nəzarətin mövcud norma və qaydaların tələblərinə uyğun təmin edilməsi və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi məqsədi daşıyırdı. Həmin qərarda respublikaya gətirilən və respublikadan çıxarılan, eyni zamanda respublika ərazisindən keçən tranzit yüklərə daim radiasiya nəzarəti aparmaq məqsədilə bütün sərhəd keçid məntəqələrində stasionar avtomatik radiasiya nəzarəti cihazlarının quraşdırılması gömrük orqanlarına tapşırıldı.

2002-ci ilin avqust ayında fəaliyyətə başlayan "Yeni sahil" gömrük postuna gömrük rəsmiləşdirilməsinin aparılması və başa çatdırılması, statistika və maliyyə işlərinin aparılması səlahiyyəti verildi. Bununla da

Neft Konsorsiumuna idxal olunan böyük miqdarda malların vaxtında və operativ surətdə gömrük rəsmiləşdirilməsi və onlar üzərində gömrük nəzarətinin həyata keçirilməsinin səmərəli təşkilinə imkan yaratdı. Hasil və emal edilən neft və neft məhsullarının, eləcə də enerji daşıyıcılarının gömrük rəsmiləşdirilməsini asanlaşdırmaq, bu növ malların ixracına daha əlverişli şərait yaratmaq məqsədilə DGK-nın daxili imkanları hesabına enerji daşıyıcılarının gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətini həyata keçirən "Enerji gömrükxanası" fəaliyyətə başladı.

Əslində, 1995-ci il sistemli iqtisadi islahatların həyat keçirilməsinin başlanğıc ili hesab olunmalıdır. Çünki iqtisadiyyatın dövlət tərəfindən idarə olunmasına ilk dəfə orta müddətli məqsədli proqramlar üzrə başlanıldı. Heydər Əliyev bu missiyanı öz üzərinə götürərək ölkənin iqtisadi siyasət strategiyasının başlıca konturlarını cızmışdı. Belə proqramlara *"1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı", "Aqrar islahatlar Proqramı", "Azərbaycan Respublikasında iqtisadi yüksəliş və struktur yenidənqurmanın orta müddətli Proqramı"* və *"1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı"*nı aid etmək olar. Ölkənin strateji məqsədi və taktiki vəzifələr baxımından cari, habelə orta-müddətli inkişaf proqramları ilə yanaşı, uzunmüddətli sosial-iqtisadi inkişaf perspektivlərini əhatə edən strategiya işlənib-hazırlandı. Bazar münasibətləri iqtisadi sistemi şəraitində Azərbaycan Respublikasının uzunmüddətli inkişaf perspektivlərini əks etdirəcək milli inkişaf strategiyasının işlənib hazırlanması zəruriliyini ümummilli lider Heydər Əliyev 2001-ci ildə ABŞ Ticarət palatası İdarə Heyəti üzvləri ilə görüşündə söyləmişdi [6, 2001, 4 iyul].

Məhz onun nəhəng təşkilatçılıq fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sistemində iştirakı və özünəməxsus mövqe qazanması üçün lazımi tədbirlər görüldü, ölkənin xarici aləm üçün maraqlar dairəsi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi. Beynəlxalq aləmin Cənubi Qafqazda, xüsusilə Azərbaycanda və Xəzər regionunda, təmsil olunan, üst-üstə düşən maraq dairələri müəyyənləşdirildi və təhlil edildi. Respublika Prezidentinin təşəbbüsü və səyi ilə əsasən iqtisadi xarakter daşıyan, mühüm beynəlxalq müqavilə və sazişlər imzalandı. Dövlətin bu mürəkkəb prosesləri, o cümlədən gömrük rüsumları, pul-kredit sistemi, optimal vergi dərəcələri üzərində nəzarət funksiyalarını həyata keçirməsi mühüm

əhəmiyyət daşıyırdı.

Xarici-iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sahəsində bütün ölkələrin fəaliyyəti praktik olaraq eynidir. Lakin onun miqyası, forma və metodları bu sahədə hər bir dövlətin qarşıya qoyduğu məqsəd və vəzifələrdən, onun müasir dünyadakı vəziyyətindən, həyata keçirdiyi daxili və xarici siyasətindən asılı olaraq müxtəlifdir. Azərbaycan Respublikasının gömrük siyasəti konkret olaraq əsasən iki iqtisadi məsələnin həllinə yönəldilmişdi: 1) gömrük gəlirlərinin mümkün qədər artırılması və 2) ölkənin müsbət xarici ticarət balansının formalaşması. Təbii ki, bazar münasibətləri tarixində yüz illərlə təcrübəsi olan, xarici ticarəti tamamilə liberallaşan, dünya siyasətində öz yeri olan ölkələrlə, bu yolu özünə inkişaf yolu seçmiş və bazar iqtisadiyyatına keçid şəraitində gömrük tarif siyasətinin məqsədi və vəzifələri tamamilə üst-üstə düşə bilməz. Bu siyasətin forma və metodları eyni olsa da, təsir dairəsi və səmərəsi eyni deyildir.

Ölkəmiz ilk növbədə postsovet respublikaları ilə xarici iqtisadi əlaqələrin bərabərhüquqlu əsaslar üzərində davam etməsində maraqlı idi. Azərbaycan Respublikası ilə Belorus Respublikası arasında 1993-cü il dekabrın 24-də Bakı şəhərində ticarət-iqtisadi əməkdaşlıq prinsipləri haqqında Saziş imzalandı. Sazişdə tərəflər bərabərlik və qarşılıqlı faydalılıq prinsipləri əsasında əməkdaşlığın genişləndirilməsi, ticarət-iqtisadi münasibətlərin inkişaf etdirilməsi barədə razılığa gəlmişdilər. 1993-cü ilin dekabrında Azərbaycanla Tacikistan, Qazaxıstan və Moldova respublikaları arasında Aşqabadda, 1994-cü ilin martında Qırğızıstanla imzalanan ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlərdə tərəflər qarşılıqlı mal göndərmələrinin nomenklaturu və həcmlərinin razılaşdırılması barəsində razılığa gəlmişdilər [56, 90-94].

Respublika Prezidentinin *"Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması haqqında"* 1994-cü il 10 yanvar tarixli və *"Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında"* 1994-cü il 5 aprel tarixli Fərmanları xarici ticarətin genişləndirilməsi məqsədi daşıyırdı. Sonuncu sənədə görə, bütün hüquqi şəxslər tərəfindən strateji məhsulların ixrac edilməsinə icazə verilir və bu məhsulların sərbəst dönərli valyuta ilə minimum satış həcmləri müəyyən edilirdi. Respublika büdcəsinə xarici valyutanın daxil olması üçün tədbirlər və normativlər təyin edilməklə bərabər, bundan sonra məhsulun haqqı ödənilmədən onun satışına

icazə verilmirdi. Xarici ticarət haqqında əsasnamənin hazırlanması, bu əlaqələrə nəzarət üzrə müvafiq dövlət komissiyasının yaradılması tövsiyə edilir və gömrük nəzarətinin formaları nisbətən sadələşdirilirdi.

Lakin iqtisadi təhlükəsizliyimizin keşiyində durmalı olan gömrük xidmətində yaranmış böhranlı vəziyyət Azərbaycan Respublikasının iqtisadi əsaslarına son dərəcə sarsıdıcı təsir göstərməklə bazar iqtisadiyyatına keçid dövründə mövcud

çətinlikləri daha da dərinləşdirir, xarici iqtisadi əlaqələrin inkişafına ciddi maneçilik törədirdi. Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında"* 1995-ci il 9 yanvar tarixli 257 saylı Fərmanında Nazirlər Kabinetinə tapşırılırdı ki, vahid gömrük siyasətinin iqtisadi, təşkilati və hüquqi mexanizmi ilə bağlı təkliflərini hazırlayaraq Respublika Prezidentinə təqdim etsin [24, 31 yanvar, 1995, nömrə 1-2, maddə 29].

*"1996-cı ilin birinci yarısında ölkənin iqtisadi inkişafının yekunları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qarşısında duran başlıca vəzifələr haqqında"* Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 25 iyul tarixli Fərmanında dövlətin və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeridilməsi, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə edilməsi sahəsində müvafiq dövlət strukturlarının, o cümlədən gömrük xidmətinin işinin yaxşılaşdırılması mühüm vəzifə kimi irəli sürüldü [12, 114-157].

Aşağıdakı prioritet məsələlərin həlli qarşıda dururdu:

– Azərbaycanda istehsal olunan malların dünya bazarına çıxarılmasına əlverişli şəraitin yaradılması, yerli məhsulların keyfiyyətinin yaxşılaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması, müəssisələrdə rəqabət qabiliyyəti məhsul istehsalının təmin edilməsi yolu ilə ixracat potensialının artırılması, o cümlədən ixracın stimullaşdırılması;

– bazar iqtisadiyyatının real məzmunlu instusional əsaslarının yaradılması;

– xarici iqtisadi liberallaşdırma ilə iqtisadi təhlükəsizliyin uzlaşdırılması;

– ölkənin idxal asılılığının azaldılması;

– səmərəli özəlləşdirmə siyasətinin aparılması;

– bank və maliyyə sisteminin beynəlxalq standartlara uyğunlaş-

dırılması;

– səmərəli valyuta siyasətinin yürüdülməsi;

– xarici borcların optimal həddə saxlanılması;

– strateji bazar sisteminin həyata keçirilməsi;

– TRASEKA və digər nəqliyyat dəhlizlərində iştirak;

– milli iqtisadiyyatın xarici rəqabətin təsirindən etibarlı surətdə qorunması üçün düşünülmüş gömrük siyasətinin aparılması;

– gömrük və vergi məcəllələrinin təkmilləşdirilməsi, idxal və ixrac əməliyyatlarının lisenziyalaşdırılma və kvota üsulu ilə tənzimlənməsinin məhdudlaşdırılması;

– ölkədə əlverişli iqtisadi mühit yaratmaqla xarici investisiyaların cəlbinə nail olunması, istehsal potensialının genişləndirilməsi və onun texniki modernləşdirilməsinə nail olmaq üçün xarici kapitalın milli bazara cəlb edilməsinin kompleks sisteminin formalaşdırılması;

– xarici investisiyaların əlaqələndirilməsi, xarici investisiya, kredit və yardımlardan istifadə olunmasının səmərəli mexanizminin yaradılması və tətbiq edilməsi.

Daha sonrakı mərhələdə ayrı-ayrı istiqamətlər üzrə strateji cəhətdən əhəmiyyətli və cəsarətli qərarların qəbulu həyata keçirildi. Bu istiqamətlərin əsas məntiqi prinsipləri aşağıdakılar idi:

– ölkənin əsas təbii-iqtisadi resurslarının, o cümlədən Xəzər nefti, tranzit kommunikasiya potensialı, torpaq ehtiyatları və əhali faktorunun aktiv təsərrüfat dövriyyəsinə qoşulmasının təmin edilməsi;

– bazar subyektlərinin rəqabət qabiliyyətliliyin artırılması məqsədilə dövlət proqramlarının hazırlanması;

– xarici ticarətlə bağlı olan prioritet sahələrə məqsədyönlü investisiya proqramlarının işlənib-hazırlanması;

– xarici sərmayədarlar tərəfindən ölkədə əldə olunmuş mənfəətin yenidən ölkə iqtisadiyyatına yatırılması;

– Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərindən istifadə;

– DTT-yə üzv olmaq və sərhəd bürokratiyasının aradan qaldırılması;

– real məzmunlu beynəlxalq və regional iqtisadi inteqrasiya proseslərində iştirakın intensivləşdirilməsi və s.

Bu vəzifələrin həyata keçirilməsi qısa zaman kəsiyində ölkənin iqtisa-

di təhlükəsizliyi təmin etmək iqtidarına malik milli gömrük xidməti orqanının işinin yenidən təşkili və onun nəzarət-tənzimləyici funksiyalarının hərtərəfli yaxşılaşdırılmasını bütün kəskinliyi ilə ortalığa qoydu. Xarici iqtisadi fəaliyyətin tamamilə mərkəzi hakimiyyət orqanlarının inhisarında saxlanıldığı sovet dövründən fərqli siyasəti həyata keçirən bu tədbirlər kompleks xarakter daşımalı və onların mərhələləri müəyyənləşdirilməli idi.

Bununla da xarici iqtisadi fəaliyyəti tənzimləyə biləcək çevik gömrük-tarif siyasətini həyata keçirmək, idxalçılara sağlam rəqabət şəraiti yaratmaqla, həm də daxili bazarı qorumaq, ixrac potensialını artırmaq, büdcə gəlirlərinin formalaşdırılmasında yaxından iştirak etmək zərurəti yarandı. Təbii ki, keçmiş SSRİ-nin gömrük qanunvericiliyinin tətbiqi ilə bu işlərin öhdəsindən gəlmək mümkün olmazdı. Ona görə də gömrük siyasətinin əsas istiqamətlərini müəyyən etmək, gömrük işinin normativ-hüquqi bazasını yeniləşdirmək zərurəti meydana çıxdı. Bu sahədə əsas strateji istiqamətləri kimi idxal-ixrac əməliyyatlarının lisenziyalaşdırılması və kvota üsulu ilə tənzimlənməsi mexanizmi formalaşdı. Gömrük xidmətinə rəhbərliyin səviyyəsi və kadr potensialı gücləndirildi, infrastrukturu yenidən quruldu. Bütövlükdə, gömrük işinin məzmununa yenidən baxıldı. Təşkilati tədbirlərlə bir vaxtda dövlətin gömrük siyasəti də təkmilləşməkdə idi: gömrük siyasətinin düşünülmüş şəkildə həyata keçirilməsi xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin gömrük mexanizmini hərəkətə gətirməli və dövlət büdcəsinin gəlirlər hissəsində gömrük rüsum və yığımlarının toplanmasını təmin etməli idi [138, 4-5].

Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiyasında mühüm dövlət orqanlarından biri olan gömrük sisteminin hüquqi və maddi-texniki bazasının inkişaf etdirilməsi ən vacib məsələlərdən biri idi. Gömrük orqanlarının infrastrukturunun möhkəmləndirilməsi istiqamətində işlər görüldü. Azərbaycan Neft Konsorsiumuna idxal olunan avadanlıq və əmlakın çevik rəsmiləşdirilməsini təşkil etmək üçün "Sahil", neft ixracı və tranzitinin həyata keçirilməsi üçün "Dübəndi", "Şirvanovka" və "Liman" gömrük postları, aksizli malların idxalına nəzarəti gücləndirmək üçün "Aksiz" gömrük postu və digər ixtisaslaşdırılmış gömrük idarələri yaradıldı. Gömrük nəzarətinin səmərəliliyini artırmaq məqsədilə DGK-nın Mərkəzi laboratoriyası ən müasir avadanlıqlarla təchiz edildi, gömrük-buraxılış məntəqələri üçün zəruri texniki vasitələr alındı, gömrükxanalarda tikinti və

təmir işləri aparıldı.

Həmin dövrdə gömrük işi sahəsində bir-birini tamamlayan və respublikanın iqtisadi inkişaf xüsusiyyətlərini nəzərə alan aşağıdakı əsas vəzifələrin həlli qarşıya qoyuldu:

– gömrük sərhədinin tam qurulması və maddi-texniki təchizatı, gömrük sərhədindən keçirilən yüklərin qeydiyyatının təkmilləşdirilməsi;

– gömrük qanunvericiliyi pozuntularının və başqa hüquq-mühafizə orqanları ilə birlikdə qaçaqmalçılıq hallarının qarşısının alınması, respublikanın gömrük ərazisi vasitəsilə onların qeyri-qanuni keçirilməsinə yol verilməməsi;

– gömrük ödənişləri texnologiyasının təkmilləşdirilməsi və onların büdcəyə daxil olmasına nəzarət, valyuta nəzarətinin gücləndirilməsi, idxal vergiləri və rüsumlarını vaxtaşırı nəzərdən keçirməklə mövsümü dəyişikliklər aparılması;

– gömrük orqanları tərəfindən strateji xammalın ixracına və valyuta əməliyyatlarına nəzarət etməklə ölkənin iqtisadi təhlükəsizliyinin daha etibarlı surətdə təmin olunması;

– gömrük sənədlərinin beynəlxalq tələblərə uyğunlaşdırılması, gömrük prosedularının sadələşdirilməsi və rəsmiləşdirmə müddətinin qısaldılması, təhvil vermə üsulundan asılı olmayaraq bütün malların gömrük rəsmiləşdirilməsinin təmin olunması, yüklər və yük göndərənlər haqqında ilkin məlumatların əldə edilməsi;

– gömrük nəzarəti işlərinin təkmilləşdirilməsi, bu sahədə mütərəqqi texnologiyaların tətbiqi;

– tarifdən kənar tənzimləmə tədbirlərinə nəzarət texnologiyasının təkmilləşdirilməsi, tarif üsulları kompleksində effektivliyin təhlili üzrə təkliflərin hazırlanması;

– boru kəməri nəqliyyatı və elektrik enerjisi ötürücü xətləri ilə keçirilən mallara gömrük nəzarətinin təşkili, əqli mülkiyyət obyektlərinin bir yerdən başqa yerə keçməsinə nəzarətin təşkilati-hüquqi şərtlərinin yaradılması;

– xarici iqtisadi fəaliyyət məlumatların düzgünlüyünün və keyfiyyətinin artırılması üzrə işlərin sistemləşdirilməsi və bu əsasda gömrük xidmətinin və onun struktur bölmələrinin işinin səmərəliliyinin təhlili və s. [81, 240-242].

Azərbaycanın xarici iqtisadi siyasətinin əsas istiqamətləri Heydər Əliyevin 1996-2003-cü illərdə imzaladığı çoxsaylı Fərman və sərəncamlarda, dövlət proqramlarında öz konkret əksini tapmışdır. Ulu öndər bir çox belə sənədlərə imza atmaqla xarici iqtisadi siyasətimizin strategiya və taktikasının formalaşması və iqtisadi qüdrətimizin artmasına bu və ya digər dərəcədə müsbət təsir edən qərarlar qəbul etmişdir. Söhbət, həm də bununla əlaqədar dövlət başçısının təşəbbüsü ilə respublikanın Milli Məclisi tərəfindən qəbul edilmiş qanunlardan gedir. Bunlara misal olaraq, Azərbaycan Respublikasının Prezidentinin aşağıdakı Fərmanlarını göstərmək olar:

– *"Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması tədbirləri haqqında"* 1994-cü il 10 yanvar tarixli 91 nömrəli Fərman;

– *"Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında"* 1994-cü il 5 aprel tarixli 125 nömrəli Fərman;

– *"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında"* 1996-cı il 6 avqust tarixli 481 nömrəli Fərman (bu Fərman Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında*" 520 nömrəli 17 dekabr 1996-cı il tarixli Fərmanı ilə əvəzlənmişdir);

– *"Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, saxlanmasının, idxalının və satışının tənzimlənməsi haqqında"* 1996-cı il 20 dekabr tarixli 527 nömrəli Fərman.

Azərbaycan Respublikası Prezidentinin *"Bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında"* 1997-ci il 27 yanvar tarixli 543 nömrəli Fərmanı ilə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən müvafiq icra hakimiyyəti orqanlarının siyahısının hazırlanmasını Nazirlər Kabinetinə tapşırmışdır. Fərman, bəzi fəaliyyət növləri üçün tələb olunan xüsusi razılığın (lisenziyanın) verilməsi haqqında Əsasnaməni qəbul etmişdir. Bu Fərman Azərbaycan Respublikası *"Sahibkarlıq fəaliyyəti haqqında"* Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" 1996-cı il 24 dekabr tarixli Qanunun tətbiqi məqsədi ilə qəbul edilmişdi və Azərbaycan Respublikası Prezidentinin *"Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında"* 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə qüvvədən düşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti *"Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında"* 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı imzaladı. Bu Fərmanla Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 dekabr tarixli 520 nömrəli Fərmanı ləğv edildi. Bu Fərmanla ölkənin xarici iqtisadi, o cümlədən ticarət əlaqələrinin daha da liberallaşdırılması məqsədi daşıyan və bazar iqtisadiyyatının tələblərinə cavab verən müasir qaydalar müəyyənləşdirildi. *"Qaydalar"*a əsasən ixrac əməliyyatları əsasən 5 növə ayrılırdı: istehsal, emal, təkrar emal olunan malların ixracı; kreditə ixrac; təkrar ixrac; konsiqnasiya yolu ilə ixrac və müvəqqəti ixrac əməliyyatları. *"Qaydalar"*ın ikinci bölməsi idxal əməliyyatlarının tənzimlənməsini, üçüncü bölməsi Nazirlər Kabineti tərəfindən aparılan və müvafiq dövlət orqanlarından rəy alınmaqla aparılan idxal-ixrac əməliyyatlarını, barter əməliyyatları və kooperasiya əməliyyatlarını, sərhədyanı ticarət məsələlərini nəzərdə tuturdu. Fərmanın dördüncü bölməsində dövlətlərarası sazişlərə əsasən ticarət əməliyyatlarının yalnız Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamları ilə gömrük orqanlarında bəyan edilməklə həyata keçirilməsi, beşinci bölmədə xarici ticarətdə hesablaşma qaydaları; altıncı bölmədə xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi; yeddinci bölmədə isə xarici ticarət əməliyyatlarında malların gömrük ərazisindən çıxarılması və gətirilməsinə nəzarət edilməsi gömrük orqanlarının, hesablaşmaların aparılması müvəkkil bankların nəzarətində olması göstərilirdi.

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 oktyabr tarixli *"Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında"* 637 nömrəli Fərmanı alkoqollu içkilərin, etil (yeyinti) spirtinin, tütün məmulatlarının və ozon dağıdıcı maddələrin idxalına lisenziyalar tələb edirdi. Fərmanda lisenziya verməyə cavabdeh olan dövlət orqanlarının siyahısı verilmişdi. Fərman Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə ləğv edilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi xarici iqtisadi əlaqələrinin və gömrük münasibətlərinin tənzimlənməsi məqsədilə aşağıdakı qanunları qəbul etdi:

- *"Azərbaycan Respublikasının Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında Beynəlxalq Konvensiyaya və*

*göstərilən Konvensiyaya düzəliş protokoluna qoşulması barədə"* 2000-ci il 2 may tarixli 872-IQ nömrəli Qanun;

- *"Tütün və tütün məmulatı haqqında"* Azərbaycan Respublikasının 2001-ci il 8 iyun tarixli 138-IIQ nömrəli Qanunu.

- *"QDİƏT regionunda malların yol daşımalarının asanlaşdırılması haqqında Anlaşma Memorandumu"*nun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 13 may 2003-cü il tarixli 441-IIQ nömrəli Qanunu.

"QDİƏT regionunda malların yol daşınmasının asanlaşdırılması haqında Anlaşma Memorandumu"na Azərbaycan Respublikası tərəfindən aşağıdakı qeyd şərt daxil edilmişdir:

1. Azərbaycan Respublikası bəyan edir ki, "QDİƏT regionunda malların yol daşınmasının asanlaşdırılması haqında Anlaşma Memorandumu"nda göstərilmiş hüquq, öhdəlik və müddəaların heç biri Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına tətbiq edilməyəcəkdir.

2. Azərbaycan Respublikası hazırkı qeyd-şərtin 1-ci bəndinin müddəalarını istənilən an dəyişmək və ya ləğv etmək hüququnu özündə saxlayır və digər tərəflər hər hansı belə dəyişikliklər və ləğv barədə yazılı şəkildə xəbərdar ediləcəkdilər [24, 31 avqust 2003, №8, maddə 401].

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2001-ci l tarixində imzaladığı 457 nömrəli *"Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə"* Fərmanına uyğun olaraq qara və əlvan metal qırıntı və tullantılarının ölkədən çıxarılması 2001-ci il 18 apreldən dayandırıldı.

Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasında ticarətin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında"* 1999-cu il 23 iyul tarixli 160 saylı Fərmanında yaxın gələcəkdə idxalın səmərəliliyin artırılmasının əsas istiqamətlərindən biri kimi müasir texnologiyanın və avadanlığın tətbiqi ilə istehsalın və məhsulun keyfiyyətini artırmaqla potensialı yüksək olan sahələrin prioritet inkişafı, yerli sənaye üçün zəruri olan bəzi xammal və yarımfabrikatların idxal qiymətlərinə nisbətən daha ucuz başa gələn istehsalının təşkil olunması, xarici kreditlər və büdcə vəsaiti hesabına satınalmaların səmərəli mexanizminin təşkili, tenderlərin və müsabiqələrin keçirilməsi başlıca vəzifələrdən hesab edilirdi. Bu məqsədlə: əhalinin və müəssisələrin iqtisadi vəziyyəti nəzərə alınmaqla dünya təcrübəsində geniş istifadə olunan idxalın müxtəlif rejimlərinin tətbiqi; xarici

investisiyaları istehsal və xidmət sahələrinə yönəldilməsi; xarici ticarətin səmərəliliyin artırılması, beynəlxalq iqtisadi təşkilatlarla, o cümlədən DTT ilə əməkdaşlığın genişləndirməsi və bu təşkilata qəbul prosesini sürətləndirməsi; iqtisadi təhlükəsizliyin təmin olunması üçün ilk növbədə konsiqnasiyaya ixrac, kreditlə ixrac və barter əməliyyatlarında maliyyə vəsaitlərinin və malların qanunla müəyyən edilmiş müddətlərdə gətirilməsinə nəzarətin gücləndirilməsi, keyfiyyətsiz malların idxalından müdafiə sisteminin işlənib hazırlanması və bütün əlaqədar təşkilatlar tərəfindən sistemli şəkildə həyata keçirilməsi; xarici ticarət fəaliyyəti və onunla bağlı sahələri tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi; Azərbaycan Respublikasının ticarət siyasətini daxildə və beynəlxalq aləmdə yüksək səviyyədə təbliğ etmək məqsədi ilə əlaqələrin geniş və etibarlı şəbəkəsinin yaradılması və s. tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.

Nazirlər Kabinetinin *“Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış-keçid məntəqələrində Sərhədyanı bazarların yaradılması və fəaliyyəti Qaydaları”* haqqında 1995-ci il 13 fevral tarixli 26 nömrəli və bu sənədə əlavə və dəyişikliklər edilməsi haqqında 1996-cı il 31 iyul tarixli 162 nömrəli qərarları xarici ticarət əlaqələrinin genişlənməsini nəzərdə tuturdu. Gömrük xidmətinin daha da gücləndirilməsinə yönəldilən mühüm sənədlər sırasında “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında” 1998-ci il 27 oktyabr tarixli sərəncamı göstərmək olar. Adı çəkilən sənəddə gömrük strukturlarının fəaliyyət mexanizmini hərəkətə gətirən bütün elementlər nəzərdən keçirilmişdir [81, 67-68].

*“Azərbaycan Respublikasında ticarətin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında”* 1999-cu il 23 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş 1999-2002-ci illərdə Azərbaycan Respublikasında ticarətin inkişafı üzrə Dövlət Proqramında göstərilirdi ki, ölkə böyük təbii sərvətlərə, münbit torpaqlara malik olduğu halda onun valyuta ehtiyatının xeyli hissəsi əhalinin ilkin tələbat malları ilə təchiz olunmasına sərf edilir. İxracın əsasını enerji daşıyıcıları və xammal məhsulları, idxalın isə əsasını ərzaq məhsulları, ilkin tələbat məhsulları təşkil etdiyindən xarici ticarətin strukturu iqtisadi baxımdan səmərəli deyildir. Bu Proqramın əsas istiqamətlərindən birini ixrac potensialının artırılması, ixracın strukturunun təkmilləşdirilməsi və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi təşkil edirdi. Daimi

fəaliyyət göstərən Tarif şurasının yaradıldı, əsaslandırılmış vergi və rüsumların tətbiq edilməsi, alternativ valyuta mənbələrinin axtarılması işlərinə rəvac verildi. İxracat sahəsində beynəlxalq təcrübədə geniş istifadə olunan konsiqnasiya, kreditə ixrac, lizinq və s. müxtəlif formaları ilə bərabər ixracın müasir tipli infrastrukturunun (nəqliyyat, sığorta, anbarlar, informasiya sistemi və s.) və ixracın həvəsləndirilməsi mexanizminin yaradılması kimi tədbirlərin həyata keçirildi. Bu işlərin görülməsi bir sıra dövlət qurumları ilə bərabər Dövlət Gömrük Komitəsinə tapşırıldı.

Sərhədyanı ticarətin təşkili və tənzimlənməsi, xarici ticarət əməliyyatlarının qüvvədə olan qaydalara uyğun şəkildə həyata keçirilməsi, istehsal və idxal olunan malların keyfiyyətinə səmərəli nəzarət mexanizminin qurulması, mal, iş və xidmətlərin ixracı və idxalına texniki tələblərin müəyyənləşdirilməsi və tətbiqi, ticarət sahəsində dövlət siyasətinin formalaşdırılması və aşkarlığın bütün formalarından (görüşlər, yığıncaqlar, seminarlar, televiziya və mətbuat və s.) istifadə edilməsi, KİV-lə əlaqənin geniş şəbəkəsinin yaradılması gömrük orqanlarının vəzifələrinə daxil edildi. Ticarət münasibətlərinin beynəlxalq aspektləri ilə bağlı qəbul edilmiş sənədlərin məzmunu və mahiyyəti daha müasir səciyyə aldı [24,31 iyul 1999-cu il, №7, maddə 422].

1995-2003-cü illər ərzində xarici ticarət fəaliyyətinin tənzimlənməsi *sahəsində bir çox qanunlar və digər hüquqi-normativ aktlar aktlar qəbul edildi. “Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”, “Gömrük Tarifi haqqında”, “Valyuta tənzimi haqqında”, “Xarici investisiyanın qorunması haqqında”, “İnvestisiya fəaliyyəti haqqında”, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Mülkiyyət haqqında”, “Antiinhisar fəaliyyəti haqqında”, “Haqsız rəqabət haqqında”* və s. qanunlar bu qəbildəndir. Bu hüquqi sənədlər ötən dövr ərzində bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması məqsədilə aparılan islahatlar çərçivəsində idarəetmənin inzibati-amirlik metodlarından iqtisadi metodlarına keçirilməsi, xarici iqtisadi əlaqələr üzərindən dövlət inhisarının götürülməsi və bu əlaqələrin daha da liberallaşdırılmasına şərait yaratdı. İnvestisiya mühitinin yaxşılaşdırılması, xarici iqtisadi fəaliyyətdə sağlam rəqabət şəraitinin yaradılması respublika iqtisadiyyatına xarici investisiyalar qoyuluşunu daha da artırdı. Respublikanın xarici iqtisadi fəaliyyətinin səmərəliliyinin artırılmasında, bu sahədə qanunvericilik bazasının formalaşmasında Milli Məclis və Nazirlər

Kabinetinin qəbul etdiyi yeni hüquqi sənədlərin böyük əhəmiyyəti oldu.

Azərbaycanda ixracat vergisinin tətbiq edilməsinə *"İxracat vergisi haqqında"* 1995-ci il 28 mart tarixli 1002 nömrəli Qanunla təsdiq olunduqdan sonra 1995-1997-ci illərdə həyat keçirilirdi. Qanuna əsasən, ixracat vergisinin obyektini Azərbaycan Respublikasının sərhədindən kənara sərbəst dönərli valyuta ilə satılan strateji məhsullar təşkil edirdi. Qanun 1997-ci il 13 iyun tarixində qüvvədən düşüb.

Respublika Nazirlər Kabinetinin 1996-cı il 26 iyun tarixli Sərəncamı ilə bir sıra idxal malları üçün minimum şərti qiymətlər müəyyən edildi. Xarici iqtisadi fəaliyyətlə məşğul olan hüquqi şəxslər tərəfindən müqavilə qiymətlərinin düşünülmüş şəkildə aşağı salınması aşkar edildiyi hallarda idxal olunan malların gömrük dəyəri gömrük orqanları tərəfindən müəyyən edilməli idi. Digər tərəfdən, Nazirlər Kabinetinin 1996-cı il 2 iyul tarixli 96 saylı qərarı ölkə daxilində spirtli içkilər və tütün məmulatı istehsalçılarının mənafeyini qorumaq, habelə daxili bazarda yerli istehsal mallarının rəqabət qabiliyyətinin qaldırmaq, MDB hüdudları kənarından gətirilən mallara yeni aksiz dərəcələrinin tətbiqini nəzərdə tutmaqla dövlət büdcəsinin mədaxil hissəsinin artırılmasının ciddi ehtiyat mənbəyini yaratmaq, ayrı-ayrı hüquqi şəxslərin vergidən yayınma hallarını aradan qaldırmaq, vergi intizamının möhkəmləndirmək məqsədi güdürdü. Vergitutma obyektlərinin araşdırılması istiqamətində gömrük orqanlarının hazırladığı təkliflər əsasında rüsumsuz ticarət mağazaları tərəfindən idxal olunan spirt və spirtli içkilər, pivə və tütün məmulatı üzrə rüsum dərəcələri 3 faizdən 10 faizə, digər mallar üzrə isə 5 faizə çatdırıldı.

Həmin qərar qəbul edilənə qədər, yəni 1996-cı ilin cəmi 6 ayı ərzində idxal olunan tütün məmulatının 90 faizi bu mağazalar tərəfindən gətirilmişdi. Halbuki, rüsumsuz mağazalar qanunda nəzərdə tutulmuş güzəştlərə əsasən təkcə tütün məmulatı və spirtli içkilərin idxalına görə 46,2 milyard manat məbləğində gömrük vergi və rüsumları ödəməkdən azad edilmişdi.

Xarici ticarətin liberallaşdırılması, idxal-ixrac əməliyyatlarına tam sərbəstlik verilməsi ilə ölkə iqtisadiyyatında müsbət dəyişikliklərin əsası qoyuldu. Son illər ərzində gömrük tarif tənzimlənməsində idxalın əmtəə strukturunun səmərələşdirilməsi, ixracı stimullaşdırması, daxili istehsala şərait yaradılması istiqamətində görülən işlər ölkə iqtisadiyyatını xarici rəqabətin mənfi təsirlərindən qorunması üçün əlverişli şərait yaratdı. İxraca

gömrük vergi və rüsumlarının tətbiqi hələ 1997-ci ildə dayandırıldı, kənd təsərrüfatı istehsalını stimullaşdırmaq üçün idxal olunan toxum, yem, gübrə, ehtiyat hissələri, kənd təsərrüfatı maşın və mexanizmlərinə gömrük vergi və rüsumları tətbiq edilmədi. Bir sıra kənd təsərrüfatı məhsullarının idxalına isə mövsümü rüsumlar tətbiq edilirdi. Avropa Birliyi ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması Avropa Birliyinə daxil olan ölkələrlə xarici iqtisadi-ticarət əlaqələri xeyli genişləndirmişdi. Əvəzsiz maliyyə və texniki yardımlar, qrantlar, kreditlər, və borclar hesabına idxal olunan mallar, habelə investisiya təyinatlı mallar gömrük vergi və rüsumlarına cəlb olunmurdu. 1997-ci ildən Beynəlxalq Valyuta Fondunun tövsiyələri əsasında 15 faizlik vahid idxal rüsum dərəcələrinin tətbiqinə başlanıldı və qüvvədə olan vahid mal nomenklaturasının 97 mal qrupundan 69-na aid edildi. Qalan 28 mal qrupuna isə 5 faizlik gömrük idxal rüsumu tətbiq edilirdi.

2001-ci ildən etibarən, gömrük siyasətinin əsas istiqamətlərindən biri kimi tarif tənzimlənməsinin yeni sisteminin tətbiqinə başlanıldı. Dünya ölkələr ilə vasitəli vergilərin alınmasının "son təyinat" prinsipi tətbiq edildi. Ölkə daxilində istehsalçıların maraqlarını qorunması üçün vahidləşdirilmiş tarif sistemi beynəlxalq təcrübədə müdafiə olunan diferensiallaşdırılmış tarif sistemi ilə əvəz edildi. Xarici ticarətdə sağlam rəqabətə şərait yaratmaq üçün əlavə dəyər vergisinin dərəcəsi 20 faizdən 18 faizə qədər azaldıldı. 2003-cü ildən mal qruplarının bəzilərində (məsələn, gül, meyvə, qoz-fındıq və s. bitkilər) dəyişiklik edilərək 15 faizlik gömrük idxal rüsumlarına keçirildi.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri K.F.Heydərovun 1999-cu il 2 aprel 22 nömrəli əmri ilə *"Gömrük nəzarəti zonalarının yaradılması və onların nişanlanması Qaydaları"* təsdiq edildi. Sənəd Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq işlənib hazırlanmış və malların, nəqliyyat vasitələrinin, sərnişinlərin əl yüklərinin və baqajın, eləcə də müşayiət olunmayan baqajın, valyutanın, valyuta sərvətlərinin və beynəlxalq poçt göndərişlərinin gömrük rəsmiləşdirilməsi yerlərində gömrük nəzarəti zonalarının yaradılması və fəaliyyət göstərməsi qaydalarını müəyyən edirdi. "Qaydalar"da göstərilirdi ki, belə gömrük nəzarəti zonaları və onun hüdudları hər bir konkret hal üçün gömrük orqanının rəhbərinin və ya onu əvəz edən şəxsin göstərişi əsasında gömrük nəzarətini həyata keçirən

gömrük orqanının vəzifəli şəxsi tərəfindən müəyyən edilir. Gömrük anbarlarının, müvəqqəti saxlanc anbarlarının, rüsumsuz ticarət mağazalarının ərazisi gömrük nəzarəti zonaları hesab edilir [77, 29].

Azərbaycan Respublikasının gömrük rüsumları cədvəli 12 aprel 2001-ci ildən HS-1996 əsasında qurulub. Gömrük rüsumları cədvəlinin 22 dekabr 2003-cü il dən Beynəlxalq Harmonik Sistemin yeni variantına (HS-2002) uyğunlaşdırılması məqsədilə on rəqəmli təsnifat sisteminə keçirilib. 2001-ci ilin aprel ayının 16-na qədər Azərbaycanda gömrük orqanlarının həyata keçirdiyi iqtisadi fəaliyyəti yalnız dövlət büdcəsi gəlirlərinin doldurulmasına xidmət edirdisə, yeni gömrük-tarif sistemi gömrük nəzarətinin tənzimləyici və qoruyucu funksiyalarını daha da genişləndirdi. 2001-ci ildə yeni tarif sisteminin qəbul edilməsi gömrük orqanlarının fəaliyyətində tamamilə yeni bir dövrün başlanğıcını qoydu. Bu da onunla əlaqədardır ki, artıq ölkədə qeyri-neft sektorunun ayrı-ayrı sahələrinin inkişafı baş verir və bu inkişafın normal həyata keçirilməsi üçün fiskal sektor real sektora öz köməkliyini göstərir.

Obyektiv zərurətdən irəli gələrək bir sıra mallara spesifik rüsumlar tətbiq olunurdu. Lakin bu cür rüsumlar malın keyfiyyətini, real qiymətini nəzərə almağa imkan vermədiyindən spesifik rüsumların advalor rüsumlarla əvəzlənməsi prosesi, demək olar ki, başa çatdırıldı. Bu tədbirdən sonra gömrük idxal rüsumları üzrə orta tarif dərəcəsi 8,3 faizdən 5,7 faizə düşdü. Alkoqollu içkilərin, tütün məmulatlarının və neft məhsullarının Azərbaycan Respublikasından idxalına aksiz vergisi tətbiq edilir. Aksz vergisinin tətbiqi Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər normativ hüquqi aktlarla tənzimlənir. Aksiz vergisinin tətbiqi ilk dəfə olaraq istehlak mallarına aksiz vergisi tətbiq edən *“Aksiz Vergisi haqqında”* 1991-ci il 31 dekabr tarixli Qanunla tətbiq edilmişdir. Lakin Azərbaycan Respublikasının *“Azərbaycan Respublikasının Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında”* 2000-ci il 11 iyul tarixli 905-IQ nömrəli Qanunu ilə ləğv edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *“MDB ölkələrinin hüdudları kənarından respublikaya gətirilən minik avtomobillərinə aksiz vergisi tətbiq edilməsi haqqında”* 1996-cı il 27 mart tarixli 35 nömrəli Qərarı MDB ölkələri istisna olmaqla digər ölkələrdən idxal edilən minik avtomobillərinin ümumi dəyərindən 15 faiz aksiz vergisi ödənilməsini tələb edirdi. Bu Qərar

Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə cəlb edilməsi haqqında"* 1997-ci il 2 sentyabr tarixli 101 nömrəli Qərarı ilə ləğv edildi. Qərar MDB ölkələri hüdudları kənarında istehsal edilən və yaşı istehsal tarixinin 1 ilindən artıq olmayan minik avtomobillərinin idxalı üçün minik avtomobillərinin gömrük dəyərinin 15 faiz aksiz vergisi ödənilməsini tələb edirdi. Bu Qərar da öz növbəsində 2001-ci il 24 yanvar tarixli 22 nömrəli Qərar ilə ləğv edildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"MDB ölkələrinin istehsalı olmayan gətirilən aksiz vergisinə cəlb edilən malların aksiz dərəcələri haqqında"* 1996-cı il 2 iyul tarixli 80 nömrəli Qərarı MDB ölkələrindən kənarda istehsal edilən alkoqollu içkilərin və tütün məmulatlarının idxalı üçün aksiz dərəcələrini müəyyən edir. Bu Qərar Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında"* 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə ləğv edildi.

Məlumdur ki, dövlət büdcəsinin formalaşmasının əsas ağırlığı, əlbəttə ki, vergi orqanlarının üzərinə düşür. Lakin son illərin göstəricilərinin təhlili büdcə gəlirlərinin formalaşmasında vergi orqanları ilə bərabər gömrük orqanlarının da əhəmiyyətli rol oynadığını qeyd etməyə əsas verir.

Rəsmi statistik məlumatlara görə, 1996-cı ildən etibarən həm Vergilər Nazirliyi, həm də Dövlət Gömrük Komitəsi üzrə vergi daxilolmalarının dinamikasında davamlı artım müşahidə olunurdu. Belə ki, 1996-cı ilə nisbətən 2003-cü ildə Vergilər Nazirliyi üzrə daxilolmalarının mütləq həcmi təxminən 2,5 dəfə, Dövlət Gömrük Komitəsi üzrə isə 3,9 dəfə artdı.

1996-2003-cü illərdə DGK üzrə büdcəyə daxilolmaların həcminin artımı ildə orta hesabla 19,0 faiz təşkil etdi. Vergi Məcəlləsinin 190-cı maddəsi, o cümlədən yeyinti spirti, pivə və bütün növ alkoqollu içkilər, tütün məmulatları və neft məhsulları da daxil olmaqla aksiz vergisinə cəlb olunan malların siyahısını müəyyən edir. Burada neft məhsullarından başqa bütün mallar üçün aksiz vergisi dərəcələri müəyyən edilir. 188-ci maddədə fiziki şəxsin fərdi istehlakı üçün 3 litr alkoqollu içkinin və 3 blok siqaretin idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş yanacaq çənindəki yanacaq, həmçinin, Azərbaycan Respublikası ərazisindən tranzit

ilə daşınan mallar, təkrar ixrac üçün nəzərdə tutulan mallar istisna edilməklə, malların Azərbaycan Respublikası ərazisinə müvəqqəti idxalı, təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar aksiz vergisindən azad edilir.

Vergi Məcəlləsinin 190.2-ci maddəsi müvafiq dövlət orqanlarına aksiz vergisinə cəlb olunan malların idxalı üçün aksiz dərəcələrini müəyyən etmək səlahiyyəti verir. Vergi Məcəlləsinin 182.1-ci maddəsinə uyğun olaraq aksiz vergisi malların satış qiymətinə daxil edilir. Aksiz vergisinə cəlb olunan malların ixracına sıfır (0) dərəcə aksiz dərəcəsi tətbiq edilir [94, 2003, 29 avqust].

*"Azərbaycan Respublikasının Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında"* Azərbaycan Respublikasının 2000-ci il 11 iyun tarixli 905-IQ nömrəli Qanununa uyğun olaraq aksiz vergisinə cəlb olunan malların siyahısı verilmişdir. *"Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında"* 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərar Azərbaycan Respublikasında istehsal edilən yeyinti spirti, pivə, alkoqol və tütün məmulatlarına tətbiq edilən aksiz dərəcələrini təsdiq etmişdir.

Hökumətin *"Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında"* Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20 nömrəli, 19 yanvar 2001-ci il tarixli, Qərarına dəyişiklik edilməsi barədə" 209 nömrəli 10 noyabr, 2005-ci il tarixli Qərarı Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrini müəyyən etmişdir.

Qeyd edilən hüquqi aktlar gömrük ödənişlərinin əhəmiyyətli dərəcədə artmasına təsir etmişdir. Gömrük nəzarətinin və qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, gömrük orqanlarının maddi-texniki bazasının, habelə maliyyə intizamının möhkəmləndirilməsi sahəsində görülən işlər büdcə gəlirlərinin yaradılmasında Dövlət Gömrük Komitəsinin rolunu xeyli artırdı.

Gömrük siyasətinin əsas istiqamətlərindən biri kimi fiskal sahədə də dönüş yaradıldı. Büdcə gəlirlərində gömrük vergi və rüsumlarının xüsusi çəkisi 1994-cü ildəki 3,2 faizdən və ya 17,4 mlrd. manatdan 2001-ci ildə 24

faizə və ya 822 mlrd. manata çatmışdı. Lakin vergi orqanlarının işinin səmərəliliyinin artmasının məntiqi nəticəsi olaraq, gömrük vergi və rüsumlarının artımı yüksələn xətlə davam etdirilsə də, büdcə çəkisində onun payı azalmaqda idi. Belə ki, 2002-ci ildə bu göstərici 20,3 faiz (921, 8 mlrd. manat), 2003-cü ildə 17,3 faiz (1 trilyon 61, 2 mlrd. manat), 2004-cü ildə 17,0 faiz (1 trilyon 303, 3 mlrd. manat) olmuşdur. Bu, normal hal olmaqla ölkənin iqtisadi siyasətinə tamamilə uyğun idi.

Aşağıdakı cədvəl təkmilləşdirilmiş qanunlar çərçivəsində beş il ərzində gömrük yığımlarının dinamikasını əks etdirir:

Cədvəl 3.1

**1998-2003-cü illərdə Azərbaycan Respublikasında gömrük vergi və rüsumlarının həcmi (1991-ci ilin qiymətləri ilə, mlrd. manat)**

| Göstəricilər | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|
| **Gömrük vergi və rüsumları, cəmi: O cümlədən:** | 561,0 | 662,0 | 720,0 | 822,0 | 921,8 | 1061,2 |
| **Gömrük rüsumları** | 286,4 | 315,3 | 314,0 | 260,3 | 276,7 | 294,9 |
| **ƏDV** | 232,8 | 299,3 | 384,8 | 521,5 | 602,1 | 717,6 |
| **Aksiz vergisi** | 32,2 | 36,6 | 12,0 | 31,7 | 35,9 | 43,3 |
| **Yol vergisi** | 9,6 | 10,8 | 8,7 | 8,3 | 7,1 | 5,4 |
| **Respublika büdcəsində xüsusi çəkisi (%)** | 24,1 | 23,7 | 20,1 | 24,0 | 20,3 | 17,3 |
| **Ümumi daxili məhsulda xüsusi çəkisi (%)** | 3,3 | 3,5 | 3,1 | 3,1 | 3,1 | 3,0 |

Cədvəldən göründüyü kimi, beş ildə gömrük vergi və rüsumlarının həcmi artaraq 1998-ci ildəki 561 mlrd. manatdan 1061, 2 mlrd. manata yüksəldi.

1998-2003-cü illərə aid rəsmi statistikanın araşdırılması ölkədə gömrük vergi və rüsumlarının dinamikasında müsbət meyllərin baş verdiyini sübut edir. Belə ki, 1998-ci ilə nisbətən 2003-cü ildə gömrük vergi və rüsumlarının həcmi 89,2 faiz, 2002-ci illə müqayisədə isə 15,1 faiz artmışdı. Gömrük vergi və rüsumlarının ümumi həcminin artmasında gömrük rüsumlarının və əlavə dəyər vergisinin tətbiqi mühüm rol oynamışdı. Müqayisə edilən dövrdə gömrük rüsumları 3,0 faiz, əlavə dəyər vergisi isə təxminən 8,2 dəfə artmışdı. Əgər 1998-ci ildə gömrük vergi və rüsumlarının 51,1 faizi

gömrük rüsumlarının, 41,5 faizi isə ƏDV-nin payına düşürdüsə, 2003-cü ildə bu nisbət ikincinin xeyrinə dəyişmiş, müvafiq olaraq, 28,0 faiz və 67,6 faiz təşkil etdi [85, 2005, №6, 35-37].

Son illər ərzində toplanan təcrübə göstərir ki, Respublikanın idxalçı ölkədən ixracatçı ölkəyə çevrilməsi gömrük-tarif sistemi ilə qırılmaz surətdə bağlıdır. Buna görə də, gömrük rüsum dərəcələri hazırlanıb tətbiq edilərkən güclü iqtisadi təhlil aparılmalı, iqtisadi sahələrin inkişaf səviyyəsi, daxili bazar qiymətlərinin hədləri, əhalinin sosial vəziyyəti nəzərə alınmalı və dövlətin iqtisadi siyasətinin əsas prinsiplərinə əsaslanmalıdır. Əgər 1995-ci ildə dövlət büdcəsinə 13154,5 min manat gömrük vergi və rüsumu köçürülmüşdüsə, 10 il sonra, 2005-ci ildə 376172,4 min manat, 2010-cu ildə isə 1101772,5 min manat gömrük vergi və rüsumları toplanmışdı ki, bu da müqayisə olunan illərdə olduğundan müvafiq olaraq 83,7 və 2,9 dəfə çox oldu.

Azərbaycan Respublikası DGK üzrə dövlət büdcəsinə köçürülən gömrük ödənişlərinin dinamikasını aşağıdakı cədvəldən aydın müşahidə etmək olur:

Cədvəl 3.2

**Azərbaycan Respublikası DGK üzrə dövlət büdcəsinə köçürülən gömrük ödənişlərinin strukturu (1994-2010-cu illər, min manatla)**

| **İllər** | **İdxal Rüsumu** | **ƏDV** | **Aksiz-lər** | **digər gömrük rüsumları** | **Yol vergisi** | **İxrac rüsumu** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **1994** | - | - | - | - | - | - | 3479,8 |
| **1995** | 4490,0 | 4576,9 | - | 2933,7 | - | 1203,9 | 13154,5 |
| **1996** | 12376,4 | 30449,0 | 1710,9 | 7810,6 | - | 2165,1 | 54512,0 |
| **1997** | 36295,6 | 34506,6 | 2955,5 | 10468,8 | 1604,8 | 73,7 | 85409,9 |
| **1998** | 49489,6 | 46574,5 | 6434,6 | 7905,1 | 1921,9 | 4,9 | 112330,6 |
| **1999** | 53949,6 | 59867,1 | 7972,2 | 9123,8 | 2166,5 | - | 133079,2 |
| **2000** | 54265,7 | 76976,6 | 2396,4 | 8549,5 | 1733,1 | - | 143921,3 |
| **2001** | 47469,7 | 104310,3 | 6339,9 | 4599,4 | 1653,5 | 69,1 | 164441,6 |
| **2002** | 51897,4 | 120414,2 | 7184,3 | 3453,4 | 1418,9 | 0.4 | 184368,7 |
| **2003** | 58532,7 | 143526,2 | 8663,9 | 124,5 | 1070,6 | 309,1 | 212246,9 |

| **İllər** | **İdxal Rüsumu** | **ƏDV** | **Aksiz-lər** | **digər gömrük rüsumları** | **Yol vergisi** | **İxrac rüsumu** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **2004** | 76279,6 | 171330,8 | 11144,4 | 228,6 | 1228,9 | 453,9 | 260666,2 |
| **2005** | 100492,4 | 253820,2 | 19734,8 | 223,9 | 1375,8 | 525,3 | 376172,4 |
| **2006** | 138559,1 | 351389,7 | 23383,1 | 236,4 | 1848,4 | 542,8 | 515959,4 |
| **2007** | 159367,2 | 535056,1 | 72359,5 | 333,5 | 4319,8 | 376,4 | 772012,5 |
| **2008** | 237477,3 | 775232,2 | 91148,3 | 324,3 | 5347,9 | 843,7 | 1110373,8 |
| **2009** | 205250,1 | 832490,8 | 67779,1 | 210,1 | 6746,0 | 220,5 | 1112696,8 |
| **2010** | 217699,0 | 810957,2 | 62885,0 | 349,3 | 9631,2 | 205,8 | 1101772,5 |

Mənbə: AR DGK-nin cari arxivi, 1994-2011-ci illərə aid hesabatlar; //htpp:www. ustoms.gov.az.

Statistik göstəricilərin təhlili göstərir ki, 1993-2012-ci illər üzrə gömrük tarif tənzimlənməsi sistemi vasitəsi ilə dövlət büdcəsinə toplanılan gömrük vergi və rüsumlarının da həcmi dinamik xətlə artdı, büdcə gəlirlərində gömrük ödənişlərinin xüsusi çəkisi ilbəil yüksəldi. Əgər 1994-cü ildə dövlət büdcəsinə cəmi 3479,8 min manat gömrük ödənişləri toplanmışdırsa, bu göstərici artaraq 1998-ci ildə 112330,6 min, 2000-ci ildə 143921,3 min, 2003-cü ildə 212246,9 min, 2006-cı ildə 515 959,4 min, 2008-ci ildə 1110 373,8 min, 2011-ci ildə 1141528,5 min olmuşdur. 2012-ci il "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən isə Dövlət Gömrük Komitəsi üçün 1 mlrd. 200 mln. manat illik büdcə proqnozu müəyyənləşdirilmişdi. Bu, 1994-cü illə müqayisədə 1196520,2 min manat çox idi. Nəticədə, 2012-ci il üzrə müəyyən edilmiş manat büdcə proqnozuna qarşı 1 mlrd. 208 mln. manat gömrük vergi və rüsumlarının toplanıb dövlət büdcəsinə köçürülməsi təmin edildi [3, 2012, 25 yanvar].

Dövlət Gömrük Komitəsi 2014-cü ildə nəzərdə tutulan 1 milyard 510,0 mln. manat illik büdcə proqnozuna qarşı 1 milyard 510,76 milyon manat gömrük vergi və rüsumunu toplayaraq proqnoza 100,05 faiz əməl edib. Eyni zamanda, 2015-ci və növbəti üç il üçün proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin layihəsinin hazırlanması məqsədi ilə geniş iqtisadi təhlillər aparılıb və müvafiq təkliflər verilib. Nəticədə 2015-ci il üzrə 80 milyon manat və ya 5,3 faiz artımla 1 milyard 590 milyon manat həcmində büdcə proqnozu müəyyən edilib [68, 2015, 31 yanvar].

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq olunmuş *"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"*nda və *"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"*nda Dövlət Gömrük Komitəsi qarşısında qoyulmuş tədbirlər uğurla həyata keçirildi. "Dövlət Proqramı"ndan irəli gələn və gömrük orqanlarının səlahiyyətlərinə aid məsələlərin həlli məqsədi ilə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 sentyabr 2008-ci il tarixli Sərəncamına uyğun olaraq Tədbirlər Planı hazırlanaraq Komitə sədrinin müvafiq əmri ilə təsdiq edildi. Nəzərdə tutulmuş müddət ərzində Komitənin Mərkəzi Laboratoriyasının yeni Gəncə və Biləsuvar regional bölmələrinin, həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Mərkəzi Laboratoriyasının yaradılması üçün təşkilati işlər həyata keçirildi.

Azərbaycan Respublikasında son zamanlarda sürətlə inkişaf edən istehsal sahələrinin təşkilinə və genişləndirilməsinə əlverişli şəraitin yaradılması, idxalın əmtəə strukturunun səmərələşdirilməsi, idxaldan asılılığın azaldılması, idxal yönümlü malların istehsalının stimullaşdırılması və yerli istehsalın xarici rəqabətin mənfi təsirindən qoruması məqsədilə Azərbaycan Respublikasında tətbiq olunan gömrük tariflərinin təkmilləşdirilməsi zərurəti yarandı. Bunu nəzərə alaraq, idxal mallarına münasibətdə gömrük-tarif mexanizminin təkmilləşdirilməsi, lüzumsuz tarif güzəştlərinin ləğvi, güzəştlərin konkret sahəni və dövrü əhatə etməsi, həmçinin beynəlxalq təşkilatların Azərbaycan Respublikasında hazırda tətbiq olunan gömrük idxal rüsumlarının çoxpilləli sistemdən azpilləli sistemə keçirilməsi ilə bağlı verdiyi tövsiyələr əsasında *"Azərbaycan Respublikası ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri"*nin siyahısı hazırlanaraq Nazirlər Kabinetinə təqdim edildi.

Belə nəticəyə gəlmək olar ki, gömrük nəzarətinin iqtisadi göstəricilərinin yüksəldilməsi sahəsində fəaliyyət, fəal və çevik gömrük tənzimləmə mexanizminin həyata keçirilməsi Azərbaycan Respublikasının iqtisadi maraqlarının təmin edilməsinin əsas şərtidir. Bütövlükdə, Respublikanın sosial-iqtisadi həyatında baş verən əhəmiyyətli dəyişikliklər və gömrük gəlirlərinin artması hesabına ölkənin büdcə imkanları genişlənir. Dövlət büdcəsində investisiya və sosial yönümlü proqramlara maliyyə dəstəyinin

təmin edilməsi səmərəli gömrük-tarif tənzimlənməsinin həyata keçirilməsini zəruri edir.

### 3.3. Azərbaycanın yaxın və uzaq ölkələrlə iqtisadi-ticarət əlaqələri (1993-2003-cü illər)

Azərbaycan dövlətinin iqtisadi inkişaf strategiyasının prioritet istiqamətini milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiya olunması müxtəlif beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın qurulmasında asılıdır. Bu əməkdaşlıq əsasən aşağıdakı istiqamətlər üzrə inkişaf etdirilir: çoxtərəfli iqtisadi əlaqələr (MDB, Qara Dəniz İqtisadi Təşkilatı, GUAM, yaxın perspektivdə Dünya Ticarət Təşkilatı və s.); beynəlxalq maliyyə institutları və beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s.); ikitərəfli iqtisadi əlaqələr ( ayrı-ayrı ölkələrlə), tranzit ölkə olaraq (Böyük İpək Yolu); neft hasilatı və ixracatçısı kimi qurulan əlaqələr.

Ölkəmizin beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı iki əsas istiqamət üzrə aparılır: regional təşkilatlar və BMT-nin müxtəlif təşkilat və proqramları. Regional təşkilatlarla əməkdaşlıq şimal, şərq və qərb istiqamətlərinə ayrılmaqla bərabər, hər bir istiqamət üzrə milli maraqların təmin edilməsi bu əlaqələri şərtləndirən əsas prioritetlərdir.

Şimal istiqaməti üzrə əməkdaşlıq əsasən MDB və GUAM ilə əməkdaşlığı əhatə edir. Keçmiş ittifaq dağıldıqdan sonra bütün respublikaların ticarət əlaqələrini xarakterizə edən xarici ticarət dövriyyəsinin həcmi kəskin surətdə azaldı. Keçmiş sovet respublikalarının xarici ticarətinin coğrafi quruluşunda baş verən dəyişikliklər, xüsusilə 90-cı illərdən başlayaraq, dövlətlərarası əlaqələrdə üçüncü ölkələrin prioritet təşkil etməsi xarici ticarətin məzmununa mənfi təsir göstərmişdi. Uzun müddət keçmiş SSRİ-nin tərkib hissələrini təşkil edən respublikalar arasında çoxistiqamətli siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin mövcudluğu xarici iqtisadi əlaqələr və gömrük işi sahəsində də əməkdaşlıq münasibətlərinin yeni bir istiqamətdə qurulmasını tələb edirdi. Tədqiq olunan dövrdə Azərbaycan Respublikası MDB-yə daxil olan dövlətlərlə normal əməkdaşlıq münasibətləri yaratmağa çalışırdı. 1993-cü ilin sonlarında MDB-yə daxil olan 11 ölkənin qoşulduğu *"İqtisadi ittifaqın yaradılması haqqında"* sazişin

imzalanması ilə bu əlaqələrin bünövrəsi qoyuldu. Bir il sonra isə MDB üzvü olan ölkələr arasında Azad ticarət zonası, Gömrük birliyi, Ümumi mal və xidmət bazarı, Dövlətlərarası valyuta komitəsinin yaradılması haqqında sazişlər imzalandı. Lakin bu saziş və qərarların əksəriyyətinin işlək mexanizmi olmadığından elə kağız üzərində də qaldı.

Azərbaycan Respublikası Nazirlər *Kabinetinin "1993-cü ildə Azərbaycan Respublikasından Rusiya Federasiyasına ən mühüm məhsul növlərinin göndərilməsi barədə"* 1993-cü il 22 fevral tarixli 115 nömrəli Qərarı hər iki ölkə arasında ticarət əlaqələrinin normal əsaslar üzərində daha da genişləndirilməsi məqsədini daşıyırdı. Keçid dövrünün əvvəllərində MDB-yə daxil olan ölkələrin, o cümlədən Azərbaycan Respublikasında ictimai-siyasi və iqtisadi vəziyyətin xeyli mürəkkəb olması üzündən xarici ticarət balansı pozulmuşdu. Bununla bərabər, Rusiya Federasiyasında 1990-cı illərin ortalarında həyata keçirilən valyuta-pul islahatı Rusiya bazarında Azərbaycan Respublikasının aqrar-sənaye məhsullarının rəqabət qabiliyyətliyini aşağı salmışdı. Azərbaycanın aqrar-sənaye kompleksi məhsullarının MDB ölkələri bazarına ixracını artırılması önündə ciddi əngəllər yaranmışdı.

Bütün bu amilləri nəzərə alan Heydər Əliyev Azərbaycanın MDB ölkələri ilə iqtisadi münasibətlərinin perspektivləri haqqında Moskvada nəşr olunan "Nezavisimaya qazeta"nın 1995-ci il 21 noyabr tarixli nömrəsinə verdiyi müsahibəsində demişdi: *"Biz MDB-nin tərkibinə daxilik, onun fəaliyyətində iştirak edirik və istəyirik ki, iqtisadi əməkdaşlıq inkişaf etsin. Təəssüf ki, bu əməkdaşlıq inkişaf etmir. Artıq xeyli vaxtdır ki, MDB mövcuddur. Lakin axı başlanğıcda Azərbaycan MDB-yə daxil deyildi. Mən respublikaya rəhbərlik etməyə başlayanda Azərbaycanın MDB-yə daxil olmasına ictimaiyyət tərəfindən, parlament tərəfindən dəstəklənməsinə nail olmaq üçün bir neçə ay iş aparmalı oldum. 1993-cü ilin sentyabr ayında biz MDB-yə daxil olduq, bir çox sənədlər imzaladıq. Artıq iki ildir ki, biz onun tərkibindəyik. Çox istərdim ki, iqtisadi inteqrasiya səmərəli olsun. Mövqelərimizi yaxınlaşdırmaq üçün, birgə fəaliyyət göstərmək üçün biz konkret məsələlər üzərində diqqəti cəmləşdirməli və var qüvvəmizlə çalışmalıyıq".*

Azərbaycanın əlverişli geosiyasi mövqeyi, zəngin təbii ehtiyatları, kapital qoyuluşlarının perspektivli gələcəyi ABŞ iş adamlarını tədricən Azərbaycana cəlb edirdi. Heydər Əliyevin işləyib hazırladığı xarici iqtisadi

siyasət xətti ABŞ Konqresində və Senatında Azərbaycanı dəstəkləyən qüvvələrin fəaliyyətini canlandırdı. Hələ 1994-cü ilin iyulun 16-da Senatın büdcə komissiyası 1995-ci il üçün MDB ölkələrinə maliyyə yardımı məsələlərini müzakirə edərkən Azərbaycana da humanitar yardımın göstərilməsini təmin etmək məqsədi ilə "907-ci düzəliş"i yumşaltmağı təklif etmişdi.

Türkiyə Cümhuriyyəti Azərbaycan Respublikasının beynəlxalq iqtisadi təşkilatlarda və müqavilələrdə ən yaxın müttəfiqidir. Tərəflər arasında ticarət əlaqələrinin kəmiyyət və keyfiyyət strukturunda əhəmiyyətli dəyişiklik olmuşdur. Əgər 1990-1995-ci illərdə ixracımızın əsas hissəsini kimya, metal və pambıq məhsulları təşkil edirdi. Azərbaycandan Türkiyəyə ixracın 70 faizini neft məhsulları təşkil edirdi. Ticarət əlaqələri ilə bərabər, qarşılıqlı investisiya və elmi-texniki əməkdaşlıq da güclənirdi. 1996-cı ildə ixracımızın 6,2 faizi, idxalın isə 22,5 faizi Türkiyənin payına düşürdü və bu sonrakı illərdə də yüksək olmuşdur. Lakin 1999-cu ildən başlayaraq Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyənin payı azalmağa doğru getdi. Həmin ildə Türkiyənin payı idxalda 13,8 faiz, ixracda – 7,4 faiz, 2003-cü ildə müvafiq olaraq idxalda 6,4 faiz, ixracda isə 5,1 faiz olmuşdu [33, 220; 89, 25; 88, 40-41; 32, 675, 720].

Neft müqavilələrinin imzalanması, neftin ixrac marşrutları və Xəzər dənizinin statusuna aid bir sıra problemlərin müzakirəsində Azərbaycan Respublikası bir növ ABŞ-ın strateji partnyoruna çevrildi. ABŞ-Azərbaycan münasibətlərində əsaslı dönüş məhz 1996-cı ilin yanvarından özünü göstərməyə başladı. Heydər Əliyevin ABŞ prezidenti B.Klinton, nüfuzlu konqresmen və senatorlarla görüşləri, iki ölkə arasında parlamentlərarası əlaqələrin genişlənməsi, Azərbaycanın islahatlar yolu ilə irəliləməsi, ABŞ-ın neft kompaniyalarının neft müqavilələrində fəal iştirakı və s. amillər Azərbaycanla iqtisadi əlaqələrin genişlənməsinə səbəb oldu. 1996-cı ilin yanvarında ABŞ Konqresi "Vilson düzəlişi" adlanan yeni sənəd qəbul etdi. Düzəlişə görə ABŞ prezidenti Azərbaycandakı qaçqın və köçkünlərə qeyri-hökumət təşkilatlarının vasitəsilə edilən yardımları qeyri-qənaətbəxş etsə idi, "907-ci düzəliş"in fəaliyyətini dayandıra bilərdi.

Ulu öndər Heydər Əliyev 1996-cı il mayın 14-də Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının IV zirvə toplantısındakı çıxışında demişdi: *"Dünya təcrübəsi göstərir ki, heç*

*bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də təşkilatınızda fəal iştirak etmək təkcə iqtisadi maraqlarda deyil, həm də tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir"* [55, 279].

1990-cı illərin sonları və 2000-ci illərin əvvəllərində MDB ölkələrinin əksəriyyətində ictimai-siyasi vəziyyətin sağlamlaşması və makroiqtisadi sabitliyin təmin edilməsi respublikamızın aqrar sahədəki ixracatında MDB-nin payını əhəmiyyətli dərəcədə yüksəldi. 1996-cı ildən başlayaraq, Azərbaycan Respublikası bir sıra MDB ölkələri ilə azad ticarət rejimi yaratdı. Həmin dövrdə, üzv dövlətlər arasında həll edilməmiş qalan başlıca məsələ azad ticarət zonaları və gömrük rüsumlarının eyniləşdirilməsi haqqında müqavilənin bütün ölkələr tərəfindən ratifikasiya olunmaması idi. MDB ölkələri ilə iqtisadi əlaqələrin təhlili göstərir ki, 2000-ci ildə ölkəmizdən ixrac olunan məhsulların 90 faizi üç respublikanın – Rusiya Federasiyası, Ukrayna və Qazaxıstan respublikalarının, ixracın isə 92 faizi Rusiya Federasiyası, Gürcüstan və Ukrayna respublikalarının payına düşürdü. MDB ölkələrinə ixrac olunan mal və məhsulların həcminə görə Rusiyadan sonra ikinci tərəfdaş ölkə Gürcüstan idi və bu ölkənin payı ixracatda 33, 41 faiz olsa da, idxalda cəmi 1,20 faiz təşkil edirdi [109, 38; 129, 2004, №9, 29-32].

Müxtəlif ölkələrlə xarici ticarət əməliyyatlarının inkişafının özünəməxsus xüsusiyyətləri vardır. Heydər Əliyev çox yaxşı bilirdi ki, yaxın qonşumuz olan Rusiya Federasiyası ilə yeni tipli iqtisadi əlaqələrin yaradılması və xarici ticarət balansının tarazlaşdırılması bu problemə dövlət qayğısının artırılmasını zəruri edir. Azərbaycanın Rusiya ilə iqtisadi əlaqələri kifayət qədər uzun tarixə malikdir və respublikanın idxal və ixracının, demək olar, bütün sahələrini əhatə edir. Xarici ticarətdə hər iki dövlət vahid iqtisadi məkana daxildir, bu ölkələri ümumi texnologiya və istehsal kooperasiyası birləşdirir. Ümummilli lider Heydər Əliyev MDB üzv dövlətləri arasında iqtisadi inteqrasiyanın inkişafı, qarşılıqlı etimadın möhkəmləndirilməsi həm Rusiyanın qonşularının, həm də Rusiyanın özünün mənafelərinə uyğun olmasını qeyd edərək demişdi ki, *"...birlik ölkələrini hər biri bundan böyük fayda götürə bilər, xüsusən də iqtisadiyyat sahəsində"* [59, 138].

Ölkəmizin xarici iqtisadi əlaqələrində Rusiya Federasiyasının strateji əhəmiyyətini aşağıdakı amillərlə qiymətləndirmək olar: bu ölkə dəmir yolları, avtomobil yolları, qaz və neft kəmərlərinin sıx şəbəkəsinin mövcud olması; Azərbaycanın kənd təsərrüfatı məhsullarına Rusiyanın bir sıra regionlarında əlverişli bazarın olması; dəniz qonşuluğu; iki ölkə arasında miqrasiyanın yüksək səviyyədə olması və s.

Ulu öndərin ölkəyə rəhbərlik etdiyi dövrdə Rusiya rəhbərliyi ilə aparılan diplomatik danışıqların iqtisadi aspekti, imzalanan müqavilə və sazişlər Azərbaycan dövlətinin xarici iqtisadi siyasətinin həyata keçirilməsinə əlavə stimul verdi. Bunun ardınca, 1996-cı ildən iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Hökumətlərarası Daimi Komissiya fəaliyyətə başladı. Komissiya iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə mövcud problemlərin tədqiqi və iqtisadi əlaqələrin inkişafı üçün zəruri layihələrin, təkliflər paketinin hazırlanması ilə məşğul idi. İqtisadi göstəricilərə görə, 2000-ci ildə respublikanın Rusiya Federasiyasından idxal etdiyi idxal mallarının dəyəri 249,3 mln. ABŞ dolları, həmin ölkəyə ixrac edilən məhsulun həcmi isə 98,3 mln. ABŞ dolları olmuşdu. 2003-cü ildə isə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 532,9 mln. ABŞ dolları təşkil etmişdi ki, bu da 2000-ci ilin səviyyəsindən 1,5 dəfə çox idi [30, 115; 109, 44; 145, 22, 23; 64, 2006, №7, 27].

1997-ci il iyulun 29-da Heydər Əliyev ABŞ-a ilk səfərində "C.P.Morqan" bankında Amerika-Azərbaycan Ticarət Palatası və Anlaşma Təşkilatı işgüzar şurasının üzvləri, ABŞ-ın Ticarət nazirliyinin əməkdaşları ilə görüşü çox faydalı oldu. Ulu öndər Azərbaycanda son illər aparılan iqtisadi islahatların nəticələri haqqında şərh verərək göstərmişdi ki, iqtisadiyyatımız bazar yolu ilə inkişaf etdirilir, özəlləşdirmə proqramı ardıcıl surətdə həyata keçirilir və xarici ölkə vətəndaşları bu prosesdə Azərbaycan vətəndaşları və şirkətləri ilə bərabər əsaslarla iştirak edə bilirlər. İşgüzar görüşün iştirakçılarına məlumat verilmişdi ki, Azərbaycanda xarici ticarət və gömrük siyasətində liberallaşma həyata keçirilir. Nəticədə xarici ticarət dövriyyəsinin həcmi 40 faiz artmışdır. Əgər 1989-cu ildən başlayaraq Azərbaycanın sənaye, kənd təsərrüfatı istehsalı, ümumən iqtisadiyyatı get-gedə aşağı düşürdüsə və 1995-ci ildə sənaye istehsalı 25-26 faiz, ümumi daxili məhsulun miqdarı 10-15 faiz aşağı düşmüşdüsə, 1996-cı ilin yekunlarına görə, aparılan islahatların ilkin nəticəsi olaraq sənaye istehsalında

sabitlik yaranmış, kənd təsərrüfatı istehsalı üzrə artım 3 faiz, ÜDM üzrə isə 1,2 faiz olmuşdu. Görüşdə iştirak edən amerikalı iş adamları və maliyyəçilərinə həyata keçirilən iqtisadi islahatların nəticəsi kimi ÜDM-nin artımının qısa müddət ərzində 5,2 faizə çatacağı bildirilmişdi [6, 1997, 31 iyul; 6, 1997, 2 avqust].

1998-ci il may ayının 21-22-də Vaşinqtonda keçirilən "Azərbaycan XXI əsrdə. Ticarət və investisiya imkanları" adlı konfrans ABŞ və Qərbi Avropanın maliyyə və analitik təhlil şirkətlərinin, mətbuatın böyük marağına səbəb oldu. Konfrans iştirakçıları Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə xarici investisiya yönəldilməsi barədə ilk mənbədən ətraflı məlumat (xammal resursları, vergi dərəcələri, gömrük tarifləri, nəqliyyat infrastrukturu və s.) almağa imkan verdi [6, 1998, 2 iyun].

Azərbaycan Respublikasının qərb istiqaməti üzrə iqtisadi əməkdaşlığı Aİ və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) üzv ölkələrini əhatə edirdi. Azərbaycan Respublikası QDİƏT-in yaradılmasının ilk mərhələsindən başlayaraq təşkilatın fəaliyyətində, Bosfor Qətnaməsi və İstanbul Bəyannaməsinin hazırlanmasında iştirak etmişdir. Ölkəmiz 1992-ci ildən bu təşkilatın üzvüdür. Azərbaycan Respublikası Albaniya və Ermənistan istisna olmaqla digər QDİƏT üzv ölkələri ilə ticarət-iqtisadi əməkdaşlıq müqavilələri imzalamışdır. Bu sazişlərdə gömrük rüsumlarının tətbiq edilməməsi, ixrac-idxal əməliyyatlarının qeyri-tarif yollarla məhdudlaşdırılması vasitələrinin ləğvi nəzərdə tutulur. Azərbaycanın xarici ticarət siyasəti prioritetləri sırasında qərb ölkələrinin təmsil olduğu Avropaya inteqrasiya mühüm yer tutur.

1996-cı ilin aprelin 22-də Lüksemburq şəhərində imzalanmış *"Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"* adlı sənəd bu təşkilatla münasibətləri hüquqi cəhətdən əsaslandırdı. Saziş Azərbaycan ilə Aİ arasında əməkdaşlığın həm siyasi, həm də ticarət sahələrini əhatə edirdi. Aİ-nin TASİS Proqramı, Fövqəladə Yardım Proqramı, ECNO Humanitar Təşkilatı, FEOGA Ərzaq Yardımı Proqramı, Ərzaq Təhlükəsizliyi Proqramı, Bərpa Proqramı çərçivəsində Azərbaycanda müxtəlif layihələrin həyata keçirilməsinə vəsait ayırmağa başladı. Bu sistemə daxil olmaqla Azərbaycan həm özünün mövcud resurslarından əhalinin həyat səviyyəsini yüksəltmək üçün daha səmərəli, təhlükəsiz və itkisiz

istifadə etmək imkanı əldə edir, həm də qabaqcıl dünya texnologiyalardan istifadəyə, investisiya və xarici kapitalın ölkə iqtisadiyyatına daha sürətli axınına nail olur.

Azərbaycan Respublikasının MDB ölkələri ilə ticarət-iqtisadi əlaqələrinin get-gedə dərinləşməsi hər iki tərəf üçün əhəmiyyətli hesab edilir. Bu əlaqələrin inkişaf etdirilməsi məqsədilə dövlət və hökumət başçıları, müvafiq nazirliklər, dövlətlərarası iqtisadi komissiyalarla yüksək səviyyədə baş tutan rəsmi görüşlər keçirilirdi. Məsələn, 2003-cü ilin yanvar ayının 28-29-da MDB ölkələri dövlət başçılarının Kiyev şəhərində keçirilmiş qeyri-rəsmi görüşündə MDB məkanında iqtisadi inteqrasiyanın sürətləndirilməsi məqsədilə MDB üzvü ölkələrinin ərazisində Azad Ticarət Zonası və transmilli korporasiyaların yaradılması barədə dövlət başçıları tərəfindən nümayəndə heyətlərinə müvafiq tapşırıqlar verilmişdi.

2004-cü ildə MDB ölkələri ilə idxalın həcmi 1200,6 mln. dollar, ixracın həcmi isə 614,3 mln. dollar təşkil etmişdi. MDB ölkələri ilə ticarət dövriyyəsində saldonun mənfi qalması müşahidə olunsa da, üzv dövlətlərdən altısı ilə (Moldova, Özbəkistan, Qazaxıstan, Rusiya, Türkmənistan, Ukrayna) ölkəmizin ixrac həcmində irəliləyiş olmuşdu. Bunu Azərbaycanda istehsal olunan məhsulların ənənəvi bazarların bərpasının nəticəsi kimi qiymətləndirmək olar. Belə ki, sözügedən ölkələrə meyvə-tərəvəz, fındıq, çay, pambıq mahlıcı və yağı, kimya məhsulları, təyyarə yanacağı, geofiziki alət və cihazlar ixrac olunmuşdu [85, 2006, №5, 38].

Ümumiyyətlə, 1991-ci ildən 2004-cü ilədək Azərbaycan Respublikası ilə MDB üzv dövlətləri arasında xarici iqtisadi əlaqələr məsələlərinə aid 141 sənəd imzalanmışdı. Tədqiq edilən dövrdə Azərbaycan Respublikasının MDB ölkələrinə ixracı bütövlükdə dinamik inkişaf edirdi. Bunu iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunan məhsulların ixracında MDB dövlətlərinin payının yüksək templə artması da sübut edir. 1995-2003-cü illərdə həmin göstəricinin xüsusi çəkisi 6,0 faizdən 53,6 faizə yüksəlmişdi [42, №7, 2006, 19-20; 64, 2006, №7, 43].

Rusiya Federasiyasının əksər iqtisadi regionları, xüsusilə Moskva və Sankt-Peterburq şəhərləri, Tatarıstan və Dağıstan Respublikaları, Sverdlovsk, Saratov, Həştərxan vilayətləri ilə iqtisadi əlaqələr daha da inkişaf etdirilməkdə idi. Azərbaycan Respublikası ilə Başqırdıstan hökuməti, Sankt-Peterburq, Novosibirsk, Kemerovo, Tomsk və Voronej vilayət administra-

siyaları arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi haqqında layihələr razılaşdırılmış, çoxlu sayda iri şirkətlərlə sıx iqtisad-ticarət əlaqələri qurulmuşdu.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2001-ci ilin yanvarında Bakıya rəsmi səfərində Azərbaycanla Rusiya arasında 2010-cu ilədək dövrü əhatə edən uzunmüddətli iqtisadi əməkdaşlıq və ticarət-iqtisadi münasibətlərin prinsipləri barədə imzalanan sazişin böyük əhəmiyyəti oldu. Rəsmi qəbuldakı çıxışında V.Putin Rusiya-Azərbaycan ticarət-iqtisadi əməkdaşlığının perspektivini nəzərə alaraq demişdi: *"Biz artıq dəfələrlə yəqin etmişik ki, Rusiya-Azərbaycan kooperasiyasının dərinləşməsi real iqtisadi fayda verir və əhalinin sosial problemlərinin həllinə kömək edir"* [6, 2002, 8 fevral].

GUAM təşkilatı çərçivəsində Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova zəngin təbii, maliyyə və insan ehtiyatlarına malikdir. Bu ölkələrdən hər biri MDB çərçivəsində həlli mümkün olmayan məsələləri həmin təşkilat çərçivəsində həyata keçirirlər. Əslində Azərbaycanın neft və qaz ehtiyatlarının bütün Qafqazın iqtisadi mənzərəsini dəyişməyə imkan yaratması çox mühüm siyasi əhəmiyyət daşıyırdı. Həmin illərin təcrübəsi sübut edir ki, MDB-dən fərqli olaraq GUAM çərçivəsində əməkdaşlıq iqtisadi problemləri həll etməyə, ziddiyyətlər və qarşıdurma məngənəsində sıxılan bir bölgədə dövlətlərin maraqlarını təmin etmək mümkündür. 90-cı illərin əvvəllərində üzv ölkələr arasında əsasən siyasi xarakter daşıyan bu əməkdaşlıq getdikcə daha çox iqtisadi inteqrasiyanın konkret çərçivələrini əhatə edirdi. Azərbaycan Respublikasının həm MDB, həm də GUAM üzv dövlətləri ilə iqtisadi-ticarət əlaqələrinin inkişafı milli gömrük işinin hüquqi-normativ bazasının təkmilləşməsinə əhəmiyyətli təsiri oldu.

2002-ci il iyulun 20-də Yalta şəhərində GUAM iştirakçıları olan dövlətlər arasında azad ticarət zonasının yaradılması haqqında Saziş imzalandı və Azərbaycan Respublikası Milli Məclisinin 10 iyun 2003-cü il tarixli 469-IIQ saylı Qanunu ilə qüvvəyə mindi. Bu sazişdə sənaye, kənd təsərrüfatı, nəqliyyat və maliyyə, investisiya və sosial sahələrdə nəzərdə tutulan məqsədlərə nail olmaq üçün ticarət şərtləri və gömrük işi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi son dərəcə zəruri sayılırdı. Sazişin 3-cü maddəsində gömrük rüsumları, habelə onlara ekvivalent təsirdə olan vergi və yığımlar və qarşılıqlı ticarətdə kəmiyyət məhdudiyyətlərinin tərəflər

arasında tətbiq edilməməsi, 5-ci maddəsində gömrük ərazisi üçün nəzərdə tutulan malların ölkəyə gətirilməsi və ya ölkədən çıxarılması ilə bağlı gömrük rüsumlarının tutulmaması, bu məqsədlə tərəflərin iqtisadi siyasətini əlaqələndirən daimi İşçi Orqanın yaradılması kimi məsələlər nəzərdə tutulmuşdu. Sənədin 8-ci maddəsində gömrük ərazilərindən gətirilən mallardan birbaşa və dolayısı yolla milli əmtəə üçün nəzərdə tutulan məbləğdən artıq olan vergi, fiskal xarakterli yığımların tutulmaması və tranzit məsələləri ilə bağlı digər hüquqi proseduralar göstərilmişdi [24, 31 avqust 2003-cü il, №8, maddə 413].

GUAM üzv dövlətlərinin gömrük xidmətləri rəhbərlərinin 2003-cü il fevralın 11-də Kiyevdə keçirilən görüşündə terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması, ticarət və nəqliyyata yardım, sərhəd və gömrük nəzarətinin təmin edilməsi üzrə GUAM-ABŞ Çərçivə Proqramı ilə əlaqədar qarşılıqlı anlaşma Memorandumu qəbul edildi. *"Ticarətə və nəqliyyata yardım"* layihəsi üzrə görüləcək işlərin ticarət və nəqliyyatın inkişafına və müdafiəsinə kömək, ümumi prinsiplərin tətbiqi, dövlət sərhədlərində və daxili gömrük terminallarında sərhəd və gömrük nəzarətinin təkmilləşdirilməsi sahəsində dövlətlərarası və idarələrarası əməkdaşlığa yönəldilməsi nəzərdə tutulurdu.

2003-cü il iyulun 4-də *"Gömrük işində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş"* MDB çərçivəsində Yaltada imzalanmış hökumətlərarası bu sahədə dövlətlərarası münasibətlərin tənzimlənməsi məsələlərini əhatə edirdi.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabatına görə 2013-cü ildə Azərbaycan Respublikasının GUAM dövlətləri ilə ticarət dövriyyəsinin həcmi 1519,36 mln., o cümlədən idxalın həcmi 724,38 mln. ABŞ dolları, ixracın həcmi 794,98 mln. ABŞ dolları təşkil etmişdir. Bu dövr ərzində xarici ticarət saldosu müsbət 70,60 mln. ABŞ dolları olmuşdur. 2013-cü ildə GUAM dövlətlərinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 4,38 faiz, o cümlədən idxalda 6,76 faiz, ixracda isə 3,32 faiz təşkil etmişdir. 2012-ci il ilə müqayisədə, 2013-cü ildə GUAM dövlətləri ilə ticarət dövriyyəsi 13,81 faiz, o cümlədən ixrac 20,96 faiz artmışdır.

Azərbaycan Respublikasının Şərq ölkələri ilə üzrə iqtisadi-ticarət və gömrük işi sahəsində əməkdaşlığı əsasən İslam Konfransı Təşkilatı (İKT) və

İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) vasitəsi ilə həyata keçirilir. İKT tərəfindən Azərbaycan Respublikasına iqtisadi yardım haqqında bir neçə qətnamə qəbul etmişdi. Bu sənədlərdə üzv dövlətlər və islam qurumları tərəfindən respublikamıza təcili maliyyə və humanitar yardımların göstərilməsi nəzərdə tutulurdu. Ölkəmiz İƏT daxilində regional iqtisadiyyatın liberallaşdırılması, iqtisadi əlaqələrin möhkəmləndirilməsi, nəqliyyat, energetika, ticarət və investisiya üzrə iqtisadi layihələrdə aparılan danışıqlarda iştirak edirdi. Respublikamızın İƏT dövlətləri ilə ticarət əlaqələri müvafiq olaraq 2003-cü ildə 787 mln. ABŞ dollarından 2004-cü ildə 1247 mln. ABŞ dollarına qədər artmışdı. 2004-cü ildə ölkənin xarici ticarət dövriyyəsinin həcmində idxalın 20 faizi, ixracın 15 faizi İƏT dövlətləri ilə həyata keçirilmişdi.

2013-cü ildə İƏT ölkələri ilə ticarət dövriyyəsinin həcmi 6796,11 mln. ABŞ dolları, o cümlədən idxalın həcmi 2234,16 mln., ixracın həcmi 4561,95 mln. ABŞ dolları təşkil etmiş, xarici ticarət saldosu isə müsbət 2.327,79 mln. ABŞ dolları olmuşdur. 2013-cü ildə İƏT ölkələrinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 19,59 faiz, o cümlədən idxalda 20,86 faiz, ixracda isə 19,03 faiz təşkil etmişdir. Lakin 2012-ci il ilə müqayisədə, 2013-cü ildə İƏT ölkələri ilə ticarət dövriyyəsi 7,69 faiz, o cümlədən ixrac 13,66 faiz artmış, idxal isə 2,74 faiz azalmışdır ki, digər ölkə qrupları ilə xarici ticarət əlaqələrinin daha sürətlə artması ilə əlaqədardır.

1995-2003-cü illər Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığında keyfiyyətcə yeni bir mərhələ oldu. “Bir millət, iki dövlət” arasındakı strateji əməkdaşlığın durumu və perspektivləri hələ 1991-ci ildən Heydər Əliyevin daima diqqət mərkəzində olmuşdur. Ulu öndər 1994-cü ilin fevralında Türkiyədə rəsmi səfərdə olarkən türk iş adamlarının böyük bir qrupu ilə görüşündə bu əməkdaşlığın məqsədini bir daha qeyd edərək demişdi ki, *“... məqsədimiz Azərbaycan iqtisadiyyatının Türkiyə iqtisadiyyatı ilə daha sıx əlaqədə olmasından ibarətdir. Bunun həm iqtisadi, həm mənəvi, həm də siyasi əhəmiyyəti var”* [6, 1994, 11 fevral].

Ötən yüzilliyin sonlarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tarixi İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə bu yolun üzərində yerləşən ölkələr tərəfindən ciddi maraqla qarşılandı. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakı şəhərində

tarixi İpək yolunun bərpası üzrə keçirilmiş Beynəlxalq konfrans və burada imzalanmış sənədlərin mühüm siyasi və iqtisadi əhəmiyyəti oldu. Respublika Prezidentinin *"Tarixi "İpək yolu"nun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında"* 1998-ci il 26 oktyabr tarixli Fərmanında TRASEKA proqramı çərçivəsində imzalanmış çoxtərəfli əsas sazişin həyata keçirilməsi üçün Nazirlər Kabineti və müvafiq icra strukturları qarşısında duran vəzifələri müəyyən etdi [58, 89-92].

2000-ci ildən İpək yolu layihəsinin hökumətlərarası komissiyası Katibliyinin Bakıda yerləşməsi haqqında təklifin irəli sürülməsi Azərbaycan Respublikasının TRASEKA layihəsində Avropa İttifaqının(Aİ) əsas tərəfdaşlarından biri olmasını sübut etdi. 2001-ci ilin fevral ayının 21-də Aİ-nin sədri Anna Lind və Baş katibi Xavyer Solananın iştirakı ilə bu təşkilatın Bakıda daimi Katibliyinin ofisi açıldı. TRASEKA layihəsinin həyata keçirilməsinin sosial-iqtisadi və siyasi mənfəətlərini və gömrük işi ilə bağlı əhəmiyyətini konkret olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

– İpək yolundan daşınan yüklər və xidmətlər dövriyyəsindən tranzit rüsumlarının daxil olması;

– iştirakçı dövlətlər üçün nəqliyyat xərclərinin aşağı salınması nəticəsində ümumi yükdaşımaların həcminin artması;

– nəqliyyat və kommunikasiya şəbəkələrinin əlaqəli inkişafı;

– sosial infrastruktur sahələrinin (turizm sektoru) formalaşması;

– elmi-texniki informasiya mübadiləsinin güclənməsi;

– təhlükəsizliyin və siyasi sabitliyin əldə olunması, o cümlədən layihə iştirakçıları ilə mənafe birliyinə nail olunması;

– Azərbaycan gerçəkliyinin dünya ictimaiyyətinə çatdırılmasında birbaşa fəaliyyət göstərmək imkanı və s.

1997-ci ilin fevralın 18-də Vaşinqtonda "Azərbaycan: kommunizmdən demokratiyaya, neft istehsalının artmasına doğru" mövzusunda keçirilən konfransın mühüm əhəmiyyəti oldu. Konfransda Azərbaycanı ARDNŞ-nin vitse-prezidenti İlham Əliyev və Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev təmsil edirdi. Konfransda ABŞ tərəfindən isə keçmiş müdafiə naziri R.Çeyni, habelə "Yunokal", "Britiş Eyryerz", "Amerikan Telefon and Teleqraf", "Ekson", "Oksidental", "Şevron", "Boinq" və digər iri şirkətlərin rəhbərləri iştirak edirdi [6, 1997, 27 iyul].

2006-cı ilin noyabr ayında Azərbaycan Respublikası ilə Aİ arasında Avropa Qonşuluq Siyasəti Çərçivəsində Fəaliyyət Planı təsdiq olundu. Cənubi Qafqaz regionunda strateji maraqları olduğunu açıqlayan Aİ Azərbaycanla bir çox sahələrdə əməkdaşlıq etmək niyyətində olduğunu bildirmişdi. 2006-cı il noyabrın 7-də Azərbaycan Respublikası ilə Aİ arasında Enerji sahəsində Strateji Tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalandı.

Ulu Heydər Əliyev Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QDİƏT) iştirakına böyük əhəmiyyət verir, bu iqtisadi əməkdaşlığı xalqlar arasında qarşılıqlı etimadın və anlaşmanın möhkəmlənməsi üçün ən mühüm vasitə hesab edirdi. O, göstərirdi ki, *"dünyada mürəkkəb proseslər getdiyi bir dövrdə bizim hamımız, bütün ölkələrimiz, xalqlarımız bir-birimizlə daha sıx münasibətlər yaratmağa, bütün sahələrdə əməkdaşlığı möhkəmləndirməyə ehtiyac duyuruq"* [55, 425]. Üzv dövlətlərin 1999-cu ilin noyabrın 19-da İstanbulda keçirilən zirvə görüşündəki nitqində isə Heydər Əliyev demişdi ki, bu təşkilatın *"fəaliyyətini canlandırmaq üçün hələ istifadə edilməmiş xeyli imkanlar vardır"* [59, 141].

Azərbaycan Respublikası regionda ticarətin liberallaşdırılmasını təmin edən sənədlərin hazırlanması məqsədilə toplanan qrupların iclaslarında fəal iştirak etməklə yanaşı, eyni zamanda milli və iqtisadi təhlükəsizlik məsələlərini əsas götürürdü. Məsələn, üzv dövlətlər tərəfindən 2002-ci ilin martın 6-da Kiyevdə imzalanmış *"QDİƏT regionunda malların yol daşımalarının asanlaşdırılması haqqında Anlaşma Memorandumu"* adlı sənədə Azərbaycan tərəfinin qeyd-şərtində bəyan edilirdi ki, memorandumda göstərilmiş hüquq, öhdəlik və müddəaların heç biri Ermənistan Respublikasına aid edilməyəcəkdir [20, 366-370].

Xarici ticarətin beynəlxalq normalar səviyyəsində təşkili üçün Azərbaycan Respublikasının Dünya Ticarət Təşkilatının (DTT) tam hüquqlu üzvü olmasına hazırlıq işləri görür. Məlumdur ki, həmin təşkilatın üzvlüyünə qəbul edilən ölkələrin xarici ticarət sahəsində apardıqları dəyişikliklər və islahatların strateji istiqamətləri ticarətin liberallaşması, əsassız məhdudiyyətlərin aradan qaldırılması və inzibati idarəetmə sisteminin iqtisadi metodlarla əvəz olunmasını tələb edir. Bunu nəzərə alan Respublika hökuməti xarici ticarət rejimi haqqında memorandum hazırlayıb DTT-yə təqdim etdi. Bu sənədə respublikanın xarici iqtisadi fəaliyyətinə aid bütün qanunvericilik aktları daxil edildi. Nəticədə 1998-ci ilin iyul ayında

Azərbaycan Respublikası DTT-də müşahidəçi statusu aldı. Bunlarla bərabər, dünya standartlarına cavab verən qanunvericilik bazasının yaradılması və ya qəbul olunmuş qanunlara əlavə və dəyişikliklərin edilməsi əsas şərtlərdən biridir. DTT-nin şərtlərinə əsasən üzv ölkələrdən idxal olunan mallara aşağı rüsum dərəcələri tətbiq edilməlidir. Bu tarif səviyyəsi DTT çərçivəsində aparılan çoxtərəfli danışıqlar nəticəsində müəyyən olunur. Lakin DTT-yə üzv olmayan ölkələrdən mal idxal etdikdə bu şərtlər tətbiq olunmur. Digər tərəfdən, üzv ölkələr lazım olarsa ticarət mübahisələrinə dair DTT-nin təklif olunan həll mexanizmlərindən istifadə edə bilər. Azərbaycan Respublikası Prezidentinin *"Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planının təsdiq edilməsi barədə"* 2006-cı il 2 avqust tarixli Sərəncamı da məhz bu məqsədi daşıyırdı. Tədbirlər Planının "Mallarla ticarətə təsir göstərən siyasətə dair tədbirlər" adlı 1-ci bölməsində digər dövlət orqanları ilə bərabər, DGK qarşısında aşağıdakı mövzular üzrə mövcud qanun və qaydaların DDT-nin tələblərinə uyğunlaşdırılması üzrə qanun layihələrinin hazırlanması tələb olunurdu: 1) Milli tarifin xüsusiyyətləri; 2) İdxal lisenziyalaşdırma prosedurları; 3) Gömrük qiymətləndirilməsi; 4) Daxili vergilərin idxala tətbiq edilməsi; 5) Malın mənşə ölkəsinin təyin edilməsi; 6) Sanitar və fitosanitar tədbirlər [6, 2006, 5 avqust]. DTT-yə üzv olmada müzakirə edilən əsas məsələlərdən biri məhz sahibkarların əldə edəcəkləri qazanc və itkilərdir. Azərbaycan DTT-yə üzv olacağı təqdirdə xarici iqtisadi fəaliyyət iştirakçılarının daha çox gəlir əldə etməyi mümkün olacaqdır. Lakin bu prosesdə Azərbaycanın üzləşdiyi əsas problem danışıqlar aparan ölkələrin maksimum dərəcədə öz maraqlarını güdməsidir [131, 2006, №6, 70-71] .

Bu illər ərzində ölkəmiz BMT-nin müxtəlif ixtisaslaşmış qurumlarının fəaliyyətində yaxından iştirak edirdi. Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafında BMT-nin İnkişaf Proqramı (BMTİP), Birləşmiş Millətlər Sənaye və İnkişaf Təşkilatını (BMSİT) və BMT-nin Mərkəzi Asiya iqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA Proqramı) xüsusi əhəmiyyəti oldu. Azərbaycan Respublikası 2000-ci ildə BMSİT çərçivəsində *"Sənaye inkişafı sahəsində əməkdaşlıq haqqında Memorandum"* imzalanmışdı. 2002-ci ilin noyabrında isə Azərbaycan Respublikası SPECA-ya üzv qəbul edilmişdi. Bu proqramın əsas məqsədi region ölkələrinin inteqrasiyasının

dəstəklənməsi və dünya iqtisadiyyatına fəal qoşulmaları üçün prioritet məsələlərin maliyyə təminatı idi.

Beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində qarşıda duran əsas vəzifələrdən biri xarici iqtisadi fəaliyyətin, o cümlədən ixracın milli iqtisadiyyatın maraqlarına səmərəli uzlaşdırılmasıdır. Müstəqillik illərində görülən işlər bazar iqtisadiyyatına malik olan ölkələrdə olduğu kimi ölkəmizin təcrübəsində də xarici ticarətin inkişaf etmiş geniş tətbiq olunan vasitə və üsullarına əsaslanan liberal dövlət tənzimlənməsi sistemini formalaşdırdı. Qısa zaman kəsiyində Azərbaycan dövlətinin dünya ölkələri ilə ticarətinin inkişafında irəliləyiş özünü göstərdi, onun coğrafiyası ciddi şəkildə dəyişdi. Əgər müstəqillik əldə etdikdən sonrakı ilk illərdə idxal və ixracın böyük hissəsi əsasən Türkiyə, İran və MDB ölkələri ilə aparılırdısa, sonrakı illərdə xarici ticarət dövriyyəsində inkişaf etmiş ölkələr üstünlük təşkil etməyə başladı. Ölkəmizlə ticarət əməliyyatlarına cəlb edilən ölkələrin sayı daha da artdı. Daha çox ixrac potensialına malik olan, bizim məhsullara daha əlverişli qiymət ödəyən, çoxsaylı ticarət əlaqələri aparan və çatdırılma prosesinə əlverişli şəraiti təmin edən ölkələri seçmək imkanımız genişləndi. Heydər Əliyev 90-cı illərin birinci yarısında ticarətdə idxalla ixracın nisbətini təhlil edərək idxalın ixracdan çox olmasını tənqid edirdi. Belə ki, ixrac və valyuta nəzarətinin dövlət sisteminin formalaşması hələ sonadək başa çatmamışdı, bəzi strateji əhəmiyyət daşıyan xammallara, ərzaq malları və dərman vasitələrinə, aralıq məhsullara və avadanlıqlara görə idxaldan asılılıq makroiqtisadi balansı pozurdu. Ölkənin ixrac potensialının artırılması və idxala maliyyə, təşkilati və informasiya dəstəyinin infrastrukturu zəif idi. Ölkədən çıxarılan valyuta, strateji əhəmiyyətli xammal və digər mallardan dövlət büdcəsinə çox az maliyyə gəlirləri daxil olurdu. Xarici iqtisadi-ticarət əlaqələrinin idarə edilməsinə məsul olan dövlət orqanları tərəfindən ciddi nöqsanlar və çatışmazlıqlar bu sahədə islahatlar aparılmasını tələb edirdi. Respublika Prezidentinin müvafiq sərəncamları ilə 1999-cu ildə Xarici İqtisadi Əlaqələr Nazirliyi, 2001-ci ildə isə Ticarət Nazirliyi ləğv edildi.

Bununla yanaşı, Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin 11-ci ildönümünə həsr edilmiş təntənəli mərasimdəki nitqində xarici ticarət sahəsində qazanılmış müvəffəqiyyəti dəyərləndirərək iqtisadiyyatımızın inkişafında böyük rol oynadığını qeyd edirdi. Onun çıxışında xarici ticarətin liberallaşmasının böyük nəticə verməsi faktlarla göstərilir: *“Məsələn, 5-6 il*

*bundan öncə Azərbaycana hər şey xaricdən gətirilirdi. Biz xarici ticarət sahəsində daha çox idxal edirdik, nəinki ixrac...1996-2001-ci illərdə xarici ticarət dövriyyəsi 2,4 dəfə artaraq 2,2 milyard dollara çatıbdır. Həm də ixracın həcminin daha sürətlə artması müşahidə olunur"* [121, 2002, 18 oktyabr].

Azərbaycan iqtisadiyyatına həm yerli, həm də xarici sərmayələrin cəlb olunması məqsədilə əlverişli investisiya mühiti də yaradıldı. Xarici biznesmenlərin iş görməsinə əngəl törədən problem və çətinliklər qalmaqda idi. Bu sahədə qanunvericiliyin, vergi və lisenziya sisteminin təkmilləşdirilməsi tələb olunurdu. Heydər Əliyev Azərbaycanda biznes mühitinin sağlamlaşdırılması üçün mövcud bürokratik əngəllərin aradan qaldırılmasını, bu sahədə şəffaflığın təmin edilməsini, korrupsiyaya qarşı qəti mübarizə aparılmasını müvafiq dövlət qurumları qarşısında bir vəzifə kimi irəli sürürdü. Düzdür, 1994-cü ildən başlayaraq xarici ticarət dövriyyəsi mənfi saldoya malik olmuş və bu proses 2000-ci ilədək davam etmişdi. Lakin Azərbaycanın iqtisadi əlaqələri ilbəil genişlənir və inkişaf edirdi. Neft və neft məhsulları ixracın aparıcı sahəsinə çevrildi. 1995-ci ildə neft və neft məhsullarının ümumi ixracda payı 45,8 faiz, 2001-ci ildə 91,1 faiz, 2002-ci ildə isə 87,7 faiz olmuşdu. Lakin 1995-2001-ci illərdə kimya məhsullarının ümumi ixracda xüsusi çəkisi 3,5 faizdən 0,9 faizə, elektrik enerjisi 4,1 faizdən 0,2 faizə, pambıq və mahlıc ipliyi 20,8 faizdən 0,8 faizə, qara və əlvan metallurgiya məhsulları 3,2 faizdən 1,7 faizə, maşın və avadanlıqlar 10,6 faizdən 1,7 faizə, alkoqollu içkilər 1,2 faizdən 0,1 faizə düşmüşdü.

1995-ci ildən Azərbaycan Respublikasında bütün ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yönəldilmiş xarici iqtisadi siyasət formalaşdırıldı, düzgün aparılan qiymət və vergi siyasətinin, xarici ticarətin artımına rəvac verən tədbirlərin həyata keçirilməsi sonrakı illərdə bu sahədə dönüş əldə edilməsinə imkan verdi. Məsələn, Azərbaycan Respublikası Prezidentinin *"Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında"* 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə lisenziyalaşdırılmaya məruz qalan bütün fəaliyyət növlərinin siyahısı tətbiq edildi.

2003-cü ildə 1995-ci ilə nisbətən xarici ticarətin həcmi 4,0 dəfə, o cümlədən ixrac 4,1 dəfə, idxal isə 3,9 dəfə artdı. Azərbaycanın xarici ticarət dövriyyəsinin getdikcə artması iqtisadi inkişafın dinamik xarakter alma-

sının, daxili bazarın imkanlarının düzgün qiymətləndirilməsi, həmçinin xarici ticarətin liberallaşdırılması və ölkədə əlverişli investisiya mühitinin yaradılmasının nəticəsi idi. Artıq 2003-cü ildə xarici iqtisadi əlaqələr 5216 mln. ABŞ dolları, o cümlədən ixrac 2591,7 mln., idxal isə 2626,4 isə mln. ABŞ dolları təşkil etmişdi. 2003-cü ilin yekunlarına əsasən xarici ticarət dövriyyəsi 1993-cü ilə nisbətən 3,9 dəfə, o cümlədən ixrac 3,6 dəfə, idxal əməliyyatları üzrə isə 3,9 dəfə artmışdı. Bu illər ərzində xarici ticarət əlaqələrinin strukturu da dəyişmişdi: idxalın ümumi həcmində respublikaya gətirilən ərzaq məhsullarının xüsusi çəkisi 1993-cü ildə 21,2 faiz, 1995-ci ildə 41,6 faiz olduğu halda, 2000-ci ildə bu göstərici azalaraq 19,0 faiz, 2003-cü ildə isə 16,0 faiz təşkil etmişdi. 2003-cü ilin xarici ticarət dövriyyəsinin 77,3 faizi uzaq xarici dövlətlərin, 22,7 faizi isə MDB ölkələrinin payına düşürdü. Azərbaycanın xarici ticarət əlaqələrində İtaliya (27,2 faiz), Rusiya (7,0 faiz), Fransa (5,8 faiz), (Türkiyə (5,6 faiz), Birləşmiş Krallıq (3,8 faiz), ABŞ (3,7 faiz) və Almaniya (2,9 faiz) öncül yer tuturdu. İdxal-ixrac əməliyyatlarında İran, İsrail, İsveçrə, Gürcüstan, Qazaxıstan və Türkmənistan da yüksək xüsusi çəkiyə malik idilər. Azərbaycandan ixrac olunan məhsulların 65,7 faizi, idxalın isə 32,0 faizi Avropa Birliyi ölkələrinin payına düşürdü. Bütövlükdə, Azərbaycan Respublikası 124 ölkə ilə ticarət əlaqələri yaratmışdı, halbuki 1996-cı ildə bu ölkələrin sayı cəmi 55 idi [32, 666-675].

Aşağıdakı cədvəl bu dəyişiklikləri təhlil etməyə imkan verir:

Cədvəl 3.3

**Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin dinamikası** (min ABŞ dolları)

| İllər | Dövriyyə | İdxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| **1991** | 4002234,3 | 1881266,2 | 2120968,1 | 239701,9 |
| **1992** | 2423835,0 | 939862,0 | 1483973,0 | 544111,0 |
| **1993** | 1353467,1 | 628806,0 | 724661,1 | 95855,1 |
| **1994** | 1430644,7 | 777910,5 | 652734,2 | -125176,3 |
| **1995** | 1304856,5 | 667657,2 | 637199,3 | -30457,9 |
| **1996** | 1591881,8 | 960636,3 | 631245,5 | -329390,8 |
| **1997** | 1575652,9 | 794343,2 | 781309,7 | -13033,5 |
| **1998** | 1682647,9 | 1076497,4 | 606150,5 | -470346,9 |

| İllər | Dövriyyə | İdxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| **1999** | 1965552,4 | 1035888,8 | 929663,6 | -106225,2 |
| **2000** | 2917291,1 | 1172071,2 | 1745219,9 | 573148,7 |
| **2001** | 3745313,5 | 1431107,4 | 2314206,1 | 883098,7 |
| **2002** | 3832883,7 | 1665484,0 | 2167399,7 | 501915,7 |
| **2003** | 5216558,9 | 2626181,1 | 2590377,8 | -35803,3 |

Yeni iqtisadi münasibətlər şəraitində dövlətin iqtisadi dirçəlişinin təmin olunmasında xarici investisiyalar əsas yerlərdən birini tutur. Beynəlxalq təcrübə göstərir ki, ölkədə əlverişli investisiya mühiti yaratmaqla, xarici kapitalın ölkəyə axınına, onun dünya iqtisadi sisteminə inteqrasiyasına, rəqabətə davamlı məhsul istehsalına və ən vacibi isə sürətli iqtisadi inkişafa nail olmaq mümkündür. Bazar iqtisadiyyatına keçidin ilkin mərhələsində yaranan böhran halları və daxili maliyyə vəsaitinin çatışmazlığı, hər şeydən əvvəl ölkəyə xarici investisiya axınının sürətləndirilməsini tələb edirdi.

Müstəqilliyin ilk illərində respublikada yaranmış ictimai-siyasi xaos və hərc-mərclik ölkə iqtisadiyyatına xarici kapitalın geniş cəlbinə imkan vermirdi. Məhz Ulu öndər Heydər Əliyevin səyi və yüksək təşkilatçılıq məharəti ilə Azərbaycan Respublikasında yaradılan ictimai-siyasi sabitlik, ölkənin yeraltı və yerüstü sərvətlərinin zənginliyi, ölkəmizin əlverişli coğrafi-iqtisadi məkanda yerləşməsi, nisbətən ucuz işçi qüvvəsinin, mükəmməl normativ-hüquqi sənədlərin, əlverişli maliyyə-gömrük və vergi rejiminin, müvafiq daxili bazarın olması, özəlləşdirmə prosesinin uğurla aparılması xarici investisiyaların ölkəmizə axınına şərait yaratdı. Heydər Əliyev Azərbaycan dövlətinin xarici iqtisadi siyasət konsepsiyasını hazırlayarkən aşağıdakı xüsusiyyətləri nəzərə almışdı: bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtisadiyyatın formalaşdırılması; makroiqtisadi sabitliyin təmin olunması; maliyyə vəsaitlərinin artırılması; özəl sektorun gücləndirilməsi; ticarətin liberallaşdırılması və dünya təsərrüfatı sisteminə əlaqələrin açılması; ölkə iqtisadiyyatına xarici investisiyalar cəlbinin stimullaşdırılması; ixrac yönümlü istehsal sahələrinə vergi, kredit və gömrük güzəştlərinin tətbiqi; xarici bazarlara yol açan azad iqtisadi zonaların yaradılması zəruriliyi və s.

Təkcə 1995-2003-cü illər ərzində ölkə iqtisadiyyatına 16640,2 mln.

ABŞ dolları həcmində investisiya qoyulmuşdu ki, bunun da 12393,0 mln. ABŞ dollarını, yəni 74,5 faizini xarici investisiyalar təşkil etmişdi. 2001-2003-cü illərdə isə ölkəyə xarici investisiya axınının sürətlənməsi davam etmişdir. Belə ki, həmin illərdə ölkə iqtisadiyyatına 6600,0 mln. ABŞ dolları həcmində xarici investisiya qoyulmuşdu ki, bu da bütövlükdə 1995-2003-cü illərdə iqtisadiyyata cəlb olunana xarici investisiyaların 53,3 faizini təşkil etmişdir. Qeyd etmək lazımdır ki, 1995-2003-cü illər ərzində təkcə neft sənayesinə 8642,2 mln. ABŞ dolları həcmində xarici investisiyalar cəlb edilmişdir.

Göstəricilərdən tam aydın olur ki, birbaşa investisiyaların ölkə iqtisadiyyatına axını prosesi dinamik xarakter almış və milli iqtisadiyyatımızın sıçrayışlı inkişafına müsbət təsir edən amilə çevrilmişdi. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici sərmayələrin içərisində birgə müəssisələr və xarici firmaların rolu artmaqda idi. Belə ki, 1995-2003-cü illərdə xarici firmaların sərmayələri 1885,5 mln. ABŞ dolları həcmində olmuşdu. Bu, ölkə iqtisadiyyatına cəlb olunan bütün xarici investisiyaların 15,2 faizini təşkil edirdi. Xarici investisiyalar ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Norveç, Yaponiya, Almaniya, Fransa, İran, İtaliya, İsveçrə və Səudiyyə Ərəbistanından daxil olurdu. Həmin müddətdə Türkiyə firma və şirkətləri Azərbaycana 539,2 mln. (28,6 faiz), Böyük Britaniya firmaları 368,8 mln. (19,6 faiz), ABŞ – 339,9 mln. ABŞ dolları (18 faiz) vəsait qoymuşdu. 2002-ci il aprelin 1-nə olan məlumata görə respublikada tamamilə xarici kapitalla işləyən müəssisələrin sayı 1946, müştərək müəssisələrin sayı isə 435-ə çatmışdı [41, №10, 2005, 34-35; 6, 2002, 15 may, №109, (3121)].

Lakin bəzi üzdəniraq məmurlar tərəfindən xarici şirkətlər qarşısında yaradılan süni maneələr, korrupsiya və digər mənfi hallar ölkəyə investisiya axınını zəiflədirdi. Heydər Əliyev 2000-ci ilin aprelin 13-də Bakı Hava Limanı kompleksinin işi ilə əlaqədar Prezident Sarayında keçirilən müşavirədəki yekun nitqində ölkə iqtisadiyyatına xarici investisiyaların cəlbi sahəsində çox böyük nailiyyətlərin olmasını qeyd etməklə yanaşı, eyni zamanda, bu işə əngəl törədən məmurlara ciddi xəbərdarlıq etmişdi: *"Xarici investorlar ölkəmizə gəlmək istəyirlər, ancaq onlar gəlib burada iş görmək məqsədi ilə fəaliyyətə başlayanda müxtəlif maneçiliklərlə rastlaşdılar. Əgər maneələri ötüb keçə bilirlərsə, bir iş görürlər, keçə bilməsələr, çıxıb gedirlər... Ona görə də bir daha hamını xəbərdar edirəm, - bilin, bizim özəl sek-*

*torun inkişafına şərait yaradın. Xarici investisiyaların Azərbaycana gəlməsinə mane olmayın, onun qarşısını almayın, ona şərait yaradın, kömək edin. Belə olan halda iqtisadiyyatımız inkişaf edəcəkdir, xalqımızın rifahı yaxşılaşacaqdır, sizin özünüz, hər biriniz daha yaxşı yaşayacaqsınız"* [59, 294-295].

2002-ci ilin aprel-may aylarında ölkə başçısının təşəbbüsü ilə yerli və xarici iş adamları ilə keçirilən görüşlərin və bu görüşlərdən irəli gələn vəzifələrə uyğun olaraq verdiyi Fərmanların bu sahədə çox böyük rolu oldu. Bu Fərmanlar sahibkarlar tərəfindən razılıqla qarşılandı və ciddi canlanmaya səbəb oldu, investisiyaların artmasına təsir etdi. O, xarici sahibkarlarla, Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı müəssisələrin vəziyyəti və inkişaf perspektivləri ilə yaxından maraqlanır, onlara öz işlərini yüksək səviyyədə qurmaları üçün müvafiq qərarlar qəbul edirdi. Respublika Prezidenti 2002-ci ilin mayın 14-də xarici sahibkarlarla keçirdiyi görüşdə bu işə münasibətini belə ifadə etmişdi: *"Biznes indi iqtisadiyyatın aparıcı qüvvəsidir. Ona görə də mən bu sahəyə daim diqqət yetirmişəm, yetirirəm və bundan sonra da yetirəcəyəm. Hər bir iş adamı, - xarici ölkədən gəlmiş, yaxud Azərbaycan vətəndaşı, - bilsin ki, Azərbaycan prezidenti kimi mən onun sağlam iş görməsinin himayədarıyam. Bu himayədarlığı daim edəcəyəm"* [6, 2002, 16 may].

Heydər Əliyevin bu sahədə verdiyi tövsiyə və tapşırıqları əsasında Azərbaycanda azad bazar iqtisadiyyatının təşəkkül tapması üçün sərbəst rəqabəti təmin edən normativ-hüquqi aktlar qəbul edildi, xarici investisiya haqqında qanunvericilik bazası formalaşdı. Bu məqsədlə qəbul edilən sənədlər sırasında *"İnvestisiya fəaliyyəti haqqında"* 13 yanvar 1995-ci il, *"Sərbəst ticarət zonasının yaradılması haqqında Sazişin təsdiq edilməsi barədə"* 8 oktyabr 1996-cı il, *"İnvestisiya müsabiqəsi haqqında"* 16 may 1997-ci il, *"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında"* 12 iyun 1998-ci il, *"İnvestisiya fondları haqqında"* 30 noyabr 1999-cu il, *"Azad ticarət zonasında texniki maneələrə dair Sazişin təsdiq edilməsi haqqında"* 8 dekabr 2000-ci il, "*Kommersiya sirri haqqında"* 4 dekabr 2001-ci il, *"Tənzimlənən qiymətlər haqqında"* 30 may 2003-cü il tarixli qanunları qeyd etmək olar. Eyni zamanda, bir sıra ölkələrlə sərbəst ticarət və iqtisadi əməkdaşlıq haqqında da sazişlər imzalandı.

Ölkəmizin iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 80 faizini birbaşa xarici investisiyalar təşkil edir və son illərdə neft sektoru ilə yanaşı,

digər sahələrə, xüsusilə, energetika və neft-kimya sənayesinə, infrastruktur və kənd təsərrüfatın sahələrinə yönələn investisiyaların da payı sürətlə artır. Qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi üçün aparılan investisiya müsabiqələri nəticəsində yaranmış və hazırda Azərbaycan iqtisadiyyatında əhəmiyyətli mövqe qazanan "European Tobacco-Baku", "Pepsi-Cola", "Coca-Cola", "Baku Steel Company", "Baku Castel", "Qaradağ-Sement", "Azərsun Holdinq" kimi şirkətləri xüsusi qeyd etmək olar [37, 4-5].

Bu illər ərzində xarici investisiyalı birgə müəssisələr Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsində, respublikamızda yeni müəssisələrin, iş yerlərinin açılmasında mühüm rol oynadı. Onlar respublikamıza dünya standartlarına cavab verən yeni, ən mükəmməl texnika və texnologiya ilə bərabər, həm də müasir idarəçilik, yeni təsərrüfatçılıq metod və üsullarını gətirdilər. Bu müəssisələrdə yaradılan məhsullar yüksək keyfiyyətli və rəqabət qabiliyyətli olduğuna görə dünya bazarına çıxarılması imkanı da geni°ləndi.

Məlum olduğu kimi, xarici iqtisadi əlaqələr yalnız ticarət əməliyyatlarından ibarət olmayıb, həmçinin yeni texnologiyaların və idarəçilik təcrübəsinin tətbiqi, yüksək ixtisaslı mütəxəssislərin intensiv mübadiləsi, əlverişli şərtlərlə xarici investisiyaların cəlb edilməsi və dünya bazarlarına çıxış əldə edilməsi deməkdir. Xüsusilə xidmət sahəsində xarici ticarət dövriyyəsi ilbəil artırdı. Azərbaycanın xidmətlər ticarəti sahəsində idxaldan asılılığının güclənməsinin əsas səbəblərindən biri ölkəmizin daha mütərəqqi, texniki və texnologiya cəhətdən mürəkkəb xidmətlərə tələbatının artması idi. Bu meyl Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin tikintisi ilə bağlı idxalın həcminin artması, digər tərəfdən turizm xidmətlərindən istifadə etmək məqsədilə xarici ölkələrə gedən azərbaycanlı turistlərin sayının çoxalması ilə əlaqədar idi. Belə ki, 1995-ci ildə xidmətlərin ixracı 172 mln. ABŞ dolları və idxalı 304,6 mln. ABŞ dolları təşkil etdiyi halda, bu göstərici 2000-ci ildə müvafiq olaraq 259,8 mln. və 484,4 mln., 2003-cü ildə isə 431,9 mln. və 2046,4 mln. ABŞ dolları təşkil etmişdi. Başqa sözlə, göstərilən dövr ərzində xidmətlərin ixracı demək olar ki, 2,5 dəfə, idxalı isə 6,7 dəfə artmışdı. 2002-ci ilin göstəricilərinə görə, xidmətlərin ixracında nəqliyyat (58,6 faiz) və turizm xidmətləri (14,1 faiz) daha yüksək xüsusi çəkiyə malik idi.

Xidmətlərin idxalında isə digər işgüzar xidmətlər (32,5 faiz) aparıcı mövqe tuturdu. Bütövlükdə, xidmətlər üzrə mənfi saldo 1995-ci ildə 132,2

mln., 2002-ci ildə isə 935,6 mln. ABŞ dolları təşkil edirdi. bu göstəricilər həmin dövrdə milli xidmətlərin hələ zəif inkişaf etməsini və bu sektorun rəqabət qabiliyyətinin aşağı olduğunu əks etdirir [111, 14-15].

Cədvəl 3.4

**Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri**
(əvvəlki ilə nisbətən, faizlə)

| İllər | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **1992** | 60,6 | 50,0 | 70,0 |
| **1993** | 55,8 | 66,9 | 48,8 |
| **1994** | 105,7 | 123,7 | 90,1 |
| **1995** | 91,2 | 85,8 | 97,6 |
| **1996** | 122,0 | 143,9 | 99,1 |
| **1997** | 99,0 | 82,7 | 123,8 |
| **1998** | 106,8 | 135,5 | 77,6 |
| **1999** | 116,8 | 96,2 | 153,4 |
| **2000** | 148,4 | 113,1 | 187,7 |
| **2001** | 128,4 | 122,1 | 132,6 |
| **2002** | 102,3 | 116,4 | 93,7 |
| **2003** | 136,1 | 157,7 | 119,5 |

Aqrar sahədə xarici iqtisadi əlaqələrin tənzimlənməsi məsələləri də diqqət mərkəzində olmuşdur. Respublikamız müstəqillik əldə edənədək kənd təsərrüfatı və ərzaq məhsullarını mərkəzləşdirilmiş bölgü əsasında yalnız müttəfiq respublikalara göndərirdisə, həmin dövlətlərlə alqı-satqı münasibətləri nisbətən məhdudlaşdırılmış (Rusiya Federasiyası istisna olmaqla), digər yaxın və uzaq xarici dövlətlərlə kənd təsərrüfatı və ərzaq məhsulları ixracı həcmi xeyli artmışdır. 1999-2003-cü illərdə ölkəmizə ərzaq məhsullarının idxalı artsa da, onun ümumi idxalda xüsusi çəkisi ilbəil azalmışdır. Belə ki, əgər 1999-cu ildə bu göstərici 20,1 faizini təşkil etmişdisə, 2003-cü ildə 11,8 faizədək aşağı düşmüşdü. Bununla bərabər, 1999-cu ilə nisbətən 2003-cü ildə ərzaq məhsullarının ixracı 2,1 dəfə artmışdı. Araşdırmalar göstərir ki, 2002-ci ildə ölkəyə idxal olunan əsas

ərzaq məhsullarından 657,2 min ton taxılın 458,2 min tonu və ya 69,7 faizi Qazaxıstan Respublikasının, 183,0 min tonu və ya 27,8 faizi Rusiya Federasiyasının, 16 min tonu və ya 25 faizi ABŞ-ın payına düşürdü. Ölkəyə daxil olan buğda ununun 42 faizi Türkiyədən, 42 faizi ABŞ-dan, 4,5 faizi isə Rusiya Federasiyasından daxil olurdu. Şəkər idxalında Ukrayna (45,7 faiz), Braziliya (23,5 faiz), Rusiya (11,2 faiz) və Gürcüstan (7,8 faiz) əsas ticarət tərəfdaşları idi. Kartof idxalının 81,6 faizi İranın, 9,9 faizi Rusiyanın və 7,3 faizi Türkiyənin payına düşürdü. Azərbaycan Respublikasının uzaq xarici ölkələrlə aqrar ixracın həcmi 1995-ci ildə 113,0 mln. ABŞ dolları, 2000-ci ildə 59,6 mln. ABŞ dolları, 2003-cü ildə isə 54,0 mln. ABŞ dolları olmuşdur. MDB ölkələrinə aqrar ixracında belə meyl müşahidə olunmamışdı. MDB ölkələrinə aqrar ixracın səviyyəsi 1995-2000-ci illərdə 9,8 mln. ABŞ dolları həcmində azalmış, 2000-2003-cü illərdə isə 77,4 mln. ABŞ dolları həcmində və ya 3,2 dəfə artmışdı. 2000-2003-cü illərdə MDB-yə pambıq ixracının həcmini 6,2 dəfə artırmaq mümkün olmuşdur [107, №7, 2005, 14].

1990-cı ildən başlayaraq kənd təsərrüfatı istehsalındakı tənəzzül və böhran halları səbəbindən daxili bazarda ərzaq mallarına kəskin olan tələbatı yaranmışdı. Bu vəziyyət idxal edilən ərzaq məhsullarının miqdarının artmasına səbəb oldu. Xaricdən yeyinti məhsullarının alınıb-gətirilməsi xeyli yüksəldi. Bunu həmin illərin gömrük sənədləri də təsdiq edir. Yeyinti məhsullarının istehsal həcmində kəskin azalma baş verdi, ölkəyə xaricdən keyfiyyətsiz ərzaq məhsullarının idxalı artdı. İnsan orqanizmində müxtəlif fəsadlar yaradan keyfiyyətsiz ərzaq məhsullarının gətirilməsinin qarşısının alınması sahəsində yeni yaradılan milli gömrük xidmətinin rolunun artırılması tələb olunurdu. Bu istiqamətdə normal gömrük nəzarətinin aparılması üçün zəruri texniki avadanlıq və cihazlar da yox dərəcəsində idi.

2000-ci ildən yerli yeyinti məhsullarının istehsalında artım müşahidə olunsa da, bu artım bu növ məhsulların idxalının azalmasına təsir etmədi. Respublikanın yeyinti sənayesində istehsal genişlənsə də, müxtəlif çeşiddə və iri həcmdə yeyinti məhsulları idxalı davam edirdi. Məsələn, 2000-ci ildə Azərbaycanın ümumi idxalı 1163099,5 min ABŞ dolları, idxal edilən yeyinti məhsullarının həcmi isə ümumu idxalın 18 faizi - 209357,9 min ABŞ dolları həcmində olmuşdu. 2000-ci ildə Azərbaycanın ümumi ixracı 1717890 min ABŞ dolları, yeyinti məhsullarının ixracı isə 51563,7 min

ABŞ dolları olmaqla ümumi ixracda həcmi cəmi 3 faiz təşkil etmişdi. Gömrük statistikası məlumatlarına görə, 2000-ci ildə idxal edilən yeyinti məhsullarının 42 faizini buğda təşkil etmişdi. Bu məhsulun 1 tonunun qiyməti 124,40 ABŞ dolları, ixrac edilən buğdanın ümumi dəyəri 87908,3 min ABŞ dolları olmuşdu. Respublikamıza buğda Qazaxıstan (58 faiz) və Rusiyadan (36 faiz) gətirilirdi. 2000-ci ildə idxal olunan yeyinti məhsulları içərisində şəkər və şəkər tozu (10,6 faiz), ət və ət məhsulları (9,3 faiz), tütün (4.8 faiz), çay (4 faiz), kərə yağı (3 faiz) və s. tuturdu. 2000-i ildə ixrac edilən yeyinti məhsullarında ən çox pay fındıq, şabalıd, püstə və fıstığa aiddir (34,5 faiz). Tütün (19 faiz), spirtli içkilər (11,3 faiz), təzə meyvə (7,3 faiz), bitki yağı (6,7 faiz), meyvə və tərəvəz şirələri (5, 1 faiz) və çay (5 faiz) yeyinti məhsullarının ixracında mühüm yer tutmuşdu [30, 330-331] .

2003-cü il yanvarın 10-da MDB üzv dövlətləri gömrük xidmətləri rəhbərləri Şurasının Moskva şəhərində keçirilən 37-ci yığıncağında *"Meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin tətbiq edilməsi haqqında 21 may 1998-ci il tarixli Sazişin müddətinin on il uzadılması haqqında Moldova Respublikası, Ukrayna, Belorus Respublikası, Rusiya Federasiyası və Azərbaycan Respublikasının gömrük xidmətləri arasında Protokol"* imzalanması ölkəmizin aqrar sahəsində ixrac potensialını artırdı [6, 2003, 26 oktyabr].

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 20 sentyabr 1994-cü il tarixində imzalanmış "Əsrin müqaviləsi" və imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasının genişlənməsi və beynəlxalq mövqelərinin möhkəmlənməsi işinə güclü təkan verdi. Yeni neft strategiyasının reallaşması dövlətimizin iqtisadi siyasətinin prioriteti oldu. Bu strategiya özündə Xəzər dənizinin Azərbaycan sektorunda mövcud karbohidrogen ehtiyatlarının qabaqcıl Qərb texnologiyası və investisiya imkanlarını səmərəli istifadə etməklə hasil edilərək dünya bazarlarına çıxarılması, satışdan əldə edilən vəsaitlə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, bugünkü və gələcək nəsillərin firavan həyatının təmin edilməsini ehtiva edir. Xəzər dənizinin Xəzəryanı ölkələr arasında sektorlara bölgüsü, neft kəmərlərinin çəkilişi və təhlükəsizliyi, investisiya təminatı, dünya neft bazarlarında yer tutmaq kimi problemlərin aradan qaldırılması xarici ölkələrin imkanlarından səmərəli istifadə edilməsini tələb edirdi.

Nazirlər Kabinetinin *"Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 1994-cü il 20 sentyabr tarixli Saziş üzrə idxal və ixrac əməliyyatlarının rəsmiləşdirilməsində gömrük xidməti ödənclərinin dərəcələri haqqında"* 1996-cı il 10 oktyabr tarixli 140 nömrəli qərarı bu sahədə gömrük orqanlarının üzərinə düşən vəzifələri müəyyənləşdirdi.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 584 nömrəli Fərmanı ilə təsdiq edilmiş *"2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"*nda gömrük xidmətinə aşağıdakı məsələlərin həll edilməsi tapşırılmışdı: a) gömrük prosedurlarının sadələşdirilməsinə aid təkliflərin hazırlanması; b) gömrük rüsumları səviyyəsinin və tarif güzəştlərinin sayının azaldılması və təkmilləşdirilməsi məsələlərinin təhlil edilməsi; c) gömrük sahəsində çalışan işçilərin peşəkarlığının artırılması [24, 3 mart 2003-cü il, №3, 579-581].

Xarici ölkə rəhbərləri və beynəlxalq qurumların nümayəndələri, xarici iş adamları və yerli sahibkarlar ilə görüşlərində, müxtəlif beynəlxalq tədbirlərdə etdiyi çıxış və nitqlərində ulu öndər Heydər Əliyev iqtisadi əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlığın, ortaq maraq və mənafelərin qorunması, faydalı əməkdaşlıq üçün perspektivli yollar axtarılması və həyata keçirilməsi və qarşılıqlı təhlükəsizliyə riayət edilməsinin zəruriliyini göstərirdi. Azərbaycan Respublikasının əldə etdiyi tarixi təcrübə bir daha təsdiq edir ki, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkələrin bir-birindən asılılığının getdikcə güclənməsi, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq meydana çıxan problemlərin mürəkkəbləşməsi, hər şeydən əvvəl milli iqtisadiyyatın formalaşması və ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı xarici iqtisadi fəaliyyətinin konseptual əsaslarının işlənilib hazırlanmasından asılı idi [48, 3-4].

2003-cü ildə Azərbaycan Respublikası 124 dövlətlə ticarət əməliyyatları aparırdı. Xarici ticarət dövriyyəsinin həcmi 5218,1 mln. ABŞ dolları səviyyəsinə yüksəlmiş, o cümlədən idxal 2626,4 mln. dollar (50,3 faiz), ixrac 2591,7 mln. dollar (49,7 faiz) təşkil etmişdi. Xarici ticarət əlaqələrinin 77,3 faizi, o cümlədən idxalın 67,6, ixracın 87,1 faizi uzaq xarici dövlətlərlə aparılmışdı. 2003-cü ilin nəticələri təsdiq edirdi ki, Azərbaycanın xarici

ticarət dövriyyəsində İtaliya (27,2 faiz), Rusiya (10,2 faiz), Fransa (7,0 faiz), Türkiyə (5,8 faiz), Birləşmiş Krallıq (5,6 faiz), ABŞ (3,8 faiz), Türkmənistan (3,7 faiz), Almaniya(3,4 faiz) və Qazaxıstan (2,9 faiz)paya malik olmuşdu [32, 666].

Beləliklə, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasında həyata keçirilən xarici iqtisadi siyasətinin formalaşması prosesini 4 əsas dövr kontekstində qiymətləndirmək olar:

1) 1991-1993-cü illərin 1-ci yarısı - iqtisadi böhran və xarici ticarət əlaqələrində "anarxiya" dövrü;

2) 1993-1995-ci illər - iqtisadi islahatlara hazırlıq və dəyişikliklər dövrü – bu illərdə Azərbaycanın xarici ticarət siyasətinin və beynəlxalq iqtisadi münasibətlər sistemində təmsilçiliyinin strateji və cari vəzifələri, xarici aləmlə iqtisadi əlaqələrinin prioritet istiqamətləri müəyyən edildi;

3) 1996-2000-ci illər - xarici iqtisadi əlaqələr sahəsində hüquqi islahatların həyata keçirilməsi və sabitləşmə dövrü;

4) 2001-2003-cü illər - xarici iqtisadi-ticarət əlaqələrinin intensiv inkişaf dövrü. Sonuncu mərhələni iki əsas inkişaf meyli səciyyələndirirdi. Onlardan birincisi, ölkənin ixrac potensialının xeyli artması, digəri isə xarici ticarətin nizamlanmasına yönəlmiş tədbirlər sistemi və gömrük nəzarətinin daha da gücləndirilməsi istiqaməti idi. 1996-2003-cü illərin təcrübəsi bir daha təsdiq edir ki, dövlətin beynəlxalq iqtisadi əlaqələr sahəsində yönəldilən tədbirləri sistemi ümumi iqtisadi siyasətin tərkib hissəsi olmuşdur və bu sahədə qəbul edilən qərarlar ölkənin sosial-iqtisadi həyatının bütün sahələrinə müsbət təsiri göstərmişdir.

Ulu öndərin xarici iqtisadi əlaqələr sahəsində irəli sürdüyü strategiya yalnız təsərrüfat-ticarət fəaliyyətinin və ölkələr arasında kommunikasiyaların genişləndirilməsi demək deyildi. Bu strategiyanın əsas xüsusiyyətlərindən biri də Azərbaycan dövlətinin bu sahəyə yeni yanaşma tərzinin, xarici iqtisadi fəaliyyətin iqtisadi və hüquqi mühitinin daha da yaxşılaşdırılması, dünya ticarətində bizim rolumuzun yeni prinsiplər əsasında dəqiqləşdirilməsi idi. Ulu öndər tərəfindən işlənib-hazırlanmış iqtisad strategiyanın ardıcıl surətdə həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası dünya iqtisadi birliyinin mühüm həlqəsinə çevrildi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmiş müstəqil bir dövlət kimi dünya siyasətində fəallığı ilə seçilməyə başladı. İqtisadi islahatların həyata keçirilməsi üçün

münbit şəraitin yaradılması, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi və dünyanın qabaqcıl ölkələri ilə iqtisadi əlaqələrin dərinləşdirilməsi Ümummilli lider Heydər Əliyevin bu sahədə məqsədyönlü fəaliyyətinin nəticəsi idi.

Azərbaycan Respublikasının Prezidentinin "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli 790 nömrəli Fərmanı da gömrük orqanlarının işini yenidən qurmaq üçün strateji xətt olaraq müəyyən edildi [24, 30 sentyabr 2002-ci il, №9, maddə 563].

### *3.4. Gömrük siyasəti davamlı iqtisadi inkişaf şəraitində*

2003-cü il oktyabrın 3-də keçirilən Prezident seçkilərində xalqın yekdil qərarı ilə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Heydər Əliyev tərəfindən müəyyən edilən siyasi və iqtisadi kursun davam etdirilməsini bəyan etdi. Bununla bərabər, iqtisadi strategiyanın ayrı-ayrı istiqamətlərinin yeni dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi həyata keçirildi. Davamlı iqtisadi inkişaf strategiyasının əsas cizgiləri Prezidentin *"Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"* 2003-cü il 24 noyabr tarixli 4 nömrəli Fərmanında öz əksini tapdı. Dövlət orqanları qarşısında istehsal müəssisələrində beynəlxalq standartlara cavab verən məhsul istehsalını və dünya bazarına çıxarılmasını təmin edən mühüm vəzifələr qoyuldu. Fərmanın icrasını təmin etmək məqsədilə Respublika Nazirlər Kabinetinin 2003-cü il 27 noyabr tarixli 243/S nömrəli Sərəncamı ilə Dövlət Gömrük Komitəsinə də bu istiqamətdə müvafiq tədbirlərin görülməsi tapşırıldı [24, 30 noyabr 2003-cü il, №11, maddə 669].

Gömrük işi haqqında obyektiv təsəvvür əldə etmək üçün bütöv bir dövr ərzində ölkənin xarici iqtisadi fəaliyyətinin vəziyyəti, xarici ticarətin dinamikası, idxal-ixrac əməliyyatlarının nəticələri kimi məsələlər ətraflı təhlil olunmalıdır. Xarici ticarət əlaqələrinin normal əsaslar üzərində qurulmasında gömrük xidmətinin üzərinə mühüm vəzifələr düşür. Dövlətin gömrük ərazisinin və gömrük siyasətinin vahidliyi, xarici iqtisadi fəaliyyətin tənzimlənməsində gömrük-tarif metoduna üstünlük verilməsi, xarici iqtisadi fəaliyyət subyektlərinin fəaliyyətinə dövlət orqanlarının əsasız müdaxi-

lələrinin qarşısının alınması, bu fəaliyyətin bütün iştirakçılarının bərabərliyinin təmin edilməsi, hüquqlarının və maraqlarının müdafiəsi xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin əsas istiqamətlərini təşkil edir.

Azərbaycan Respublikasının son illərdə xarici iqtisadi əlaqələrinin təhlili göstərir ki, idxal və ixracın coğrafi quruluşunda və əmtəə tərkibində əsaslı dəyişikliklər olmuşdur. Bu sahədə dönməz meyl və ənənələrin yaranmasını qeyd etmək olar. Azərbaycan Respublikasının son illər ərzində ardıcıl olaraq mühüm iqtisadi islahatların keçirilməsi, milli iqtisadiyyatın ayrı-ayrı prioritet sahələrində dinamik inkişafa nail olunması, bazar iqtisadiyyatı mexanizminin işlək bir mexanizm kimi formalaşması, dünya iqtisadiyyatına inteqrasiya prosesləri, beynəlxalq və regional iqtisadi qurumlarla real əməkdaşlığın səmərəli təşkili, strateji tərəfdaş ölkələrlə ikitərəfli əlaqələrin yeni keyfiyyət müstəvisinə yönəldilməsi istiqamətində görülən əməli tədbirlər Azərbaycanın xarici ticarət dövriyyəsinin əsaslı şəkildə artmasını, xarici iqtisadi əlaqələrin coğrafiyasının genişlənməsini və strateji tərəfdaş ölkələrlə aparılan ticarət əməliyyatlarında sıçrayışlı inkişafı təmin etdi. Belə ki, beynəlxalq iqtisadi münasibətlər məcmusundan 80-85 faizi xarici ticarətin payına düşürdü. 2004-cü ildə Azərbaycanın rezident və qeyri-rezidentləri tərəfindən 123 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi 7119,04 mln. ABŞ dolları olmuş, bu müddət ərzində 1297 adda 3614,46 mln. ABŞ dolları həcmində mal ixrac edilmiş, 5351 adda 3504,58 mln. ABŞ dolları həcmində isə idxal olunmuşdu.

Statistik məlumatlara əsasən, 2005-ci ildə Azərbaycanın 137 ölkəsi ilə ticarət əlaqəsi olmuşdur. Ticarət dövriyyəsinin ümumi dəyəri 8547,27 mln. ABŞ dolları təşkil etmişdi ki, bunun da 4346,66 mln. ABŞ dolları ixracın, 4200,39 mln. ABŞ dolları isə idxalın payına düşmüş, ticarət dövriyyəsinin müsbət saldosu 147 mln. ABŞ dolları təşkil etmişdi. Azərbaycan dünyanın 137 ölkəsi ilə ticarət əlaqəsi yaratmışdı. Həmin il ərzində 2102 adda mal ixrac, 5740 adda mal isə idxal olunmuşdu. Ölkəmizə gətirilən məhsulların 33,3 faizini maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 15,3 faizini mineral məhsullar, 10,6 faizini ərzaq malları, 11,6 faizini az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 10,0 faizini yerüstü, hava və su nəqliyyatı vasitələri, 4,4 faizini kimya sənayesi məhsulları, 3,9 faizini müxtəlif sənaye malları, 2,5 faizini polimer materiallar, plastik kütlə, kauçuk, rezin və ondan hazırlanmış mallar təşkil etmişdi. Xarici ölkələrə

göndərilən malların 76,8 faizini mineral məhsullar, o cümlədən 76,1 faizini neft və neft emalı məhsulları, 6,3 faizini yerüstü, hava və su nəqliyyatı vasitələri, 3,0 faizini kimya sənayesi məhsulları, 2,4 faizini az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 1,0 faizini digər mallar təşkil etmişdi. Xarici ticarət dövriyyəsinin 6195,3 mln. ABŞ dolları və ya 72,5 faizi, o cümlədən ixracın 79,2, idxalın 65,6 faizi uzaq xarici dövlətlərin payına düşmüşdü. MDB üzvü ölkələrlə ticarət dövriyyəsinin həcmi 2531,9 mln. ABŞ dolları, o cümlədən idxal 1446,5 mln., ixrac 995,4 mln. ABŞ dolları olmuşdu [134, 2006, №2, s.18-19]

2006-cı il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin həcmi 11,64 mlrd. ABŞ dolları, o cümlədən idxalın həcmi 5,27 mlrd. ABŞ dolları, ixracın həcmi isə 6,37 mlrd. ABŞ dolları təşkil etmişdi. Bu dövr ərzində Azərbaycan Respublikası 140 ölkə ilə ticarət sahəsində qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmişdir. İxrac-idxal əməliyyatlarının 45 faizi Avropa Birliyi, 26,0 faizi MDB ölkələri ilə, 28,7 faizi isə digər dövlətlərlə aparılmışdı. 2007-ci ildə adı çəkilən dövlət qruplarının xüsusi çəkisində Avropa Birliyinin payı azalaraq 28,5 faizə, MDB ölkələri üzrə 25,5 faizə enmiş, əksinə, digər dövlətlərin payı artaraq 46,0 faizə yüksəlmişdi [149].

Xarici ticarət əlaqələrinin statistik təhlili göstərir ki, 2000-ci illə müqayisədə 2006-cı ildə Azərbaycan Respublikasına idxal olunan yeyinti məhsulları təqribən 3 dəfə artaraq 553,1 min ABŞ dolları həcminə çatmışdı. Bu göstərici ümumi idxalın 10,5 faizini təşkil etmişdi. 2006-cı ildə idxal olunan yeyinti məhsullarının ən çox hissəsi buğda məhsullarına (33,8 faiz) aid olmuşdur. 2006-cı ildə Azərbaycan Respublikasının 6372165,0 min ABŞ dolları həcmində olan ümumi ixracının 237684,5 min ABŞ dollarını, başqa sözlə, cəmi 4 faizini yeyinti məhsulları təşkil etmişdi. Bu məhsullar əsasən Rusiya, Ukrayna, İtaliya, Almaniya və Türkiyəyə ixrac olunmuşdu. İxrac edilən məhsullarda neftin payı yüksək olduğuna görə ümumi ixracın həcmində yeyinti məhsullarının xüsusi çəkisi az olmuşdur [126, 2008, №12, s.24].

Bununla yanaşı xarici iqtisadi əlaqələrinin ətraflı təhlili bir sıra çatışmazlıqların da olduğunu göstərdi. Ticarət balansındakı mənfi meyllərin əsasən aşağıdakı səbəblərdən yaranmışdı:

Birincisi, istər xarici ticarət əməliyyatlarının strukturunda, istərsə də

artım tempi ilə bağlı disproporsiyaların ortaya çıxma səbəblərindən ən əsası kimi xarici ticarətlə bağlı vahid konsepsiyanın hazırlanmaması idi. Bu da öz əksini ticarət əlaqələrinin düzgün qurulmamasında, müqavilə şərtlərinə əməl olunmamasında tapırdı. Son zamanlar avro-dollar paritetində baş verən hadisələrin ölkənin valyuta-kredit siyasətində sərf nəzər edilməsi də ticarətin vəziyyətini pisləşdirən əsas amillərdən biri idi.

İkincisi, idxal-ixrac əməliyyatlarında barter qaydasında aparılan hesablaşmaların xüsusi çəkisi hələ də yüksək olaraq qalmaqda idi. Belə ki, barter əməliyyatlarının xüsusi çəkisi 2000-2005-ci illərdə 20-25 faiz təşkil edirdi.

Üçüncüsü, İqtisadi əlaqələrin mütləq əksəriyyətinin ticarət əlaqələrindən ibarət olması; eyni məhsul qruplarının həm idxal, həm də ixracda güclü mövqe tutması, idxal-ixrac qiymətlərində qeyri-sabitlik və s.

90-cı illərin ikinci yarısından ölkədə neft strategiyasının reallaşdırılması, xarici investisiyaların cəlb olunması, neft və onunla bağlı sahələrlə yanaşı, eyni zamanda qeyri neft bölməsinin inkişafı problemlərinə diqqətin artırılması, qloballaşan dünyanın inteqrasiya proseslərinə qovuşması xəttinin dərinləşməsi, xarici ticarət əlaqələrinin həcminin genişlənməsi, ÜDM-nin orta artım tempinin əvvəllər 5-6, 10-15 faizə, 2005-ci ildə isə 35 faizə çatdırılması müstəqillik yolumuzun ciddi uğurudur. Bu iqtisadi-sosial inkişafın təsdiqi kimi ölkədə siyasi sabitliyin təmin edilməsi nəticəsində, 2005-ci ildə ÜDM-nin istehsal həcmi son 15 ildə ilk dəfə 1989-cu il səviyyəsinə çataraq 12 mlrd. ABŞ dollar (11,87 mlrd. manat) təşkil etdi, investisiya qoyuluşlarının həcmi 30 mlrd. ABŞ dollarına çatdı (bunun 70 faizdən çoxu xarici şirkətlərin payına düşdü), Bakı-Tbilisi-Ceyhan əsas neft boru kəmərinin istifadəyə verilməsi, Respublika əhalisinin həyat səviyyəsinin xeyli yaxşılaşması, inflyasiyanın nəzərdə saxlanması, işsizliyin aradan qaldırılması yolunda müəyyən addımlar atıldı. Bu sahədə Azərbaycanın mənafelərinə qorunması, geniş miqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına çıxarılması məqsədilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri layihəsi üzrə işlər həyata keçirilmiş və Ceyhan dəniz terminalından Azərbaycan nefti ilə yüklənmiş “Britiş Hosorn” adlı ilk tanker 2006-cı ilin 4 iyun tarixində İtaliyaya yola salınmışdı.

Məsələn, Rusiya-Azərbaycan iqtisadi əlaqələri inkişaf etməkdə olsa da, tədqiqatlar göstərir ki, bu əlaqələr heç də hər iki ölkənin mövcud olduğu iqtisadi potensialı özündə tam əks etdirmir. 2006-cı ilin fevralında Rusiya-Azərbaycan ikitərəfli əməkdaşlığı çərçivəsində keçirilən yüksək səviyyəli tədbirlərdə Rusiya-Azərbaycan arasında ümumi ticarət dövriyyəsinin yaxın iki il ərzində 2 mlrd. ABŞ dollarına çatdırılması perspektivləri qeyd edilmişdi. 2005-ci ilə qədər iki ölkə arasında 130-dan çox saziş imzalanmış və bunların 70-i hökumətlərarası, dövlətlərarası status daşıyır. Bundan başqa, Rusiyanın iri regionları ilə əməkdaşlıq sazişləri artıq təcrübədə özünü doğruldur və bu istiqamətdə Azərbaycan hökumətinin yeni layihələri mövcuddur. Tədqiqatlar göstərir ki, aşağıdakı istiqamətlər üzrə tədbirlərin görülməsi Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin səmərəliliyinin artırılmasında xüsusi əhəmiyyət kəsb edə bilər. Rusiya Azərbaycanın idxalında ən böyük xüsusi çəkiyə malik ölkədir. Əgər 2001-ci ildə respublikamızın idxalında Rusiyanın payı 10, 6 faiz, 2003-cü ildə 14,6 faiz idisə, 2005-ci ildə 17,0 faiz olmuşdu.

Ümumiyyətlə, Rusiya ilə Azərbaycan arasında aşağıdakı istiqamətlər üzrə razılaşmalar əldə edilmiş və müvafiq sənədlər imzalanmışdır: ümumi iqtisadi əməkdaşlıq məsələləri; elmi-texniki əməkdaşlıq; maşınqayırma əməkdaşlıq; yanacaq-energetika sahəsində əməkdaşlıq; aqrar-sənaye kompleks sahəsində əməkdaşlıq; müdafiə sənayesi və konversiya sahəsində sahəsində əməkdaşlıq; nəqliyyat və rabitə sahəsində əməkdaşlıq; səhiyyə sahəsində əməkdaşlıq və s.

Cədvəl 3.5

**1999-2006-cı illərdə Azərbaycanın idxal və ixracında MDB-nin və RF-nin payı (mln. ABŞ dolları ilə)**

| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|
| **İdxal** | 1035.9 | 1172.1 | 1431.1 | 1665.6 | 2626.0 | 3515.9 | 4200.4 | 5267.6 |
| **o cümlədən MDB** | 325.3 | 325.5 | 445.2 | 650.6 | 850.7 | 1200.5 | 1449.52 | 2098.2 |
| **o cümlədən RF** | 226.5 | 249.3 | 153.0 | 280.9 | 383.9 | 569.4 | 717.2 | 1181,6 |
| **İxrac** | 929.7 | 1745.2 | 2341.2 | 2167.5 | 2592.0 | 3615.5 | 4346.8 | 6372.1 |
| **o cümlədən MDB** | 211.1 | 235.2 | 222.8 | 243.72 | 333.9 | 614.3 | 905.39 | 929.7 |
| **o cümlədən RF** | 83.0 | 98.3 | 77.5 | 95.7 | 147.8 | 209.8 | 258.4 | 344,2 |

2006-cı ilin göstəricilərinə görə, Azərbaycanda Rusiya kapitalının iştirakı ilə 400-dən çox şirkət, firma və müəssisələrdən 178-i birgə müəssisə kimi, 96-sı 100 faizli Rusiya kapitalı ilə fəaliyyət göstərir, 126-sı isə müxtəlif müəssisələrin filialları və nümayəndəlikləri kimi qeydə alınmışdı. Azərbaycanla sıx əlaqələrə malik iri şirkətlərdən biri olan "Lukoyl" 2006-cı ildə Respublikamızdakı fəaliyyətinin 15 illik yubileyini qeyd etdi. Statistik məlumatlara görə bu şirkət 1995-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 600 mln. ABŞ dolları investisiya qoyulmuşdu. 2006-cı il ərzində müxtəlif növ nəqliyyat vasitələrindən istifadə etməklə 25245,0 min ton yük daşınmışdı. Bu da 2005-ci ilin müvafiq dövrünə nisbətən 121,20 faiz təşkil etmişdir. Bunlardan 14260,8 min ton ixrac, 10984,2 min ton isə idxal əməliyyatlarının payına düşürdü. İxrac əməliyyatlarında əsasən dəniz (8076,8 min ton), dəmiryolu (1453,3 min ton), avtomobil (529,9 min ton), hava (3,7 min ton) və stasionar nəql etmə (boru kəməri) (4190,3 min ton) nəqliyyatından istifadə olunmuşdu. İdxal əməliyyatlarında dəniz 9286,4 min ton), dəmiryolu (6331,8 min ton), avtomobil (1142,2 min ton), hava (27,7 min ton) və stasionar nəql etmə (boru kəməri) (3150,2 min ton) nəqliyyatına üstünlük verilmişdi. 2006-cı il ərzində gömrük orqanlarında 193320 (əlavə vərəqlə birlikdə 2257323) ədəd yük gömrük bəyannaməsi (YGB) rəsmiləşdirilmişdi. Bunlardan 42115 (əlavə vərəqlə birlikdə 48441) ədəd ixrac, 151205 (əlavə vərəqlə birlikdə 208882) ədəd idxal YGB-dir. 2006-cı ildə YGB-lərin ümumi sayı 2005-ci ilin müvafiq dövrünə nisbətən 113,0 faiz təşkil etmiş və ya 22247 ədəd bəyannamə çox olmuşdu. O cümlədən ixracda artım 4625 (112,34 faiz) ədəd, idxalda isə artım 17622 (113,19 faiz) ədəd YGB olmuşdu. Azərbaycan Respublikası ərazisindən 6530,5 min ton tranzit yük keçirilmişdi. Tranzit yüklər əsasən İsveçrə (2091,2 min ton), İtaliya (1706,6 min ton), Gürcüstan (1161,0 min ton), Tacikistan (417,2 min ton), Rusiya (222,4 min ton), Türkiyə (188,5 min ton), İran (181,4 min ton), Türkmənistan (175,3 min ton) və Kipr (112,0 min ton) ölkələrinə göndərilmişdi. Azərbaycan Respublikası ərazisindən daşınan tranzit yükün miqdarı keçən ilin müvafiq dövrünə nisbətən 83175 faiz olmuş və ya 1267,5 min ton azalmışdı. Bununla bərabər, fiziki şəxslər tərəfindən respublikaya gətirilən 218127,7 min ABŞ dolları dəyərində əmtəə gömrük mədaxil orderləri (GMO) ilə rəsmiləşdirilmişdi. 2005-ci ilə nisbətən GMO ilə rəsmiləşdirilən yüklərin dəyəri 163,81 faiz təşkil etmiş və ya 84966,2 min ABŞ

dolları çox olmuşdu [135, 2007, №1, 73].

Ölkəyə idxal edilən mal və nəqliyyat vasitələrinə tətbiq olunan gömrük ödənişlərinin alınması və vergilərdən yayınma hallarının qarşısının alınmasına nəzarətin artırılması, maliyyə intizamının möhkəmləndirilməsi ən vacib məsələlər hesab edildi. Bu baxımdan 1993-cü ildən başlayaraq illik ticarət dövriyyəsi və büdcə proqnozunun dinamikasına nəzər yetirsək görərik ki, əgər 1993-cü ildə ticarət dövriyyəsi cəmi 863,7 mln. ABŞ dolları həcmində idisə, həmin göstərici 1994-cü ildə 1038,4 mln. dollar, 1996-cı ildə isə 1681,04 mln. dollar təşkil etməklə 1993-cü illə müqayisədə 194,6 faiz artdı. Bu dövrlər ərzində ticarətin asanlaşdırılması məqsədilə normativ-hüquqi aktlar qəbul edilməklə illik ticarət dövriyyəsinin daha da artmasına nail olundu. Məsələn, 2000-ci ildə illik ticarət dövriyyəsi 2923,1 mln., 2001-ci ildə 3751,9 mln. dollar təşkil etdi. Sonrakı illərdə, o cümlədən 2003-cü ildə bu göstərici 5200,5 milyon, 2005-ci ildə 8567,5 mln., 2007-ci ildə 11771,8 mln. dollara qədər artmaqla 1993-cü və 1994-cü illərlə müqayisədə böyük artım əldə edildi.

Dünya iqtisadiyyatına sürətli inteqrasiya və milli gömrük xidmətinin modernləşdirilməsi istiqamətində aparılan tədbirlər nəticəsində 2008-ci ildə Azərbaycanın idxal-ixrac əməliyyatları üzrə illik ticarət dövriyyəsi artaraq 54925,5 mln. dollara çatdı. Beş il sonra, 2010-cu ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi 27924,1 mln. ABŞ dollarını ötüb keçdi, bunun 6599,3 mln dolları ( 23,6 faiz) idxalın, 21324,8 mln. dolları (76,4 faiz) ixracın payına düşürdü. MDB ölkələri ilə ticarət dövriyyəsi 4034,8 mln. manat (ümumi ticarət dövriyyəsinin 14,5 faizi) təşkil etmişdi ki, burada idxalla ixracın nisbəti demək olar ki, bərabər olmuşdu. 2011-ci il ərzində isə bu göstərici 36326,9 milyon dollar məbləğində olmaqla 1994 və 1995-ci illərin göstəricilərini müvafiq olaraq 35288,5 mln. və 35239,8 mln. dollar üstələdi [31, 123; 104, 2012, 25 yanvar].

Dövlət Gömrük Komitəsindən verilən məlumata əsasən, 2013-cü ildə Azərbaycan Respublikasının MDB dövlətləri ilə ticarət dövriyyəsinin həcmi 4062,88 mln., o cümlədən idxalın həcmi 2553,24 mln. ABŞ dolları, ixracın həcmi isə 1509,64 mln. ABŞ dolları təşkil etmişdir. 2013-cü ildə MDB dövlətlərinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində payı 11,71 faiz təşkil etmişdir. 2012-ci il ilə müqayisədə, 2013-cü ildə MDB dövlətləri ilə ticarət dövriyyəsi 11,84 faiz, o cümlədən ixrac 20,58 faiz

artmışdır [150].

Məlum olduğu kimi, Azərbaycanda dəniz nəqliyyatı böyük tarixə və ənənələrə malikdir. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin genişlənməsində Bakı gömrükxanasının əsas əməliyyat ərazisinə daxil olan dəniz limanı mühüm rol oynayır. Əsası hələ 1564-cü ildə qoyulan Bakı Dəniz Ticarət Limanı ötən əsrin 30-cu illərində tikilmiş və sonralar burada müəyyən mərhələlərdə rekonstruksiya işləri aparılsa da, müasir tələblərə cavab vermirdi. Düzdür, 1996-cı ildə 485 min, 1997-ci ildə 1, 570 min ton və 1998-ci ildə 3,063 min ton yük daşınmışdısa, limanın texniki imkanları Azərbaycanın nə indiki, nə də ki, gələcək inkişafının tələblərinə uyğun deyildi [74, 214].

Azərbaycanın tranzit potensialının artırılması üçün Respublika Nəqliyyat Nazirliyi Hollandiyanın "Royal Haskoning" şirkəti ilə müqavilə imzalamış və bu şirkət tərəfindən müvafiq layihələndirmə işləri aparılmışdı. Yeni liman Bakının Qaradağ rayonunun Ələt qəsəbəsinin ərazisində inşa edilir. Liman kompleksinin ərazisi 400 hektar nəzərdə tutulur. İlkin mərhələdən sonra liman kompleksinə ildə 10 milyon tona qədər yük və TEU standartlarında 40 min konteyner daxil olacaqdır.

İkinci mərhələdə bu rəqəmlər müvafiq surətdə 17 mln. tona və 150 min konteynerə çatdırılmalıdır (1998-ci ildə Limanda cəmi 1000 konteyner işlənilmişdir).

Hesablamaya görə, üçüncü mərhələdə Limanın yük qəbul etmə gücü ildə 25 milyon tona və 1 milyon konteynerə çatmalıdır. Layihə çərçivəsində avtomobil və dəmir yolları, giriş kanalı, körpülər, bərə terminalı, quru yük terminalı, konteyner sahəsi olunması nəzərdə tutulur. Aşağıdakı cədvəl Azərbaycan Respublikasının xarici ticarət əlaqələrində ayrı-ayrı gömrükxanaların fəaliyyətini təhlil etmək olar. Cədvəldən göründüyü kimi, bütün gömrük idarəsindən keçən malların ümumi dəyəri 11639811,1 min ABŞ dolları təşkil etmişdi. İdxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin ümumi həcmində gömrük idarələrinin xüsusi çəkisi müxtəlif idi. Bu göstərici Enerji gömrükxanası üzrə 51,3, Bakı Baş Gömrük İdarəsi 26,0, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi 5,9, Sumqayıt Gömrük İdarəsi 4,3, Avtonəqliyyat Gömrük idarəsi 3,5, Gəncə gömrük İdarəsi 2,5, Şirvan Gömrük İdarəsi 1,3, Xaçmaz Gömrük İdarəsi 1,2, Xudafərin Gömrük İdarəsi 1,0, Naxçıvan MR ərazisindəki gömrük idarələri i cəmi 0,78 faiz

olmuşdu.

Cədvəl 3.6

**2006-cı ildə gömrük idarələri üzrə idxal və ixracın quruluşu (min ABŞ dolları)**

| s/s | Gömrük idarələri | İdxal | | | İxrac | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Uzaq xarici dövlətlər | MDB ölkələri | Cəmi | Uzaq xarici dövlətlər | MDB ölkələri |
| 1 | Aksiz GI | 101046,5 | 49608,6 | 51437,9 | 260,4 | 260,4 | - |
| 2 | Astara GI | 33946,2 | 28334,7 | 5611,5 | 31597,6 | 26228,6 | 5369,0 |
| 3 | Avtonəqliyyat GI | 402884,5 | 244421,6 | 158462,9 | 676,9 | 366,2 | 310,7 |
| 4 | Bakı BGI | 2632157,5 | 1730331,3 | 901826,2 | 356716,0 | 89359,9 | 267356,1 |
| 5 | Balakən GI | 4268,2 | 3518,5 | 749,7 | 26722,4 | 14357,2 | 12365,2 |
| 6 | Biləsuvar GI | 20016,7 | 7464,9 | 12551,8 | 7278,6 | 1770,9 | 5507,7 |
| 7 | Culfa GI | 5662,8 | 5656,5 | 6,3 | - | - | - |
| 8 | Enerji GI | 581968,5 | 19822,9 | 562145,6 | 5389961,5 | 5100835,8 | 289125,7 |
| 9 | Şirvan GI | 104016,8 | 62561,7 | 41455,1 | 41630,1 | 20233,2 | 21396,9 |
| 10 | Gəncə GI | 144468,1 | 101269,0 | 43199,1 | 143777,3 | 2112,9 | 141664,4 |
| 11 | Hava nəql. BGI | 675110,1 | 568856,7 | 106253,4 | 13928,8 | 9715,9 | 4212,9 |
| 12 | Xaçmaz GI | 48647,8 | 25632,0 | 23015,8 | 86647,4 | 841,5 | 85805,9 |
| 13 | Xudafərin GI | 75709,1 | 70581,0 | 5128,1 | 29220,1 | 1708,3 | 27511,8 |
| 14 | Naxçıvan BHL GI | 498,2 | 290,0 | 209,2 | 3,6 | - | 3,6 |
| 15 | Naxçıvan GI | 66265,2 | 60495,4 | 5769,8 | 56,4 | 27,8 | 28,6 |
| 16 | Sədərək GI | 14246,7 | 13763,2 | 483,5 | 1182,9 | 1182,9 | - |
| 17 | Sumqayıt GI | 287569,1 | 149332,8 | 138236,3 | 212620,3 | 160727,2 | 51893,1 |
| 18 | Tovuz GI | 27869,2 | 2367,6 | 25501,6 | 2072,0 | 171,5 | 1900,5 |
| 19 | Yevlax GI | 41293,9 | 25169,4 | 16124,5 | 27812,7 | 12547,3 | 15265,4 |
| | **Cəmi** | **5267646,1** | **3169477,8** | **2098168,3** | **6372165,0** | **5442447,5** | **929717,5** |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, s.558-559.

2010-cu il noyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin təməl qoyma mərasimi və kompleksin layihəsinin təqdimatında iştirak etdi. Prezident İlham Əliyev həmin mərasimdə demişdir: *"Limanın bu ərazidə yaradılmasının əsas məqsədi Azərbaycanda nəqliyyatın təhlükəsizlik məsələlərini uğurla həll etmək, Bakını Xəzər hövzəsində çox müasir və böyük logistika, nəqliyyat mərkəzinə çevirmək, Xəzəryanı ölkələr arasındakı əməkdaşlığı dərinləşdirmək və nəticədə Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin tam gücü ilə işləməsinə şərait yaratmaq idi... Ən başlıcası bu layihə Azərbaycanın nəqliyyat imkanlarını böyük dərəcədə artıracaq, regional nəqliyyat mərkəzi kimi rolumuzu daha da gücləndirəcək, Avropanı Asiya ilə etibarlı və keyfiyyətli dəmir yolu ilə birləşdirəcəkdir. Yəni, bütün bu amillər bizə diktə edirdi ki, mütləq Azərbaycanda yeni, müasir dəniz ticarət limanı tikilməlidir".* 2014-cü ildə istifadəyə veriləcək Dəniz Ticarət Limanının fəaliyyətə başlaması nəticəsində 3 min nəfər işlə təmin olunması nəzərdə tutulub.

Nazirlər Kabinetinin *"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.3.17-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə verilən "Gömrük sərhədindən elektrikötürücü xətlər vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"*nın təsdiq edilməsi haqqında 2012-ci il 30 dekabr tarixli 331 nömrəli Qərarı gömrük sərhədindən elektrikötürücü xətlər vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarəti və onların gömrük rəsmiləşdirilməsini nəzərdə tuturdu. Gömrük sərhədindən elektrikötürücü xətlər vasitəsi ilə keçirilən malların miqdarı, keyfiyyəti və digər xüsusiyyətləri müvafiq sənədlərdə olan məlumatlar və ölçü cihazlarının göstəriciləri üzrə aparılan uçot məlumatları əsasında gömrük orqanları tərəfindən müəyyən edilir. Nazirlər Kabinetinin *"Gömrük sərhədindən boru kəməri vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"*nın təsdiq edilməsi haqqında 2012-ci il 30 dekabr tarixli 332 nömrəli Qərarına əsasən Azərbaycan Respublikasının gömrük sərhədindən boru kəməri vasitəsi ilə aparılan və ya bu əraziyə gətirilən mallar gömrük bəyannaməsi təqdim edildikdən və gömrük nəzarəti qaydalarına uyğun olduqdan sonra gömrük

sərhədindən keçirilməsinə icazə verilir. Gömrük sərhədindən boru kəməri vasitəsi ilə keçirilən malların miqdarı, keyfiyyəti və digər xüsusiyyətləri müvafiq sənədlərdə olan məlumatlar və ölçü cihazlarının göstəriciləri üzrə aparılan qeydlər əsasında gömrük orqanları tərəfindən müəyyən edilir.

Xarici iqtisadi fəaliyyətdə mövcud vəziyyət gömrük statistikası məlumatları ilə aşkarlanır. Bu mənada, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 may tarixli 92 nömrəli qərarı ilə təsdiq edilən *"Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası"*nın təsdiq edilməsi haqqında Qərarı mühüm elmi-metodiki və praktik əhəmiyyəti vardır. Bu Qaydalar xarici ticarətin gömrük statistikasının nəşr olunması qaydasını müəyyən edir və digər ölkələrlə ticarət-iqtisadi münasibətlərinin vəziyyətini xarakterizə etməklə, aşağıdakı məsələlərin həyata keçirilməsi məqsədini daşıyır: xarici ticarət axınının əsas tendensiyasının, strukturunun və dinamikasının təhlili; xarici iqtisadi fəaliyyətin tənzimlənməsində tarif və qeyri-tarif tədbirlərinin tətbiq edilməsinin nəticələrinin təhlili; xarici ticarət siyasəti və xarici ticarətin dövlət tənzimləməsi sahəsində qərarların qəbul olunması üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin XTGS ilə təmin edilməsi; gömrük ödənişlərinin dövlət büdcəsinə daxil olmasına nəzarətin həyata keçirilməsi; makroiqtisadi göstəricilərin proqnozlaşdırılması; miqdar, dəyər və orta qiymət indekslərinin hesablanması; xarici iqtisadi-ticarət fəaliyyətin inkişafına və genişləndirilməsinə yardım edilməsi; dövlətin həyata keçirdiyi xarici iqtisadi siyasət tədbirlərindən irəli gələn digər məsələlər.

2012-ci ildə Azərbaycanda qeydiyyatda olan hüquqi və fiziki şəxslər dünyanın 155 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları aparmışlar. Xarici ticarət dövriyyəsi statistik məlumatlara əsasən 43813,2 milyon ABŞ dollar təşkil etmiş, onun 9652,9 milyon dollar idxalın, 34160,3 milyon dollar ixracın payına düşmüş, 24507,4 milyon dollarlıq müsbət saldo

yaranmışdır. Qeyri-neft məhsullarının ixracı 1673,6 milyon dollar dəyərində olmuş və 2011-ci ilin səviyyəsini 8,4 faiz üstələmişdir. Xarici ticarət əməliyyatlarının çox hissəsi (64,7 faizi) İtaliya, Rusiya, Amerika Birləşmiş Ştatları, Türkiyə, Fransa, Hindistan, İndoneziya, Almaniya və İsrail dövlətləri ilə aparılmışdır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən verilən məlumata əsasən, 2013-cü ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin həcmi 34687,92 mln., o cümlədən idxalın həcmi 10712,50 mln. ABŞ dolları, ixracın həcmi isə 23975,42 mln. ABŞ dolları təşkil etmişdir. Bu dövr ərzində Azərbaycan Respublikası 149 ölkə ilə ticarət sahəsində qarşılıqlı əməkdaşlıq etmiş və xarici ticarət saldosu müsbət 13262,92 mln. ABŞ dolları olmuşdur [151].

Xarici ticarətin liberallaşdırılması, idxal-ixrac əməliyyatlarına tam sərbəstlik verilməsi ölkə iqtisadiyyatında müsbət dəyişikliklərin əsasını qoydu. Bu strateji xətt xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tariflərinin formalaşması və tətbiqində mühüm rol oynadı.

2014-cü ilin yekunlarına əsasən, xarici iqtisadi fəaliyyət iştirakçılarının ümumi sayı 6372, o cümlədən fiziki şəxslər üzrə 2645, hüquqi şəxslər üzrə 3727-ə çatdı. Ölkəmiz 150 ölkə ilə iqtisadi əlaqələr aparırdı. Bir il ərzində neft və neft məhsulları, təbii qaz və elektrik enerjisinin ixrac göstəriciləri gömrük bəyannamələrinə əsasən aşağıdakı həcmdə olmuşdur: xam neft - 23611888.95 ton (dəyəri – 18404936.62 min ABŞ dolları), neft məhsulları – 2105061.51 ton (dəyəri 1365020.84 ABŞ dolları), təbii qaz – 1825686.76 min m$^3$ (dəyəri 304684.00 min ABŞ dolları), elektrik enerjisi – 588316.58 min Kvt/s (dəyəri 31261.38 min ABŞ dolları). Ticarət əməliyyatlarının həcmi 2013-cü il səviyyəsini 10,58 faiz ötərək 31016305.75 min ABŞ dolları oldu. İdxal əməliyyatları üzrə göstəricilər 2013-cü ilə nisbətən 14,22 faiz azalaraq 9187696.87 min ABŞ dollar, ixrac əməliyyatları üzrə 8,95 faiz azalaraq 21 828 608.88 min ABŞ dolları oldu. İdxal əməliyyatlarında Aİ ölkələri 33 faiz (3103587.67 ABŞ dolları), MDB ölkələri 23 faiz (2083187.82 min ABŞ dolları) və digər ölkələr qrupu tuturdu - 44 faiz (4000921.38 min ABŞ dolları) [152].

Azərbaycan Respublikasının xarici ticarət balansını optimal səviyyəyə qaldırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə müvafiq olar:

– istehsal təyinatlı məhsulların, yeni texnologiyaların idxalı artırılmalı, ixrac yönümlü sahələr üçün dövlətin stimullaşdırma tədbirləri daha da intensivləşdirilməlidir;

– idxal-ixrac əməliyyatlarında barter hesablaşmalarının xüsusi çəkisi azaldılmalı, valyuta ilə aparılan əməliyyatlara üstünlük verilməlidir;

– gömrük yük bəyannamələri tədiyyə balansının tərtibi şəffaf olmalı və beynəlxalq standartlara uyğunlaşdırılmalıdır;

– dövlətin yeritdiyi iqtisadi siyasətlə gömrük siyasəti vahid sistem şəklində uzlaşdırılmalıdır.

Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafı, beynəlxalq əmək bölgüsündə intensiv iştirakı iqtisadi əlaqələr yaratdığı ölkələrlə gömrük münasibətlərinin daha da təkmilləşdirilməsini tələb edir. Dövlətimiz xarici iqtisadi əlaqələrin idarə edilməsində mükəmməl sistem yaratmağa, gömrük işinin beynəlxalq standartlarla uzlaşmasına çalışır. Çünki dünya iqtisadiyyatının böhranlı şəraitində xarici ticarətin inkişafı səmərəli iqtisadi fəaliyyətin başlıca şərti olmaqla yanaşı, həm də mühüm meyarıdır. Qeyd edilməlidir ki, müasir qloballaşma şəraitində xarici iqtisadi əlaqələrin yüksək səviyyədə liberallaşdırılmasına birmənalı qiymət vermək olmaz. Fikrimizcə, idxal-ixrac əməliyyatların tənzimlənməsi ilk növbədə iqtisadi təhlükəsizliyin təmin edilməsinə və yerli mal istehsalçıları və istehlakçıların mənafeyinin qorunmasına yönəldilməlidir. Gömrük tənzimləmələri sistemindən istifadə etməklə ixrac mallarına gömrük tarif və rüsumları, qeyri-tarif məhdudiyyətləri tətbiq edilməli, malların texniki tələblərə, standartlara uyğunluq göstəriciləri yoxlanılmalıdır. Bütün hallarda, xüsusilə ərzaq məhsulları istehsalının bəzi sahələrində düşünülmüş proteksionist siyasətin mühüm əhəmiyyəti vardır. Xarici dövlətlərlə iqtisadi əlaqələrimizi genişləndirməkdə əsas vəzifələrindən biri də iqtisadi böhrandan çıxmaq üçün marağı olan partnyorlarla qarşılıqlı surətdə faydalı iş birliyinin yaradılması olmalıdır. Fəal və səmərəli xarici iqtisadi əlaqələrin həyata keçirilməsi üçün ölkəmizin kifayət qədər təbii-iqtisadi resurslara və hüquqi-normativ bazaya malikdir.

Beləliklə, yeni – XXI yüzilliyin başlanğıcında Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafı və daha da geniş xarakter alan xarici ticarət əlaqələri ölkədə sabit makroiqtisadi vəziyyəti təmin etməyə, xarici kapital və investisiya üçün əlverişli mühiti qoruyub saxlamağa, qeyri-neft

sektorunu inkişaf etdirməyə, milli valyutanın kursunu sabit saxlamağa və inflyasiyanı idarə etməyə, xarici borcların səviyyəsini nəzarətdə azaltmağa və neft gəlirlərindən asılılığı aradan qaldırmağa əlverişli imkanlar yaradır.

# IV FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK XİDMƏTİNİN HÜQUQ-MÜHAFİZƏ FƏALİYYƏTİ

## *4.1. Gömrük xidməti ölkənin iqtisadi təhlükəsizliyinin keşiyində*

Azərbaycan dövlətinin iqtisadi təhlükəsizliyi dedikdə, sözsüz ki, milli iqtisadiyyatın müstəqilliyin, onun sabit və dayanıqlı olması, işgüzar iqtisadi fəallığın təmin edilməsi ilə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması başa düşülür. Dövlətin xarici iqtisadi, o cümlədən də xarici ticarət və gömrük siyasəti iqtisadi təhlükəsizliyin təmin edilməsinə yönəldilmişdir. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyin əsas amillərindən biri enerji təhlükəsizliyinin təmin edilməsidir. Müasir qloballaşma şəraitində enerji təhlükəsizliyinin təminatında gömrük tənzimlənməsinin rolu danılmazdır. Qlobal enerji təhlükəsizliyi problemi 1990-cı illərin sonundan başlayaraq iqtisadi məsələlərlə məşğul olan bir sıra beynəlxalq təşkilatların əsas müzakirə obyekti olmaqdadır.

Xəzər dənizi regionu mövzusunda keçirilən müzakirələrdə Azərbaycan tərəfi fəallığı ilə seçilir. Xəzər dənizinin müxtəlif yataqlarında neft və qazın kəşfiyyatı, hasilatı, emalı və nəqli ilə ölkənin milli operatoru ilə yanaşı, “BP”, “Statoyl” və onlarla digər xarici neft şirkətləri ilə parlament səviyyəsində təsdiqini tapmış sazişlər imzalandı. Lakin enerji təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş enerji siyasətinin əsas məqsədi hasil edilən neft və qazın dünya bazarına çıxarılması idi. Neft və qazın boru kəmərləri vasitəsilə nəql edilməsi nəinki regional, həm də dünya səviyyəsində enerji təhlükəsizliyinin təmin edilməsi və risklərin azaldılmasında mühüm rol oynayır. Fövqəladə vəziyyətlərdə boru kəmərlərinin fəaliyyətinə təhlükə yarandığı zaman operativ reaksiyanın göstərilməsi vacib şərtlərdən

biridir. Azərbaycanda bu problemin həlli məqsədi ilə müvafiq Dövlət Komissiyası yaradılmış və onun işində DGK-nın da iştirakı nəzərdə tutulmuşdur.

Göründüyü kimi, xarici iqtisadi əlaqələrin gömrük tənzimlənməsi vasitələri enerji təhlükəsizliyinin təminatında çox böyük rol oynayır və bu sahədə aparılan işlərin əlaqələndirilməsində gömrük xidməti ilə əməkdaşlıq zəruri sayılmalıdır. Hələ 2006-cı il noyabrın 28-30-da Cenevrədə BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən keçirilən Dayanıqlı Energetika Komitəsinin 15-ci sessiyasında Azərbaycan Respublikası DGK-nin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin məruzəsində Azərbaycan dövlətinin gömrük siyasətində enerji təhlükəsizliyi məsələlərinə və ixrac potensialının artırılmasını stimullaşdıran meyarlara üstünlük verilməsi qeyd olunmuşdu. Bu amil nəzərə alınaraq investisiya layihələri üzrə neft-qaz və enerji sahələrini stimullaşdıran mallara və əmlaka gömrük tariflərinin sıfır dərəcəsi tətbiq olunur. Azərbaycanda karbohidrogen və elektrik enerjisi sahələrində gömrük rəsmiləşdirilməsinin aparılması və nəzarət edilməsi məqsədi ilə xüsusi gömrük idarələri yaradılmış, həmçinin boru kəmərləri və elektrik xətləri vasitəsilə ötürülən enerji daşıyıcılarının rəsmiləşdirilməsi üçün xüsusi qaydalar hazırlanmışdır.

XXI yüzillik bir tərəfdən tərəqqi və inkişaf, digər tərəfdən iqtisadi böhran və sosial kataklizmlər dövrü olmaqla yanaşı, həm də insan cəmiyyətinin mənəvi, demokratik və iqtisadi dəyərlərinə sarsıdıcı zərbə vuran narkomaniya və narkobiznes təhlükəsinin artması dövrü kimi səciyyələnir. Narkotik maddələrin satışından qazanılmış külli miqdarda "çirkli" pullar çoxlu sayda ekstremist və terrorçu təşkilatlar, o cümlədən PKK, ASALA, İRA, ETA, "Qırmızı briqada" və s. gizli fəaliyyət göstərən qruplar tərəfindən terror, təxribat xarakterli əməliyyatların həyata keçirilməsi və silah alınmasına sərf edilir. Hesablamaya görə, təkcə 2001-ci ildə dünya üzrə narkobiznesdən daxil olan gəlirin həcmi 400 mlrd. ABŞ dollarını ötüb keçmiş və bu rəqəm artmaqda davam edir. Azərbaycanın coğrafi mövqeyi, geniş quru, dəniz, dəmir yolu və hava nəqliyyatı şəbəkəsinə malik olması narkotik vasitələrin Asiya ölkələrindən ərazimizə gətirilməsi və buradan ötürücü məntəqə kimi istifadə olunmaqla Avropa ölkələrinə aparılması, əks istiqamətdə isə prekursorların qanunsuz daşınması ehtimalını xeyli artırır. Azərbaycan dövlətinin "ağ ölüm"ə qarşı qlobal mübarizədə Azərbaycan

dövlətinin hüquq-mühafizə qurumları, o cümlədən MTN, DİN, Dövlət Sərhəd Xidməti, prokurorluq və məhkəmə orqanları ilə yanaşı Dövlət Gömrük Komitəsi də fəal iştirak edir [86, 5-6].

Elmi ədəbiyyatda qaçaqmalçılıq termininin bir neçə mənası göstərilir: 1) əmtəələrin (məhsulların), valyuta sərvətlərinin və digər əşyaların dövlət sərhədindən qeyri-qanuni, yəni gömrük qanunvericiliyinin tələblərini pozmaqla keçirilməsidir; 2) dövlət sərhədindən gizli yolla aparılmış və ya keçirilmiş əmtəədir (məhsuldur). Bundan əlavə, şəxsi istehlak normasından artıq xarici malların saxlanması, həmin mallarla alver etmək də qaçaqmalçılıq hesab edilir. Qaçaqmalçılığa, onun bütün növlərinə, o cümlədən narkotik maddələrin qanunsuz daşınmasına qarşı mübarizə gömrük işi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın prioritet istiqamətlərindən birini təşkil edir. Elmi ədəbiyyatda narkotiklərə mübarizənin nəticələrinin və müasir narkosituasiyanın hüquqi-kriminoloji və sosioloji aspektlərdən təhlili göstərir ki, narkotiklərin qanunsuz daşınmasına qarşı dövlət qurumlarının topladığı təcrübə hərtərəfli öyrənilməli, daha səmərəli əməkdaşlığın perspektivləri axtarılmalıdır [95, 1-2].

Ümummilli lider Heydər Əliyev 1997-ci il yanvarın 30-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramına həsr edilmiş təntənəli yığıncaqdakı nitqində gömrük əməkdaşlarına müraciətlə deyirdi: *"xarici ölkələrdən gizli yolla, yəni sərhədlərdən, gömrük məntəqələrindən keçən qaçaqmalçılıqla, ümumiyyətlə qaçaqmalçılıqla mübarizə aparmaq lazımdır. Qaçaqmalçılıqla mübarizə gömrük təşkilatının əsas vəzifəsidir... Qaçaqmalçılıq adi bir cinayət deyil. O, Azərbaycanın müstəqilliyinə iqtisadi cəhətdən zərbə vuran hallardan biridir. Ancaq qaçaqmalçılıq yolu ilə gömrük rüsumundan gizlətmək üçün mal keçirir, yaxud valyuta keçirirlər. amma bir də var ki, qaçaqmalçılıq yolu ilə narkotik maddələr keçirir, silah keçirir və cinayət məqsədilə istifadə olunması üçün başqa ləvazimatlar keçirirlər. Siz bu sahədə çox cavabdehsiniz.*

*Şübhəsiz bizim Sərhəd Qoşunları ilə birlikdə, başqa hüquq mühafizə orqanları ilə birlikdə. Ancaq bütün malların keçirilməsinə birbaşa nəzarət edən orqan, bütün başqa orqanlardan fərqli olaraq, gömrük orqanlarıdır, gömrük xidmətidir. Ona görə də bunu birinci növbədə biz sizdən tələb edirik"* [57, 355].

Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə ölkəmiz beynəlxalq birliyin bütün səylərini dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının beynəlxalq terrorizmə qarşı mübarizəyə səsləyən 1373 (2001) saylı Qətnaməsində müvafiq olaraq Respublika Hökumətinin təqdim etdiyi "2001-2002-ci illərdə Azərbaycan Respublikasında beynəlxalq terrorizmlə mübarizənin nəticələri" haqqında sənəddə beynəlxalq hüququn subyekti kimi Azərbaycan dövlətinin beynəlxalq sahədə cinayətkarlığın ən təhlükəli təzahürü olan narkotiklərin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı qlobal mübarizədə öhdəliyin yüksək səviyyədə həyata keçirilməsi barədə hesabat verilmişdi. Sənəddə göstərilirdi ki, Azərbaycan bu məqsədlə bir sıra beynəlxalq müqavilə və konvensiyalara: BMT-nin 1961-ci il tarixli *"Narkotik vasitələr haqqında"* Vahid Konvensiyasına (1 dekabr 1998-ci ildən), 1971-ci il tarixli *"Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında"* Konvensiyasına (28 oktyabr 1992-ci ildən) qoşulub [112, 2010, 9 fevral].

Azərbaycan dövləti BMT-nin müvafiq konvensiyalarına müvafiq olaraq, qısa müddət ərzində bu sahədə beynəlxalq standartlara uyğun normativ-hüquqi baza yaradılması, beynəlxalq təcrübənin mənimsənilməsi və tətbiq edilməsi ilə bağlı işlər həyata keçirildi. Azərbaycan Respublikası Prezidentinin *"Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında"* 1996-cı il 26 avqust tarixli Fərmanında ayrı-ayrı nazirliklər qarşısında duran vəzifələr müəyyənləşdirildi. Bu məsələ ilə bağlı yaradılan xüsusi komissiyaya rəhbərlik Gömrük Komitəsinin sədrinə tapşırıldı. Azərbaycan Respublikası Milli Məclisinin təsdiq etdiyi *"Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə haqqında"* 1999-cu il 18 iyun tarixli Qanunu qəbul edildi. Bu məqsədlə yaradılan Dövlət komissiyasında narkotiklərlə bağlı vəziyyət hüquq-mühafizə orqanlarının iştirakı ilə geniş müzakirə və təhlil olunurdu [116, 1996, 27 avqust; 117, 1999, 15 avqust].

1997-ci ildən başlayaraq, BMT-nin *"Cənubi Qafqazda Narkotiklərə Nəzarət"* adlı regional yardım Proqramı (SCAD) çərçivəsində həyata keçirilən tədbirlər gömrük əməkdaşlarının bu sahə üzrə peşəkarlıq və ixtisas səviyyəsinin yüksəldilməsinə, maddi-texniki resursların gücləndirilməsi istiqamətində layihələrin həyata keçirilməsinə təkan verdi. Azərbaycan gömrükçüləri həmin mərhələdə 140 min ABŞ dolları həcmində yeni cihaz

və texniki avadanlıqlar aldı. Gömrük əməkdaşlarının texniki nəzarət cihazlarından düzgün istifadə etmələri üçün kurslar təşkil edildi [70, 2005, №11, 53, 70].

Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə istiqamətində görülən tədbirlər nəticəsində gömrük orqanları tərəfindən 1997-ci ilin 12 ayı ərzində 2050-dən artıq hüquqpozma faktı aşkar edilmişdi. Bunların 234-ü cinayət xarakterli olmuşdu. Bu müddət ərzində gömrük orqanları tərəfindən aşkar edilmiş faktlarla əlaqədar tutulmuş, müsadirə edilmiş mal və əşyaların dəyəri, habelə alınmış cərimənin ümumi məbləği 1.5 milyard manatdan artıq olmuş, 1,5 milyondan artıq ABŞ dolları, 169 milyondan artıq Azərbaycan manatı, 122 milyondan artıq Rusiya rublu, 5130 Alman markası, 630 kiloqramdan artıq qara kürü, 189 ədəd mədəni sərvət olan xalça və xalça məmulatı və eləcə də digər malların respublikadan qanunsuz çıxarılmasının qarşısı alınmışdı. Belə ki, 21 yanvar 1997-ci ildə Bakı-Dubay reysi ilə uçan təyyarələr saxlanılmış və təyyarəyə təkrar gömrük nəzarəti zamanı təyyarəyə ümumi çəkisi 240 kq-dan artıq olan qara kürünün yüklənməsi aşkar edilmişdi. 1997-ci il 18 mart tarixində Bakı-Dubay reysi ilə uçan vətəndaş Abdulla Zair Məhəmməddən 869550 ABŞ dolları, 2 iyul 1997-ci il tarixdə isə vətəndaş Qoh Poup Cu Pohupdan 200 min ABŞ dollarının, Balakən rayonu Meşə Şanbul kənd sakinləri Murtuzov Ramazan Muxtar oğlu və Əsliyev Ömər Abdulla oğlu tərəfindən ”QAZ -53” markalı 06-01 AQM dövlət nömrə nişanlı avtomaşınla Gürcüstan Respublikası ərazisinə qeyri-qanuni yolla bir ton tütün məhsulunun çıxarılmasının qarşısı alınmışdı. Bununla bərabər, saxta valyuta dövriyyəsi ilə bağlı qanun pozuntularının da qarşısı alınmışdı. Belə ki, Astara gömrükxanasında şəxsi yoxlama zamanı İran vətəndaşı Qadir Məstənabadinin pencəyinin astarından 8800 saxta ABŞ dolları, Binə hava limanında Bakı-İstanbul-Frankfurt reysi ilə uçan Türkiyə vətəndaşı Aydın Dərviş Şeneldən Binə gömrük idarəsi və polis əməkdaşlarının birgə keçirdiyi tədbirlər nəticəsində şəxsi yoxlama zamanı üstündə gömrük nəzarətindən gizli yolla keçirmək istədiyi 90.000 saxta ABŞ dolları aşkar edilmişdi. 1997-ci ildə narkotik vasitələri qaçaqmalçılığına aid 24 fakt aşkar edilmiş, bu faktlar üzrə 4 kq-a yaxın narkotik vasitə tutulmuşdu. Eyni zamanda 4 fakt üzrə 11 tondan artıq çətənə kolu və 29,6 kq çətənə toxumu aşkar edilərək məhv edilmişdi.

29 sentyabr 1997-ci ildə Bakı-Brest reysinə minik zamanı Azərbaycan vətəndaşı Müşfiq Aftandil oğlu Kərimov gömrük nəzarətindən kənar yolla 1 saylı xidməti keçiddən Binə hava limanın ərazisinə daxil olduqda sonra Bakı-Brest təyyarəsinin yanında Sərhəd Qoşunları və Binə Gömrük İdarəsini əməkdaşları tərəfindən şübhəli şəxs kimi saxlanılmış və şəxsi yoxlama zamanı vətəndaşın üst paltarının cibindən 198975 ABŞ dolları, Beynəlxalq sektorun polis əməkdaşları ilə birlikdə keçirilən tədbirlər nəticəsində 3 yanvar 1997-ci ildə Bakı-Təbriz reysi ilə uçan vətəndaş Məhəmməd Əli Salehdən 21523 ABŞ dolları, 13 mart 1997-ci ildə Bakı-İstanbul reysi ilə uçan vətəndaş Aytən Günaydan 20000 ABŞ dolları aşkar edilmişdi. 1997-ci ilin yanvar ayının 18-dən 19-na keçə gecə Azərbaycan Respublikası Hərbi Prokurorluğu ilə keçirilən birgə tədbirlər nəticəsində Türkiyənin "ÇENEL" firmasına məxsus, Bakı-İstanbul istiqamətində hərəkət edən 34 VF 687 nömrəli avtobus "Sınıq körpü" gömrük məntəqəsində saxlanılmış və onu içərisində gizlədilmiş 230 kiloqramdan artıq qara kürü aşkar edilmişdi. Tədbirlər planına müvafiq olaraq noyabr-dekabr aylarında Bakı şəhəri ərazisində DİN DYP əməkdaşları ilə birgə keçirilən reydlər nəticəsində fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasına gətirilmiş, lakin gömrük nəzarətində müvafiq qaydada qeydiyyata alınmayan xarici dövlət nömrə nişanlı 100-dən artıq nəqliyyat vasitəsi aşkar edilmiş və nəticədə 50000 ABŞ dollarından artıq vəsait dövlət büdcəsinə köçürülmüşdü [108, 1998, №2].

Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli Fərmanına əsasən *"2000-2006-cı ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizə"* üzrə Ümummilli Proqramın həyata keçirilməsinə başlanıldı [118,2000, 29 iyul].

2001-ci ildə Respublika Prezidentinin 2000-ci ilin 15 iyul tarixli müvafiq Fərmanı ilə təsdiq edilmiş *"Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"*ın icrasını təmin etmək məqsədilə kinoloji xidmətin təchizatı, kadrlarla komplektləşdirilməsi başa çatdırılmış, gündəlik işdə tətbiq edilən xidməti itlərin normal fəaliyyəti və təlimi üçün əlverişli şərait yaradılmışdı. Azərbaycan Respublikasında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət

Komissiyasının işçi qrupu ilə birgə konkret tədbirlər görülmüş, Komitə əməkdaşları bir sıra beynəlxalq tədbirlərdə iştirak etmişdi. Gömrük orqanları tərəfindən aşkar edilmiş 2645 gömrük qaydaları əleyhinə inzibati xəta faktları törətmiş şəxslərə 230 milyondan artıq cərimə tətbiq edilməklə 100 milyon manat dəyərində qaçaq mallar müsadirə edilmişdi. Nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı həyata keçirilən "Avtomobil-1", "Avtomobil-3" əməliyyatlarında Tovuz, Gəncə, və Xaçmaz gömrükxanalarının fəaliyyət zonasında gömrük rəsmiləşdirilməsindən gizlədilmiş 211 avtomaşın aşkar olunmuşdu. Bakı Baş Gömrük İdarəsi, Sumqayıt və Tovuz gömrükxanaları üzrə daimi yaşayış yerinə gələnlərin adına rəsmiləşdirilən 300-dən çox avtonəqliyyat vasitəsilə əlaqədar araşdırma aparılmış, həmin fakt üzrə 210 min ABŞ dollarından çox gömrük ödənişlərinin ödənilməsi təmin edilmişdi [69, 2002, 18 aprel].

Statistik məlumatlar göstərir ki, narkotiklər adətən kiçik həcmlərdə nəql edilsə də, onun aşkar edilməsi gömrük nəzarətinə çətinlik yarada bilmir. Məsələn, 1996-1999-cu illərdə gömrük orqanları tərəfindən narkotik vasitələr 110 halda Azərbaycan Respublikasına daşınarkən, 64 halda isə ölkədən daşınarkən tutulub saxlanılmışdı. 42 nəfər Azərbaycan vətəndaşı, 105 nəfər isə xarici ölkə vətəndaşları hüquqi məsuliyyətə cəlb edilmişdi. Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməliyyat məlumatında göstərilirdi ki, 2003-cü ilin dekabr ayında 6622 saylı Bakı-London aviareysinin sərnişini, İngiltərə vətəndaşı Vord Endryu Cona gömrük baxışı zamanı gizli yolla aparmaq istədiyi 4,50 qram həşiş, respublikamızın ərazisində dövriyyəsi qadağan edilmiş narkotik maddələrin 3-cü siyahısına daxil edilən 12 ədəd "Diazepam" ampulaları və 27 ədəd "Codeine" həbi aşkar edilərək götürülmüşdü.

Azərbaycan gömrükçülərinin sayıqlığı sayəsində 2000-ci ildə "Bərə keçidi" gömrük postunda Əfqanıstandan Hindistana göndərilən və ümumi çəkisi 48 ton 600 kq xaş-xaş toxumu saxlanılmış, xarici ölkə səfirlikləri, beynəlxalq təşkilatlar və mətbuat nümayəndələrinin müşahidəsi ilə məhv edilmişdi. Respublikanın bütün ərazisində müntəzəm olaraq keçirilən "Xaş-xaş" adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlərdə gömrük xidməti fəal iştirak edirdi. Təkcə 1999-2004-cü illərdə gömrük əməliyyatları zamanı sərhədyanı rayonlarda 222 tondan artıq çətənə kolu və xaş-xaş kolu aşkar edilərək məhv edilmişdi. Gündəlik gömrük nəzarəti prosesində DGK-

nın nəzdində fəaliyyət göstərən Kinoloji Xidmət Mərkəzi mühüm rol oynayırdı [70, 2005, №1, 28].

2003-cü il dekabrın 3-4-də Bakıda *"Narkotiklərə nəzarət üzrə regional əməkdaşlığa dair Anlaşma Memorandumu"*nun üzvü olan dövlətlərin 5-ci görüşü keçirildi. Beynəlxalq tədbirdə BMT Baş katibinin müavini, təşkilatın Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Antonio Mariya Kostanın məruzəsində gömrük xidməti orqanlarının fəaliyyətinin nəticələri təhlil edilmişdi.

Gömrük orqanlarında Kinoloji xidmətin yaradılması ilə əlaqədar DGK rəhbərliyinin göstərişi əsasında "Kinoloji şöbə" haqqında Əsasnamə hazırlanmış, xidməti itlərin saxlanılması üçün yerlərin hazırlanması, təlim məşqlərinin keçirilməsi məsələləri həll edilmişdi. Yerli gömrük orqanları tərəfindən hüquqpozmalara qarşı mübarizə işinin təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikası gömrük orqanlarında gömrük qaydalarının pozulması haqqında işlərin uçotu və qeydiyyatı qaydaları barədə Əsasnamə", "Gömrük qaydalarının pozulması haqqında işlərin icraatı və onlara baxılmanın bəzi məsələləri haqqında" metodik məktub, "Şəxsi yoxlama aparılması haqqında Protokol" forması hazırlanmışdı. Bununla yanaşı, "Tənbehetmə haqqında akt" və onun tətbiqinə dair metodiki tövsiyə, "Qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizə üzrə bölmələr haqqında Əsasnamə", "Narkotik vasitələri və psixotrop maddələrin təsnifatı, kimyəvi tərkibləri, sintezi və ilkin təyinetmə metodları haqqında" xidməti istifadə üçün təlimatlar hazırlanmışdı. Bakı Baş Gömrük İdarəsi, Tovuz, Astara, Biləsuvar, Binə, Bala, Xaçmaz, Əli Bayramlı, Yevlax, Gəncə, Sumqayıt, Culfa, Sədərək və digər gömrükxanaların fəaliyyət zonalarında əməliyyat tədbirləri keçirilərək hüquqpozmaların aşkar edilməsi, onları törədən səbəblərin, o cümlədən rüsumdan yayınma hallarının aradan qaldırılması istiqamətində profilaktik tədbirlər aparılmışdı. Aparılan təhqiqat işləri ilə bağlı yerli gömrük orqanlarının əməkdaşlarına metodiki və əməli köməklik göstərilmişdi. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı keçirilmiş profilaktik tədbirlər nəticəsində yüz milyonlarla manat dəyərində olan gömrük ödənişlərinin dövlət büdcəsinə keçirilməsi təmin edilmişdi.

2002-ci il iyunun 18-də SCAD proqramı çərçivəsində Bakı beynəlxalq Dəniz Limanının mühafizəsi ilə bağlı Avropa Birliyinin tövsiyəsi əsasında

tenderin qalibi olmuş AREMPA-LTD şirkətindən müasir nəzarət endoskopik cihazına malik laboratoriya Azərbaycan gömrükçülərinin istifadəsinə verildi [69, 2003, 5 dekabr].

2002-ci il yanvar ayının 3-da ÜGT Baş Katibi Mişel Dane və DGK-nın sədri Kəmaləddin Heydərov "Azərbaycan Respublikasının Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzinin təsis edilməsi haqqında" anlaşma memorandumu imzaladılar. Tədris Mərkəzində regional tədris, texniki yardıma dair görüşlərin və gömrük işi ilə bağlı müxtəlif tədbirlərin keçiriləcəyi, DGK-nın onun sahibi və istifadəçisi olacağı özünün milli və beynəlxalq proqramlar üçün də istifadə edəcəyi nəzərə alınmışdı.

Dünya Gömrük Təşkilatının 2003-cü ilin oktyabrında Bakıda istifadəyə verilən Regional Tədris Mərkəzi nəinki Azərbaycan, eləcə də regionun gömrük əməkdaşlarının ixtisas səviyyəsinin yüksəldilməsi, narkotiklərə və qaçaqmalçılığın digər növlərinə qarşı mübarizə sahəsində nəzəri və təcrübi biliklərinin artırılmasında mühüm yer tutur. Mərkəzdə müntəzəm olaraq SCAD proqramı çərçivəsində təcrübəli mütəxəssislərin "Qara dəniz və Xəzər dənizi bölgələrində dəniz limanlarının informasiya mübadiləsinin hüquqi mümkünlüyünün müəyyən edilməsi və narkotiklərin qanunsuz dövriyyəsi, qaçaqmalçılığın qarşısının alınması ilə mübarizədə əməkdaşlığın gücləndirilməsi" mövzusunda treninq və seminarları keçirilir.

Narkotiklərə qarşı mübarizədə bütün dövlətlərin müvafiq qurumlarının səfərbər olmasını, səylərinin birləşdirilməsini tələb edir. Respublikamızın BMT, Avropa Birliyi, İƏT, TRASEKA və DGT kimi beynəlxalq təşkilatlar, eyni zamanda MDB və GUAM üzv dövlətləri çərçivəsində və dünyanın bir çox gömrük təşkilatları ilə bağladığı çoxtərəfli və ikitərəfli müqavilə, saziş və memorandumlar beynəlxalq təcrübədən və qabaqcıl texnologiyalardan faydalanmağa imkan verir. Bu mənada, Azərbaycan, Türkiyə və Gürcüstan arasında imzalanmış üçtərəfli Trabzon sazişi (2002-ci il), ABŞ, Almaniya, Birləşmiş Krallıq, Misir və bir sıra Fars körfəzi ölkələrinin gömrük təşkilatları ilə bağlanan ikitərəfli sazişlər narkotik vasitələrin qanunsuz nəqlinə qarşı birgə tədbirlərin aparılmasını nəzərdə tuturdu. Polşa və İtaliya ilə gömrük işi sahəsində imzalanan sazişlərdə (mart, 2005-ci il) gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi, hüquqpozmalara, habelə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı ardıcıl mübarizənin aparılması istiqa-

mətində qarşılıqlı hüquqi və inzibati yardım göstərilməsi kimi prinsiplər əsas götürüldü.

SCAD proqramı digər hüquq-mühafizə orqanları ilə bərabər, gömrük xidməti ilə sıx əməkdaşlıq edirdi. Bu istiqamətdə Bakı dəniz limanında və Heydər Əliyev adına Beynəlxalq Hava limanında hüquq-mühafizə orqanlarının fəaliyyətini əlaqələndirən xüsusi bölmələr yaradıldı. Gömrük məntəqələri zəruri texniki, metodoloji və treninq yardımları almışdı. SCAD proqramının 2005-ci ildən başlayan 4-cü layihəsinə hüquqi yardım, hava və dəniz limanlarında, sərhəd ərazilərində narkotiklərə nəzarət, axtarış sistemi, narkotiklərdən istifadənin monitorinq sistemi, orta və ali məktəblərdə maarifləndirmə səviyyəsinin yüksəldilməsi kimi mini layihələr daxil edilmişdi. 4-cü mərhələ uğurla həyata keçirildi və 2006-cı ildə tam başa çatdırıldı.

Azərbaycan dövləti narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edir və beynəlxalq təşkilatların bu sahədə bütün səylərini dəstəkləyir. Lakin Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunması və bu ərazidə işğalçı rejimin mövcudluğu transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa, silah alverinə rəvac verir, beynəlxalq terrorçuluq üçün münbit zəmin yaratmaqla hər bir dövlətin təhlükəsizliyini təhdid edir. Ermənistan DGT-nin beynəlxalq tədbirlərində çox passiv iºtirak edən tərəf olmaqla bu təºkilatın heç bir rəhbər orqanına üzv seçilməmişdir. Bu faktlar üzdəniraq qonşumuzun təcavüzkar və terrorçu dövlət olduğunu bir daha sübut edir.

Gömrük axtarış-əməliyyat məlumatları və aşkar olunmuş faktların təhlili qaçaqmalçıların ən çox İran - Azərbaycan - Rusiya marşrutundan istifadəyə cəhd göstərdiklərini təsdiq edir.

2005-ci ilin noyabr ayında Sankt-Peterburqda keçirilən beynəlxalq elmi-praktik konfransda MDB Parlamentlərarası Assambleyasının mənzil qərargahında "MDB ərazisində narkotəcavüzə qarşı fəaliyyətin qanunvericilik təminatı: harmonikləşdirmə məsələləri", "MDB iştirakçı dövlətlərinin xüsusi xidmət və hüquq-mühafizə orqanlarının birgə antinarkotik və antiterror tədbirlərində qarşılıqlı fəaliyyəti" və "Əfqanıstandan Avropaya narkotrafik təhlükəsi" mövzuları ətrafında geniş müzakirələr aparılmış, gömrük orqanlarının bu sahədə birgə əməkdaşlığının genişləndirilməsi qərara alınmışdı.

Narkotik vasitələrin və prekursorların qanunsuz dövriyyəsi ilə bağlı informasiyanın toplanması və təhlilinin aparılması, bu sahədə strategiya və taktikanın müəyyənləşdirilməsi, elmi-tədqiqat və informasiya-analitik fəaliyyətin gücləndirilməsi gömrük işində mühüm istiqamətlərdən birini təşkil edirdi. 1994-2004-cü illərdə gömrükçülər tərəfindən saxlanılan 244 nəfərin daşıdıqları narkotik maddələrin strukturu və miqdarının dinamikası, həmçinin daşıyıcıların milli və cinsi tərkibinin təhlili aparılmış və aşkar edilmişdi ki, bu faktla əlaqədar saxlanılanların 122 nəfəri (50 faizi) Azərbaycan Respublikası, 94 nəfəri (38 faizi) İran, 9 nəfəri Rusiya Federasiyası, 5 nəfəri Gürcüstan, qalanları İngiltərə, Mərakeş və Özbəkistan vətəndaşları idi. Qeyd edilən cinayət faktlarına görə gömrük məntəqələrində saxlanılanlardan 11 nəfərini (0,5 faiz) qadın qaçaqmalçılar idi [70, 2004, №2, 71-72].

Narkotik vasitələrin qanunsuz dövriyyəsi bütün dünyanı ciddi narahat edən ümumbəşəri problemlərdən biri olmaqla dövlətin və cəmiyyətin mənafelərinə, mənəvi-əxlaqi dəyərlərə böyük zərbə vurur, sosial-iqtisadi inkişafa mənfi təsir göstərir, insanların həyat və sağlamlığına təhlükə yaradır, cinayətkarlığın artmasına və digər təhlükəli təzahürlərə səbəb olur. Azərbaycan Respublikasının əlverişli coğrafi mövqeyi, narkotiklərin "istehsalçısı" olan Asiya və "istehlakçısı" olan Avropa ölkələri arasında yerləşməsi, geniş quru, dəniz, hava və dəmir yolları şəbəkəsinə malik olması, Azərbaycanın dünyanın hər il orta hesabla 140-a yaxın ölkəsi ilə ticarət əlaqələrinin ilbəil genişlənməsi və respublikada uğurla həyata keçirilən çoxsaylı irimiqyaslı iqtisadi layihələr nəticəsində bu yollarla daşınan yüklərin həcminin, nəqliyyat vasitələrinin və sərnişinlərin sayının ildən-ilə çoxalması narkoqaçaqmalçıları da özünə cəlb edir və onlar bu nəqliyyat infrastrukturundan öz çirkin məqsədləri üçün bəhrələnməyə və ölkə ərazisindən narkotiklərin daşınmasında "ötürücü məntəqə" kimi istifadə etməyə cəhd göstərirlər [143].

Məhz bu amili nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Böyük İpək Yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda keçirilən beynəlxalq konfrans (Bakı, 21 yanvar, 2004-cü il) iştirakçılarına ünvanlanan məktubunda yazırdı: *"Coğrafi mövqeyindən, ictimai-iqtisadi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi ənənələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur*

*ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Məlumdur ki, narkomaniya və narkobiznes insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir"* [6, 2004, 22 yanvar].

Bütün dünyada, eləcə də Azərbaycanda narkotik şəraitə təsir edən əsas amillərdən biri də Əfqanıstan ərazisindəki gizli plantasiyalardır. BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin proqnozuna görə 2009-cu ildə bu ölkədə xaş-xaş əkininin miqyasının 22 faiz, qanunsuz narkotik istehsalının həcminin 10 faiz azaldığı barədə məlumatlara baxmayaraq 2009-cu ildə dünya üzrə tiryəkin 90 faizdən çoxunu istehsal etmiş Əfqanıstanda narkotik istehsalı 6900 ton təşkil etməklə ağır nəticələrə səbəb olmuş, digər ölkələrə də geniş yayılmasına zəmin yaratmışdır. Həmin İdarənin məlumatına görə, əvvəlki illərdə qanunsuz istehsal edilmiş tiryək ehtiyatlarının həcmi 10 min ton olmuşdu ki, bu 2 il ərzində bütün dünyada heroindən asılı olan narkomanların tələbatını ödəməyə kifayət edərdi. Qaçaqmalçıları şirnikləndirib bu işə sürükləyən əsas səbəb şübhəsiz ki, kriminal biznesin ən gəlirli növlərindən biri olan narkobiznesdən əldə edilən fantastik gəlirlərdir.

Ekspert rəylərinə görə, Əfqanıstanda 1 kiloqramı 2500 ABŞ dollarına əldə edilən heroin Avropa qara bazarında 200 min ABŞ dollarına reallaşdırılır. Bu gəlirlər isə sonradan terrorçuluğun maliyyələşdirilməsi, çirkli pulların yuyulması və digər cinayətkar fəaliyyət növləri üçün hərəkətverici qüvvəyə çevrilir. Narkotiklərin ölkə ərazisindən tranziti onların bir hissəsinin ölkədə "çöküb" qalmasına, narkotik istifadəçilərinin sayının çoxalmasına, narkomanlıqla bağlı cinayətlərin, xəstəliklərin və digər sosial bəlaların artmasına səbəb olur. Qeyd olunanlar narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin ümummilli-bəşəri vacibliyini və əhəmiyyətini aydın göstərir.

2007-ci ildən isə SCAD proqramının yeni, 5-ci mərhələsi üzrə nəzərdə tutulmuş layihələrin icrasına başlanıldı. Gömrük orqanlarının həyata keçirdiyi tədbirlər nəticəsində 2006-cı ildə 5326 hüquqpozma faktı aşkar edilmişdi, Bu faktlardan 181-i cinayət xarakterli faktlar olmuş, 185 nəfər, (123 nəfər Azərbaycan Respublikası, 62 nəfər xarici ölkə vətəndaşı) şübhəli şəxs qismində saxlanılmışdı. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə

əlaqədar 44 fakt aşkar edilmiş, 13 kq. 322,56 qram narkotik maddə tutulmuşdu. Gömrük qaydaları əleyhinə 5145 inzibati xəta faktları üzrə 877 hüquqi şəxs (o cümlədən, 234 xarici hüquqi şəxs) və 4268 fiziki şəxs (o cümlədən 673 xarici fiziki şəxs) məsuliyyətə cəlb edilmişdi. Bu faktlar üzrə 569747 manat cərimə tətbiq edilmiş və 467711 manat dəyərində mallar müsadirə edilmişdi. Təkcə 2006-cı ildə cinayət və inzibati xəta faktları üzrə 169,6 kq. qara kürü, 33,7 kq. qırmızı kürü, 3427 litr neft məhsulları, 16,5 kq Ermənistan istehsalı olan zərərli qəhvə, 13477 ədəd qadağan edilmiş dini kitab, 314890 ədəd pirotexnika, 265 ədəd bıçaq, 82 ədəd elektroşok, 12 ədəd əl qandalı, 1 ədəd ov tüfəngi, 2 ədəd qaz tapançası, 1185 ədəd müxtəlif patronlar, 50 ədəd optik nişangah və digər əşyalar tutulmuşdu. Qanunsuz keçirilməsinə cəhd edilən 9 mln. 431 min ədəd xaricdə istehsal edilmiş siqaret, 42 litr spirt, 1825 ədəd spirtli içki aşkar edilmişdi [92, 2006, №12 (33), 63-67].

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hüquq-mühafizə fəaliyyətinin əsas vəzifələrindən biri narkotik vasitələrin gömrük sərhədindən qanunsuz keçirilməsi, ölkə ərazisindən "ötürücü məntəqə" kimi istifadə edilməsinin qarşısını almaqdır. Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2007-ci il tarixli 2271 saylı Fərmanı ilə təsdiq edilmiş *"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər)"da* irəli sürülən vəzifələrin yerinə yetirilməsi məqsədi ilə gömrük orqanlarının maddi-texniki bazası və əməliyyat-axtarış fəaliyyətinin gücləndirilmiş, gömrük nəzarətinin beynəlxalq təcrübədə özünü doğrultmuş səmərəli metodların və riskin idarə olunması sisteminin tətbiqi istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdi. Gömrük orqanları müasir tələblərə cavab verən bina və qurğularla, texniki nəzarət vasitələri və monitorlarla, narkotestlər, endoskoplar, narkodetektorlar, nəqliyyat və rabitə vasitələri ilə, kompüterlər, habelə digər avadanlıqlarla təchiz edilmişdi. Gömrük buraxılış məntəqələrinə iri qabaritli yüklərə baxış keçirmək imkanı verən 4 ədəd mobil skaner alınmışdı.

Gömrük Komitəsinin, Avropa Birliyi və BMT İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin birgə həyata keçirdiyi "Azərbaycan Respublikası DGK-nın potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması", "Cənubi Qafqazda Narkotiklərə Nəzarət"

(SCAD) və digər layihələr üzrə kompüterlər dəsti, avadanlıqlar, avtomobillər, rabitə vasitələri və s. alınaraq bütün gömrük orqanlarının narkotiklərlə mübarizə üzrə operativ bölmələrinə paylanmış, gömrük orqanlarında hüquqpozmaların uçotu və nəzarəti sistemi yaradılmış, həmçinin tanınmış yerli və xarici mütəxəssislərin iştirak etdiyi treninqlər və seminarlar narkotiklərlə mübarizənin müxtəlif məsələlərinə həsr olunurdu.

Narkotik vasitələrin qaçaqmalçılığına qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsi və səmərəliliyinin artırılması məqsədi ilə digər dövlətlərin, xüsusilə də həmsərhəd dövlətlər olan Rusiya və Türkiyənin gömrük xidmətləri ilə qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsi aparılırdı. DGK əməkdaşları narkotik vasitələrin dövriyyəsi ilə bağlı normativ hüquqi bazanın hazırlanması və təkmilləşdirilməsi işində, Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komissiyasının formalaşdırdığı məhvetmə komissiyasının tərkibində respublika üzrə müsadirə edilmiş narkotik vasitələrin məhv edilməsi tədbirlərinin təşkilində, habelə Dövlət Komissiyasının İşçi qrupu ilə birlikdə yeniyetmə gənclərin və ictimaiyyətin geniş kütlələrinin narkomaniya və onun fəsadları barədə maarifləndirilməsi ilə bağlı "Gənclər narkotiklərə yox deyir" mövzusunda keçirilən elmi-praktik konfranslarda, Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM-ın narkotiklərin yayılması, terrorizm, mütəşəkkil cinayətkarlıq və digər təhlükəli növ cinayətlərlə mübarizə üzrə keçirilən tədbirlərində fəal iştirak edirdi. Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar edilmiş narkotik vasitələrin qanunsuz dövriyyəsi faktları haqqında aylıq məlumatların müntəzəm olaraq respublika üzrə ümumiləşdirilməsi və xidməti istifadə məqsədi ilə Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komissiyasının İşçi Qrupuna verilməsi təmin edilmişdi. Antinarkotik təbliğatın əsas mübarizə üsullarından biri olması nəzərə alınmaqla Komitənin "Gömrük xəbərləri" qəzeti və "Gömrükçü" jurnalında, xüsusi televiziya verilişlərində, internet səhifəsində maarifləndirmə xarakterli materiallar dərc olunurdu.

Dövlət Gömrük Komitəsi ümumbəşəri bəla olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın vacibliyini nəzərə alır. Əlbir fəaliyyət göstərilməsi üçün DGT, İnterpol, Avropa

Birliyi, MDB, İƏT, GUAM, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Cənubi Şərqi Avropada Əməkdaşlıq Təşəbbüsü Təşkilatı (SECİ) kimi mövcud beynəlxalq təşkilatlar, qurum və birliklərlə sıx əməkdaşlıq edilir. Bu istiqamətdə Rusiya, İran, Türkiyə, Qazaxıstan, Türkmənistan, Gürcüstan, Avstriya, ABŞ, Belçika, Bolqarıstan, Böyük Britaniya, Estoniya, Fransa, Litva, Livan, Moldova, Niderland, Özbəkistan, Pakistan, Qırğızıstan, Ukrayna, Yunanıstan, İtaliya, Çin, Polşa və digər dövlətlərin gömrük xidmətləri ilə ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər, memorandumlar, habelə işçi protokollar imzalanmış və birgə tədbirlər həyata keçirilir. Komitənin əməkdaşları BMT-nin İqtisadi və Sosial Şurasının Narkotik Vasitələr Üzrə Komitəsinin sessiyalarında, Asiya və Sakit Okean Regionu (HONLEA) ölkələrinin narkotiklərə qarşı mübarizə üzrə Milli hüquq-mühafizə agentliklərinin yığıncaqlarında, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məqsədilə yaradılmış Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzinin (MARİƏM) keçirdiyi tədbirlərdə yaxından iştirak edir. Dövlət Gömrük Komitəsinin əməkdaşları iştirak etdikləri bütün beynəlxalq tədbirlərdə Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonların nəzarətdən kənar ərazilərində narkotiklərin becərilməsi, istehsalı və digər ölkələrə ixrac edilməsi barədə məlumatları iştirakçıların diqqətinə çatdırır. MARİƏM tərəfindən göndərilmiş məlumat və icmallar gündəlik fəaliyyətdə istifadə üçün gömrük orqanlarına göndərilir.

Dünya Gömrük Təşkilatı tərəfindən 2008-ci il narkotik vasitələrə və psixotrop maddələrə qarşı mübarizə ili elan edildi. Bu təşəbbüsə qoşulan Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən görülmüş tədbirlər nəticəsində il ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 64 fakt üzrə 356 kq 338 qram narkotik, o cümlədən 68 kq 255 qram heroin, 62 kq 732 qram tiryək, 221 kq 406 qram həşiş, 3 kq 945 qram marixuana, 4202 ədəd psixotrop maddə (ampul, kapsul və həb şəklində) və 242 qram Metamfetamin maddəsi tutulmuşdu. Azərbaycan gömrük orqanlarının göstərdiyi səylər diqqətdən kənarda qalmamış, Dünya Gömrük Təşkilatının Baş Katibi K.Mikuria tərəfindən narkotiklərə qarşı mübarizədə fərqlənən 10 nəfər Azərbaycan gömrükçüsü müvafiq sertifikatlarla təltif olunmuşdu.

2009-cu il dekabrın 15-də Xaçmaz Gömrük İdarəsinin "Samur" gömrük postunda Rusiya Federasiyası və Azərbaycan Respublikası

həmsərhəd gömrük orqanlarının əməliyyat bölmələrinin rəhbərlərinin işçi görüşündə Rusiya və Azərbaycan həmsərhəd gömrük orqanları arasında mövcud sorğu-məlumat mübadiləsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq, iki dövlətin gömrük sərhədində əməliyyat şəraitinin xüsusiyyətləri, tərəflərin nümayəndələrinin Rusiya-Azərbaycan həmsərhəd gömrük orqanlarının hüquq-mühafizə sahəsində əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuş və görüşün nəticələrinə dair protokol imzalanmışdı. Baş İdarə tərəfindən Dünya Gömrük Təşkilatının Hüquq Mühafizə Şəbəkəsi (CEN) ilə və bu Təşkilatın Regional qurumu olan "RİLO-Moskva" ilə əməkdaşlıq gücləndirilmiş, Azərbaycan gömrük orqanları tərəfindən aşkar edilmiş qaçaqmalçılıq faktları ilə əlaqədar 2 istiqamətləndirmə CEN vasitəsilə nümunə kimi üzv ölkələrin gömrük xidmətlərinə göndərilmişdi [136, 16 yanvar 2010-cu il].

Bütün dünyada narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə işində özünü doğruldan vasitə kimi xidməti axtarış itlərinin tətbiqinin səmərəliliyi nəzərə alınır. Komitənin nəzdində ən müasir standartlara cavab verən və regionda analoqu olmayan, eyni zamanda 100 xidməti itin təlimi və baytarlıq müayinəsi üçün hər cür təlim ləvazimatları və tibbi texniki avadanlıqlarla təmin olunmuş Kinoloji Mərkəz yaradılıb. Kinoloji Mərkəzdəki 40-a yaxın xüsusi təlim görmüş xidməti itlər narkotik axtarışı üzrə gündəlik fəaliyyətdə tətbiq edilir. Bundan əlavə, Mərkəzdə yetişdirilmiş itlər Türkiyə, Bolqarıstan və Moldova gömrük xidmətləri tərəfindən də müvəffəqiyyətlə tətbiq olunur. 2009-cu ildən narkotiklərin axtarışı üzrə səmərəli vasitə kimi xidməti itlərinin yetişdirilməsində Kinoloji Mərkəzin imkanları genişləndirilir. Yaşı və xəstəlik səbəbindən iş qabiliyyətini itirmiş itlər yeniləri ilə əvəzlənir və damazlıq işləri aparılır, kinoloqlar üçün mütəmadi təlimlər keçirilir.

Gömrük statistikasına görə, təkcə 2005-2009-cu illər ərzində gömrük orqanları tərəfindən 285 fakt üzrə 972 kq 538 qram narkotik vasitə, habelə 201272 ədəd (ampul, kapsul və həb şəklində) psixotrop maddə qanunsuz dövriyyədən çıxarılmışdır. Narkotik vasitələrin 162 kq 076 qramı tiryək, 509 kq 843 qramı həşiş, 143 kq 119 qramı heroin, 157 kq 047 qramı marixuana olmuşdu. Qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələrin əsas hissəsini həşiş, tiryək və heroin təşkil edirdi.

2005-2009-cu illərdə narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 329 nəfər, o cümlədən 191 Azərbaycan, 86 İran, 12 Gürcüstan, 12 Rusiya, 7 Pakistan, 5 Nigeriya, Qana və digər Afrika ölkələri, 5 Türkiyə, 4 Özbəkistan, 1 Litva, 1 Kamboca vətəndaşı müvafiq məsuliyyətə cəlb olunub. Son illər qadınlardan narkokuryer qismində istifadə hallarının çoxalması müşahidə olunur. 5 ildə məsuliyyətə cəlb olunanların 46 nəfərini, başqa sözlə 14 faizə yaxınını qadınlar təşkil etmişdir. Təəssüf ki, narkotiklərin keçirilməsində uşaqlardan da istifadə hallarına təsadüf edilir. Qanunsuz dövriyyədən götürülmüş narkotiklərin içərisində "güclü təsirli" narkotik olan heroinin xüsusi çəkisinin artması ciddi narahatçılıq doğurur. 2005-ci illə müqayisədə qanunsuz dövriyyədən götürülən heroinin miqdarında dinamik artım müşahidə olunur. Əgər 2005-2006-cı illər ərzində cəmi 1487 qr heroin tutulmuşdusa, 2008-2009-cu illər ərzində bu rəqəm 130125 qram, yəni müqayisədə 87,5 dəfə artıq olmuşdu. Bu qədər heroinin törədə biləcəyi təhlükənin miqyasını təsəvvür çətin deyildir. Mütəxəssislərin rəyinə görə 1 kq heroindən 10000 "doza" alınır və 100 qr heroinlə 170 adamı narkotiklərdən asılı vəziyyətə salmaq mümkündür. Əvvəlki illərlə müqayisədə tutulan "ağır" narkotik sayılan tiryəkin və həşişin miqdarı da kəskin şəkildə artmış, əksinə marixuananın miqdarı 2005-ci ildəki 143,6 kiloqramdan 380 dəfə azalaraq 2009-cu ildə cəmi 377 qram təşkil etmişdi. Götürülmüş narkotik vasitələrin qanunsuz olaraq Azərbaycan Respublikası ərazisində istehsalı hallarına rast gəlinmir. Bununla yanaşı 2005-2009-cu illər ərzində gömrük orqanları əməkdaşlarının təşəbbüsü ilə digər hüquq-mühafizə orqanları ilə keçirilmiş tədbirlər nəticəsində respublikanın sərhədyanı rayonlarının ərazilərindən 20 min ədəddən çox narkotik xassəli yabanı çətənə kolu aşkar edilərək məhv edilmişdi.

Aşkar olunmuş əməliyyat məlumatlarının təhlili narkoqaçaqmalçıların narkotikləri ən çox İrandan Azərbaycana gətirdiklərini və daha sonra Rusiyaya apardıqlarını təsdiq edir. Bundan əlavə İran-Azərbaycan-Çin marşrutu üzrə də xeyli miqdarda narkotik, əsasən də heroin tutulmuşdur. Narkokuryerlərin İrandan Azərbaycana gətirdikləri heroin Bakı-Moskva-Şanxay, Bakı-İstanbul-Şanxay, Bakı-Tbilisi-İstanbul-Şanxay aviareyslərindən istifadə etməklə daşınmasına cəhd göstərirlər. Azərbaycana gətirilmiş narkotiklərin birbaşa və ya Gürcüstan vasitəsilə Avropaya (əsasən İtaliyaya) daşınması haqqında da məlumatlar vardır. Xüsusi narahatçılıq doğuran

məsələlərdən biri də son illər narkoqaçaqmalçılığın transmilli mütəşəkkil cinayətkar dəstələr və narkoqruplar tərəfindən törədilməsi faktlarının çoxalması idi. Bu faktlar üzrə daşınma marşrutunun və digər halların təhlili, tutulan şəxslərin vətəndaşlığı bu cinayətlərin bir neçə dövlətin ərazisini əhatə etməklə transmilli xarakterə malik olduğunu və onlara qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsinin vacibliyini göstərir [148, 30-32].

Son illər narkoqrupların üzvləri arasında ciddi vəzifə bölgüsünün aparılması, fəaliyyətlərində mütəşəkkilliyin və nəzarətin olması, qabaqcıl texnologiyadan, müasir maliyyə və ödəmə sistemlərindən istifadə onların təhlükəliliyini daha da artırır və mübarizə işini çətinləşdirir. Belə ki, həyata keçirilən kompleks əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində 2009-cu ilin may-iyun aylarında 6 transmilli mütəşəkkil cinayətkar dəstə ifşa olunmuş, onlardan 50 kq-dan artıq güclü təsirli narkotik vasitə olan heroin götürülmüşdü. Bu tədbirlər zamanı Pakistan və Nigeriya narkotik maddələrin yayılması ilə məşğul olan işbazların yaratdığı Pakistan-İran-Azərbaycan, daha sonra isə Çin və İtaliyaya narkotik maddələr daşınan marşrut aşkara çıxarılmışdı. Xüsusi düzəldilmiş gizli saxlanc yerlərində narkotik keçirməyə cəhd göstərən 15 nəfər, o cümlədən 7 nəfər Pakistan, 3 nəfər Özbəkistan, 1 nəfər Nigeriya, 2 nəfər Azərbaycan, 1 nəfər Litva, 1 nəfər Kamboca vətəndaşı (9 kişi, 6 qadın) tutularaq məsuliyyətə cəlb olunmuşdu. Narkotik maddələr daşınmasında istifadə edilən 12 ədəd xüsusi düzəldilmiş və gizli saxlanc yerləri olan, üzərində "BLESS" sözləri yazılmış çamadanlar götürülmüşdü.

Azərbaycan gömrükçüləri tərəfindən 2007-ci ildə də analoji faktlar qeydə alınmışdı. Belə ki, 30 iyul 2007-ci ildə Bakı-Urumçi aviareysinin sərnişini, Ukrayna vətəndaşı İ.Krasnyuka məxsus çamadana gömrük baxışı keçirilərkən onun içərisində gizlədilmiş 3115 qram heroin, 5 dekabr 2007-ci ildə Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən Bakı-Moskva-Şanxay aviareysi ilə uçmaq istəyən Azərbaycan vətəndaşı N.Quliyevə məxsus çamadana gömrük baxışı keçirilərkən 2622 qram heroin aşkar edilmişdi. Sonuncu faktla əlaqədar keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhərində müxtəlif mənzillərdə yaşayan Mali, Qana, Nigeriya vətəndaşlarına məxsus ümumi çəkisi 2500 qram olan heroin aşkar edilmişdi.

2011-ci il oktyabrın 17-18-də Bakıda "Narkotik vasitələrin qanunsuz

dövriyyəsinə qarşı mübarizə" mövzusunda dünyanın 42 ölkəsindən yüksək səviyyəli agentliklərin rəhbərlərinin iştirakı ilə beynəlxalq konfrans keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də konfransın işində iştirak edən Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı və BMT-nin Vyana ofisinin rəhbəri, BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotovu qəbul etdi. Görüşdə dövlətimizin başçısı Bakıda beynəlxalq konfransda dünyanın müxtəlif ölkələrindən olan nümayəndələrin iştirakını konfransa olan marağın göstəricisi kimi qiymətləndirdi [7, 2011, 18 oktyabr].

2012-ci ildə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 87 fakt aşkar olunmuş, 136 kq 876 qram narkotik, o cümlədən 107 kq 513 qram həşiş, 3 kq 869 qram heroin, 10 kq 540 qram tiryək, 0,216 qram kokain, 102,17 qram marixuana, 9,42 qram metadon, 12 kq 613 qram metamfetamin və digər narkotiklər qanunsuz dövriyyədən çıxarılmışdı. Bu faktlar üzrə şübhəli bilinən 110 nəfər (103 kişi, 7 qadın) barəsində müvafiq tədbirlər görülmüş, narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan 15 qrup zərərsizləşdirildi. 2012-ci il ərzində gömrük-sərhəd keçid məntəqələrində xidmət göstərən instruktor-kinoloqlar tərəfindən onlara təhkim olunmuş xidməti axtarış itlərinin tətbiqi nəticəsində 11 fakt üzrə 3 kq 537 qram narkotik, o cümlədən 71,13 qram həşiş, 2 kq 364 qram tiryək, 1 kq 86 qram heroin, 2,382 qram metamfetamin, 14 qram marixuana və 110 qutu müxtəlif dərman vasitələri aşkar olunmuşdu. Həmin ilin 11-14 sentyabrında Bakı şəhərində MDB üzv ölkələrinin gömrük xidmətlərinin kinoloji strukturlarının çoxnövçülük üzrə keçirilən sayca 2-ci çempionatda DGK-nın Kinoloji Mərkəzinin instruktor-kinoloqları 724 bal toplayaraq birinci yerə layiq görülmüşdü. 2013-cü ildə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 133 fakt aşkar edilmiş, bütövlükdə 135 kq 376,674 qram narkotik vasitə və psixotrop maddələr, o cümlədən 33 kq 185 qram həşiş, 18 kq 233,834 qram tiryək, 37 kq 717,571 qramheroin, 198,5 67 qram kokain, 35 kq 628,38 qram marixuana, 10 kq 159,986 qram metamfetamin, 217,723 qram metadon və s. dövriyyədən çıxarılmışdı [153].

Milli gömrük xidmətinin fəaliyyətində xüsusi diqqət və peşəkarlıq tələb edən məsələlərdən biri də narkotiklərin qaçaqmalçılığında istifadə olunan xüsusi gizlətmə üsullarının aşkar edilməsidir. Gömrük işi təcrübəsində narkotik maddələrin qaçaqmalçılar tərəfindən istifadə edilən

gizlətmə üsullarının olduqca rəngarəng və çoxsaylı olması müəyyən edilmişdir. Narkotik maddələrin qanunsuz keçirilməsi məqsədi ilə avtomobillərin hava balonlarından, yanacaq çənlərindən, ehtiyat təkərlərində, yük yerlərindəki boşluqlardan, maqnitofonlarda xüsusi düzəldilmiş gizli yerlərdən, bədən daxili qarın və bağırsaq boşluqlarından, meyvələrin, yuyucu toz, alt paltarı, ayaqqabı dabanı, siqaret və kibrit qutularının içərisində gizlətmədən, ikiqat içlikli çamadanlardan, qaz balonlarından, tozsoran və musiqi mərkəzlərindəki boşluqlardan, şampun və digər məişət qablarından, poçt göndərişlərindən, vaqonların tavan və havalandırma boşluqlarından, habelə digər gizlətmə üsullarından geniş istifadə edilir.

Azərbaycanın gömrük xidmətinin narkotik vasitələrin qlobal təhlükə xarakter daşıyan qanunsuz dövriyyəsinə qarşı topladığı təcrübə bir daha təsdiq edir ki, bu sahədə daha səmərəli işlərin görülməsi bütün ölkələrin müvafiq qurumlarının və beynəlxalq təşkilatların səylərinin birləşdirilməsini tələb edir. Fikrimizcə, aşağıdakı tədbirlərin həyata keçirilməsi narkotiklərə qarşı mübarizə işini daha da gücləndirə bilər:

– gömrük postlarının beynəlxalq standartlara uyğun qurulması, gömrükxanaların fəaliyyət zonalarında müvafiq laboratoriyaların yaradılması;

– narkotiklərin gömrük orqanları tərəfindən əməliyyat-axtarış tədbirlərini tənzimləyən normativ-hüquqi aktların və qaydaların qəbulu və tətbiq edilməsi;

– inkişaf etmiş ölkələrin gömrük orqanları ilə təcrübə mübadiləsinin, əməkdaşların ixtisasartırma kurslarında təlim keçməsinin təmin edilməsi;

– bu sahədə metodik və əyani dərs vəsaitlərinin hazırlanması, DGT-nin tədris modulları sistemindən geniş istifadə olunması;

– kinoloji xidmətin maddi-texniki təminatının yaxşılaşdırılması, narkotiklərin axtarışı üzrə itlərin hazırlanması işinin təkmilləşdirilməsi və s.

– qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizənin informasiya təminatının təkmilləşdirilməsi və on-line rejimində işləyən vahid korporativ şəbəkəyə qoşulan gömrük məntəqələrinin sayının artırılması.

Azərbaycan Respublikasının gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti əsasən qabaqcıl dünya təcrübəsinə əsaslanan metodların tətbiqi, əməliyyat-axtarış və qabaqlayıcı-profilaktik tədbirlərin gücləndirilməsi,

habelə hüquqpozmalara qarşı mübarizədə əməkdaşlığın genişləndirilməsi yolu ilə iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, qaçaqmalçılıq kanallarının aşkar və ləğv olunmasına, hüquqpozma törətmiş şəxslərin müvafiq məsuliyyətə cəlb edilməsinə yönəldilir. 2012-ci il ərzində 14606 hüquqpozma faktı aşkar edilmişdi. 272 halda saxlanılan qaçaqmalçılıq əşyalarının və digər cinayət predmetlərinin dəyəri 3 milyon 855 min 085 manatdan çox təşkil etmişdi. Bu əməllərin törədilməsində şübhəli bilinən 312 nəfər (237 nəfər Azərbaycan, 75 nəfər xarici vətəndaş) barəsində müvafiq tədbirlər görülmüşdü.

Təkcə 2012-ci ildə qaçaqmalçılıq və digər hüquqpozmalara qarşı mübarizə istiqamətində 14334 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 373 hüquqi şəxs (o cümlədən 165 xarici hüquqi şəxs) və 13945 fiziki şəxs (o cümlədən 8827 xarici) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı 1 milyon 172 min 525 manat cərimə tətbiq olunmaqla, dəyəri 182 min 352 manat olan mallar müsadirə edilmişdi. Valyuta qanunvericiliyini pozan şəxslərdən 337972 ABŞ dolları, 12738 avro, 18516100 rus rublu, 4 kq 651 qram qızıl, 1391745 manat dəyərində 38 ədəd qızıl əşya, 10 kq 218 qram gümüş, 63565 manat dəyərində 3716 ədəd gümüş əşya, 334 karat qiymətli daşlar tutulmuşdu. Alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısını almaq üçün müvafiq tədbirlər həyata keçirilmiş, aksiz markasız və ya digər qanunsuz yollarla keçirilməsinə cəhd göstərilən 818728 ədəd xaricdə istehsal olunan siqaret, 1240 litr və 26646 ədəd spirtli içki saxlanılmışdı. Gömrükdən qanunsuz keçirilməsinə cəhd edilən 13 min 322 ədəd mobil telefon götürülmüşdür. Bundan əlavə, gömrük orqanları tərəfindən hüquqpozma predmeti kimi 4 odlu silah, 46 ədəd pnevmatik silah, 3 ədəd ov silahı, 32 ədəd soyuq silah, 17 ədəd xalça və külli miqdarda digər mallar tutulmuşdu [161].

Gömrük statistikasına görə, 2013-cü ildə valyuta qanunvericiliyinin tələblərini pozan şəxslərdən 343380 ABŞ dolları, 59035 avro dəyərində 9 kq 115 qram qızıl, 4946 manat dəyərində 27 ədəd qızıl əşya, 77 kq gümüş, 22920 manat dəyərində 2191 ədəd gümüş əşya, 14238 manat dəyərində 86 karat qiymətli daşlar, həmçinin 675 min ədəd pirotexnika məhsulları, 9 ədəd elektroşok cihazı, 3 ədəd ov silahı, ov silahları üçün 85978 ədəd sursat və

ləvazimatlar, 161 kq barıt, 19 ədəd pnevmatik silah və 4274 ədəd pnevmatik silah üçün sursat, 159 ədəd soyuq silah, 2414 ədəd mobil telefon, 61481 manat dəyərində dərman vasitələri və digər qaçaq mallar aşkar edilərək tutulmuşdu. Bir il ərzində gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 354 hüquqi şəxs (o cümlədən 181 xarici hüquqi şəxs) və 11771 fiziki şəxs (o cümlədən 7477 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilmiş, 1 mln. 255 min manat cərimə tətbiq olunmaqla, onlardan 199 min 108 manat dəyərində mallar müsadirə edilmiş, spirtin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması halları, aksiz markasız və ya digər qanunsuz yollarla keçirilməsinə cəhd göstərilən 516520 ədəd xaricdə istehsal olunmuş siqaret, 1060 litr spirt və 1867 ədəd spirtli içki saxlanılmışdı [155].

2014-cü ildə "Valyuta tənzimi haqqında" qanuna və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 514 min 500 ABŞ dolları, 72 min 100 avro, 630 min rus rublu, 730,6 qram qızıl, 130 ədəd qızıl zinət əşyaları, 62 kiloqram 429 qram gümüş aşkar edilib. Komitənin Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin hesabatına əsasən 127 ədəd bədii, tarixi, arxeoloji əhəmiyyət kəsb edən əşya, 1 910 min ədəddən çox petarda və digər pirotexnika məhsulları, 38 ədəd elektroşoker, 12 ədəd odlu silah patronu, 2 ədəd ov silahı, 64 ədəd ov silahlarının sursat və ləvazimatları, 8 ədəd qaz silahı və 57 ədəd qaz silahı üçün patron, 27 ədəd pnevmatik silah və 2398 ədəd pnevmatik silah üçün sursat, 4 kiloqram 600 qram civə, 772 ədəd soyuq silah, 979 ədəd televizor, 1643 ədəd məişət texnikası, 1054 ədəd mobil telefon və 2183 ədəd telefon aksesuarları, xeyli miqdarda dərman vasitələri, baytarlıq və bitki dərmanları, 4 kiloqramdan çox qara kürü, 9470 ədəd parfümeriya və kosmetika ləvazimatları və digər mallar tutulub [119, 2015, 10 yanvar].

Gömrük orqanları tərəfindən 2014-cü ildə həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 428 cinayət xarakterli faktlar, 10382 inzibati xəta faktları aşkar edilmişdi:

Cədvəl 4.1

**Gömrük hüquqpozmalarına qarşı mübarizə haqqında məlumat (2014-cü il)**

| | |
|---|---|
| **Aşkar edilmiş cinayət xarakterli faktlar** | |
| **Qaçaqmalçılıq faktı** | 241 |
| **Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar faktlar** | 158 |
| **Tutulmuş narkotik vasitələrin miqdarı** | 178144.620 |
| **Tutulmuş psixotrop maddələrin miqdarı (qram)** | 225.3120 |
| **Gömrük ödənişlərindən yayınma** | 6 |
| **Aksiz markası ilə markalanmalı olan məhsulları belə marka olmadan idxal etmə** | 8 |
| **Digər cinayət xarakterli faktlar** | |
| **Təqsirləndirilən şəxslər** | |
| **Cəmi** | 428 fakt |
| **Aşkar edilmiş inzibati xəta faktları** | |
| **Kənar keçirmə** | 2 |
| **Gizli keçirmə** | 231 |
| **Bəyan etməmə** | 262 |
| **Malların, nəqliyyat vasitələrinin və onlara aid sənədlərin çatdırılmaması** | 8564 |
| **Geri aparmama (gətirilməmə)** | 598 |
| **Gömrük ödənişlərindən yayınma** | 4 |
| **Aksiz markasız idxal** | 15 |
| **Digər xətalar** | 757 |
| **Cəmi** | **10382** |

Mənbə: [157].

Həmin faktlar üzrə tutulmuş qaçaqmalçılıq əşyalarının və digər cinayət predmetlərinin dəyəri 2 milyon 577 min 813 manatdan çox idi. Bu əməllərin törədilməsində şübhəli bilinən 473 nəfərin barəsində müvafiq tədbirlər görüldü. 2014-cü il ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 158 fakt aşkar olunaraq 178 kiloqram 369 qramdan çox narkotik

vasitə və psixotrop maddə, cümlədən 35 kiloqram 926 qram tiryək, 27 kiloqram 37 qram marixuana, 38 kiloqram 454 qram həşiş, 76 kiloqram 669 qram heroin, 56,9 qram metadon, 221,4 qram metamfetamin, 10 konvalyut diazepam, 30 ədəd alprazolam, 1,4 qram fenobarbital, 110 flakon və 10 konvalyut klonazepam, 20 konvalyut xlordiazepoksid və digər maddələr qanunsuz dövriyyədən çıxarıldı. Azərbaycanın gömrük keçid məntəqələrində yaradılan şərait, tətbiq olunan müasir texniki vasitələr Cənubi Qafqazın digər ölkələrində mövcud deyil. Narkotik və partlayıcı maddələrin, həmçinin gizli saxlanc yerlərinin aşkarlanması, metal və kimyəvi maddələrin tərkibini və radioaktiv sızıntıları müəyyən edən qurğular, baxış alətləri və digər müasir avadanlıqlar gömrük əməkdaşlarına işi ən yüksək səviyyədə həyata keçirməyə imkan verir [72, 2015, 31 yanvar].

### *4.2. Maddi və mənəvi sərvətlərin mühafizəsi*

Azərbaycan gömrük təşkilatı öz fəaliyyətində əsas funksiyaları ilə yanaşı cəmiyyət və dövlət qarşısında çox mühüm humanist missiyanı yüksək səviyyədə həyata keçirməkdədir. Bu missiya sosial-mədəni həyatın çox geniş sahələrini: nadir fauna və flora nümunələrinin, tarixi-mədəni irsin qorunması və mühafizəsini, idman-sağlamlıq tədbirlərini, Azərbaycan gerçəkliklərinin dünya ictimaiyyətinə tanıdılması və təbliğini, xeyriyyəçilik və bir çox başqa humanist istiqamətləri əhatə edir.

Azərbaycan Respublikası bitki və heyvan növlərinin qeyri-qanuni ticarətini tənzimləyən CİTES Konvensiyasının üzvü kimi gömrük orqanları nadir bitki və heyvan növlərinin ölkədən çıxarılmasına qarşı mübarizədə fəal iştirak edir. Gömrük Komitəsinin Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyi ilə əməkdaşlığının nəticəsi olaraq CİTES Konvensiyasına daxil edilən bitki və heyvan növlərinin və onun nümunələrinin gömrük rəsmiləşdirilməsi qaydaları haqqında təlimat hazırlanmışdır. Bu sahədə Dövlət Gömrük Komitəsinin üzərinə mühüm vəzifələr qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnaməyə əlavələr edilməsi barədə" 2002-ci il 27 may tarixli 703 nömrəli Fərmanı ilə Əsasnamənin 5.17-1-ci bəndinə aşağıdakı əlavə edildi: *"Xəzər dənizinin (gölünün) Azərbaycan*

*Respublikasına mənsub olan bölməsində bioloji sərvətlərdən səmərəli istifadə edilməsi və onların qorunması üzrə dövlət siyasətinin hazırlanıb həyata keçirilməsində iştirak edir, öz səlahiyyətləri daxilində bioloji sərvətlərin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi zamanı mövcud qanunvericiliyin tələblərinin yerinə yetirilməsi üzərində nəzarəti təmin edir".* Əsasnamənin 5.8-ci bəndində *"hava"* sözündən sonra *"və dəniz"* sözləri əlavə edildi [24, 2002, 31 mart, №5, maddə 270].

Azərbaycanda saxta məhsullara, o cümlədən saxta dərmanlara qarşı mübarizə iqtisadi təhlükəsizliyin təmin olunmasının tərkib hissələrindən biridir. İstehlak bazarının saxta məhsullardan qorunması, istehlakçıları hüquqlarının müdafiəsi və insanların sağlamlığının təmin olunması dövlət orqanlarının nəzarətində saxlanılır. Gömrük statistikası göstərir ki, saxta dərmanlar əsasən kiçik həcmdə nəql edilir, bu onların gömrük baxışında aşkar edilməsində çətinlik yaradır.

2007-ci il fevralın 8-9-da *Gülüstan sarayında "Saxta dərmanlara qarşı mübarizə"* adlı Beynəlxalq Konfrans keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Konfrans iştirakçılarına ünvanlanan məktubunda deyilirdi: *"Müvafiq dövlət orqanları saxta dərmanların ölkəyə idxalının qarşısının alınması, belə preparatların dövriyyədən çıxarılması, saxta dərman istehsal edən şəxslərin aşkar edilərək, məsuliyyət cəlb olunması üçün daim iş aparır, bu sahədə tərəfdaş ölkələrlə, Dünya Gömrük Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, İnterpol və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir".*

Ümumilikdə beynəlxalq tədbirdə 10 beynəlxalq təşkilat, 21 dövlətin gömrük xidməti orqanları və 17 əczaçılıq şirkəti iştirak edirdi. Konfransda bildirilmişdi ki, bir çox ölkələrdə saxta dərmanlara qarşı mübarizə lazımı səviyyədə aparılmır, qanunlardakı boşluqlardan istifadə edən işbazlar mənfur əməllərini asanlıqla həyat keçirirlər.

Ümumdünya Səhiyyə Təşkilatının Şura sədrinin nümayəndəsi A.Kartillanın məruzəsində qeyd olunmuşdu ki, ilk növbədə saxta dərmanların daşınması və ya tranzitin qarşısının alınmasında ayrı-ayrı ölkələrin səyləri birləşdirilməlidir. Konfransda saxta dərmanların yaratdığı təhlükələrə qarşı qlobal gömrük nəzarəti mövzusunda DGT-nin Baş katibi Mişel Danenin məruzəsində göstərildi ki, indiyədək hətta dünyanın ən böyük 8

dövlətinin rəhbərləri keçirdikləri görüşlərdə saxta dərmanlara qarşı mübarizə məsələsini gündəmə çıxarmamışlar, Halbuki Almaniya və Yaponiya kimi ölkələrdə belə saxta dərmanlar başlıca problemlərdən birinə çevrilməkdədir.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Xurşud Ənvər öz məruzəsində qeyd etmişdi ki, saxta dərmanlar problemi humanitar bir böhrana, geniş miqyaslı bəlaya çevrilmişdir. Ekspertlərin hesablamasına görə, dünya üzrə dərmanların 10, bəzi ölkələrdə isə 50 faizinin saxta olması müəyyən edilmişdir. Təcrübə göstərir ki, ən bahalı və ən mürəkkəb kimyəvi tərkibə malik dərmanlar belə saxtalaşdırıla bilər. Hər il 200 mindən çox insan saxta dərmanların qurbanı olur. Bu problem qlobal xarakter daşıdığı üçün onunla mübarizə də qlobal səviyyədə aparılmalıdır. Saxta dərmanların yayılmasına qarşı mübarizə DGT-yə daxil olan ölkələrin gömrük orqanlarının əsas fəaliyyət istiqamətlərindən biri olmalı, saxta dərmanların daşınması və ya tranzitinin qarşısının alınmasında səylər birləşdirilməlidir.

Konfransın keçirildiyi müddətdə Bakıda bir sıra sosial tədbirlərdə təşkil olunmuşdu. Konfransda iştirak edən əczaçı şirkətlər tərəfindən və DGK-nın təşkilatçılığı ilə keçirilən xeyriyyə konsertlərindən toplanan vəsait hesabına ağır xəstəlikdən əziyyət çəkən vətəndaşlarımız üçün xeyli miqdarda dərman preparatları yardım edilmişdi. İƏT-in Baş katibi Xurşud Ənvər, Türkiyə Cümhuriyyəti Gömrük Müstəşarlığının xarici əlaqələr üzrə Baş direktoru Rza Mehmet Korkmaz, DGT-nın əməkdaşları Kristoff Zimmerman və Mark Derklunder Azərbaycan Respublikası DGK sədrinin əmri ilə "Gömrük əməkdaşlığının möhkəmləndirilməsinə görə" döş nişanı ilə təltif olunmuşdular. Konfrans iştirakçılar, xüsusilə DGT-nin Baş katibi bundan Azərbaycan hökuməti, eləcə də DGK ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiklərini və bu əməkdaşlığın davamlı olacağını qeyd etmişdilər [122, 2007, №2(35), 28-48].

Azərbaycan Respublikasının gömrük orqanlarının ən ümdə vəzifələrindən biri də milli-mənəvi dəyərlərimizi özündə ehtiva edən qədim tarixi və incəsənət əşyalarının, nadir fauna və flora nümunələrinin qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılmasının qarşısını almaqdır. Tarixi-mədəni əhəmiyyət daşıyan əşyaların qanunvericiliyə zidd qaydada daşındıqda gömrük xidməti tərəfindən saxlanılır, məhkəmə və gömrük orqanlarının müvafiq qərarları ilə müsadirə olunur. 1990-cı illərin birinci yarısından etibarən Azərbaycan

sərhədlərindən tarixi-mədəni əşyaların qanunsuz aparılması cəhdlərinin qarşısının alınması nəticəsində DGK-da mədəniyyət və incəsənət əsərlərindən ibarət dəyərli kolleksiya yaradılmışdır. Gömrük xidməti tərəfindən ölkənin muzey, kitabxana, elm və mədəniyyət mərkəzlərinə elmi, bədii və tarixi dəyəri olan 578 adda incəsənət əşyası təhvil verilmişdi. Məsələn, təkcə 1995-2003-cü illərdə gömrük orqanları tərəfindən gizli yolla keçirilməsinə cəhd edilən 5635 ədəd tarixi əhəmiyyət daşıyan arxeoloji və mədəni irs nümunəsi, o cümlədən qədim xalça nümunələri, ikonalar, kitab və sikkələr müsadirə edilmişdi. Azərbaycan Dövlət İncəsənət Muzeyinə 22 əşya, M.F.Axundov adına Milli Kitabxanaya IX-XX yüzillikləri əhatə edən 14 ədəd nadir kitab, Azərbaycan Xalça Muzeyinə 67 ədəd qədim xalça və xalça məmulatları, AMEA Əlyazmalar İnstitutuna 60 ədəd əlyazmalar, Azərbaycan Milli Tarix Muzeyinə 410 ədəd numizmatika nümunələri, Qafqaz Müsəlmanları İdarəsinə VIII-XIX yüzilliklərə aid Quran və digər dini xarakterli kitablar, Rus Pravoslav kilsəsinə 22 ədəd qədim ikona və kitablar verilmişdi. Azərbaycan Respublikası DGK-nın bu sahədəki missiyası 2004-cü ildə nəşr olunmuş 4 cildlik *"Xilas edilmiş şedevrlər"* kitabında əks olunmuşdur .

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Sədrinin 23 iyun 2009-cu il tarixli əmri ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırmaqla *"Mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydaları"* təsdiq edilmişdir. "Qaydalar"da göstərilir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mühafizə siyahısına daxil edilmiş mədəniyyət sərvətləri xüsusi rejim əsasında verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ixracın mümkünlüyü barədə verdiyi şəhadətnamə Azərbaycan Respublikasının gömrük orqanına təqdim edildiyi və komissiyon dəyərinin 100 faizi məbləğində gömrük rüsumu ödənildikdən sonra ölkənin gömrük ərazisindən çıxarıla bilər.

Mədəni sərvətlər Azərbaycan Respublikasının gömrük ərazisində gömrük eyniləşdirilməsinin aparılması üçün şəhadətnamədə və sərbəst istifadəyə dair icazədə aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

– mədəni sərvətin adı;

– hazırlanma texnikası;

– materialı;

– ölçüsü;

– hazırlandığı tarix;

– dəyəri;

– şəhadətnamə verilən mədəniyyət sərvətlərinin mühafizə dərəcəsi (qabaqlayıcı, konservasiya, bərpa, xüsusi);

– aparılması barədə rəy;

– şəhadətnamə verilən mədəniyyət sərvətlərinin xüsusi rejimi (müvəqqəti, geri qaytarma müddəti, aparılma məqsədi (sərgi, prezentasiya, bərpa və s.);

– şəhadətnamə verilən mədəniyyət sərvətlərinin şəkili;

– mədəniyyət sərvətinə verilən şəhadətnamənin istifadə müddəti [69, 2009, 11 iyul].

Gömrük Komitəsi nəzdində gömrük muzeyləri fəaliyyət göstərir. Gömrük Tarixi Muzeyində ekspozisiyanın əsas hissəsini gömrük əməkdaşları tərəfindən müsadirə edilmiş mədəniyyət və tarixi incəsənət əsərləri təşkil edir. 400-dən çox eksponata XIX-XX əsrlərə aid zərgərlik əşyaları və xalça kolleksiyası, qədim Roma və Bizans imperiyalarının, Səfəvilər dövlətinin sikkələri, XIX-XX əsrlərə aid Quran əlyazmaları, ikonalar, zərif üsulla hazırlanmış əfqan və hind mənşəli xəncərlər və qılınclar daxildir. 1997-2008-ci illər ərzində Xalçaçılıq Muzeyinə, Şirvanşahlar Sarayına, Elmlər Akademiyasının İnstitutlarına, Qafqaz Müsəlmanları Ruhani İdarəsinə, Respublika ərazisində fəaliyyətdə olan Pravoslav və Katolik kilsələrinə, yəhudi dini icmalarına XIX-XX əsrlərə aid 800-ə yaxın incəsənət əsərləri, elmi və dini ədəbiyyatlar, eksponatlar təqdim edilmişdi.

*"Narkomaniya və narkotik vasitələrin yayılmasına qarşı mübarizədə ümumdünya gömrük sisteminin rolu"* mövzusuna həsr edilmiş plakatların sərgi-müsabiqəsi (Bakı, 2-3 fevral 2006-cı il) keçirildi. BMT-nin İsveçrə Konfederasiyasının Cenevrə şəhərində yerləşən Avropa qərargahında (8-23 fevral 2008-ci il) Dövlət Gömrük Komitəsi və ölkəmizin İsveçrə Konfederasiyasındakı səfirliyi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə birgə təşkil etdikləri *"Mədəni irsin keşiyində"* mövzusunda sərginin əsas məqsədi ermənilərin XIX əsrdə İrandan Azərbaycana köçürülməsinə dair Rusiya arxivlərində saxlanılan gömrük sənədləri barədə dünya ictimaiy-

yətinə məlumatların çatdırılması idi [113, 2009, 9 fevral].

*"Azərbaycan gömrüyü mədəni irsin keşiyində"*, *"Azərbaycan gömrüyü tarixi təsviri sənətdə"*, "Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik" adlı kitablar və *"Azərbaycan gömrüyü mədəni irsin keşiyində"* sənədli filmlər toplusu 13-15 fevral 2008-ci ildə ölkəmizin Belçika Krallığındakı səfirliyində təqdim olunmuşdur.

DGK-nın Gömrük Tarixi Muzeyi filialının kolleksiyası xarici ölkələrdə keçirilən müxtəlif sərgilərdə təqdim olunur. Muzey kolleksiyası əsasında formalaşan "Azərbaycan gömrüyünün tarixi təsviri sənətdə", "Azərbaycan gömrüyü mədəni irsin keşiyində", "Azərbaycan gömrüyü bəşəri dəyərlər prizmasından", həmçinin "Narkotiklərə yox deyək!" adlı sərgilər Brüssel, Cenevrə, Vyana, Strasburq, Buenos-Ayres, Kazan və Yekaterinburq, Los-Anjeles və San-Dieqo şəhərlərində, Vatikan dövlətində, Makedoniyada nümayiş olunmuşdur. Gömrük Tarixi Muzeyi 2007-ci ilin iyun ayında Beynəlxalq Tarixi Muzeyi Assosiasiyasına (ICOM), 2008-ci ilin sentyabr ayında isə Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasına (İACM) üzv seçilmişdir. Bundan əlavə, Naxçıvan MR Dövlət Gömrük Komitəsinin nəzdində bu regionda gömrük xidmətinin tarixini əks etdirən muzey yaradılmışdır. Muzeydə Naxçıvan gömrüyünün keçdiyi tarixi yolu əks etdirən eksponatlar, qaçaqmalçılıqla mübarizə nəticəsində əldə edilmiş milli tarixi-mədəniyyət nümunələri mühafizə edilir [69, 2009, 22 avqust].

Ümumiyyətlə, 24 ölkə Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasının üzvüdür. Assosiasiyanın rəsmi jurnalı olan "Xəbərlər Bülleteni"ni ildə bir dəfə Hamburqda nəşr olunur. Bülletenin 2008-ci il nömrəsində dərc olunan "Azərbaycan gömrüyü Avrasiyanın mədəniyyət müxtəlifliyinin astanasında" adlı məqalədə Muzey haqqında ətraflı məlumat verilir.

BMT-nin Vyana bölməsində Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi Komissiyasının 2010-cu il mayın 17-dən 21-dək davam edən 19-cu sessiyası çərçivəsində *"Azərbaycan gömrüyü mədəni irsin keşiyində"* adlı sərgi təşkil edilmişdi. Rotunda salonunda keçirilən sərgidə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müsadirə etdiyi incəsənət əsərləri, əlyazmalar, qədim kitablar, numizmatika nümunələri, xalçalar və s. nümayiş etdirildi. Sərginin məqsədi Azərbaycanda gömrük sərhədindən qeyri-qanuni yollarla keçirilən zaman saxlanılmış tarixi-mədəni nümunələri nümayiş etdirmək və ölkəmizdə mədəni irsin qorunması

sahəsində görülən işlər barədə məlumat vermək idi. Azərbaycan gömrük orqanlarının tarixinə dair muzeyin incəsənət əsərlərindən ibarət eksponatları indiyədək Belçika, İsveçrə, Vatikan və Rusiya Federasiyasında nümayiş etdirilmişdir. Muzeydə nümayiş etdirilən eksponatlar təkcə Azərbaycanın deyil, eyni zamanda, dünya mədəniyyət irsinin xilas edilmiş nümunələridir [69, 2010, 22 may].

Azərbaycan gömrük orqanları tərəfindən müsadirə edilən dini əşyaların aid olduğu təşkilatlara bağışlanması ölkədə milli-mənəvi və dini dəyərlərə hörmət və tolerantlığın bariz nümunəsi kimi bir ənənəyə çevrilmişdir. Qaçaqmalçılıq yolu ilə gömrük nəzarətindən kənar aparılmasına cəhd göstərilən əşyalar əsasən Tovuz və Xaçmaz gömrük idarələrində müsadirə olunmuşdu. 2007-ci il yanvarın 5-də Azərbaycan gömrük orqanları tərəfindən müsadirə edilən 16 ədəd ikona Bakıdakı Jan-Mironosets kilsəsinə təqdim olundu. Ekspertlərin rəyinə görə, 2003-2006-cı illərdə ölkənin gömrük sərhədində müsadirə edilən ikonalar XVIII-XIX yüzilliklərə aid tarixi-mədəni nümunələr idi. Bakı və Xəzəryanı bölgənin yepiskopu Aleksandr bu tədbirin Milad bayramı ərəfəsində baş verməsini xüsusi qeyd etmişdi [67, 2007, №1 (34), 58-59].

"Azərterminalkompleks" THXİB-yə təhvil verilən 51 adda və ümumi sayı 1923 ədəd olan dini kitablar 2010-cu il fevralın 4-də Qafqaz Müsəlmanları İdarəsinə təqdim olunmuşdu. Türk, fars və Azərbaycan dillərində olan bu kitablar əsasən XIX-XX yüzillikdə Türkiyə və İranda nəşr edilmişdir. Onların arasında Mədinə şəhərində ərəbcə nəşr edilmiş Qurani-Kərimin qədim nüsxəsi də vardı. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəyinə əsasən, sözügedən kitabların ölkə ərazisində yayılması məqsədəuyğun sayılaraq Qafqaz Müsəlmanları İdarəsinə bağışlanması qərara alınmışdı [69, 2010, 9 fevral].

2009-cu ilin aprel ayında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı, eləcə də Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Vatikan dövlətində *"Azərbaycan gömrüyü mədəni və dini irsin keşiyində"* mövzusunda sərgi keçirildi. Tədbirdə respublikamızın nümayəndə heyəti - DGK sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı, professor Yaqub Mahmudov,

Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağəli İbrahimov iştirak etmişdi. Mərasimdə Vatikan şəhəri Dövləti üzrə Pontifik Komissiyanın Sədri, Vatikan şəhəri Dövləti üzrə Qubernatorluğun Sədri (meri) Kardinal Covanni Layolo, Vatikan dövlətinin Xarici İşlər və Mədəniyyət nazirliklərinin yüksək vəzifəli şəxsləri, eləcə də Amerika Birləşmiş Ştatları, Türkiyə, Çernoqoriya, Bolqarıstan, Ukrayna və bir sıra digər ölkələrin səfirləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişdi. Sərgidə məqsəd son illər ərzində müstəqil Azərbaycanın gömrük xidməti tərəfindən böyük miqdarda qədim əşyaların ölkəmizdən çıxarılmasının və onun sərhədlərindən tranzitlə qanunsuz keçirilməsi cəhdlərinin qarşısının alındığını göstərmək, Azərbaycan xalqının tarixi, mədəniyyəti və tolerantlığı ilə tanış etmək istəyi idi. Tədbir zamanı Azərbaycanla Vatikan dövləti arasında mövcud əlaqələrin tarixindən bəhs edən "Nəsihət" adlı sənədli film də nümayiş etdirilmişdi. Filmdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vatikan dövlətinə, həmçinin Roma Papası II İohann Pavelin respublikamıza tarixi səfərləri, keçirilən yadda qalan görüşlər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Roma Papası II İohann Pavelin dəfn mərasiminə qatılması, Bakıda Katolik Kilsəsinin açılışında iştirakı, eləcə də Vatikan dövlətinin Azərbaycan nümayəndə heyətini yüksək səviyyədə qəbul etməsi əks olunub. Filmdə qaçaqmalçılıq yolu ilə Azərbaycandan çıxarılmasına cəhd göstərilərkən müsadirə olunan İsa peyğəmbərin XIX əsrin ikinci yarısında katolik kilsələrindən birinin emalatxanasında hazırlanan heykəlinin Roma Katolik Kilsəsinin Azərbaycandakı nümayəndəliyinə təhvil verilməsi və s. bu kimi materiallar lentə alınıb. Mərasimdə Azərbaycan musiqisinin şah əsəri olan muğam haqqında film nümayiş etdirildi və bu qədim musiqi janrı haqqında ətraflı məlumat verildi.

Azərbaycanda gömrük işinin təşəkkülü tarixinin öyrənilməsi məqsədilə Respublika Milli Elmlər Akademiyasının Tarix İnstitutunda elmi araşdırmalar həyata keçirilir. Azərbaycan və Vatikan alimlərinin bu sahədə birgə elmi axtarışlar aparması, zəngin Vatikan arxivlərindən tədqiqatçıların istifadə etməsinə icazə verilməsi haqqında danışıqlar aparılmışdır. Azərbaycan nümayəndə heyəti tərəfindən Vatikan dövlətinin Mədəniyyət Nazirliyinin kitabxanasına "Azərbaycan gömrüyü mədəni irsin keşiyində", "Azərbaycan gömrüyünün tarixi təsviri sənətdə" və "Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik" adlı kitablar xatirə hədiyyəsi olaraq təqdim

edildi [69, 2009, 13 aprel].

2009-cu il iyunun 10-da Bakıdakı Müqəddəs Jen-Mironosits kilsəsində Azərbaycan gömrük orqanları tərəfindən müsadirə edilən dini kitablar, xaç və ikonaların bu dini ocağa təqdim olunma mərasimi keçirilmişdi. Müqəddəs Jen-Mironosits kilsəsinin baş keşişi Leonid Ata bildirmişdi ki, Azərbaycan gömrükçülərinin təqdim etdikləri dini kitablar, xaç və ikonalar kilsə üçün misilsiz bir hədiyyədir. Kilsənin yaranma tarixi, sovet dövründə bu dini ziyarətgahın baxımsız vəziyyətə düşməsi, 2002-ci ildə isə bərpa olunaraq istifadəyə verilməsi və açılış mərasimində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsən iştirak etməsi qeyd olunmuşdu. Bu kilsə Azərbaycan-Rusiya dostluğuna bir abidə olmaqla Azərbaycan dövlətinin tolerantlıq siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini, son illər ölkədə milli, mənəvi və dini dəyərlərin qorunub saxlanılmasını, dini ocaqlara diqqət və qayğının daha da artmasını göstərir. Eyni zamanda, Azərbaycan gömrükçülərinin müsadirə etdikləri dini əşyaların kilsəyə bağışlanmasını ölkədə müxtəlif dinlərə, o cümlədən, xristianlığa hörmət və ehtiramın bariz bir nümunəsi kimi səciyyələndirən Leonid Ata gömrükçülərə işlərində uğurlar diləmiş, Azərbaycan xalqının daim sülh və əmin-amanlıq şəraitində yaşamasını arzulamışdı. Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninov ölkəsinin milli bayramı - Rusiya gününə təsadüf edən bu hadisəni tarixən dost Azərbaycan və rus xalqları arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsində yeni mərhələ adlandırmışdı. Gömrük orqanları tərəfindən müsadirə edilən müqəddəs kitabların, ikonaların və digər dini əşyaların aidiyyəti təşkilatlara bağışlanması bir ənənəyə çevrilib. Müqəddəs Jen-Mironosits kilsəsində ilk belə mərasim hələ 2007-ci ilin yanvarında keçirilmiş və kilsəyə XVIII-XIX əsrlərə aid 16 ədəd ikona təqdim olunmuşdu. Bu dəfə isə kilsəyə Xristian dininə dair son illərdə nəşr edilmiş 663 ədəd kitab, XIX əsrə aid 4 ikona ("İsa Peyğəmbər" və "Müqəddəs ana" adlı, eləcə də digər təsvirli ikonalar) və üzərində İsa Peyğəmbərin təsviri olan 1 ədəd xaç əvəzsiz olaraq verildi. Elmi-bədii və tarixi əhəmiyyət kəsb edən bu əşyaların gömrük nəzarətindən kənar aparılmasına cəhd göstərilərkən Azərbaycan gömrük orqanları tərəfindən saxlanılmış və müsadirə edilmişdi [69, 2009, 13 iyun].

Dövlət Gömrük Komitəsi 1998-ci ildən başlayaraq Azərbaycan Milli

Elmlər Akademiyası ilə birgə aparılan tədqiqat işlərinin nəticəsində mədəni irsin qorunması sahəsindəki fəaliyyəti əhatə edən nəşrləri davam etdirir. 2010-cu ildə nəşr edilən "Azərbaycanın gömrük tarixinə dair muzeylər" kitabında gömrük muzeyləri, onların tarixi və fəaliyyətləri barədə ətraflı məlumat verilir. Muzeylərin eksponatları Azərbaycanda gömrük xidmətinin tarixini göstərən elmi mətnlərlə müşayiət olunur.

Rusiya Prezidenti Dmitri Medvedevin 2010-cu il sentyabrın 3-də Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Rusiyanın dövlət başçısına XIX yüzilliyə aid beş ədəd ikona hədiyyə edildi. Həmin incəsənət nümunələri Azərbaycan gömrükçüləri tərəfindən Rusiya-Azərbaycan sərhədində qaçaqmalçılardan müsadirə edilmişdi. Azərbaycan dövlətinin başçısı təqdimat mərasimində demişdi: "Rusiyadan qanunsuz çıxarılmasına cəhd göstərilmiş bu əsərləri Azərbaycan-Rusiya sərhədində bizim gömrük xidmətlərimiz aşkar və müsadirə etmişlər. Onları sərhəddən keçirmək istəyənlər isə məsuliyyətə cəlb olunmuşlar. Bu gün rus xalqının bu incəsənət əsərlərini Sizə - Rusiya Prezidentinə təqdim edirəm. Onlar Sizin ölkənizdə saxlanılmalıdır". Rusiya Prezidenti Dmitri Medvedev təşəkkürünü bildirərək qeyd etmişdi: "Çox sağ olun. Bu, həqiqətən, əsl dost hərəkətidir. Rusiya üçün ikiqat xoşdur ki, Azərbaycan bir tərəfdən cinayətkarları yaxalamışdır, digər tərəfdən isə bu əsərlər evə qayıdır. Biz hamımız bunu yüksək dəyərləndiririk. Bu, həqiqətən, əsl dostluq jestidir" [156].

2010-cu il iyunun 21-də Fransanın Strasburq şəhərində Avropa Şurasının əsas binasında Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə "Azərbaycan gömrüyü mədəni irsin keşiyində" adlı sərginin açılış mərasimi keçirildi. Azərbaycan xalqına və digər dünya xalqlarına məxsus mədəniyyət nümunələrinin gömrük baxışı zamanı qeyri-qanuni yolla dövriyyədən çıxarılan və bu cür fəaliyyət nəticəsində aşkar edilən mədəniyyət nümunələrinin kiçik bir hissəsi sərgidə nümayiş etdirilirdi. Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalının ağır iqtisadi və sosial nəticələri və qədim mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılması haqqında sərgi iştirakçılarına ətraflı məlumat verildi. Qeyd edilmişdi ki, dünya mədəni irsinin qorunması sahəsində gömrük xidməti öz fəaliyyətini bundan sonra davam etdirəcək, mədəniyyət nümunələrinin Azərbaycan Respublikasının sərhədlərindən hər hansı bir qeyri-leqal formada daşınmasına qarşı sipər

çəkəcəkdir. Sərgidə nümayiş etdirilən 50-dən çox eksponat Azərbaycan Dövlət Gömrük Komitəsinin muzeylərindən gətirilmişdi. Eksponatların bir hissəsini Azərbaycan gömrüyü tərəfindən müsadirə edilmiş əntiq və tarixi əşyalar təşkil edirdi. AŞPA-nın prezidenti Mövlud Çavuşoğlu sərginin Azərbaycanın müxtəlif mədəniyyətlərə malik olmasının göstəricisi olduğunu bildirmişdi: *"Bu sərgi Azərbaycanın tarixini, mədəniyyətini, mədəni müxtəlifliyini, Azərbaycanda yaşayan digər xalqların müxtəlifliyini göstərir. Azərbaycan xalqı ölkədə yaşayan bütün etnik xalqların mədəniyyətinə hörmətlə yanaşır. Bu ölkədə keçmişdən üç din olub: zərdüştlük, xristianlıq və islam. Burada mədəniyyətlərarası və dinlərarası harmoniya daima mövcud olub. Bunlar, həmçinin Avropa Şurasının da dəyərləridir. Avropada müxtəlif dinlər və mədəniyyətlər var və bu dəyərlər bizi bir yerə yığır. Uğur qazanmağımızın əsas açarı müxtəliflikdə bir olmaqdır və biz də bunu bu sərgidə görə bilərik"* [69, 2010, 26 iyun].

2013-cü il fevralın 8-də DGK və Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun birgə təşkilatçılığı ilə Kaliforniya ştatının San-Dieqo şəhərində keçirilən "Azərbaycan San-Dieqo ilə görüşür" adlı tədbirdə Azərbaycanın muğam-caz triosu və Amerikan caz kvartetinin konserti və "Azərbaycan gömrüyü mədəni irsin keşiyində" mövzusunda sərgiyə baxış keçirildi. 2013-cü il sentyabrın 24-də Bakı şəhərində 20 ölkənin nümayəndəsinin iştirakı ilə Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasının (BGMA) 21-ci konfransında gömrük muzeylərinin fəaliyyəti müzakirə edildi və Azərbaycanda gömrük işinin inkişaf tarixindən geniş məlumat verildi. Skopye şəhərində (Makedoniya) Azərbaycan və Makedoniya gömrük xidmətlərinin birgə təşkilatçılığı ilə həmin ilin noyabrında "Mədəni irsin qorunmasında gömrük təşkilatlarının rolu" mövzusunda keçirilən konfransa Avropa ölkələri və bir çox beynəlxalq təşkilatların təmsilçiləri qatıldı.

Beləliklə, Azərbaycan dövlətinin gömrük xidməti milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, heyvanlar və bitkilər aləminin, ətraf mühitin və bəşər cəmiyyətinin yaratmış olduğu mədəni irsin mühafizəsi, o cümlədən bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması sahəsində tədbirlərin həyata keçirilməsində əməkdaşlıq etdiyi ölkələrin müvafiq qurumları və beynəlxalq təşkilatlarla birgə uğurla fəaliyyət göstərir.

# V FƏSİL. MİLLİ GÖMRÜK SİSTEMİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

## *5.1. Gömrük işinin inkişafında beynəlxalq gömrük əməkdaşlığının rolu*

Beynəlxalq gömrük münasibətləri beynəlxalq iqtisadi münasibətlərin mühüm tərkib hissəsidir. Qədim dövrdə də, orta əsrlərdə, tarixin yeni və ən yeni dövrlərində isə bu münasibətlər daha əhəmiyyətli xarakter daşımışdır ki, bunlar da gömrük işi sahəsində geniş hüquqi-normativ bazanın yaranmasına gətirib çıxarmışdır. Azərbaycanın müstəqillik əldə etməsi onun bir çox ölkələrlə və beynəlxalq təşkilatlarla bərabər hüquqi əməkdaşlığı üçün əlverişli şərait yaratdı. Respublikamızın gömrük işi sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsasən 4 istiqamət üzrə inkişaf etməkdədir: 1) beynəlxalq təşkilatlar, o cümlədən DGT ilə əməkdaşlıq; 2) MDB üzv dövlətlərinin gömrük təşkilatları ilə əməkdaşlıq (Gömrük Rəhbərləri Şurası); 3) İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq və 4) ikitərəfli münasibətlər əsasında ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə əməkdaşlıq.

Beynəlxalq münasibətlərin müstəqil subyekti kimi Azərbaycan dövlətinin qarşısında duran ən mühüm nəzəri və praktik həllini gözləyən məsələlərdən biridə gömrük işi sahəsində beynəlxalq əməkdaşlıq sahəsində irəliləyişə nail olmaq, bu əlaqələrin perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi idi. Azərbaycan Respublikasında gömrük işinin təkmilləşdirilməsi və xarici iqtisadi fəaliyyətin tənzimetmə mexanizminin beynəlxalq tələblərə uyğunlaşdırılmasını, ilk növbədə, gömrük siyasətinin elmi və qanunvericilik əsaslarının işlənilib hazırlanmasını tələb edirdi. Müasir qloballaşma şəraitində dövlətlərarası inteqrasiya proseslərinin güclənməsi iqtisadi, ərzaq və enerji təhlükəsizliyi məsələlərini ön plana

çəkməklə yanaşı dövlətin iqtisadi təhlükəsizliyinin və daxili bazarın qorunmasını əsas qarantlarından biri kimi gömrük nəzarəti sisteminin daha da təkmilləşdirilməsini tələb edir.

Tədqiq edilən dövrdə ölkəmizin gömrük işi sahəsində ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin əsası qoyuldu. Qabaqcıl ölkələrin gömrük işi sahəsində təcrübəsinin öyrənilməsi və tətbiqi, beynəlxalq tələblərə uyğunlaşdırılan gömrük qanunvericiliyinin yaradılması sahəsində görülən işlər, gömrük-tarif siyasətinin müəyyənləşdirilməsi, qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, gömrük infrastrukturunu möhkəmləndirilməsi tədbirləri bu əlaqələrin əsas prinsiplərini təşkil edirdi. Gömrük işi sahəsində Azərbaycan Respublikasının bağladığı ikitərəfli sazişlər dövlətlərarası gömrük münasibətlərinin əlaqələndirilməsində mühüm yer tutur və aşağıdakı istiqamətləri əhatə edir: gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım, xarici ticarətin gömrük statistikası sahəsində metodoloji və informasiya təminatı üzrə qarşılıqlı fəaliyyət, gömrük-tarif münasibətlərinin əlaqələndirilməsi, gömrük sənədlərinin və gömrük təminatlarının qarşılıqlı tanınması, sərhədlərdən qanunsuz keçirilən mədəni sərvətlərin saxlanılması və qaytarılması məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq, gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının qarşısının alınması, tətbiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım və s.

Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Ümumdünya Ticarət Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əlaqələr yaradıb, Avropa Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Xəzəryanı Dövlətlər Birliyi, Ümumqafqaz Evi, GUAM və s. kimi iqtisadi birliklərə daxil olmuşdur.

Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsində beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddəaların həyata keçirilməsi əsas istiqamətlərdən birini təşkil edir. Gömrük prosedurаlarının sadələşdirilməsi və harmonizasiyası haqqında Beynəlxalq Konvensiya

(Kioto Konvensiyası) 1974-cü ildə qüvvəyə minmiş və özündə 70-dən artıq dövləti birləşdirir. ÜTT-nin 1999-cu il 26 may tarixli sessiyasında Kioto Konvensiyası yeni redaksiyada qəbul edildi. Yeni redaksiya aşağıdakı müddəalara əsaslanır: gömrük orqanlarından şikayət verilməsi qaydalarının daha aydın və dəqiq ifadə olunması; sadələşdirilmiş standart gömrük qayda və qanunlarının qəbul edilməsi; gömrük proseduralarında informasiya sistemləri və texnologiyalarından maksimum dərəcədə istifadə; gömrük nəzarətinin metodlarının təkmilləşdirilməsi; elektron məlumat bazasından istifadə; gömrük orqanlarının digər dövlət orqanları ilə hərtərəfli əmək-daşlığı və hərtərəfli əməkdaşlığı; xarici iqtisadi fəaliyyət iştirakçıları ilə tərəfdaş münasibətlərinin müəyyən olunması və s. Bu sahədə digər mühüm beynəlxalq standart kimi Gömrük Əməkdaşlığı Şurasının (GƏŞ)hazırladığı və qəbul etdiyi (1971-ci il) *"Yüklərin beynəlxalq tranziti haqqında Gömrük Konvensiyası"*nı göstərmək olar. Bu Konvensiyaya müvafiq olaraq, gömrük orqanları yüklərin yoxlanılmasının sadələşdirilmiş proseduru üzrə fəaliyyət göstərir. Beynəlxalq ticarətdə 1970-ci ildən başlayaraq malların yeni nomenklaturasının işlənib hazırlanmasına başlandı. *"Malların təsvirinin və kodlaşdırılmasının harmonizasiya olunmuş sistemi haqqında Beynəlxalq Konvensiya"*(Brüssel, 1983-cü il) 1988-ci ilin yanvarın 1-də qüvvəyə minmişdi. 1990-cı ildə İstanbulda imzalanmış *"Müvəqqəti idxal haqqında"* Konvensiya gömrük rejimlərinin sadələşdirilməsi və harmonizasiyasını, müvəqqəti idxal barədə qaydaların asanlaşdırılmasını, beynəlxalq ticarətə və beynəlxalq mübadiləyə səmərəli yardım göstərilməsini nəzərdə tutur. 1972-ci il Konteynerlərə aid Gömrük Konvensiyası müvəqqəti idxal şərtləri, müvəqqəti idxal proseduru, müvəqqəti ixrac proseduruna uyğun olaraq ixrac edilən konteynerlərdən istifadə olunma şərtlərini və xüsusi hallar kimi məsələləri əhatə edir. *"Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında"* 1977-ci il Beynəlxalq Konvensiyası gömrük sahəsində meydana çıxan pozuntuların qarşısının alınmasında dövlətlərin əməkdaş-lığının formalaşmasına yönəlmişdir. 1984-cü il tarixli *"Sərhəddə yüklərə nəzarətin həyata keçirilməsi şərtlərinin razılaşdırılması haqqında"* Beynəl-xalq Konvensiyanın əsas məqsədini isə beynəlxalq yük daşımalarının asanlaşdırması təşkil edir.

MDB üzv dövlətləri arasında gömrük işi sahəsində beynəlxalq əmək-

daşlığın hüquqi əsaslarının yaradılması da mühüm əhəmiyyət daşıyır. 1992-ci il martın 13-də Moskvada MDB üzv dövlətləri arasında gömrük münasibətlərinin prinsipləri barədə imzalanmış saziş ümumi gömrük tarifinin hazırlanması və iştirakçıların öz aralarında gömrük maneələrini ləğvini nəzərdə tuturdu. Bu sənəd vahid iqtisadi məkanın saxlanması, onun hüdudlarında malların sərbəst hərəkətinin təmin olunması, üçüncü dövlətlərlə münasibətdə ümumi siyasətin işlənilib hazırlanması, gömrük qanunvericiliyi və gömrük proseduralarının unifikasiyasını, o cümlədən gömrük ittifaqının yaradılması məsələləri əhatə edirdi. 1992-ci il fevralın 8-də imzalanmış MDB üzvü dövlətlərinin ərazisindən yüklərin tranzit daşınması qaydaları barədə sazişə əsasən bir MDB üzv-dövlətinin ərazisindən tranzit keçən digər MDB üzv-dövlətinə məxsus yüklər tranzit dövlətin gömrük rəsmiləşdirməsinə görə gömrük rüsum və vergilərindən, eləcə də tranzit keçid üçün icazədən azad olunur. Tranzit qaydaları haqqında sazişin davamı kimi MDB dövlətləri 1992-ci il aprelin 2-də Tranzit yüklərin gömrük rəsmiləşdirilməsi qaydaları barədə saziş imzaladılar. Lakin Azərbaycan Respublikası DGK *"Gömrük Şurası haqqında Əsasnamə"*yə qoşulmaqdan imtina etmişdir. Bunun əsas səbəblərindən biri torpaqlarımızın 20 faizdən çoxunu işğal edən təcavüzkar Ermənistan üçün əlverişli ticarət-iqtisadi və gömrük-tarif şəraitinin yaradılmasına imkan verməməkdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası 1993-cü il sentyabrın 24-də MDB-yə daxil olmuşdur və bir çox sahələrdə olduğu kimi, üzv dövlətləri ilə gömrük işi sahəsində əməkdaşlıq edir. Azərbaycan Respublikası DGK-nın əməkdaşları MDB üzv dövlətlərinin Gömrük Xidməti Rəhbərlərinin Şurası çərçivəsində keçirilən ekspert iclaslarında mütəmadi iştirak edirdi. Gömrük mütəxəssislərimiz həmin görüşlərdə hazırlanan sənədlərin müzakirəsində, həmçinin layihələr üzrə təkmilləşdirmə işlərinin aparılmasında, gömrük işinin qarşılıqlı fəaliyyətini tənzimləyən saziş layihələrinin hazırlanmasında fəal iştirak edirdi. Respublikamız 1995-ci il fevralın 10-da Alma-atada imzalanmış *"MDB ölkələrinin gömrük qanunvericiliyinin əsasları haqqında"* Sazişə qoşulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"1993-cü ildə Azərbaycan Respublikası və MDB-yə daxil olan dövlətlər, Baltikyanı və Gürcüstan respublikaları arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında dövlətlərarası sazişlərin yerinə yetirilməsinin təmin edilməsi ilə əlaqədar*

*gömrük vergi və rüsumlarının tənzimlənməsi tədbirləri haqqında"* adlı 1993-cü il 25 avqust tarixli 459 nömrəli qərarı bu sahədə atılan ilk addım idi. Nairlər Kabinetinin *"Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədinin Biləsuvar buraxılış-keçid məntəqəsinin neytral zonasında müştərək bazar yaradılması haqqında"* 1993-cü il 2 noyabr tarixli 552 nömrəli qərarına əsasən buraxılış-keçid məntəqəsinin neytral zonasında müştərək bazar təşkil edildi [10,82].

1993-cü il oktyabrın 28-də Bakı şəhərində *"Azərbaycan Respublikasının Ticarət nazirliyi ilə İran İslan Respublikasının Ticarət Nazirliyi arasında ticarət əməkdaşlığı barədə"* Müqavilə və *"Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında tranzit barədə"* Saziş imzalandı. 1994-cü il yanvarın 1-dən qüvvəyə minən və 10 maddədən ibarət ticarət Müqaviləsinin 1-ci maddəsinə görə tərəflər arasında əmtəə mübadiləsi "A" (İİR-dən Azərbaycan Respublikasına malların ixrac edilməsi haqqında) və "B" (Azərbaycan Respublikasından İİR-ə malların ixrac edilməsi haqqında)siyahıları üzrə həyata keçirilirdi. Sazişin tranzit daşımalara aid 8-ci maddəsində göstərilirdi: *"tərəflər razılığa gəldilər ki, dövlətlərin gömrük orqanları arasında gömrük işinin müxtəlif sahələri üzrə müvafiq müqavilələr imzalasınlar"* [11, 99-101].

1994-1995-ci illərdə Respublikamızın bazar iqtisadiyyatı sisteminə keçidi prosesində hüquqi təminat bazasının yaradılması üçün bir sıra qanunlar qəbul edildi. Bu qanunların reallaşdırılması ölkəmizdə gömrük işinin inkişafına və xarici iqtisadi fəaliyyətin canlanmasına güclü təkan verdi. Ölkə iqtisadiyyatının təhlükəsizliyinə zərər vuran cinayətlərin və hüquqpozmaların aşkar olunması və qarşısının alınması, xarici ticarət əməliyyatları üzərində effektiv nəzarətin təşkili, gömrük brokeri institutunun inkişaf etdirilməsi, gömrük orqanları və işgüzar dairələr arasında əməkdaşlıq əlaqələrinin inkişafı, gömrük orqanı əməkdaşlarının, xüsusi ilə gömrük sərhədindən keçirilən mallara tarif dərəcələrini tətbiq edən mütəxəssislərin ixtisaslarının müntəzəm artırılması və s. işlərin həyata keçirilməsi milli gömrük xidmətinin qarşısında duran ən mühüm vəzifələrdən idi. Bütün bunlar gömrük işi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsini, gömrük rəsmiləşdirilməsi və nəzarəti prosedurlarının sadələşdirilməsini, xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi üçün xüsusi, yalnız bu iş üçün ixtisaslaşmış mərkəzlərin yaradılmasını, yeni texnologiyaların

rasional və inteqrasiya olunmuş istifadəsinin həvəsləndirilməsini tələb edirdi.

Qeyd edilən dəyişikliklər Azərbaycanın gömrük işi sahəsində beynəlxalq əməkdaşlıq münasibətlərinin inkişafına əlverişli şərait yaratdı. Azərbaycan gömrük xidmətinin beynəlxalq əməkdaşlıq proqramı əhatə dairəsinin genişliyi və çoxşaxəli olması ilə fərqlənir və aşağıdakı nəticələrin qazanılmasına istiqamətlənmişdi:

– qabaqcıl ölkələrin gömrük qurumları ilə yeni yanaşmalar və təcrübə mübadiləsinin dərinləşdirilməsi. qarşılıqlı səfərlər, yüksək səviyyədə görüşlər və müzakirələrdə qarşılıqlı əlverişli imkanların öyrənilməsi;

– gömrük əməkdaşlığının aparıldığı ölkələrlə informasiya mübadiləsi və məlumatların ötürülməsi və qəbulu texnologiyalarının təkmilləşdirilməsi;

– narkotik vasitələrin, psixotrop maddələrin, silahların, kimyəvi, bioloji maddələrin, nüvə və radioaktiv materialların idxal və tranzitinə nəzarət edilməsində, çirkli pulların yuyulmasının qarşısının alınmasında və beynəlxalq terrorizmlə mübarizə zamanı ən son təhlükəsizlik texnologiyalarının tətbiqində iş birliyinin yaradılması;

– gömrük əməkdaşlarının peşəkarlığının artırılmasına xidmət edən beynəlxalq təlim kurslarının və seminarların təşkil edilməsi və s.

1995-ci il martın 8-10-da Tehran şəhərində Azərbaycan Respublikası DGK ilə İİR-in Baş Gömrük İdarəsi ilə gömrük əməkdaşlığı üzrə *"Niyyət Protokolu"*, 1995-ci il 5-7 mayda Bakıda *"Azərbaycan və Gürcüstan Respublikaları Hökumətləri arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizədə əməkdaşlıq haqqında"* imzalanmış Saziş müstəqillik dövrünün bu sahədə ilk beynəlxalq sənədləri olmuşdur. 1996-cı ilin iyulunda İİR Baş Gömrük İdarəsinin rəisi Əbülhüseyn Bəhaci Azərbaycana səfərində hər iki ölkə arasında gömrük işi sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdi [90, 1996, 20 iyul].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"İxrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" 1*995-ci il 24 aprel tarixli 90 saylı Qərarı ilə Azərbaycanla ticarətdə əlverişli şərait rejimi tətbiq edən ölkələrin siyahısı təsdiq edildi. Bu siyahıya Ermənistandan başqa, bütün MDB üzvü ölkələri və Baltikyanı respublikalar, Skandinaviya ölkələri, ABŞ, Böyük Britaniya, Fransa, Çin, Hindistan, Koreya və KXDR,

Türkiyə və İranın da daxil olduğu ümumilikdə 55 dövlət var idi.

Respublikamız beynəlxalq gömrük münasibətlərində ikitərəfli müqavilə təcrübəsinə geniş yer vermişdir. Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığının əsası 1995-ci ildə imzalanan ikitərəfli sazişlərlə qoyulmuşdu. 1995-ci il iyunun 29-da Sofiya şəhərində Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında imzalanan saziş ən əlverişli rejim yaradılmasını nəzərdə tuturdu. Sənəddə idxal və ixraca və ya onlarla əlaqədar tətbiq edilən rüsum və yığımların alınması üsulu, gömrük prosedurаları, malların daşınması, anbarlara vurulması və yüklənməsi qaydaları sahəsində razılıq əldə edilmişdi.

1995-ci il iyulun 2-də Buxarestdə *"Azərbaycan Respublikası ilə Rumıniya arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında Saziş"*in şərtləri hər iki dövlət arasında sərhədyanı və sahilboyu ticarətin asanlaşdırılmasına, yaxın perspektivdə gömrük ittifaqında və sərbəst ticarət zonalarında birgə əməkdaşlığın inkişafına istiqamətlənmişdi. 1995-ci il oktyabrın 9-da Bakı şəhərində *"Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"*lə hər iki dövlətin gömrük işi sahəsində əlaqələri yaranmış oldu. 1995-ci il mayın 7-də Bakı şəhərində imzalanan Azərbaycanla qonşu Gürcüstan arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə birgə mübarizə aparılmasını nəzərdə tutan Saziş Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 15 iyun tarixli 339 nömrəli Sərəncamı ilə qüvvəyə mindi [14, 47, 50-52, 58-61, 200-208].

Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 16 sentyabr tarixli 215 nömrəli Sərəncamı ilə 1994-cü il 15 aprel tarixində Moskva şəhərində imzalanmış Müstəqil Dövlətlər Birliyi iştirakçıları olan dövlətlər arasında *"Gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* Saziş və "Gömrük xidmətlərinin qanunsuz aparılan və gətirilən mədəni sərvətlərin tutulub saxlanılması və geri qaytarılması məsələləri üzrə əməkdaşlıq haqqında Saziş" təsdiq edildi [9, 30 sentyabr 1995, № 17-18, maddə 315].

Azərbaycan Beynəlxalq Yol Daşımaları Konvensiyasına qoşulmaqla tranzit yüklərin beynəlxalq təcrübədə qəbul edilmiş prinsiplərinə əməl edirdi. Azərbaycan, Gürcüstan, Özbəkistan və Türkmənistan prezidentlərinin imzaladıqları 1996-cı il mayın 13-də Seraxsda (Türkmənistan)

*"Tranzit daşımaların tənzimlənməsi üzrə əməkdaşlıq edilməsi haqqında"* Saziş gömrük işi sahəsində qarşılıqlı əməkdaşlığın inkişafına xidmət edirdi. Bu sənədə görə, həmin ölkələr arasında daşınan yüklərin mühafizəsinə dövlət təminatı verilir, gömrük rüsumları sadələşdirilir və daşımalara tətbiq edilən tariflər 50 faiz aşağı salınırdı. İş adamlarına normal şərait yaratmaq və malların sərhəd-buraxılış məntəqələrindən keçidi zamanı vaxt itkisini aradan qaldırmaq üçün MDB məkanına daxil olan dövlətlərin əksəriyyəti ilə gömrük təminatlarının (möhürlərin, ştampların, və s.) tanınması sahəsində də əməkdaşlıq sazişləri imzalanmışdı.

Azərbaycan Respublikasının ikitərəfli müqavilə təcrübəsi Respublikamızın bir sıra beynəlxalq qurumlarla bağladığı müqavilələrdə təsbit olunmuşdur. Belə ki, 1996-cı il tarixli Avropa Birliyi və Azərbaycan Respublikası arasında *"Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"*nin 67-ci maddəsində müvafiq əməkdaşlığın istiqamətləri öz əksini tapdı. Azərbaycan Respublikasının gömrük xidməti 1995-ci ildən başlayaraq ABŞ-ın müxtəlif dövlət qurumları, o cümlədən Dövlət Departamenti, gömrük və sərhəd xidməti orqanları ilə əməkdaşlıq edir. İlk dəfə bu əməkdaşlıq ixraca nəzarət sahəsində ABŞ təcrübəsinin öyrənilməsi və onun Azərbaycanda tətbiqi ilə başlanmışdı. Azərbaycanda gömrük tariflərinin tətbiqi ilə bağlı hüquqi-normativ aktın modeli ABŞ-ın müvafiq qanunvericiliyi əsasında yaradılmışdı. Respublika DGK-nın Kinoloji Mərkəzi və Gömrük Laboratoriyasının yaradılmasında da ABŞ təcrübəsindən istifadə edilmişdi, gömrük tarifləri ilə bağlı hüquqi normativ aktın modeli ABŞ-ın müvafiq qanunvericiliyi əsasında yaradılmışdı.

1996-cı il mayın 27-də *"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* Sazişin 2-ci maddəsinə müvafiq olaraq, iki dövlət arasında sərnişin və yük daşımalarının asanlaşdırılması və sürətləndirilməsi, gömrük rüsumlarının və başqa yığımların düzgün alınmasının təmin edilməsi, idxal və ixrac imtiyazlarının tətbiq edilməsi, gömrük hüquq pozuntularının qarşısının alınması və aradan qaldırılması və s. məsələlər razılaşdırılmışdı.

1996-cı il iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İİR Baş Gömrük İdarəsinin rəisi Əbulhüseyn Vəhacini qəbul etmiş, hər iki tərəfin gömrük əməkdaşlığı məsələləri müzakirə edilmişdi.

1996-cı ildə DGK-nın rəhbər vəzifəli şəxsləri Moskva, Vyana, Brüssel, London, İstanbul, Ədirnə, Dubay, Honq-Konq və Daşkənddə keçirilən bir çox beynəlxalq simpozium, seminar və yığıncaqlarda iştirak etmişdi. Bakıda İİR-in Gömrük idarəsi, Birləşmiş Krallığın Gömrük və Aksiz İdarəsinin səlahiyyətli nümayəndələri, ölkəmizə gələn Avropa Gömrük Birliyinin mütəxəssisləri ilə TASİS Proqramı çərçivəsində gömrük işinin müxtəlif məsələlərini əhatə edən danışıqlar aparılmışdı.

BMT-nin Yaxın və Orta Şərq ölkələrinin narkotik maddələrə nəzarətə dair Yardımçı Komissiyasının 1997-ci ilin fevralında Bakıda keçirilən 32-ci sessiyasında BMT-nin İnkişaf Proqramının ölkəmizdəki əlaqələndiricisi Paolo Lembo gömrük orqanlarına maliyyə yardımı göstərilməsi məsələsini bəyan etmişdi.

1997-ci il iyulun 7-də Londonda Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında gömrük xidmətləri arasında qarşılıqlı inzibati yardım haqqında razılaşma Memorandumu imzalanmışdı. Memorandumun tətbiq edilmə dairəsinə daxil idi: a) Gömrük qanunvericiliyinə düzgün əməl edilməsinin təmin edilməsi; b) Gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, təhqiq edilməsi və ləğv edilməsi; v) Gömrük qanunvericiliyinin tətbiqinə aid sənədlərin göndərilməsində qarşılıqlı yardım [20, 673-679]

Azərbaycan Respublikası MDB dövlətləri (Rusiya Federasiyası, Gürcüstan, Qazaxıstan, Moldova, Türkmənistan, Özbəkistan və Ukrayna) ilə azad ticarət haqqında ikitərəfli sazişlər, həmçinin gömrük birlikləri, iqtisadi inteqrasiya və azad ticarət zonası üzrə tənzimləyici sənədlər imzaladı. MDB üzv dövlətlərinin gömrük orqanları ilə əməkdaşlıq sahəsində konkret işlər görülürdü. Ukrayna, Belarus, Özbəkistan, Qazaxıstan, Tacikistan, Türkmənistan, Gürcüstan Respublikasının gömrük orqanlarından gömrük tarifləri, idxal-ixrac rüsumları, əlavə dəyər vergisi, aksizlər haqqında məlumatlar alınırdı. Azərbaycan Hökuməti ilə Ukrayna Hökuməti arasında bağlanmış azad ticarət Sazişin həyata keçirilməsinin mexanizminin yaradılması üçün Respublika DGK-si Nazirlər Kabinetinə müraciət etmişdi. Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında Kiyev şəhərində imzalanan 1997-ci il 24 mart tarixli *"Gömrük işi sahəsində əməkdaşlıq haqqında Saziş"*də öz tətbiq sahəsinə görə yuxarıdakı sənədlə eynilik təşkil edirdi.

1997-ci il 10 iyun tarixində Almaatı şəhərində *"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Saziş"* tərəflər arasında sərnişin və yük daşımalarının inkişafına və sürətləndirilməsinə imkan yaradılması, həmçinin gömrük qanunvericiliyinə riayət edilməsi və gömrük hüquqpozmaları ilə mübarizə aparılması sahəsində milli gömrük xidmətləri arasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tuturdu [24, 30 noyabr, 1997, №5, maddə 407; 31 dekabr 1997-ci il, №6, maddə 474].

1997-ci il iyulun 7-də London şəhərində *"Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardım haqqında Memorandum"* Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 2 dekabr tarixli 702 nömrəli Sərəncamı ilə təsdiq edildi. Memoranduma əsasən tərəflər: a) gömrük qanunvericiliyinə düzgün əməl edilməsi; b) gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, təhqiq edilməsi və ləğv edilməsi; c) gömrük qanunvericiliyinin tətbiqinə aid sənədlərin göndərilməsi sahəsində qarşılıqlı yardım göstərilməsinə tərəfdar olduqları haqqında razılığa gəlmişdilər [6,1997, 4 dekabr, №265].

1998-ci ilin sentyabrında MDB üzv ölkələrinin Gömrük Xidməti Rəhbərləri Şurasının 20-ci iclası Bakıda keçirildi. İclasda gömrük orqanları arasında informasiya mübadiləsi, xarici iqtisadi fəaliyyət iştirakçılarının maliyyə işlərinin təftiş edilməsi prinsipləri, gömrükdə hüquq pozuntularının qarşısının alınması, üzv dövlətlərin ərazisindən keçirilən aksiz vergisinə cəlb edilmiş mallara gömrük nəzarətinin təmin edilməsi, MDB ölkələri vətəndaşlarının sərhəd-buraxılış məntəqələrindən keçidinin sadələşdirilməsi haqqında işgüzar danışıqlar aparılmışdı [81, 101-102].

1999-cu ildə İİR-in Baş Gömrük İdarəsinin rəisi Mehdi Kərbasian və Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Gömrük müstəşarı Ramazan Uludağın ölkəmizə işgüzar səfərləri oldu. İİR-in Baş Gömrük İdarəsinin rəisi Mehdi Kərbasianın 30 sentyabr 2014-cü ildə ölkəmizə işgüzar səfəri gömrük işi sahəsində əməkdaşlığı daha da möhkəmlənməsinə xidmət etdi.

Gömrük tarifləri sahəsində məlumat mübadiləsi ilə əlaqədar müddəalar dövlətlər arasında imzalanmış ikitərəfli müqavilələrdə də əks etdirilir. Belə ki, *"Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı əməkdaşlıq*

*haqqında Saziş"*in (2000-ci il Saziş 8 fevral tarixli Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmişdir) 3-cü maddəsində göstərilir ki, gömrük idarələri bir-birini istər sorğu, istərsə də öz xüsusi təşəbbüsləri ilə gömrük tarifi ilə bağlı məsələlərin dəqiqliyinin təmin edilməsinə kömək edə biləcək məlumatlarla təmin etməlidir.

Tranzit ölkə kimi Azərbaycan Respublikasının dünya dövlətləri və beynəlxalq təşkilatlarla gömrük əməkdaşlığının genişlənməsi xüsusi əhəmiyyət kəsb edir. DTT, DGT və başqa təşkilatlarla sıx əməkdaşlıq edən Azərbaycan Respublikasının gömrük siyasətinin bu istiqamətdə qurulması olduqca əhəmiyyətlidir. Dövlət Gömrük Komitəsi müxtəlif beynəlxalq təşkilatların – Beynəlxalq Valyuta Fondunun (BVF), Dünya Bankının və Dünya Gömrük Təşkilatının (DGT) yaxından köməyi ilə modernləşmə işləri apardı. Nəticədə müstəqil gömrük brokerləri sistemi formalaşdırıldı, ölkədən tranzit keçən yüklər üzrə gömrük ödənişlərinin sığortalanması, gömrük rüsum və vergilərinin ödənilməsində müvafiq bankların veksellərindən istifadə qaydasının təsdiq edilməsi, bütün gömrük orqanlarını əhatə edən informasiyanın ötürülməsinin "on-line" sisteminin qurulması həyata keçirildi. Bir tərəfdən, ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək məqsədilə gömrük nəzarəti daha da gücləndirildi, digər tərəfdən isə, ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi, iş adamlarına sağlam şərait yaradıldı.

DGT-nin Baş Katibi Mişel Danenin 1999-cu ilin sentyabr ayında keçmiş SSRİ məkanında ilk dəfə olaraq Azərbaycana etdiyi rəsmi səfər və Ümummilli lider Heydər Əliyevlə keçirdiyi görüşlər ölkəmizlə bu təşkilat arasında ikitərəfli əlaqələrin yaradılması və inkişaf etdirilməsində əlverişli şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə beynəlxalq gömrük əlaqələrinin inkişafında xüsusi səylərinə görə dünya gömrük təşkilatının Baş katibi tərəfindən xüsusi xatirə medalı təqdim edildi. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 1999-cu il iyunun 24-də DGT-nın Maliyyə Komitəsinə, 2000-ci il iyunun 6-da isə bu təşkilatın Siyasi Komissiyasına üzv seçilməsi beynəlxalq təşkilatlarla gömrük işi sahəsində əməkdaşlığına yeni istiqamət verdi. Respublika gömrükçülərinin nümayəndə heyəti 2001-ci ilin dekabrında Brüsseldə DGT-nin Siyasi komissiyasının 46-cı sessiyasında iştirak etdi [4, 2001, 11 dekabr].

Məlumdur ki, qloballaşma şəraitində dünyanın ÜTT üzvü olan

ölkələrin xarici ticarət əlaqələri bu təşkilatın prinsipləri əsasında formalaşır. ÜTT-nin qəbul etdiyi dörd əsas prinsipdən ikisi üzv dövlətlərin gömrük siyasətini əhatə edir: a) gömrük vergilərinin azaldılaraq konsolidasiya edilməsi və b) tarifdən kənar tədbirlərin tədbirə çevrilməsi, yaxud müdafiənin sadəcə gömrük vergiləri ilə həyata keçirilməsi. Xarici ticarətin beynəlxalq normalar səviyyəsində idarə edilməsi üçün Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tam hüquqlu üzvü olmasına hazırlıq işləri görülür. Respublika hökuməti xarici ticarət rejimi haqqında Memorandum hazırlayıb ÜTT-yə təqdim etdi. Respublikanın xarici iqtisadi fəaliyyətinə aid bütün qanunvericilik aktları Memoranduma daxil edildi. Görülən hazırlıq işləri nəticəsində Azərbaycan Respublikası 1998-ci ilin iyul ayında ÜTT-də müşahidəçi statusu aldı. Təşkilatın tam üzvlüyünə qəbul edilən ölkələrin qarşısına xarici ticarət sahəsində apardıqları dəyişikliklər və islahatların

strateji istiqamətləri ticarətin liberallaşması, əsassız məhdudiyyətlərin aradan qaldırılması və inzibati idarəetmə sisteminin iqtisadi metodlarla əvəz olunması tələbi qoyulur. Bir sıra hüquqi məsələlərin uzlaşdırılması istiqamətində işlər davam etdirilməkdədir [25, 2003, 4 may].

2000-ci il aprelin 7-də Bakı şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyi arasında *"Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında", "Sərhədlərdən qanunsuz keçirilən mədəni sərvətlərin tutulub saxlanılması və qaytarılması məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" və "Əməkdaşlıq və gömrük sənədlərinin və gömrük təminatlarının qarşılıqlı tanınması haqqında"* sazişlər imzalandı [24, 30 iyun 1997-ci il, №6, maddə 474; 30 iyun 2002-ci il, №6, maddə 372; 30 iyun 2002-ci il, №6, maddə 373; 30 iyun 2002-ci il, №6, maddə 374].

"Azərbaycan Respublikasında sərhəd-buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə Komissiya haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 20 may tarixli 423 nömrəli Sərəncamı sərhəd – nəzarət buraxılış məntəqələrində miqrasiya prosesləri ilə məşğul olan təşkilatların fəaliyyətinin əlaqələndirilməsi, qeyri-

qanuni miqrasiyanın qarşısının alınması, ölkəyə giriş-çıxış əməliyyatlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasının təmin edilməsi, habelə bu sahədə beynəlxalq təşkilatlarla əlaqənin möhkəmləndirilməsi məqsədi daşıyırdı. Dövlət Gömrük Komitəsi sədrinin də tərkibinə daxil olduğu Komissiyadan sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi və bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın möhkəmləndirilməsi tələb olunurdu [24, 23 may 2000-ci il, №5, maddə 349].

Avropa Birliyinin TRASEKA Proqramı çərçivəsində həyata keçirilən investisiya layihələri milli gömrük xidmətinin inkişaf etdirilməsində əhəmiyyətli rolu oldu. Ayrılan investisiya hesabına 1998-ci ildə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikasının sərhədində "Qırmızı körpü" sərhəd gömrük məntəqəsi tikildi. Tarixi İpək yolunun işə düşməsi ilə əlaqədar TRASEKA proqramı çərçivəsində gömrük xidmətinin infrastrukturunun təkmilləşdirilməsi həyata keçirilirdi. "Sərhədlərdən keçidin sadələşdirilməsi" adlı texniki yardım layihəsinin icraçısı İngiltərənin "Skot Vilson" şirkəti idi. 2002-ci il sentyabrın 9-32-də TRASEKA Daimi Katibliyinin Bakıda keçirilən seminarı gömrük prosedurаlarının sadələşdirilməsi məsələlərinə həsr edilmişdi, Seminarda sərhəd keçidlərinin sadələşdirilməsi ilə əlaqədar təkliflər müzakirə edilmişdi.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının əsas məqsədi əsas sosial xidmətlər və informasiya bazasından istifadə problemlərinin həllində inkişaf etməkdə olan ölkələrə yardım göstərməkdir. 1993-cü ildən etibarən Azərbaycanda fəaliyyət göstərən və büdcəsi 29 milyon ABŞ dollarına çatan qurumun layihələri idarəetmə sisteminin təkmilləşməsi, ətraf mühitin mühafizəsi, yenidənqurma və bərpa işlərinin aparılmasına kömək edirdi. Tərəflər həmin layihənin icrasına 1999-cu ilin yanvar ayında başladı. Layihənin birinci mərhələsində bölgədə ilk dəfə mərkəzi gömrük idarəsi ilə regional gömrük bölmələrini birləşdirən geniş elektron şəbəkəsi yaradılmışdı. Gömrük əməkdaşlarına müasir kompüter və telekommunikasiya avadanlıqlarının istifadəsi haqqında təlimlər verilmişdi. 2001-ci ilin may ayının 24-dən 2003-cü ilin əvvəlinə qədər olan dövr üçün layihənin 2-ci mərhələsi imzalandı. Bu mərhələ beynəlxalq ticarət prosesinin sadələşdirilməsinə xidmət edən kompüterləşdirilmiş sistemin yaradılmasının başa çatdırılmasını nəzərdə tuturdu. Layihədə, həmçinin qaçaqmalçılıq və

gömrük qaydalarının pozulması ilə mübarizəyə müəyyən yer verilmişdi. İcra müddəti ərzində "Gömrük orqanları tərəfindən müəyyən olunmuş hüquq pozmalarının avtomatlaşdırılmış uçot və nəzarət sistemi" nin texniki tapşırığı, texniki bazası və proqram təminatının bir hissəsi yaradılmış, bu sistem layihənin növbəti mərhələsində tam tətbiqini tapmışdır. Layihənin ikinci mərhələsi elektron əlaqələndirmə şəbəkəsinin tam yaradılması ilə nəticələnmişdi.

Layihənin ikinci mərhələsində "on line" texnologiyası tətbiq edilmişdi. Nəhayət, bu mərhələdə müxtəlif sahələr üzrə xarici mütəxəssislər cəlb etməklə gömrük əməkdaşlarının tədrisinə böyük yer verilmişdi. 2003-cü il yanvarın 14-də BMT-nin İnkişaf Proqramının rezident əlaqələndiricisi Marko Barsotti və DGK-nın sədri Kəmaləddin Heydərov "Dövlət Gömrük Komitəsinin Potensialların Ötürülməsi Şəbəkəsinin yaradılması" üzrə layihənin üçüncü mərhələsi haqqında sənədi imzaladılar. 2003-2004-cü illəri əhatə edən bu mərhələdə xüsusiləşdirilmiş proqram təminatının yaradılması və sınaqdan keçirilməsi, gömrük əməkdaşlarının təlimi və bu sahədə tədqiqatların aparılması yaxşı nəticələr vermişdi. Gömrük işinin təşkilində mühüm əhəmiyyət daşıyan "Gömrük Rəsmiləşdirilməsi və Nəzarətin Avtomatlaşdırılmış Sistemi"nin eksperimental qaydada tətbiqini qeyd etmək olar. BMT-nin İnkişaf Proqramı və DGK tərəfindən birgə maliyyələşdirilən layihənin dəyəri 1,060 mln. ABŞ dolları olmuşdu. 2005-ci il aprelin 8-də BMT-nin İnkişaf Proqramı və Azərbaycan Hökuməti arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Potensialının Gücləndirilməsi və Məlumatların Ötürülməsi Şəbəkəsinin Yaradılması" layihəsinin üçüncü mərhələsinin müddətinin uzadılmasına dair Memorandum imzalandı. Layihənin üçüncü mərhələsinin uzadılmasında məqsəd "on-line" rejimində işləyən korporativ şəbəkənin əhatə zonasının genişləndirilməsi, Gömrük Rəsmiləşdirilməsi və Nəzarətin Avtomatlaşdırılmış Sisteminin (GRNAS) gömrükxanalar və gömrük postlarında tətbiq edilməsi, gömrük anbarlarında və terminallarda iş prosedurаlarının avtomatlaşdırılması idi. Layihənin üçüncü mərhələsinin icrası zamanı şəbəkənin genişləndirilməsi, GRANS-ın tətbiqinin davamı, eləcə də qaçaqmalçılığa dair mövcud məlumat bazalarının gücləndirilməsi işləri həyata keçirilmişdir. Bu məqsədlə, müvafiq olaraq Dövlət Gömrük Komitəsi tərəfindən 450 min, BMT-nin İnkişaf Proqramı tərəfindən isə 200 min ABŞ dolları məbləğində vəsait ayrılmışdı

[40, 2005, 9 aprel, №14 (428)].

Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsində beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddəaların həyata keçirilməsi əsas istiqamətlərdən birini təşkil edir. Azərbaycan Respublikası DGK və Rusiya Federasiyası DGK arasında 2002-ci il 10 aprel tarixli *"Mədəni sərvətlərin qanunsuz aparılması və gətirilməsi ilə mübarizədə əməkdaşlıq haqqında"* beş il müddətinə Protokol bağlanıldı. Protokolun 1-ci maddəsində göstərilirdi ki, Azərbaycan Respublikası və ya Rusiya Federasiyasına məxsus olan mədəni sərvətlərin qanunsuz keçirilmə faktı aşkara çıxarılarsa, yaxud şübhəli bilinən şəxslər göstərilən dövlətlərin vətəndaşları idilərsə, tərəflər mədəni sərvətlərin aşkara çıxarılması və saxlanılması hallarına dair qanunvericiliyin tələblərinə zidd olmayan məlumatları; götürülmüş mədəni sərvətlərin təsvir və fotoşəkillərini; mədəni sərvətlərin qanunsuz aparılması və gətirilməsi ilə bilavasitə əlaqəsi olan hüquqi və fiziki şəxslər haqqında məlumatları; mədəni sərvətlərin daşındığı nəqliyyat vasitələri və gizlədilmə üsulları barədə məlumatların çatdırılması kimi öhdəlikləri yerinə yetirməlidir [24, 31 avqust 2002, maddə 519].

Azərbaycanın müstəqillik əldə etməsi onun bir çox ölkələrlə və beynəlxalq təşkilatlarla bərabər hüquqi əməkdaşlığı üçün şərait yaratdı. Müasir qloballaşma şəraitində dövlətlərarası inteqrasiya proseslərinin güclənməsi iqtisadi, ərzaq və enerji təhlükəsizliyi məsələlərini ön plana çəkməklə yanaşı dövlətin iqtisadi təhlükəsizliyinin və daxili bazarın qorunmasını əsas qarantı kimi gömrük nəzarəti sisteminin daha da təkmilləşdirilməsini tələb edirdi. Tədqiq edilən dövrdə ölkəmizin gömrük işi sahəsində ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin əsası qoyuldu. Qabaqcıl ölkələrin gömrük işi sahəsində təcrübəsinin öyrənilməsi və tətbiqi, beynəlxalq tələblərə uyğunlaşdırılan gömrük qanunvericiliyinin yaradılması sahəsində görülən işlər, gömrük-tarif siyasətinin müəyyənləşdirilməsi, qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, gömrük infrastrukturunu daha da möhkəmləndirilmək tədbirləri əlaqələrin əsas prinsiplərini təşkil edirdi [141, 43-47].

İkitərəfli gömrük münasibətlərinin tənzimlənməsi təcrübəsində statistik fəaliyyət və informasiya mübadiləsinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin *"2002-ci ilin aprelin 10-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Rusiya*

*Federasiyası arasında İqtisadi Əməkdaşlıq Məsələləri üzrə Birgə Hökumətlərarası Komissiyanın altıncı iclası zamanı imzalanmış sənədlər haqqında"* 2002-ci il 24 avqust tarixli 1020 saylı Sərəncamı ilə hər iki dövlətin gömrük orqanları arasında xarici ticarətin gömrük statistikası sahəsində metodoloji və informasiya əməkdaşlığı protokolu təsdiq edilmişdir [24, 31 avqust, №8, maddə 519].

Azərbaycan Respublikası ilə İİR arasında *"Gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* 2002-ci il mayın 20-də Tehran şəhərində saziş imzalandı. Sazişdə hər iki dövlət gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, iqtisadi, maliyyə və ictimai maraqlarının qorunmasında gömrük orqanları arasında əməkdaşlıq sahəsində səylərin artırılmasının əsas şərtləri müəyyənləşdirildi. Sazişin 3-cü maddəsində əməkdaşlıq və qarşılıqlı yardımın aşağıda göstərilən formalarından istifadə edilməsi razılaşdırıldı: gömrük orqanları sorğu əsasında və ya öz təşəbbüsləri ilə bir-birini zəruri məlumatlarla təmin etməli; öz fəaliyyətləri ilə bağlı təcrübə mübadiləsi və hüquqpozmaların yeni meylləri, vasitə və metodları haqqında məlumat mübadiləsi aparmalı; gömrük qanunvericiliyində mühüm dəyişikliklər barədə, həmçinin nəzarətin texniki üsulları və onların tətbiq edilməsi metodları barədə bir-birini məlumatlandırmalı idi. 2002-ci il yanvarın 30-da Bakı şəhərində Niderland Krallığı ilə gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım, 2002-ci il mayın 20-də Tehran şəhərində İİR ilə gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım 2002-ci il noyabrın 19-da Vyana şəhərində Avstriya respublikası ilə gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında imzalanan sazişlər Respublika Prezidentinin müvafiq sərəncamları ilə qüvvəyə mindi [24, 31 mart 2002-ci il, №5, maddə 229; 31 iyul 2002-ci il, №7, maddə 393; 31 dekabr 2003-cü il, №12, I kitab, maddə 695].

2004-cü il mayın 18-də Brüssel şəhərində imzalanmış *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Dünya Gömrük Təşkilatı arasında Niyyət Protokolu"*nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin 1 sentyabr 2004-cü il tarixli 372 saylı Sərəncamında Dövlət Gömrük Komitəsinə Protokolun həyata keçirilməsi üçün DGT ilə razılaşdırılan aşağıdakı zəruri tədbirlərin görülməsi tapşırıldı:

- milli müddəaların beynəlxalq sənədlərə uyğunlaşdırılması üçün DGT-nin təhlükəsizlik standartlarını tətbiq etmək;

- ”Prezident Heydər Əliyev və Azərbaycanda gömrük xidmətinin inkişafı” adlı beynəlxalq simpozium keçirmək;

- DGT-nin Bakıdakı Regional Tədris Mərkəzindən istifadə edərək, narkotik vasitələrin və kütləvi qırğın silahlarının dövriyyəsinə qarşı mübarizə üçün təsirli strategiyaların tətbiqi məqsədilə İƏT üzv ölkələrinin yüksək səviyyəli gömrük əməkdaşlarının görüşlərini təşkil etmək.

*“Niyyət Protokolu”* Azərbaycan respublikası DGK-nın sədri Kəmaləddin Heydərov və DGT-nin Baş katibi Mişel Dane tərəfindən imzalanmışdı [24, 30 sentyabr 2004, №9, maddə 691].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin mayında Belçikaya səfəri zamanı DGT ilə Azərbaycan Respublikası DGK arasında Niyyət Protokolunun imzalanması və DGT-nin Brüsseldəki iqamətgahı qarşısında “Dədə Qorqud” abidəsinin təntənəli açılışı oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 may 2004-cü ildə Brüsseldə, DGT-nin iqamətgahı qarşısında “Dədə Qorqud” abidəsinin açılışı mərasimindəki çıxışında demişdi: *“Dünya Gömrük Təşkilatında olmaq mənim üçün xoşdur. Azərbaycan ilə Dünya Gömrük Təşkilatı arasında münasibətlər uğurla inkişaf edir, yaxşı qarşılıqlı anlaşma mövcuddur və bizim gömrük xidmətinə göstərdiyi yardıma görə Dünya Gömrük Təşkilatına minnətdaram. Cənab Baş katib regional tədris mərkəzinin açıldığını qeyd etdi. Bu mərkəz tamamilə müasir cihazlar və infrastrukturla təchiz olunmuşdur. Burada təkcə Azərbaycandan deyil, bütün regiondan gömrük işçiləri təhsil alıb peşə bacarıqlarını artıra biləcəklər. Mərkəzin Bakıda, ölkəmizin paytaxtında açılması faktı Dünya Ticarət Təşkilatı ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsini bir daha göstərir* [62, 83].

Gömrük işi sahəsində cinayətkarlığın qarşısının alınması ilə bağlı digər dövlətlərlə də ikitərəfli sazişlər bağlanmışdı. Məsələn, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi arasında 2000-ci il 25 iyul tarixli *“Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə sahəsində əməkdaşlıq haqqında”* Saziş, 2004-cü il 3 iyul tarixli Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında *“Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş*

*sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında"* Saziş ikitərəfli əməkdaşlığın genişləndirilməsini nəzərdə tuturdu.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 sentyabr tarixli 737-IIQ nömrəli Sərəncamı ilə *"Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* Saziş, 2004-cü il 26 oktyabr tarixli 776-IIQ nömrəli Sərəncamı ilə *"Azərbaycan Respublikası Hökuməti və Belçika krallığı Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardımın göstərilməsi haqqında"* ikitərəfli Saziş, 2004-cü il 26 oktyabr tarixli 779-IIQ nömrəli Sərəncamı ilə *"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında"* Saziş təsdiq edilmişdir [24, 31 oktyabr 2004-cü il, №10, maddə 765; 30 noyabr 2004-cü il, №11, maddə 895; 30 noyabr 2004-cü il, №11, maddə 898].

2004-cü il noyabrın 5-də Bakı şəhərində Belarus Respublikası ilə gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım, Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında 2005-ci il martın 30-da Varşava şəhərində gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında, 2005-ci il martın 17-də Çin Xalq Respublikası ilə Pekin şəhərində gömrük işi sahəsində qarşılıqlı yardım haqqında, 2005-ci il fevralın 24-də Roma şəhərində İtaliya Respublikası ilə gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında ikitərəfli sazişlər imzalandı [24, 31 mart 2004-cü il, №3, maddə 135; 32, 30 sentyabr 2005-ci il, №9, maddə 792; 31 iyul sentyabr 2005-ci il, №7, maddə 569; 30 iyun 2005-ci il, №6, maddə 472; 31 mart 2005-ci il, №3, maddə 135].

2004-cü il noyabrın 9-da ölkəmizdə ilk müvəqqəti saxlanc gömrük terminalı istifadəyə verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astarada "Azər Cənub" MMC Beynəlxalq Yük Terminalının açılışında iştirak etdi. Əsasən müvəqqəti saxlanc anbarlarına malik terminalda avtomatlaşdırılmış lokal şəbəkə sistemi, 120 tonluq elektron tərəzi quraşdırılmışdı. Terminalda 5400 kv. metr sahəsi olan 4 anbar və mənfi 40 dərəcəyədək soyutma qabiliyyəti olan 900 kv. metrlik soyuducu

anbar istifadəyə verilmişdi [2, 2004, 12 noyabr].

2004-cü ilin yanvarın 22-23-də Bakıda 26 ölkənin və 10 beynəlxalq təşkilatın təmsil olunduğu *"İpək yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə"* mövzusunda keçirilən Beynəlxalq konfransda gömrük xidməti orqanlarının digər hüquq-mühafizə orqanları ilə birgə əməkdaşlığını nəzərdə tutan "Bakı bəyannaməsi" qəbul edilmişdi.

2004-cü il yanvarın 22-də Paris şəhərində *"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında gömrük hüquq-pozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında"* Saziş imzalandı. Sənədin 4-cü maddəsində hər iki dövlətin gömrük idarələrinin qarşılıqlı yardım məqsədilə bir-birinə aşağıdakı məlumatları vermələri nəzərdə tutulurdu:

a) təsdiq olunmuş və ya planlaşdırılmış və qanunsuz olan və ya qanunsuz kimi görünən qeyri-müntəzəm əməliyyatlar;

b) saxtakarlığın yeni vasitə və metodları;

c) qanunsuz dövriyyənin obyekti kimi məlum olan malların kateqoriyaları;

ç) digər tərəfin gömrük qanunvericiliyini pozmaqda və ya poza biləcəyində şübhə doğuran şəxslər;

d) gömrük hüquqpozmalarının törədilməsi ilə mübarizədə öz səmərəliliyini təsdiq etmiş yeni metodlar;

e) digər tərəfin gömrük qanunvericiliyinin pozulmasında istifadə olunduğu şübhə doğuran gəmilər, təyyarələr və ya digər nəqliyyat vasitələri barədə [24, 31 mart 2004-cü il, №3, maddə 136].

Azərbaycan-Türkiyə gömrük əməkdaşlığının yaranması və inkişafı dövlətimizin gömrük siyasətinin prioritet istiqamətlərindən biridir. Bu əməkdaşlığın yaranması, əslində, Azərbaycanın müstəqil gömrük xidmətinin formalaşması dövrü ilə üst-üstə düşür. *"Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti Hökumətləri arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* 2004-cü il 13 apreldə imzalanan və 2004-cü il iyunun 9-da qüvvəyə minən Saziş gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatların aparılması və bu hüquqpozmalara qarşı cavab tədbiri görülməsi üçün bir-birinə yardım göstərilməsi məsələlərini əhatə edir.

Sazişin 6-cı maddəsində hər iki milli dövlətin qanunvericiliyinə uyğun

olaraq gömrük idarələrinin texniki əməkdaşlığının əsas istiqamətləri göstərilmişdir:

a) əməkdaşların təhsili sahəsində qarşılıqlı proqramların hazırlanması və tətbiqi;

b) məlumat ötürülməsinin rabitə əlaqələrinin yaradılması və istifadəsi;

c) əməkdaş və mütəxəssis mübadiləsi də daxil olmaqla aralarında bərabər təsirli əlaqələrin qurulması;

ç) gömrük proseduru və nəzarətində tətbiq olunan hər cür vasitənin istifadəsi ilə bağlı qarşılıqlı təcrübə mübadiləsi;

d) qarşılıqlı razılaşdırılan mövzularda birgə seminar və konfransların təşkili;

e) qarşılıqlı olaraq gömrük prosedurаların sadələşdirilməsi;

ə) gömrük qanunvericiliyi və tətbiqi sahəsində qarşılıqlı məlumat mübadiləsi [24, 2004, 31 iyul, №7, maddə 521].

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli sərəncamı ilə *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş"* (2004-cü il dekabrın 3-də Bakı şəhərində imzalanmış)təsdiq olundu.

2004-cü il mayın 18-də Brüsseldə imzalanmış *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Dünya Gömrük Təşkilatı arasında Niyyət Protokolu"*nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 sentyabr tarixli 372 saylı Sərəncamı ilə milli müddəaların beynəlxalq sənədlərə uyğunlaşdırılması və DGT-nin təhlükəsizlik standartlarının tətbiqinə rəvac verirdi. Sərəncamın həyata keçirilməsi gedişində *"Prezident Heydər Əliyev və Azərbaycanda gömrük xidmətinin inkişafı"* adlı beynəlxalq simpozium və DGT-nin Bakıdakı Regional Tədris Mərkəzində İƏT üzv ölkələrinin gömrük əməkdaşları ilə birgə narkotik vasitələrin və kütləvi qırğın silahlarının dövriyyəsinə qarşı mübarizədə təsirli strategiyaların tətbiqinə həsr edilmiş görüş keçirildi [24, 2004, 30 sentyabr, №9, maddə 691].

2005-ci il 19-21 mayda Bakıda Ümumdünya Gömrük Sərgisi və Forumu, həmçinin *"Heydər Əliyev və Azərbaycan gömrüyünün inkişafı"* mövzusunda Beynəlxalq simpozium keçirildi. Gömrük Sərgisində dünyanın

50-dən yuxarı şirkətinin istehsalı olan və ən yeni texnologiyalara əsaslanan nəzarət avadanlıqları və cihazlar nümayiş etdirildi. Beynəlxalq Forumda Azərbaycanla yanaşı, Əfqanıstan, Anqola, Avstriya, Belçika, Belorus, Braziliya, Çin, Fransa, Gürcüstan, Almaniya, Haiti, Hollandiya, İran, İtaliya, Yaponiya, Qazaxıstan, Qırğız Respublikası, Malayziya, Moldova, Nigeriya, Norveç, Pakistan, Rusiya, İsveçrə, Tacikistan, Tailand, Türkiyə, Türkmənistan, BƏƏ, Böyük Britaniya və Özbəkistan, həmçinin DGT, İnterpol, Avropa Birliyi, Ümumdünya Poçt İttifaqı, TRASEKA, Beynəlxalq Nüvə Enerjisi Agentliyi (İAEA), BMT-nin Ətraf Mühiti Proqramı (UNEP) və İƏT-in nümayəndələri iştirak edirdi. Bu tədbir beynəlxalq terrorçuluğa qarşı, narkotik vasitələrin, silahların, kimyəvi və bioloji maddələrin, nüvə və radioaktiv materialların idxal və tranzitinə nəzarət edilməsi, çirkli pulların yuyulmasının qarşısının alınması sahəsində gömrük xidmətinin rolunun artdığı şəraitdə müxtəlif dövlətlərin gömrük orqanlarının, özəl sektorun rəhbərləri və mütəxəssislər arasında təcrübə, yeni yanaşmalar və texnologiyalar mübadiləsi baxımından uğurlu oldu. Bu sahə üzrə dünyanın ən nüfuzlu şirkətləri olan Alrvision, Cotecna, SGS (İsveçrə), ASSE, DNA Today, SAİS (ABŞ), SROWN Agents, L3 Security Technolgies, Rapiscan Security Technologies (Birləşmiş Kralıq), FM-One Managment Services, Target Systemelectronic (Almaniya), Smiths Delection (Fransa), Belijing Hualixing, Nutech Company (Çin), Polimasterle (Belarus) şirkətləri ilə yanaşı Azərbaycan şirkətlərindən İnter Service, Mrco Computer, Murhu Shirping, Sinam, Azər-Cənub şirkətləri də öz avadanlıqlarını beynəlxalq sərgiyə təqdim etmişdilər. Beynəlxalq Sərgi çərçivəsində *"Gömrük və hüquq mühafizə xidmətləri və beynəlxalq ticarətin təhlükəsizliyi"* mövzusunda keçirilən Forumun işində 32 dövlətin, həmçinin 8 beynəlxalq təşkilatın nümayəndələri gömrük nəzarətinin təkmilləşdirilməsi perspektivlərini müzakirə edildi 2006-cı il yanvarın 24-27-də Sinqapurda elektron idarəetmə və ticarətin sadələşdirilməsi mövzusunda keçirilən forumda Azərbaycanın gömrük əməkdaşları iştirak etdi [70, 2005, №1(13); 2005, №5, 33; 51, 2006, №100-101, 318-324; 70, 57-60].

2006-cı il fevralın 2-3-də Bakıda DGT və Macarıstan Gömrük Xidmətinin birgə təşkilatçılığı ilə Avropa Regionu Gömrük xidməti Rəhbərləri Şurasının Konfransı keçirildi. Konfransda Avstriya, Belarus, Belçika, Bolqarıstan, Çexiya Respublikası, Danimarka, Finlandiya, Fransa, Gürcüs-

tan, Almaniya, Macarıstan, İslandiya, İrlandiya, İsrail, İtaliya, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Lüksemburq, Moldova, Hollandiya, Norveç, Polşa, Rumıniya, Rusiya Federasiyası, Serbiya, Slovakiya, İspaniya, İsveç, İsveçrə, Tacikistan, Türkiyə, Ukrayna, Böyük Britaniya gömrük xidmətlərinin, DGT, Avropa Komissiyası, İnterpol, Beynəlxalq Yol Daşımaları İttifaqı (RU), və SECİ kimi beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdi. Respublikamızın gömrük xidməti əməkdaşları 2006-cı il aprelin 17-19-da Yaponiyada keçirilmiş *"Ticarətin Sadələşdirilməsi – Gömrük İslahatı və Müasirləşdirilməsi üzrə seminar*"da, həmin ilin mayın 3-4-də Belçika Krallığında *"Transfer qiymət qoyulması və gömrük dəyərləndirilməsi"*, mayın 12-də Ukraynada *"GUAM Ticarətə və Nəql etməyə Yardım üzrə layihə"*nin həyata keçirilməsi həyata keçirən rəhbər Komitənin 5-ci iclasında, mayın 26-27-də Koreya Respublikasında keçirilən *"Gömrük İdarəsi və sərhəd mühafizəsinin qloballaşdırılması"* mövzusunda beynəlxalq konfransda iştirak etdi. 2006-cı il mayın 22-də Ukraynada keçirilən GUAM dövlət başçılarının Zirvə toplantısı çərçivəsində *"Moldova Respublikası hökuməti və Azərbaycan Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında*" Saziş imzalandı [24, 31 oktyabr 2006-cı il, №10, maddə 843].

2006-cı il iyunun 7-də Azərbaycan Respublikası DGK-da Avropa komissiyası və BMT-nin inkişaf Proqramının birgə layihəsi olan *"Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi layihəsi"* imzalanmış, layihə çərçivəsində DGK-ya kompüter avadanlıqları verildi. 2006-cı ildə respublikamızın gömrük əməkdaşları Litvada *"Gömrük anbarları və malların gömrük nəzarəti altında saxlanması üçün nəzərdə tutulmuş digər yerlər"* (29 may - 2 iyun), Almaniya Federativ Respublikasında *"Nüvə və digər radioaktiv maddələrin qanunsuz dövriyyəsinə yönəlmiş cavab tədbirləri"* (7-9 iyun) mövzusunda keçirilən seminarlarda, Misir Ərəb Respublikasında keçirilmiş təlim kursunda (1-15 iyun). Belçikada DGT-nin Regional Tədris Mərkəzinin təlim imkanlarının gücləndirilməsi məqsədilə təşkil etdiyi kurslarda (19-21 iyun), Çin Xalq respublikasında DGT çərçivə standartları və gömrük məlumat modeli ilə bağlı seminarda (12-14 iyul) peşəkarlıqlarını artırmışdı. DGK-nın bir qrup əməkdaşı *"Gömrük qaydalarının pozulmasının qarşısının alınması"* mövzusunda Gurbulaq gömrük və mühafizə Baş müdirliyində (Türkiyə, 21-

27 avqust) təcrübədə olmuşdu. Azərbaycan gömrükçüləri İsveçdə Avropa İttifaqının və BMT-nin İnkişaf Proqramının maliyyə dəstəyi ilə *"Azərbaycan Respublikasında Gömrük Xidmətinin təkmilləşdirilməsi"* layihəsi əsasında yeni Gömrük Məcəlləsinin hazırlanması prosesində keçirilən xüsusi tədbirdə (11-17 sentyabr) Avropa dövlətlərinin gömrük işi sahəsində təcrübəsi öyrənilmişdi. Gömrük əməkdaşları Avstriyada keçirilmiş Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş konfransının 50-ci sessiyasında (18-22 sentyabr) iştirak etmiş, Litvada *"Tarif Nomenklaturasının istifadəsinin praktiki məsələləri və Avropa Birliyi dövlətlərinin tarif məlumatlarının istifadəsi"* mövzusunda keçirilmiş seminarda (18-23 sentyabr) təcrübə mübadiləsi aparmışdı. 2006-cı ildə DGT-nin "Kolumbus proqramı", "Məlumat modeli", "Dünya ticarətinin təhlükəsizliyi və asanlaşdırılması üzrə çərçivə standartları" və Koreya Respublikasının KİPA Agentliyi tərəfindən Azərbaycan Respublikasında gömrük xidmətinin fəaliyyətinin təhlil edilməsi və nəticələrin ümumiləşdirilməsi beynəlxalq əməkdaşlığın bir nümunəsi idi.

Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi başqa dövlətlərin gömrük orqanları ilə gömrük içi sahəsində beynəlxalq normalara uyğun bir çox saziş, protokol və digər sənədlər imzalanmışdır. Belə ki, *"Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* Saziş, *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Bruney Sultanlığı Gömrük və Aksiz idarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında"* Saziş, *"Azərbaycan hökuməti və Küveyt Dövlət hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* Saziş, *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Malayziya Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında"* Saziş, *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Koreya Respublikası Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandum"*u, *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Almaniya Federativ Respublikası Federal Gömrük İdarəsi arasında əməkdaşlıq haqqında Anlaşma* Memorandumu*"nun* layihələri hazırlanaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə təqdim

edilmişdi. Respublika DGK-sı DGT, MDB iştirakçı Dövlətlərin Gömrük Rəhbərləri Şurası, İƏT-in Gömrük Xidməti Rəhbərləri Şurası, Asiya İnkişaf bankı tərəfindən maliyyə dəstəyi verilən Gömrük Əməkdaşlıq Komitəsi, Avropa Komissiyasının TASİS proqramı, AEBA, BMT-nin İnkişaf Proqramı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində beynəlxalq yazışmalar aparılır. Regional Məlumat Əlaqələndirmə İdarələri (RİLO) müntəzəm əlaqələri inkişaf etdirirdi.

Ölkəmiz gömrük işi sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi məqsədilə 25-dən çox dövlətlə hökumətlərarası beynəlxalq sənədlər imzaladı. Azərbaycan Respublikası DGK DGT ilə birgə DGT-nin region ölkələri üçün elektron tədris proqramı, həmçinin DGT-nin Dünya Ticarətinin Təhlükəsizliyi və asanlaşdırılması üzrə Standartlar Çərçivəsi Layihəsinin həyata keçirilməsi üçün tədbirlər həyata keçirildi.

BMT İnkişaf Proqramı ilə Respublika DGK-si arasında imzalanmış *"Dövlət Gömrük Komitəsinin potensialının gücləndirilməsi və informasiya ötürülməsi şəbəkəsinin yaradılması"*na dair texniki yardım layihəsinin 1999-2002-ci illəri əhatə edən ümumi büdcəsi 1 mln. 250 min ABŞ dolları olub. Bu vəsait BMT İnkişaf Proqramı və DGK tərəfindən müştərək təmin edilib. 2003-2004-cü illərdə isə Layihənin ümumi büdcəsi 900 min ABŞ dolları təşkil edən 3-cü mərhələsinin icrasına başlanıldı.

Bütövlükdə 2001-2006-cı illərdə ABŞ tərəfi Azərbaycanın gömrük xidməti əməkdaşlarının peşə təliminə həsr edilən 17 seminar keçirmişdi.

2006-cı il dekabrın 6-da Azərbaycan DGK-da ABŞ-ın xüsusi cihazlarla təchiz edilmiş iki avtomaşından ibarət növbəti texniki yardımının təqdimat mərasimi keçirildi. Azərbaycan Respublikasının 2007-ci il 22 may tarixli 338-IIIQ nömrəli Qanunu ilə *"Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında"* Sazişin imzalanması ixraca nəzarət sistemi, kadr hazırlığı və təcrübə mübadiləsi istiqamətləri üzrə əməkdaşlıq münasibətlərini daha da genişləndirdi [34, 22-27].

Azərbaycan-Türkiyə gömrük əməkdaşlığının yaranması və durmadan inkişaf etdirilməsi dövlətimizin gömrük siyasətinin prioritet istiqamətlərindən biridir. Bu əməkdaşlığın yaranması əslində, Azərbaycanın milli gömrük xidmətinin formalaşması dövrü ilə üst-üstə düşür. TÜSİAB-ın İdarə Heyətinin sədri Bataçar Baysal bu əlaqələrin inkişaf etdirilməsinin mühüm

əhəmiyyət daşıdığını belə qiymətləndirmişdir: *"Gömrük xidməti hər bir dövlətin həyatında ən önəmli strukturlardan biridir. Çünki gömrük xidməti təkcə ölkənin xarici ticarət əlaqələrini istiqamətləndirmir, eyni zamanda idxal-ixrac əməliyyatlarında iştirak edən insanlarla münasibətləri tənzimləyir... Müstəqil Azərbaycan dövlətinin gənc olmasına baxmayaraq, gömrük xidmətinin təkmilləşdirilməsi sahəsində xeyli iş görülmüş, çox böyük addımlar atılmışdır. ..Türkiyədən gəlmiş iş adamları olaraq, Azərbaycanın gömrük xidməti ilə çox sıx əlaqələrimiz var".*

Tarixi İpək Yolu iki min ildən artıq müddətdə Şərq və Qərb arasında elmin, mədəniyyətin və ideyaların yayılması üçün körpü rolunu oynamışdır. Tarixi İpək Yolunun bərpa edilməsində gömrük orqanlarının rolu son dərəcə mühümdür. Tarixi İpək Yolu üzərində yerləşən ölkələrin gömrük idarələri arasında ümumi anlayışın formalaşdırılması və bunun ardınca gömrük idarələrinin bilavasitə fəaliyyət göstərdikləri sərhəd-keçid məntəqələrində hərəkətin asanlaşdırılması nəzərdə tutulmaqdadır. Keçid məntəqələrində gömrük prosedurаlarının qonşu ölkələrin gömrük idarələri ilə əməkdaşlıq şəraitində həyata keçirilməsi yollarının araşdırılması, tarixi İpək Yolunun ticarət iştirakçıları üçün uyğun hala gətirilməsi və beləliklə, ticarətin həcminin genişləndirilməsi istiqamətində konkret addımların atılması planlaşdırılmışdır. Keçid məntəqələrinin infrastrukturunun inkişaf etdirilməsi, həm də ticarətin və sərhəd keçidlərində hərəkətin asanlaşdırılması ilə əlaqədar əsas beynəlxalq müqavilələrə qoşulmaqla sərhəd keçidlərində gözləmə müddətlərinin azaldılması, sərhəd-keçid əməliyyatlarının uyğunlaşdırılması və gömrük prosedurаlarının tətbiqində ümumi konsepsiyanın hazırlanması qarşıya qoyulmuş bir hədəfdir. Tarixi İpək Yolunun Mərkəzi Asiya regionu ölkələrini, Azərbaycan və Gürcüstanı əhatə edən şimal marşrutunda bir layihə çərçivəsində sərhəd keçidlərinin iş fəaliyyəti və sərhəd-keçid məntəqələrinin infrastruktur imkanlarının və insan resurslarının müəyyən edilməsi, bu sahələrdəki fərqliliklərin və ehtiyacların müəyyənləşdirilməsi qarşıya məqsəd qoyulmuş və bu çərçivədə pilot layihənin ilk öncə Azərbaycan, Gürcüstan və Türkiyə arasında həyata keçirilməsi qərara alınmışdı.

2009-cu il aprelin 22-də Azərbaycan və Türkiyə Gömrük Xidmətləri arasında İşçi Qrupunun iclası keçirildi. İclasda iki ölkənin gömrük orqanları arasında narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların, silah və

sursatların qanunsuz dövriyyəsinə qarşı birgə mübarizədə əməkdaşlığın gələcək perspektivləri haqqında ətraflı fikir mübadiləsi aparıldı. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Gömrük Müstəşarlığı arasında Azərbaycan-Türkiyə sərhədindən avtomobil və hava yolu ilə keçirilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və silahların aşkar edilməsi, aradan qaldırılması və qarşısının alınmasına yönəlmiş işçi protokolu imzalandı [69, 2009, 25 aprel].

Azərbaycan gömrükçülərinin nümayəndə heyəti 2006-cı il dekabrın 14-15-də Finlandiya Respublikasının Muoniyo şəhərində Avropa İttifaqının şərq sərhədlərində gömrük əməkdaşlığı üzrə keçirilən konfransda iştirak etdi.

DGK-nın sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev konfransdakı məruzəsində Azərbaycan gömrük xidmətinin son dövrlərdə gömrük işinin təkmilləşdirilməsi, informasiya texnologiyalarının inkişafı üzrə 2007-2011-ci illər üçün strategiyanın müəyyən edilməsi, kadr potensialının artırılması və təhlükəsizlik tədbirləri üzrə zəruri işlərin görülməsi istiqamətində fikirlərini açıqladı. Konfransın yekun bəyannaməsində qanunvericilik bazasının, prosedur və sənədlərin Avropa Birliyi normalarına yaxınlaşdırılması, ticarətin sadələşdirilməsi sahəsində gömrük islahatlarının aparılması, sərhəddə fəaliyyət strategiyasının tətbiq edilməsi, inzibati imkanların DGT strategiyası əsasında möhkəmləndirilməsi kimi istiqamətlər üzrə qısa, orta və uzunmüddətli fəaliyyət strategiyasının həyata keçirilməsi nəzərdə tutulurdu [1, 35-39].

2008-ci il ərzində Dövlət Gömrük Komitəsi bir neçə yerli, regional və beynəlxalq səviyyəli tədbirlər keçirilmişdi. Bunlardan 18 yanvar 2008-ci ildə DGT-nin Bakıdakı Regional Tədris Mərkəzində "Ticarətin asanlaşdırılması və Ümumdünya Ticarət Təşkilatı danışıqları üzrə potensialın gücləndirilməsi" mövzusunda, 2008-ci il 16-17 apreldə Fransa Gömrük və Vasitəli Vergilər İdarəsinin eksperti tərəfindən "Mobil briqadalar" mövzusunda seminarları göstərmək olar. Gömrük işi sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə 2008-ci il aprelin 1-də *"Azərbaycan Respublikası hökuməti və Misir Ərəb Respublikası hökuməti arasında gömrük məsələlərində və gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq haqqında"* Sazişin təsdiq

edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 2008-ci il iyunun 27-də Belçika Krallığının Brüssel şəhərində *"Azərbaycan Respublikası Hökuməti və Slovakiya Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* Saziş və 2008-ci il 3 iyul tarixində Bakı şəhərində *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Rusiya Federal Gömrük Xidməti arasında gömrük hüquqpozmaları ilə mübarizəyə dair əməkdaşlıq haqqında"* Saziş imzalandı.

2009-cu il aprelin 27-29 tarixlərində Tehran şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində BMT-nin Avropa İqtisadi Komissiyası və BANİ tərəfindən *"Beynəlxalq tranzit nəqliyyatı üzrə Konvensiyalar, BYD sistemi və Avropa-Asiya nəqliyyat əlaqələri"* mövzusunda regional seminar keçirildi. Seminarda nəqliyyat sektoruna aid məsələlərin müzakirəsi aparılmış, Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin nümayəndəsi "Bakı-Tbilisi-Qars" dəmiryolu xətti və "Ələt Beynəlxalq Dəniz Limanı" layihələri barədə məruzə ilə çıxış etmişdi. Azərbaycan Gömrük Xidmətinin nümayəndəsi "Beynəlxalq ticarətin sadələşdirilməsi və Azərbaycan Respublikası gömrük orqanlarının potensialı" mövzusunda məruzə ilə çıxış etmişdi. Məruzədə Azərbaycan Respublikası gömrük orqanları tərəfindən gömrük qanunvericiliyinin prioritet istiqamətlərdə Avropa İttifaqı və digər inkişaf etmiş dövlətlərin qanunvericiliyinə uyğunlaşdırılması, gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə, kadr potensialının artırılması, 1 yanvar 2009-cu ildən "bir pəncərə" prinsipinin tətbiqi, Azərbaycan Respublikasının BYD Konvensiyasına qoşulma proseduru, BYD Konvensiyasının tətbiqi səviyyəsi və bu istiqamətdə aparılan işlər barədə iştirakçılara ətraflı məlumatlar verilmişdi [69, 2009, 9 may].

Tarixi İpək Yolunun bərpa edilməsində gömrük xidmətinin rolu isə son dərəcə mühümdür. İpək Yolu ölkələri arasında ticarətin inkişaf etdirilməsi və asanlaşdırılması ilə bağlı gömrükxanaların rolunun artırılması üçün Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyi 2008-ci ildə beynəlxalq platforma təşkil edilməsi və bu məqsədlə daşımaların və ticarətin asanlaşdırılması təşəbbüs irəli sürdü.

İpək Yolu üzərində yerləşən ölkələrin gömrük xidmətlərinin, eləcə də yerli və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə bir-birinin

ardınca ilk dəfə Türkiyədə olmaqla, Azərbaycan, İran və Gürcüstanda forumlar təşkil edildi. Əsas məqsəd Avropa və Çin arasında, o cümlədən, bu iki nöqtə arasında yerləşən ölkələrin öz daxili ticarət və nəqliyyat imkanlarını inkişaf etdirərək tarixi İpək Yolunu bərpa etmək idi. Bu marşrut üzərində yerləşən ölkələrin gömrük idarələri arasında ümumi anlayışın formalaşdırılması və bunun ardınca gömrük idarələrinin bilavasitə fəaliyyət göstərdikləri sərhəd-keçid məntəqələrində hərəkətin asanlaşdırılması nəzərdə tutulur. Bununla bağlı, keçid məntəqələrində gömrük prosedurlarının qonşu ölkələrin gömrük idarələri ilə əməkdaşlıq şəraitində həyata keçirilməsi yollarının araşdırılmalı, tarixi İpək Yolunun ticarət iştirakçıları üçün uyğun hala gətirilməli və beləliklə, ticarətin həcminin genişləndirilməsi istiqamətində konkret tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının gömrük məntəqələrinin infrastrukturunun inkişaf etdirilməsi, sərhəddən sərnişinlərin gözləmə müddətlərinin azaldılması və gömrük prosedurlarının tətbiqində ümumi konsepsiyanın hazırlanması qarşıya qoyulmuş bir hədəfdir.

2009-cu il sentyabrın 2-də Avstriya Federal Maliyyə Nazirliyinin Dövlət katibi Raynhold Lopatkanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda ikigünlük rəsmi səfərdə oldu. Səfərin nəticəsi olaraq "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalandı.

2009-cu il noyabrın 11-12-də Bakıda *"İpək Yolu ölkələri arasında ticarətə yardım və onun asanlaşdırılması üzrə gömrük idarələrinin rolu"* adlı 2-ci Beynəlxalq Forum keçirildi. Forumda Azərbaycan, Qazaxıstan, Qırğız, İran, Yaponiya, Koreya, Gürcüstan, Monqolustan, Pakistan, Rusiya və Türkiyə gömrük xidməti orqanlarının məsul şəxsləri, Dünya Gömrük Təşkilatı, Beynəlxalq Yol Daşımaları İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT-nin Avropa İqtisadi Komissiyası, Asiya İnkişaf Bankı və TRASEKA-nın səlahiyyətli nümayəndələri iştirak edirdi. Böyük İpək Yolu hələ eramızın II yüzilliyindən başlayaraq Avropa və Asiya xalqlarını və ənənələrini bir-biri ilə əlaqələndirmişdir. Bu tarixi marşrutlar qiymətli əşyaların, informasiya və biliklərin Şərq və Qərb arasında nəqli üçün əsas ötürücü dəhliz olmuşdur.

Azərbaycanın tarixən müxtəlif mədəniyyət və sivilizasiyaların

kəsişdiyi ərazidə yerləşməsi ölkənin Şimal və Cənub, Qərb və Şərq arasında körpü rolunu oynamasına əlverişli şərait yaratmışdır. Böyük İpək Yolunun Azərbaycan ərazisindən keçməsi dünya ticarəti ilə intensiv şəkildə əlaqə yaradılmasında və ölkə ərazisində beynəlxalq tələblərə cavab verən gömrük işinin formalaşmasında müstəsna rol oynamışdır. Dünya ticarətində mühüm paya sahib olan və bu payını hər il yüksək sürətlə artıran "Böyük İpək Yolu" ölkələri arasında mal dövriyyəsinin artırılması sahəsində də əhəmiyyətli olduğunu qeyd etmişdir. Avrasiyanın ənənəvi ticarət marşrutu kimi bu yol müəyyən infrastruktur və təşkilati tədbirlər vasitəsilə beynəlxalq ticarət üçün sürətli və effektiv alternativ yol kimi fəaliyyətini uğurlu şəkildə artıra bilər. Bu cəhətdən "Böyük İpək Yolu" ölkələrinin gömrük xidmətləri tərəfindən həyata keçiriləcək tədbirlər onun potensial imkanlarının artırılmasında olduqca mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycanın tarixən müxtəlif mədəniyyət və sivilizasiyaların kəsişdiyi ərazidə yerləşməsi ölkənin Şimal və Cənub, Qərb və Şərq arasında körpü rolunu oynamasına əlverişli şərait yaratmışdır. Böyük İpək Yolunun Azərbaycan ərazisindən keçməsi dünya ticarəti ilə intensiv şəkildə əlaqə yaradılmasında və ölkə ərazisində beynəlxalq tələblərə cavab verən gömrük işinin formalaşmasında müstəsna rol oynamışdır. Gömrük xidməti beynəlxalq ticarətə yardım edir və beynəlxalq ticarət zəncirinin təhlükəsizliyi kimi modern çətinliklərin öhdəsindən gələ bilmək üçün fəaliyyət göstərir. Türkiyənin Antalya şəhərində 2009-cu il oktyabrın 25-də keçirilmiş birinci forumun nəticəsi olaraq daha şəffaf və düzgün gömrük rəsmiyyətinə nail olmaq, bərpa konsepsiyası əsasında birgə və fərdi təşəbbüsləri gücləndirmək, gömrük-biznes əməkdaşlığını təkmilləşdirmək, həmçinin qanunsuz hərəkətlərin, terrorçuluğun və insan alverinin qarşısının alınması istiqamətində bəyannamə qəbul olundu. "Antalya bəyannaməsi"ndə xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi, ixrac potensialının genişləndirilməsi, iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsi, fiziki və hüquqi şəxslərin hüquqlarının qorunması məqsədilə müvafiq proqramların həyata keçirilməsi nəzərdə tutulurdu. Forumun gündəliyinə çıxarılan məsələlər "Böyük İpək Yolu" ölkələri arasında beynəlxalq daşımaların inkişafı baxımından çox aktual idi. TRASEKA nəqliyyat dəhlizi Avropa ilə Asiya arasında əlaqələri təmin edən ən çağdaş nəqliyyat sistemi kompleksinə çevrildi. TRASEKA-nın Avropa-Qafqaz-Asiya dəhlizinin

inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş çərçivəsində, eləcə də TRASEKA-nın 2015-ci elədək olan müddətə İnkişaf Strategiyasının əsas məqsədi onun yol boyunca, xüsusilə də yüklərin daşınmasında mühüm əlaqələndirici həlqələr olan Qara dəniz və Xəzər dənizi marşrutlarında rəqabətliliyin və cəlbediciliyinin artırılmasıdır. Məhz buna görə də qarşıda duran əsas məsələ - "Maneəsiz nəqliyyat" sxemi üzrə beynəlxalq daşımalara yardım etməklə, ölkələr arasında əməkdaşlığın fəallaşdırılmasıdır [15, 2010, 30 yanvar].

Gömrük xidməti beynəlxalq ticarətə yardım edir və beynəlxalq ticarət zəncirinin təhlükəsizliyi kimi qlobal problemin öhdəsindən gələ bilmək üçün fəaliyyət göstərir. Bu mənada "Gömrük Əməkdaşlığı Şurasının yaradılması haqqında" Konvensiyaya dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2009-cu il 27 oktyabr tarixli Qanunu gömrük münasibətlərinin inkişaf etdirilməsinin hüquqi əsaslarının möhkəmləndirilməsinə təkan verdi.

Azərbaycan Respublikasının həyata keçirməkdə olduğu nəhəng infrastruktur layihələri Böyük İpək Yolunun bərpası istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin tərkib hissəsidir. Müasir dünyanın şərtləri hər yerdə olduğu kimi, Böyük İpək Yolu üzərində olan ölkələrin də gömrük tənzimlənməsi məsələlərinin qarşılıqlı və bir-birinə uyğunlaşdırılmış şəkildə həyata keçirilməsini tələb edir. Forumda DGT-nin Potensialın gücləndirilməsi direktorluğunun Avropa regionu üzrə icraçı rəhbəri Vitali Mikeladze "İpək Yolu ölkələri arasında ticarətin asanlaşdırılmasında DGT-nin rolu", Yaponiya Gömrük İdarəsi gömrük əməkdaşlığı şöbəsinin direktor müavini Kazunari İqaraşi "Malların sərhəddən keçirilməsinin asanlaşdırılmasında Yaponiyanın təcrübəsi", Koreya Respublikası Strategiya və Maliyyə Nazirliyi Gömrük və Tarif Ofisinin Baş direktor müavini Ki Coonq Kvon "Səlahiyyətli İqtisadi Operator", Pakistan Gömrük İdarəsinin rəhbəri Munir Qureşi "Pakistan gömrüyü və quru yollarla aparılan ticarət", Türkiyə Odalar və Borsalar Birliyi GTİ-nin nümayəndəsi xanım Sinem Şenkaya "Türkiyə sərhəd buraxılış məntəqələrinin müasirləşdirilməsi: İpək Yolunun bərpası perspektivləri" mövzularında təqdimatla müzakirələr aparılmışdır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi Şahin Bağırov "Ticarətin asanlaşdırılması alətləri – "bir pəncərə", Komitənin Statistika və İnformasiya Texnolo-

giyaları Baş İdarəsinin rəisi İqbal Babayev isə “e-Gömrük: Milli yanaşma” mövzusunda təqdimatla çıxış etmişdilər. Bakı Forumu Böyük İpək Yolunun bərpası ölkələrimiz arasında iqtisadi, ticarət və mədəni əlaqələrin intensivləşməsinə şərait yaratdı, iştirakçı dövlətlərin gömrük xidmətləri və beynəlxalq təşkilatlar arasında qabaqcıl təcrübənin öyrənilməsində faydalı oldu [69, 2009, 14 noyabr].

2009-cu il mayın 18-19-də Norveç Krallığının Bergen şəhərində keçirilən Dünya Gömrük Təşkilatı Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin 44 ölkədən 97 nümayəndənin iştirak etdiyi konfransında *“DGT-nin XXI əsrdə gömrük strategiyası: sərhəd idarəetməsində daha səmərəli qarşılıqlı işin təşkili, 21-ci əsrdə gömrük işinin əsas prioritetləri və tələbatları”*, DGT-nin baş katibinin müavini vəzifəsinə Avropa regionundan olan namizədlərin təqdimatları dinlənildi. Siyasi Komissiyaya, Maliyyə və Audit komitələrinə, eləcə də DGT sədrinin Avropa regionu üzrə müavini vəzifəsinə seçiləcək namizədlərlə bağlı məsələlərə baxılması, Bosniya-Hersoqovinanın üzv dövlət kimi Dünya Gömrük Təşkilatına qəbul edilməsi, potensialın gücləndirilməsi, gömrükdə “bir pəncərə” prinsipinin tətbiqi mexanizmləri müzakirə edildi. 52 ölkəni özündə birləşdirən Avropa üzrə yeganə regional ofisin açılması ilə bağlı Azərbaycan nümayəndə heyəti iki hissəli təqdimatla çıxış etdi. Təqdimatın birinci hissəsində Azərbaycanın qədim və zəngin tarixindən, bugünkü hərtərəfli inkişafından, əldə olunan nailiyyətlərdən bəhs edən film nümayiş etdirilmiş, Azərbaycan gömrüyünün keçdiyi inkişaf yoluna qısaca nəzər salınmışdı. Azərbaycan nümayəndə heyətinin təqdimatından sonra çıxışlar olmuş, bir sıra ölkələrin - Türkiyə, Rusiya, Gürcüstan, Qazaxıstan, Macarıstan, İsrail, İrlandiya və s. ölkələrin nümayəndə heyətlərinin rəhbərləri təqdimatı yüksək qiymətləndirmişdi. Nümayəndə heyəti “Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında “bir pəncərə” prinsipinin tətbiqi haqqında” təqdimatı konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanmışdı. Konfransda iştirak edən bir sıra ölkələrin - Qazaxıstan, Slovakiya, Polşa, Latviya, Estoniyanın nümayəndə heyətləri bu təcrübədən yararlanmaq üçün Azərbaycan tərəfinə müraciət etmişdilər.

2009-cu il iyunun 11-də Qəbələ şəhərində “Qafqaz Resort otel”ində MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 49-cu

iclası keçirildi. İclas çərçivəsində *"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* 2004-cü il 5 noyabr tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında Protokol, eyni zamanda *"Moldova Respublikası ilə Belarus Respublikası arasında qarşılıqlı ticarətin gömrük statistikası məlumatlarının tərtib edilməsində Moldova Respublikasının Gömrük Xidməti və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı əlaqə qaydaları haqqında"* və *"Moldova Respublikası ilə Qazaxıstan Respublikası arasında qarşılıqlı ticarət üzrə keçirilən mallara dair məlumat mübadiləsi haqqında"* protokollar imzalandı [69, 2009, 13 yanvar].

2009-cu il iyun ayının 29-dan iyulun 10-a qədər Fransa Respublikasının La Roşel şəhərində Azərbaycan, Rusiya, Əlcəzair, Tunis, Mərakeş, Meksika və Konqonu təmsil edən nümayəndələrin iştirakı ilə *"Gömrük nəzarəti məsul şəxslərinin əməkdaşlığı"* mövzusunda konfrans keçirildi. Konfransda Fransanın gömrük sisteminin tarixi, quruluşu, gömrük qaydalarının pozulması və qaçaqmalçılıqla mübarizə aparan strukturların səlahiyyətləri və iş üsulları, istifadə olunan nəqliyyat (motosikletlər), aviasiya (helikopter və təyyarələr) dəniz gömrük nəzarətini tətbiq edən (kater və gəmilər) vasitələr və digər texniki nəzarət vasitələri haqqında məlumat verilmişdi [69, 2009, 22 avqust].

2009-cu il aprelin 22-də Bakıda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Gömrük Müstəşarlığı arasında yaradılan İşçi Qrupunun yığıncağında iki ölkənin gömrük orqanları arasında narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların, silah və sursatların qanunsuz dövriyyəsinə qarşı birgə mübarizədə əməkdaşlığın gələcək perspektivləri müzakirə edildi. Azərbaycan-Türkiyə sərhədindən avtomobil və hava yolu ilə keçirilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və silahların aşkar edilməsi, aradan qaldırılması və qarşısının alınmasına yönəlmiş işçi protokolu imzalandı.

2009-cu il iyulun 30-31-də İstanbul şəhərində Türkiyə Respublikası Gömrük Müstəşarlığının təşəbbüsü ilə Azərbaycan və Türkiyə gömrük orqanları arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində

əməkdaşlığa həsr edilmiş görüş keçirildi. Azərbaycan və Türkiyə arasında qarşılıqlı münasibətlər iki ölkənin sərhəd keçid məntəqələrində avtomobil və hava yolları ilə qanunsuz daşınılan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının, silah və sursatların aşkar edilməsi və qarşısının alınmasına yönəlmiş əməliyyat planını əhatə edirdi. Bu plana müvafiq olan tədbirlər əsasən iki istiqamətdə, quru yolla, Naxçıvan Muxtar Respublikasının Sədərək Gömrük İdarəsi ilə Dilucu Gömrük Məntəqəsi arasında və hava gəmilərinə gömrük baxışının keçirilməsi üçün Atatürk Hava Limanı ilə Heydər Əliyev Beynəlxalq Hava Limanı arasında həyata keçirilməsini nəzərdə tuturdu. Azərbaycan və Türkiyə gömrük xidmətləri arasında gömrük hüquqpozmaları sahəsində əməkdaşlığın həyata keçirilirdi.

*"2009-2010-cu illər üçün narkotik vasitələrin, psixotrop maddələrin, prekursorların, silah və sursatların qanunsuz dövriyyəsinə qarşı mübarizədə Azərbaycan Respublikası və Türkiyə Respublikası gömrük orqanlarının əməkdaşlığının və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş təşkilati və təcrübi xarakterli tədbirlər Planı"*nın icrası ilə əlaqədar malların tranziti zamanı gömrük hüquqpozmalarının əlamətləri aşkar edildikdə qabaqlayıcı və operativ xarakterli qarşılıqlı məlumatlandırma aparılması qərara alınmışdı. Bununla yanaşı, gömrük sərhədindən keçirilən, tərkibində əqli mülkiyyət obyektləri olan mallara dair əqli mülkiyyət hüquqlarının qorunmasının təmin edilməsi məqsədilə, gömrük işi üzrə qanunvericiliyin və digər normativ-hüquqi aktların tələbləri gözlənilməli idi. Görüşdə əqli mülkiyyət hüquqlarının qorunmasının təşkil edilməsi və belə malların qanunsuz dövriyyəsinə qarşı tədbirlərin həyata keçirilməsi üçün əlaqələndirici şəxslər vasitəsilə təcrübə mübadiləsi aparılması, eyni zamanda saxtakarlıq və piratçılıqla mübarizədə inzibati və cinayət qanunvericiliyinin müddəalarına son zamanlar edilmiş müvafiq dəyişikliklər barədə fikir mübadiləsi aparılmasının vacibliyi göstərilmişdi. Görüşün nəticəsi olaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük Müstəşarlığı arasında qaçaqmalçılıqla mübarizə sahəsində Protokol imzalanmışdı [69, 2009, 8 avqust].

Azərbaycan Respublikası yerləşdiyi coğrafi şəraitə görə tranzit ölkə kimi vacib dövlətlərdən biri hesab olunur. Tranzit əlaqələrinin və tranzit kommunikasiyasının ölkəmizdə inkişaf etdirilməsi Azərbaycan Respublikasının əsas prioritet və strateji məsələlərindən biridir. Azərbaycanın tranzit

imkanlarının artması, iqtisadi göstəricilərinin daha da yaxşılaşmasına, ölkələr arasında mədəni, elmi, tarixi əlaqələrin genişlənməsi və möhkəmlənməsinə, ölkələrarası sivilizasiyanın inkişafına xidmət edir. Bu məqsədlə dövlətimiz tərəfindən ölkənin tranzit potensialının artırılması istiqamətində məqsədyönlü işlər aparılır, ənənəvi və yeni nəqliyyat dəhlizlərinin inkişafını stimullaşdıran proqramlar qəbul edilir. *"Ticarətə və nəql etməyə yardım üzrə GUAM Layihəsinin həyata keçirilməsinə dair Regional Strategiya və Plan"*da və *"2007-2011-ci illərdə ticarətə və nəql etməyə yardım üzrə GUAM Layihəsinin həyata keçirilməsinə dair Milli Plan"*da Azərbaycan Respublikası fəal iştirak etdi. DGK GUAM çərçivəsində "Milli Plan"ın reallaşmasında iştirak edən əsas dövlət orqanlarından biri kimi ümumi tranzit sisteminin yaradılmasında əhəmiyyət daşıyan aşağıdakı şərtlərin həyata keçirilməsini bəyan etmişdi:

– ideal tranzit mühitinin yaradılması məqsədi ilə mövcud nəqliyyat dəhlizi üzrə hərəkət edən nəqliyyat vasitələrinə yeni müasir nəzarət formalarının tətbiq edilməsi;

– rəsmiləşdirmə prosedurаlarının operativliyinin təmin olunması;

– sərhədlərdə müvafiq qurumların fəaliyyətinin koordinasiya edilməsi və bu fəaliyyətin bir dayanacaqlı prinsip əsasında həyata keçirilməsi istiqamətində səy göstərilməsi;

– dünya səviyyəsində baş verən dəyişikliklər və tendensiyaların əsasında normativ hüquqi bazanın təkmilləşdirilməsinin davam etdirilməsi;

– gömrük qaydaları haqqında tranzit daşımaların iştirakçılarının məlumatlandırılması, məlumat köşklərinin, stendlərin quraşdırılması;

– gömrük orqanlarında şəffaflığın təmin edilməsi məqsədi ilə müvafiq tədbirlərin davam etdirilməsi;

– sərhəd keçid məntəqələrində infrastrukturun müasirləşdirilməsi və buraxılış qabiliyyətinin artırılması;

– məlumatların işlənməsinin və rəsmiləşdirilməsinin avtomatlaşdırılmış qaydada aparılması;

– riskin idarə edilməsi və seçmə əsasında gömrük yoxlamasının həyata keçirilməsi;

– beynəlxalq praktikada mövcud olan prosedurаlar və hökumətlər arası beynəlxalq təşkilatların harmonizə olunmuş nəzarətə dair tövsiyələrindən istifadə olunması;

– qonşu dövlətlər ilə gömrük işi sahəsində işgüzar əməkdaşlığın inkişaf etdirilməsi;

– gömrük orqanlarının sutkalıq iş prinsipinə keçidi üzrə tədbirlərin həyata keçirilməsi;

– qonşu dövlətlərlə sərhəd gömrük orqanlarının iş vaxtının uyğunlaşdırılması və bu vaxtın 24 saat müəyyən olunması üzrə təşəbbüslərin göstərilməsi;

– beynəlxalq ticarət zəncirində təhlükəsizliyin təmin olunması üzrə tədbirlər görülməsi;

– qaçaqmalçılığa qarşı mübarizə sahəsində tədbirlərin gücləndirilməsi və qonşu dövlətlərin gömrük xidmətləri ilə hüquq mühafizə fəaliyyəti sahəsində

– birgə tədbirlərin keçirilməsi üzrə təşəbbüslərin göstərilməsi;

– müasir informasiya texnologiyalarının geniş tətbiqi.

Bununla da ideal tranzit üçün əlverişli şərait yaradan qonşu dövlətlərin gömrük keçid məntəqələrinin işinin vaxtında razılaşdırılmış formada həyata keçirilməsi və bu vaxtın bütün 24 saatı əhatə etməsi vacib idi. Beləliklə, tranzit daşımalarının günün istənilən vaxtında həyata keçirilməsinə şərait yaradılır, növbə və tıxacların yaranmasının qarşısı alınır. Sərhəd keçid məntəqələrinin planlı şəkildə idarə edilməsi işinə bu şərtlər müsbət təsir göstərmiş olur.

2009-cu il oktyabrın 3-də imzalanmış “Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında” Naxçıvan Sazişinin müddəalarından irəli gələn vəzifələrin icrasına müvafiq olaraq və Türkiyə Respublikasının Gömrük Müstəşarlığının təklifinə əsasən Naxçıvan şəhərində Türkdilli Dövlətlərin Gömrük İdarələrinin rəhbərlərinin görüşünün keçirilməsi barədə razılıq əldə edilmişdi. Razılığa əsasən ekspertlərin görüşünün cari ilin 4 oktyabr, gömrük rəhbərlərinin görüşünün isə 5 oktyabr tarixlərində keçirilməsi qərara alınmışdı. İki ölkənin uyğun qurumları arasındakı əməkdaşlıq əlaqələrinin mövcud vəziyyəti, inkişaf yolları və gömrük işi sahəsində qarşılıqlı məsələlər, xüsusilə də Dilucu-Sədərək gömrük sərhəd buraxılış məntəqələrinin əməkdaşlığı perspektivləri müzakirə edilirdi. Eyni zamanda, mövcud məsələlərin təhlili, müzakirəsi və həlli məqsədilə Dilucu-Sədərək gömrük sərhəd buraxılış məntəqəsi rəhbərlərinin ayda bir dəfə görüşü təşkil olunurdu. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin

Gömrük Ekspertizası İdarəsinin əməkdaşlarına Türkiyə Gömrük Xidmətinin mütəxəssisləri tərəfindən təlim kursları keçirilirdi. 2010-cu il iyulun 1-də isə "Azərbaycan Muxtar Respublikasının Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında Sədərək və Dilucu məntəqələrinin birgə istifadəsinə dair Saziş" imzalandı.

2010-cu il fevralın 9-10 tarixlərində Tbilisi şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Gürcüstan Maliyyə Nazirliyi Gəlirlər Xidmətinin Gömrük Nəzarəti Departamenti arasında gömrük hüquqpozmaları ilə mübarizə sahəsində ikitərəfli əməkdaşlığın inkişafına həsr edilmiş işçi görüşündə "2010-2011-ci illər üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Gürcüstan Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmaları ilə mübarizə sahəsində əməkdaşlığın effektivliyinin artırılmasına yönəlmiş Tədbirlər Planı" imzalandı. Sənəddə gömrük hüquqpozmaları ilə mübarizə üzrə məsələlərin həll edilməsi üçün daimi fəaliyyət göstərən məsul şəxslərdən ibarət Azərbaycan-Gürcüstan birgə işçi qrupunun yaradıldı [69, 2010, 13 fevral].

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 mart tarixli Sərəncamı ilə *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Azərbaycan Respublikasının Bakı şəhərində potensialın gücləndirilməsi üzrə Ümumdünya Gömrük təşkilatının regional ofisinin yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"* təsdiq edildi. Bu ofis Avropa regionunda potensialın gücləndirilməsi mərkəzi olaraq koordinasiya tədbirlərinin həyata keçirilməsi, milli gömrük xidmətlərinə yardımın göstərilməsi və donor təşkilatlarla əlaqələri təmin etməli idi [49, 2010, 8 may].

2010-cu il martın 15-16-də Makedoniyanın Ohrid şəhərində Dünya Gömrük Təşkilatı Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransı keçirilmişdi. Konfransda "Gömrük-Biznes Əməkdaşlığı" mövzusunda "bir pəncərə" və ticarətin asanlaşdırılması məsələləri, hökumət qurumları arasında sərhəddə əməkdaşlığa dair, "Risklərin idarə olunması", həmçinin "Qlobal gömrük şəbəkəsi" mövzusu ilə bağlı təqdimatlar olmuşdu. Potensialın Gücləndirilməsi üzrə Bakı Regional Ofisinin hazırkı vəziyyəti ilə bağlı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev geniş təqdimatla çıxış etmişdi. Gürcüstan tərəfi Azərbaycan Gömrük Sisteminin kinoloji xidmətinin

təcrübəsindən yararlanmağı nümayəndə heyətimizdən xahiş etmişdi. Azərbaycan tərəfi lazımi köməklik göstərəcəyini qarşı tərəfin diqqətinə çatdırmış, bu istiqamətdə qarşılıqlı fikir mübadiləsi aparılmışdı [69, 2010, 3 aprel].

Azərbaycan və Finlandiya gömrük xidmətləri arasında əlaqələr inkişaf edir. 2010-cu il mayın 10-11-də Finlandiya Respublikası Milli Gömrük İdarəsinin dəvəti ilə Azərbaycan nümayəndə heyəti bu ölkənin gömrük orqanları, o cümlədən Helsinki şəhərində yerləşən Cənub regional gömrük idarəsinin "Nyu Vuosari Xarbur" adlı dəniz gömrükxanasına səfər etmişdi. Burada Azərbaycan nümayəndə heyəti "x-rail" sistemlərinə baxış keçirmiş, eyni zamanda Çin istehsalı olan "Nyutex" qurğuları ilə istər yük maşınlarına, istərsə də vaqonlara nəzarətin necə həyata keçirilməsi nümayəndə heyətimizə ətraflı məlumat verildi, risklərin idarə olunması sahəsində fikir mübadiləsi aparıldı. Azərbaycan nümayəndə heyəti tarixi 100 ildən artıq olan və 75 nəfərin çalışdığı laboratoriya ən müasir qurğularla təchiz olunan gömrük laboratoriyası ilə tanış oldu. Səfər zamanı Azərbaycan Respublikası hökuməti və Finlandiya Respublikası hökuməti arasında "Gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Saziş imzalandı [69, 2010, 15 may].

Çin gömrük xidməti idxal və ixrac əməliyyatlarına nəzarət və onların idarə olunması funksiyasını daşıyır. Şanxay gömrüyü Çin Xalq Respublikası Baş Gömrük İdarəsinin mühüm əhəmiyyət kəsb edən aparıcı orqanlarından biridir və iki tədris mərkəzi var. Bunlardan ən böyüyü Şanxay Gömrük Kolleci, digəri isə nisbətən kiçik təlim mərkəzidir. Azərbaycan gömrükçüləri 2010-cu il mayın 24-dən iyunun 4-dək Çin Xalq Respublikasının Şanxay şəhərində *"Gömrük idarələrinin müasirləşdirilməsi"* mövzusunda keçirilən təlim kursunda iştirak etmişdi. Təlim kursunda Çin Gömrük Xidmətinin fəaliyyəti və bu xidmətin Dövlət Şurasına tabe olan bir qurum olması haqqında məlumat verilmişdi. Təlim kursunda Çin gömrüyündə risklərin idarə olunması, gömrük rəsmiləşdirməsinin prinsipləri və əməliyyat sistemləri, gömrük xidmətinin funksiya və vəzifələri, vergi və yığımlar, qaçaqmalçılıqla mübarizə, gömrük statistikası, nəsli kəsilməkdə olan fauna və flora növlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsulları barədə təcrübə mübadiləsi aparılmışdı [69, 2010, 19 iyun].

2010-cu il mayın 17-dən 21-dək Avstriyanın Vyana şəhərində

Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi Komissiyasının 19-cu sessiyası keçirildi. Sessiyada Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə respublikamızın nümayəndə heyəti iştirak etmişdi. Sessiyada Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə bərabər, Ali Məhkəmə, Baş Prokurorluq, Xarici İşlər Nazirliyi və Avstriyadakı diplomatik nümayəndəliyimizin əməkdaşları təmsil olunmuşdu. Azərbaycan Respublikası DGK-nın sədri *"Qaçaqmalçılığa qarşı mübarizə: təcrübə, imkanlar, inkişaf perspektivləri"* mövzusunda etdiyi məruzədə Azərbaycan Respublikasında gömrük orqanlarının əsas vəzifələri, o cümlədən gömrük sahəsində hüquq-mühafizə fəaliyyəti, qeyri-qanuni dövriyyəyə qarşı mübarizə məsələləri, aşkar edilmiş hüquqpozmaların statistikası, maddi-texniki imkanlar, gömrük əməkdaşlığının istiqamətləri, ölkəmizdə fəaliyyət göstərən Kinoloji Mərkəzin, DGT Regional Tədris Mərkəzinin fəaliyyəti barədə məlumat verildi. Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi sahəsində BMT-nin Transmilli Mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyası və onun protokolunun, korrupsiyaya qarşı Konvensiyanın və terrorizmin qarşısının alınması və onunla mübarizə üzrə beynəlxalq sənədlərin ratifikasiya edilməsi, həyata keçirilməsi və digər məsələlər ətrafında müzakirələr aparılmışdı. Müzakirələr zamanı bir sıra dövlətlərin nümayəndələri bu sahədə həyata keçirdikləri işlər barədə məlumat vermiş, konvensiyalara üzv olma və milli səviyyədə beynəlxalq hüququn daxili qanunvericiliyə gətirilməsi barədə fikirlər səslənmişdi. Sessiyada BMT-nin İqtisadi və Sosial Şurasında müzakirəyə çıxarılması üçün bir sıra ölkə qrupları tərəfindən hazırlanmış 17 qətnamə layihəsi təqdim edilmişdi [69, 2010, 28 may].

2010-cu il mayın 25-də Türkiyənin Antalya şəhərində Avropa Komissiyası TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyi və Türkiyə Nəqliyyat Nazirliyinin keçirdiyi *"TRASEKA marşrutlarının rəqabətə davamlılığı və ticarətə köməyi"* adlı toplantıda Türkiyə, Gürcüstan, Moldova, Tacikistan, Bolqarıstan və Qırğızıstan gömrük xidmətlərinin nümayəndələri ilə yanaşı Azərbaycan nümayəndə heyəti də iştirak etdi. Tədbirdə "TRASEKA marşrutunun cəlbediciliyi", "TRASEKA və logistik tendensiya" və "TRACEKA logistik inkişaf İndeksində" adlı məruzələr

dinlənildi. Regional Nəqliyyat Dialoqu və Şəbəkələrin Uyğunlaşdırılması təşkilatı "TRASEKA-TRAX nəqliyyat yolunun cəlbetmə indeksi" adlı məruzədə TRASEKA dəhlizinin inkişaf yolunun təqdimatı oldu. Türkiyənin bir neçə sərhəd-keçid məntəqələrində "bir dayanacaq" prinsipi tətbiq olunurdu. Bu şəraitdə sərhəddən keçid müddəti cəmi 5 dəqiqə təşkil edir. İki həmsərhəd dövlətin gömrük orqanları eyni vaxtda və eyni yerdə birgə nəzarət həyata keçirilir. Əhatə dairəsini genişləndirmək üçün həmsərhəd dövlətlərlə müzakirələr davam etdirilirdi. Azərbaycan nümayəndə heyəti tərəfindən isə 1 yanvar 2009-cu ildən başlayaraq sərhəd-keçid məntəqələrində "bir pəncərə" prinsipinin tətbiqi və sərhəd-keçid məntəqələrinin müasir tələblər və beynəlxalq standartlara uyğun modernləşdirilməsi barədə məlumat verildi. TRASEKA Hökumətlərarası Komissiyasında Azərbaycanın Milli katibi Litvanın "Kena" dəmir yolu stansiyasından Ukraynanın Odessa şəhərindəki "İliçovsk" dəmir yolu stansiyasına qədər "Vikinq" qatarında yüklərin konteynerlərlə Qara dənizlə Gürcüstanın limanlarına, oradan isə Bakı limanına və Orta Asiyaya çatdırılmasının perspektivliyini şərh etdi. Toplantıda Dövlət Gömrük Komitəsinin nümayəndəsinin "Birgə bəyanat"ın mətninə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən irəli sürülən təkliflərin nəzərə alınmayan hissəsinin sənəd layihəsinin son variantına salınması qərara alındı [130, 2010, 5 iyun].

2010-cu il iyunun 16-17-da Polşanın Rjeşov şəhərində *"Sərhəd-buraxılış məntəqələrinin bençmarkinq qiymətləndirilməsi və sərhəd-nəzarət proseduralarına dair mövcud təcrübə mübadiləsi"* mövzusunda seminarda Azərbaycanla yanaşı Almaniya, Slovakiya, Macarıstan, Bolqarıstan, Rumıniya, Türkiyə, Ukrayna, Moldova, Belarus, Finlandiya, Estoniya, Latviya, Litva, Gürcüstan və Ermənistan gömrük xidmətlərinin nümayəndə heyətləri də qatılmışdı. Avropa Birliyinə üzv və Şərq Əməkdaşlığı Proqramının əhatə etdiyi ölkələr arasında sərhəd-buraxılış məntəqələrinin müqayisəli analizini aparmaq məqsədilə bir və ya bir neçə sərhəd-buraxılış məntəqələrində ikitərəfli tədbirlərin mümkünlüyü məsələsi müzakirə olunmuşdu. Bununla əlaqədar, Azərbaycan Gömrük Xidmətinin nümayəndə heyəti Gürcüstan və Türkiyə gömrük xidmətlərinin nümayəndə heyətləri ilə ikitərəfli müzakirələr aparmışdı. Seminar iştirakçıları Polşanın Ukrayna ilə sərhədində yerləşən Korçeva və Ukraynanın Polşa ilə sərhədində yerləşən Krakoveç sərhəd-buraxılış məntəqələrində olmuş, bu məntəqələrin iş

prinsipi, infrastrukturu, sərhəd keçidinin dinamikası, "Avro-2012"yə hazırlıq, "Yaşıl koridor" və "Qırmızı koridor"da gömrük və sərhəd nəzarətinin mahiyyəti, həmin xidmətlərin birgə əməkdaşlığı və gələcəkdə görüləcək işlər barədə geniş məlumat verilmişdi [69, 2010, 26 iyun].

Azərbaycan gömrük xidmətinin bu sahədəki nailiyyətləri beynəlxalq mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. Amerika-Azərbaycan Ticarət Palatasının prezidenti Stenli Eskudero Azərbaycan Respublikası gömrük xidmətinin beynəlxalq əməkdaşlıq fəaliyyəti haqqında belə demişdi: *"180-dən çox şirkəti birləşdirən Amerika-Azərbaycan Ticarət Palatası hər iki ölkənin iqtisadi əməkdaşlığının inkişafına böyük təsir göstərir. Çünki amerikalı iş adamları Azərbaycana 25 mlrd. dollar həcmində sərmayə yatırıb ki, bu da ölkə iqtisadiyyatına cəlb edilən investisiyaların 80 faizini təşkil edir. Öz növbəsində, Azərbaycan gömrük xidməti də xarici iqtisadi fəaliyyət iştirakçıları ilə bu işdə önəmli rol oynayır. Amerika-Azərbaycan Ticarət Palatasının prezidenti kimi tam məsuliyyətlə deyirəm ki, Dövlət Gömrük Komitəsi ilə münasibətlərimiz çox yüksək səviyyədədir. Bu gün Azərbaycanın gömrük xidməti öz işini müasir idarəçilik metodlarına uyğun quraraq elə bir modernləşmiş, təkmilləşmiş sistemə çevrilib ki, istənilən iş adamı bu xidmətdən yararlanmaqla həm ölkəsinin iqtisadiyyatının, həm də şəxsi biznesinin mənafeyini qorumuş olur. Amerika hökumətinin Azərbaycan gömrük xidmətinə texniki yardım göstərməsindən məmnunluğumu bildirir və əminəm ki, bu dəstək, eləcə də təcrübə mübadiləsi, treninqlər də işin keyfiyyətinə təsirsiz qalmır. Bütün bunlar Azərbaycan və ABŞ gömrük xidmətləri arasında əlaqələrin genişləndirilməsinə xidmət edir və ümumiyyətlə, Azərbaycan gömrüyü mütərəqqi işi ilə dünyanın analoji qurumlarına tam inteqrasiya olunmuşdur".*

BMT-nin Azərbaycan Respublikasında rezident əlaqələndiricisi Marko Barsotti gömrük əməkdaşlığının səmərəsini belə qiymətləndirmişdir: *"BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında əməkdaşlığın uzun tarixi var. Hələ 1990-cı illərin axırlarında BMT-nin İnkişaf Proqramı Dövlət Gömrük Komitəsi ilə birlikdə Azərbaycanın gömrük xidmətinin təkmilləşdirilməsinə yönəlmiş təşəbbüsün reallaşdırılmasına başlanmışdır. Bu proqram son dərəcə yüksək səviyyədə həyata keçirilmişdir".*

Keçid dövrünün ilk illərində gömrük nəzarətinin texniki vasitələrinin

çatışmazlığı sərhəd gömrük postlarında lazımi nəzarəti həyata keçirməyə imkan vermir və gömrük prosedurlarının aparılma vaxtını süni şəkildə uzadırdı. Təcrübə göstərir ki, gömrük işinin müasir səviyyədə təşkili xeyli dərəcədə idarəetmə proseslərinin avtomatlaşdırılmasından asılıdır. Bu məqsədlə "Risklərin idarə edilməsinin avtomatlaşdırılmış sistemi"nin tətbiqi səmərəli olmuşdur. Yerli gömrük orqanlarından DGK-ya göndərilən riskləri təsvir edən ilkin məlumatların tərkibi və strukturu müəyyən edilmiş və 45 halda riskləri müəyyən edən meyarlar seçilərək risklərin qiymətləndirilməsi meyarı tərtib olunmuşdu.

Respublikada aparılan gömrük siyasətinin mühüm istiqamətlərindən biri gömrük xidmətində şəffaflığın təmin edilməsi idi. 2002-ci ildən başlayaraq, gömrük xidməti orqanlarında gömrük nəzarəti və idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsi zamanı informasiya köşklərinin tətbiq olunmasına başlanıldı. Köşklərdə gömrük rəsmiləşdirilməsində istifadə olunan bütün normativ-hüquqi sənədlər, mal nomenklaturası və müvafiq tarif dərəcələri yerləşdirilib. Xarici iqtisadi əlaqələr iştirakçısı informasiya köşklərinə yanaşmaqla lazım olan məlumatı əldə edir. Sərhəd gömrük idarələrini DGK-nın Mərkəzi aparatı ilə əlaqələndirən video konfrans avadanlıqlarının quraşdırılması gömrük əməkdaşlarına iş yerlərini tərk etmədən təxirəsalınmaz məsələləri həll etməyə və vacib qərarlar qəbul etməyə imkan verir.

Gömrük xidmətinin təkmilləşdirilməsi və inkişafı xidmətin informasiya texnologiyası ilə təmin olunması səviyyəsi ilə birbaşa bağlıdır. Ölkə Prezidentinin 2003-cü il 17 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş *"Azərbaycan Respublikasının inkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"* Respublikada qlobal informasiya mühitinin yaradılması informasiya və kommunikasiya texnologiyalarından gömrük xidmətində bu istiqamət üzrə aparılan işlərə müsbət təsir göstərdi. Avropa Komissiyası və BMT İnkişaf Proqramı ilə birlikdə həyata keçirilən və 2007-ci ildə təqdim olunan *"Azərbaycan Respublikasında Gömrük xidmətinin Təkmilləşdirilməsi"* layihəsi gömrük qanunvericiliyinin beynəlxalq normalara, xüsusilə Avropa İttifaqı Gömrük Məcəlləsinə uyğunlaşdırıldı. Sənəddə bir sıra aktual məsələlər, o cümlədən minimum məlumata əsaslanan gömrük rəsmiləşdirilməsi, avtomatlaşdırılmış sistemlərə keçidin hüquqi əsasları və kağız əsaslı

proseslərdən asılılığın aradan qaldırılması, risklərin idarə edilməsi sisteminin əhatə dairəsinin genişlənməsi, gömrük təmsilçiliyi statusunun güclənməsi, ticarət təhlükəsizliyinin artırılmasında iqtisadi operator institutunun hüquqi əsasları, bank əməliyyatlarına keçid və elektron sənədlərdən geniş istifadə məsələləri nəzərə alınmışdı.

Avropa Komissiyası və BMT İnkişaf Proqramı ilə birlikdə həyata keçirilən və 2007-ci ildə təqdim olunan *"Azərbaycan Respublikasında Gömrük xidmətinin Təkmilləşdirilməsi"* layihəsi gömrük qanunvericiliyinin beynəlxalq standartlara, xüsusilə Avropa İttifaqı Gömrük Məcəlləsinə uyğunlaşdırılmalı idi. Layihədə bir sıra aktual məsələlər: minimum məlumata əsaslanan gömrük rəsmiləşdirilməsi, avtomatlaşdırılmış sistemlərə keçidin hüquqi əsasları və kağız əsaslı proseslərdən asılılığın aradan qaldırılması, risklərin idarə edilməsi sisteminin əhatə dairəsinin genişlənməsi, gömrük təmsilçiliyi statusunun güclənməsi, ticarət təhlükəsizliyinin artırılmasında iqtisadi operator institutunun hüquqi əsasları, bank əməliyyatlarına keçid və elektron sənədlərdən geniş istifadə və s. nəzərdə tuturdu. Layihə üzrə yeni Gömrük Məcəlləsinin hazırlanması ölkəmizin davamlı inkişaf səviyyəsinə uyğun olaraq həm də informasiya və kommunikasiya texnologiyaları sahəsində strateji istiqamətləri müəyyən etməli idi.

Sonrakı illərdə də milli gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, eləcə də gömrük işi sahəsində beynəlxalq standartların öyrənilməsi və onların tətbiq edilməsi işi davam etdirilirdi. Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti" çərçivəsində qəbul edilmiş "Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planı"nın "Azərbaycan gömrük xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi" ilə bağlı müddəalarının yerinə yetirilməsi, həmçinin *"Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında"* Beynəlxalq Konvensiyanın müddəalarının (Kioto Konvensiyası) və Dünya Gömrük Təşkilatının *"Beynəlxalq Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyi Üzrə Çərçivə Standartları"*nın milli gömrük qanunvericiliyində əks olunması məqsədilə Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə həyata keçirdiyi *"Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi"* layihəsi çərçivəsində ölkəmizdə fəaliyyət göstərən beynəlxalq ekspertlər tərəfindən Komitənin mütəxəssislərinin iştirakı ilə yeni Gömrük Məcəlləsinin layihəsi hazırlandı və Azərbaycan

Respublikası Prezidentinin Administrasiyasında hüquqi ekspertizadan keçirildi. Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, eləcə də gömrük işi sahəsində beynəlxalq standartların öyrənilməsi və onların tətbiq edilməsi işi davam etdirilir [49, 2010, 8 may; 71, 2011, 5 noyabr].

DGT-nin Bakıdakı Regional Tədris Mərkəzində vaxtaşırı keçirilən seminarlar əsasən kadrların hazırlanması, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xidmət edir. Mərkəzdə 2008-ci ildən başlayaraq harmonik sistem üzrə regional seminarlar keçirilir. 2010-cu il aprelin 12-16-da "Harmonik Sistemin əsas şərhetmə Qaydaları"na dair DGT-nin regional seminarında Azərbaycan da daxil olmaqla, 17 ölkənin, o cümlədən, Albaniya, Belarus, Bosniya və Herseqovina, Qazaxıstan, İsrail, Gürcüstan, Makedoniya, Moldova, Montoneqro, Özbəkistan, Polşa, Rusiya, Serbiya, Türkiyə, Ukrayna və Xorvatiya gömrük orqanlarının nümayəndə heyətləri qatıldı. Sonuncu seminarda isə təmsil olunan ölkələrin sayının üç dəfə artması əməkdaşlıq əlaqələrinin daha da genişlənməsi kimi qiymətləndirildi. Beynəlxalq seminarda DGT və onun missiyası, Harmonik Sistem haqqında Konvensiya, Harmonik Sistemə dəstəyin verilməsinə aid məsələlər, Harmonik Sistemlə əlaqədar olan komitələr, Harmonik Sistemin vahid şəkildə şərh və tətbiq edilməsinə dair DGT-nin Tövsiyələri, DGT nəşrləri, məcburi daxilolma öncə təsnifat məlumatı üzrə Harmonik Sistemin praktiki alətləri və milli proqramlar barədə məruzələr oxundu. Seminarın davam etdiyi sonrakı günlərdə isə "HS 2012" barədə məlumat, 4-cü tədqiq dövrünün əhatə dairəsi, ümumi təsnifat prinsipləri və s. məsələlər barədə məruzələr dinlənildi, həmçinin iştirakçılar və ekspertlər arasında müzakirələr aparıldı.

Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə *"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* 2011-ci il mayın 3-də Bakı şəhərində imzalanan və 2010-cu il oktyabrın 10-da təsdiq olunan; *"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında"* 2011-ci il iyunun 8-də Belqrad şəhərində imzalanan və 2011-ci il sentyabrın 30-da təsdiq olunan; 2010-cu il

sentyabrın 1-də Bakı şəhərində imzalanan və 2010-cu il oktyabrın 4-də təsdiq olunan *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barəsində"* adlı ikitərəfli sazişlərin mühüm əhəmiyyəti oldu [23, 2011, 30 oktyabr; 18, 31 oktyabr, 2010, maddə 10].

*"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə"* Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2010-cu il tarixli Sərəncamı bu sahədə Azərbaycan gömrükçülərinin potensialından istifadə edilməsini nəzərdə tuturdu [19, 2010, 28 dekabr].

İpək Yolu ölkələri arasında ticarətə yardım və onun asanlaşdırılması üzrə gömrük idarələrinin roluna dair 2-ci Beynəlxalq Forumda qəbul edilmiş "İpək Yolu ölkələrində sərhəd buraxılış məntəqələrinin modernləşdirilməsi ilə ticarətin asanlaşdırılması və regional gömrük əməkdaşlığının genişləndirilməsi üzrə Karvansaray layihəsi" ilə bağlı işlər aparılırdı. Türkiyə gömrük xidmətinin təşəbbüskarı olduğu və Azərbaycan və Gürcüstan gömrük xidmətləri tərəfindən dəstəklənən "Karvansara" layihəsinin katiblik işlərini TRASEKA öz üzərinə götürdü. 2012-ci ilin yanvar ayında Türkiyədə keçirilən ekspertlər qrupunun iclasında iki mərhələli fəaliyyət planının tətbiq olunması haqqında razılıq əldə olundu. İlk mərhələdə, üç ölkədən olan nümayəndələrlə müəyyən edilmiş sərhəd buraxılış məntəqələrində pilot layihənin icrasına başlanıldı. Layihəyə müvafiq olaraq, Azərbaycan, Gürcüstan və Türkiyənin gömrük idarələrinin nümayəndələrin iştirakı ilə eyni marşrut üzərində yerləşən Türkiyə-Gürcüstan və Gürcüstan-Azərbaycan sərhədindəki gömrük sərhəd buraxılış məntəqələrində araşdırmalar aparıldı. Türkdilli ölkələr arasında iqtisadi-ticarət sahəsində əlaqələrin daha da dərinləşməsi istiqamətində davam edirdi. Tarixi İpək Yolunun Azərbaycan və Gürcüstanı əhatə edən şimal marşrutunda bir layihə çərçivəsində sərhəd keçidlərinin iş fəaliyyəti və sərhəd-keçid məntəqələrinin infrastruktur imkanlarının və insan resurslarının müəyyən edilməsi və pilot layihənin Azərbaycan, Gürcüstan və Türkiyə arasında həyata keçirilməsi qərara alınmışdır. İşçi qrupunun üzvləri ilk öncə Türkiyə-Gürcüstan sərhədinin Türkiyə tərəfindəki Sarp Quru Yolu sərhəd-keçid məntəqəsində,

bunun ardınca isə Gürcüstan tərəfindəki Sarp Quru Yolu sərhəd-keçid məntəqəsində oldu. Gürcüstan-Azərbaycan sərhədinin Azərbaycana aid hissəsində yerləşən Sınıq Körpü, daha sonra Gürcüstan tərəfindəki Qırmızı Körpüdə, ən sonda isə Bakıda Bərə limanında müşahidə aparıldı. Bu səfərlər zamanı ən yaxşı təcrübələr mənimsənildi.

2012-ci il martın 12-16-da DGK-da Aİ-nin gömrük qanunvericiliyi üzrə TAIEX seminarı keçirildi. Tədbirin məqsədi Aİ-nin Gömrük Məcəlləsi üzrə Latviya Respublikası Maliyyə Nazirliyinin Gömrük Departamentinin qabaqcıl iş təcrübəsi ilə tanışlıq idi. Seminarda yük gömrük bəyannaməsi (elektron bəyannamə), geri ixrac, malların müvəqqəti saxlanması, xarici və daxili tranzit, sadələşdirilmiş gömrük qaydaları, sərnişinlərin yüklərinə nəzarət və bəyan edilməsi, gömrük sistemində risklərin təhlili və idarə olunması, həmçinin Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsi ilə bağlı məsələlər nəzərdən keçirildi. 2012-ci il aprelin 12-də "Azərbaycan Respublikası Hökuməti və Makedoniya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" imzalanan Saziş Azərbaycan Respublikasının 2012-ci il 20 iyun tarixli Qanunu ilə təsdiq edildi. 2012-ci il iyunun 11-15-də Bakıda DGT-nin Bakıdakı Avropa regional ofisində təşkilatın "Qlobal qalxan" Proqramı çərçivəsində təlim keçirildi. ABŞ Dövlət Departamentinin maliyyə dəstəyi ilə keçirilən tədbirdə Azərbaycan, Birləşmiş Ştatlar, Böyük Britaniya, Avstriya, Özbəkistan, Pakistan, Əfqanıstan, Qırğızıstan, Türkmənistandan gəlmiş gömrükçülər və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak etdi. 2009-cu ildən həyata keçirilən "Qlobal qalxan" Proqramında Azərbaycan təlimdə dinləyici qismində çıxış edir. Burada əsas məqsəd partlayıcı maddələrin, kimyəvi silahların, narkotik vasitələrin hazırlanmasında istifadə olunan prekursorların qanunsuz dövriyyəsinin qarşısının alınmasıdır [36, 2012, 12 iyun].

2012-ci il oktyabrın 5-də Naxçıvanda, türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin görüşü oldu. Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın gömrük xidməti nümayəndələri iştirak etdi. Naxçıvan şəhərindəki "Duzdağ" Otelində türkdilli ölkələrin gömrük xidmətlərinin ticarət və sərhəddən keçmə prosedurаlarının sadələşdirilməsi ilə bağlı layihələrinin təqdimatı keçirildi. Qazaxıstan gömrük xidməti tranzit

potensialın inkişaf etdirilməsini nəzərdə tutan "Silk Wind" layihəsini, Azərbaycan "Bir pəncərə prinsipi"ni, Qırğız Respublikası gömrük xidməti "İnformasiya texnologiyaları", Türkiyə isə "İpək Yolu" təşəbbüsü – "Karvansaray layihəsi"ni təqdim etdi. Görüş çərçivəsində İpək yolu ölkələri arasında ticarət əlaqələrinin genişləndirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi işində gömrük orqanlarının rolu mövzusunda V forum da baş tutdu. Bu istiqamətdə gələcək fəaliyyət planı müəyyənləşdirildi. Azərbaycanın gömrük xidməti rəhbəri "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan sazişində beynəlxalq terrorizm, separatçılıq, ekstremizm, insan alveri və narkobiznesə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsi, həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə nəzarət üzrə beynəlxalq siyasətə yardım göstərilməsi kimi məsələlərin də yer aldığını nəzərə alaraq gömrük narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə layihə təqdim etdi. Görüşdə təlim və texniki yardım sahəsində əməkdaşlıq məsələləri də müzakirə olundu. Gömrük laboratoriyaları, həmçinin gömrük tarifi, malın mənşə ölkəsi və sair kimi texniki gömrük məsələləri üzrə tədris proqramlarının həyata keçirilməsi üçün məsləhətləşmələr aparıldı. Gömrük xidmətləri ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası arasında əlaqələrin genişləndirilməsi, inkişafı və şaxələndirilməsi məqsədilə Gömrük Ekspert Qrupu yaradıldı. Görüşdə Türkdilli dövlətlərin gömrük xidməti rəhbərləri tərəfindən "Naxçıvan bəyannaməsi" imzalandı [105, 2012, 6 oktyabr].

2012-ci ilin noyabrın 19-da Romada imperator Adrian muzeyində Azərbaycan ilə İtaliya arasında iqtisadi əlaqələri təşviq edəcək İtaliya-Azərbaycan Ticarət İnstitutunun təsis konfransı keçirildi. Konfransda Azərbaycan-İtaliya iqtisadi-ticarət münasibətlərinin inkişafına dair məlumat verilmişdi. İtaliyanın müxtəlif dövlət və işgüzar təşkilatlarının (İtaliya Xarici Ticarət İnstitutu (İCE), İtaliya şirkətlərinin xaricdə təşviqi təşkilatı (SİMEST), İtaliyanın ixrac kreditləri, sığorta və investisiyaların qorunması təşkilatının (SACE) tədbirdə iştirak edən nümayəndələri qarşısında çıxış edən Roma Ticarət Palatasının prezidenti Cankarlo Kremonezi Azərbaycanın zəngin iqtisadi və biznes potensialına malik ölkə olduğunu və İtaliya iş adamlarının diqqətini cəlb etdiyini qeyd etmişdi.

2013-cü il fevralın 14-də Bakıda "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gömrük işi sahəsində əmək-

daşlıq və qarşılıqlı yardım haqqında" imzalanmış Saziş 2013-cü il aprelin 19-da Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edildi.

2014-cü il yanvarın 22-də Bakıda Dünya Gömrük Təşkilatının Avropa regionu üzrə milli tədris mərkəzləri rəhbərlərinin birinci konfransı keçirildi. Konfransda Azərbaycan da daxil olmaqla 42 iştirakçı və 5 müşahidəçi ölkənin, bir sıra beynəlxalq təşkilatların nümayəndələri iştirakı ilə insan resurslarının inkişafı və gömrük işi sahəsində qabaqcıl təcrübənin təqdimatı keçirildi. Konfransda "Aktual məsələlər və gömrük tədrisi üzrə fikir mübadiləsi" və "Gömrük tədrisində qabaqcıl yanaşmalar" bölmələri üzrə "Gömrük peşəkarlığı və bacarıqlar", "Milli insan resurslarının inkişafı və tədris strategiyaları: işçi heyətinin təkmilləşdirilməsi, bacarıqlar və fəaliyyət", "Milli tədris proqramları", "Milli Tədris Mərkəzi təşkil edilərkən infrastruktur və təşkilati çətinliklər" və digər mövzularda müzakirələr aparıldı.

2014-cü il may ayının 12-də Azərbaycan DGK-nın nümayəndə heyəti Mərakeşə səfəri zamanı Rabatda iki ölkə arasında gömrük sahəsində saziş imzalandı. Azərbaycan Respublikası DGK-nın sədri Aydın Əliyevlə Mərakeş Krallığının iqtisadiyyat və maliyyə naziri əl-Əzəmi əl-İdrisi ilə iki ölkə arasında iqtisadi əlaqələrinin perspektivləri müzakirə olundu [168].

2014-cü il iyun 17-də Uruqvay Respublikasının Xarici İşlər Nazirliyinin binasında Azərbaycan ilə Uruqvay arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş imzalanma mərasimi keçirildi. Səfər proqramı çərçivəsində Azərbaycan mədəniyyətinin təbliği məqsədilə Montevideo şəhərinin "KVON Abanza" tədbirlər mərkəzində "Azərbaycan gömrüyü mədəni irsin keşiyində" adlı sərgi nümayiş etdirildi.

2014-cü ildən başlayaraq Almaniya Federativ Respublikasının Milli Metrologiya İnstitutunun (PTB) rəhbərliyi ilə "Cənubi Qafqaz ölkələrində qida məhsullarının tədqiqinin gücləndirilməsi və onların metrologiyası" proqramı çərçivəsində layihəyə start verildi. Əsas məqsəd qida məhsullarının sınağında beynəlxalq metodların istifadəsinin genişləndirilməsi idi. 2017-ci ilə qədər davam etməsi planlaşdırılan layihəyə Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsi də qoşuldu. Layihəyə əsasən gömrük ekspertləri qarşılıqlı olaraq ildə iki dəfə Almaniya Federativ Respublikası və Azərbaycandakı laboratoriyalarda, universitetlərdə keçiriləcək treninq, seminar və laboratoriyaların beynəlxalq peşəkarlıq testlərində

iştirakını etməli idilər. Mərkəzi Gömrük Ekspertizası İdarəsinin ekspertləri bu layihə üzrə təşkil olunmuş 4 treninqdə peşəkarlıq səviyyələrini artırmağa imkan qazandılar. İlk treninq Berlində, ikinci treninq İdnştayn şəhərində yerləşən "Hochschule Fresenius" Universitetində keçirildi. Mühazirə və təcrübi olmaqla iki hissədən ibarət olan treninqdə əvvəl sınaqların nəticələrinin daha müasir metodlarla hesablanma qaydaları, validasiya metodları, keyfiyyətli nəticələrin əldə olunması üçün müasir üsullarla sınaqların aparılması qaydaları haqqında mühazirələr oxundu. Əsasən yeyinti məhsullarında, balıq konservlərində ağır metallar qrupuna daxil olan kadmiumun miqdarının təyini, balda antibiotiklərin yeni, az xərc tələb edən və dərhal nəticə əldə edilən "Elise" testləri ilə təyini, bitki yağlarının növünün və yod ədədinin təyininə və dərman preparatlarında parasitamolun və vitamin C-nin miqdarının müəyyən edilməsi öyrənildi. Gürcüstan Respublikasında mikrobioloji tədqiqatlar mövzusunda keçirilən növbəti treninqdə mikrobiologiyada ən yeni metodlar, mikrobioloji analizlər üçün ümumi tələblər, təhlükəsizlik şərtləri, gigiyena, avadanlıq, mikrobioloji tədqiqatlar üçün bioloji təhlükəsizlik boksu, laboratoriya avadanlıqlarından düzgün istifadə qaydası, nümunənin götürülməsi, daşınması və saxlanılması, mikrobioloji metodun validasiyası məsələlərinə toxunuldu. Ekspertlər öz işlərini Almaniya Federativ Respublikasının İdnştayn şəhərində yerləşən "Hochschule Fresenius" Universitetində növbəti treninqlə davam etdirdilər. Dördüncü treninqdə daha çox nümunə hazırlığının yeni üsullarına diqqət yetirilib və sınaqlarda düzgün seçilmiş nümunə hazırlığı metodları öyrənildi, şokoladda kofeinin miqdarı, yağlarda aromatik karbohidrogenlərin və çörəkdə ağır metal qrupuna daxil olan qurğuşunun təyini üzrə müxtəlif sınaqlar aparıldı.

2014-cü il dekabrın 5-də Rusiya Federasiyasının Soçi şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 60-cı iclasında 2012-2015-ci illər ərzində MDB üzv dövlətlərin gömrük orqanları mətbuat xidmətlərinin ictimaiyyətlə əlaqələrin təmin edilməsi üzrə qarşılıqlı fəaliyyət konsepsiyasının müddəalarının həyata keçirilməsinə dair məsələ müzakirə olundu. Eyni zamanda, Gömrük Xidməti Rəhbərləri Şurası hüquq mühafizə bölmələri başçıları komitəsinin və Dünya Gömrük Təşkilatının fəaliyyəti üzrə Regional Əlaqələndirmə Qovşağı RİLO-Moskvanın 2015-ci il üçün iş planları ilə bağlı fikir

mübadiləsi aparılıb. Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevlə Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninovun görüşündə iki ölkənin gömrük xidmətləri arasında əməkdaşlıq əlaqələrinin perspektivləri, həmçinin ərzaq və kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı təkliflər səsləndirilib. Bu istiqamətdə iki ölkənin əlaqədar qurumları arasında imzalanması nəzərdə tutulan protokol layihəsi üzərində hazırlıq işlərinin aparılması qeyd olunub [123, 2014, 6 dekabr].

Müasir gömrük işində effektiv menecment və biznes prosesləri üzrə alətlərin əldə olunması tələb olunur və bunlardan ən mühümü gömrük orqanlarında geniş istifadə olunan risklərin idarə edilməsidir. Bu məqsədlə 2014-cü il dekabrın 15-19-da Dünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Risklərin idarə olunması" mövzusunda İsveçrə Federal Gömrük İdarəsinin ekspertləri tərəfindən seminar keçirildi. Azərbaycan gömrükçülərinə risklərin idarə olunması sahəsində İsveçrə təcrübəsi haqqında geniş informasiya verildi.

Beləliklə, 1992-2014-cü illərdə Azərbaycan Respublikasının gömrük işi sahəsində bağladığı ikitərəfli sazişlər aşağıdakı istiqamətləri əhatə edirdi: gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım; xarici ticarətin gömrük statistikası sahəsində metodoloji və informasiya sahəsində qarşılıqlı fəaliyyət; gömrük sənədlərinin və gömrük təminatlarının qarşılıqlı tanınması; sərhədlərdən qanunsuz keçirilən mədəni sərvətlərin tutulub saxlanılması və qaytarılması məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım; qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq; gömrük qanunvericiliyinin düzgün tətbiq olunması və gömrük hüquqpozmalarının qarşısının alınması sahəsində əməkdaşlıq. Azərbaycan Respublikası DGK Dünya Gömrük Təşkilatının sessiyalarında, ayrı-ayrı komitələrin iclaslarında iştirak edərək beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi üzrə müvafiq işlər həyata keçirir, Avropa Birliyinin TACİC və TRASEKA proqramları çərçivəsində gömrük sisteminin inkişafı və modernləşdirilməsi sahəsində müəyyən işlər görür və müxtəlif məqsədli layihələr hazırlayıb təqdim edir. İdxal-ixrac əməliyyatları üzrə tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərini beynəlxalq normalara uyğun qurmağa çalışır, beynəlxalq təşkilatların ekspertlərini qəbul edir və onlarla əməkdaşlığa

üstünlük verir. BMT-nin İnkişaf Proqramı ilə Azərbaycan Hökuməti arasında gömrük məlumatlarının ötürülməsi şəbəkəsinin yaradılması üzrə müqavilə imzalanmış və bu layihə regional ticarətin və gömrük prosedurALarının potensialının artmasına xidmət etdi.

Respublika gömrük xidməti orqanlarının xarici iqtisadi fəaliyyət iştirakçıları olan sahibkarlarla əməkdaşlığı da çox böyük əhəmiyyətə malikdir. Belə əməkdaşlıq fiziki şəxsləri idxal-ixrac əməliyyatlarının beynəlxalq qaydalarında baş verən dəyişikliklər barədə məlumatlı olmağa imkan verir, beynəlxalq ticarət mexanizmi üçün əhəmiyyətli məlumatları təqdim edir və gömrük qanunvericiliyinə könüllü riayət olunmasının inkişaf etdirilməsinə potensial şərait yaradır. Digər tərəfdən, isə sahibkarlar ticarətin asanlaşdırılmasına yardım məsələsinə təsərrüfatçılığın əsas strateji məqsədlərindən biri kimi baxmalı, gömrük qaydalarına riayət etməli, hüquqi bilik səviyyələrini artırmalı, gömrük xidməti ilə sıx qarşılıqlı əlaqədə təsərrüfatçılığın yeni tələblərinə, eləcə də gömrük nəzarətinin tələblərinə cavab verən yeni idarəetmə modelinə uyğunlaşmalıdır ki, bu da öz növbəsində ticarətin asanlaşdırılmasına yardım edir.

Respublikamızın davamlı iqtisadi inkişafına uyğun çevik gömrük modelinin formalaşdırılması və müasir gömrük xidməti göstərilməsinin yolu XXI yüzilliyin yeni çağırışları əsasında beynəlxalq əməkdaşlığın səmərəli təşkilindən keçir.

### *5.2. Gömrük xidmətinin kadr potensialı və maddi-texniki resurslarının gücləndirilməsi. 2007-2011-ci illərdə gömrük sisteminin inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi*

Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın idarə edilməsi sisteminin yaradılması gömrük orqanlarının kadr tərkibinin effektiv fəaliyyət göstərməsi üçün bir sıra məsələlərin həllini tələb edir.

Dövlət Gömrük Komitəsinin yaranmasının 5-ci ildönümü münasibətilə keçirilən mərasimdə Prezident Heydər Əliyev gömrük əməkdaşlarının qarşısında təxirəsalınmaz vəzifələr qoydu. Heydər Əliyev deyirdi: *"Azərbaycan müstəqil bir dövlət kimi yaşayacaq. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək bütün istiqamətlərdə aparılan*

*tədbirlər nəticəsində ola bilər. Bu istiqamətlərdən biri də yüksək səviyyəli gömrük xidmətinin yaranmasıdır. Onun üçün bir daha qeyd edirəm, siz dünya təcrübəsindən istifadə etməlisiniz. Bizim Azərbaycanda nə gömrük məktəbi, nə gömrük universiteti, nə də gömrük akademiyası olubdur...*

*Gömrük işçilərinin əksəriyyəti, cürbəcür ixtisaslar alıbdır. Amma sırf gömrük ixtisası üzrə təhsil alan adamlar çox azdır. Siz bu təhsili də işləyə-işləyə almalısınız. Yəni işləyə-işləyə gömrük elminin və gömrük biliklərinin mənimsənilməsi sahəsində özünüzü təhsilləndirirsiniz, təkmilləşdirirsiniz. Şübhəsiz ki, Gömrük Komitəsinin gərək xüsusi iş planı olsun. Gömrük Komitəsinin öz işçilərini təkmilləşdirmək, onlara xüsusi gömrük təhsili vermək. Onların təcrübəsini artırmaq üçün gərək birillik, ikiillik, üçillik planı olsun və onun əsasında siz təhsil işi aparmalısınız. Bu, sizin sahəyə başqa sahələrə nisbətən ən çox lazımdır. Ona görə də siz bunu etməlisiniz.*

*Həqiqi gömrük işini düzgün təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz işinə sadiq olsun, Vətəninə, ölkəsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da sizin vəzifənizdir...".* Ulu öndər tövsiyə edirdi ki, gömrük əməkdaşlarının peşə fəaliyyətində, Gömrük Komitəsinin hər bir özəyində mənəvi saflıq, mənəvi təmizlik, dövlət qanunlarına riayət etmək, öz işinə sədaqətli olmaq kimi əxlaqi prinsiplər bərqərar olmalıdır [60, 31 yanvar 1997-ci il].

Azərbaycan Respublikasının gömrük orqanları sistemində yüksək ixtisaslı kadr heyətinin formalaşdırılması və onların yerləşdirilməsi işini təkmilləşdirmək məqsədilə *"Azərbaycan Respublikası gömrük orqanları vəzifəli şəxslərinin Attestasiyası haqqında"* Əsasnamənin tələblərinə müvafiq olaraq aparılan attestasiyada əməkdaşın tutduğu vəzifəyə, ixtisasına və peşə səviyyəsinə uyğunluğu yoxlanılır, peşə və iş keyfiyyəti, qabiliyyət və imkanlarının tətbiqi perspektivi müəyyən edilir. Burada əsas prinsip qanunçuluq, obyektivlik, qərəzsizlik, aşkarlıq və kollegiallıqdan ibarətdir. 1997-ci il 1 yanvar vəziyyətinə görə gömrük orqanlarının şəxsi heyəti 1337 nəfər əməkdaşdan ibarət idi, onlardan 146 nəfəri mərkəzi aparatda, digərləri yerli gömrükxana və gömrük postlarında çalışırdı. Gömrük orqanlarının şəxsi heyətinin 98,6 faizini ali təhsilli və iqtisadiyyatın müxtəlif sahələrində iş təcrübəsi olan mütəxəssislər təşkil edirdi.

Xidmətə yeni qəbul edilən əməkdaşlar üçün DGK sədrinin müvafiq əmri ilə peşə hazırlığı kursları fəaliyyətə başladı. Təkcə 1997-ci ildə TASİS Proqramı çərçivəsində təşkil olunmuş kurslarda 56 nəfər, Türkiyədə keçirilən 3 həftəlik gömrük kurslarında 20 nəfər əməkdaş iştirak etmişdi. 30 nəfər İngiltərə və İtaliya gömrük mütəxəssislərinin rəhbərliyi ilə Bakıda təşkil edilən kursların dinləyicisi olmuşdu. Xidmətin Tədris Mərkəzində İngiltərənin Notingem Trent Universiteti və Avropa dövlət İdarəçiliyi İnstitutunun mütəxəssisləri bir çox treninq və seminarlarda iştirak etmişdi [82, 1998, 29 yanvar, №2 (54)].

Azərbaycan Respublikasında gömrük işini dünya standartlarına yaxınlaşdıran mühüm sənədlərdən biri də Azərbaycan Respublikasının Qanunu ilə təsbit olunmuş *"Gömrük orqanlarında xidmət haqqında"* Əsasnamədir. Əsasnamə gömrük orqanlarında xidmət qaydalarını müəyyənləşdirir. Gömrük orqanlarında xidmət haqqında qanunvericilik ölkə Konstitusiyasına, *"Gömrük orqanlarında xidmət haqqında"* Əsasnaməyə və digər normativ-hüquqi sənədlərinə əsaslanır. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilən *"Gömrük orqanlarında xidmət haqqında"* Əsasnamə Azərbaycan Respublikasının gömrük orqanlarında və təşkilatlarında xidmətin qaydalarını və gömrük orqanlarının vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsaslarını müəyyən edir. Əsasnamənin 1-ci maddəsində göstərilir: *"Gömrük orqanlarında xidmət – Azərbaycan Respublikasının hüquq mühafizə orqanları sisteminə daxil olan gömrük orqanlarının vəzifə, funksiya və hüquqlarını öz peşəkar fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğunun xüsusi növüdür".* Gömrük orqanlarına xidmətə qəbul olunan vətəndaşlara və gömrük orqanlarının vəzifəli şəxslərinə gömrük orqanının aşağıda göstərilən xüsusi rütbələri verilir:

1) gömrük xidməti giziri; tibb xidməti giziri;
2) gömrük xidməti baş giziri; tibb xidməti baş giziri;
3) gömrük xidməti kiçik leytenantı; tibb xidməti kiçik leytenantı;
4) gömrük xidməti leytenantı; tibb xidməti leytenantı;
5) gömrük xidməti baş leytenantı; tibb xidməti baş leytenantı;
6) gömrük xidməti kapitanı; tibb xidməti kapitanı;
7) gömrük xidməti mayoru; tibb xidməti mayoru;
8) gömrük xidməti polkovnik-leytenantı; tibb xidməti polkovnik-ley-

tenantı;

9) gömrük xidməti polkovniki; tibb xidməti polkovniki;

10) gömrük xidməti general-mayoru; tibb xidməti general-mayoru;

11) gömrük xidməti general-leytenantı;

12) gömrük xidməti general-polkovniki;

13) Azərbaycan Respublikasının həqiqi dövlət gömrük xidməti müşaviri [73, 2000, 13 yanvar; 83, 157; 75, 2004, 63-79].

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 yanvar tarixli 640 nömrəli Fərmanı ilə K.F.Heydərova gömrük xidməti general-polkovniki, Respublika Prezidentinin növbəti Fərmanları ilə DGK sədrinin müavinləri R.C.Həsənəliyev, S.Y.Müslümov və R.X.Mirzəyevə gömrük xidməti general-mayoru rütbələri verilməsi gömrük xidmətinin hüquq-mühafizə fəaliyyətinə Azərbaycan dövləti tərəfindən mühüm əhəmiyyət verilməsini sübut edirdi [24, 31 yanvar 2002-ci il, №1, maddə 23; maddə 25; maddə 26; maddə 27].

Beləliklə, Azərbaycan Respublikasının gömrük orqanlarında xidmət öz vəzifə, funksiya və hüquqlarını peşəkar fəaliyyətləri ilə həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət xidmətinin xüsusi növüdür. Gömrük orqanlarının əməkdaşları bu vəzifə və funksiyaların icraçıları hesab olunurlar. Onlara həvalə edilmiş vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi DGK əməkdaşlarının təhsil səviyyəsi, peşəkarlığı, fiziki hazırlığı, işgüzar və mənəvi-psixoloji keyfiyyətlərindən çox asılıdır. Digər tərəfdən, gömrük əməkdaşlarının əməyinin ödənilməsi, maddi-məişət təminatı, dövlət və sosial müdafiəsi də həyata keçirilən gömrük xidmətinin effektivliyinə böyük təsir göstərir.

Cədvəl 5.1

**Azərbaycan Respublikasının gömrük orqanlarının ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələr və bu vəzifələrə uyğun xüsusi rütbələrin Siyahısı**

| Vəzifənin adı | Xüsusi rütbənin adı | Vəzifənin sayı |
|---|---|---|
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin mərkəzi aparatı** | | |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri** | Azərbaycan Respublikasının həqiqi | 1 |

| | | |
|---|---|---|
| | dövlət gömrük müşaviri | |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini** | gömrük xidməti general-polkovniki | 1 |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini** | gömrük xidməti general-leytenantı | 3 |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin köməkçisi** | gömrük xidməti general-mayoru | 1 |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi mərkəzi aparatının Baş İdarə rəisi** | Gömrük xidməti general-mayoru | 3 |
| **Dövlət Gömrük Komitəsi sisteminə daxil olan gömrük orqanları və təşkilatları** | | |
| **Naxçıvan Gömrük Komitəsinin sədri** | gömrük xidməti general-leytenantı | 1 |
| **Baş Gömrük İdarəsinin rəisi** | gömrük xidməti general-mayoru | 2 |
| **Tədris mərkəzinin rəisi** | gömrük xidməti general-mayoru | 1 |
| **“Azərterminalkompleks” Xarici İqtisadi Birliyinin direktoru** | gömrük xidməti general-mayoru | 1 |

Gömrük işinin inkişafında kadrlar, onların ixtisasının artırılması, mənəvi siması, əməkdaşlar tərəfindən xidməti və etik davranış qaydalarına yüksək səviyyədə əməl edilməsi az əhəmiyyət kəsb etmir. Xarici iqtisadi əlaqə iştirakçılarına xidmət səviyyəsinin yüksəldilməsi gömrük orqanlarında kadrların keyfiyyət tərkibinin yaxşılaşdırılmasından asılıdır. Beynəlxalq təcrübə də göstərir ki, gömrük məmurlarının ümumi və xüsusi hazırlıqları məcburi xarakter daşımalıdır. Azərbaycan Respublikası DGK sədrinin ölkəmizdə ilk dəfə olaraq gömrük kadrları hazırlayan Tədris Mərkəzi yaradılması haqqında 1996-cı il 29 dekabr tarixli 882 saylı əmri oldu. Mərkəz faktiki olaraq 1997-ci il noyabrın 28-də fəaliyyətə başladı. Mərkəzin Əsasnaməsi 1998-ci ilin iyulunda Ədliyyə Nazirliyində qeydiyyatdan keçirildi [6, 1997, 29 yanvar; 132, 1997, 29 noyabr; 91, 1997, 30 yanvar].

Gömrük xidmətinə işə qəbul olunan gənc mütəxəssislər və orta rəis

heyətinin 4 aylıq ixtisasartırma kursları fəaliyyətə başladı. Mərkəzdə məşğələlərin aparılmasına təcrübəli gömrük işi mütəxəssisləri, hüquqşünas və iqtisadçılar cəlb olunurdu. 2000-ci ildə gömrük əməkdaşlarının sayı 2000 nəfəri ötmüşdü: onların 99 faizi ali təhsilli hüquqşünas, iqtisadçı və digər peşə sahələrinin mütəxəssisləri idi. Gömrük xidmətinin kadr siyasətinin elmi əsaslar üzərində işlənilib hazırlanması tələb olunurdu. Şəxsi heyətə qəbul edilən əməkdaşların təhsil, ixtisas və peşə hazırlığı səviyyəsi, sağlamlığı, işgüzar və mənəvi keyfiyyətləri əsas götürülürdü. Xarici dil bilməsi gömrük əməkdaşı üçün vacib olan tələblərdən idi. Bakı Baş Gömrük İdarəsinin 2000-ci ilə aid kadrların təhsil səviyyəsinə görə strukturunun təhlili göstərir ki, bu sahədə xidmət edən 372 nəfər əməkdaşın 345 nəfəri (92,7 faiz) ali təhsilli şəxslər idi. Kadrların iş stajına görə tərkibində 2 ilə qədər iş stajı olanlar – 15 faiz, 2-5 il arası – 38,2 faiz, 5 ildən yuxarı isə - 46,8 faiz təşkil edirdi. Bütün əməkdaşların yaş strukturunda 30-50 yaş arası olanlar 76,9 faiz idi [15, 2001, 30 yanvar].

*"Azərbaycan Respublikasının gömrük orqanlarının bayrağı haqqında Əsasnamə" və "Azərbaycan Respublikası gömrük orqanlarının tanınma nişanları haqqında Əsasnamə"* Azərbaycan Respublikasının 2001-ci il 1 iyun tarixli qanunları ilə təsdiq edildi. Əsasnamədə göstərilir ki, gömrük orqanlarının tanınma nişanı gömrük orqanlarının şərəf və ləyaqət rəmzidir. O, hər bir gömrük əməkdaşına Azərbaycan Respublikasının iqtisadi suverenliyini və təhlükəsizliyini qorumaq, öz xidməti vəzifələrini vicdanla yerinə yetirmək və gömrük xidmətində intizamın tələblərinə əməl etmək borcunu xatırlatmaq üçündür [6, 2001, 20 iyun, №137].

Cədvəl 5.2

**Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı**

| Vəzifənin adı | Vəzifəyə görə müəyyən olunmuş ali xüsusi rütbə |
|---|---|
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mərkəzi aparatı** | |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri** | Azərbaycan Respublikasının həqiqi dövlət gömrük xidməti müşaviri |
| **Azərbaycan Respublikası Dövlət** | gömrük xidməti general-polkovniki |

| | |
|---|---|
| **Gömrük Komitəsi sədrinin birinci müavini** | |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini** | gömrük xidməti general-leytenantı |
| **Naxçıvan Muxtar Respublikası Gömrük Komitəsinin sədri** | gömrük xidməti general-leytenantı |
| **Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının Baş İdarə rəisi** | gömrük xidməti general-mayoru |
| **Bakı Baş Gömrük İdarəsinin rəisi** | gömrük xidməti general-mayoru |
| **Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi** | gömrük xidməti general-mayoru |
| **"Azərterminalkompleks" Təsərrüfat Hesablı Xarici İqtisadi Birliyinin direktoru** | gömrük xidməti general-mayoru |
| **Tədris Mərkəzinin rəisi** | gömrük xidməti general-mayoru |

Mənbə: "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu", 31 dekabr 2004-cü il, №12, maddə 1001

Azərbaycan dövləti gömrük sistemində kadr siyasətinin daha mükəmməl aparılmasına xüsusi önəm verir. Kadrların hazırlanması işi daim gömrük orqanlarının diqqət mərkəzində olmuşdur. Həmin dövrdə DGK-nın kadr potensialının formalaşdırılmasında rəhbər tutduğu əsas prinsiplər aşağıdakılar idi: a) uyğun profilli təhsil müəssisələrini bitirmiş ali və orta ixtisas təhsilli mütəxəssislərin işə qəbul edilməsi; b) əməkdaşların iş yerini dəyişməklə və yeni ixtisasa yiyələndikdən sonra işə qəbulu; c) qurumdaxili kadr hazırlığı sisteminin yaradılması; ç) peşə hazırlığı və ixtisas səviyyəsinin artırılmasında çoxpilləli sistemin tətbiqi. Gömrük orqanlarında seçilmiş kadrların peşəkarlıq səviyyəsinin artırılması, xidmətə yeni qəbul edilən əməkdaşların seçilməsi tam şəffaflıqla həyata keçirilir. 2002-ci ildən başlayaraq gömrük orqanlarına xidmətə qəbul test üsulu ilə aparılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nın təsdiq edilməsi haqqında 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanı qüvvədən düşmüş hesab edildi.

Respublika Prezidentinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında" 2005-ci il 28 yanvar tarixli 604 nömrəli Sərəncamı ilə Aydın Əliyev, Rza Həsənəliyev və Rəfail Mirzəyevə general-leytenantı, Səfər Mehdiyev, Şahin Bağırov və Etibar Mirzəyevə gömrük xidməti general-mayoru rütbəsi verildi.

Gömrük orqanlarında ixtisaslı kadrlara olan tələbatı ödəmək üçün respublikanın ali və orta ixtisas təhsil müəssisələrində gömrük işi üzrə mütəxəssislərin hazırlanmasına başlanıldı. İlk olaraq, ali məktəblərin maliyyə-iqtisadiyyat istiqamətli ixtisaslar üzrə təhsil proqramlarına "Gömrük işi", Gömrük hüququ", "Gömrük ekspertizası" fənləri daxil edildi. Bu fənlər üzrə bir sıra dərsliklər və metodiki vəsaitlər dərc olundu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Bakı Dövlət Universitetinin Elmi Şurasının 1999-cu il 30 iyun tarixli qərarı ilə "Beynəlxalq münasibətlər" fakültəsinin nəzdində "Gömrük işinin təşkili" şöbəsi açıldı. Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, respublikanın bir sıra dövlət və özəl universitetlərində bakalavr və magistr təhsil pilləsi üzrə "Gömrük işinin təşkili", Azərbaycan Dövlət Neft Akademiyasında "Gömrük ekspertizası" ixtisası üzrə tələbə qəbulu həyata keçirildi. 2003-cü ildə BDU-da "Gömrük işi" ixtisası üzrə diplom alan ilk məzunların buraxılışı oldu.

2003-cü ildə dünya ölkələri içərisində Dünya Gömrük Təşkilatının Tədris Mərkəzinin məhz Azərbaycanda açılması bunun konkret təzahürüdür. Şərqi Avropa və Asiya regionu ölkələrinin gömrük zabitlərini bir araya gətirən bu tədris ocağı Azərbaycan dövlətinin dəstəyi və dünya gömrük ailəsinin seçimi ilə ölkəmizdə açıldı. Təbii ki, bunu Azərbaycan hökumətinin demokratik dəyərlərə sahib olması ilə əlaqələndirən DGT-nin Baş katibi Mişel Dane Mərkəzin açılış mərasimində Azərbaycan gömrükçülərinə müraciətlə bu addımın qonşu ölkələrə örnək olduğunu qeyd edərək demişdi: *"Siz burada elə işləməli, elə səviyyədə təlim keçməlisiniz ki, Azərbaycan hökumətinin sizin üzərinizə qoyduğu missiyanı ləyaqətlə yerinə yetirəsiniz və əsası, dəyişən dünyada dünyanın özünü, sərhədlərini mühafizə etməyi bacarasınız".*

Təkcə 2006-cı ildə gömrük xidmətində işə qəbul edilmiş 63 nəfər Tədris Mərkəzində kurslara cəlb olunmuşdu. Tədris prosesi DGT-nin müasir

fənn proqramları və metodikası əsasında qurulmuşdu. Gömrük işi ilə bağlı hazırlanan metodik və əyani dərs vəsaitinin keyfiyyətinin yaxşılaşdırılması təhsilin səviyyəsinin yüksəldilməsi əməkdaşların peşə biliklərinin artması və gömrük xidməti üçün daha yüksək keyfiyyətli kadrların hazırlanmasına xidmət edirdi. Hər il DGT-nin dəstəyi ilə keçirilən regional tədris kurslarında gömrük əməkdaşlarının iştirakı, digər beynəlxalq təşkilatlar tərəfindən təşkil edilən seminar və kurslarda sahələr üzrə gömrük mütəxəssislərinin müasir nəzəri və praktiki biliklərə yiyələnməsi gömrük işinin səmərəsini artırırdı.

Azərbaycan Respublikasının gömrük orqanları sistemində yüksək ixtisaslı kadr heyətini formalaşdırmaq və onların yerləşdirilməsi işini təkmilləşdirmək məqsədilə *"Azərbaycan Respublikası gömrük orqanları vəzifəli şəxslərinin Attestasiyası haqqında"* Əsasnamənin tələblərinə müvafiq olaraq aparılan attestasiyada əməkdaşın ixtisasının tutduğu vəzifəyə və peşə səviyyəsinə uyğunluğu yoxlanılır, peşə və iş keyfiyyəti, qabiliyyət və imkanlarının tətbiqi perspektivi müəyyən edilir, işgüzar və mənəvi keyfiyyətlərinə qiymət verilirdi. Peşəkarlıq səviyyəsinin qiymətləndirilməsində qanunçuluq, obyektivlik, qərəzsizlik, aşkarlıq və kollegiallıq meyarlar kimi əsas götürülürdü. DGK nəzdində Attestasiya Komissiyası üzvlərinin iştirakı ilə aparılan test imtahanlarında daha çox bal toplayan gənclər kadr ehtiyatı siyahısına daxil edilir.

Azərbaycanın Gömrük Xidməti ilə Rusiya Gömrük Akademiyası arasında kadr hazırlığı sahəsində sıx əlaqələr yaranmışdır. Rusiya Gömrük Akademiyasının mütəxəssisləri Tədris Mərkəzinin təşkili işində iştirak etmişdi. Həmin Akademiyanın azərbaycanlı məzunları arasında ölkənin gömrük orqanlarında rəhbər vəzifələrə təyin edilənlər də vardır. Təkcə 2007-2008-ci tədris ilində 5 nəfər əməkdaş Rusiya Federasiyası Gömrük Akademiyasını bitirmiş, 7 nəfər həmin təhsil ocağının qiyabi şöbəsinə qəbul olunmuş, 14 nəfər Akademiyada təhsilini davam etdirirdi. Hər il bir ənənə olaraq Rusiya Gömrük Akademiyasının azərbaycanlı məzunları və tələbələrinin ənənəvi illik konfransı keçirilir.

2010-cu il yanvarın 13-də Nazirlər Kabineti *"2010-2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı"* haqqında qərar qəbul etdi. Qərarda ölkəmizdə orta ixtisas təhsili sisteminin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi,

ölkə iqtisadiyyatının inkişafı istiqamətlərinə əsasən əmək bazarının tələbatına uyğun istehsal və xidmət sahələrinin yüksək keyfiyyətli orta ixtisas təhsilli kadrlarla təmin olunması nəzərdə tutulurdu. Respublikanın çoxsaylı orta ixtisas təhsili müəssisələrində, o cümlədən Azərbaycan Maliyyə-İqtisad, Bakı Texniki, Bakı Neft-Energetika, Bakı Qida Sənayesi, Bakı Dövlət Sosial-İqtisad, Bakı Dövlət Rabitə və Nəqliyyat, Azərbaycan Dəniz Balıq Sənayesi və Sumqayıt Dövlət Texniki kolleclərində "Gömrük işi" ixtisası üzrə mütəxəssis hazırlanır. Məsələn, Nazirlər Kabinetinin 2011-ci il 176 S nömrəli Sərəncamı ilə 2011-2012-ci tədris ilində orta ixtisas təhsil müəssisələrinin "Gömrük işi" ixtisası üzrə qəbul planı 296 nəfər nəzərdə tutulmuşdu.

Gömrük orqanlarına xidmətə qəbul *"Gömrük orqanlarında xidmət haqqında"* Əsasnamə və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş *"Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi qaydaları"* əsasında həyata keçirilir. Qaydalara əsasən ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə gömrük orqanlarında işləməyə qadir olmayan, gömrük, digər hüquq mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar müsabiqədə iştirak edə bilməzlər. Gömrük orqanlarının hüququ mühafizə orqanları statusuna malik olduğunu nəzərə alaraq qeyd olunan Əsasnaməyə uyğun olaraq yaşı 30-u keçməmiş və gömrük işi ixtisası üzrə ali təhsilə malik olan Azərbaycan Respublikasının vətəndaşları müsabiqədə iştirak edə bilərlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 24 yanvar tarixli 1972 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üçün yüksək ixtisaslı kadrların hazırlanması,

əməkdaşların ixtisaslarının artırılması və gömrük işi sahəsində elmi tədqiqatların aparılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası DGK-nın Tədris Mərkəzinin bazasında xüsusi təyinatlı ali təhsil müəssisəsi - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası təsis edildi. Gömrük Akademiyası gömrük xidməti üçün peşəkar kadrların hazırlandığı və gömrük işi üzrə elmi tədqiqatların aparıldığı xüsusi ali məktəb olmalıdır. Bu təhsil ocağının MDB ölkələrinin, xüsusilə də Rusiya Gömrük Akademiyasının təcrübəsi əsasında formalaşdırılması, təhsilini müvəffəqiyyətlə bitirən tələbələrin gömrük orqanlarında işlə təmin edilməsi nəzərdə tutulur. Respublika Prezidentinin 2013-cü il 8 iyul tarixli Fərmanı ilə Akademiyanın Nizamnaməsi təsdiq edildi. Nizamnamənin 1.1 maddəsində göstərilir ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsidir.

Azərbaycan Respublikası DGK sədrinin bir sıra əmrləri gömrükçü kadrların xidməti fəaliyyətini, peşə və fiziki hazırlığının yüksəldilməsi məsələlərini, sosial müdafiəsini tənzimləyir. *"Azərbaycan Respublikası Gömrük orqanları əməldaşlarının fərdi qaydada mükafatlandırılması haqqında"* Əsasnamənin təsdiq edilməsi barədə 1998-ci il 23 mart tarixli əmr, *"Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlarının verilməsi Qaydaları"* haqqında 1998-ci il 11 noyabr tarixli 65 nömrəli və həmin sənədin 5-ci maddəsinin 5.1 bəndinə əlavə və dəyişiklərin edildiyi 2000-ci il 2 dekabr tarixli 86 nömrəli əmr və 1 nömrəli Əlavəyə edilmiş dəyişiklik haqqında 2005-ci il 3 avqust tarixli əmr; 2002-ci il 17 dekabr tarixli 89 nömrəli əmrlə təsdiq edilmiş *"Azərbaycan Respublikası gömrük orqanlarında xüsusi fiziki hazırlıq üzrə fəaliyyətin təşkilinə dair Təlimat"* məhz bu məqsədlə qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli Fərmanı ilə gömrük orqanlarının ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələr və bu vəzifələrə uyğun rütbələrin siyahısı təsdiq edildi [21, 2000, 13 yanvar].

Azərbaycan Respublikasının gömrük sistemində kadrların seçilib yerləşdirilməsi daha da təkmilləşdirilir. Gömrük orqanları vəzifəli şəxslərinin fəaliyyətinin nəticələrinin və gələcəkdə xidmətə yararlığının qiymət-

ləndirilməsi test üsulu ilə və *"Azərbaycan Respublikası gömrük orqanları vəzifəli şəxslərinin Attestasiyası haqqında"* Əsasnamənin tələblərinə uyğun aparılır. Gömrük əməkdaşının tutduğu vəzifəyə, ixtisasına və peşə səviyyəsinə uyğunluğu yoxlanılır, peşə və iş keyfiyyəti, qabiliyyət və imkanlarının tətbiqi perspektivi müəyyən edilir. 2013-cü il ərzində müraciətlər əsasında təşkil olunmuş test imtahanlarında 308 nəfər vətəndaş iştirak etmiş, təsdiq olunmuş qaydalara uyğun olaraq, daha yüksək bal toplayanlar növbəti müsabiqə mərhələsinə buraxılmış, müsabiqədən keçənlər vakant iş yerlərinə təyin olunmuşlar.

Gömrük işçilərinin etik davranış qaydaları Avropa İttifaqının təcrübəsi əsasında daha da təkmilləşdirilir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının 2001-ci il 15 may tarixli 02/01 saylı qərarı ilə təsdiq edilən *"Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin Şərəf Kodeksi"*ndə gömrük orqanının vəzifəli şəxslərinin əxlaq normalarını dəqiq və aydın şəkildə təyin etməklə yanaşı, şəxsi məsuliyyət, qanuna riayət edilməsi, özünə və başqalarına münasibət prinsiplərini müəyyən edir, ictimaiyyətlə münasibətdə etik və digər məsələlərin həllinə dair vəzifələri özündə əks etdirir. Kodeksdə göstərilir ki, Azərbaycan Respublikasının gömrük orqanının vəzifəli şəxsi öz Vətəninə, Konstitusiyaya və Andına sadiq olmalı, dövlətin iqtisadi maraqlarını və təhlükəsizliyini qorumalıdır. Vətənə məhəbbət, öz peşəsinə sədaqət gömrük əməkdaşının xidmətinin başlıca prinsipləridir. Kodeksdə qeyd edilir ki, gömrük əməkdaşı adını qorumaq, onu şərəflə daşımaq, Vətənə sədaqətlə xidmət etməklə bu adı doğrultmaq lazımdır. Gömrük orqanının vəzifəli şəxsi xalqımızın mənəvi və əxlaqi dəyərlərini uca tutmalı, yeni yaranmış və formalaşmış Azərbaycan gömrüyünün ən yaxşı ənənələrini daim qorumalı və inkişaf etdirməlidir. Kodeksin "İctimaiyyətlə münasibət" adlı maddəsində qeyd olunur ki, *"cəmiyyət gömrük əməkdaşlarının öz işlərinə obyektiv, peşəkarcasına və məxfiliklə yanaşmalarına ümid edir. Yüksək xidmət səviyyəsini təmin etmək üçün hər bir əməkdaş ictimaiyyətlə münasibətdə peşəkarlıq nümayiş etdirməklə yanaşı, nəzakətli olmalı, ehtiyac olduqda yardım göstərməyə çalışmalıdır"*.

Azərbaycan Respublikası DGK-nın Kollegiyasının 2012-ci il 30 yanvar tarixli 01/03 saylı qərarı ilə "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin Etik Davranış Kodeksi" təsdiq edildi.

"Kodeks" gömrük orqanı əməkdaşının xidmətdə və xidmətdən kənar, gündəlik həyatda davranış qaydalarının norma və müddəalarını, əxlaq prinsiplərini müəyyən etməklə yanaşı, şəxsi məsuliyyət, qanuna riayət edilməsi, özünə və başqalarına münasibət prinsiplərini, ictimaiyyətlə münasibətdə etik və digər məsələlərin həllinə dair vəzifələri özündə əks etdirir. "Ümumi müddəalar", "Şəxsi məsuliyyət", "Xidməti davranış prinsipləri", "İctimai etimad", "İctimaiyyətlə münasibət", "maraqların toqquşmasının qarşısının alınması", "Korrupsiya hallarının qarşısının alınması", "Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər", "Xidməti vəsaitlərdən və əmlakdan istifadə", "Məlumatlardan istifadə", "Xidmətdənkənar davranış" və "Məsuliyyət" adlı 12 bölmədən ibarətdir. Sənəddə göstərilir ki, "Bu Kodeksdə təsbit olunmuş prinsip və qaydalara gömrük orqanı əməkdaşı tərəfindən əməl edilməməsi, həmçinin, digər əməkdaşlar və vəzifəli şəxslər tərəfindən həmin prinsip və qaydaların pozulması kimi qiymətləndirilir və "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamədə nəzərdə tutulmuş intizam məsuliyyəti doğurur [149].

Azərbaycan Respublikasının Prezidentinin *"Azərbaycan Respublikası gömrük əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında"* 1997-ci il 10 yanvar tarixli 464 nömrəli Sərəncamına əsasən, gömrükçülərin peşə bayramı 1998-ci ildən başlayaraq hər il yanvarın 30-u təntənə ilə qeyd olunur.

Gömrük əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması məsələsi də Azərbaycan dövlətinin diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin *"Azərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında Əsasnamə və fondun vəsaitinin xərclənməsi Qaydaları"* barədə 1997-ci il 25 dekabr tarixli 140 nömrəli qərarı, *"Ərzaq payı ilə təmin olunan gömrük orqanlarının vəzifəli şəxslərinin Siyahısının təsdiq edilməsi haqqında"* 2002-ci il 20 noyabr tarixli 183 nömrəli və bu qərara əlavə edilməsi haqqında 2004-cü il 10 sentyabr və 2006-cı il 25 dekabr tarixli 274 nömrəli qərarları, *"Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxsləri üçün xüsusi geyim formasının, fərqlənmə nişanlarının təsviri və onların təchizat normasının təsdiq edilməsi haqqında"* 2001-ci il 5 aprel tarixli 75 nömrəli və qərara əlavələr və dəyişikliklər edilməsi barədə 2003-cü il 19 mart tarixli 37 nömrəli qərarları, *"Gömrük orqanlarının vəzifəli şəxslərinə fasiləsiz xidmət*

*illərinə görə əlavələrin ödənilməsi üçün xidmət illərinin hesablanması Qaydası"*nın təsdiq edilməsi barədə 2006-cı il 9 yanvar tarixli 4 nömrəli qərarı gömrük orqanları əməkdaşlarının xidməti və sosial məsələlərinin həllinə yönəldilmişdir. Gömrük əməkdaşlarının əməyinin mənəvi stimullaşdırılması tədbirləri kadr siyasətinin tərkib hissəsidir. Məsələn, 2006-cı ildə xidmətdə fərqlənən əməkdaşlar barəsində həvəsləndirmə tədbirləri həyata keçirilmiş, xidməti vəzifələrini yerinə yetirərkən yüksək peşəkarlıq göstərdiklərinə görə 86 əməkdaşa ilkin və növbəti rütbələr verilmişdi. Azərbaycan Respublikasının Prezidentinin 24 yanvar 2007-ci il tarixli sərəncamları ilə bir qrup gömrük əməkdaşına ali xüsusi rütbələr verilmiş, 26 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdi. Xidmətdə fərqlənən 11 nəfər əməkdaşa Komitə rəhbərliyi tərəfindən xüsusi rütbələr verilmiş, 17 nəfər Fəxri fərmanla, 181 nəfər gömrük əməkdaşı isə qüsursuz xidmətə görə döş nişanları ilə təltif edilmişdi. 2014-cü ildə Azərbaycan Respublikası DGK-da xidmət edən əməkdaşların ümumi sayı 2400 nəfərə çatmışdır.

Dövlət başçısının *"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedураların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında"* 2011-ci il 25 fevral tarixli müvafiq fərmanı ilə xüsusi rütbəsi olan əməkdaşların və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan vəsaitin 25 faizinin istifadəsinə başlanıldı. Prezidentin *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında"* 2011-ci il 28 dekabr tarixli Sərəncamı ilə xüsusi rütbəsi olan əməkdaşların və dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) maaşları 2011-ci il dekabrın 1-dən orta hesabla 10 faiz artırıldı.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Prezident 2013-cü il 31 yanvar tarixli Sərəncamı ilə gömrük əməkdaşlarından 2 nəfər 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, 4 nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə və 33 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə" medal ilə təltif olundu.

DGT-nın dəstəyi ilə keçirilən regional tədris kurslarında gömrük

əməkdaşlarının iştirakı, digər beynəlxalq təşkilatlar tərəfindən təşkil edilən seminar və kurslarda sahələr üzrə gömrük mütəxəssislərinin müasir nəzəri biliklərə və vərdişlərə yiyələnməsi gömrük işinin səmərəsini artırırdı. Gömrük işi ilə bağlı hazırlanan metodik və əyani tədris vəsaitlər peşə təhsilinin keyfiyyətinin yüksəlməsinə xidmət edirdi.

Fikrimizcə, təcrübəli və ixtisaslaşmış gömrük əməkdaşlarının hazırlanması işində xarici ölkələrin qabaqcıl təcrübəsinin geniş tətbiq edilməli, bu məqsədlə beynəlxalq və regional səviyyədə keçirilən seminar və kurslarda DGK nümayəndələrinin fəal iştirakı təmin edilməlidir. Gömrük əməkdaşlarının xarici ölkələrin gömrük məktəblərində təhsil almasına, Gömrük Akademiyasının bu sahədə beynəlxalq əlaqələrinin genişləndirilməsinə üstünlük verilməlidir.

Azərbaycan Respublikasının gömrük orqanları sistemində yüksək ixtisaslı kadr heyətinin formalaşdırması və onların yerləşdirilməsi işinin təkmilləşdirməsi məqsədilə *"Azərbaycan Respublikası gömrük orqanları vəzifəli şəxslərinin Attestasiyası haqqında"* Əsasnamənin tələblərinə müvafiq olaraq aparılan attestasiyada əməkdaşın tutduğu vəzifəyə, ixtisasına və peşə səviyyəsinə uyğunluğu yoxlanılır, peşə və iş keyfiyyəti, qabiliyyət və imkanlarının tətbiqi perspektivi müəyyən edilir.

Gömrük xidməti sahəsində zəngin idarəçilik təcrübəsi məktəbi keçən, Azərbaycan Respublikasının Prezidentinin etimadını yüksək səviyyədə doğruldaraq Vətənə, sədaqətlə xidmət edən dövlət məmurlarını qeyd etmək olar. Onların sırasında – Azərbaycan Respublikası Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, Azərbaycan Respublikası Vergilər naziri Fazil Məmmədov, Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, Fövqəladə Hallar nazirinin birinci müavini, general-leytenant Rəfail Mirzəyev, Fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyev, Qaradağ rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov və digərləri vardır. Vergilər naziri, birinci dərəcəli vergi xidməti müşaviri Fazil Məmmədov milli gömrük orqanlarında xidmət illərini belə xatırlayır: *"Gömrük xidməti hər bir ölkənin iqtisadi inkişafında, o cümlədən büdcə gəlirlərinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Gömrük xidməti, eyni zamanda, qaçaqmalçılığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə ciddi dövlət strukturudur. Bu gün Azərbaycanın gömrük xidmətində çalışmaq şərəfli bir işdir. Mən özüm də*

*vaxtilə gömrük xidmətində məsul vəzifədə çalışmışam. Gömrük orqanlarında xidmət mənim əmək fəaliyyətimin bir hissəsini təşkil etmişdir".*

Azərbaycan Respublikası DGK-da *"Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı*"na əsasən kadr hazırlığı və bu sahədə beynəlxalq əməkdaşlıq əsasən aşağıdakı istiqamətlər üzrə həyata keçirilirdi:

– inkişaf etmiş ölkələrin gömrük orqanları ilə təcrübə mübadiləsinin, əməkdaşların ixtisasartırma kurslarında və digər tədbirlərdə təlimlər;

– əməkdaşların peşə və ixtisas səviyyəsinin artırılması üçün gömrük işinə dair metodik və əyani tədris vəsaitlərinin hazırlanması;

– yerli və xarici mütəxəssisləri cəlb etməklə ixrac nəzarəti və digər gömrük işi ilə bağlı mövzulara həsr olunmuş seminarların keçirilməsi [22, 2007, №2, 26-28].

Gömrükçü kadrların hazırlığı ilə əlaqədar Azərbaycan Respublikasının BMT-nin İnkişaf Proqramı, Atom Enerjisi Beynəlxalq Agentliyi, DGT-nin Hüquq-Mühafizə işləri üzrə Regional Rabitə Qovşağı kimi beynəlxalq təşkilatlarla bir sıra layihələrin həyata keçirilməsi, həmçinin xarici ölkələrin gömrük xidmətləri ilə ikitərəfli əlaqələr çərçivəsində inkişaf etməkdə idi. Kadrların keyfiyyət tərkibinin və onların peşə hazırlığının yaxşılaşdırılması üçün işə yeni qəbul olunan əməkdaşlar kurslara cəlb olunurdu. Azərbaycan Respublikasının gömrük orqanları sistemində yüksək ixtisaslı kadr heyətini formalaşdırmaq və onların yerləşdirilməsi işini təkmilləşdirmək məqsədilə *"Azərbaycan Respublikası gömrük orqanları vəzifəli şəxslərinin Attestasiyası haqqında"* Əsasnamənin tələblərinə müvafiq olaraq aparılan attestasiyada əməkdaşın tutduğu vəzifəyə, ixtisasına və peşə səviyyəsinə uyğunluğu yoxlanılır, peşə və iş keyfiyyəti, qabiliyyət və imkanlarının tətbiqi perspektivi müəyyən edilir. Dövlət Proqramına uyğun olaraq gömrük əməkdaşlarının peşəkarlığının artırılması sahəsində bir sıra tədbirlər həyata keçirilirdi. Bundan əlavə, 2007-ci ildən gömrük attaşelərinin hazırlanması ilə bağlı illik fəaliyyət proqramları tərtib edilmişdi.

2009-cu ildə Komitənin əməkdaşları Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəhbər kadrların ixtisasının artırılması fakültəsində "İnvestisiya proseslərinin dövlət tənzimlənməsi və dövlətin maliyyə-kredit siyasəti" istiqaməti üzrə, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Akademiyasının nəzdində Strateji

Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə akademik kurslarında “Azərbaycanın dövlət iqtisadi idarəetmə, dövlət gəlirlərinin formalaşması mexanizmi” mövzusu üzrə dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlər üzrə, yerli gömrük orqanlarının əməkdaşları üçün Regional Tədris Mərkəzində “Humanitar və texniki yardım təyinatlı yüklərin rəsmiləşdirilməsində gömrük ödənişlərinin tətbiqi” mövzusunda təşkil edilmiş təlim kursu və seminarlarda iştirak etdi. Azərbaycan Respublikası DGK sədrinin müvafiq əmrləri ilə Komitə əməkdaşları tərəfindən mütəmadi olaraq sərhəd gömrük idarələrinin Maliyyə-Tarif və Yol Vergiləri şöbələrinin əməkdaşları üçün seminar-müşavirələr keçirildi. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyində Ümumdünya Ticarət Təşkilatına üzv olma istiqamətində mütəmadi olaraq təşkil olunan kurslarda Komitənin məsul əməkdaşları dinləyici kimi iştirak edirdi.

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi işində Dövlət Gömrük Komitəsi ilk vaxtlardan bu sahədə fəallıq göstərirdi. Gömrük sistemində sözügedən sahəyə xüsusi diqqət yetirilir, “elektron gömrük” xidmətinin yüksək səviyyədə formalaşdırılması üçün tədbirlər görülürdü. Dövlət Gömrük Komitəsində İKT-nin tətbiqinə 1999-cu ildən başlanıldı. Həmin ilin yanvarından Dövlət Gömrük Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında *“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması”* layihəsi həyata keçirildi. Bunun nəticəsində Dövlət Gömrük Komitəsinin Mərkəzi aparatının, Naxçıvan Dövlət Gömrük Komitəsinin, bütün gömrük idarələrinin və əsas gömrük-keçid məntəqələrinin birbaşa əlaqəsini təmin edən kompüter şəbəkəsi yaradıldı. Layihənin həyata keçirilməsi sayəsində 2002-ci ilin oktyabrından *“Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş hüquq pozuntularının qeydiyyatı və nəzarətinin Avtomatlaşdırılmış Sistemi”*nin tətbiqinə başlanıldı. Gömrük hüquqpozmalarının uçotu və nəzarətinin avtomatlaşdırılmış sistemin texniki bazası və proqram təminatı öz həllini tapdı. Bu layihənin sonrakı mərhələsində - 2003-cü ilin avqustundan başlayaraq Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında məlumatların qeydiyyatı, göndərilməsi, alınması, nəzarətdə saxlanılması və nəzarətdən çıxarılması işinin təkmilləş-

dirilməsi məqsədilə avtomatlaşdırılmış sistemin istismarına başlanılmışdı. Aksız gömrük postunda, Sumqayıt gömrükxanasında, Hava Nəqliyyatı Baş Gömrük İdarəsində 2002-ci ildən başlayaraq “on-line” rejimi tətbiq olunurdu. 2003-cü ilin yanvarın 1-dən isə şəbəkə vasitəsi ilə informasiyanın operativ surətdə mərkəzə göndərilməsi yerli gömrük orqanlarında tətbiq olunurdu.

Qaçaqmalçılıqla mübarizəni təşkil etmək məqsədilə gömrük orqanları tərəfindən müəyyən edilmiş hüquqpozmaların uçotu və nəzarətinin avtomatlaşdırılmış sistemin texniki bazası və proqram təminatı, 2003-cü ilin yanvarın 1-dən isə şəbəkə vasitəsi ilə informasiyanın operativ surətdə mərkəzə göndərilməsi yerli gömrük orqanlarında tətbiq olunurdu. Azərbaycan gömrük xidmətində informasiya sistemləri və texnologiyaları prosesinin tərkib hissəsi kimi mərkəzləşdirilmiş məlumat bazalarının yaradılması və bazalardan məsafədən istifadə kimi müasir və səmərəli sahəni - gömrük xidmətinin mərkəzləşmiş daxili web-portalı hazırlandı. Portalın mühafizə sisteminin proqram təminatı yaradılmış və istifadəçilərin hüquqlarına uyğun olaraq portalın bütün səhifələrinə daxilolma prosesi proqramlaşdırıldı.

Layihənin tətbiqinin 2-ci və 3-cü mərhələlərində 2004-cü ilin sentyabrından başlayaraq “Gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin avtomatlaşdırılmış sistemi” tətbiq edildi. Layihə çərçivəsində “Risklərin Avtomatlaşdırılmış İdarəetmə Sistemi”nin bəzi gömrük idarələrində eksperimental tətbiqinə başlanıldı. Gömrük xidmətinin inkişafı bilavasitə informasiya texnologiyalarının tətbiqindən çox asılıdır. Yalnız o gömrük sistemində inkişaf mümkündür ki, orada informasiya texnologiyaları çox geniş tətbiq olunur. Azərbaycan Respublikasının gömrük sistemində informasiya texnologiyası sahəsində aparılan işlər demək olar ki, BMT İnkişaf Proqramının köməyi ilə öz bəhrəsini verir. Azərbaycan Respublikasının gömrük sistemində informasiya texnologiyalarının tətbiqi üzrə bir neçə istiqamətdə işlər aparılır. Onlardan ən əhəmiyyətlisi vahid informasiya şəbəkəsinin yaradılması idi. Lahiyədə iki avtomatlaşdırılmış sistemin yaradılması, gömrük əməkdaşlarının peşəkarlığının artırılması və ingilis dili üzrə məşğələlərin keçirilməsi nəzərdə tutulurdu. 2002-ci ildə respublikanın 23 gömrük müəssisəsi “on-line” rejiminə keçmişdi. Naxçıvan MR DGK, onun Culfa və Sədərək gömrükxanaları, Şahtaxtı gömrük postu “on-line”

rejimində Azərbaycan Respublikası DGK-ya birləşdirildi.

Milli təhlükəsizliyin əsas amillərindən biri də informasiya təhlükəsizliyinin təmin edilməsidir. İnformasiya təhlükəsizliyi gömrük xidmətinin fəaliyyətində mühüm yer tutur. Bu məqsədlə son vaxtlar gömrük orqanlarında bir sıra tədbirlər həyata keçirilmişdir. İnformasiya təhlükəsizliyinin informasiya, proqram-riyazi, fiziki, radioelektron və hüquqi-təşkilati üsullarla pozulması informasiya təhlükəsizliyini pozan amillər hesab olunur. *"Azərbaycan Respublikasının gömrük orqanlarının informasiya təhlükəsizliyinin Konsepsiyası"* işlənilib hazırlanmışdır. Konsepsiyada informasiya mənbələrinə qarşı mümkün ola bilən təhlükələr təhlil edilmiş və onların aradan qaldırılması üçün daha səmərəli üsul və vasitələr müəyyən edilmişdi. DGK-nın nəzdində İnformasiya Təhlükəsizliyi Şurası yaradılmış və Şuranın Əsasnaməsi təsdiq edilmişdir. Şura öz fəaliyyətində gömrük sistemində informasiya təhlükəsizliyinin qorunmasında, bu sahədə vahid siyasətin formalaşdırılması sahəsində kompleks tədbirlərin həyata keçirilməsini təmin edir. Əsas mühafizə obyektlərinə dövlət sirri hesab olunan və məxfi xüsusiyyətlərə malik gömrük informasiyaları, informasiyanın yığılması, emalı, saxlanılması, ötürülməsini təmin edən vasitə və üsullar, gömrük işinin aparılmasını təmin edən informasiya sistemləri və s. daxildir. Azərbaycan Respublikasının gömrük orqanlarında informasiya təhlükəsizliyinin cari vəziyyətin qiymətləndirilməsi üçün İSO 17799 beynəlxalq standarta əsaslanan KONDOR proqram təminatından istifadə olunur. Bu proqram təminatı gömrük orqanlarının informasiya təhlükəsizliyinin səviyyəsini müəyyənləşdirməyə imkan verir. KONDOR proqram təminatı informasiya sistemində mövcud olan zəif nöqtələrin tapılmasını, risklərin səmərəli idarə olunmasını təmin edir [70, 2006, №12, 45-50].

2009-cu il iyulun 1-dən DGK-nın internet informasiya resurslarının yeni konsepsiyasının yaradılmasına və vahid dövlət standartlarına uyğunlaşdırılması prosesinə başlanıldı. Gömrük xidmətində "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar olaraq, sərhəd-keçid gömrük orqanları xüsusi proqram təminatı və ən müasir tələblərə cavab verən zəruri avadanlıqlarla təchiz edildi. "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli Fərmanının tələblərinə görə sərhəd-keçid

məntəqələrində "bir pəncərə" prinsipinin həyata keçirilməsinə məsul tərəf kimi DGK müəyyən edildi. Fərmanın tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə 2009-cu ilin avqustundan "Bir pəncərə - Avtomatlaşdırılmış İdarəetmə Sistemi"nin pilot variantının istifadəsinə başlanıldı. Gömrük işində İKT-nin tətbiqinin mühüm istiqamətlərindən biri də elektron yük gömrük bəyannaməsinin tətbiq olunması idi. Elektron bəyannamənin istifadəsi mal və nəqliyyat vasitələrinin sərhəd-keçid məntəqələrindən keçməsini sürətləndirməyə xidmət etdi. "Elektron hökumət"in formalaşdırılması istiqamətində aparılan işlər, "Bir pəncərə - Avtomatlaşdırılmış İdarəetmə Sistemi" gömrük orqanlarında "elektron gömrük" sisteminin tətbiq olunmasına imkan yaratdı [69, 2009, 26 dekabr].

2009-cu il dekabrın 21-22-də Bakıda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğız, Rusiya, Türkiyə və Ukrayna gömrük xidməti orqanlarının məsul şəxsləri, o cümlədən BMT İqtisadi Komissiyasının Avropa üzrə nümayəndəliyi və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının mütəxəssislərinin iştirakı ilə keçirilən *"Gömrük işində informasiya sistemləri və texnologiyaları"* mövzusunda 1-ci Beynəlxalq elmi-praktiki konfrans informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsinin də sürətlə inkişaf etməsinin sübutu idi.

Müxtəlif gömrük proseduralarında informasiya texnologiyaları geniş tətbiq olunurdu. Bu sahədə yeddi istiqamət üzrə işlər aparılırdı: 1) mal və nəqliyyat vasitələrinin dövriyyəsini əhatə edən və məlumatların yayımını təmin edən sistemin yaradılması; 2) gömrük orqanları arasında informasiya mübadiləsinin təmin edilməsi; 3) gömrük rəsmiləşdirilməsi və nəzarətin avtomatlaşdırılması; 4) qaçaqmalçılıq və gömrük qaydaları ilə mübarizənin informasiya mübadiləsinin təşkil edilməsi; 5) gömrük inspektorlarının avtomatlaşdırılması iş yerlərinin yaradılması; 6) mərkəzi aparata gündəlik daxil olan məlumatların yoxlanılması və müvafiq məlumat bazalarının yaradılması; 7) xarici-iqtisadi əlaqələrinin təhlilinin avtomatlaşdırılmış rejimdə aparılması. Azərbaycan Respublikasının Gömrük Xidmətinin Milli avtomatlaşdırılmış sistemi GRNAS 26 gömrük orqanında istifadə edilirdi. 57 gömrük orqanını əhatə edən "on-line" rejimdə işləyən vahid korporativ şəbəkə yaradıldı.

DGK-nın infrastrukturunun inkişaf etdirilməsinə yüksək qayğı ilə yanaşılırdı. Gömrük orqanları üçün yeni inzibati binalar tikilirdi. 1995-

2011-ci illərdə Bakı Baş Gömrük İdarəsinin gömrük postları, idarənin inzibati binası, Tovuz Gömrük İdarəsinin sərhəd-keçid məntəqələrindəki gömrük postları, Astara, Balakən gömrük idarələri, Xəzər Dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Müdafiəsi İdarəsinin inzibati binası və postları, Sumqayıt Baş Gömrük İdarəsi, Regional Tədris Mərkəzi və Kinoloji Mərkəz üçün dünya standartlarına uyğun binalar, Dövlət Gömrük Komitəsinin inzibati binası, Enerji Gömrük İdarəsi, Lənkəran dəniz nəzarəti postu (2005-ci il), Xaçmaz Gömrük İdarəsinin "Samur" gömrük terminalı, "Samur" və Şirvanovka" gömrük postlarının inzibati binaları, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi (2006-2007-ci illər), DGK-nın Tibb Xidməti İdarəsi, Gömrük Hospitalı, Yevlax Gömrük İdarəsi (2008-ci il), Tovuz Gömrük İdarəsinin "Sınıq körpü" gömrük buraxılış məntəqəsi, Biləsuvar Gömrük İdarəsinin "Biləsuvar" gömrük buraxılış məntəqəsi, Astara Gömrük idarəsinin "Astara" gömrük buraxılış məntəqəsi, Balakən Gömrük idarəsinin "Mazımçay" gömrük postu, Xaçmaz Gömrük İdarəsinin "Samur" gömrük postu (2010-cu il), Avtonəqliyyat Gömrük İdarəsi, DGT-nın Potensialının Gücləndirilməsi üzrə Avropa Regional Bakı ofisinin inzibati binaları (2011-ci il) tikildi [104, 2012, 25 yanvar].

2010-cu il avqustun 12-də Prezident İlham Əliyev "Samur" gömrük buraxılış məntəqəsinin açılışında iştirak etdi. Dövlət başçısı ən müasir standartlar səviyyəsində tikilmiş yeni gömrük buraxılış məntəqəsi ilə yaxından tanış oldu. İnşasına 2008-ci ildə başlanan və ümumi sahəsi 5 ha olan gömrük məntəqəsinin ərazisində ümumi sahəsi 11500 kv.m olan müvəqqəti saxlanc yerləri, anbarlar, yeməkxana, inzibati bina və kinoloji xidmət otağı tikilmişdir. Məntəqə yüklərə və nəqliyyat vasitələrinə baxış ən müasir tələblər səviyyəsində həyata keçirilməsi üçün ən müasir texniki avadanlıqlarla təchiz olunub [160].

Bakı Baş Gömrük İdarəsinin "İpək Yolu" gömrük postunda xarici ölkələrdən Bakı şəhərinə gətirilən malların müvəqqəti saxlanılması, həmçinin nəqliyyat vasitələrinə və onların üzərində olan yüklərə gömrük nəzarətinin həyata keçirilməsinə başlanıldı. Gömrük postunun 10 hektarlıq ərazisində 4 anbar binası (hər biri 1920 kv.m), o cümlədən +4 $C^{o}$-dən - 20 $C^{o}$-dək temperatur intervalı olan anbar, iritutumlu maşınların müayinə olunması üçün "AvtoMobil VACIS", malların anbarlarda açılmadan yox-

lanılması üçün “Rapiskan” nəzarət avadanlıqları ilə təchiz edildi. Respublikanın gömrük xidmətində iri həcmli yüklərin, yük daşıyan nəqliyyat vasitələrinin və konteynerlərin yoxlanması üçün yük yoxlama sistemləri (Avro Mobil Vasic), sərnişinlərin əl baqajlarının və yüklərinin yoxlanılması üçün “Rapiscan” və “Heimann” markalı rentgen avadanlıqları, stasionar radiasiya nəzarət sistemləri, radiasiya spektrometrləri və peycerləri istifadə edilir. Narkotik vasitələrin aşkar olunması üçün nəqliyyat vasitələrinin gizli saxlanc yerləri “Buster” tipli cihazlarla müayinə olunurdu. Gömrük nəzarətçilərinin istifadəsinə ozonlaşdırıcı maddələrin təyin edilməsi üçün “Neutronics Ultima İD” tipli portativ qaz analizatoru, partlayıcı maddələrin aşkar edilməsi üçün “X-ACI” markalı cihazlar verildi. 2010-cu ildə DGK Xəzər dənizində qaçaqmalçılıqla mübarizə məqsədilə Estoniyadan zəruri avadanlıqlarla təchiz olunan gömrük katerləri aldı. Katerlərin texniki göstəriciləri Xəzər dənizində əməliyyatlar həyata keçirmək üçün tam uyğun idi.

BMT-nin İnkişaf Proqramının Azərbaycan Gömrük Xidmətinin təkmilləşdirilməsi layihəsi üzrə yaradılan “Hədəf” Mərkəzində ölkənin gömrük-buraxılış məntəqələrində, eləcə də daxili gömrük orqanlarında, hava limanında və dəmir yolunda həyata keçirilən gömrük prosedurlarının görüntüləri 1000-dək kamera vasitəsilə birbaşa Mərkəzə ötürülür və burada quraşdırılan 20 monitorla izlənilir.

Gömrük rəsmiləşdirməsində elektron bəyan etmə sisteminin tətbiq edilməsinə başlanıldı. DGK-nın internet səhifəsində, “Gömrükçü” jurnalı, “Gömrük xəbərləri” qəzetində, AzTV və “Lider” kanallarında yayımlanan “Gömrük bülleteni” proqramlarında və digər kütləvi informasiya vasitələrində gömrük işi sahəsində tətbiq olunan yeni qaydalar, gömrük tarifləri haqqında məlumatlar və baş verən yeniliklər geniş təbliğ olunur. Gömrük orqanlarının fəaliyyəti ilə bağlı məsələlər ictimaiyyətə çatdırılır. Bu informasiya mənbələrindən vətəndaşlar və xarici iqtisadi əlaqə iştirakçıları zəruri məlumatlar əldə edir.

Ölkəmizdə gömrük sisteminin inkişafını sürətləndirmək və gömrük orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 1 fevral tarixli Sərəncamı ilə *“Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı”* təsdiq edildi. *“Dövlət Proqramı”* gömrük işi sahəsində dövlət siyasətinin daha uğurla həyata keçirilməsi üçün ölkənin

sosial-iqtisadi inkişafının əsas vasitələrindən biri kimi gömrük sisteminin dinamik inkişafını təmin etməli idi. Bu məqsədlə aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulurdu:

– Azərbaycan Respublikasının gömrük sərhədində mal dövriyyəsinin sürətləndirilməsi və sahibkarlıq subyektlərinə əlverişli şəraitin yaradılmasının təmin edilməsi;

– inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və haqsız rəqabətin qarşısının alınması sahəsində tədbirlərin gücləndirilməsi;

– ixracın təşviqi və genişləndirilməsi, daxili bazarın qorunması sahəsində gömrük tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi;

– gömrük xidmətində maddi-texniki bazanın möhkəmləndirilməsi.

Son illərin təcrübəsi bir daha təsdiq edir ki, Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafı və iqtisadi təhlükəsizliyi ölkədə aparılan düşünülmüş gömrük siyasəti ilə bilavasitə bağlıdır. Məhz buna görə də, Azərbaycan dövləti xarici iqtisadi əlaqələrinin həyata keçirilməsi mexanizminin daha da təkmilləşdirilməsi prosesində gömrük xidməti orqanlarının potensial imkanlarını əsas və müəyyənedici amillərindən biri kimi qəbul edir. *"Dövlət Proqramı"*nda göstərilirdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşan və inkişaf edən, dövlət müstəqilliyinin atributlarından biri olan çoxfunksiyalı gömrük sistemi yaradılmışdır. Ardıcıl olaraq yeridilən dövlət siyasəti nəticəsində gömrük sisteminin yenidən qurulması istiqamətində mühüm işlər görülmüş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmlənmiş, gömrük işini nizamlayan qanunvericilik aktları və diferensiallaşdırılmış gömrük-tarif sistemi yaradılmış, qaçaqmalçılığa və digər hüquqpozmalara qarşı mübarizə gücləndirilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikasının dinamik sosial-iqtisadi inkişafı və beynəlxalq iqtisadi sistemə inteqrasiyası dövlət gömrük sisteminin təkmilləşdirilməsini, maddi-texniki bazasının modernləşdirilməsini, gömrük işinin beynəlxalq standartlara tam uyğun aparılmasını və bütövlükdə gömrük sisteminin ölkənin sosial-iqtisadi inkişafındakı rolunun daha da artırılmasını zəruri edir.

Xarici iqtisadi-ticarət əlaqələrinin coğrafiyasının genişlənməsi, idxal-ixrac əməliyyatlarının həcminin artması və beynəlxalq iqtisadi sistemə inteqrasiyasının güclənməsi gömrük işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsini zəruri edirdi. *"Dövlət Proqramı"*na əsasən inkişaf etmiş

ölkələrin gömrük işi sahəsində təcrübəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsi hazırlanmalı idi. Yeni məcəllədə məlumatların elektron formada mübadiləsi, xüsusi gömrük proseduralarının tətbiqi, gömrük nəzarəti və rəsmiləşdirilməsi, gömrük valyuta nəzarəti aparılması nəzərdə tutulurdu. Yeniliklərdən biri də məcəllədə gömrük orqanlarının ixrac nəzarətinin, eləcə də tərkibində əqli mülkiyyət olan malların üzərində gömrük nəzarətinin aparılması ilə bağlı idi. Proqramın həyata keçirilməsini təmin edən *"Tədbirlər Planı"na* aşağıdakı bölmələr daxil edilmişdi: 1) qanunvericilik bazasının və gömrük tənzimlənməsinin təkmilləşdirilməsi; 2) gömrük nəzarəti metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması və gömrük prosedurlarının avtomatlaşdırılması; 3) qaçaqmalçılığa və gömrük işi sahəsində digər hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi; 4) gömrük infrastrukturunun inkişaf etdirilməsi; 5) kadr hazırlığı və beynəlxalq əməkdaşlığın genişləndirilməsi. *"Tədbirlər Planı"*nda 2007-ci ildə "Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizə edilməsinə dair Kioto Konvensiyası"nın müddəaları nəzərə alınmaqla yeni Gömrük Məcəlləsinin layihəsini hazırlanması Azərbaycan Respublikası DGK-ya tapşırıldı.

Gömrük xidməti tərəfindən 2007-2011-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti, Ədliyyə, İqtisadi İnkişaf və Xarici İşlər nazirlikləri, Mərkəzi Bankla birgə gömrük işi və ticarət sahəsində beynəlxalq konvensiyalara qoşulma, normativ-hüquqi aktların və gömrük tarif tənzimlənməsi, daxili bazarın qorunması, haqsız rəqabət hallarının qarşısının alınması və ölkənin təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin artırılması, qeyri-qanuni yolla əldə edilmiş pul vəsaitinin leqallaşdırılması və terrorçuluğun maliyyə dəstəyinə qarşı mübarizənin hüquqi nizamlanmasına aid hüquqi-normativ sənədlər hazırlandı. Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyaların normalarının həyata keçirilməsi, normativ hüquqi aktların təkmilləşdirilməsi (2008-ci il), gömrük işi sahəsində qəbul olunmuş qanun və sənədlərin külliyyatının hazırlanması (2008-2009-cu illər) sahəsində işlər başa çatdırıldı, gömrük ödənişlərinin alınmasında kart sisteminə istifadəyə keçid (2008-ci il) təmin edildi. DGK *"Tədbirlər Planı"*nın 2-ci bölməsi üzrə gömrük nəzarəti prosedurlarının və beynəlxalq ticarət zəncirində təhlükəsizliyin təmin edilməsi məqsədi ilə yük konteynerlərinin və yükdaşıyan nəqliyyat vasitə-

lərinin yoxlama standartlarını, seçmə üsullardan istifadə edilməsinin meyarlarını işləyib hazırlamalı (2008-2009-cu illər); qlobal korporativ şəbəkəni inkişaf etdirməli, elektron bəyannamədən istifadəni, ixrac nəzarətində olan malları aşkar edən köməkçi elektron vasitələrin yaradılmasını və müasir gömrük logistika terminallarını təşkil etməli; gömrük sərhədini keçən mal və nəqliyyat vasitələrinə nəzarətin və gömrük anbarlarında və terminallarında malların uçotu, saxlanması, hərəkəti prosesinin və risklərin idarə edilməsinin avtomatlaşdırılmış sistemini yaratmalı; (2008-2011-ci illər), elektron imza və elektron sənədlərin tətbiqi, məsafədən bəyan olunmanı təmin edən proqram-texniki sistemin tətbiqi, "Elektron hökumət" prinsiplərinin həyata keçirilməsi, "qaynar xətt" şəbəkəsinin yaradılması; xarici ölkələrlə ticarətin müqayisəli statistikasının (güzgülü statistika) aparılması və əmtəələrin təsviri və kodlaşdırılması ilə bağlı təkliflər hazırlamalı idi (2008-2011-ci illər). Komitə tərəfindən *"Tədbirlər Planı"*nın 3-cü bölməsi üzrə əməliyyat-axtarış bölmələrinin daxili normativ-hüquqi aktlarını hazırlaması və maddi-texniki bazanı təkmilləşdirməsi; kinoloji xidmətin maddi-texniki təminatının yaxşılaşdırılması, narkotiklərin, odlu silah və partlayıcı maddələrin axtarışı üzrə mühafizə itlərinin hazırlanması işlərini genişləndirməli idi (2008-2011-ci illər). 4-cü bölmə üzrə DGK-nın həyata keçirməli olduğu vəzifələrə gömrük orqanlarının texniki nəzarət vasitələri və stasionar qurğularla, həmçinin Xəzər dənizində gömrük nəzarətini həyata keçirmək üçün müasir nəqliyyat vasitələrinin alınması; gömrük laboratoriyalarının şəbəkəsinin yaradılması, sərhəd-keçid məntəqələrinin, o cümlədən Biləsuvar sərhəd-buraxılış məntəqəsinin yenidən qurulması; Tovuz Gömrük İdarəsinin, "Sınıq Körpü", "Böyük Kəsik", "Sadıxlı", "Samur", "Mazımçay", "Şahtaxtı" gömrük postlarının yenidən qurulması və "Yalama" gömrük postunun, Naxçıvan Gömrük İdarəsinin və gömrük terminalının, Bakı Baş Gömrük İdarəsinin yeni inzibati binasının, Naxçıvan, Sumqayıt, Gəncə, Biləsuvar gömrük idarələrinin fəaliyyət zonalarında gömrük laboratoriyalarının yaradılması kimi işlər daxil edilmişdi (2007-2011-ci illər). 5-ci bölmə üzrə gömrük əməkdaşlarının peşə və ixtisas səviyyələrinin artırılması üçün gömrük işinə aid dərs və metodik vəsaitlərin hazırlanması, yerli və xarici mütəxəssisləri dəvət etməklə seminarların təşkili, DGT-nin Bakıdakı Regional Tədris Mərkəzindən səmərəli istifadə edilməsi nəzərdə tutulurdu.

*"Dövlət Proqramı"*nın həyata keçirilməsi gedişində aşağıdakı nəticələrin əldə edilməsi gözlənilirdi:

– ölkənin sosial-iqtisadi inkişafı və iqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük sisteminin rolunun artması, gömrük sisteminin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və infrastrukturun müasir tələblərə uyğun şəkildə qurulması;

– kadr potensialının gücləndirilməsi;

– dövlət büdcəsinin gəlirlərinin artması, gömrük-tarif siyasətinin təkmilləşməsi və inkişaf etdirilməsi, idxal-ixrac əməliyyatlarında müasir tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin daha geniş tətbiq olunması, ticarət-iqtisadi münasibətlərdə idxal-ixrac əməliyyatların gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və gömrük tənzimləmə vasitələrinin mövcud beynəlxalq vasitələrə uyğunlaşması;

– gömrük işi sahəsində hüquqpozmalara qarşı mübarizənin güclənməsi və ÜTT-yə üzvolma prosesinin sürətlənməsi [22, 2007, 2 fevral, №22 (2862)].

*"Dövlət Proqramı"*nın həyata keçirilməsinin əsas istiqamətlərindən biri kimi gömrük nəzarəti metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması və gömrük proseduralarının avtomatlaşdırılması sahəsində tədbirlərin sürətləndirilməsi nəzərdə tutulurdu. Proqramda qarşıya qoyulan vəzifələr yerinə yetirildikdən sonra malların idxalı və ixracı zamanı gömrük rəsmiləşdirilməsi əməliyyatlarının avtomatlaşdırılmış əsaslarda təşkil edilməsinə hazırlıq başa çatdırılırdı. Bu isə gömrük rəsmiləşdirilməsinin səmərəliliyinin artırılması və xarici ticarət iştirakçılarına göstərilən xidmətin səviyyəsinin yaxşılaşması və bütövlükdə gömrük orqanlarında idarəetmənin təkmilləşməsi demək idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli gömrük xidmətinin infrastrukturunun inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Respublika Prezidenti 2010-cu il aprelin 29-da Biləsuvarda yeni gömrük buraxılış məntəqəsinin açılışında iştirak etdi. İnşasına 2007-ci ildə başlanmış məntəqənin ümumi sahəsi 40 hektar ərazisi olan və 50 nəfər əməkdaşın çalışdığı gömrük buraxılış məntəqəsindən gündə 200 avtomobil və 1200 nəfər buraxılır. Ərazidə müvəqqəti saxlanc və anbarlar, yeməkxana, inzibati bina, kinoloji xidmət üçün otaq inşa edilmişdi. Məntəqədə yük və nəqliyyat vasitələrinin nəzarəti ən müasir tələblər səviyyəsində həyata

keçirilir. Burada quraşdırılan xüsusi rentgen aparatı dünyanın ən aparıcı dövlətlərində istifadə edilir. Aparat vasitəsilə istər yük, istərsə də nəqliyyat vasitəsində olan bütün mallar aydın görünür. Bu isə qaçaqmalçılar tərəfindən daşınan yüklərin aşkarlanması ilə yanaşı, həm də gömrük xidmətinə öz işini müasir tələblər səviyyəsində qurmağa imkan yaradır. Gömrük buraxılış məntəqəsi bütün zəruri avadanlıqla tam təmin edilmişdi. Burada iki ixrac və iki idxal gömrük nəzarəti xətti yaradılmışdı. Gömrük buraxılış məntəqəsində "bir pəncərə" sistemi, sanitar-karantin, fitosanitar və baytar nəzarəti həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gömrük buraxılış məntəqəsində kinoluqların təlim prosesini izləmişdi [29, 2010, 1 may].

Astara Gömrük İdarəsinin Astara gömrük sərhəd-keçid məntəqəsində də yenidənqurma işləri aparıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2011-ci il aprelin 15-də Astara Gömrük İdarəsində yaradılmış şəraitlə yaxından tanış oldu. Astara gömrük sərhəd-keçid məntəqəsinin yenidən qurulması yük dövriyyəsini və məntəqənin buraxılış qabiliyyətini dörd dəfə artırılmasına imkan vermişdi. Burada idxal və ixraca gömrük nəzarəti xətlərinin hər birində eyni vaxtda üç yük avtomobili gömrük nəzarətindən keçirilirdi. Xətlərin hər birində elektron növbə sistemi yaradılmışdı. Malların və nəqliyyat vasitələrinin sərhəd-keçid məntəqəsində qeydiyyatının "bir pəncərə" prinsipini tətbiq etməklə həyata keçirilməsi malların və nəqliyyat vasitələrinin məntəqədə qeydiyyatına sərf olunan vaxt 3 saatdan 15 dəqiqəyədək azaldılmışdı. İkinci nəzarət operatorunda sənədlərin təkrar yoxlanılması həyata keçirilirdi. Astara Gömrük İdarəsində müasir memarlıq üslubunda tikilmiş "Az Duty Free Shops" - Rüsumsuz Ticarət Mərkəzi də istifadəyə verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında"* 2011-ci il 25 fevral tarixli Fərmanında gömrük əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması kimi irəli sürülən vəzifələrin həll edilməsi gömrük işinin inkişaf etdirilməsində mühüm rolu oldu [17, 2012, 26 fevral].

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublika-

sının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və Komitənin strukturunun təsdiq edilməsi barədə" 2012-ci il 4 iyun tarixli Fərmanı milli gömrük xidmətinin təşkilati cəhətdən möhkəmləndirilməsində mühüm sənəd idi. "Əsasnamə"də göstərilir ki, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, gömrük işi sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır". "Əsasnamə"yə görə Komitə:

– gömrük işi sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

– gömrük işini təşkil edir və onun inkişafını təmin edir;

– gömrük işi sahəsində normayaratma fəaliyyətini həyata keçirir;

– hüquq mühafizə fəaliyyətini həyata keçirir;

– Azərbaycan Respublikasında qabaqcıl gömrük tənzimlənməsi vasitələrinin tətbiqini təşkil edir [16, 2012, 6 iyun].

Azərbaycan gömrük xidmətində informasiya sistemləri və texnologiyaları prosesinin tərkib hissəsi kimi mərkəzləşdirilmiş məlumat bazalarının yaradılması və bazalardan məsafədən istifadə kimi müasir və səmərəli sahəni - gömrük xidmətinin mərkəzləşmiş daxili web-portalı hazırlandı. Portalın mühafizə sisteminin proqram təminatı yaradılmış və istifadəçilərin hüquqlarına uyğun olaraq portalın bütün səhifələrinə daxilolma prosesi proqramlaşdırıldı. Gömrük xidmətində "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar olaraq, sərhəd-keçid gömrük orqanları xüsusi proqram təminatı və ən müasir tələblərə cavab verən zəruri avadanlıqlarla təmin olundu. Respublika Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 166 nömrəli Qərarı ilə *"Gömrük işində informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən istifadə Qaydaları"* təsdiq edildi. Qərara əsasən, gömrük işində informasiya sistemləri aşağıdakıları təmin etməlidir: gömrük informasiya ehtiyatlarında axtarış, yığım, emal və saxlama imkanlarını; gömrük orqanlarının vəzifəli şəxslərinə, onlara verilmiş səlahiyyətlər çərçivəsində gömrük orqanlarında istifadə üçün nəzərdə tutulan informasiya ehtiyatlarına giriş imkanlarının verilməsini; istifadəçi hüquqlarına görə gömrük orqanlarında istifadə üçün nəzərdə tutulan informasiya ehtiyatlarına giriş dərəcəsinin müəyyən olunmasını; işləmə etibarlılığını və proqram-texniki nasazlıqlara dayanıqlılığını; sistem

vasitəsilə alınan informasiyanın doğruluğunu, tamlığını və vaxtında təqdim olunmasını; digər informasiya sistemləri ilə inteqrasiyanı; texniki və proqram vasitələrinin yeniləşdirilməsini və sistemə yeni elementlərin daxil edilməsi yolu ilə onun genişləndirilməsini və yeniləşdirilməsini; informasiya sisteminə daxil olan informasiya ehtiyatlarının mühafizəsini. İnformasiya sistemləri işin səmərəliliyinin artırılmasına xidmət etməlidir. İnformasiya sistemləri, texnologiyaları və onların təminat vasitələri dövlət mülkiyyətidir.

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2012-2016-cı illər üzrə inkişafına dair Fəaliyyət Planı"na uyğun olaraq vahid avtomatlaşdırılmış idarəetmə sisteminin – VAİS-in yaradılması, məlumatların yoxlanılması və emalı, informasiya texnologiyalarının tətbiqi sahəsində işlər davam etdirilərək "e-gömrük ödənişləri" elektron gömrük xidməti istifadəyə verilib və 2450-dən artıq gömrük əməkdaşı "elektron imza" kartları ilə təmin edilib. Azərbaycanın gömrük xidmətində vahid avtomatlaşdırılmış idarə sistemi yaradılıb. Respublikanın gömrük ərazisinə idxal və tranzit rejimdə daxil olan yük avtomobilləri GPS sistemi ilə təmin olunan xüsusi mexaniki-elektron kilidlə - elektron plombla bağlanır və bu sistemlə yüklərə təyinat gömrük orqanına çatana qədər nəzarət edilir. DGK-nın rəsmi internet səhifəsi olan *www.customs.az* informasiya resurslarından daha səmərəli istifadəyə, gömrük orqanı ilə biznes strukturları arasında əlaqələrin genişlənməsinə imkan verir. 2013-cü ilin may ayında 55 ölkə və 5 beynəlxalq təşkilatı təmsil edən "e-Hökumət: Gömrük sahəsində innovasiyalar" adlı V Beynəlxalq elmi-praktik konfransın məhz Qəbələdə keçirilməsi gömrük sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə mühüm əhəmiyyət verildiyini göstərir.

2014-cü il aprelin 30-da Bakıda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Xəzər-Avropa Klubunun (CEIBC) təşkilatçılığı ilə keçirilən biznes forumda qeyd olunmuşdu ki, Respublikamız "Gömrük şəffaflığı indeksi" göstəricisi üzrə 138 ölkənin gömrük xidmətləri arasında 39-cu yerdə qərarlaşmışdır. Azərbaycanın gömrük xidməti gömrük-biznes əməkdaşlığı sahəsində fikir mübadiləsi həyata keçirir, bu sahədə aparılan işlər, tətbiq olunan informasiya texnologiyaları, mövcud qanunvericiliyin təkmilləşdirilməsi işləri DGT tərəfindən yüksək səviyyədə həyata keçirilir. Dünyada ilk dəfə olaraq

Azərbaycan gömrük xidmətində gömrükdən keçmə vaxtının müəyyən edilməsi üzrə *"Stadi-taym"* proqramı tətbiq edildi və 2015-ci ildə proqramın Brüsseldə - DGT-nin Baş ofisində təqdim edilməsi nəzərdə tutulur [161].

2015-ci il fevralın 4-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninovu qəbul etdi. Postsovet məkanında ən dinamik inkişaf edən ölkələrdən biri olan Azərbaycan Respublikası ilə gömrük işi sahəsində sıx əlaqələrdən söz açan Rusiyalı qonaq, ölkəmizin inkişaf etmiş, müasir infrastruktura malik gömrük xidməti sistemindən və onun yüksək texniki təchizatından məmnun olduğunu bildirmişdi.

# NƏTİCƏ

Gömrük işi bütün tarixi dövrlərdə dövlətin iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi olmuşdur. Gömrük siyasətinin çoxəsrlik tarixi vardır və dövlətlə eyni vaxtda yaranmışdır. Gömrük xidmətinin tarixi, gömrük rüsumlarının yığılması üsulları və malların sərhəddən buraxılması qaydaları, bütövlükdə gömrük işi dövlətin yaranması və inkişafı ilə bağlıdır. Gömrük çoxəsrlik tarixə malikdir. O, dövlətlərlə birgə yaranmış, iqtisadi inkişaf prosesində və xarici ticarət fəaliyyətində onun zəruri elementi olmuşdur. Xarici və daxili ticarətin keçmişdə və müasir dövrdə inkişafı gömrük işinin daha da təkmilləşməsinə səbəb olmuşdur. Ən qədim zamanlardan XIX yüzilliyin əvvəllərinədək Azərbaycan ərazisində yaranmış dövlətlər Avropa ilə Şərqin ticarət əlaqələrinin tənzimlənməsində əhəmiyyətli rol oynamışlar. Azərbaycan dövlətləri beynəlxalq ticarət yolları üzərində nəzarət uğrunda, ölkənin xarici ticarət əlaqələrinin və gömrük münasibətlərini nizama salmaq üçün digər dövlətlərlə müharibələr aparmışdır. Ağqoyunlu və Səfəvilər dövlətlərində gömrük işi daha da təkmilləşdirilmiş halda idi.

XIX yüzilliyin əvvəllərində Azərbaycan ərazisi Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) Rusiya və İran arşında bölüşdürüldükdən sonra Azərbaycan dövlətçiliyi aradan qaldırıldı və tarixi ərazimizdə gömrük işinin həyata keçirilməsi həmin dövlətlərin ixtiyarına keçdi. Rusiya imperiyası bütün Cənubi Qafqazda olduğu kimi Şimali Azərbaycanda da gömrük sahəsində yeritdiyi siyasətin əsas məğzi çar xəzinəsinin gəlirlərinin durmadan artırılması olmuşdu. XIX–XX yüzilliyin başlanğıcında Azərbaycan ərazisində formalaşdırdığı Bakı, Culfa, Naxçıvan, Lənkəran, Astara, Şahtaxtı, Cəbrayıl, Ordubad, Bulqan, Alışar, Orqov, Dərbənd, Arus, Şatırlı, Şandruk, Maralyan, Kəlvəz, Bəhramtəpə kimi gömrükxana və gömrük-keçid məntəqələri şəbəkəsi birinci dünya müharibəsinə qədər fəaliyyət göstərmişdir [142, 76-77].

Gömrük işinin tarixinin araşdırılması sahəsində aparılan tədqiqatlar

sübut edir ki, gömrük işi dövlətin iqtisadi və siyasi həyatından, ölkədəki kriminal vəziyyətdən asılı olaraq güclü dəyişikliyə uğraya bilər. Gömrük işi cəmiyyətdə baş verən siyasi və sosial-iqtisadi dəyişikliklərə yüksək transformasiya qabiliyyətinə malikdir. Buna görə də cəmiyyətin sonrakı inkişaf mərhələlərində dövlətin gömrük siyasətinin işlənilib hazırlanmasında bu tarixi təcrübənin nəzərə alınması zəruridir.

Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay sürən mövcudluğu ərzində gömrük xidmətinin və onun müvafiq qanunvericilik əsaslarının yaradılması istiqamətində çox əhəmiyyətli tədbirlər həyata keçirildi. AXC yarandığı gündən bütün çətinliklərə və təzyiqlərə baxmayaraq xarici ticarətin gömrük-tarif tənzimlənməsi sahəsində müstəqil siyasət yeridirdi. Milli gömrük xidmətinin yaradılması dövlət quruculuğunun bu sahəsində tarixi ənənələrin bərpası, yüz illərlə mövcud olmuş gömrük işinin yeni tarixi şəraitdə davam etdirilməsi demək idi. Öz mövcudluğu ərzində AXC Hökuməti gömrük xidmətinin və sərhədlərin mühafizəsinin təşkili ilə əlaqədar kompleks tədbirlər həyata keçirmişdir. Azərbaycan Hökuməti gömrük işi və gömrük sərhədinin qorunması ilə bağlı məsələləri hüquqi əsaslar üzərində qurmağa çalışırdı. Qısa müddət ərzində gömrük işinin qanunverici bazasının yaradılması üçün xeyli iş görüldü, bilavasitə gömrük işinin təşkilinə aid onlarla qanun və qərarlar Parlament və Hökumət səviyyəsində hərtərəfli müzakirə edilərək qəbul edilmişdir. Cümhuriyyət dövründə gömrük xidməti əsasən üç vəzifəni yerinə yetirirdi: birincisi, ölkənin iqtisadi təhlükəsizliyi (yerli istehsalın xarici rəqabətdən qorunması, daxili bazarın kütləvi tələbat mallarına olan ehtiyacının tənzimlənməsi); ikincisi, sərhədlərin mühafizəsinin təmin edilməsi, ölkənin maddi və mədəni dəyərlərinin xarici ölkələrə daşınması və qaçaqmalçılıq hərəkətlərinə qarşı mübarizə (polis funksiyası); üçüncüsü, xarici ticarət dövriyyəsinin qeydə alınması (statistik hesabatların hazırlanması). Maliyyə baxımından AXC dövründə gömrük xidməti fiskal (xəzinəyə mümkün qədər vəsaitin toplanması), iqtisadi (daxili bazarın qorunması), polis (dövlət quruluşunun və sərhədlərin mühafizəsi) və statistika (xarici ticarət dövriyyəsinin qeydiyyatı) funksiyalarını yerinə yetirmişdir. Azərbaycan Cümhuriyyəti xarici ticarət əlaqələri qurarkən dünya bazarında xammal və sənaye mallarının çatışmazlığını nəzərə almağa, xüsusilə gömrük siyasətini düzgün istiqamətdə qurmağa çalışırdı. Gömrük ödənişlərinin geri qaytarıl-

ması, aksiz dərəcələrinin, dəmiryolu tariflərinin aşağı salınması, idxala proteksionist yanaşma və s. kimi həvəsləndirmə tədbirləri ticarət dövriyyəsində ixracın həcminin idxala nisbətən üstünlüyünə nail olmaq məqsədini güdürdü.

Mövcud tarixi sənədlər AXC-nin qonşu dövlətlərlə gömrük əməkdaşlığı sahəsində konkret və təsirli tədbirlər həyata keçirməsini də təsdiq edir. Bu istiqamətdə Osmanlı Türkiyəsi və İran Qacarlar dövləti, Gürcüstan Respublikası və Şimali Qafqazın Dağlı Xalqlar İttifaqı Respublikası, Zakaspi hökumətləri ilə bağlanan müqavilə və sazişlər, aparılan ikitərəfli danışıqlar xarici ticarətin siyasi-iqtisadi və hüquqi tənzimlənməsinin milli maraqlar üzərində qurulmasına təminat verirdi. Yaxın və uzaq xarici dövlətlərlə iqtisadi əlaqələrin bərabərhüquqlu əsaslar üzərində qurulması AXC-nin iqtisadi platformasının əsas meyarlarından birini təşkil edirdi. Azərbaycan Parlamenti və Hökuməti bu sahədə qanun layihələri hazırlamaqla kifayətlənmir, dünyanın bir sıra ölkələri ilə geniş və hərtərəfli iqtisadi-ticarət əlaqələri yaradılmasına çalışırdı.

İqtisadi təhlükəsizlik məsələləri və qaçaqmalçılığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi Azərbaycan Hökumətinin gömrük siyasətinin əsas prioritetlərindən biri idi. Ağır təsərrüfat dağınıqlığı, kəskin siyasi, hərbi, diplomatik və ideoloji təzyiq altında fəaliyyət göstərilməsinə baxmayaraq, xarici ticarət-iqtisadi əlaqələrinin milli maraqlara söykənən prinsipləri müəyyənləşdirildi: a) Azərbaycan əhalisinin ehtiyacı üçün lazım olan malların ölkəyə axınının sürətləndirilməsi; b)malların möhtəkirlik məqsədilə ölkə ərazisindən çıxarılması qarşısının alınması; c) ölkə iqtisadiyyatının və maliyyə mənbəyinin əsasını təşkil edən neft məhsullarının xaricə daşınması və satışının tənzimlənməsi və ç) ixrac və idxal əməliyyatları üzrə sahibkarlardan daxil olan müraciətlərin müzakirə edərək zəruri qərarların qəbul edilməsi. Cümhuriyyət Hökuməti idxal mallarından əlavə, ixrac malları üzərində də gömrük rəsmiləşdirməsinin tətbiq edilməsini zəruri sayırdı. Bu tədbirin mühüm fiskal əhəmiyyəti oldu. Ölkənin xarici ticarət dövriyyəsinin genişlənməsi Azərbaycan Hökumətinə dövlət büdcəsinin formalaşmasında gömrük gəlirlərinin payını artırmaq imkanı verdi. Bu dövrün gömrük yığımlarının həcmini əks etdirən məlumatlar ilkin mənbələrə əsaslanaraq ümumiləşdirilmişdir.

Sərhədlərin mühafizəsinin formalaşdırılması dövlət quruculuğu

prosesinin tərkib hissəsi olub, gömrük nəzarətinin təşkili prosesi ilə üzvi surətdə bağlı idi. Bu dövrdə hər iki qurum Maliyyə Nazirliyi tərəfindən idarə edilirdi. Gömrük orqanları və sərhəd mühafizəsi dəstələri öz səlahiyyətləri çərçivəsində iqtisadi təhlükəsizliyin təmin edilməsi və qaçaqmalçılığa qarşı mübarizə işində eyni məsuliyyəti daşıyırdılar. Araşdırmalarla gömrük xidməti və gömrük baxımından sərhəd mühafizəsinin inzibati-idarəetmə strukturu öyrənilmiş, gömrük və sərhəd mühafizə məntəqələrinin sayı və dislokasiya yerləri dəqiqləşdirilmişdir. Arxiv fondunda sərhəd-postlarının yerləşdirilməsini əks etdirən, 1919-cu ilin noyabr ayında sərhəd mühafizə şöbəsində hazırlanmış xəritə-sxem aşkar edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin gömrük işi sahəsindəki səyləri və həyata keçirdiyi vəzifələr bu gün də nəzəri və praktik əhəmiyyət kəsb edir. Sözsüz ki, Azərbaycanın dövlət quruculuğunun bu mühüm sahəsində əldə etdiyi tarixi təcrübə hərtərəfli öyrənilməyə və təbliğ edilməyə layiqdir. Bu təcrübə Azərbaycanın dövlətçilik ənənələrinin bərqərar olması, dövlətin idarə edilməsində mühüm qurumlardan biri olan gömrük xidmətinin təşəkkülü və inkişafı tarixinin öyrənilməsi baxımından gərəklidir.

1920-1921-ci illərdə Azərbaycan XKS-nin birbaşa nəzarətində olan gömrükxanalarda Azərbaycanın nəfinə gömrük rüsumlarının yığılması RSFSR hökumətini narahat etməyə bilməzdi. ZSFSR İttifaq Soveti sovet respublikaları arasında ticarəti sərbəst elan edərək bütün gömrük məhdudiyyətlərinin ləğv edilməsini nəzərdə tutan qərar qəbul etdi. 1922-1930-cu illərdə SSRİ-nin bütün gömrük təşkilatları kimi Azərbaycan ərazisində yerləşən gömrükxanalar həddindən artıq məhdud hüquqlara malik olmaqla yanaşı, həmişə mərkəzin ciddi nəzarət altına keçdi. Gömrük orqanları xarici ticarətin tənzimlənməsi işindən demək olar ki, kənar edildi.

Araşdırmalar təsdiq edir ki, ikinci dünya müharibəsi illərində Azərbaycan SSR ərazisindəki gömrükxanalar iqtisadi əlaqələrin hərbi qaydada yenidən qurulmasında fəal iştirak etmişdir. Qonşu ölkələrdən quru və dəniz yolu ilə daşınan müxtəlif təyinatlı hərbi-strateji yüklər Azərbaycan ərazisindəki gömrükxanalarda ciddi surətdə yoxlanılırdı. Öz sıralarının yarısından çoxunu itirmiş olan Bakı, Culfa gömrükxanaları və Astara gömrük postu xaricdən Qırmızı Xaç və Aypara Cəmiyyətinin xətti ilə ölkəyə gələn böyük həcmdə yüklərin vaxtında buraxılmasını təmin etməklə gömrük sərhədində sayıqlıqlarını da əldən vermirdilər. Həmin illərdə

Azərbaycan SSR-nin ölkəmizdə və ya xarici ölkələrdə keçirilən beynəlxalq sərgi və yarmarkalarda iştirakı gömrük nəzarətinin əsas fəaliyyət sahəsinə daxil idi. Xarici ticarət əməliyyatlarının həyata keçirilməsində ittifaq əhəmiyyətli Bakı və Culfa gömrükxanaları geniş fəaliyyət göstərirdi.

Müharibədən sonrakı dövrdə SSRİ-nin tərkibinə daxil olan digər müttəfiq respublikalar kimi Azərbaycana da müstəqil xarici iqtisadi əlaqələr yaratmaq imkanı verilmirdi. Respublikamızın xarici ticarət dövriyyəsinin əsas hissəsini Sovet İttifaqına daxil olan respublikalar və QİYŞ üzvü ölkələri ilə mal mübadiləsi təşkil edirdi. Bununla yanaşı, arxivlərdə qorunan gömrük sənədləri bir daha təsdiq edir ki, 1970-1980-ci illərdə xarici iqtisadi əlaqələr nisbətən geniş xarakter almışdır. Həmin dövrdə Azərbaycan SSR-nin xarici ölkələrlə iqtisadi əlaqələrinin əsas formalarını təşkil edən xarici ticarət və xarici ölkələrin ərazisində tikinti işlərinin aparılması sahəsində fəaliyyət, beynəlxalq yük daşımaları, beynəlxalq yarmarka və sərgilərdə iştirak, mütəxəssis mübadiləsi və beynəlxalq turizm və birbaşa iqtisadi əlaqələr gömrük işinin də bir qədər canlanmasına səbəb oldu.

Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də müstəqilliyinə qovuşdu və öz iqtisadiyyatını milli maraqlara uyğun inkişaf etdirmək fürsəti qazandı. Azərbaycan Respublikasında milli gömrük xidmətinin təşəkkülü və inkişafına başlanıldı. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Gömrük xidməti milli təhlükəsizlik vəzifələrinin yerinə yetirilməsi sahəsində dövlət idarəçiliyinin ayrılmaz tərkib hissəsinə çevrildi.

AXC-nin tarixi təcrübəsi, dövlət quruculuğu, xüsusilə gömrük xidmətinin təşkili sahəsində gördüyü işlər hədər getmədi. Nəhəng sovet imperiyasına qarşı əzmlə mübarizə aparan Azərbaycan xalqı nəhayət, 1991-ci il oktyabrın 18-də müstəqilliyinə qovuşdu. Sovetlər Birliyinin dağılması ilə Azərbaycan Respublikası öz milli iqtisadiyyatını müstəqil və milli maraqlara uyğun inkişaf etdirmək fürsəti qazandı. Azərbaycan Respublikasında milli gömrük xidmətinin təşəkkülü və inkişafı davam etdirildi. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Gömrük xidməti milli təhlükəsizlik vəzifələrinin yerinə yetirilməsi sahəsində dövlət idarəçiliyinin ayrılmaz tərkib hissəsinə çevrildi. Müstəqillik dövründə gömrük xidmətimiz böyük inkişaf yolu keçdi. Ötən illər ərzində gömrük xidməti böyük inkişaf yolu keçdi. Xüsusilə, 1995-ci

ildən başlayaraq gömrük orqanlarının fəaliyyətində əsaslı dəyişikliklər baş verdi. Ulu öndər Heydər Əliyevin gündəlik qayğısı ilə vahid gömrük siyasətinin iqtisadi, təşkilati və hüquqi mexanizmi işlənilib-hazırlandı, gömrük işi sahəsində qabaqcıl ölkələrin təcrübəsi öyrənilərək tətbiq edildi. Gömrük orqanları hüquq-mühafizə orqanları kimi formalaşmış, gömrük xidmətinin əməliyyat-axtarış və istintaq fəaliyyəti müsbət nəticələr vermişdir.

Bu gün Heydər Əliyev yolunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan gömrük xidmətinin öz tarixi ənənələrini qoruyub saxlaması və daha da təkmilləşdirilməsi işini diqqət mərkəzində saxlayır. Davamlı iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi sayəsində ölkənin ildən-ilə iqtisadi-ticarət əlaqələrinin coğrafiyası genişlənir, idxal-ixrac əməliyyatlarının həcmi artır. Bütün bunlar gömrük əməliyyatlarını tənzimləyən normativ-hüquqi aktların təkmilləşdirilməsində, inkişaf etmiş ölkələrin gömrük işi sahəsində qabaqcıl təcrübəsi və bu sahədə qəbul olunmuş beynəlxalq konvensiyaların müddəalarının tətbiqində nəzərə alınır.

Azərbaycan Respublikasında aparılan gömrük-tarif siyasətinin əsas məqsədi məhz gömrük ərazimizdə mal dövriyyəsinin tənzimlənməsi daha səmərəli istifadənin təmin edilməsi, daxili bazarının qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması və dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsindən ibarətdir.

Bəşəri problem olan narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının, silahların, bioloji maddələrin, nüvə və radioaktiv maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparmaq, çirkli pulların yuyulmasının qarşısını almaq, eləcə də beynəlxalq terrorizmlə mübarizədə, habelə insanların sağlamlığının qorunmasında gömrük xidmətinin rolu əhəmiyyətli dərəcədə artmışdır. Ölkənin iqtisadi təhlükəsizliyi və daxili bazarının qorunmasında, onun beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsində gömrük sistemi müstəsna rol oynayır. Azərbaycan Respublikasının gömrük sistemi xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşmış və inkişaf edərək dövlət müstəqilliyinin əsas atributlarından biri olan çoxfunksiyalı kompleksə çevrilmişdir.

Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, eləcə də gömrük işi sahəsində beynəlxalq

standartların öyrənilməsi və onların tətbiq edilməsi işinin davam etdirilir. Ölkələrin dünya iqtisadi proseslərinə inteqrasiyası gömrük xidmətlərinin qarşısında yeni vəzifələr qoyur. Bunlar ticarət dövriyyəsində əsas rol oynayan, mal və nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi və ticarətə yardım tədbirləri üzrə gömrük orqanlarının gündəlik fəaliyyətlərində öz ölkələrinin iqtisadiyyatının inkişaf etdirilməsində daim axtarışda və dinamik hərəkətdə olmasını zəruri edir.

Xarici ticarət əlaqələrinin inkişafında və daxili bazarın qorunmasında gömrük tarif tənzimləmələri mühüm rola malikdir. Bu baxımdan, böyük diapazona malik olan tarif tənzimləmə vasitələrinin hazırlanması və geniş tətbiqi yaxın illərdə gömrük orqanlarının əsas vəzifəsi olmalıdır. Gömrük işi sahəsində qazanılan təcrübə göstərir ki, gömrük sistemi dünya siyasətinin, iqtisadiyyatın, elmin və texnikanın sürətli inkişafından xüsusilə iqtisadi qloballaşma şəraitində geridə qalmamalıdır. Gömrük xarici ticarətin asanlaşdırılması yolunda maneəyə çevrilməməklə, idarəetmə konsepsiyasının daimi dəyişdirilməsi, idarəetmə sistemində islahatların aparılması, idarəetmə metodlarının yeniləşdirilməsi və idarəetmənin effektivliyinin artırılması şərti ilə zamanla ayaqlaşa bilər.

Azərbaycan Respublikasında gömrük işinin üzləşdiyi bəzi problemlərin həll edilməsi üçün, ilk növbədə xarici iqtisadi fəaliyyətin liberallaşdırılması və bu əsasda milli gömrük siyasətinin formalaşdırılmasının elmi-nəzəri müddəaları hazırlanmalıdır. Gömrük siyasətimiz milli iqtisadiyyatın maraqları nəzərə alınmaqla xarici iqtisadi fəaliyyətin beynəlxalq standartlarına uyğun tənzimlənməsi ilə əlaqədar olmalıdır. Milli bazarın xarici rəqabətin təsirindən qorunması və keyfiyyətsiz malların ölkəyə idxalının qarşısını alınması üçün hərtərəfli düşünülmüş tədbirlər həyata keçirilməlidir. Gömrük-tarif tənzimlənməsinin elə bir dəqiq sistemi yaradılmalıdır ki, sui-istifadə hallarının qarşısını almaq mümkün olsun. Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafı və iqtisadi təhlükəsizliyi ölkədə aparılan düşünülmüş gömrük siyasəti ilə bilavasitə bağlı olduğuna görə xarici iqtisadi əlaqələrinin həyata keçirilməsi mexanizminin daha da təkmilləşdirilməsi prosesində gömrük xidməti orqanlarının potensial imkanları əsas və müəyyənedici amillərindən biri kimi qəbul edilir. Beləliklə, bütün bunlar nəzərə alınmaqla qeyd edilməlidir ki, tədqiq edilən dövrdə Azərbaycan Respublikasında uğurlu gömrük siyasətinin təməli

qoyulmuşdur. Milli gömrük işinin daha da təkmilləşdirilməsi, ölkənin gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, onun ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində addımlar atılır.

Azərbaycan Respublikasının müasir dövlət quruculuğu təcrübəsində gömrük işinin inkişaf xüsusiyyətlərinin araşdırılması aşağıdakı nəticələri əldə etməyə imkan verir:

1. Sovetlər Birliyinin dağılması ilə Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də müstəqilliyinə qovuşdu və öz iqtisadiyyatını milli maraqlara uyğun inkişaf etdirmək fürsəti qazandı. Azərbaycan Respublikasında milli gömrük xidmətinin təşəkkülü və inkişafına başlanıldı. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası DGK yaradıldı. Gömrük xidməti milli təhlükəsizlik vəzifələrinin yerinə yetirilməsi sahəsində dövlət idarəçiliyinin ayrılmaz tərkib hissəsinə çevrildi.

2. Müstəqillik illərində Azərbaycan Respublikasının gömrük sisteminin təşəkkülü və inkişafında mühüm nailiyyətlər qazanıldı: gömrük xidməti hüquq-mühafizə orqanları kimi formalaşdı, gömrük xidmətinin əməliyyat-axtarış və istintaq fəaliyyəti müsbət nəticələr verdi.

3. Təcrübə göstərdi ki, iqtisadiyyatın gömrük tənzimlənməsinin miqyası və metodları ölkənin bütün tarixi ərzində formalaşan milli təsərrüfatçılıq və həyat tərzi ənənələri, geosiyasi vəziyyəti və s. faktorlardan birbaşa asılıdır və müxtəlif ölkələrdə bir-birindən əsaslı surətdə fərqlənir.

4. Milli gömrük xidmətinin yaradılması dövlət quruculuğunun bu sahəsində tarixi ənənələrin bərpası, yüz illərlə mövcud olmuş gömrük işinin yeni tarixi şəraitdə davam etdirilməsi demək idi.

5. Gömrük işi və gömrük sərhədinin qorunması, iqtisadi təhlükəsizliklə bağlı məsələlər hüquqi əsaslar üzərində quruldu. Xarici ticarət əlaqələrinin təşkili və tənzimlənməsi ilə bağlı qərarlar, həmçinin gömrük işinin təşkilinə aid qəbul edilən onlarla qanun və digər hüquqi sənədlər daha da təkmilləşdirilir.

6. Azərbaycan Respublikası xarici ticarət əlaqələri yaradarkən dünya bazarında strateji malların və karbohidrogen ehtiyatlarının çatışmazlığını nəzərə almağa, xüsusilə gömrük siyasətini düzgün istiqamətdə qurmağa çalışır. Yaxın və uzaq xarici dövlətlərlə iqtisadi əlaqələrin bərabərhüquqlu əsaslar üzərində qurulması Azərbaycan Respublikasının gömrük siyasətinin

əsas meyarlarından birini təşkil edir.

7. Ölkənin xarici ticarət dövriyyəsinin genişlənməsi dövlət büdcəsinin formalaşmasında gömrük gəlirlərinin payını artırmaq imkanı verir.

8. Müstəqillik illərində milli gömrük xidməti böyük inkişaf yolu keçdi. Azərbaycan Respublikasının gömrük sistemi Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilən strategiya əsasında formalaşmış və inkişaf edərək dövlət müstəqilliyinin əsas atributlarından biri olan çoxfunksiyalı hüquq-mühafizə orqanı statusuna yüksəldi. Xüsusilə, 1995-ci ildən başlayaraq gömrük orqanlarının fəaliyyətində əsaslı dəyişikliklər baş verdi. Ulu öndər Heydər Əliyevin gündəlik qayğısı ilə vahid gömrük siyasətinin iqtisadi, təşkilati və hüquqi mexanizmi işlənilib-hazırlandı, gömrük işi sahəsində qabaqcıl ölkələrin təcrübəsi öyrənilərək tətbiq edildi.

9. Müstəqilliyin ilk illərində Azərbaycan Respublikasının kəskin siyasi, hərbi, diplomatik və ideoloji təzyiq altında fəaliyyət göstərilməsinə və ağır təsərrüfat dağınıqlığı şəraitinə baxmayaraq, xarici ticarət-iqtisadi əlaqələrinin milli maraqlara söykənən prinsipləri və yaranmış vəziyyətdən çıxış yolları müəyyənləşdirildi. Bunlar aşağıdakılar idi: a) Azərbaycan əhalisinin ehtiyacı üçün lazım olan malların ölkəyə axınının sürətləndirilməsi; b) malların möhtəkirlik məqsədilə ölkə ərazisindən çıxarılması qarşısının alınması; c) ölkə iqtisadiyyatının və maliyyə mənbəyinin əsasını təşkil edən neft məhsullarının xaricə daşınması və satışının tənzimlənməsi və ç) ixrac və idxal əməliyyatları üzrə sahibkarlardan daxil olan müraciətlərin müzakirə edərək zəruri qərarların qəbul edilməsi.

11. Azərbaycan Respublikasında aparılan gömrük-tarif siyasətinin əsas məqsədi Azərbaycan dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələri həyata keçirilməsi, gömrük ərazimizdə mal dövriyyəsinin tənzimlənməsi və daxili bazarı qorumaqla milli iqtisadiyyatın inkişafının stimullaşdırılması idi.

10. Dövlətin işləyib-hazırladığı gömrük siyasəti digər ölkələrlə iqtisadi münasibətləri tənzimləyən əsas faktorlardan biri oldu. Çünki dövlətlərarası ticarət əlaqələrinin genişlənməsi gömrük siyasətinin xarakterindən birbaşa asılıdır. Gömrük siyasəti idxal-ixrac mallarının tənzimlənməsi vəzifələrini həll edərək milli istehsalın rəqabətə davamlı olmasını təmin edir. Ölkənin iqtisadi təhlükəsizliyi və daxili bazarının qorunmasında, onun beynəlxalq iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsində gömrük

sistemi müstəsna əhəmiyyət daşıyır.

12. Respublikanın ildən-ilə iqtisadi-ticarət əlaqələrinin coğrafiyasının genişlənməsi və idxal-ixrac əməliyyatlarının həcminin artması Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasını gücləndirir. Ölkələrin dünya iqtisadi proseslərinə inteqrasiyası gömrük xidmətlərinin qarşısında yeni vəzifələr qoyur. Ticarət dövriyyəsində əsas rol oynayan, mal və nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi və ticarətə yardım tədbirləri üzrə gömrük orqanlarının gündəlik fəaliyyətlərində daim axtarışda və dinamik hərəkətdə olmasını zəruri edir. Bütün bunlar isə gömrük işini tənzimləyən normativ-hüquqi aktların təkmilləşdirilməsində, inkişaf etmiş ölkələrin gömrük işi sahəsində qabaqcıl təcrübəsi və bu sahədə qəbul olunmuş beynəlxalq konvensiyaların müddəalarının tətbiqində nəzərə alınır.

13. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli gömrük xidmətinin qabaqcıl ənənələrinin qorunub saxlanılması və daha da təkmilləşdirilməsi işini diqqət mərkəzində saxlayır. Yeni inkişaf mərhələsində gömrük xidmətinin modernləşdirilməsi və kadrların peşəkarlıq səviyyəsinin artırılması məsələlərinə xüsusi diqqətlə yanaşılır, gömrük sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə böyük önəm verilir.

14. Gömrük işi dövlətin iqtisadi fəaliyyətinin mühüm tənzimləyicisi olmaqla dövlət büdcəsinin formalaşmasının aləti və iqtisadi maraqların müdafiəçisi kimi cəmiyyətdə yüksək qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzası ilə təsdiq edilən proqram xarakterli sənədlər əsasında ölkənin davamlı iqtisadi inkişafını təmin edə bilən gömrük siyasəti daha da təkmilləşdirilir.

Beləliklə, Azərbaycan Respublikasında gömrük işi sahəsində bir-birini tamamlayan və gələcək inkişafını müəyyən edən aşağıdakı vəzifələr yerinə yetirildi:

– gömrük sərhədinin tam qurulması və maddi-texniki təchizatı, gömrük sərhədindən keçirilən yüklərin qeydiyyatı işləri təkmilləşdirildi;

– gömrük qanunvericiliyi pozuntularının qarşısının alınması, başqa hüquq-mühafizə orqanları ilə birlikdə qaçaqmalçılıq hallarının qarşısının alınması sahəsində işlər xeyli gücləndirildi;

– gömrük ödənişləri texnologiyasının və onların büdcəyə daxil olmasına nəzarət, valyuta nəzarəti təkmilləşdirildi;

– gömrük nəzarətinin həyata keçirilməsində müasir texnologiyaların

tətbiq olunması işi geniş xarakter aldı, gömrük rəsmiləşdirilməsi sənədlərinin beynəlxalq tələblərə uyğunlaşdırıldı, gömrük prosedurалarının sadələşdirilməsi və rəsmiləşdirmə müddəti qısaldıldı, təhvil vermə üsulundan asılı olmayaraq bütün malların gömrük rəsmiləşdirilməsi təmin olunur, yüklər və yük göndərənlər haqqında ilkin məlumatlar toplanırdı;

– tarifdən kənar tənzimləmə tədbirlərinə nəzarət texnologiyası təkmilləşdirilir, tarif üsulları kompleksində effektivliyin təhlili üzrə təkliflərin hazırlanır və həyata keçirilirdi;

– boru kəməri nəqliyyatı və elektrik enerjisi ötürücü xətləri ilə keçirilən mallara gömrük nəzarəti təşkil olundu, əqli mülkiyyət obyektlərinin bir yerdən başqa yerə keçməsinə nəzarətin təşkilati-hüquqi şərtləri yaradıldı;

– məlumatların düzgünlüyünün və keyfiyyətinin artırılması üzrə işlərin sistemləşdirilməsi və bu əsasda gömrük xidmətinin və onun struktur bölmələrinin işinin səmərəliliyi təhlil olunurdu və s.

Son illərin təcrübəsində bir daha təsdiq olunur ki, Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafı və iqtisadi təhlükəsizliyi bir çox tərəfdən ölkədə aparılan düşünülmüş gömrük siyasəti ilə bilavasitə bağlıdır. Məhz buna görə də, Azərbaycan dövləti xarici iqtisadi əlaqələrinin həyata keçirilməsi mexanizminin daha da təkmilləşdirilməsi prosesində gömrük xidməti orqanlarının potensial imkanlarını əsas və müəyyənedici amillərindən biri kimi qəbul edir. Azərbaycan Respublikasında gömrük işinin üzləşdiyi problemlərin həll edilməsi üçün, milli gömrük siyasətinin elmi-nəzəri konsepsiyası hazırlanmalıdır. İlk növbədə milli iqtisadiyyatın maraqları nəzərə alınmalı, xarici iqtisadi fəaliyyət beynəlxalq standartlara uyğun tənzimlənməlidir. Digər tərəfdən, keyfiyyətsiz malların idxalının qarşısını almaq, bütövlükdə milli bazarın xarici rəqabətin təsirindən daha səmərəli mühafizəsi üçün gömrük-tarif tənzimlənməsinin elə bir dəqiq sistemi yaradılmalıdır ki, sui-istifadə hallarının qarşısını almaq mümkün olsun. xarici ticarət əlaqələrinin inkişafında və daxili bazarın qorunmasında gömrük tarif tənzimləmələri mühüm rol oynayır. Bu baxımdan, böyük diapazona malik olan tarif tənzimləmə vasitələrinin hazırlanması və çevik tətbiqi olunması gömrük orqanlarının əsas vəzifəsi olmalıdır. Ucuz və keyfiyyətsiz xarici malların ölkə bazarına kütləvi surətdə axınının qarşısı alınmalı, bu məqsədlə həmin mallara nisbətən yüksək gömrük rüsumları tətbiq edilməlidir. Tədqiq edilən dövrdə Azərbaycan Respublikasında uğur-

lu gömrük siyasətinin təməli qoyulmuş, gömrük işinin təkmilləşdirilməsi, gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atılmışdır.

Fikrimizcə, islahatların həyata keçirilməsi aşağıdakı strateji istiqamətlər üzrə gömrük işini daha da gücləndirə bilər:

– gömrük idarəçiliyinin təkmilləşdirilməsi və şəffaflığa əsaslanan sistemin inkişaf etdirilməsi;

– Azərbaycan Respublikası ərazisinə gətirilən və ölkədən çıxarılan malların valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətinin təmin edilməsi və Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan valyuta sərvətlərinin üzərində səmərəli nəzarətin həyata keçirilməsi;

– Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şəraitin yaradılmalı, iqtisadiyyatının xarici rəqabətin mənfi təsirindən qorunması və iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyası təmin edilməsi;

– sahibkarların və xarici iqtisadi fəaliyyət iştirakçılarının hüquqlarının müdafiəsinin möhkəmləndirilməsi;

– gömrük rəsmiləşdirilməsi və nəzarət prosedurالarının sadələşdirilməsi, xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsində qabaqcıl təcrübə geniş surətdə tətbiq olunması, bu məqsədlə gömrük brokeri institutunun inkişaf etdirilməsi;

– iqtisadi təhlükəsizliyə zərər vuran cinayətlərin və hüquqpozmaların aşkar olunması və qarşısının alınması, korrupsiya ilə mübarizə daha da gücləndirilməsi, gömrük xidməti mütəxəssislərinin, əməkdaşlarının, xüsusilə də gömrük sərhədindən keçirilən mallara tarif dərəcələri ilə işləyən mütəxəssislərin ixtisas səviyyəsinin artırılmasının diqqət mərkəzində saxlanılması;

– gömrük orqanları tərəfindən narkotik maddələrin əməliyyat-axtarış tədbirlərini tənzimləyən normativ-hüquqi aktların və qaydaların qəbul edilməsi;

– kadr potensialının gücləndirilməsi, insan resurslarından daha səmərəli istifadə olunması və kadr potensialın artırılması sahəsində işin davamlı olaraq təkmilləşdirilməsi;

– inkişaf etmiş ölkələrin gömrük orqanları ilə təcrübə mübadiləsinin,

əməkdaşların ixtisasartırma kurslarında mütəmadi təlim keçməsi, bu sahədə metodik və əyani tədris vəsaitlərinin hazırlanması, DGT-nin tədris modulları sistemindən geniş istifadə olunması;

– təcrübəli və ixtisaslaşmış gömrük əməkdaşlarının hazırlanması işində xarici ölkələrin qabaqcıl təcrübəsinin geniş tətbiq edilməli, bu məqsədlə beynəlxalq və regional səviyyədə keçirilən seminar və kurslarda DGK nümayəndələrinin fəal iştirakı təmin edilməsi;

– gömrük əməkdaşlarının xarici ölkələrin gömrük məktəblərində təhsil alması, Gömrük Akademiyasının beynəlxalq əlaqələrinin genişləndirilməsinin diqqət mərkəzində saxlanılması;

– gömrük işinə aid sənədlərdə rus və ingilis dillərində rast gəlinən arxaik və müasir leksikona daxil edilən terminlərin ana dilimizdə qarşılığının düzgün yerini tapması məqsədi ilə gömrük işinə aid xüsusi terminlərin izahlı lüğətinin yaradılması;

– vətəndaşların müraciətlərinin vaxtında baxılaraq cavablandırılması üçün elektron müraciətlər və "Qaynar xətt" sistemindən daha geniş istifadə edilməsi.

– Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan valyuta sərvətlərinin üzərində səmərəli nəzarətin həyata keçirilməsi;

– gömrük işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və dəqiqləşdirilməsi;

– gömrük postlarının beynəlxalq standartlara uyğun qurulması, gömrükxanaların fəaliyyət zonalarında müvafiq laboratoriyaların yaradılması;

– qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizənin informasiya təminatının təkmilləşdirilməsi və "on-line" rejimində işləyən vahid korporativ şəbəkəyə qoşulan gömrük məntəqələrinin sayı və texniki resursları artırılması;

– xarici ticarət əlaqələrində gömrük münasibətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi;

– azad ticarət zonalarının yaradılması və bu sahədə qanunvericiliyin uzlaşdırılmasında;

–xarici ticarət sahəsində fəaliyyət göstərən sahibkarlar, özəl şirkətlər, kiçik və orta müəssisələr üçün əlverişli şərait yaradılması və gömrük nəzarətində şəffaflığın təmin edilməsi;

– nəqliyyat dəhlizlərinin təhlükəsiz, səmərəli fəaliyyətinin təmin edilməsində;

– tərəfdaş ölkələrinin maraqlarına xidmət edən birgə layihələrin işlənilib hazırlanması.

Tarixi təcrübə göstərir ki, gömrük sistemi iqtisadi qloballaşma şəraitində, dünya siyasətinin, iqtisadiyyatın, elmin və texnikanın sürətli inkişafından geridə qalmamalıdır. Gömrük işinin tarixinin araşdırılması sahəsində aparılan tədqiqatlar sübut edir ki, gömrük işi dövlətin iqtisadi və siyasi həyatından, ölkədəki kriminal vəziyyətdən asılı olaraq güclü dəyişikliyə uğraya bilər. Gömrük işi cəmiyyətdə baş verən siyasi və sosial-iqtisadi dəyişikliklərə yüksək transformasiya qabiliyyətinə malikdir. Buna görə də cəmiyyətin sonrakı inkişaf mərhələlərində dövlətin gömrük siyasətinin işlənilib hazırlanmasında bu tarixi təcrübənin nəzərə alınması, hərtərəfli öyrənilib tətbiq edilməsi son dərəcə zəruridir. Müasir dövrdə dövlətlərarası qarşılıqlı münasibətlər cəmiyyət həyatının bütün sahələrini, o cümlədən ictimai-siyasi və diplomatik, iqtisadiyyat, elmi texniki və mədəni əlaqələr sahəsinin əhatə edir. Bu mənada ayrı-ayrı dövlətlər arasında tarixən formalaşan ticarət əlaqələri ilə paralel olaraq gömrük münasibətlərinin ölkənin həm iqtisadi, həm də siyasi inkişafına təsir dairəsi artır. Buna görə də hər bir qabaqcıl dövlət öz milli qanunvericiliyində gömrük işinə və beynəlxalq gömrük münasibətlərinə mühüm əhəmiyyət verir. Azərbaycan Respublikası da bu mənada istisna təşkil etmir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilən, zəngin dövlətçilik ənənələrinə söykənən uğurlu daxili və xarici siyasət xətti gömrük işinin inkişafına müsbət təsirini göstərir. Ölkəmiz iqtisadi cəhətdən real rəqabət üstünlüklərinə malikdir və bu da ona bərabərhüquqlu iştirakçı kimi XXI yüzilliyin dünya iqtisadi məkanına daxil olmağa imkan verir. Beləliklə yaxın perspektivdə daha çevik gömrük siyasəti həyata keçirməklə ölkənin iqtisadi və milli təhlükəsizliyinin möhkəmləndirilməsində gömrük sisteminin rolu artırılacaq, gömrük orqanlarının fəaliyyətində şəffaflıq və açıqlıq prinsipi rəhbər tutulacaq.

## İstifadə edilmiş mənbələr və ədəbiyyat

1. Avropa ölkələrinin gömrük xidmətləri birgə fəaliyyət imkanlarını genişləndirir // "Gömrükçü", 2006, 12 (33).
2. Azərbaycanda ilk müvəqqəti saxlanc gömrük terminalı istifadəyə verilmişdir. "Gömrük xəbərləri" qəz., Bakı, 2004, 12 noyabr, № 46 (407).
3. Azərbaycanın gömrük xidməti fəaliyyətini ölkənin inkişaf strategiyasına uyğun qurur. "Azərbaycan" qəz., Bakı, 2012, 25 yanvar.
4. Azərbaycan gömrükçülərinin nümayəndə heyəti 2001-ci ilin dekabrında Brüsseldə DGT-nin Siyasi komissiyasının 46-cı sessiyasında iştirak etmişdir. "Azərbaycan" qəz., Bakı, 2001, 11 dekabr.
5. Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: Elm, 2007, 220 s.
6. "Azərbaycan" qəz., Bakı, 1995-2004-cü illər.
7. Azərbaycan Prezidenti İlham Əliyev Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı və BMT-nin Vyana ofisinin rəhbəri, Narkotik və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru Yuri Fedotovu qəbul etmişdir. "Azərbaycan" qəz. Bakı, 2011, 18 oktyabr.
8. Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Şəhər Gömrük İdarəsinin açılışında iştirak etmişdir. "Azərbaycan" qəz., Bakı, 2012, 31 may.
9. Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 15 iyun 1992-1998-ci illər.
10. ARDA, f. 3034, siy. 1, iş 517.
11. ARDA, f. 3034, siy. 1, iş 518.
12. ARDA, f. 3034, siy. 1, iş 519.
13. ARDA, f. 3034, siy. 1, iş 520.
14. ARDA, f. 3034, siy. 1, iş 522.
15. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Cari Arxivi, Komitənin 1998-2012-ci illərə aid kollegiya yığıncaqlarının materialları.
16. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə // "Azərbaycan" qəz., 2012, 6 iyun.
17. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, gömrük işi sahəsində prosedurların sadələşdirilməsi və şəffaflığın artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-

ci il 25 fevral tarixli Fərmanı // Xalq qəzeti, 2011, 26 fevral.

18. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Avstriya Respublikası Federal Maliyyə Nazirliyi arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 1998-2011-ci illər, 2010, 31 oktyabr, № 7, maddə 10.
19. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2010-cu il tarixli Sərəncamı // Respublika qəz., Bakı, 2010, 28 dekabr.
20. Azərbaycan Respublikasının gömrük qanunvericiliyi. 3 cilddə, I c., Bakı: Ozan, 2009, 704 s.
21. "Azərbaycan Respublikasının gömrük orqanlarının ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələr və bu vəzifələrə uyğun xüsusi rütbələrin siyahısı" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // "Azərbaycan" qəz., Bakı, 2000, 13 yanvar.
22. "Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı // Gömrükçü, 2007, № 2 (35), s.26-28.
22. Azərbaycan Respublikasında gömrük sisteminin 2007-2011-ci illərdə inkişaf Proqramı. "Respublika" qəz., Bakı, 2007, 2 fevral, № 22 (2862).
23. Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişin təsdiq edilməsi barədə. Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişin təsdiq edilməsi barədə. "Azərbaycan" qəz., Bakı, 2011, 30 oktyabr.
24. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1995-2006-cı illər.
25. Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tam hüquqlu üzvü olmasına hazırlıq işləri görülür. "Azərbaycan" qəz., 2003, 4 may.
26. Azərbaycan Respublikası Mərkəzi İcra Hakimiyyəti Orqanlarının Nor-

mativ Hüquqi Aktlarının Bülleteni. Bakı: 2002-ci il, № 5.
27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin cari arxivi, Xarici İqtisadi Əlaqələr Nazirliyinin 1995-1996-cı illərə aid hesabatları.
28. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasından ixracı məhdudlaşdırılan strateji əhəmiyyətli malların siyahısının təsdiq edilməsi haqqında" 1992-ci il 10 sentyabr tarixli 118 nömrəli Sərəncamı // "Azərbaycan" qəz., Bakı, 1992, 11 sentyabr.
29. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Biləsuvar yeni gömrük buraxılış məntəqəsinin açılışında iştirak etmişdir . "Gömrük xəbərləri" qəz., Bakı, 1 may, 2010-cu il.
30. Azərbaycan rəqəmlərdə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2007, 802 s.
31. Azərbaycan rəqəmlərdə - 2011. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı: 2011, 293 s.
32. Azərbaycanın statistik göstəriciləri - 2004. Bakı: Səda nəşriyyatı, 2004, 804 s.
33. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev. 1991-2001. 1-ci kitab. Bakı: Qafqaz Universitetinin nəşri, 2002, 220 s.
34. Azərbaycan və ABŞ gömrük xidmətləri arasında əməkdaşlıq əlaqələri genişlənir // "Gömrükçü", 2006, № 12 (33).
35. Azərbaycanda yaradılmış sağlam gömrük mühiti. "Azərbaycan" qəz., 2005, 15 may.
36. Bakıda Dünya Gömrük Təşkilatının "Qlobal qalxan" Proqramı çərçivəsində təlim keçirilir. "Azərbaycan" qəz., Bakı, 2012, 12 iyun.
37. Bərxudarov M. Qloballaşma şəraitində Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin formalaşması xüsusiyyətləri və problemləri. İqtisad. elm. nam. ... diss. avtoref. Bakı, 2003, 21 s.
38. Biznesmenin bülleteni. Qanunverici və normativ sənədlər. Bakı: 1993-1996-cı illər (xüsusi buraxılış).
39. "Böyük İpək Yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin məktubu //"Azərbaycan" qəz., Bakı, 2004, 22 yanvar.
40. BMT-nin İnkişaf Proqramı və DGK birgə həyata keçirdikləri layihə üzrə əməkdaşlığı uğurla davam etdirirlər // "Gömrük xəbərləri" qəz., 2005, 9

aprel, №14( 428).
41. Cavadov V.M. Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi, inkişaf dinamikası və strukturunda əsas meyllər / "İqtisadiyyat və audit", №10, 2005.
42. Cahangirov P.H. Regional iqtisadi əlaqələr sistemində aqrar ixrac məsələləri // İqtisadiyyat və audit, № 7, 2006, s. 19-22.
43. "Deyli Nyus" qəzeti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında. "Azərbaycan" qəz., Bakı, 1997, 24 sentyabr.
44. "Respublika" qəz., Bakı, 1994, 10 iyun.
45. Əfsun Ələkbər. Tədiyyə balansının müasir vəziyyəti / Yeni dünyada yeniləşən Azərbaycan iqtisadiyyatı. Bakı: Qloballaşan Azərbaycan Sivil İnkişaf Mərkəzi, 2006, 376 s.
46. Əhmədov Ə., Eyvazov A. Azərbaycan Respublikasının beynəlxalq ticarətinin inkişaf perspektivləri // İpək yolu, 2003, № 3.
47. Əhmədov N. Naxçıvan gömrüyünün yaradılması Heydər Əliyevin adı ilə bağlıdır // Xalq qəzeti. Bakı, 2013, 12 may.
48. Əliyev A. Azərbaycanın iqtisadi siyasəti (Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri). Bakı: Qanun, 2003,247 s.
49. Əliyev A. Azərbaycanın müasir gömrük sisteminin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. "Azərbaycan" qəz., Bakı, 2010, 8 may.
50. Əliyev A. Gömrük xidmətinin təkmilləşdirilməsi və inkişafı daim diqqət mərkəzindədir // Gömrükçü, 2006, №10 (31), s.35-47.
51. Əliyev A. İnformasiya cəmiyyətində iqtisadiyyat // Dirçəliş XXI əsr, 2006, № 100-101, s.318-324.
52. Əliyev A., Sarıyev Ə. Azərbaycanın xarici ticarət konsepsiyası və strategiyası // Qanun, 2003, nömrə 8 (112).
53. Əliyev Heydər. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, müraciətlər, fərmanlar. İyun, 1993 - may, 1994. 1-ci kt., Bakı: Azərnəşr, 1997, 568 s.
54. Əliyev Heydər. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, müraciətlər, fərmanlar. Noyabr, 1995 – mart, 1996. 5-ci kt., Bakı: Azərnəşr, 1998, 500 s.
55. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, müraciətlər, fərmanlar. Mart, 1996 – iyun 1996.

6-cı kt., Bakı: Azərnəşr, 1998, 512 s.

56. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, müraciətlər, fərmanlar. İyun, 1996 – noyabr, 1996. 7-ci kt., Bakı: Azərnəşr, 1998, 520 s.
57. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, müraciətlər, fərmanlar. 8-ci kt., Bakı: Azərnəşr, 1998,488 s.
58. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, müraciətlər, fərmanlar. Oktyabr, 1998 – dekabr, 1998. 18-ci kt., Bakı, Azərnəşr, 2005, 552 s.
59. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, müraciətlər, fərmanlar. Mart, 2000, aprel – 2000. 26-cı kt., Bakı: Azərnəşr, 2009, 512 s.
60. Əliyev Heydər. Azərbaycan Respublikası Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş təntənəli yığıncaqda nitq. "Azərbaycan" qəz., Bakı, 31 yanvar 1997-ci il.
61. Əliyev Heydər. 1993-cü il noyabrın 19-da Prezident sarayında bank-maliyyə, tədiyyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyətinə və onun yaxşılaşdırmaq sahəsində vəzifələrə həsr olunmuş ümumrespublika müşavirəsindəki çıxışı / Müstəqilliyimiz əbədidir. Birinci kitab. İyun, 1993 – may, 1994. Bakı: Azərnəşr, 1997, 480 s.
62. Əliyev İlham. İnkişaf – məqsədimizdir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I kt. Aprel 2004 - iyun 2004. Buraxılışına məsul akademik R. Mehdiyev. Bakı: Azərnəşr, 2009, 424 s.
63. Əliyev İlham: İqtibaslar və təhlil. Elmi redaktor və ön sözün müəllifi, professor Ramiz Mehdiyev. Bakı: Azərbaycan nəşriyyatı, 2006. – 328 s.
64. Əliyev Ş.T. Rusiya Federasiyasının Azərbaycanın xarici ticarət dövriyyəsində rolu və bu əlaqələrin prioritet istiqamətləri // İqtisadiyyat və həyat, 2006, №7, s.40-45.
65. Əliyev V.İ. Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin tənzimlənməsinin gömrük tariflərinin tətbiqi problemləri: İqtisad. elm. nam. ... dis. avtoref. Bakı, 2005, 30 s.
66. Əsgərov H. Türkiyənin iş adamları Naxçıvanda. "Azərbaycan" qəz.,

Bakı, 1999, 1 iyun.
67. Gömrükçülərin müsadirə etdiyi ikonalar kilsəyə bağışlanmışdır // Gömrükçü, 2007, №1 (34), s. 58-59.
68. Gömrükçülər ölkəmizin iqtisadi təhlükəsizliyinin qorunması naminə yeni nailiyyətlərə imza atacaqlar // Azərbaycan qəz., Bakı, 2015, 31 yanvar.
69. "Gömrük xəbərləri" qəz., Bakı, 1995-2011-ci illər.
70. "Gömrükçü". Azərbaycan DGK-nin orqanı. 2004-2009-cu illər.
71. Gömrük Məcəlləsinin gətirəcəyi yeniliklər açıqlanıb. "Azərbaycan" qəz., Bakı, 2011, 5 noyabr.
72. Gömrükçülər ölkəmizin iqtisadi təhlükəsizliyinin qorunması naminə yeni nailiyyətlərə imza atacaqlar // Azərbaycan qəz., Bakı, 2015, 31 yanvar.
73. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəz., Bakı, 2000, 13 yanvar.
74. Heydər Əliyev işığı – İpək Yolu. Bakı: Qismət, 2001, 248 s.
75. Heydərov K. Azərbaycan gömrüyünün inkişaf strategiyası Heydər Əliyev iqtisadi siyasətinin tərkib hissəsidir // Dirçəliş XXI əsr, 2004, № 74-75, s. 63-79.
76. Heydərov K.F. Azərbaycanda gömrük siyasətinin əsas istiqamətləri // İqtisadi inkişaf, 2005, № 1, s.13-17.
77. Heydərov K. F. Gömrük işinin əsasları. 4 cilddə. II c., Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1999, 422 s.
78. Heydərov K.F. Gömrük işinin əsasları: gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti. 4 cilddə, III c., Bakı: Azərnəşr, 1999, 392 s.
79. Heydərov K.F. Gömrük işinin əsasları: gömrük işinin idarə edilməsi və inkişafı. 4 cilddə, IV c. Bakı: Azərnəşr, 2000, 296 s.
80. Heydərov K.F. Gömrük orqanlarının fəaliyyəti iqtisadiyyatın tənzimlənməsində əsas stimuldur. "Respublika" qəz., Bakı, 2003, 16 sentyabr, №213 (1850).
81. Heydərov K. Heydər Əliyev və Azərbaycanda gömrük sisteminin təşəkkülü (İqtisadi təhlükəsizlik konsepsiyası üzrə). Bakı: Ozan, 2000,256 s.
82. Heydərov K.F. Respublikamızın iqtisadi təhlükəsizliyinin, suverenliyi-

nin, maraqlarının qorunmasında təxirəsalınmaz və şərəfli vəzifələrin öhdəsindən layiqincə gələcəyik. "Gömrük xəbərləri" qəz., Bakı, 1998, 29 yanvar, № 2 (54).

83. Heydərov K.F., Əzimov A.H. Gömrük hüququ. Bakı: Hərbi nəşriyyat, 2001, 200 s.
84. Həsənova A.İ. Azərbaycan Respublikasının büdcə gəlirlərinin formalaşmasında gömrük vergilərinin rolu // İqtisadiyyat və audit, 2005, № 6.
85. Həsənova A. İ. Beynəlxalq əlaqələrin inkişafında gömrük vergilərinin rolunun artırılması // Audit, 2006, № 5, s.36-39.
86. Həsənov E.H. Narkotizm: meyllər və aradan qaldırmaq tədbirləri: Azərbaycan Respublikasının materialları əsasında. "Antinarkotizm" beynəlxalq elmi-analitik Mərkəz. Bakı: Azərnəşr, 1999, 122 s.
87. Həsənov R. Azərbaycan iqtisadiyyatı inkişaf və islahatlar yolunda // Azərbaycan Elmlər Akademiyasının xəbərləri, iqtisadiyyat seriyası, 1998, № 2.
88. Həsənov R. Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin bu günü və gələcəyi / Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyinə həsr edilmiş elmi-praktik konfransın materialları. 14 yanvar 2001-ci il. Bakı: Azərbaycanda Atatürk Mərkəzi, 2002.
89. Hüseynov E.K. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər): Tarix elm. nam. ... dis. avtoref. Bakı, 2000, 25 s.
90. İran İslam Respublikasının Gömrük Təşkilatının rəisi Əbülhüseyn Bəhacinin Azərbaycana səfəri. "Azərbaycan" qəz., Bakı, 1996, 20 iyul.
91. Kadrların peşə hazırlığının artırılması diqqət mərkəzində saxlanılır // Gömrük xəbərləri, 1999, 30 yanvar, № 4 (105).
92. Qaçaqmalçılıq hallarının qarşısı qətiyyətlə alınır // "Gömrükçü", 2006, №12 (33).
93. Qanun dövlətə xidmət edir. "Gömrük xəbərləri" qəz., Bakı, 1997, 21 may, № 8(34).
94. Qaralov S. Büdcə siyasətinin tələbləri gömrük orqanları tərəfindən düzgün yerinə yetirilir. "Gömrük xəbərləri" qəz., Bakı, 2003, 29 avqust.
95. Qasımov S.V. Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz daşınması ilə bağlı cinayətlərin istintaqı. Hüquq elm. nam. ... diss.

avtoref. Bakı, 2003, 21 s.

96. Qayıdış. 1990-1993. Bakı: Azərnəşr, 1996, 720 s.
97. Quliyev R. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin həyata keçirilməsində gömrük xidmətinin rolu (1992-2002) // Pedaqoji Universitet Xəbərləri. Humanitar elmlər seriyası, 2010, № 3, s. 77-85.
98. Quliyev R. Azərbaycan-Türkiyə gömrük əməkdaşlığının inkişaf etdirilməsində Naxçıvan Muxtar Respublikasının rolu (1992-2006-cı illər) / Naxçıvan bu gün: islahatlar, perspektivləri. Beynəlxalq konfransın materialları. Naxçıvan: Nurlan, 2008.
99. Quliyev R.Heydər Əliyev və Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri // Dirçəliş XXI əsr, 2010, № 145-146,s. 132-142.
100. Quliyev R. Müstəqil Azərbaycan Respublikasında gömrük işinin təşkili / Azərbaycan gömrüyü: tarixi ənənələr və müasirlik. Bakı: Elm, 2007, 220 s.
101. Mehdiyev Ramiz. Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan – Ümummilli lider Heydər Əliyevin qadir siyasətidir // “Azərbaycan” qəzeti, 2013, 13 iyun.
102. Mehdiyev Ramiz. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Azərbaycan Milli Ensiklopediyası nəşriyyat. Bakı: 2001, 276 s.
103. Mehdiyev Ramiz. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Yanvar 2002 – dekabr 2006. 2 cildə. 2-ci cild (məqalələr, çıxışlar, müsahibələr). Bakı: “XXI əsr – Yeni Nəşrlər Evi”, 2006, 672 s.
104. Mehdiyev S. Azərbaycanın gömrük xidməti fəaliyyətini ölkənin inkişaf strategiyasına uyğun qurur. “Azərbaycan” qəz., 2012, 25 yanvar.
105. Məmmədov E. Naxçıvanda Türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin görüşü keçirildi. “Azərbaycan” qəz., Bakı, 2012, 6 oktyabr.
106. Məmmədov F. Qazanılmış uğurlar arxayınçılıq yaratmır. “Gömrük xəbərləri” qəz., Bakı, 1998, 29 yanvar, № 2 (54).
107. Məmmədova M.Ə. Aqrar sahədə xarici iqtisadi əlaqələrin tənzimlənməsi məsələləri // İqtisadiyyat və audit, № 7, 2005.
108. Məmmədov S. Qaçaqmalçılıq hallarının qarşısı qətiyyətlə alınır. “Gömrük xəbərləri” qəz., Bakı, 1998, №2 (54).
109. Məmmədov Z. S. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri: Dərs vəsaiti. Bakı: Kooperasiya nəşriyyatı, 2004, 201 s.
110. Muxtar Respublikada gömrük orqanlarının maddi-texniki bazası güc-

ləndirilir // Şərq qapısı, Naxçıvan, 2014, 22 fevral.
111. Muradov Ə.C. Azərbaycan və ÜTT. Xidmətlər. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. ÜTT-yə üzv olma nəşrləri seriyası. Bakı, 2006, 39 s.
112. Muradlı G. Azərbaycan Respublikası gömrük orqanlarının 2005-2009-cu illərdə narkotiklərə qarşı mübarizəsi. "Gömrük xəbərləri" qəz., Bakı, 2010, 9 fevral.
113. Müstəqil Azərbaycanın gömrük xidməti yüksələn xətlə inkişafdadır. "Gömrük xəbərləri" qəz., Bakı, 9 fevral, 2009-cu il.
114. "Naxçıvan Muxtar respublikasının Dövlət Gömrük Komitəsi haqqında əsasnamənin və Komitənin strukturunun təsdiq edilməsi barədə" Naxçıvan MR Ali Məclisi Sədrinin Fərmanı. "Şərq qapısı" qəz., Naxçıvan, 2012, 6 iyul, № 125 (20530).
115. Naxçıvan statistika güzgüsündə. Tarixi statistik məcmuə. Bakı: Səda, 1999, 36 s.
116. "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəz., Bakı, 1996, 27 avqust.
117. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə" haqqında Qanun. "Azərbaycan" qəz., Bakı, 1999, 15 avqust.
118. "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə proqramın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Azərbaycan" qəz., Bakı, 2000, 29 iyul.
119. Ötən il gömrük sərhədindən xeyli miqdarda valyutanın qanunsuz keçirilməsinin qarşısı alınıb // "Azərbaycan" qəz., Bakı, 2015, 10 yanvar.
120. Respublikada gömrük işi sahəsində ciddi qayda yaratmalı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yekun sözü. "Azərbaycan" qəz., 1995, 11 yanvar, №7 (1024).
121. "Respublika" qəz., Bakı, 2002, 18 oktyabr.
122. Saxta dərmanlara qarşı mübarizədə bütün dövlətlər səfərbər olmalı, səylər birləşdirilməlidir // Gömrükçü, 2007, № 2(35), 28-48.
123. Soçidə MDB Gömrük Xidməti Rəhbərləri Şurasının 60-cı iclası keçirilib // "Azərbaycan" qəz., Bakı, 2014, 6 dekabr.

124. "Şərq qapısı" qəz., Naxçıvan, 1992, 26 sentyabr.
125. Şirəliyev A. Qədim Naxçıvanın yeni inkişaf mərhələləri. "Azərbaycan" qəz.: Bakı, 2014, 25 may.
126. Şirinova S. Yeyinti məhsullarının istehsalı və xarici ticarəti: faktlar və perspektivləri // İqtisadiyyat və audit, 2008, № 12.
127. Tahirli R. Gömrük orqanları Muxtar Respublikanın iqtisadi inkişafında müstəsna rol oynayır //Gömrük xəbərləri, 2010, 27 fevral.
128. Tahirli R. Muxtar respublika gömrük orqanları ötən ilin yekunlarını müzakirə ediblər. "Gömrük xəbərləri" qəz., Bakı, 2010, 9 fevral.
129. Tanrıverdiyev S. Müasir şəraitdə Azərbaycanın MDB ölkələri ilə ticarət əlaqələrinin inkişaf istiqamətləri // İqtisadiyyat və audit, 2004, № 9, 29-32.
130. TRACEKA marşrutlarının rəqabətə davamlılığı və ticarətə köməyi mövzusunda toplantı keçirilmişdir. "Gömrük xəbərləri" qəz., Bakı, 2010, 5 iyun.
131. Vahabov M. Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olmaq ərəfəsindədir // Gömrükçü, 2006, №6 (10),s. 67-72.
132. Yeni tədris mərkəzinin açılışı. "Azərbaycan" qəz., Bakı, 1997, 29 noyabr
133. 1994-cü ilin birinci yarısının yekunlarına əsasən respublikanın sosial-iqtisadi vəziyyəti haqqında Azərbaycan Respublikası DSK-nın məlumatı // Azərbaycan qəz., Bakı: 1994, 5 avqust.
134. 2005-ci ildə ölkənin sosial-iqtisadi inkişafı //İqtisadiyyat və həyat, 2006, №2 (508), s.18-19.
135. 2006-cı ildə respublikanın xarici ticarətinin vəziyyəti // Gömrükçü, 2007, № 1(34).
136. 2009-cu il ərzində gömrük orqanları tərəfindən 3005 hüquqpozma faktı aşkar edilmişdir. "Gömrük xəbərləri" qəz., Bakı, 16 yanvar, 2010-cu il.

**Rus dilində:**

137. Велиев Н.Т. Внешнеэкономические связи и их роль в развитии экономики Азербайджана на современном этапе. Дис. ... канд. экон. наук. Баку: 1996, 176 с.
138. Гейдаров К. Ф., Гасанов Дж. Г. Таможенная служба Азербайджана

в условиях новых мирохозяйственных отношений. Баку: Азербайджанское Государственное Издательство, 1998, 200 с.

139. Гранберг А. Г. Межреспубликанские экономические связи // Вестник РАН, 1992, № 2.
140. Гулиев Р.А. Концептуальные основы таможенной политики Азербайджанской Республики в обеспечении экономической безопасности / Проблемы и перспективы социально-экономического реформирования современного государства и общества. Материалы X научно-практической конференции. Москва: Изд.: «Спецкнига» 2013, с. 9-13.
141. Гулиев Р. О роли таможенного сотрудничества стран СНГ и Центральной Азии в рамках экономической безопасности // Кавказ и мир (международный научный журнал). Тбилиси: 2010, № 9, с.43-47.
142. Гулиев Р.О таможенной политике России в Северном Азербайджане XIX- начало XX вв.) / Научный поиск в XXI веке: Материалы I международной научной конференции по евразийскому научному сотрудничеству. – М.: Глобальное партнерство по развитию научного сотрудничества, 2014. – с. 76-80.
143. Достижения Азербайджанской Республики в борьбе с международным терроризмом //Доклады Азербайджанской Республики за 2001-2002 годы об исполнении резолюции 1373 (2001) Совета Безопасности ООН. Баку, 2003, 120 с.
144. Магамедкиримов Я.Г. Совершенствование системы экономических отношений между Россией и Азербайджаном: Дис. ... канд. эконом. - наук. М.: 1998, 154 с.
145. Материалы первого Азербайджано-Российского экономического форума Азербайджано-Российские торгово-экономические отношения: тенденции и перспективы их развития. Азербайджано-Российская палата делового сотрудничества. Баку: Нурлан, 2004, 30 с.

**İngilis dilində:**

146. Guliyev R. Heydar Aliyev and establishment of the national customs servise in Azerbaijan Republic // Azerbaijan & Azerbaijans, 2008, vol.

98, No. 5-8.

147. Guliyev R. Orqanization of customs servise in the independent Repub-lik of Azerbaiyan / Customs servise of Azerbaiyan: historik traditions and modernity. Baku, 2007, 168 pp.

148. Guliev R.A. The fight of national customs service against the drug ad-diction within the framework of international cooperation (Azerbaijan Republic's experience) // European Applied Sciences, Stuttgart, Ger-many, 2013, №7 (1) - pp. 30-32.

**İnternet resursları:**

149. http//www.economy.gov.az. İqtisadi İnkişaf Nazirliyinin Azərbaycan Respublikasının 2006 və 2007-ci illər üzrə xarici ticarət dövriyyəsinə aid arayışı. Müraciət edilib: 02.02.2006.

150. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1155:iet-2013&catid=111:2013-xt&lang=az. Müraciət edilib: 03.05. 2014.

151. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1185:azxt2013&catid=111:2013-xt&lang=az. Müraciət edilib: 12.05.2014-cü il. Müraciət edilib: 03.05. 2014.

152. http://www.customs.gov.az/ Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası. Hesabat dövrü: 01.01.2014-31.12.2014. Müraciət edilib: 02.02.2015.

153. htpp: //www. Customs.gov/az/az./qaçaq.html. Müraciər edilib: 04.04. 2014.

154. http://www.xalqxeber.az/index.php/az/muesahib/113-ayd-n-aeliyev-azaerbaydzanda-zhoemruk-ishinin-taekmillaeshdirilmaesi-uchun-yeni-elektron-khidmaetlaer-taetbig-edilaedzaek. Müraciət edilib: 01.02.2013.

155. Artan dinamika ilə inkişaf edən Azərbaycan gömrüyü ölkəmizin ümumi tərəqqisinə xidmət edir . http: // www/econews.com. Müraciət edilib: 05.04.2014.

156. http://www.president.az/articles/660. Müraciət edilib: 03.04.2014-cü il.

157. http://www.customs.az/Azərbaycan Respublikası xarici ticarətinin sta-tistikası. Gömrük hüquqpozmalarına qarşı mübarizə haqqında məlu-mat, 01.01.2014-31.12.2014. Müraciət edilib: 02.02.2015.

158. http://www.azertag.com/node/1227054. Müraciət edilib: 15.05.2014.
159. http://customs.gov.az/az/90667261.html (Müraciət edilib: 12. 06 2013).
160. http://www.president.az/articles/570. Müraciət edilib: 04.05.2010-cu il.
161. http://www.xalqqazeti.com/az/news/economy/44118. Müraciət edilib: 09. 05. 2014-cü il.
162. Azərbaycanda gömrük işinin təkmilləşdirilməsi üçün yeni elektron xidmətlər tətbiq ediləcək // http:xalqxeber.az/index.php/az/muesa-hib/113-ayd-n-aeliyev-azaerbaydzanda-zhoemruk-ishinin-taekmillaeshdirilmaesi-uchun-yeni-elektron-khidmaetlaer-taetbig-edilaedzaek.Müraciət edilib: 01.02.2013.

## *AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK TARİXİNİN XRONOLOGİYASI*

***15 yanvar 1992-ci il:*** *"Keçmiş SSRİ Gömrük Komitəsinin Azərbaycan Gömrük İdarəsinin Azərbaycan Respublikasının tabeliyinə keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 60 saylı Qərarı*

***30 yanvar 1992-ci il:*** *"Azərbaycan Respublikası Gömrük Komitəsinin yaradılması haqqında" tarixli Azərbaycan Respublikası Prezidentinin 561 nömrəli Fərmanı*

***18 aprel 1992-ci il:*** *"Azərbaycan Respublikası Gömrük Komitəsinin təşkili və fəaliyyəti məsələləri haqqında" Azərbaycan Respublikası Prezidenti 688 nömrəli Fərmanı*

***1 iyun 1992-ci il:*** *Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Gömrük Komitəsinin məsələləri" barədə 301 nömrəli Qərarı*

***2 iyun 1992-ci il:*** *"Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa və sabotaja qarşı mübarizə tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 818 nömrəli Fərmanı*

***13 avqust 1992-ci il:*** *"Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 136 nömrəli Fərmanı*

***2 sentyabr 1992-ci il:*** *"Strateji əhəmiyyətli malların ixracının lisenziyalaşdırılması haqqında" Nazirlər Kabinetinin 515 nömrəli Qərarı*

***4 sentyabr 1992-ci il:*** *"Azərbaycan Respublikasında gömrük nəzarətinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezident 4 sentyabr 1992-ci il tarixli 167 nömrəli Fərmanı*

***10 sentyabr 1992-ci il:*** *"Azərbaycan Respublikasından ixracı məhdudlaşdırılan strateji əhəmiyyətli malların siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 118 nömrəli Sərəncamı*

***30 sentyabr 1992-ci il:*** *Azərbaycan Respublikası Milli Məclisinin "Bəzi məhsul növlərinin aksiz dərəcələrinin azaldılması və yeni aksizlər tətbiq edilməsi haqqında" 1992-ci il 10 iyun tarixli 165 nömrəli qərarında dəyişikliklər haqqında" 320 nömrəli Qərarı*

***28 oktyabr 1992-ci il:*** *"Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında" Milli Məclisin 359 nömrəli Qanunu*

***11 noyabr 1992-ci il:*** *"Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə olunması haqqında" Nazirlər Kabinetinin 604 saylı Qərarı*

***22 fevral 1993-cü il:*** *"1993-cü ildə Azərbaycan Respublikasından Rusiya Federasiyasına ən mühüm məhsul növlərinin göndərilməsi barədə" Nazirlər Kabinetinin 115 nömrəli Qərarı*

***11 mart 1993-cü il:*** *"Azərbaycan Respublikası ərazisində səlahiyyətli orqanlar tərəfindən tutulmuş qaçaq malla əlaqədar məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 23 oktyabr tarixli 278 nömrəli Fərmanına dəyişikliklər edilməsi haqqında 485 nömrəli Fərmanı*

***25 avqust 1993-cü il:*** *"1993-cü ildə Azərbaycan Respublikası və MDB-yə daxil olan dövlətlər, Baltikyanı və Gürcüstan respublikaları arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında dövlətlərarası sazişlərin yerinə yetirilməsinin təmin edilməsi ilə əlaqədar gömrük vergi və rüsumlarının tənzimlənməsi tədbirləri haqqında" Nazirlər Kabinetinin 459 nömrəli Qərarı*

***2 noyabr 1993-cü il:*** *"Azərbaycan Respublikası ilə İİR dövlət sərhədinin Biləsuvar buraxılış-keçid məntəqəsinin neytral zonasında müştərək bazar yaradılması haqqında" Nairlər Kabinetinin 552 nömrəli Qərarı*

***19 noyabr 1993-cü il:*** *Heydər Əliyevin bank-maliyyə, tədiyyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyətinə və onun yaxşılaşdırmaq sahəsində vəzifələrə həsr olunmuş Prezident sarayında keçirilən ümumrespublika müşavirəsində nitqi*

***6 dekabr 1993-cü il:*** *"Bəzi neft məhsullarının aksiz dərəcələrinin dəyişdirilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 761 nömrəli Qərarı*

***15 fevral 1994-cü il:*** *"Azərbaycan Respublikası xarici ticarətin müvəqqəti qaydaları haqqında" Nazirlər Kabinetinin 62 nömrəli Qərarı*

***2 iyun 1994-cü il:*** *Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında" 222 nömrəli Qərarı*

***9 yanvar 1995-ci il:*** *"Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

***17 yanvar 1995-ci il:*** *"K.F.Heydərovun Azərbaycan Respublikası DGK-nın sədri təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

***10 fevral 1995-ci il:*** *Azərbaycan Respublikası Alma-atada imzalanmış "MDB ölkələrinin gömrük qanunvericiliyinin əsasları haqqında" Sazişə qoşuldu*

***13 fevral 1995-ci il:*** *"Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış-keçid məntəqələrində Sərhədyanı bazarların yaradılması və fəaliyyəti Qaydaları haqqında" Nazirlər Kabinetinin 26 saylı Qərarı*

***10 mart 1995-ci il:*** *Azərbaycan Respublikası DGK ilə İİR Gömrük İdarəsi arasında Tehran şəhərində gömrük əməkdaşlığı üzrə "Niyyət Protokolu" imzalandı*

***6 aprel 1995-ci il:*** *"Azərbaycan Respublikası ərazisinə gətirilən Müstəqil Dövlətlər Birliyi üzvü olan dövlətlərin hüdudlarından kənarda istifadə edilmiş əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Nazirlər Kabinetinin 86 saylı Qərarı*

***24 aprel 1995-ci il:*** *"Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Nazirlər Kabinetinin 90 saylı Qərarı*

***1 may 1995-ci il:*** *Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Sərəncamı*

*7* ***may 1995-ci il:*** *Bakıda "Azərbaycan və Gürcüstan Respublikaları Hökumətləri arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizədə əməkdaşlıq haqqında" Saziş imzalanmışdır*

***20 iyun 1995-ci il:*** *Azərbaycan Respublikası Milli Məclisinin "Azərbaycan Respublikasının Gömrük tarifi haqqında" 1064 nömrəli Qanunu*

***9 oktyabr 1995-ci il:*** *Bakı şəhərində "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş" imzalanmışdır*

***16 sentyabr 1995-ci il:*** *Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası tərəfindən 1994-cü il 15 aprel tarixində Moskva şəhərində imzalanmış Müstəqil Dövlətlər Birliyi iştirakçıları olan dövlətlər arasında "Gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqında" Saziş və "Gömrük xidmətlərinin qanunsuz aparılan və gətirilən mədəni sərvətlərin tutulub saxlanılması və geri qaytarılması məsələləri üzrə əməkdaşlığı*

*haqqında" Saziş barəsində Sərəncamı*

***29 mart 1996-cı il:*** *Azərbaycan Respublikası DGK-nın nümayəndələri BƏƏ-də "Gömrük və onun beynəlxalq ticarətdə rolu" adlı I Dubay simpoziumunda iştirak etmişdir*

***13 may 1996-cı il:*** *Seraxsda (Türkmənistan) Azərbaycan, Gürcüstan, Özbəkistan və Türkmənistan arasında "Tranzit daşımaların tənzimlənməsi üzrə əməkdaşlıq edilməsi haqqında" Saziş imzalanmışdır*

***27 may 1996-cı il:*** *"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Saziş imzalanmışdır*

***18 iyul 1996-cı il:*** *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İranın Gömrük İdarəsinin rəisini qəbul etmişdir*

***6 avqust 1996-cı il:*** *"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 481 nömrəli Fərmanı*

***26 avqust 1996-cı il:*** *"Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

***8 oktyabr 1996-cı il:*** *"Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

***16 dekabr 1996-cı il:*** *"Azərbaycan gömrük xidmətlərinin topladığı vəsaitdən istifadə haqqında" Nazirlər Kabinetinin Sərəncamı*

***17 dekabr 1996-cı il:*** *"Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 520 nömrəli Fərmanı*

***10 yanvar 1997-ci il:*** *"Azərbaycan Respublikası gömrük əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 464 nömrəli Sərəncamı*

***28 yanvar 1997-ci il:*** *Bakıda Gömrük Tədris Mərkəzi açılmışdır*

***30 yanvar 1997-ci il:*** *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Dövlət Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramına həsr edilmiş təntənəli yığıncaqda nitqi*

***24 mart 1997-ci il:*** *Kiyev şəhərində "Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır*

**6 iyun 1997-ci il:** *"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

***10 iyun 1997-ci il:*** *"Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 311-IQ nömrəli Qanunu*

***10 iyun 1997-ci il:*** *Almatı şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalandı*

***24 iyun 1997-ci il:*** *"Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 609 nömrəli Fərmanı*

***26 iyun 1997-ci il:*** *"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

***7 iyul 1997-ci il:*** *Londonda "Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardım haqqında Memorandum" imzalanmışdır*

***11 iyul 1997-ci il:*** *"Azərbaycan Respublikası ərazisində radiasiya təhlükəsizliyinə nəzarəti gücləndirmək tədbirləri haqqında" 76 nömrəli Nazirlər Kabinetinin Qərarı*

***25 iyul 1997-ci il:*** *"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 616 nömrəli Fərmanı*

***1997-ci il:*** *Bakı Baş Gömrük İdarəsinin nəzdində "Sahil" gömrük postu açıldı*

***1997-ci il:*** *Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsi tərkibində struktur dəyişiklikləri baş verməklə Yol Vergiləri İdarəsi, Nəzarət-təftiş şöbəsi yaradıldı, Aksiz bölməsi şöbəyə çevrildi*

***2 dekabr 1997-ci il:*** *"Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardım haqqında razılaşma Memorandumu" barədə Azərbaycan Respublikası Prezidentinin 702 nömrəli Sərəncamı*

***25 dekabr 1997-ci il:*** *"Azərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fondu haqqında əsasnamə və fondun vəsaitinin xərclənməsi qaydaları" Nazirlər Kabinetinin 140 nömrəli Qərarı*

***12 yanvar 1998-ci il:*** *"Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları" haqqında Nazirlər Kabinetinin 7 saylı Qərarı*

***22 aprel 1998-ci il:*** *"Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Nazirlər Kabinetinin 91 saylı Qərarı*

***1 may 1998-ci il:*** *"Gömrük brokeri haqqında Əsasnamənin və Azərbaycan Respublikasında gömrük brokeri fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 101 nömrəli Qərarı*

***10 may 1998-ci il:*** *Milli gömrük xidməti əməkdaşlarının ilk dəfə olaraq and içmə mərasimi keçirilmişdir*

***21 may 1998-ci il:*** *"Moldova Respublikası, Ukrayna, Belorus Respublikası və Rusiya Federasiyasının gömrük xidmətləri arasında Moskva şəhərində imzalanmış meyvə-tərəvəz məhsullarının gömrük rəsmiləşdirilməsi zamanı güzəştlərin təqdim edilməsi haqqında Saziş" imzalanmışdır*

***27 oktyabr 1998-ci il:*** *"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 nömrəli Fərmanı*

***1998-ci il****:Bakı Dəniz Limanında "Dübəndi", Xaçmaz gömrükxanasının fəaliyyət zonasında "Şirvanovka", Beynəlxalq Yük limanında "Liman" gömrük postlarının yaradılması*

***18 iyun 1999-cu il:*** *Azərbaycan Respublikası Milli Məclisinin "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Qanunu*

***1999-cu il:*** *Azərbaycan Respublikası DGK DGT-nin Maliyyə Komissiyasına üzv qəbul edilmişdir*

***27 oktyabr 1999-cu il:*** *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İİR Baş Gömrük İdarəsi arasında qarşılıqlı əməkdaşlıq haqqında Memorandum imzalanmışdır*

***7 dekabr 1999-cu il:*** *Azərbaycan Respublikasının 768-IQ nömrəli Qanunu ilə "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamə təsdiq edilmişdir*

***30 dekabr 1999-cu il:*** *"Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Qanunun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

***30 dekabr 1999-cu il:*** *"Azərbaycan Respublikasının gömrük orqanlarının ali rəis heyəti üçün nəzərdə tutulan vəzifələr və bu vəzifələrə uyğun xüsusi rütbələrin siyahısı" barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

